ABBAS SƏMƏDOV



# ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA TƏHSİLƏ VƏ TƏHSİL XADİMLƏRİNƏ QAYĞISI

GƏNCƏ – 2010

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

ABBAS SƏMƏDOV


# ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA TƏHSİLƏ VƏ TƏHSİL XADİMLƏRİNƏ QAYĞISI


M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



GƏNCƏ – 2010

Redaktor: **S.C.Şükürov**: filologiya elmləri doktoru, professor

Rəyçilər: **Q.M.Namazov**: filologiya elmləri doktoru, professor
**X.H.Yusifli**: filologiya elmləri doktoru, professor
**S.P.Pirsultanlı**: filologiya elmləri doktoru, professor

**Abbas Səmədov Abbas oğlu,**
filologiya və pedaqoji elmləri doktoru, professor.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Dərs vəsaiti. Gəncə, 2010.

«Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı» adlı dərs vəsaiti ulu öndərimiz Heydər Əliyevin və Prezidentimiz İlham Əliyevin təhsilin inkişafına və təhsil xadimlərinə göstərdikləri müqəddəs qayğıya həsr edilmişdir.

Səkkiz bölmədən ibarət dərs vəsaiti tarixilik, elmilik, müqayisəlilik, pedaqoji və metodik prinsiplər əsasında təhlil edilmiş, dərs vəsaitindəki materiallar ümumiləşdirilmiş və yekunlaşdırılmışdır. Dərs vəsaitində Azərbaycanda təhsilin daha da təkmilləşdirilməsi və parlaq zirvələrə yüksəldilməsi haqqında müqəddəs vəzifələrin ətraflı izahı verilmiş, Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsinə yaradılmış parlaq şərait geniş şərhini tapmışdır.

Dərs vəsaitində müstəqillik dövrümüzdə məktəbə, təhsilə qayğı, kömək elmi-nəzəri və pedaqoji-metodik meyarlar əsasında şərh edilmiş və yekunlaşdırılmışdır.

Dərs vəsaiti haqqında arzu və tənqidi münasibətlərini bildirən, xeyirxah köməklərini əsirgəməyən mütəxəssislərə, ziyalılara və oxuculara öncə dərin minnətdarlığımızı bildirir, onlara uzun ömür və cansağlığı arzulayırıq.

El 03 $\frac{000012}{0012.30.07.10}$

*Təhsil millətin gələcəyidir*
***Heydər Əliyev***

## ÖN SÖZ

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsilə və təhsil xadimlərinə böyük qayğı bəsləmiş, həmişə təhsil sistemi sahələrinin inkişafına və təhsil xadimlərinin səmərəli fəaliyyət göstərməsinə xüsusi diqqət yetirmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox istiqamətlərdə olduğu kimi təhsil, elm və mədəniyyət sahəsində də parlaq uğurlar qazanılmış, Vətənə və xalqa şərəfli xidmət göstərilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə Azərbaycan təhsilinin inkişafı, gənclərin Azərbaycan Respublikasından kənardakı ölkələrdə təhsil alması, məktəblərin yenidən tikilməsi, yeni ali məktəblərin, ixtisasların, kafedraların açılması, Respublikamızda kadrların artırılması və gücləndirilməsi sahəsində çox əhəmiyyətli tədbirlər qarşıya qoyulmuş və ləyaqətlə həyata keçirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin bünövrəsini qoyduğu bu islahatları onun mütəşəkkil və bacarıqlı davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir, təhsil, elm və mədəniyyət sahəsində yüksək nailiyyətlərə sahib olub, ümumxalq məhəbbəti qazanır.

Respublikanın Prezidenti İlham Əliyev Azərbaycanda milli təhsilin inkişafına dair dünya mahiyyətli, iri miqyaslı layihələr həyata keçirir, xarici və daxili siyasətinin nəticəsində cəmiyyətin bütün sahələrində islahatlar aparır, təhsilimizi yeniləşdirmək, dünya təhsil məkanına inteqrasiya etmək üçün proqramların həllinə uğurlu istiqamət verir. Bu çətin və məsuliyyətli işin şərəfli həyata keçirilməsində Təhsil Naziri professor Misir Mərdanov çox əhəmiyyətli fəaliyyət göstərir, təhsil islahatına aid bütün proqram, sərəncam və fərmanları layiqli icra edir, parlaq uğurlar qazanır.

Azərbaycan Demokratik Respublikası dövründə xalq maarifinin vəzifələri haqqında səmərəli tədbirlər həyata keçirilmiş, xalq maarifinin, yəni məktəbin, təhsilin, təlim-tərbiyənin milli

tələblərə uyğun təşkili və inkişaf etdirilməsi sahəsində nailiyyətlər qazanılmışdır.

Qafqazın Rusiya tərəfindən işğalı nəticəsində Azərbaycanın Şimalı Yaxın və Orta Şərq mədəni və mənəvi-əxlaqi dəyərlər sistemindən yüz yetmiş ildən çox aralı düşmüşdür. Çarizm öz müstəmləkəçilik siyasətini həyata keçirmək və imperiyanın maraqlarına uyğun olaraq ruslaşdırma siyasətini inkişaf etdirmək üçün maarifçilik sahəsinə fikir verməyə, məktəblərin açılmasına, müəllim kadrların yetişdirilməsinə xüsusi fikir verməyə, tədbirlər görməyə başlamışdır.

1918- ci ilin dekabr ayının 13- dən 28- dək Azərbaycan Demokratik Respublikası dövründə müəllimlərin I qurultayı keçirildir. Azərbaycan müəllimlərinin I və II qurultayları Bakıda 1906 və 1907-ci illərdə keçirilmişdi: Bu dövrdə elmi-pedaqoji, təlim-tərbiyəvi, milli və nəzəri baxımdan əhəmiyyətli tədbirlər görülmüşdür.

Azərbaycan Demokratik Respublikası yeni maarif sistemi qurmaqda, məktəblər açmaqda, müəllim kadrları yetişdirməkdə səmərəli tədbirlər həyata keçirmiş, maarifçiliyin inkişafına əsaslı təkan vermişdir.

Bu dövrdə Bakı Dövlət Universitetində, Qazax müəllimlər seminariyasında və Gədəbəy meşəçilik texnikumunda hərbi təhsilə diqqət verilir, qayğı gösdərilir, gənc nəsilə hərbi təhsilin öyrədilməsi diqqət mərkəzində dururdu. Qafqaz İslam ordusu zabitlərinin Azərbaycan maarifinin təşkili və inkişafına qayğısı səmərəli olmuş, xüsusilə Qazax müəllimlər seminariyasında zabitlər səmərəli fəaliyyət göstərmiş, hərbi təhsili inkişaf etdirməyin əhəmiyyətini vurğulamış, tələbələrə hərbi təhsilin əhəmiyyətini öyrətmişlər.

Ümummilli liderimiz Heydər Əliyev «Azərbaycan xalq cumhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında» 30 yanvar 1998 - ci ildə imzaladığı sərəncamda deyilir: «Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cumhuriyyətinin iyirmi üç aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir.



1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır».

Ulu öndər Heydər Əliyevin müdrikliyi sayəsində elm, təhsil, ədəbiyyat və mədəniyyətimiz inkişaf etmiş, parlaq uğurlar qazanmışdır. Azərbaycan təhsil sisteminin milliliyini qoruyub saxlamışdır. Təhsil sahəsində milli ruh Heydər Əliyevin milli siyasət kursunun gücünə reallaşmışdır. Tədris sistemində millilik tədris dilinin ana dili olmasıdır. Təhsildə fundamental və humanitar elmlərin öyrənilməsinə xüsusi diqqət yetirilir. Xalq öz tarixini öyrənməli, milli mədəniyyətindən və elmindən ayrılmamalı, onu mükəmməl dərk etməlidir. Buna görə də Ulu öndər Heydər Əliyevin müdrik kəlamında deyilir: «Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir». Ulu öndərimiz Heydər Əliyev demişdir: «Dili yaşatmaq xalqı yaşatmaqdır».

Dünya birliyində öz layiqli yerini tutan müstəqil Azərbaycan Respublikasının ardıcıl, dönməz, müdrik daxili və xarici siyasəti onun beynəlxalq nüfuzunu artırmış, ona parlaq uğurlar qazandırmışdır.

Ulu öndər Heydər Əliyev 12 fevral 1995-ci ildə demişdir: «Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir».

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan milli müstəqil dövlətdir, müstəqil Azərbaycan Respublikasıdır. Azərbaycanda xalq inkişaf edib, savadsızlıq tamamilə ləğv olunubdur. Ali təhsil ocaqları, elmi müəssisələr, böyük sənaye və iqtisadi potensial yaranıbdır. Azərbaycan ədəbiyyatı və mədəniyyəti inkişaf edibdir.

Ümummilli liderimiz Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycana rəhbər gəlməsi Azərbaycan tarixinin şanlı dönüş nöqtələrindən biridir. Ona görə ki, Heydər Əliyev Azərbaycanın sosial – iqtisadi və mədəni inkişaf konsepsiyasının həyata keçirilməsində şərəfli fəaliyyət göstərmiş, Vətənə və xalqa səmərəli xidmət etmiş, ümumxalq məhəbbəti qazanmışdır.

Azərbaycan xalqının milli-azadlıq hərəkatının qüdrətli və əzəmətli olmasının əsası Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi olmuşdur. Dahi şəxsiyyət Heydər Əliyevin elmə, mədəniyyətə, təhsilə, təhsil xadimlərinə qayğısı çox böyük olmuşdur.

Türkiyə Cumruhiyyətinin banisi Mustafa Kamal Atatürkün məşhur kəlamını Heydər Əliyevin şərəfli fəaliyyətinə şamil etmək çox gözəldir: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır». Dahi Heydər Əliyev xoşbəxt insandır ki, xalqına şərəfli xidmət etmişdir. Ona görə ki, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü onun əməyinin nəticəsidir.

Heydər Əliyev milli tərbiyə və təhsilin nəzəriyyəçisi, həm də milli təhsil quruculuğunun banisidir. «Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı» adlı kitab səkkiz bölmədən ibarətdir. Bütün bölmələrdə Heydər Əliyevin təhsilə və təhsil xadimlərinə qayğısı elmi-nəzəri və pedaqoji-metodik meyarlarla bağlı ətraflı təhlil edilib ümumiləşdirilir. Dərs vəsaitindəki materiallar tarixilik, elmilik, müqayisəlilik, ardıcıllıq, ideyalılıq, müasirlik və pedaqoji prinsiplər əsasında ətraflı şərhini tapır, həm də yekunlaşdırılıb tövsiyələrlə tamamlanır.



# I BÖLMƏ

## AZƏRBAYCAN TƏHSİLİNİN TARİXİNƏ DAİR XÜLASƏ

Azərbaycan təhsilinin çox qədim, mürəkkəb və bir sıra çətinliklərlə əlaqədar tarixi vardır. Təhsilin inkişafı Azərbaycan Respublikasının müstəqilliyi dövründə daha səmərəli olmuşdur. Azərbaycanda milli dövlətçilik, sosial-iqtisadi və mədəni quruculuq sahəsində islahatlar başlanılmış və islahatların aparılmasında milli təhsil sahəsində səmərəli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan təhsili milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında xalqımızın tarixinə, milli ənənələrinə müvafiq şəkildə inkişaf etdirilmişdir. Azərbaycan Dövlət Təhsil siyasətinin əsas məqsədi milli təhsilimizin inkişafına imkan və şərait yaratmaqdan ibarət olmuşdur.

Azərbaycanda dünyəvi dövlət quruculuğunun əsas problemlərindən biri milli təhsilimizi, təhsil sistemini inkişaf etdirməkdən ibarətdir. Ölkəmizdə milli təhsil sahəsində islahatların aparılması Konstitusiyamızın başlıca prinsipləri əsasında hazırlanmışdır. Bu əsas meyar Dövlət Təhsil Proqramının hazırlanmasına təkan vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin milli təhsil quruculuğuna olan diqqət və qayğısı nəticəsində təhsilimiz qabaqcıl ölkələrin təhsil quruculuğundan, milli zəmindən və regional xüsusiyyətlərdən bəhrələnmiş, iqtisadi-sosial bazamız əsasında inkişaf etməyə başlamışdır.

Ümummilli liderimiz Heydər Əliyev «Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında» sərəncam vermiş, milli təhsil quruculuğuna dövlət qayğısını göstərmiş, təhsil islahatına real hüquqi baza yaratmışdır. Təhsil islahatının beynəlxalq təcrübəyə əsaslanan Proqramı təhsilin inkişafında büdcə vəsaitlərinin artırılmasına və əlavə gəlir gətirən mənbələrdən istifadəyə geniş yer vermişdir.

Azərbaycanda təhsil və tərbiyənin məzmununu milliləşdirmək, məktəbin elm, bilik verməklə yanaşı, həm də vətənpərvərlik tərbiyəsi aşılaması zəruridir.

Azərbaycanda milli təhsil sisteminin son məqsədi dərin biliyə, mədəniyyətə malik, milli müstəqillik ideyalarına sədaqətli,

vətənini, xalqını sevən həqiqi Azərbaycan vətənpərvərləri yetişdirməkdən ibarətdir.

Buna görə də təhsilin və tərbiyənin məzmunca milli və ümumbəşəri dəyər əsasında yeniləşdirilməsi, yeni məzmunlu proqram, dərslik və dərs vəsaiti yaradılması lazımdır. Bu müqəddəs vəzifə milli dilimizin, ədəbiyyatımızın, tariximizin, mədəniyyətimizin səmərəli öyrənilməsini əsas problem kimi qarşıya qoyur.

Azərbaycanda bütün təhsil pillələrində, xüsusən ümumtəhsil məktəblərində təhsilin minimum dövlət standartları müəyyənləşdirilməlidir. Orta məktəbi bitirən gənclər xalqımızın dilini, ədəbiyyatını, tarixini, coğrafiyasını, pedaqoji fikir tarixini bilməli, xarici dilləri öyrənməlidir. Orta məktəbdə bədən tərbiyəsinə, ibtidai hərbi hazırlıq fənninin tədrisinə səmərəli çalışmaq, uğurlar qazanmaq lazımdır.

Ali və orta məktəblərdə milli ənənələrlə beynəlxalq təcrübəni əlaqələndirmək və vəhdətdə öyrətmək mütləq lazımdır. İnkişaf etmiş ölkələrin təhsili, idarə mexanizmləri diqqətlə öyrənilməli, Azərbaycan şəraitində onlardan səmərəli istifadə edilməli, oxuculara çatdırılmalıdır.

Təhsil islahatları sahəsində dünya təcrübəsi və onun Azərbaycan Respublikası üçün əhəmiyyəti gənc nəsilə şüurlu mənimsədilməli, Azərbaycanda beynəlxalq standartlara uyğun milli və ümumbəşəri dəyərlərə cavab verən təhsil sisteminin formalaşması öyrədilməlidir. Bu şərəfli vəzifədə pedaqoji kollektiv, müəllimlər bütün imkanlardan səmərəli istifadə etməli, elmin əsaslarını gənc nəsilə öyrətməlidir.

Gənc nəsilə milli tarixi, ədəbiyyatı, mədəniyyəti, milli şüurun problemlərini öyrətmək, milli qeyrət və milli təəssübkeşliyi dərk etdirmək müəllimin vətəndaşlıq borcudur.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə (1969-1982; 1993-1998) Azərbaycanda təhsilə və təhsil xadimlərinə çox böyük qayğı göstərmişdir. Azərbaycan xalqına sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, məntiqli nitqi, təhsilə və təhsil xadimlərinə qayğısı Heydər Əliyevə ümumxalq məhəbbəti qazandırmış, onu parlaq zirvələrə yüksəltmişdir.

Azərbaycan ədəbiyyatının vurğunu və qayğıkeş hamısı Heydər Əliyev «Müstəqillik yolunda» kitabında yazmışdır: «Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus



qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən nəzəri fikirlərini təbliğ edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar, alimlərin sırasında xüsusi yer tutur». Müəllim adını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev təhsil sahəsində müəllimin əməyini əla dəyərləndirir.

Bütün şüurlu həyatını xalqın xidmətinə həsr edən ulu öndər xalq arasında «Xalq – Heydər, Heydər - xalq!» şüarı ilə sevilmiş, təhsilə və təhsil xadimlərinə xüsusi qayğı bəsləmişdir.

1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbay-can Milli Şurası İstiqlal Bəyannaməsi ilə Azərbaycanın Şimal torpaqlarında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını elan etdi. Bu tarixi sənəddə Şərqi və Cənubi Zaqafqaziyanın Azərbaycan torpaqları olduğu, Azərbay-can Xalq Cümhuriyyətinin qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratması təsdiq olunmuşdur.

M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şura bütün çətinliklərə qalib gəldi. Bu milli ictimai- siyasi fikir tariximizdə ilk demoratik dövlət qurumu oldu, milli azadlıq mübarizəsinin ən parlaq zirvələrindən birini təşkil etdi.

Gənc Azərbaycan Respublikası qısa müddətdə dünya miqyasında tanındı, görkəmli xadimlərin fəaliyyəti səmərəli nəticə verdi. Dahi Üzeyir Hacıbəyov yazırdı ki, Azərbaycan Respublikası o zaman bütün Şərqdə və Avropada ən demokratik parlament modelinə malik idi. Sağlam bir milliyyət fikiri və türklük şüuru üzərində qurulmuşdu.

Milli Azərbaycan ideyası inkişaf etməyə başladı. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolu yetmiş bir ildən sonra Azərbaycanda ikinci bir müstəqil siyasi dövlət qurumunun yaranması üçün əsas zəmin oldu.

Azərbaycan xalqının parlaq müstəqilliyini torpaqlarımıza ermənilərin təcavüzü, azərbaycanlıların vətənindən deportasiyası, Yanvar faciəsi, Azərbaycanda vətəndaş müharibəsinə göstərilən cəhdlər sarsıda bilmədi, xalqımız qələbə çaldı.

Ümummilli liderimiz Heydər Əliyev «Azərbaycanlıların soyqırımı haqqında» tarixi fərmanı imzaladı. Məkrli ermənilər və erməni daşnakları ifşa olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə xalqımızın qarşısında milli mədəniyyətimizin inkişaf üçün geniş imkanlar

yarandı. 1918-ci ilin 28 mayında yaranan Milli Şüura təhsil sisteminin inkişafına təkan verdi və geniş şərait yaratdı.

Görkəmli dövlət xadimi Mirzə Bala Məmmədzadə yazırdı ki, ibtidai və orta məktəblər üçün dərsliklər və dərs vəsaitləri tərtib edilib nəşr olunsun, məktəblər azərbaycanlaşdırılsın və dərsliklərlə təmin edilsin. Azərbaycan dilində müəllimə olan böyük ehtiyac ödənilsin. Türkiyədən əlliyə qədər dəvət olunmuş müəllimlər yerləşdirilsinlər. Kişi və qadınlar üçün açılmış məktəblərdə geniş şərait yaradılsın. Avropaya oxumağa yüz nəfərdən çox göndərilən tələbə maarifin inkişafına əsaslı köməkdir.

Bu dövrdə qarşıda duran əsas problem məktəblərdə milli ədəbiyyat, tarix, coğrafiyanın tədrisi, milli mədəniyyətin öyrənilməsi və məktəblərdə öyrədilməsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin Bakıda Dövlət Universiteti təşkil etməsi maarif-mədəniyyət sahəsində ən şərəfli tədbir olmuşdur. Xalq Maarif Komissarı Fətəli Xan Xoyski Bakı Universitetinin açılmasında şərəfli fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq təhsilinin inkişafı sahəsində M.Ə.Rəsulzadə şərəfli fəaliyyət göstərmiş, məktəblərin açılmasında, müəllimlərlə və dərsliklərlə təmin edilməsində səmərəli çalışmış, xalqın arzusunu yerinə yetirmişdir. Bu məsələ M.Ə.Rəsulzadənin 1990 - cı ildə çap olunmuş «Azərbaycan Cümhuriyyəti» kitabında ətraflı elmi – nəzəri şərhini tapmışdır.

1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin iyirmi üç dövlət orta məktəbi var idi. Bu məktəblərdə oxuyan tələbələrin üç min yüz on beş nəfəri (3115 nəfər) azərbaycanlı idi. Respublikada on beş peşə məktəbi, səkkiz şəhərdə qadın və kişi qısa kursları məktəbi var idi.

Azərbaycan şairləri bu dövrdə azadlıq ideyasını tərənnüm edirdilər. Məhəmməd Hadi poeziyasında «Xalqın savadlanmasını, məktəblərin açılmasını, gənc nəslin təlim-tərbiyəsinin səmərəli qurulmasını» iftixarla tərənnüm edirdi.

M.Ə.Rəsulzadə əsərlərində «Türkləşmək, islam-laşmaq və müasirləşmək» prinsiplərini irəli sürür, milli məfkurənin formalaşmasına kömək edir, «İqbal», «Dirilik», «Açıq söz», «İstiqlal» və «Azərbaycan» kimi mətbuat orqanlarında məqalə və çıxışlarını dərc etdirir, oxuculara hədiyyə verirdi.

Azərbaycan təhsil sahəsinin səmərəli inkişaf etdirilməsində böyük bəstəkarımız Üzeyir Hacıbəyov redaktoru olduğu «Tərəqqi»,



«Həqiqət», «Yeni iqbal» qəzetlərində və 1919-cu ildən 1920-ci ilə kimi redaktor olduğu Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan «Azərbaycan» qəzetində çox şərəfli fəaliyyət göstərmiş, maarif və mədəniyyətin, xalq təhsilinin, məktəblərin inkişafında, dərsliklərin, dərs vəsaitlərinin yaradılmasında, müəllim kadrların hazırlanmasında əməyini qətiyyən əsirgəməmiş, həmişə maddi və mənəvi baxımdan kömək etmiş, həm də yazıb yaratmışdır.

Azərbaycan təhsilinin, maarif və milli mədəniyyətinin inkişafında, ədəbi-mədəni tədbirlərin həyata keçirilməsində görkəmli maarif, mədəniyyət, elm və təhsil xadimlərinin şərəfli xidməti misilsiz olmuş və gözəl nəticələr vermişdir.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il 28 mayda yaradılmış, 23 aylıq fəaliyyətində səmərəli tədbirlər həyata keçirmişdir. Ümummilli liderimiz Heydər Əliyev 30 yanvar 1998-ci ildə «Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında» sərəncam vermişdir.

Sərəncamda deyilir: «Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir».

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi, Azərbaycan sovet hakimiyyəti quruldu. 1929-cu ilin dekabrında sovet ittifaqı yarandı və Azərbaycan bu ittifaqa daxil oldu. Ancaq Cümhuriyyətin respublika quruluşu yaşamış, müstəqillik hissləri Azərbaycan xalqının qəlbini heç vaxt tərk etməmişdir.

Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin zəngin ənənələrindən istifadə etmiş, 1991-ci ildə bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə yaradılan müstəqil Azərbaycan Respublikası inkişaf etmiş, dünya miqyasında parlaq zirvəyə yüksəlmişdir. Bu dövrdə təhsil sistemi sahəsində yüksək uğurlar qazanılmış, orta və ali məktəblərdə elmlərin öyrənilməsinə, milli ədəbiyyatın, incəsənətin, mədəniyyətin, Azərbaycan dilinin tədrisi səviyyəsinin yüksəldilməsinə xüsusi qayğı göstərilmişdir.

1804 - cü ildə Yelizavetpol adlandırılan Gəncə 1918-ci il iyulun 30- da yüz on dörd ildən sonra Azərbaycan Demokratik Cümhuriyyətinin qərarı ilə yenidən Gəncə adlandırıldı. Gəncə şəhəri Azərbaycan Demokratik Respublikasının paytaxtına çevrildi.

Ancaq Gəncə Azərbaycan Demokratik Respublikasının doxsan iki gün paytaxtı oldu.

Bundan sonra paytaxt Bakı şəhərinə köçürüldü. Tarixi həqiqətdir ki, 1918-ci il mayın 28- də elan edilən Azərbaycan Demokratik Xalq Cümhuriyyəti Tiflisdə on səkkiz gün fəaliyyət göstərmişdir. Bundan sonra 1918- ci il iyunun 16-da Azərbaycan Demokratik Respublikasının paytaxtı Gəncəyə köçürülmüş, Gəncə Azərbaycan hökumətinin paytaxtı olmuşdur.

Gəncədə 1918- ci ildə Xalq Təhsili Nazirliyi yaradılmış, təhsil sistemi sahəsində əsaslı tədbirlər həyata keçirilməyə başlanmışdır. 1918- ci il sentyabrın 17- də Azərbaycan hökuməti Bakıya köçmüşdür.

Bakıda təhsil sahəsində ciddi axtarışlara başlandı, görkəmli təhsil xadimləri gənc nəslin təlim-tərbiyəsi ilə ətraflı məşğul olmağı əsas problem kimi qarşıya qoydular.

Təhsil sisteminin qarşısında xalqın milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə mükəmməl yiyələnən, onu qoruyub inkişaf etdirən, Vətənini və xalqını sevən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə sahib olan müəllimlərin yetişdirilməsi vəzifəsi dururdu. Bu şərəfli vəzifəni həyata keçirmək təhsil sistemi sahəsində yeganə problem olmuşdur.

Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiya olunması sahəsində əzmlə, şərəflə çalışmaq müəllimin səmərəli vətəndaşlıq borcudur. Gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olan müəllim həmişə ümumxalq məhəbbəti qazanır. Ona görə ki, təhsil islahatının uğurlu keçməsində qabaqcıl müəllimlərin, təhsil xadimlərinin mütəşəkkil fəaliyyət göstərməsi çox gözəl nəticə verir, təhsil sistemi sahəsinin uğurlar qazanmasına əsas dayaq olur.

Ümummilli liderimiz Heydər Əliyev və onun yaradıcı davamçısı Prezident İlham Əliyev Azərbaycanda təhsilə və təhsil işçilərinə, xadimlərinə, mütəfəkkirlərinə diqqət və qayğı bəsləmiş, onların xidmətlərini yüksək dəyərləndirmiş, bu haqda rəsmi fərmanlar və sərəncamlar imzalamışlar.

Cəmiyyətin inkişafını göstərən təhsil sahəsi çox zəngindir, həm də mürəkkəb tarixə malikdir. İndiki müstəqilliyimiz dövründə təhsilin tarixini mükəmməl öyrənməliyik.

Ona görə ki, bütün dünya və bəşəriyyət müasir dövrdə təhsilə xüsusi hörmət bəsləyir, təhsilə borclu olduğunu hörmətlə xatırlayır və tədqiqat əsərlərində şərh etməyi mənəvi borc bilir.



Məlum həqiqətdir ki, təlim üsulu beşikdən başlamış, inkişaf etmiş, zənginləşmiş və bütün dövrlərdə təhsilə, təhsil xadimlərinə xüsusi qayğı göstərilmişdir.

Təhsilin inkişaf yolu cəmiyyətin iqtisadi, ictimai-siyasi vəziyyəti ilə vəhdətdə davam etmiş, bütün çətin vəziyyətli dövrlərdə xüsusi diqqət və qayğı nəticəsində təhsil xalqa xidmət etmişdir.

Tarixi mənbələrdən məlumdur ki, millətin, xalqın təhsilə qoyduğu vəsait əbədi qalmış, mənasız, məzmunsuz olmamış, itməmişdir.

Azərbaycanın dünya mövqeyindən aydın olur ki, ədəbiyyat, mədəniyyət, incəsənət, elm və digər sahələrdəki inkişafı təhsilin məhsuludur, təhsilin nəticəsi və uğurudur.

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatı və mədəniyyəti xəzinəsinə dahi sənətkarlar, qəhrəmanlıq və məhəbbət dastanları vermişdir. Azərbaycan şifahi xalq yaradıcılığının böyük bir hissəsini qəhrəmanlıq dastanları təşkil edir.

Azərbaycan ədəbiyyatında «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm» qəhrəmanlıq, «Şah İsmayıl», «Abbas və Gülzər», «Əsli və Kərəm», «Aşıq Qərib» məhəbbət dastanlarıdır. «Alı xan və Pəri xanım», «Səlim şah» ailə-tərbiyə mövzusunda yaradılan dastanlardır.

Azərbaycan dastanlarında təhsilin inkişafı, təhsilə diqqət və qayğı haqqında maraqlı və layiqli məlumatlar vardır. Buradan aydın olur ki, Azərbaycanda təhsilə və təhsil xadimlərinə, müəllimlərə, müdərrislərə, pedaqoqlara, tərbiyəçilərə həmişə diqqət, həssaslıq və qayğı olmuşdur.

Qədim və zəngin Azərbaycan ədəbiyyatının Məshəti Gəncəvi (XII əsr), Xaqani Şirvani (1126-1199), Nizami gəncəvi (1141-1209), İmadəddin Nəsimi (1369-1417), Şah İsmayıl Xətai (1487-1524), Məhəmməd Füzuli (1494-1556), Abbasqulu ağa Bakıxanov Qudsi (1794-1846), Mirzə Şəfi Vazeh (1792-1852), Mirzə Fətəli Axundov (1812-1878), Seyid Əzim Şirvani (1835-1888), Hüseyn Cavid (1882-1941), Məmməd Səid Ordubadi (1872-1950), Süleyman Rüstəm (1906-1975), Səməd Vurğun (1906-1956), Mir Cəlal (1908-1978), Mehdi Hüseyn (1909-1965) kimi dahi sənətkarları təhsil haqqında müdrik kəlamlarını bildirmiş, elmə, təhsilə, təhsil xadimlərinə həssaslıq, diqqət və qayğı göstərmiş, zəngin ədəbi irslərində təhsil haqqında ətraflı bəhs etmişlər.

Göstərilən mütəffəkkirlərin irsinin öyrənilməsi, tədris olunması haqqında maraqlı məlumatlar onların öz əsərlərində məlum olur.

Dahi Nizami Gəncəvi «İsgəndərnamə» əsərində dinə zidd olan həyat sevgisinə və elm təbliğinə geniş yer verir. Ümumiyyətlə, Nizami Gəncəvi dini ehkamları tənqid və rədd edir, həyatın gözəlliyini, yer üzündəki səadəti tərənnüm edir. Ədib həyatı, dünyanı öyrənmək üçün elmə və fəlsəfəyə əsaslanmağı zəruri sayır.

Nizaminin qəhrəmanı İsgəndər bütün fikrini elmə, fəlsəfəyə verir, alimləri, filosofları ətrafına toplayır, dünyanı öyrənmək məqsədi ilə kitablar yığır, tərcümələr edir və deyir ki:

Alimdir gözümdə ən əziz olan!
Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük, eyləyə bilməz!
Hər uca rütbədən biliniz fəqət,
Alimin rütbəsi ucadır əlbət!

Nizami Gəncəvi göstərmişdir ki, xoşbəxt və azad həyatı yalnız xalq özü, öz qüvvəsi ilə yaradacaqdır. İsgəndər ömründə görmədiyi «Cənnət kimi gözəl şəhər» gördükdə sevinir və qocalar ona deyirlər:

Əyri dolanmaqda yoxdur işimiz,
Düzlükdən başqa şey tanımırıq biz...
Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Qızıla, gümüşə aldanmaz heç kəs,
Onlar bizim yerdə bir şeyə dəyməz.

Burada şah, hakim, məhkum yoxdur. Zülmün kökü kəsilmişdir. Hamı əməksevərdir, bir-birinə qayğı göstərir və firavan yaşayır. Nizami Gəncəvi elmə, təhsilə, elm, təhsil və mədəniyyət xadimlərinə səmimi qayğı göstərməyi insanın xoşbəxtliyi, insanpərvərliyi və qayğıkeşliyi sayır, onu yüksək dəyərləndirir.

Dahi Nizami Gəncəvi XII əsrdə «Qüvvət elmdədir» müdrik kəlamını iftixarla deyir. XXI əsrdə ümummilli liderimiz Heydər Əliyev «Təhsil millətin gələcəyidir» müqəddəs kəlamını bildirir. Dahi Nizami Gəncəvinin XII əsrdəki müqəddəs kəlamını XXI əsrdə ulu öndər Heydər Əliyevin rəsmi şəkildə bəyan etməsi, elmi-nəzəri şərhini verməsi təhsilə qayğının nəticəsidir. Bu dahilər təhsilə həssaslıq və diqqətlə yanaşır, təhsilə böyük qayğı bəsləyirlər.



Məlum tarixi həqiqətdir ki, hər iki müqəddəs kəlamın hədəfi birdir, daha doğrusu, hər iki müqəddəs kəlamın hədəfi təhsildir. Təhsil zəncirvari sistemdir. Bu zəncirvari sistem olan təhsilin nəticələri gələcəyə hesablanır. Təhsil sisteminin idarə olunması çox məsuliyyətlidir, ona görə ki, həmişə ictimai-siyasi əhəmiyyət daşıyır.

Təhsilin idarə olunması dövlət səviyyəsində həyata keçiriləndə xalqın ümummilli marağına səbəb olur, ona daha böyük əhəmiyyət verilir və qayğı bəslənilir.

Müasir müstəqillik dövrümüzdə təhsilə və təhsil xadimlərinə diqqət və qayğı çox şərəfli həyata keçirilir. Bu şərəfli diqqət və qayğının banisi ulu öndərimiz Heydər Əliyevdir. Onu səmərəli inkişaf etdirən ulu öndərin yaradıcı varisi Prezident İlham Əliyevdir.

Müstəqil Azərbaycan Respublikasının dünya şöhrətli Prezidenti İlham Əliyev təhsilə və təhsil xadimlərinə yüksək qiymət verir, gözəl dəyərləndirir, möhtəşəm diqqət yetirir və dərin qayğı bəsləyir.

Azərbaycanda 1918- ci ildə ilk nazirlik yaradılmışdır. Bu təhsil nazirliyi idi. Azərbaycanda ilk Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918- ci ildə yaradılmışdır. Təhsil Nazirliyini Xalq Maarif Nazirliyi adı ilə yaratmışdır. Nazirlər Şurasının 30 iyun 1918-ci il tarixli qərarı ilə təhsil nazirliyinə ümumi orta təhsil, ali və orta ixtisas təhsili, həm də peşə sahələrindən ibarət olan şöbələr təsdiq edilmişdir.

Xalq Maarif Komisarlığı 1920- ci ildə təşkil edilmiş və bütün təhsil müəssisələri onun tabeliyinə verilmişdir. Bu dövr çox mürəkkəb olduğuna görə vahid nazirlik yaratmaq mümkün olmamışdır. Buna görə də bu dövrdə Təhsil Nazirliyi yaradılmamışdır.

1959- cu ildən 1988-ci ilə kimi Azərbaycanda təhsillə bağlı Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi adı ilə iki nazirlik fəaliyyət göstərmişdir. Bu iki nazirlikdən başqa Dövlət Texniki Peşə Təhsili Komitəsi fəaliyyətini davam etdirmişdir. Deməli, bu dövrdə Azərbaycanda iki nazirlik və bir komitə fəaliyyət göstərmişdir.

Bu dövrdə vahid təhsil nazirliyi yaratmaq uğrunda tədbirlər görülməyə başlamışdır. Son nəticədə nazirliyin yaradılması zəruri bilinmişdir. 1988-ci ildə Maarif Nazirliyi, Ali və Orta İxtisas

Nazirliyi və Dövlət Texniki Peşə Təhsili Komitəsi ləğv edilmiş, bunların əsasında Xalq Təhsil Nazirliyi yaradılmışdır.

Müəyyən müddətdən sonra nazirliyin adı dəqiqləşdirilmişdir. Azərbaycan Prezidentinin 1993- cü il 3 sentyabr tarixli Sərəncamı ilə «Təhsil Nazirliyi» adlandırılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti fəaliyyətə başladığı vaxt xalq maarifini məzmun və forma baxımından müstəqil dövlətçilik prinsiplərinə uyğun müəyyən etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifi və təhsil müəssisələrinin milliləşdirilməsini, tədrisin ana dilində aparılmasını, anadilli məktəblər şəbəkəsinin genişlənməsini qarşıya məqsəd qoydu. Təhsilin qarşısında duran vəzifələrin müəyyənləşdiril-məsini və həllini zəruri hesab etdi.

Müəllimlərin 1919- cu ilin avqust ayında keçirilən III qurultayında təhsilin məzmunca milliləşdirilməsi üçün proqram və dərslik islahatı üzrə komissiya yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təhsil sahəsində məktəbəqədər tərbiyə müəssisələrinin nümunəsini yaratdı. Bu təhsil tarixində ilk gözəl tədbir idi. Bundan başqa peşə-ixtisas təhsili müəssisələri şəbəkəsi təşkil edildi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üzrə ciddi hazırlıq işləri apardı. Bu adları çəkilən ali məktəblərin layihəsini təsdiq edilmək üçün Parlamentə verdi.

Azərbaycan Parlamenti Bakı Dövlət Universitetinin açılması ilə bağlı 1919-cu il sentyabr ayının 1- də qanun qəbul etdi. Bu qəbul edilmiş qanunda xaricdə təhsil almaq üçün yüz nəfərin xərclərinin ödənilməsi də qeyd olundu.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Parlamenti ölkədə maarifin, təhsilin, bütün milli mədəniyyətin inkişafını təmin etməyə başladı. Bu hökumət çoxsaylı maarif, təhsil, mədəniyyət məsələlərinin əsasını qoydu, təhsillə bağlı bir çox işlərin ideya əsaslarını hazırlayıb verdi. Deməli, çox əhəmiyyətli tədbirləri həyata keçirdi.

Dünya şöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyev hökumətin fəaliyyətini yüksək qiymətləndirmiş, Azərbaycan Xalq Cümhuriyyətini «bizim milli sərvətimiz, tariximizin parlaq səhifəsi» adlandırmışdır.



Azərbaycan tarixində sovet dövrünün bir sıra səhvlərinə baxmayaraq, təhsilin inkişafına böyük əhəmiyyət verdiyini, təhsil sahəsində dünya səviyyəli siyasi xadimlərimiz, elm və mədəniyyət korifeylərimiz yetişdiyini və dövlətimizin inkişaf etdiyini göstərmək lazımdır.

Bu dövrdə ümumi icbari orta təhsilə keçilmiş, orta və ali məktəb şəbəkəsi inkişaf etdirilmiş, genişləndirilmiş, yüksək səviyyəli kadr hazırlığı ön plana çəkilmiş, bir sıra əsas tədbirlər həyata keçirilmişdir.

Ümummilli liderimiz bu dövrün real səciyyəsini vermişdir: «Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. XX əsrdə yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XXI əsrə biz müstəqilli dövlət olaraq həmin bu sərvətlə, həmin bu böyük potensialla başlamışıq».

SSRİ-də təhsil islahatları keçirmək vəzifəsi dahi rəhbər Heydər Əliyevə tapşırılmışdı. Ona görə ki, bu məsuliyyətli vəzifəni və ideyanı Heydər Əliyev layiqli həll etməyə qadir insan idi.

İslahat Komissiyasının sədri Heydər Əliyev 1984-cü il 12 apreldə «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında» dərin məzmunlu və parlaq ideyalı məruzə etdi. Onun bu məruzəsi ölkənin təhsil sahəsinin inkişafında çox əhəmiyyətli hadisə kimi qarşılandı və təhsilin inkişafına əsaslı təkan verdi.

Heydər Əliyev məktəb tikintisi, hərbiçi hazırlığı, həyatın bütün sahələri üçün kadrların yetişdirilməsi kimi məsuliyyətli vəzifələrin icrasına başlamış və bu sahələrdə Azərbaycana xüsusi qayğı göstərmişdir.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana hakimiyyətə qayıtdı. Bu qayıdışı xalqımız böyük təntənə ilə qarşıladı və ona məhəbbət qazandırdı. Heydər Əliyev bu qayıdışında Müstəqil Azərbaycan üçün daha səmərəli işləməyi və indiyə kimi həyata keçirməyə imkan olmayan son dərəcə çox əhəmiyyətli işləri həyata keçirməyə başladı.

Bu çətin və məsuliyyətli dövrdə hakimiyyətə qayıdan Heydər Əliyev Azər~~baycan Respublikasında ictimai-~~siyasi sabitliyin yaranmasına nail oldu.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Heydər Əliyev bütün sahələrdə yaranmış ağır vəziyyətdən çıxmağa, Azərbaycanın həqiqətlərini bütün dünyaya tanıtdırmağa və etiraf etdirməyə, Azərbaycanın dirçəlişinə və inkişafına nail olmağa çalışmış və bu müqəddəs məqsədinə nail olmuşdur.

Heydər Əliyev həmişə təhsilə, təhsil xadimlərinə böyük qayğı göstərmiş, təhsilin problemlərini həyata keçirməyə çalışmış, bu məsuliyyətli məqsəddən çəkinməmiş və sistemli şəkildə ideyasını davam etdirmişdir.

Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında 1998-ci il martın 30-da nazirin sədirliyi ilə verdiyi Sərəncam bütün illər ərzində ümumilli liderimiz Heydər Əliyevin təhsilimizdə və təhsil işçilərinə göstərdiyi xüsusi qayğının parlaq tarixi salnaməsidir.

Ümummilli liderimiz Heydər Əliyevin vəfatından sonra onun müqəddəs və zəngin ideyalarının layiqli davamçısı, «hər bir azərbaycanlının prezidenti» hörmətli İlham Əliyevin təhsilə və təhsil işçilərinə diqqətinin ifadəsi olan bütün fərman və sərəncamlar səmərəli həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsil sahəsində bütün qanunların icrasını ön plana çəkmiş, bu sahədə olan problemləri şərəfli icra etmiş, parlaq uğurlar qazanmış və qazanır.

Ümumiyyətlə təhsillə bağlı Prezident fərmanları və sərəncamları, dövlət başçısının təhsillə bağlı tədbirlərdəki nitqlərində göstərilən əsas problemlər ardıcıl icra edilmiş, edilir və ediləcəkdir. Bu müqəddəs sahələrdə həyata keçirilən problemlər Prezident İlham Əliyevə ümumxalq məhəbbəti qazandırır.

Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın (2004-2008-ci illər) doxsan yeddi maddəsi təhsillə bağlıdır.

Bu tarixi sənəddə yeni məktəb binalarının tikilməsi, ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı, şagirdlərin pulsuz dərsliklərlə təminatı, tələbə təqaüdlərinin artırılması, məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin artırılması, kənd məktəblərinin texniki və kadr təminatı, əhalinin bütün təbəqələri üçün təhsil imkanlarının bərabərləşdirilməsi kimi prioritet məsələlər əhatə olunur.



Bu tarixi sənəddə göstərilən rəsmi problemlərinin şərəflə həyata keçirilməsi respublikamızda təhsil islahatının uğurla həllini sürətləndirəcək və parlaq nəticələr qazanılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə və təhsil xadimlərinə parlaq qayğısı yalnız respublikamızda deyil, xarici ölkələrdə də böyük maraqla qarşılanır və Prezidentə ümumxalq məhəbbəti qazandırır.

Ümummilli liderimiz Heydər Əliyev Əlirza oğlunun (1923-2004) və onun siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil sahəsində həyata keçirdikləri islahatların inkişafı, təhsil sisteminin strukturunun və məzmununun yeniləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi problemləri parlaq nəticələr vermiş, ulu öndər Heydər Əliyevə və onun siyasi davamçısı Prezident İlham Əliyevə ümumxalq məhəbbəti qazandırmışdır.

Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında təhsil islahatlarının surətlə həyata keçirilməsi uğurlu həllini tapmışdır.

Ümummilli liderimiz Heydər Əliyev iftixarla demişdir: «Təhsil millətimiz üçün, xalqımız üçün vacib məsələdir». Azərbaycan təhsili qədim və zəngin ənənəyə malikdir.

Azərbaycan dövlətinin memarı, milli təhsil quruculuğunun banisi ümummilli liderimiz Heydər Əliyev 70-ci illərin əvvəlindən quruculuq missiyasını öz üzərində götürmüş və milli təhsili parlaq zirvəyə yüksəltməyə nail olmuşdur.

Heydər Əliyev keçmiş sovet imperiyası rejimində Azərbaycana rəhbərlik etdiyi dövrdə müstəqilliyimizin bünövrəsi üçün misilsiz əməli tədbirlər həyata keçirmişdir. Yalnız onu demək kifayətdir ki, keçmiş Sovet İttifaqının 170 - dən artıq ali məktəblərində 250 - dən çox ixtisas üzrə 150 mindən artıq azərbaycanlı gənc təhsil almış, Vətənə və xalqa xidmət etməyə başlamışlar. Xalqa, millətə və Vətənə layiq mütəxəssislər yetişdirmək ulu öndərin müqəddəs arzusu olmuşdur.

Heydər Əliyevin rəhbərliyi və səmərəli təşəbbüsü nəticəsində respublikamızda beş ali təhsil müəssisəsi açılmış, ali məktəblərdə yüz minə qədər tələbə təhsil almış, ali məktəblərdə yeni kadrlar, fakültələr və vacib ixtisaslar yaradılmışdır. Respublikada yaradılmış bu yeniliklər Heydər Əliyevin elmin, təhsilin

müdrik fədaisi və himayəçisi olduğunu, xüsusilə təhsilə və təhsil xadimlərinə misilsiz qayğı göstərdiyini təsdiqləyir.

Ümummilli liderimizin hərb sahəsində milli kadrların hazırlanmasında şərəfli xidməti olmuş, 70-ci illərdən başlayaraq hər il yüzlərlə gəncin nüfuzlu ali hərbi məktəblərə göndərilməsini təşkil etmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratması və milli hərbi kadrların hazırlanmasına təkan verməsi onun uzaqgörən siyasətinin nəticəsi idi.

Azərbaycan 70-80-ci illərdə ümummilli liderimizin siyasəti nəticəsində inkişaf etmiş, təhsil müəssisələri tikilib istifadəyə verilmiş, təhsilin səviyyəsi yüksəldilmişdir. Təhsilin məzmununun müasirləşdirilməsi, əhalinin bütün təbəqələrinin təhsil alması imkanlarının yaradılması, şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi, tələbələrin təqaüdünün artırılması, məktəbəqədər təlim-tərbiyə təhsil sisteminin təkmilləşdirilməsi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, kadr təminatının yaxşılaşdırılması ulu öndərin şərəfli fəaliyyətinin nəticəsidir.

Bu şərəfli rəhbərlik Heydər Əliyevin Azərbaycanda təhsil sahəsinə diqqət və qayğı göstərməsinin parlaq nəticəsidir. Onun siyasi davamçısı Prezident İlham Əliyev təhsil islahatlarını ardıcıl həyata keçirir, uğurlu fərman və sərəncamlar verir. Deməli, təhsilimizə sonsuz qayğının bünövrəsini ulu öndərimiz qoymuş və davamçısına inkişaf etdirməyin səmərəli yollarını öyrətmişdir.

Ümummilli liderimiz Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə elmə, təhsilə xüsusi həssaslıqla misilsiz qayğı göstərmiş, onu davam və inkişaf etdirmişdir. Prezident İlham Əliyev elmə və təhsilə bu qayğını yüksək zirvələrə qaldırmağa şərəflə çalışır.

Xalqın tələbi ilə yenidən 1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev milli ənənələrə və ümumbəşəri dəyərlərə əsaslanan, dünya təhsil standartlarına cavab verən milli təhsil strategiyasını müəyyənləşdirdi.

Ümummilli liderimiz Heydər Əliyev 1999-cu il iyunun 15-də «Təhsil islahatı Proqramı» ilə bağlı fərman verdi və təhsilə, təhsilin inkişafına diqqət və qayğısını göstərdi. Ulu öndərimiz proqramda məqsədi ifadə etdi: «Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın. Bu illərdə əldə etdiyimiz



təhsil prinsipləri göstərilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gediriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik».

Ümummilli liderimiz Heydər Əliyevin «Azərbay-can Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyul 2000-ci il tarixli, «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» 4 oktyabr 2002-ci il tarixli fərmanları və «Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram haqqında» 17 fevral 2003-cü il tarixli sərəncamı ilə islahatın sürətləndirilməsinə güclü təkan verdi.

Ümummilli liderimiz Heydər Əliyevin təhsilin inkişafına qayğısının bir təzahürü də təhsilin inkişafına ayrılan büdcə vəsaitinin ilbəil artması olmuşdur. 1995-ci ildə təhsilə ayrılan vəsait büdcəsinin on yeddi faizini təşkil edirdisə, 2002-ci ildə bu rəqəm iyirmi dörd faizə yüksəlmiş, müəllimlərin əmək haqqı isə on dəfəyə yaxın artmışdır.

Müdrik rəhbərin «Erməni millətçilərinin etnik təmizləmə nəticəsində Ermənistan ərazisində öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli barədə» 22 aprel 2001-ci il tarixli fərmanı Azərbaycanın bütün rayonlarında diqqətin əhəmiyyətli nümunəsi olmuşdur. Azərbaycan xalqı məkirli erməni daşnaklarına nifrət yağdırmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin təhsilin inkişafı, təhsilə qayğısı və diqqəti haqqında uzun illər səmərəli tədqiqat aparılmalı, cild-cild kitablar yazılmalıdır. Ona görə ki, ulu öndər Heydər Əliyev ömrü boyu təhsilin dövlət qayğısından, dövlət himayəsindən kənarda qalmasına yol verməmiş, bu məsuliyyətli işlə həmişə ciddi məşğul olmuş, parlaq uğurlar qazanmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində aparılmış islahatların məqsədi zəngin bilikli və savadlı insanlar yetişdirmək, həm də müstəqil, demokratik, açıq cəmiyyət quruculuğu işində şərəfli iştirak edən vətəndaşlar tərbiyə etməkdən ibarət olmuşdur.

Dahi Heydər Əliyevin «Təhsil millətin gələcəyidir» müdrik kəlamının əsasını bu müqəddəs məqsəd təşkil edir. Ona görə ki, Heydər Əliyev təhsilimizə həssas yanaşmış, təhsilimizin dünya standartları səviyyəsinə yüksəldilməsinə fədakarlıqla çalışmış,

təhsil sisteminin formalaşdırılmasını, dinamik inkişafını, hərtərəfli nailiyyətlərini ön plana çəkmiş, onun həllinə müntəzəm çalışmışdır.

Məhz buna görə də milyonların qəlbində özünə əbədi abidə qurmuş Heydər Əliyev nə qədər ki, müstəqil Azərbaycan dövləti var, nə qədər ki, Azərbaycan xalqı var, ürəklərdə daim yaşamış, yaşayır və yaşayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ilin oktyabr ayında prezident seçildikdən sonra andiçmə mərasimində demişdir: «Mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm».

Azərbaycan Respublikasının inkişafının ən zəruri sahələrindən biri təhsilin və elmin inkişafı, dövlət qayğısının daim artması, elm və təhsil sahəsində həyata keçirilən islahatlar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində əsas problemdir. Buna görə də təhsilin maliyyələşdirilməsinə hər il böyük miqdarda vəsait ayrılır.

Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu milli təhsil islahatları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sürətlə həyata keçirilir. Prezidentin imzaladığı fərman və sərəncamlar fikrimizi təsdiqləyir:

«Bilik günü»nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında», «Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında», «Yoxsulluğun azaldılması Dövlət Proqramına uyğun olaraq dərsliklər və materialların verilməsi».

Prezident İlham Əliyevin imzalayıb verdiyi bu fərman və sərəncamlar Azərbaycan təhsilinin sürətli inkişafını təmin edir. Xoşbəxtlikdən bu fərman və sərəncamlar ciddi nəzarətə alınmış və icra edilir. Respublikada yeni məktəb binaları tikilir və məktəb binalarında əsaslı təmir işləri aparılır.

Azərbaycan xalqı məktəbi məbəd, bu məbədin bəzəyini isə müəllim adlandırır. Müəllim mənalı ömründə əldə etdiyi bilik və məlumatları şagirdlərinə, tələbələrinə, dissertant və aspirantlarına səmərəli öyrədir, onların biliyini, dünyagörüşünü, dilini, mənəvi aləmini zənginləşdirir. Məhz buna görə də müəllim gənc şəxsiyyətin mənəvi aləminin memarı adlandırılır, ona dərin hörmət



edilir. Çünki müəllim millətin arzu və istəklərinin, tərcümanı, kamil cəmiyyətin yaradıcısı və müasir dövrlə gələcəyin ən etibarlı körpüsüdür.

Azərbaycan təhsilinə həmişə diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev gənc nəslin təlim-tərbiyəsinin səmərəli aparılmasına həssaslıqla yanaşmış, xüsusi qayğı və tələb göstərmişdir. Müəllim əməyi sayəsində dahi insanlar yetişir, vətənə və xalqa şərəfli xidmət edirlər.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: «Məktəblərimizdə Azərbaycan dövlətinin müstəqilliyinin, azadlığının mənalı məzmunu çox geniş tədris olunmalıdır. Xalqımızı, millətimizi, gənclərimizi, tariximizə, mədəniyyətimizə, ənənələrimizə uyğun tərbiyə etmək təhsilin əsas istiqaməti, məktəb rəhbərlərinin, müəllimlərimizin borcudur».

Məktəblərimizdə təhsil prosesinin əsas məqsədi şagirdlərə hərtərəfli bilik verməklə yanaşı, onların vətənpərvərlik və azərbaycançılıq ruhunda, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə uyğun tərbiyə etməkdən ibarətdir. Ümummilli liderimiz tərəfindən imzalanmış bir sıra fərman və sərəncamlar bu müdrik kəlamın düzgünlüyünü təsdiq edir və onun zəruriliyini göstərir.

Ümummilli liderimiz Heydər Əliyevin «Azərbaycan Respublikasının dövlət təbliği işinin gücləndirilməsi haqqında» 13 mart 1998-ci ildə imzaladığı sərəncamda Dövlət himininin oxunması və Dövlət bayrağı önündən keçərək siniflərə daxil olmaq göstərilmişdir. İndi bu tədbir ənənə şəklini almışdır.

Ulu öndərimiz Heydər Əliyevin «Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001- ci il tarixli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2001- ci il tarixli fərmanları ümumtəhsil məktəblərində ona dilimizin təbliği, öyrənilməsi və tətbiqi işinin təkmilləşdirilməsi sahəsində, şagirdlərin vətənpərvərlik tərbiyəsində, milli şüurun formalaşmasında müstəsna rolu olmuş və bu gün də olmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan gəncliyi Dövlət proqramı (2005-2009-cu illər üçün) təhsil sahəsində tərbiyə işinin yeni istiqamətləri» 30 avqust 2005-ci il tarixli sərəncamı ilə milli-mənəvi dəyərlərimizin qorunub

saxlanması və onun gələcək nəsillərə çatdırılması haqqında qərar vermişdir.

Azərbaycan dövlət gənclər siyasəti, bədən tərbiyəsi və idmanın inkişafı haqqında Heydər Əliyev böyük xidmət göstərmişdir. Bu səmərəli əməyin inkişafında İlham Əliyev şərəfli fəaliyyət göstərmiş və göstərir. Onun «Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət proqramı» təlim-tərbiyə müəssisələrində bədən tərbiyəsi və idmanın təşkilatı, normativ hüquqi təminatı, kadrların hazırlanması, təkmilləşdirilməsi işinin və maddi-texniki bazasının yaradılmasının əsasını qoymuşdur.

Azərbaycan Respublikasının təhsil sahəsində çalışan təlim-tərbiyə müəssisələrinin, təhsilin idarəetmə orqanlarının rəhbərləri, pedaqoji işçilər təhsil sahəsinə xüsusi qayğı göstərməlidirlər.

Azərbaycan Respublikası müstəqilliyə nail olduqdan sonra milli dövlətçilik, sosial-iqtisadi və mədəni quruculuq sahəsində əsaslı islahatlara başlanılmış, həm də islahatların aparılmasının hüquqi-normativ bazası yaradılmışdır.

Azərbaycanda milli təhsil sahəsində dünya standartlarına uyğun fundamental islahatların aparılması, təhsilin milli və ümumbəşəri dəyərlər, demokratik prinsiplər əsasında milli ənənələrə müvafiq yaradılması böyük nailiyyətdir.

Azərbaycan Respublikasında dövlət təhsil siyasətinin əsas məqsədi milli təhsilimizin inkişafına səmərəli şərait yaratmaqdan ibarətdir. Azərbaycanda dünyəvi dövlət quruculuğunun əsas şərtlərindən biri milli təhsilin bəşəri dəyərlər əsasında yaratmaq problemi ilə bağlıdır. Buna görə də milli təhsil-tərbiyə islahat proqramı yaradılıb istifadəyə verilmişdir. Daha dəqiq desək, Dövlət Təhsil Proqramı hazırlanmış, təhsil işçilərinə ərməğan edilmişdir.

Ümumiyyətlə, Dövlət Komissiyasının yaradılması, Təhsil Qanunun təsdiqi, təhsil sahəsində islahatlar Proqramının hazırlanması Azərbaycanda təhsil sahəsinin şərəfli inkişaf yolunu aşkarlayır.

Ulu öndərimiz Heydər Əliyevin milli təhsil quruculuğuna diqqət və qayğısı təhsil sahəsində Azərbaycanda XX əsrdə qazanılmış zəngin təcrübənin və elmi-pedaqoji fikrin, qabaqcıl ölkələrin təhsil quruculuğu təcrübəsindən bəhrələnməyin nəticəsi kimi qiymətləndirilməlidir.



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında» imzaladığı sərəncam ölkəmizdə milli təhsil quruculuğuna dövlət qayğısının parlaq nümunəsidir. Ona görə ki, bu sərəncam ilə təhsil islahatlarına real hüquqi baza yaradılmışdır.

Azərbaycan milli təhsil sistemində dünya standartlarına keçərək müasir idarəetmə sistemin nailiyyətidir. Ona görə ki, təhsil müəssisələrinə müstəqillik verilmiş, demokratik idarəetmə prinsiplərinə əməl olunmuşdur.

Azərbaycan təhsil islahatında yeni müasir mailiyyələşdirmə sisteminə keçilməsi təhsilin inkişafına ayrılan büdcə vəsaitini artırır və əlavə gəlir gətirən mənbələrdən istifadəyə geniş yer verir. Təhsil sisteminin maddi-texniki bazasının yaradılması islahatların əsas istiqamətlərindən biridir.

Müasir müstəqillik dövrümüzdə Azərbaycan məktəbi kompüter texnikası ilə təmin edilmiş, Azərbaycan təhsil sistemi dünya rabitə-informasiya sisteminə qoşulmuşdur.

Azərbaycan təhsil sistemində təhsil və tərbiyənin məzmunu milliləşdirilmişdir. Ölkəmizdə milli təhsil gənc nəslin vətənpərvər, humanist, əməksevər yetişdirilməsində səmərəli fəaliyyətini şərəfli davam etdirir, gənc nəslin dərin biliyə, yüksək mədəniyyətə, milli müstəqillik ideyalarına sədaqətli yiyələnməsinə ciddi təkan verdi. Ona görə ki, gələcəyin quruculan olan gənc nəsil Vətənini, millətini sevməli, ona şərəfli xidmət etməlidir.

Azərbaycan Respublikasında təhsil sisteminə xüsusi diqqət və qayğı göstərilir. Təhsilin və tərbiyənin məzmunu milli və bəşəri dəyərlər əsasında yeniləşdirilir, yeni proqram, dərslik və dərs vəsaitləri yaradılır.

Təhçil sistemində milli dilimizin, ədəbiyyatımızın, incəsənətimizin, tariximizin, mədəniyyətimizin şüurlu öyrənilməsinə layiqli şərait yaradılır, uğurlu tədbirlər həyata keçirilir. Buna görə də təhsil pillələrində, xüsusilə ümumtəhsil məktəblərində ciddi təlim-tərbiyəvi iş aparılır.

Ölkəmizdə orta məktəbi bitirən gənclər millətimizin dilini, ədəbiyyatını, tarixini, coğrafiyasını mükəmməl öyrənməli, mütləq bir xarici dili bilməlidir. Ümumiyyətlə, hərbi hazırlıq fənninin tədrisinə xüsusi diqqət yetirilməli, uşaqların sağlam təfəkkürü inkişaf etdirilməlidir.

Azərbaycan Respublikasında milli təhsil quruculuğunu şərəfli inkişaf etdirmək və müasir dövrün problemləri baxımından zənginləşdirmək əsas vəzifədir. Təhsil sahəsində milli ənənələrlə beynəlxalq təcrübə böyük peşəkarlıqla əlaqələndirilməli, inkişaf etmiş ölkələrin təhsil sistemi öyrənilməlidir.

Azərbaycan Respublikası Qafqaz dağlarının cənubi-şərqində yerləşmiş, cənnət diyardır. Xəzər dənizi təbiətin bu romantik qoynunda yerləşən Azərbaycana xüsusi gözəllik verir.

Azərbaycan Respublikasının Konstitusiyasında və «Təhsil haqqında Qanun»da Azərbaycan vətəndaşlarının təhsil almaq hüququ göstərilmişdir. Azərbaycanda hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir. Vətəndaşlar təhsilin forma və növünü, müəssisənin tipini seçməkdə sərbəstdirlər. Azərbaycan Respublikasında təhsil prosesi sabitdir və dünyəvi xarakter daşıyır.

Azərbaycanda milli təhsil sahəsindəki dövlət və aparılan islahatların son məqsədi Azərbaycanın müstəqilliyini qoruyub əbədi edən və onun sahibi olan Azərbaycan gənclərini yetişdirməkdir.

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin hərtərəfli inkişafını, əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. Azərbaycan Respublikasının təhsil müəssisələrində əsas təlim dili - ölkənin dövlət dili olan Azərbaycan dilidir.

Azərbaycan Konstitusiyasının 45-ci maddəsində göstərilir ki, Azərbaycanın hər bir vətəndaşı üçün öz arzusuna müvafiq olaraq istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla, elmlə məşğul olmaq hüququ nəzərdə tutulmuşdur. Azərbaycanda heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Təhsil siyasətini yaradanlar və onu bilavasitə həyata keçirənlərin əməkləri, fəaliyyətləri çox şərəflidir. Onlar fəaliyyətlərində əsas və vacib məsələlərin həllini ön plana çəkir, bütün çətinliklərə dözür, məqsədlərinə nail olurlar.

Təhsil sahəsində fəaliyyət göstərənlər, təhsil siyasətini yaradanlar və onu həyata keçirənlər əbədi yaşamış, yaşayır və yaşayacaqlar. Təhsil siyasətini yaradanlar və onu bilavasitə həyata keçirənlərin fəaliyyətindəki əsas məsələ bu problemlərin həllini



özündə birləşdirən Proqramların hazırlanması və reallaşdırılmasından ibarət olmuşdur.

Proqramlar islahatı həyata keçirənlər üçün son dərəcə zəruridir. Ona görə ki, bu proqramlarda təhsilin inkişafı, qiymətləndirilməsi, əhəmiyyəti və qarşıda duran problemlərin həlli müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının ümumdünya sahəsində müstəqil bayrağı, gerbi, himni və siyasəti ilə müstəqil dövlət kimi fəaliyyət göstərdiyi gözəl təsir bağışlayır. Respublikada iqtisadiyyat yeni mərhələyə, bazar iqtisadiyyatına keçmiş, dünya dövlətlərində olduğu kimi ayrı-ayrı sahələrdə uğurlar qazanmışdır.

Tam demokratik, hüquqi dövlətə məxsus işlək təhsil sisteminin yaradılması müstəqil Azərbaycan Respublikasının özünəməxsus aktual problemlərindən biri kimi qiymətləndirilir.

Ulu öndərimiz Heydər Əliyevin 30 mart 1998-ci il tarixli imzaladığı «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında» sərəncamı tarixi əhəmiyyətə malikdir.

Təhsil Nazirliyində aparılan məqsədyönlü işlər Azərbaycanda beynəlxalq standartlara uyğun milli və ümumbəşəri dəyərlərə cavab verən təhsil sistemi formalaşdırmışdır.

Təhsil siyasətini yaradan təhsil işçiləri və onu bilavasitə həyata keçirən hər bir Azərbaycan vətəndaşı, pedaqoji ictimaiyyətin hər bir üzvü həmin vəzifələri şərəflə yerinə yetirməli, səmərəli əməyini əsirgəməməlidir. Tarixi mənbələr bu vəzifənin ləyaqətlə icra olunmasını sənədlər əsasında təsdiqləyir.

Müasir müstəqil Azərbaycan Respublikasında təhsil sistemində işləyə biləcək modellər yaradılmış, təqdim olunmuşdur. Təhsil sisteminin real çıxış nöqtəsi açıqlanıb müəyyənləşdirilmiş, təhsil islahatları sahəsində dünya təcrübəsi şərh edilərək onun Azərbaycan təhsili üçün əhəmiyyəti göstərilmişdir.

Təhsil sistemində tədris müəssisələrini idarəetmə problemi işlənilmiş, təhsil sistemini yaradanlar və onu bilavasitə həyata keçirənlərin fəaliyyəti ümumiləşdirilmişdir. Bu ümumiləşdirmə təhsil sahəsinin inkişafına təkan verir, həm də real zəmin yaradır.

Təhsil sistemində çalışan təhsil rəhbərləri, təhsili idarəetmə təşkilatlarında işləyən əməkdaşlar müasir elmin inkişafını bilməli, onu idarəetməyi bacarmalıdırlar. Buna görə də onlar daim biliklərini zənginləşdirməli, yeni səmərəli tədbirlər həyata keçirməlidirlər.

Təhsil sahəsində köhnənin yenisi ilə əvəz olunmasında səhvə yol vermək olmaz. Buna görə də çox bilmək, öyrənmək, tətbiq etməyi bacarmaq, gözəl nəticəyə sahib olmaq lazımdır. Deməli, bilik daim artırılmalı və zənginləşdirilməlidir.

Təhsil prosesində bütün iştirakçılar, əməkdaşlar bilik səviyyəsini müntəzəm artırmalı, yeni biliklərə sahib olmalıdırlar. Deməli, öyrədən daim öyrətməli, öyrənən isə öyrənməlidir. Atalar sözündə deyilir ki, «Qaranlığı hiss etməyən insan heç vaxt işığa müraciət etmir». Aydındır ki, elmdə lazımi nəticələr əldə etmək mütləq lazımdır.

İslahatların həyata keçirilməsində əsas metodlardan mərhələ-mərhələ istifadə edilməlidir. Son məqsədə çatmaq üçün fikrin əsas məqsədi dərk olunmalı və həyata keçirilməlidir. H.Zərdabi demişdir: «Hər bir xalqın xoşbəxtliyi və ya bədbəxtliyi, uşaqların tərbiyəsinin necə qoyulmasından asılıdır». Aristotel yazmışdır ki: «Biliklə irəli gedib tərbiyədə geri qalanlar irəliyə deyil, geri gedirlər». Deməli, təhsil sisteminin islahatları zamanı tərbiyə problemlərinə xüsusi diqqət yetirilməlidir.

Müasir dövrümüzdə öz müstəqilliyini bütün dünyada bəyan etmiş Azərbaycan Respublikasının vətəndaşı olmaq son dərəcə şərəflidir. Bu şərəf hər bir gəncin Vətənə layiqli xidmət etməsində, respublikanın iqtisadi və hərbi qüdrətinin artırılmasında, onun bayrağının uca tutulmasında, milli mənəvviyatının daim qorunub saxlanmasında öz əksini tapmalıdır.

Təhsil sahəsində təlim-tərbiyə prosesi elə qurulmalıdır ki, bu prosesdə iştirak edənlər xalqın əsrlər boyu qazandığı mənəvi dəyərləri qorumaq, onları saxlamaq, yaşatmaq və inkişaf etdirməyi özlərinin müqəddəs borcu hesab etsinlər.

Təhsil sahəsinin qanunları göstərir ki, hər bir tərbiyə alan insan əsl tərbiyəli şəxsiyyətin bütün amillərinin daşıyıcısı olmalıdır. İnsanları tərbiyə etmək istedad və geniş həyat təcrübəsi tələb edən böyük dövlət işidir. Gənc nəslin zəngin tərbiyə alması zəruridir. Təhsil elmin inkişafı ilə bağlıdır. Qabaqcıl təcrübəni səmərəli öyrənmək lazımdır.

Müstəqil dövlətin milli təhsil siyasətində islahatlara şərəfli xidmət edilməli, Azərbaycan təhsili inkişaf etdirilməli və zənginləşdirilməlidir.

Azərbaycan Respublikasında Təhsil Qanununa müvafiq olaraq təhsil sisteminin strukturu bunlardır:



1. Məktəbəqədər tərbiyə.
2. Ümumi təhsil:
a) İbtidai təhsil.
b) Əsas (natamam orta) təhsil.
v) Ümumi orta təhsil.
3. Peşə ixtisas təhsili:
a) Texniki peşə təhsili.
b) Orta ixtisas təhsili.
v) Ali ixtisas təhsili.

Diplomdan sonra təhsil sisteminə stajseçmə, ordinatura, aspirantura, doktorantura, məktəbdənkənar tərbiyə və təhsil, sərbəst təhsil, ixtisasrtırma və kadrların yenidən hazırlanması və s. daxildir.

Azərbaycan Respublikasında dövlət və qeyri-dövlət formalı, ödənişli və ödənişsiz təhsil müəssisələri fəaliyyət göstərir. Dövlət bütün təhsil müəssisələrinin hüquqlarının qorunmasına zəmanət verir.

Azərbaycan Respublikası hökuməti, Təhsil Nazirliyi, həmçinin yerli təhsil orqanları təhsil sisteminin idarə edilməsinin başlıca subyektləridir.

# II BÖLMƏ

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİLƏ QAYĞISI

Dilimizin, ədəbiyyatımızın, tariximizin, mütərəqqi adət-ənənələrimizin, mənəviyyatımızın qorunub inkişaf etdirilməsində mərhum prezidentimiz Heydər Əliyevin şərəfli fəaliyyəti təhsillə vəhdətdə olmuş, ideya-mənəvi məfkurəsini dilimiz, ədəbiyyatımız və tariximiz təşkil edən azərbaycançılıq ideyasını uzaqgörənliklə tənzim etmişdir.

Mustafa Kamal Atatürkün hikmətli sözləri Heydər Əliyevin fəaliyyətini gözəl səciyyələndirir: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır».

Görkəmli dövlət xadimi Heydər Əliyev xalqımızın milli dəyərlərinin, dilinin, mədəniyyətinin əxlaq normalarının, mənəviyyatının, ədəbiyyatının inkişafında, mədəniyyət xadimlərinə, söz sənətkarlarına dövlət qayğısının göstərilməsində çoxsahəli fəaliyyəti ilə parlaq səhifələr yazmışdır.

Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə və müstəliqilliyimiz dövründə təhsilimizin, elmimizin inkişafına böyük qayğı göstərmiş, təhsil işçiləri və ziyalıların əməyini yüksək qiymətləndirmişdir. Ölkə başçısı gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasını və azərbaycançılıq ideyasını şüurlu mənimsəməsini göstərmişdir. Azərbaycandilli məktəblərin inkişafı və təhsil ocaqlarının dünya standartlarına uyğun formalaşması ölkə rəhbərlərinin təhsilə sonsuz qayğısının nəticəsi olmuşdur.

Hörmətli ulu öndərimiz Heydər Əliyevin 1970-ci ildə ADU-nun 50 illik yubileyində Azərbaycan dilində çıxışı, dərsliklərə dövlət mükafatı verilməsi, müəlliflərin mükafatlandırılması, rusdilli məktəblərdə Azərbaycan dilinin tədrisi keyfiyyətinin yüksəldilməsi təhsilə böyük qayğının göstərilməsinə parlaq nümunədir.

Ölkə başçısının 2001-ci il iyun ayının 18-də «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi» fərmanı, latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi, «Azərbaycan əlifbası», «Azərbaycan dili» gününün təsis edilməsi müstəqil dövlətimizin milli nailiyyətidir.



Dünya şöhrətli siyasətçi Heydər Əliyev demişdir: «Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır».

Təhsil islahatının memarı və qurucusu Heydər Əliyevin «Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir», «Təhsil millətin gələcəyidir» kimi müdrik kəlmələri Azərbaycan təhsilinin inkişaf yolunu araşdırmağın parlaq proqramıdır. Təhsil sisteminin formalaşdırılması, yeni tipli məktəblərin açılması, yüksək ixtisaslı kadrların yetişdirilməsi təhsil proqramının əsasıdır. 1999-cu il 15 iyun tarixli fərmanla «Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı» təsdiq edildi. Təhsilin sifarişçisi, icraçısı və nəzarətçisi xalqın özü oldu.

Heydər Əliyevin qayıdışı ilə ölkənin qurtuluş dövrü başlandı. Elm adamlarına, ziyalılara əsassız hücumların qarşısı alındı. AMEA-nın və onun institutlarının bağlanması fikri rədd edildi, təhsil quruculuğunun və təlim-tərbiyə işinin bəşəri sərvət olduğu aşkarlandı.

Milli tarixi-ənənəvi mənəviyyat kamilləşmə konsepsiyasına çevrildi, vətəndaşlıq, mənəviyyat duyğusunu zənginləşdirməyə xidmət etdi. Mənəvi tərbiyənin məzmunu yüksək keyfiyyətlərlə zənginləş-dirildi. Müstəqil dövlətin vətəndaşı müstəqil düşüncə və işgüzarlığa, milli vətənpərvərliyə, dini dəyərlərə, ictimai əxlaq normalarına sahibləndi.

Heydər Əliyev demişdir: «Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlayır». Deməli, məktəblərin mənəvi tərbiyəsi zəngin qurulmalıdır. Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzləri olan Azərbaycan bayrağına, gerbinə, himninə dərin məhəbbət aşılanmalı, respublikanın dövlət rəmzlərinin milli iftixar mənbəyi olduğu gənc nəslə şüurlu mənimsədilməlidir. Həqiqi mənada vətənpərvərlik Vətənə, ana torpağa sadiq qalmaqdır. Dövlət başçısı mənəvi tərbiyə sahəsində elmi-nəzəri və praktik əhəmiyyətə malik olan tədbirlərin səmərəli təşkilinin mahir proqramını verdi.

Heydər Əliyev göstərmişdir ki, təhsil sisteminin iqtisadi təminatı, maliyyə bazası qüvvətli olmalıdır. Çünki iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Respublikamızın təhsil sistemi dünya standartlarına uyğun şəkildə formalaşır. Təhsilimizə müxtəlif beynəlxalq təşkilatlar maraq göstərir, qrant və kreditlər ayırırlar.

Ulu öndərimiz Heydər Əliyev deyir: «Təhsil sahəsi həyatımızın ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər

əsasında qurulmalıdır». Milli vətənpərvərlik ideyalarının məcmusu olan azərbaycançılıq təlimini gənc nəslə öyrətmək şərəfli vəzifə, mənəvi borcdur. Ölkə rəhbərinin təhsilə, elmə böyük qayğısının nəticəsidir ki, 1993-cü ildən 2002-ci ilədək AAK tərəfindən 300 nəfərə elmlər doktoru, 2119 nəfərə elmlər namizədi alimlik dərəcəsi verilmişdir.

Zaman, məkan zövqündə dayanan, dövrün zəfər salnaməsini yazan, parlaq zəkalı dahi şəxsiyyət Heydər Əliyev 1969-1982-ci illərdə və 1993-cü ildən sonra elmimizin, təhsilimizin hamisinə çevrilmişdir. Heydər Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan təhsil sistemində qazanılan uğurlar nurlu gələcəyə parlaq proqramdır.

Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası yaradıldı. Konstitusiyada hüquqların təminatı həyata keçirildi, konkret təhsil siyasəti formalaşdırıldı, təkmilləşdirildi, yeniləşdirildi, islahatlara intensiv hazırlıq işləri aparıldı.

Heydər Əliyev 1998-ci ildə təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün xüsusi sərəncamla Dövlət Komissiyası yaratdı, Dövlət Komissiyası tərəfindən «Azərbaycan respublikasının təhsil sahəsində İslahat Proqramı» hazırlandı. 1999-cu ildə ölkə prezidenti Proqramı imzaladı.

Heydər Əliyevin atalıq qayğısı nəticəsində indi dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alır.

Müasir dövrümüzdə əllidən artıq xarici ölkədən Azərbaycanın müxtəlif ali məktəblərində iki mindən çox tələbə, magistr, aspirant elmi biliklərə sahiblənir.

1998-2002-ci illər ərzində respublikamızda yüz on altı yeni məktəb tikilmişdir. Son on ildə müəllimlərin əmək haqları on dəfə artmışdır.

Hər il ən yüksək bal toplayıb ali məktəblərə qəbul olan iyirmi beş nəfər gəncə xüsusi prezident təqaüdü, həm də istedadlı gənclər üçün fəxri təqaüdün verilməsi prezidentin təhsilə qayğısının nəticəsidir.

Heydər Əliyevin 17 fevral 2003-cü il tarixli sərəncamı ilə beş illik inkişaf Proqramı təsdiq edilmişdir. Həmin Proqrama əsasən 2003-2007-ci illərdə yüz qırx doqquz yeni məktəb binası tikiləcəkdir. «Azərbaycan təhsil sisteminin dünya təhsil sistemi



standartlarına uyğunlaşdırılması» üçün 10 illik fəaliyyət planı hazırlanmışdır.

Heydər Əliyevin təhsil sahəsində ordu quruculuğu, müstəqil ordumuzun özəyini təşkil edən zəngin hərbi-elmi-texniki təcrübəyə malik zabit korpusunun yaradılması, ərazi bütövlüyünün qorunması şərəfli yer tutur.

Müasir dövrümüzdə yeni təlim texnologiyalarının tətbiq olunması islahatın tələbidir. Texnologiya elmi dil elementidir. Texnologiya məqsədə daha sadə, səmərəli yolla nail olmaqdır. Bu da təlim metodlarının toplusunu şüurlu öyrənməyi tələb edir.

Azərbaycan xalqının xilaskarı, azərbaycançılıq ideyasının memarı, şöhrətli dahi şəxsiyyət Heydər Əliyev demişdir: «Şərəfdən yüksək heç bir şey yoxdur. Qalan şeylər gəldi-gedərdir. İnsan ləyaqəti, insan şərəfi, insan mənəviyyatı hər şeydən üstündür».

Siyasi xadim Heydər Əliyev şərəfli insandır. Azərbaycan Respublikasının dünyaşöhrətli prezidenti olmuşdur. Oljas Süleymanovun dili ilə desək «Heydər Əliyev ustaddır. Ustadlar çox yaşamalı, uzun ömür sürməlidir. Onların həyatı daimi, fasiləsiz əməkdir». Təəssüflər olsun ki, amansız ölüm dahi mütəfəkkir, ictimai dövlət xadimi Heydər Əliyevə yaşamaq imkanını vermədi.

Heydər Əliyev məktəbinin ən layiqli davamçısı İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilməsi Azərbaycan təhsil sisteminin zəngin ənənələrinin, səmərəli milli-mənəvi və ümumbəşəri dəyərlərin parlaq zirvəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin (1923-2004) zəngin ədəbi-bədii irsində müstəqil Azərbaycan dövlətinin tarixi salnaməsi, Azərbaycan ideologiyasının bütün dünyada yaşayan əlli milyondan çox azərbaycanlıların milli-mənəvi sərvəti və vətənpərvərlik amalı olması parlaq ifadəsini tapmışdır.

Müstəqil Azərbaycan dövlətçiliyinin yeni tarixi salnaməsinin yaradıcısı, xalqımızın xilaskarı, millət atası, ümid çırağımız Heydər Əliyev Əlirza oğlu dahi şəxsiyyətdir. Xalqımızın firavan həyatını təmin edən kamil şəxsiyyət, ideal insan Heydər Əliyev ədəbiyyat, mədəniyyət, incəsənət, təhsil, maddi və mənəvi nemətlərin qayğıkeş hamisidir.

Azərbaycan dövlətinin banisi Heydər Əliyev tarixi şəxsiyyətdir, meyarı olmayan dağ zirvəsidir. Heydər Əliyev «dağ cüssəli», «dağ vüqarlı» müdrik bir dahidir ki, insanlarla onun

arasında ilahi ünsiyyət əbədidir. Odur ki, Vətənini və xalqını sevən insanların qəlbində Heydər Əliyevin əbədi abidəsi vardır. tarix təsdiq etmişdir ki, Heydər Əliyev ucalığı daimidir, əbədi icalıqdır.

Azərbaycanda Heydər Əliyev erası 1969-cu ildən başlayıbdır. Görkəmli müxbir Aleksey Qolikov gözəl demişdir: «Heydər Əliyev əsil vətəndaş, bacarıqlı rəhbərdir, Allah Heydər Əliyevi Azərbaycana veribdir».

Heydər Əliyev demişdir: «Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir. Azərbaycan bundan sonra heç zaman heç bir dövlətin vassalı, asılısı və müstəmləkəsi olmayacaqdır».

«Heydər Əliyev və Azərbaycan təhsili» mövzusu ümmana bənzər bir dəryadır. Zəngin təlim-tərbiyə və bədii-estetik zövq mənbəyidir. Onun tədqiq edilib araşdırılması müasir dövrümüzün başlıca problemlərindən biridir.

Mustafa Kamal Atatürk türk xalqının, türkdilli Türkiyə Cumhuriyyətinin banisi kimi dünya şöhrəti qazanmışdır. Heydər Əliyev Azərbaycan xalqının Azərbaycandilli Azərbaycan Respublikasının qurucusu və banisi olmuş, milyonların dərin hörmət və ehtiramını qazanmışdır. Bu da Azərbaycan xalqının xoşbəxtliyidir. Ulu Tanrının xalqımıza əbədi hədiyyəsidir.

Ulu öndərimiz Heydər Əliyev dünya azərbaycanlılarının birinci qurultayında (2001) demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq».

Heydər Əliyevin şəxsiyyəti nəsillərə azərbaycançılıq obrazı, həyat fəaliyyəti azərbaycançılıq məktəbidir. O, hakimiyyətdə olduğu dövrdə (1969-1982) iqtisadiyyatı, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, elmi, təhsili zənginləşdirmiş, gənclərin mənəvi tərbiyəsinə xüsusi qayğı göstərmişdir.

Yeni Azərbaycan Partiyasının və müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev iftixarla demişdir: «Bütün azərbaycanlıların dünyada bir vətəni var, o da müstəqil Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu, müstəqil Azərbaycan Respukblikasıdır. Onun dövlətidir».

Heydər Əliyevin müdrik kəlamında deyilir: «Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən



azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir».

Heydər Əliyevin siyasi kursunun şərəfli varisi, hörmətli Prezidentimiz İlham Əliyevdir. Heydər Əliyev deyir: «İlham Əliyev yüksək intellektli, qrammatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

Heydər Əliyev otuz dörd il Azərbaycana rəhbərlik etdiyi dövrdə ümumxalq məhəbbəti qazanmış, xeyirxahlığı, alicənablığı, qayğıkeşliyi, yüksək insani keyfiyyətləri ilə «millət atası» və «dövlət qurucusu» adına layiq görülmüş, nəhəng dövlət və siyasi xadim adını təsdiqləmiş, «Heydər-xalq!», «Xalq-Heydər!» hikmətli kəlamı dillər əzbəri olmuşdur. Onun dövlət quruculuğundakı fədakarlığı gələcək nəsillər üçün örnək nümunəsinə çevrilmişdir.

Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur. XX və XXI əsrlərin tanınmış nadir dövlət xadimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində şərəfli mövqeyi vardır. Parlaq zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Azərbaycanda demokratik, hüquqi, dünyəvi və dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Heydər Əliyev türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi dərin şöhrət qazanmışdır.

Heydər Əliyev türk dünyasını, türkdilli dövlətləri birləşdirməyin və türkçülük ideyasını zənginləşdirməyin parlaq proqramını vermişdir.

Yeni Azərbaycan Partiyası fəaliyyətində müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalət ideoloji prinsiplərə əsaslanır. Yeni Azərbaycan Partiyası dilindən, etnik və sosial mənşəyindən asılı olmayaraq Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz əbədi vətəni, doğma yurdu hesab edir.

Partiyanın azərbaycançılıq və vətənçilik prinsipi özündə milli, mənəvi və ümumbəşəri dəyərləri əks etdirir. Yeni Azərbaycan Partiyası azərbaycançılığı mydafiə edir, demokratik, hüquqi, dünyəvi dövlətin inkişafı keşiyində durur, irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarını müdafiə edir, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılmasına, insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsinə parlaq istiqamət verir.

Məlum həqiqətdir ki, xalqı tarixdə yaşadan onun var-dövləti, maddi və təbii sərvətləri deyil, xalqı yaşadan onun yetirdiyi dahi şəxsiyyətləridir. Heydər Əliyev xalqın yetirdiyi böyük tarixi şəxsiyyətdir, dahilərin dahisidir.

Müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə yaranmışdır. Heyif ki, qırmızı rus imperiyası müstəqil Azərbaycan dövlətini beşiyində boğmuşdur. Məmməd Əmin Rəsulzadə möhtəşəm planını həyata keçirə bilməmişdir, ona imkan verilməmişdir.

Azərbaycan xalqına rəhbərlik etmək 1969-cu ildən Heydər Əliyev Əlirza oğluna həvalə olundu. Bununla da Azərbaycan xalqının tarixində Heydər Əliyev erası başlandı.

Azərbaycan Respublikasına 1993-cü ildə Heydər Əliyev Prezident seçildi. Bununla da Azərbaycan əsil müstəqillik yoluna qədəm qoydu.

Heydər Əliyev ölkədə sabitlik yaratdı, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanın parçalanmasına son qoydu. Dahi şəxsiyyət, el ağsaqqalı Heydər Əliyev Ermənistanla uzunmüddətli atəşkəsə nail oldu. «Əsrin müqaviləsi» imzalandı, qədim ipək yolunun bərpası qərara alındı.

Yeni Azərbaycan Partiyası azərbaycançılıq və türkçülük ideologiyasının inkişafında səmərəli fəaliyyət göstərir, gənc nəslin təlim-tərbiyəsində bu zəngin və müqəddəs ideologiyanın misilsiz əhəmiyyətini yüksək dəyərləndirir.

Müqəddəs azərbaycançılıq ideyası dünyanın başqa xalqları ilə ədavət aparmır, xalqımızın qəhrəmanlıq tarixini şərəflə müdafiə edir.

Dünya şöhrətli Heydər Əliyev azərbaycançılıq və türkçülük ideyasının elmi-nəzəri əsasların şərh etmiş, insana, insanların mənəviyyatına, milli-qürur hissinə, əxlaqi keyfiyyətlərinə xidmət edən vətəndaşlıq elmini yüksək qiymətləndirmişdir. Azərbaycançılıq və türkçülük ideyası insanşünaslıq elminə xidmət edir, onu dəstəkləyir.

Heydər Əliyev demişdir: «Dövlətçilik, milli-mənəvi dəyərlər-bunlar azərbaycançılıq anlayışının tərkib hissəsidir. Azərbaycançılıq-müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyasıdır».

Heydər Əliyevin «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» 13 mart 1998-ci il tarixli sərəncamında deyilir: «Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir».

İlham Əliyev azərbaycançılıq və türkçülük ideyalarının keşiyində durur və bu müqəddəs ideologi-yaları inkişaf etdirib zəngindəşdirir. Gələcəyin qurucuları olan gənc nəslin Vətənə və xalqa məhəbbəti ruhunda tərbiyə olunmasında, biliyini, dünyagörüşünü, bədii-estetik zövqünü, əqli və fiziki tərbiyəsini zənginləşdir-məsində azərbaycançılıq və türkçülük ideyaları təlim-tərbiyənin tarixi salnaməsidir.

Respublikamızda dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır, Azərbaycan vətəndaşlarıdır. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Onun ərazisi vahiddi, toxunulmazdır və bölünməzdir. Azərbaycan dövlətinin rəmzləri Dövlət bayrağı, Dövlət gerbi və Dövlət himnindən ibarətdir.

Azərbaycan Respublikasında hər kəsin yaşamaq, azadlıq, mülkiyyət, nigah, əmək, tətil, istirahət, mədəniyyət, mənzil, ana dilindən istifadə, milli mənsubiyyət, sağlamlığın qorunması, sosial təminat, sağlam ətraf mühitdə yaşamaq, şərəf və ləyaqətin müdafiəsi hüquqi vardır. Bütün bu keyfiyyətlər 1995-ci ilin 28 noyabrında təsdiq edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ətraflı ifadə olunmuşdur. Konstitutiyamız milli liderimiz Heydər Əliyevin şah əsəridir, azərbaycançılıq və türkçülük ideeyalarının mənbəyidir.

Azərbaycan dili türk dilləri qrupuna daxildir, bizim soykökümüz türkdür, amma azərbaycançılıq ideologiya-mızdır, müdrik kəlamını Heydər Əliyev vurğulamışdır.

Dahi tarixi şəxsiyyət Heydər Əliyev ölkədə sabitlik yaratdı, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, Azərbaycanın parçalanmasına son qoydu, Ermənistanla uzun müddətli atəşkəsə nail oldu. «Əsrin müqaviləsi» imzalandı.

Heydər Əliyev qürur hissilə deyir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mənəviyyatını, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

Xalqımızın xilaskarı Heydər Əliyev müstəqil, azad, hüquqi, demokratik, suveren dövlət qurdu, xalqa dinc və sərbəst yaşamaq şəraiti yaratdı. Dahi sənətkar Hüseyn Cavid yazmışdır:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü...

Tarix bu kəlamı möhürləmiş, Heydər Əliyev işıqlı gələcəyin müdrik milli lideri olmuşdur. Dünya xalqları Heydər Əliyevi vətənpərvər, humanist insan, tarixi şəxsiyyət kimi tanıyır, onu qəlbində əbədi yaşadır.

İndi tarix Hüseyn Cavidin bu poetik misralarını təsdiq etmiş, möhürləmişdir. Hörmətli prezidentimiz Heydər Əliyev xalqımızın xilaskarıdır, əsil millət atasıdır, Müstəqil Azərbaycanımızın işıqlı gələcəyinin müdrik milli lideridir.

Yeni Azərbaycan Partiyası Azərbaycanı yeniləşdirir, inkişaf etdirir, zənginləşdirir, bütün sahələr üzrə parlaq uğurlar qazandırır. Müasir Azərbaycan dövlətinin bu möhtəşəm uğurları qazanmasının aparıcısı, onun qurucusu, yaradıcısı və banisi Heydər Əliyevdir. Heydər Əliyevin xarici və daxili diplomatiyası bütün dünyada sevilir, bəyənilir, qələbə çalır, ona hörmət qazandırır. Xalqımızın ömrünə, həyatına, taleyinə, gələcək xoşbəxtliyinə parlaq istiqamət verən Heydər Əliyev ümid çırağımız, müdrik milli liderimizdir.

Prezident Heydər Əliyev iftixarla deyir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini adət-ənənələrini yaşatmalıyıq».



Dahi tarixi şəxsiyyət, vətənpərvər, humanist, qayğıkeş və tələbkar ictimai xadim Heydər Əliyevi dünya xalqları azadlığın, xoşbəxtliyin carçısı kimi tanıyır və ona dərin ehtiram bəsləyirlər. Ədəbiyyat və mədəniyyət xadimləri Heydər Əliyevin müqəddəs bədii obrazını yaradır, onunla fəxr edirlər. Bu baxımdan xalq şairi Xəlil Rzanın poeziyası çox təsirli və orijinaldır.

Xəlil Rza Ulutürk yazır:

Azadlıq Allahı tək əyləşib öz yerində!
Yerin-göyün nuru var peyğəmbər gözlərində!
Sadəliyi nur saçır, əzəməti dərində,
Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük
Heydər dədə - Atatürk!
Məslək varlığından böyükdür, min qat böyük,
Milyonların rəmzidir Heydər dədə - Atatürk!

Heydər Əliyev yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində demişdir:

«Müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır». Tarix müdrik liderin bu dərin mahiyyətili kəlamını təsdiq edir.

Rəhbərlik etdiyi dövr əsrə bərabər olan Heydər Əliyevə Gəncə məhəbbət şəhəri, cənnət guşəsidir. Gəncədə Nizami poeziya günlərinin keçirilməsi, Novruz bayramının təntənəli qeyd olunması, «Gəncə torpağı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər» hikmətli hökmü Heydər Əliyev şəxsiyyətinin bəhrəsidir.

Gəncədə bir çox tarixi abidələrin yenidən bərpası, «Billur» zavodunun, Xalça fabrikinin, təzə yaşayış binalarının tikilməsi, «Gülüstan», «Yeni Gəncə» masivlərinin salınması, Məhsəti Gəncəvinin, Nigar Rəfibəylinin heykəllərinin ucaldılması Heydər Əliyevin şərəfli fəaliyyətinin bəhrəsidir. Heydər Əliyev demişdir: «Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir».

XIX əsrin görkəmli şairi Həmdullah Qəzvini Gəncəni dövrünün behişt guşəsi adlandıraraq yazır:

Çeşmə şəhərlər var - cəmi bir neçə,
Bütöv xəzinədir Aranda Gəncə.
Varı bol, suyu saf, barlı-bəhrəli,
İqlimi mülayim, torpağı gencə.

Şairlik istedadı Gəncədə parlayan Qətran Təbrizi (1012-1088) yazmışdır: «Gəncə indi cənnət bağçasına dönmüşdür»:

Ey türk, haradan düşdün Gəncəyə söylə,
Kəndində bir sevgi oyatdın böylə.

Türk dünyasının, türkdilli xalqların milli lideri Heydər Əliyevin şərəfli fəaliyyəti, zəngin ədəbi-bədii irsi müstəqil Azərbaycan dövlətinin və YAP-ın memarı olduğunu təsdiqləyir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev yeni 2001-ci il, yeni əsrə və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətlə demişdir:

«Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyini cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, Müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır».

Müstəqil Azərbaycan dövləti indi dünyanın tərəqqipərvər, azad ölkələri sırasında inamla addımlayır, onun üçrəngli bayrağı Avropa Şürasının üzvü olan dövlətlərin bayraqları arasında şərəflə dalğalanır.

Rəhbərlik etdiyi dövr əsrə bərabər dövlət xadimi Heydər Əliyev həmişə qurmaq, yaratmaq, xalqı xoşbəxt etmək, Azərbaycanı zənginləşdirmək eşqi ilə yaşamış milyonların hörmət və məhəbbətini qazanmış, onların qəlbində özünə əbədiyaşar abidə qurmuşdur.

Heydər Əliyevin vətəndaş müharibəsinin qarşısını alması, Azərbaycanın xanlıqlara bölünməsi fikrini məhv etməsi, dövlətçiliyimizi qurması və ölkədə əmin-amanlıq yaratması milli adət-ənənələrimizi bərpa etməsi deməkdir. «Mən xalqımın müdrikliyinə inanıram» hökmünü verən Heydər Əliyev həmişə xalqın hörmət və məhəbbətini qazanmış, onun adət-ənənələrini yüksək qiymətləndirmişdir.

Fridrix Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində, Karl Marks bir çox əsərlərində adət və ənənənin mahiyyətini aşkarlamışdır.

Pavlov göstərir ki, işgüzarlıq, təmizlik, dəqiqlik, intizamlılıq, səliqəlilik gözəl adətlərdir. Tənbəllik, pintilik, kobudluq, yalan danışmaq, müsahibinin sözünü kəsmək mənfi adətdir.



Heydər Əliyevin zəngin irsində azərbaycançılıq və türkçülük ideyası türk dünyasının, türkdilli xalqların, o cümlədən azərbaycanlıların qədim milli-mənəvi keyfiyyətləri əsasında formalaşdığı göstərilir.

Prezident İlham Əliyev deyir: «Azərbaycanın gücü Türkiyənin gücüdür, Türkiyənin gücü Azərbaycanın gücüdür». Deməli, azərbaycançılıq və türkçülük ideyaları Atatürk və Heydər Əliyevin memarı olduğu müqəddəs ədəbi ideologiyadır, Azərbaycan və Türkiyə xalqlarının parlaq zəka zirvəsidir. Müstəqil Azərbaycan dövlətinin memarı ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi qədirbilən xalqlarımızın qəlbində əbədi yaşayacaqdır.

YAP-ın yaradıcısı, Konstitusiyanın, müstəqil dövlətimizin memarı Heydər Əliyevin şəxsiyyəti nəsillərə azərbaycançılıq obrazı, fəaliyyəti azərbaycançılıq məktəbidir. Dahilərin dahisi Heydər Əlirza oğlu Əliyev əbədiyaşar, parlaq tarixi şəxsiyyətdir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın milli mənəviyyat dünyasını zənginləşdirən, bəşəri ideyası, dərin zəkası ilə dünya şöhrəti qazanmış tarixi şəxsiyyətdir. Ana torpağa sonsuz məhəbbət, dərin vətən qeyrəti, milli təəssübkeşlik hissi Heydər Əliyevin müqəddəs əqidəsidir. Rus imperiyasının rəhbərliyi Azərbaycana «gözdən uzaq, könüldən iraq» baxır, Azərbaycanı ünvansız coğrafi məkan sayır, xalqımıza laqeyd münasibətdə olurdu.

Əslində qara buludlar Azərbaycan həqiqətlərini ört-basdır etməyə çalışır, həqiqəti, reallığı ləkələməyə can atırdılar. Bu dövrdə Heydər Əliyev Vətənin və xalqın mənafeyində dayanıb çox qətiyyətlə vurğulayır: «Mən Azərbaycan xalqının dəyanətinə, dözümünə, qəhrəmanlığına güvənirəm».

Azərbaycan xalqı Heydər Əliyevi geniş diapazona malik təşkilatçı, tükənməz potensial olan bacarıqlı dövlət xadimi, vətənin xilaskarı, xalqın ümid çırağı, müdrik şəxsiyyət kimi tanıyır.

Azərbaycanı 1993-cü ilin ağır günlərində xanlıqlara parçalanmaqdan, adını xəritədən silinməkdən qurtaran, erməni daşnakları tərəfindən işğal edilmiş ərazilərin, əzəli Azərbaycan torpağının mütləq azad edilməsinin zəruri problemi kimi qarşıya qoyan Heydər Əliyev olmuşdur.

Xalqın azadlığı naminə çalışmağı özünə şərəf bilən dövlət başçısı iftixarla demişdir: «Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd

Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir».

Heydər Əliyev demokratiya adı altında riyakarlıq çağırışlarının mənəviyyatımıza zidd olduğunu siyasi fəaliyyəti, gərgin əməyi və möhkəm iradəsi ilə təsdiqləmişdir. Ümummilli liderimiz Heydər Əliyevin daxili və xarici siyasəti xalqın həyatı, Vətənin gələcəyi, dünyanın taleyi haqqında sarsılmaz bünövrələrə əsaslanmışdır.

Heydər Əliyev Azərbaycanın azadlığı uğrunda mübarizə məktəbinin bünövrəsini qoymuş və bu çətin problemin həllində sivill əməkdaşlığın əlverişli üsullarına sadiq qalmışdır.

Heydər Əliyevin çevik təşkilatçılıq qabiliyyəti ilə güclü intellektual potensialının vəhdəti zaman və məkan daxilində diplomatiya və beynəlxalq ünsiyyət sahəsində parlaq uğurlar qazandırır.

Tarixi qaynaqlar sübut etmişdir ki, çatışmayan sahə milli bütövlük tariximizdə türklərin vahid türk dövləti olmamasıdır. Halbuki uzaq Şərqdən Avropanın şərqinə qədər türklər məskunlaşmışlar. Eyni dilli türk milləti həmişə müharibə aparmış, qalib gəlməyə çalışmışdır.

Azərbaycan dili türk dillərinin bir qoludur. Ancaq Azərbaycan dili yalnız səfəvilər dövründə dövlət dili olmuşdur. Müstəliq Azərbaycan Cümhuriyyəti 1918-20-ci illərdə yarandı. Lakin məkrli düşmənlərin riyakar planları onun yaşamasına imkan vermədi. Müstəqil Azərbaycan Cümhuriyyətinin ömrü iyirmi üç ay oldu.

Azərbaycanın 1991-ci ildə müstəqillik qazanması ideoloji düşmənləri rahat buraxmadı. Səriştəsiz və bacarıqsız kadrlar ölkəni idarə etməyi, müstəqilliyi qorumağı bacarmadılar, siyasi oyunların qurbanı oldular.

1993-cü ildə möhkəm siyasi əqidəsi, yenilməzliyi və dönməzliyi ilə dünya şöhrəti qazanmış Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı parçalanmaqdan və vətəndaş müharibəsi təhlükəsindən qurtardı. Xarici təxribatçılar, daxili təcavüzkarlar, iblis əməlli bədxahlar ifşa olundular.

1918-20-ci illər və 1991-93-cü illərdəki az ömürlü müstəqilliyimiz Heydər Əliyevin müdrikliyi nəticəsində möhkəmləndi. Tariximizin təminatçısı Heydər Əliyevin zəngin dövlətçilik



təcrübəsinin əzəməti düşmənləri məhv etdi. Azərbaycanı zəkasının ziyası ilə nura qərq edən Heydər Əliyev şəxsiyyətinə müasir dünyanın görkəmli xadimləri qibtə edirlər.

Heydər Əliyev əsrimizin nadir şəxsiyyəti, siyasət dünyamızın dahi lideri, ali insani keyfiyyətlərə malik siyasi xadimdir. Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycana qayıdışı misilsiz uğurlar qazandırmış, xalqın iftixar hissini, qurub yaratmaq əzmini artırmışdır.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyev Əlirza oğlu haqqında 1969-cu il 15 iyul tarixli «Pravda» qəzetində oxuyuruq: «Dünən Azərbaycan KP MK-nın plenumu oldu. Plenum təşkilatı məsələləri müzakirə etdi. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Azərbaycan KP MK-nın plenumunda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi V.Kalitonov iştirak etmişdir».

Heydər Əliyevin titanik keyfiyyətlərə və mahir iş qabiliyyətinə malik çoxşaxəli və hərtərəfli şəxsiyyət olduğunu tarix sübut etmişdir. Heydər Əliyevin istedadı «Allah vergisidir» hökmünü xalq dəyərləndirmişdir. On dörd il ərzində Heydər Əliyev misilsiz işlər gördü, xariqələr yaratdı. Azərbaycanda sənaye və kənd təsərrüfatı inkişaf etdi.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi otuz iki illik dövrü üç mərhələyə bölmək olar:

1. 1969-1982-ci illər Azərbaycanın quruculuq dövrü.
2. 1982-1987-ci illər – SİKP Mərkəzi Komitəsinin siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illər.
3. 1987-ci ildən sonrakı dövr.

Həmin dövrlərin əsaslı şərhini vermək, görülən işlərin aşkarlanmasını reallaşdırmaq ayrıca tədqiqat mövzusudur. Heydər Əliyevin zəngin irsi xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında ən qiymətli mənbədir. Xalqımızın milli, siyasi mənəviyyat tarixində dahi siyasətçi, əvəzsiz tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli fəaliyyəti mühüm yer tutur.

Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınması, dünya dövlətləri birliyinə qovuşması, Avropa Şurasına tam hüquqlu üzvü qəbul olunması xalqımızın ümid çırağı Heydər Əliyevin fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin şah əsəri olan Azərbaycan Respublikası Konstitusiyasına əsasən ölkəmizdə hüquqi və dünyəvi dövlət qurulmuş, qüvvətli milli ordu yaradılmışdır. Azərbaycanda elm, təhsil, ədəbiyyat və mədəniyyət sahəsində aparılan yüksək səviyyəli tədbirlər xalqımızın inkişafını şərtləndirir, ona xidmət edir.

Heydər Əliyev M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasında miniatür kitabların tədqiqat sərgisində iştirak etmiş və demişdir: «Kitabxana, xalq, millət üçün cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Kitabxanaya daim hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdir».

Heydər Əliyevin 2001-ci ilin avqust ayında verdiyi bəyanat xalqımızın yüz illərlə, min illərlə yaratdığı adət-ənənələrimizi, mənəvi dəyərlərimizi yüksək qiymətləndirir. Gənc nəsli sağlam, saf əhval-ruhiyyədə tərbiyələndirməyin zəruriliyini göstərir.

Müasir dövrümüzün müasir problemlərindən biri dünya-şöhrətli ümummilli liderimiz Heydər Əliyevin irsini dəqiq toplamaq, əsərlərinin biblioqrafiyasını tərtib etmək, nəşrinə nail olub oxucuların, ziyalıların, xüsusilə məktəblərin istifadəsinə verməkdən ibarətdir.

Respublikamızda «Heydər Əliyev kitab fondu» yaradılmalı, həmin fondun bütün şəhər və rayon mərkəzlərində, kənd məktəblərində şöbələri olmalı, kitabla təmin edilməlidir. Müasir dövrümüzdə «Heydər Əliyev universitetləri» geniş tədbirlər planı həyata keçirir, elmi-nəzəri və pedaqoji-metodik konfransların təşkilində səmərəli fəaliyyət göstərir. «Heydər Əliyev kitab fondu» müəyyən məcmuə buraxmalı, Heydər Əliyevin ədəbi-bədii, pedaqoji-metodik irsi, elm, təhsil, tərbiyə, təlim, müəllim, məktəb, milli-mənəvi və dini dəyərlər haqqında müdrik kəlamları, çıxışları, nitqləri, məruzələri oxuculara çatdırılmalıdır. Həmin məcmuə fondun bütün şəhər və rayon şöbələrinə verilməlidir.

Ümummilli lider Heydər Əliyevin mənalı ömür yolu, siyasi-tərcümeyi-halı beynəlxalq miqyaslı siyasi hadisələrlə zənginliyi haqqında cildlərlə kitab yazıb oxucuların mütaliəsinə vermək zəruridir.

Heydər Əliyevin 1993-cü ilin çox ağır günlərində 91-lərin tələbi ilə hakimiyyətə gəlib göstərdiyi misilsiz xidmətləri, xüsusilə Azərbaycanın ərazi bütövlüyünü qorumaq, vətəndaş müharibəsinin qarşısını almaq tədbirləri, zəngin elmi-nəzəri irsi haqqında qiymətli



tədqiqat əsərləri yazılmalıdır. Həmin tədqiqatlar gənc nəslin təlim-tərbiyə və bədii-estetik tərbiyəsində qiymətli mənbə olmalıdır.

1998-ci ilin sentyabrında Bakıda keçirilmiş «Böyük İpək Yolu» adlı beynəlxalq konfrans dünya miqyasında gözəl təsir bağışladı.

Avropa və Asiya qitələrinin qovşağında yerləşən Azərbaycan tarixən qərblə şərq, cənubla şimal arasında «körpü» funksiyası daşımışdı. «Böyük İpək Yolu» beynəlxalq konfransı Azərbaycanı iki qitəni birləşdirən qovşağa çevirməkdədir.

«İpək Yolu»nun üstündə duran otuz üç ölkənin, səkkiz beynəlxalq təşkilatın nümayəndələri Bakıda Azərbaycanın Beynəlxalq imicini «Avropa möhürü» ilə təsdiqləyib bütün dünyaya yaydılar.

Azərbaycan xalqı dünya şöhrətli Heydər Əliyevin dövlətçilik təcrübəsini, xalqın qanyaddaşında və ölkənin tarixində silinməz izlər buraxan dövlət xadiminin səmərəli fəaliyyətini böyük maraqla öyrənir, həm də şərəflə təbliğ edir.

Müdrik dövlət xadimi Heydər Əliyevin siyasəti nəticəsində sovet imperiyasının mənfur planları Azərbaycanda həyata keçmədi, dövlətçilik təcrübəsi ölkənin tarixində ona dünyaşöhrəti qazandırdı. Azərbaycanda çoxlu qəzet və digər mətbuat nəşr olunur. Onlara məhdudiyyətin qoyulmaması ölkəmizin iqtisadi və elmi inkişafı, müstəqilliyimizin müdafiəsi və dünya ölkələri tərəfindən tanınması Heydər Əliyev şəxsiyyətinin bəhrəsidir.

Parlaq zəka, yorulmaz əməksevərlik, dərin yaradıcı və səmərəli fəaliyyət Heydər Əliyevi bəşəriyyət tarixində tanıtmışdır. Xalqımızın böyük xoşbəxtliyi və tarixi nailiyyəti dövlət müstəqilliyimizin bərpa edilməsi və onun keşiyində ilk dəfə dahi Heydər Əliyevin durmasıdır. Heydər Əliyev Azərbaycan müstəqil dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının memarıdır.

Heydər Əliyev fəaliyyətə başladığı vaxtdan demokratik, müstəqil, hüquqi və azad dövlət qurmaq, bazar münasibətləri əsasında milli iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycanı dünyaya tanıtdırmaq əqidəsində olmuşdur.

Türkdilli ölkələrdən olan Azərbaycan milli əqidəli aqillərin, dünyaşöhrətli müdriklərin, elmi-nəzəri bədii ədəbiyyat nümunələri yaradan dahi sənətkarların, sərkərdələrin vətəni Qoca Şərqin müqəddəs qapısıdır.

Milli əqidə ilə Azərbaycana rəhbərlik edən Heydər Əliyevin siyasi əqidə bütövlüyü, dəmir iradəsi, mətnliyi, mübarizliyi, dönməzliyi, Vətənə və xalqa sadiqliyi onu bəşəriyyət tarixində dahi dövlət xadimi kimi tanıtmış, ona ümumxalq hörməti qazandırmışdır.

Heydər Əliyevin gərgin zəhməti sahəsində Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətləri sırasına çıxmış, özünün inkişaf yolunu müəyyənləşdirmiş, misilsiz uğurlar qazanmış, ictimai-siyasi və sosial-mədəni həyatın bütün sahələrində inkişaf dövrünün bünövrəsini qoymuşdur.

Heydər Əliyevin diqqət və qayğısı sahəsində 70-80-ci illərdə Azərbaycanın elmi, təhsili, ədəbiyyatı, mədəniyyəti və mənəviyyatında böyük çevriliş olmuşdur. Moskvada və bütün dünyada Azərbaycan elmi tanınmış, uğurlar qazanmışdır.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda C.Naxçıvanski adına və digər hərbi məktəblər açıldı, bu məktəblər vətənimizin müdafiəsi üçün yüksək ixtisaslı vətənpərvər kadrlar hazırlamağa başladı. Dövlət başçımız bu səmərəli siyasətini davam etdirdi, ali təhsilli kadrlar buraxan hərbi və polis akademiyaları açılmasına fərman verdi. Onu fərmanı şərəflə həyata keçirildi.

Heydər Əliyev istedadlı azərbaycanlı gənclərin Moskva, Sankt-Peterburq, Kiyev, Minsk və başqa qabaqcıl elm və təhsil mərkəzlərində təhsil almasına geniş imkan yaratdı. Yalnız onu demək kifayətdir ki, 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə on minə qədər azərbaycanlı gənc təhsil almaq üçün Respublikadan kənara göndərilmiş və müxtəlif ixtisaslar üzrə ali təhsil almışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-82-ci illərdə Respublikamızın mədəniyyət və elm xadimlərinin on nəfərdən çoxu Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür: Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Mustafa Topçubaşov, Mikayıl Hüseynov kimi dahi sənətkarlar dünya şöhrəti qazandılar.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci ildə görkəmli yazıçı, istedadlı həkim, mahir pedaqoq və dövlət xadimi Nəriman Nərimanovun yüz illik yubileyi keçirildi. 1977-ci ildə Ulyanovski şəhərində Nəriman Nərimanovun abidəsi qoyuldu, adı əbədiləşdirildi.



Heydər Əliyevin səyi ilə 1982-ci il noyabrın 25-də Moskvada Vorovski küçəsində Nərimanovun xatirə lövhəsinin açılışı olmuş, xalq yazıçısı İsa Hüseynovun «Doktor Nəriman» adlı əsəri əsasında çəkilmiş «Ulduzlar sönmür» filmi nümayiş etdirilmişdir.

Milli mədəniyyətimizin nəhəng korifeyi dahi Hüseyn Cavidin məzarının Sibirdən doğma Vətənə gətirilməsi istismarçı sovet imperiyasına qarşı açıq üsyankarlıq kimi qiymətləndirilməlidir.

1982-ci ilin dekabr ayında Heydər Əliyevin Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini seçilməsi, siyasi büronun üzv olması Azərbaycana daha böyük bir qayğının nümunəsi idi.

«Azərbaycan» qəzetinin 1997-ci il 24 iyun tarixli sayında oxuyuruq: «Bəziləri özlərini «Milli azadlıq hərəkatının lideri» adlandırmaq istəsələr də, onların buna mənəvi haqları çatmır. Çünki milli azadlıq hərəkatımızın idarə olunan, yetkin dövrü məhz Heydər Əliyevin rəhbərliyi ilə başlamış, əsl milli azadlıq müharibəsi imperiyanı və Azərbaycandakı İmperiya əlaltılarını şok vəziyyətinə salmışdı. Keçirilmiş ilk mitinqlərdə, nümayişlərdə böyük liderin partretləri əldən-ələ gəzirdi. 1988-ci ildə Naxçıvanda, Culfada keçirilmiş mitinqlərdə xalq o vaxtkı kommunist rəhbərlərin Heydər Əliyevin portretlərini yığışdırmaq barədə göstərişlərinə etiraz edərək, onları rəhbərin portretləri qarşısında diz çökməyə məcbur etdi, ucalan «Heydər» sədaları Cənubi Azərbaycanda belə eşidilmişdi».

Azərbaycan 1991-ci il 10 oktyabrda dövlət müstəqilliyi haqqında Konstitusiya aktını qəbul etmişdir. 1997-ci il 18 dekabr tarixli «1946-53-cü illərdə azərbaycanlıların Ermənistan SSRİ-dəki tarixi-etnik torpaqlarından kütləvi surətdə departasiyası haqqında» fərman verilmişdir. Azərbaycanlıların soyqırım günü 31 mart elan edilmişdir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Parlamentlərarası İttifaqın, Avroatlantika Tərəfdaşlıq Şurasının, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatının, İslam Konfransı Təşkilatının və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatın bərabər hüquqlu üzvü, GUAM regional qurumunun təşəbbüsçüsü və fəal iştirakçısıdır.

Azərbaycan Avropa Şurasının üzvüdür. Dahi insan, yüksək və zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyev kimi milli

liderlər əsrdə bir dəfə yetişirlər. Əbədi və əzəli olan müstəqilliyimizin banisi hörmətli Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsində erməni daşnakları tərəfindən işğal olunmuş torpaqlarımız mütləq azad olunacaq, qaçqınlar və məcburi köçkünlər öz doğma ata-baba yurdlarına qayıdacaqlar. Ulu öndərimiz Heydər Əliyevin bu şərəfli ideyasını Respublikamızın Prezidenti İlham Əliyev uğurla həyata keçirir.

12 may 1994-cü ildə Ermənistanla saziş imzalandı. Saziş dövlətçiliyin möhkəmləndirilməsinə keçid üçün əlverişli şərait yaradılmasına əsaslı kömək göstərdi.

20 sentyabr 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı. Bu müqavilə Azərbaycanın müstəqil dövlət olduğunu bütün dünyaya tanıtdı, respublikanın dünya iqtisadiyyatına inteqrasiyasının güclü təsirini göstərdi.

Azərbaycan xalqının zəngin mənəviyyatı var və tarix bu həqiqəti təsdiqləmişdir. Mənəviyyatın əsas mahiyyətini və bünövrəsini Vətənə, xalqa, millətə məhəbbət təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyev rəhbərin və pedaqoqun zəngin mənəviyyatlı olmasının zəruriliyini göstərmişdir: «Rəhbərlik etmək, yeni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun».

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın mənəvi həyatında, xalqımızın adət-ənənələrində xoşagəlməz, yabançı hallara, xüsusilə korrupsiya, riyakarlıq, rüşvətxorluq, yerlibazlıq, qohumbazlıq kimi məkrliliyə qarşı barışmaz müqavimət göstərməyə başladı. Həmin müqəddəs əqidə və zəngin mənəviyyat mübarizəsi müasir dövrümüzdə də qətiyyətlə davam etdirilir.

Mənəvi, əxlaqi təmizlik prosesi 1970-80-ci illərdən geniş vüsət almışdır. Heydər Əliyev «Literaturnaya qazeta» qəzetində «Qoy ədalət zəfər çalsın» məqaləsini çap etdirdi. Müəllifə görə, təhsilsiz, elmsiz, mədəniyyətsiz, mənəviyyatsız xalq və şəxs sivill xalq, ziyalı şəxsiyyət ola bilməz.

Hər bir millətin mənliyini, kimliyini təsdiq edən dil məsələsidir. Ona görə ki, dil təfəkkür, düşüncə, özünüdərk etmə məsələsidir, daha doğrusu, mənəviyyatla bağlı problemdir.

70-ci illərdə sovet ideologiyasının rus şovinizminin tüğyan etdiyi bir dövrdə Azərbaycan dilinin dövlət dili olması müddəasını Azərbaycan Konstitusiyasına daxil etmək Heydər Əliyev mənəviyyatının yüksəkliyini və zənginliyini təsdiqləyir.



Heydər Əliyev xalqımızın müdrik elm və dövlət xadimi Nəriman Nərimanovun Şərqin müsəlman dünyasının ən nüfuzlu liderlərindən biri olmasını, xalqımızın zəngin mənəviyyatını müdafiə etməsini həmişə yüksək qiymətləndirmişdir.

Nəriman Nərimanovun SSRİ MİK-nin həmsədrlərindən biri təyin edilməsi onun Azərbaycandan uzaqlaşdırılması demək idi. Ona görə ki, Mikoyan, Orconokidze, Kirov və Mirzoyanın Azərbaycanda həyata keçirmək istədikləri məkrli əməllərə Nəriman Nərimanov imkan vermirdi. Doğrudur, Moskvada Nəriman Nərimanova zəhər verildi, onun atəşin qəlbi əbədi dayandı, mavi gözləri dünya işığına həsrət qaldı.

Son zamanlar Nəriman Nərimanova millətçi damğası vurmağa çalışan keçmiş həmkarlarının riyakar niyyətləri ifşa olundu. Dahi şəxsiyyət Heydər Əliyevin müdrikliyi ilə ədalət zəfər çaldı, ədibin 100 illik yubileyi təntənəli qeyd edildi. Bakıda əzəmətli heykəli qoyuldu.

Heydər Əliyevin müdrikliyi nəticəsində M.C.Bağırovun Azərbaycanın tarixindəki faydalı xidmətləri qeyd olundu. Məlumdur ki, M.C.Bağırovun adı 1937-ci ilin faciəli hadisələri ilə ekiz çəkilir. Onun fəaliyyətində ciddi qara ləkələr vardır.

Rəsmi tarixi sənədlərdən aydındır ki, M.C.Bağırov Böyük Vətən müharibəsi illərində Şimali Qafqazın müsəlman xalqları ilə birlikdə azərbaycanlıların uzaq Sibirə və Qazaxıstana köçürülməsinə imkan verməmiş, bu faciəli hadisənin xilaskarı olmuşdur.

Tarixi həqiqətdir ki, M.C.Bağırov ermənilərin Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana verilməsi niyyətini ifşa etmiş, onların bu məqsədlərinə imkan verməmişdir.

M.C.Bağırovun SİKPMK Rəyasət Heyyətinin üzvü seçilməsi, İ.V.Stalinlə və Z.R.Beriya ilə yaxınlığı Mikoyanla Xuruşovu razı salmamışdı. Onlar da M.C.Bağırovdan həmişə qisas almağa çalışmışlar. M.C.Bağırovu sovet məhkəməsi ölüm cəzasına məhkum etmişdir.

Tarixi qaynaqlardan məlumdur ki, ermənilər həmişə türk dünyasının, türkdilli xalqların düşməni olmuş, cinayətlər törətmiş və nifrət qazanmışlar. Moskvada Qorbaçovun əlaltıları Şaxnazarov, Ohanbekyan, Sitaryan, Xaçaturov və başqa tüfeyli canilər Heydər Əliyevə qarşı cinayət törətmək xəyalında olmuşlar.

Ermənistan KP MK-nın sabiq katibi Karan Dəmirçiyan (onu parlamentdə gəbərtdilər) 1988-ci ilin martında İrəvanın teatr

meydanında keçirilən mitinqdə demişdi: «Ay ermənilər, elə bilməyin ki, mən erməni xalqının problemlərinə biganəyəm. Mən sizə həqiqəti söyləyirəm. Zənn etməyin ki, Heydər Əliyev siyasi büronun üzvülüyündən uzaqlaşdırılıbdır, bundan sonra ermənilərin bütün problemləri həll ediləcəkdir. Xeyr, nə qədər ki, Heydər Əliyev fiziki cəhətdən şagdır, bizim tələb və istəklərimiz asanlıqla həyata keçməyəcək. Yadınızda saxlayın ki, bizim iki böyük düşmənimiz var. Onlardan biri Atatürkdür. O biri isə Heydər Əliyevdir. Atatürk həyatda yoxdur. Əliyev isə yaşayır. Çalışıb onu birdəfəlik aradan götürmək lazımdır, yoxsa bu qışqırıqların heç bir mənası yoxdur və qazanacağımız qələbə də müvəqqəti olacaqdır».[1]

Hörmətli ümummilli liderimiz Heydər Əliyev mənəviyyatı bəşəri, əxlaqi keyfiyyət, dövlət, millət, xalq, ölkə qarşısında böyük məsuliyyət adlandırır. Mənəvi haqqı olmayan, mənəviyyatsız şəxsin yüksək səlahiyyətli vəzifə tutması millət və dövlət üçün çox böyük faciədir.

Heydər Əliyev zəngin mənəvi haqqı olan, yüksək mənəviyyatlı, əxlaqi bütövlüyə, müqəddəs əqidəyə, uğurlu daxili və xarici siyasətə malik müdrik milli lider, tarixi şəxsiyyətdir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu, YAP-ın memarıdır. Cənab Heydər Əliyevin 30 dekabr 2000-ci il tarixli «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» adlı müraciəti Azərbaycan tarixinin zəngin salnaməsidir. Bu salnamə əsasında XXI əsrdə Azərbaycanın siyasi və sosial-iqtisadi inkişafının perspektivi göstərilir.

Müraciətdə deyilir: «Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir işin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır».

Dahi öndər Heydər Əliyev «Kitabi-Dədə Qorqud» dastanın 1300 illik yubileynin keçirilməsində demişdir: «Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir».

Azərbaycan xalqı keçmiş iki min ildə dünya mədəniyyəti tarixinə Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi,

[1] Xalqın böyük xilaskarı. Bakı, 2001, səh. 140.



Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi dahi söz sənətkarları vermişdir.

Elm sahəsində Nəsirəddin Tusi, Əbülhəsən Bəhmənyar və başqa xadimlər Azərbaycanda intibah dövrü dünya mədəniyyətinin gözəl nümunələrini yaratmış, parlaq tarixi salnaməsini yazmışlar.

H.M.Zərdabinin «Əkinçi» (1875) qəzeti və C.Məmmədquluzadənin «Molla Nəsrəddin» (1906) jurnalı Azərbaycan elmi, ədəbiyyatı, mədəniyyəti və mənəviyyatı sahəsində səmərəli fəaliyyət göstərmiş, Vətənə və xalqa şərəfli xidmət etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin zəngin ideyalarını parlaq zəkalı hörmətli Prezidentimiz İlham Əliyev ilhamla həyata keçirir, müstəqil Azərbaycan dövlətinə və YAP-a şərəflə xidmət edib ümumxalq məhəbbəti qazanır.

Dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin səmərəli fəaliyyətində gənc nəslə hörmət, məhəbbət və dərin qayğı misilsizdir. Gənc nəslin hərtərəfli inkişaf etməsinin şərəfli proqramını verən Heydər Əliyev həmişə gənc nəslin fədakar qayğıkeşi olmuşdur.

Dahi şəxsiyyət Heydər Əliyevin dövlətçiliyimizin müstəqilliyi, iqtisadi potensialının gücləndirilməsi, gənc nəslin yetişdirilməsi, tarixin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin, elmin inkişafı sahəsində qayğısı, tələbkarlığı, xeyirxahlığı və müdrikliyi çox səmərəlidir.

Heydər Əliyev uşaqların və gənclərin ali təhsil almasına, elm öyrənməsinə, Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə məhəbbət ruhunda tərbiyə olunmasına səmərəli köməyini əsirgəməmiş, ömrünü xalqına, Vətəninə, elmin və mədəniyyətin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Dahi şəxsiyyətin mənalı ömrünün tarixi salnaməsi gənc nəslin zəngin yüksək əxlaq mənbəyidir.

Heydər Əliyev Naxçıvanda rus məktəbində oxumuş, VII sinfi uğurla bitirmişdir. Atası Əlirza kişi Heydəri Naxçıvan Pedaqoji Texnikumuna qəbula gətirir. texnikumun direktoru Kazım Talıbov, müəllimləri Tofiq Bəxtaşi və Lətif Hüseynzadə Heydərlə müsahibə aparırlar. Heydərin cavabı onları heyrətdə qoyur, çox razı salır. Heydər Əliyev texnikuma qəbul olunur.

Lətif Hüseynzadə yazır: «Heydər ilk gündə müəllim və tələbələrin rəğbətini qazanırdı. Yaşının az olmasına baxmayaraq, özünü şəxsiyyət kimi aparırdı. Məğrur, məqsədyönlü idi, elmlərə

yiyələnmək həvəsi aşıb-daşırdı. Hər bir dərsə səylə hazırlaşır, əlavə materiallarla maraqlanırdı. O, dərs danışan vaxt sinfə tam sakitlik çökərdi. Uşaqlar ona böyük heyranlıqla qulaq asırdı. Çox yaxşı təşkilatçı idi. Həmişə əlində kitab görərdik. Gözəl xətti, rəssamlıq qabiliyyəti var idi».

Texnikumu əla qiymətlərlə bitirib Bakıya gələn Heydər Əliyevin Bakı mühiti biliyini, dünyagörüşünü, təlim-tərbiyəvi və bədii-estetik zövqünü zənginləşdirir, onun hərtərəfli inkişafına, xüsusilə bədii əsərləri səmərəli mütaliə etməsinə geniş imkan yaradır.

Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri 1918-1920-ci illərdə Azərbaycanda müstəqil dövlət yaratdı. Ancaq bu müstəqil dövlət rus imperiyası tərəfindən beşiyində boğuldu. Heydər Əliyev 1969-cu ildə Azərbaycan xalqına rəhbərlik etməyə göndərildi. Heydər Əliyevin otuz dörd illik fəaliyyəti əsrə bərabərdir, siyasi uzunömürlülük və uzaqgörənlik fenomeni, quruculuq inkişafı təcəssümüdür. Müdrik şəxsiyyəti dağ zirvəsi olan Heydər Əliyevin 1993-cü ildə ölkə Prezidenti seçilməsindən sonra Azərbaycan müstəqillik yoluna qədəm qoydu.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, Yeni Azərbaycan Partiyasının memarı oldu, Vətənə, xalqa, doğma torpağa hədsiz məhəbbət və sədaqət hissi Azərbaycana rəhbərlik etdiyi on dörd ildə ona ümumxalq məhəbbəti qazandırdı.

Dahi şəxsiyyətin şərəfli ömür salnaməsi uşaqların və gənclərin tərbiyə xəzinəsidir. Heydər Əliyev demişdir ki, «91-lərin hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm, onlar böyük cəsarət göstərmiş insanlardır». Gənc nəsli bu ruhda tərbiyə etmək lazımdır. «Mənim həyatımın mənası xalqa xidmət etməkdir» deyən Heydər Əliyevin müdrik kəlamı budur: «Bizim partiya gənclərin partiyasıdır». Müdrik dövlət xadimi Heydər Əliyev elmin, mədəniyyətin, maarifin səviyyəsini yüksəltməyə həmişə böyük qayğı və diqqət göstərmiş, parlaq uğurlar qazanmışdır.

Dahi şəxsiyyətin rəhbərliyi sayəsində 1969-1982-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 849 ümumtəhsil məktəbi, 44 muzey tikilib istifadəyə verilmiş, 15 mindən çox azərbaycanlı tələbə SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdir.



ABŞ-ın keçmiş dövlət katibi Henri Kissencer demişdir: «Heydər Əliyevin uzaqgörən siyasəti ölkənin xalqını firavanlığa, intensiv və inkişafa gətirib çıxaracaq».

Azərbaycana rəhbərlik edərkən Heydər Əliyev gənclərə həmişə xüsusi diqqət və qayğı bəsləmiş, onların fiziki və mənəvi cəhətdən sağlam, savadlı olmaları üçün səmərəli şərait yaratmışdır. 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin birinci forumu keçirilmiş, Heydər Əliyev iştirak etmiş və 1997-ci ildə forumun keçirildiyi günü, yəni iki fevralı «Azərbaycan, gənclər günü» adlandırmış, sərəncam vermişdir. Həmin sərəncam hörmətlə qarşılanmışdır. İndi fevral ayının ikisi «Azərbaycan gənclər günü» adlanır.

Heydər Əliyev iftixarla demişdir: «Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır».

Bu həqiqi və hikmətli kəlamdır. Ona görə ki, gələcəyin qurucuları gənc nəsildir. «Həyatımın qalan hissəsini də xalqıma bağışlayıram» müdrik kəlamını verən, respublikada sabitlik, demokratiya, fikir azadlığı, xoşbəxt həyat, tərəqqi və inkişaf yaradan dahi Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır.

Heydər Əliyev siyasi məktəbinin davamçısı İlham Əliyev onun ideyalarını şərəfli yerinə yetirir, xüsusi azərbaycanlı idmançıların beynəlxalq yarışlarda parlaq uğurlar qazanmasında müstəsna xidmətlər göstərir.

Heydər Əliyev müdrik siyasətinin ilhamlı davamçısı İlham Əliyev Azərbaycanı yeni əsrə, yeni minilliyə müstəqil, güclü dövlət kimi aparır və ümumxalq məhəbbəti qazanır.

Tariximizin, ədəbiyyatımızın və mədəniyyətimizin vurğunu və qayğıkeş hamisi, dünyaşöhrətli Heydər Əliyevin mənalı həyatı, zəngin yaradıcılığı, ictimai-siyasi və elmi-nəzəri fəaliyyəti, şərəfli ömrünün ədəbi-tarixi salnaməsi gələcək ümidimiz olan gənclərin təlim-tərbiyəvi, əqli və bədii-estetik tərbiyəsinin zəngin xəzinəsi və parlaq zirvəsidir.

Azərbaycan xalqının, Azərbaycan gənclərinin vətənpərvərlik, humanizm, əməksevərlik, insanpərvərlik, Vətən sevgisi, torpaq sevgisi, ata babaya, ağsaqqala, ağbirçəyə, anaya, müqəddəs nənəyə, əziz balalara dərin hörmət və məhəbbət, xilaskarlıq, hamilik,

qayğıkeşlik kimi yüksək əxlaqi keyfiyyətləri əsrlərin tarixi salnaməsinə qızıl hərflərlə həkk olunmuş, həmişə parlaq uğurlar qazanmışdır.

Azərbaycan xalqının müdrik oğlu Heydər Əliyev xalqa və gənc nəslə dərin hörmət və məhəbbət bəsləməkdə, xalqın, gənc nəslin xilaskarı, qayğıkeşi olmaqda əsrlərin tarixi salnaməsindən bəhrələnmiş, öyrənmiş və şərəfli əmək fəaliyyətində bu müqəddəs əxlaqi keyfiyyətləri inkişaf etdirib zənginləşdirmişdir.

Yeni Azərbaycan Partiyası vətənpərvərlərin, Azərbaycansevərlərin, dövlətçilik ideyalarının həyata keçirilməsində canını fəda etməyə hazır olanların partiyası olduğunu II qurultay tam aşkarladı. YAP-ın II qurultayı azərbaycançılıq ideyasını həyat simfoniyasına çevirdi. Xalqımızın tarixində yeni bir parlaq səhifə açdı. Dünyaşöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin zəngin irsinin, müqəddəs ideyasının gəncliyin tərbiyə mənbəyi olduğunu bu qurultay tamamilə aşkarlayıb təsdiq etdi.

Ümummilli liderimiz Heydər Əliyev iftixarla demişdir: «Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır».

Milli ideologiyanın əsasını təşkil edən azərbaycançılıq zəngin təlim-tərbiyə, bədii-estetik zövq və yüksək əxlaqi keyfiyyətlərin misilsiz mənbəyidir.

Azərbaycan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin, azərbaycançılıq ideyasının önündə xalqımızın müdrik oğlu, milli lideri, XX yüzilliyin dahi siyasətçisi Heydər Əliyev durur. Bizim xalqımızın müstəqilliyi əbədidir, dönməzdir, çünki onun keşiyində dünyaşöhrətli mərhum prezidentimiz Heydər Əliyev ziyası şölə saçmışdır. Ulu öndərimiz Heydər Əliyevin şərəfli ömür yolu insanın əxlaqi keyfiyyətini zənginləşdirir, ona gözəl təsir bağışlayır, uğurlu yollar göstərir.

«Əsrin müqaviləsi», Qədim İpək yolunun bərpası, ölkədə sülhün yaranması, vətəndaş müharibəsinin, qırğının, Vətən torpağının parçalanmasının qarşısını almaq, Vətənə və xalqa sadiq olmaq Heydər Əliyev siyasətinin bəhrəsidir.

1918-ci ilin 28 mayında Azərbaycan xalq Cumhuriyyəti elan edilmiş və cəmi 23 ay yaşamışdır. Məmməd Əmin Rsulzadə, Fətəli xan Xoyski, Əlimərdanbəy Topçubaşov, Nəsibbəy Usubbəyov, Həsən bəy Ağayev, Məmmədhəsən Hacınski Azərbaycan xalq Cumhuriyyətinin yaradıcılarıdır.



1998-ci ilin 30 yanvarında Heydər Əliyev «AXC-nin 80 illiyinin keçirilməsi haqqında» xüsusi sərəncam imzalamışdır.

XX əsrin sonunda xalqımız müstəqil dövlətini qurmağa nail oldu, lakin ermənilərin hərbi təcavüzü nəticəsində ərazimizin 20 faizi işğal edildi, bir milyondan çox həmvətənimiz öz doğma ata-baba vurdlarından didərgin düşdü.

1993-cü ildə vətəndaş müharibəsi başlamalı oldu, xalqımız yeganə xilaskarı, müdrik siyasətçi və dövlət xadimi Heydər Əliyevə üz tutdu.

Heydər Əliyev xalqı eşitdi, hakimiyyətə qayıtdı. 1992-ci il noyabr ayının 21-də Naxçıvanda YAP-ın təsis konfransı keçirildi. Konfransda Azərbaycanın müxtəlif regionlarından təəssübkeş qrupların 350-dən artıq nümayəndəsi iştirak etdi.

Konfransı giriş sözü ilə YAP-ın təşkilat komitəsinin sədri Heydər Əliyev açdı.

Konfrans nümanyədələri 20 noyabrda Qarabağda vertalyot qəzasında həlak olanların və şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdi.

Konfrans YAP-ın təsis olunması üçün qərar qəbul etdi. YAP-ın Proqram və nizamnamə layihələri qəbul olundu. Açıq səsvermə yolu ilə Heydər Əliyev YAP-ın sədri seçildi. Sonra partiyanın siyasi Şura və təftiş komissiyası seçildi. Heydər Əliyev konfransın işinə yekun vurdu. Siyasi şurada 12 nəfərdən ibarət idarə heyəti yaradıldı. Konfrans iştirakçıları Şəhidlər xiyabanına gedib ziyarət etdilər, məzarların üstünə gül dəstələri qoydular.

Azərbaycanın 91 nəfər ziyalısı 16 oktyabr 1992-ci il tarixli «Səs» qəzetində dərc olunan müraciətlə Heydər Əliyevdən Azərbaycana qayıtmasını xahiş etmişlər.

Heydər Əliyev 24 oktyabr 1992-ci ildə «Yeni müstəqil Azərbaycan uğrunda» adlı dərin məzmunlu yazısında Azərbaycan ziyalılarının müraciətinə cavab verdi. Heydər Əliyev cavabında beş mühüm vəzifənin, daha doğrusu, problemin həll olunmasını göstərdi.

Heydər Əliyev demişdir: «YAP Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir».

İndi onun sıralarında 230 mindən artıq üzv var ki, ondan 30 mindən artığı gənclərdir.

YAP saflıq, saf mənəviyyat üzərində qurulmuşdur. Hər kəs öz istəyi, vicdanı ilə bu partiyaya gələ bilər. Partiya gənclər üçün hər cür şərait yaradır.

Heydər Əliyev Qafqaz bölgəsində sülhün və sabitliyin möhkəmləndirilməsi-nin carçısıdır.

Dünya azərbaycançılarına 25 dekabr 1997-ci il tarixli müraciətində Heydər Əliyev demişdir ki, Azərbaycan sülhsevər ölkədir, bütün qonşular və dövlətlərlə qarşılıqlı əməkdaşlıq şəraitində yaşamağa hazırdır. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının həmrəylik günü olması qərara alındı.

Heydər Əliyev demişdir: «Bütün azərbaycanlıların indi dünyada bir vətəni var, o da müstəqil Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu, müstəqil Azərbaycan Respublikasıdır. Onun dövlətidir».

1996-cı ilin dekabrında Lissabonda keçirilən zirvə toplantısında Azərbaycan-Ermənistan münaqişəsinin dinc yolla, sülh yolu ilə həlli problemi müəyyən edildi. 12 may 1994-cü ildə atəşkəsə nail olunmuşdur.

Minski qrupu 1997-ci ilin sentyabrında bu prinsiplərə əsaslandı. «Ümumqafqaz evinin ağsaqqalı» olan Heydər Əliyev qadınlara böyük qayğı ilə yanaşır. Bu da onun qadına böyük qayğısının təcəssümüdür. Tarix təsdiqləyir ki, qadın dünyası incəlik, zəriflik, gözəllik, ülvi hisslər, saf, təmiz, pak duyğular dünyasıdır. Ana yalnız vətəndaş deyil, həm də övlad böyüdən, tərbiyəçi, ziyalı, alim, əməksevər, Vətənə və xalqa sadiq gözəl insandır.

Heydər Əliyevin sərəncamı ilə müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə 1998-ci ilin yanvarında Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Prof. Zəhra Quliyeva komitənin sədri təyin olunmuşdur.

Heydər Əliyevin ümummilli lider olduğunu 1998-ci il oktyabrın 2-də keçirilən prezident seçkisi təsdiqlədi. Vətəndaşların yüksək fəallığı şəraitində keçirilən bu seçki azad, sərbəst, ədalətli, obyektiv şəkildə, Konstitusiyaya tam uyğun aparıldı.

Heydər Əliyev 1999-cu ilin fevralında «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» fərman verdi. H.Əliyev 1990-cı ilin 30 sentyabrında SSRİ-nin və NSSR-nin deputatı seçildi.



1990-cı il noyabr tarixli sessiyada Naxçıvan Muxtar Respublikasından «sovet» və «sosialist» sözləri çıxarıldı, Naxçfvan M uxtar Respublikası adlandırıldı.

1990-cı ilin 3 sentyabrında Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri seçildi.

91 Azərbaycan ziyalısı 16.10.1992-də Heydər Əliyevə YAP-ın yaradılması xahişi ilə müraciət etdi. 24.10.1992-ci ildə Heydər Əliyev ziyalılara müsbət cavab verdi.

15 iyun 1993-cü ildə Heydər Əliyev Bakıya gəldi.

3 oktyabr 1993-cü ildə Prezident seçildi.

20.09.1994-cü ildə «Əsrin Muqaviləsi»ni imzaladı. 4 oktyabr 1994-cü ildə dövlət çevrilişinin, 15-17 martda Dövlətçiliyə qarşı silahlı müdaxilənin qarşısını aldı.

17 noyabr 1995-ci ildə Konstitusiya qəbul olundu. 02.10.1998-ci ildə ikinci dəfə Heydər Əliyev Azərbaycan Prezidenti seçildi.

20-21 dekabr 1999-cu ildə YAP-ın I qurultayı keçirildi. Heydər Əliyev 18 iyun 2001-ci ildə «Dövlət dilinin tətbiqi işinin təkmilləşməsi haqqında» fərman verdi.

9-10 oktyabr 2001-ci ildə Heydər Əliyevin sərəncamı ilə Dünya azərbaycanlılarının I qurultayı Bakıda təntənəli keçirildi.

21 noyabr 2001-ci ildə YAP-ın II qurultayı keçirildi. İlham Əliyev YAP sədrinin müavini seçildi. Qurultay Azərbaycan tarixinin biyabırçı səhifələrinin bağlanmasını aşkarladı. Qurultay Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dəyişiklər yaratdı. YAP siyasi mübarizələr dolu şərəfli bir yol keçdiyini sübuta yetirmişdir. Yarandığı müddətdə xalqa və Vətənə şərəfli xidmət etmişdir.

Müstəqilliyimizin 10-cu ildönümünə parlaq istiqamət verən partiyamız xalqımızın əhəmiyyətli islahatların həyata keçirilməsində, Azərbaycanın dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inkişafında YAP-ın rolu misilsizdir. İndi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində YAP-ın rolu şərəflidir.

Azərbaycançılıq və müstəqil dövlətçilik ətrafında birləşmək mənəvi borcumuzdur. Ölkəmizdə söz, mətbuat azadlığı təşəkkül tapmış, insan haqlarının qorunması təmin edilmişdir.

Müxalifət adı altında pozucu fəaliyyət göstərən ziyankarlar özləri özlərini ifşa etmiş, Ayaz Mütəllibov, İsa Qəmbərov, Rəsul Quliyev, Etibar Məmmədov, Əli Kərimov, İlyas İsmayılov kimi

cinayətkar tüfeylilər xalqın dərin nifrətini qazanmışlar. Bu quldurlar xaricdəki havadarlarından aldıqları sədəqələrin hesabına mənfur ermənilərin əlaltısına çevrilmişlər.

Bu riyakar alçaqların nəşr etdirdikləri «Yeni müsavat», «Azadlıq», «Son söz», «Hüriyyət» kimi sızmaqaralar şər, böhtan, yalan, uydurma, mifya yazır, milli dövlətçiliyimizə zərbə vurmaq hiyləsi yürüdür, sonra da ifşa olunurlar. Çünki yalançı və cinayətkar müxalifət xalqın qəzəbini və nifrətini qazanıb məhv olur.

YAP-ın II qurultayı XXI əsrdə dövlətimizin və xalqımızın gələcək firavan həyatının səmərəli yolunu, qüdrətli və zəngin bir ölkəyə çevrilməsinin parlaq proqramını vermişdir.

Azərbaycan xalqı YAP-nın ətrafında daha sıx duracaq, dünyaşöhrətli Heydər Əliyevin müqəddəs əqidəsinə sadiq qalacaq, dövlətçiliyimizi inkişaf etdirəcək, azərbaycançılıq ideyasının memarı Heydər Əliyevə böyük hörmət və məhəbbət bəsləyəcəkdir.

Ulu öndərimiz Heydər Əliyevin şərəfli davamçısı hörmətli Prezidentimiz İlham Əliyevin ətrafında xalqımız möhkəm birləşəcək və onun uğurlu ideyasının səmərəli həyata keçirilməsində var qüvvəsini əsirgəməyəcək, onun ətrafında möhkəm birləşəcəkdir.



# III BÖLMƏ

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYATIN TƏLİM - TƏRBİYƏVİ MAHİYYƏTİNƏ QAYĞISI

Bəşəriyyət tarixinə dahi şəxsiyyətlər, alimlər, şairlər, yazıçılar, mütəfəkkirlər, qəhrəmanlar verən Azərbaycan xalqının şərəfli həyat salnaməsi vardır. Xalqı yaşadan onun yetirdiyi dahi şəxsiyyətlər olduğunu tarix təsdiq etmişdir.

Azərbaycanda müstəqil dövlətçiliyin memarı 1969-cu ildən 1982-ci ilə qədər dünya şöhrətli Heydər Əliyev olmuş, xalqımızın xoşbəxtliyi, azadlığı, bütövlüyü keşiyində durmuş, ədəbiyyatın, mədəniyyətin, elm, təhsil və maarifin qayğıkeş hamisi, mahir xilaskarı olmuşdur.

İnsan idrakının mənəvi təminatçısı, həyat hadisələrinin obrazlı ifadəsini əks etdirən, cəmiyyətin mənəvi həyatını zənginləşdirən Azərbaycan ədəbiyyatı haqqında Heydər Əliyev deyir: «Azərbaycan ədəbiyyatı milli kökləri ilə yaşayan, özünü yaşadan, milli varlığını sübut edən ədəbiyyatdır».

Ümummilli liderimiz Heydər Əliyev xalqımızın bədii istedada və yüksək mədəniyyətə, zəngin təhsilə qadir olduğunu göstərir, elmi-nəzəri əsərlərində ədəbiyyatın və təhsilin parlaq proqramını verir.

Ulu öndərimiz Heydər Əliyevin müdrik kəlamı gözəl təsir bağışlayır: «Tarixən qısa müddət ərzində Azərbaycan ədəbiyyatı təkcə görkəmli əsərlərlə deyil, həm də mövzularla, yeni janrlarla və formalarla zənginləşdi, böyük və cəsarətli bədii ümumiləşdirmələr yoluna çıxdı, yeni keyfiyyətlər kəsb etdi».

Ümumxalq məhəbbəti qazanmış dünyaşöhrətli Heydər Əliyevin zəngin ədəbi irsində ədəbiyyatın, mədəniyyətin, incəsənətin, elmin, təhsilin, maarifin məzmunu, ideyası, tərbiyəvi təsir qüvvəsi ətraflı şərhini tapır, öyrənilməsinin səmərəli üsulları müəyyənləşdirilir və parlaq proqramı aşkarlanır.

Müstəqil dövlətçiliyimizin xilaskarı Heydər Əliyevin şərəfli ömrü gələcək nəsillərə örnəkdir, xüsusilə Azərbaycana rəhbərlik etdiyi əsrə bərabər otuz il Heydər Əliyev erası, Heydər Əliyev rəhbərliyinin parlaq zirvəsidir.

Heydər Əliyevin zəngin irsinin elmi-nəzəri, pedaqoji-metodik, təlim-tərbiyəvi və bədii-estetik təsir qüvvəsi çox dərin mahiyyətli, faydalı və əhəmiyyətlidir.

Heydər Əliyevin M.P.Vaqifi «dövrün şirin şairi». Q.Zakiri «zamanın döyüşkən oğlu», M.F.Axundovu «xalqın maarifçi filosofu», C.Məmmədquluzadəni «mənəviyyat mənbəyi», Səttar Bəhlulzadəni «Azərbaycan təbiətinin nəğməkarı» adlandırdığı gözəl təsir bağışlayır, bu görkəmli sənətkarların mənalı həyatını və zəngin irsini öyrənməyin zəruriliyini əsaslandırır.

Oxucu Heydər Əliyevin «biz azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq» ideyasını öyrənməyə, dərk etməyə çalışır və bunu özünə şərəf bilir. Ona görə ki, azərbaycançılıq zəngin və müqəddəs ideyadır. Bu ideyanın banisi Heydər Əliyevdir, bu ideya Heydər Əliyev ideyasıdır.

Heydər Əliyev İslam mədəniyyətinə, klassik və şifahi xalq ədəbiyyatına yüksək qiymət verir, ədəbiyyatın qüvvətli tərbiyə vasitəsi olduğunu göstərir. Ulu öndərimiz Heydər Əliyev Xaqani, Məhsəti, Nizami, Füzuli, Vaqif, Vidadi, Nəsimi, Zakir kimi sənətkarların yaradıcılıq yolunu, zəngin ədəbi-bədii irsini yüksək qiymətləndirir və gənc nəslə səmərəli öyrədilməsinin proqramını verir.

Xalq hikməti, xalq biliyi, xalqın mənəvi xəzinəsi adlandırılan folklora, şifahi xalq ədəbiyyatına qayğı bəslənməsini, tədqiq edilib, öyrədilməsini, dərsliklərə və qiraət-oxu kitablarına salınıb oxucuların mütaliəsinə verilməsini xüsusi vurğulayan dahi tarixi şəxsiyyət Heydər Əliyev təhsilin səmərəli qurulmasına xüsusi diqqət yetirir.

Heydər Əliyevin «Xalqın daşlaşmış tarixi» adlandırdığı abidələr və xalqın mənəvi abidələri olan «Avesta», «Kitabi-Dədə Qorqud», «Manas» dastanları zəngin tərbiyə mənbəyidir. Heydər Əliyevin «Azərbaycanın istedadlı şəxsləri dəyərli əsərlər yaratmış, incəsənət nümunələrini meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər» müdrik mahiyyətli parlaq hökmü oxucuların mütaliəsinə gözəl təsir bağışlayır, pedaqoqlar və müəlliflər dərslikləri, uşaq jurnallarını, oxu kitablarını bu materiallarla zənginləşdirirlər.

Dərin düşüncə, uzaqgörənlik, xeyirxahlıq, parlaq təfəkkür, müdriklik kimi ali xüsusiyyətlərə malik olan Heydər Əliyev



Azərbaycanın müstəqilliyini dönməz və əbədi etmiş, Vətənini, millətini təhlükələrdən qurtarıb sabitlik və inkişaf yoluna çıxartmışdır.

Buna görə də qədirbilən xalqımız dahi rəhbərin xatirəsini əbədiləşdirir, onun abidəsi ucaldılır, adına xiyabanlar qurulur. Bütün bu uğurlar, xalqın hörmət və məhəbbəti Heydər Əliyev dühasına parlaq hədiyyədir. Ona görə ki, xalqın taleyüklü, təlatümlü dövrlərdə azad olması ulu öndərin əzəmətli dühasının təntənəsidir.

Azərbaycan xalqının müdrikliyinə inanan, xalqın bütün enerjisini özündə təcəssüm etdirən dahi dövlət xadimi Heydər Əliyev həmişə uşaqlara, gənclərə böyük qayğı nümunəsi göstərmişdir. Onun amalı xalqa xidmət etmək olmuş, ölkəmizin xoşbəxt gələcəyi naminə sosial-iqtisadi və regional inkişaf proqramını yaratmışdır.

Azərbaycanda hüquqi və sivil bir dövlət yaratmış, ictimai-siyasi sabitliyə nail olmuş Heydər Əliyev iftixarla demişdir: «Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracam». Ulu öndər Heydər Əliyev dövlətçilik fəaliyyətinin əsasını bu müdrik kəlam əsaslandırır və təsdiq edir.

Heydər Əliyevin mənalı həyat yolunu gələcək ümidimiz olan gənc nəslə öyrətmək, gənc nəslin milli və bəşəri dəyərlər əsasında, milli soykökümüzə hörmət ruhunda tərbiyə olunmasına çalışmaq təhsil işçilərinin, müəllimlərin, tərbiyəçilərin, vətəndaşlıq borcudur. Mahir pedaqoqlar bu şərəfli işin carçısı olmalıdırlar.

Azərbaycanın demokratik və dünyəvi dövlət quruculuğunun, ilk Konstitusiyamızın, monolit Yeni Azərbaycan Partiyasının, milli ordumuzun memarı, respublikamızın Avropa Şurasına tam hüquqlu üzvü qəbul olunmasının təşkilatçısı Heydər Əliyev ədəbiyyatın və təhsilin qayğıkeş hamisi kimi ümumxalq hörməti qazanmış dahi şəxsiyyətdir.

Müqəddəs azərbaycançılıq ideologiyasının yaradıcısı Heydər Əliyevin 91-lərin təkidi və tələbi ilə hakimiyyətə qayıtması ölkədə böyük dönüş yaratdı, bütün sahələrdə islahatlar apardı, parlaq uğurlar qazanıb əbədiyaşarlıq haqqına nail oldu və onun zəngin irsi bütün dünyanın sərvətinə çevrildi.

Dünya miqyaslı siyasətçi Heydər Əliyev Azərbaycanın elmi və mədəni potensialını yaratdı, xalqımızın firavanlığı naminə

səmərəli fəaliyyət göstərdi. Ulu öndərin «İpək yolu», «Əsrin müqaviləsi», «Bakı-Tbilisi Ceyhan», «Bakı-Tbilisi Ərzurum» neft və qaz kəmərləri layihələri uğurlu xarici siyasət doktrenasıdır, Azərbaycanın bu gününə və gələcəyinə istiqamətlənmiş elmi əsaslara istinad edən konseptual fəaliyyət proqramıdır.

Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyini əhatə edən 1969-1982-ci illər ölkəmizin intibah dövrü olmuşdur.

1970-ci illərdə 8718 müəllimə orden və medallar verilmiş, 817 nəfər əməkdar müəllim adı almış, üç nəfər müəllim Sosialist Əməyi qəhrəmanı adına layiq görülmüşdür. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın əməkdar ali məktəb işçisi adı təsis edilmişdir.

1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəblərində 250-dən çox ixtisas üzrə on beş mindən artıq azərbaycanlı gəncin ali təhsil alıb yüksək ixtisaslı mütəxəssis olması Heydər Əliyevin gənclərə böyük hörmət və məhəbbətinin qayğısıdır.

Ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində həmin gənclər Rusiya, Belarus, Ukrayna, Baltikyanı ölkələrdə Azərbaycan diasporunun formalaşmasında şərəfli fəaliyyət göstərirlər.

Heydər Əliyev 1999-cu ildə «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nı imzaladı. İndi dünyanın inkişaf etmiş qırxdan artıq ölkəsində 160 ixtisas üzrə üç mindən çox azərbaycanlı gənc təhsil alır. Gənclərimiz yalnız Rusiyada deyil, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, İran, Çin, Çexiya, Slovakiya, Ruminya, Polşa, Misir və s. ölkələrin ali məktəblərində uğurla təhsil alırlar.

Əlli xarici ölkədən Azərbaycanın müxtəlif ali məktəblərində iki mindən artıq tələbə, magistr və aspirant elmi biliklərə yiyələnirlər.

Heydər Əliyevin təhsil sisteminə göstərdiyi qayğı nəticəsində altı ali məktəbə muxtariyyat hüququ, bir çox institutlara «universitet» statusu verilmiş, ümumtəhsil məktəb şagirdlərinin dərslikləriə dövlət təminatına keçilməsi qərara alınmışdır. İndi «Dərsliklərin hazırlanması, nəşri və təminatı sahəsində Dövlət Proqramı» həyata keçirilir. Ali məktəblərə yüksək bal toplayıb



qəbul olan gənclərdən hər il iyirmi beş nəfərə prezident təqaüdü verilməsi gənc nəslə qayğının nəticəsidir.

Heydər Əliyevin «Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır» tarixi çağırışı ilə əlaqədar verdiyi Fərman təhsilə qayğının nəticəsidir. Ümumtəhsil məktəblərində Azərbaycan dili, ədəbiyyat, Azərbaycan coğrafiyası, fənlərinin tədrisi gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında çox faydalıdır. Ona görə ki, bu fənlərin tədrisi gənc nəslin biliyini və mənəvi aləmini zənginləşdirir.

Heydər Əliyevin «Mən yer üzündə müəllimdən başqa yüksək ad tanımıram» kəlamı təhsilə, müəllimə dərin qayğı və məhəbbətin nəticəsidir. «Cəmiyyətimizdə Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, onlar hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar» deyən Heydər Əliyev müəllim şəxsiyyətini yüksək qiymətləndirir, müəllimlərə dərin hörmət bəsləyir.

Böyük öndərimiz Heydər Əliyev uşaqları, gəncləri sevmiş, onlara həmişə böyük qayğı bəsləmişdir. Dahi şəxsiyyət Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezidentimiz İlham Əliyev gənc nəslin azərbaycançılıq ruhunda səmərəli tərbiyə olunmasında xeyirxah köməyini əsirgəmir, ədəbiyyatın və təhsilin qayğıkeş hamisi Heydər Əliyevin müqəddəs ideyasını şərəflə həyata keçirir, parlaq uğurlar qazanır.

Təhsilin uğurla həyata keçirilməsində müəllimin səmərəli fəaliyyəti misilsizdir. Təhsil siyasəti ümumdövlət siyasətinin tərkib hissəsi olduğuna görə vəhdətdə həyata keçirilir. Təhsil konsepsiyası və təhsil qanunu milli tərbiyə sisteminin hazırlanıb öyrənilməsini zəruri sayır. Təhsil cəmiyyətin gələcək taleyini müəyyən edən milli sərvətdir. Bazar iqtisadiyyatına keçid dövründə təhsil sistemi inkişaf edir, yeniləşdirilir.

Heydər Əliyev milli təhsil quruculuğu sahəsində dünyaşöhrətli siyasətçi, təhsil və tərbiyənin qayğıkeşi, müdrik cəfakeşi, «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» hökmünü verən dahi tarixi şəxsiyyətdir! Görkəmli maarifpərvər, elmin və təhsilin qayğıkeşi, mahir müəllim ömrü yaşamış Heydər Əliyevə xalq yekdillik və həmrəylik əqidəsini bildirən «Heydər–xalq!», «Xalq-Heydər!» heyrətamiz kəlamını dillər əzbəri etmişdir. Bu müdrik kəlam milyonların qəlbinə həkk olunmuş, Heydər Əliyevə ümumxalq məhəbbəti qazandırmışdır.

Heydər Əliyev 1969-82-ci illərdə Azərbaycan dövlətçiliyini qüvvətləndirmiş, təhsili inkişaf etdirmişdir. Ancaq 1988-1990-cı illərdə Ə.Vəzirovun səriştəsizliyi, ermənipərəstliyi, yerliçilik mərəzinə tutulması, riyakar inadkarlığı, bacarıqsızlığı, milli psixologiyanın düşməni olması, səriştəsiz quldurları ətrafına yığması Azərbaycan dövlətçiliyinə, təhsilinə, elminə, ədəbiyyat və mədəniyyətinə ağır zərbələr vurmuşdur.

Tarixi həqiqətdir ki, bədbəxt, başabəla «siyasi xadim» adı ilə hakimiyyətə gələnlər, Ayaz Mütəllimov kimi quldurlar torpaqların bir hissəsini erməni işğalçılarına verdilər, bir milyondan artıq vətəndaşı doğma etnik torpaqlarından, evlərindən didərgin, qaçqın saldılar.

Dövlət xadimi Heydər Əliyevin 1990-cı ilin iyulunda Azərbaycanın cənnət guşəsi Naxçıvana qayıtması Azərbaycanın müstəqilliyini dünya dövlətlərinə tanıtdı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycana gəlməsi və dövlət haşçısı olması dövlətçiliyimizin möhkəmləndirilməsi mərhələsinin bünövrəsini qoydu.

Heydər Əliyevin şərəfli fəaliyyəti nəticəsində 1993-cü ilin yayında Ə.Hümbətovun yaratmaq istədiyi «Talış-Muğan Respublikası» ləğv olundu, 1994-cü ildə başlanan vətəndaş müharibəsinin qarşısı alındı. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi ifşa edildi, atəşkəsə nail olundu, əsrin neft kontraktı imzalandı, Lissabon sammitində diplomatik uğurlar qazanıldı, sərbəst bazar iqtisadiyyatı siyasəti və özəlləşmə proqramı həyata keçirilməyə başladı.

Bu dövrdə «Azərbaycan dövlətçiliyi tarixi» mövzusunda kursların yaradılması gənclərə gözəl təsir bağışladı, onların təlim-tərbiyəsini zənginləşdirməyə əsas verdi, məktəbə və təhsilə qayğı ümumxalq vəzifəsinə çevrildi.

1995-ci il noyabrın 12-də Konstitusiya qəbul edildi. Konstitusiyada təhsil sahəsindəki ardıcıl siyasət proqram kimi bütün məktəb, elm və təhsil sahəsində uğurla həyata keçirilməyə başlandı.

Heydər Əliyevin fəaliyyətində təhsil xalqın qiymətli milli sərvəti kimi həmişə yüksək qiymətləndirilmiş və ona qayğı qüvvətləndirilmişdir. Heydər Əliyev təhsilə, maarifə, tərbiyəyə, mənəviyyata, mədəniyyətə böyük qayğı göstərmiş, gənc nəslin təlim-tərbiyəsi, maariflənməsi, mənəvi və fiziki kamillik fəaliyyətinə yiyələnməsi sahəsində xeyirxah tədbirlər həyata keçirmiş, parlaq uğurlar qazanmışdır.



Heydər Əliyev elmi idarələrin fəaliyyəti, aspirant və dissertantların, elmi kadrların hazırlanması, ümumtəhsil məktəblərinin, texnikumların, texniki-peşə təhsili məktəblərinin və ali məktəblərin səmərəli inkişafı sahəsində parlaq proqram vermiş, faydalı üsullar müəyyənləşdirilmiş, ona rəhbərliyi planlaşdırmışdır.

Heydər Əliyev milli kadrları «qızıl fondumuz» adlandırmış, «Bilik yeganə meyardır» tezisini irəli sürmüş, ali məktəblərdə rəsmi tələblərə əməl olunmasını və biliyin düzgün qiymətləndirilməsini vurğulamış, «uşaqlar və gənclər üçün mənəvi saflıq və işə sədaqətli münasibət nümunəsi» olan müəllimlərin şərəfli işləməsini xüsusi qeyd etmişdir. Ona görə ki, müəllimin vəzifəsi gənc nəslə tərbiyə vermək və bilik öyrətməkdən ibarətdir.

Pedaqoji kolektivlərin vəzifəsi tərbiyəni yüksək səviyyədə verməsindən və pedaqoji mənəvi cəhətdən saf, hazırlıqlı olmasından ibarətdir. Ali məktəbdə sağlam, mənəvi-psixoloji iqlimi yaratmaq və yaşatmaq dövrün tələbidir. Heydər Əliyevin ali məktəblərə gəlməsi, professor-müəllim heyyətinə və tələbə kollektivinə dəyərli tövsiyyələr, məsləhətlər və göstərişlər verməsi təhsilə qayğının parlaq və əyani nümunəsidir. Heydər Əliyevin əlverişli mənəvi-psixoloji şərait yaratmaq, prinsipiallıq və tələbkarlığa əməl etmək haqqında göstərişləri proqram sənədidir.

Heydər Əliyev təhsilə və müəllimə yüksək qiymət verir: «Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi, müdrikliklə və səbrlə bizə öyrətmiş və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq».

Heydər Əliyev «Təhsil haqqında qanun» əsasında rəsmi tədbirlər görülməsini, müxtəlif pərakəndəliyə son qoyulmasını, dərslik və dərs vəsaitlərinin yaradılmasını, klassiklərin əsərləri və şifahi xalq ədəbiyyatı nümunələri ilə kitabxanaların zənginləşdirilməsini və müəllimlərin daha məsuliyyətli çalışmalarını xüsusi vurğulamış, qarşıdakı vəzifələrin zəruri icra olunmasını göstərmişdir.

Heydər Əliyev 1996-cı il sentyabrın 2-də Bakının Nərmanov rayonunda yeni orta məktəbin açılışındakı nitqində demişdir: «Mən indi də on illər keçib üstündən – müəllimlərimi heç vaxt unutma-

mışam və ömrümün son dəqiqəsinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, can sağlığı, sədaqət diləyirəm».

Heydər Əliyevin müdrik kəlamı müəllimlərin qarşısında daha məsuliyyətli, daha şərəfli, daha səmərəli çalışmağı, şagirdlərin təlim-tərbiyəsi ilə daha ciddi məşğul olmağı, onlara elmlərin əsaslarını şüurlu mənimsətməyi və yüksək əxlaqi keyfiyyətləri aşılamağı şərəfli vəzifə qoyur.

Heydər Əliyev yüksək ixtisaslı kadrların hazırlanmasında, təhsil müəssisələri və onların maddi-texniki bazasının genişləndirilməsində şərəfli əməyini əsirgəməmiş, xeyirxah tədbirlər görmüş, dövlət səviyyəsində kömək etmişdir.

Heydər Əliyev təkidlə demişdir: «Gənclərimiz təhsil almalıdır. Təhsili olmayan gəncin xoşbəxt gələcəyi ola bilməz». Buna görə də Heydər Əliyev həmişə yüksək ixtisaslı gənc kadrların yetişdirilməsini ümumdövlət siyasətinin ayrılmaz tərkib hissəsi kimi həyata keçirməyi ön plana çəkmiş və icrasına nail olmuşdur.

Heydər Əliyevin təşəbbüsü ilə keçmiş ittifaqın ali məktəblərində azərbaycanlı tələbələrin təhsil alması 1970-ci ildən başlamışdır. Həmin il əlli nəfər gənc respublikadan kənarda təhsil almağa göndərilmişdir. Sonrakı illərin hər birində keçmiş ittifaqın qırx üç şəhərindəki yüz əlli iki ali təhsil müəssisələrinə səkkiz yüz iyirmi altı gənc azərbaycanlı oğlan və qız göndərilmişdir. Onlar iki yüz qırx dörd ixtisas üzrə təhsil almışlar. Həmin tələbələr Heydər Əliyevin kadrları kimi səmərəli elmi-pedaqoji fəaliyyət göstərmiş, hörmət qazanmışlar.

Heydər Əliyev gənc nəslin milli ruhda tərbiyə olunmasının, bir çox dillərə, dünya xalqlarının elminə, ədəbiyyat və mədəniyyətinə yiyələnməsinin vacibliyini göstərmişdir. Buna görə də respublikamızın ali və orta ixtisas təhsili məktəblərində dünyanın otuz ölkəsindən gəlmiş iki mindən çox əcnəbi oxuyur. Otuz səkkiz xarici ölkədə üç min nəfərədək azərbaycanlı təhsil alır.

Heydər Əliyev 1997-ci il 29 avqust tarixli kadr problemi ilə bağlı görüşdə demişdir: «Mən Azərbaycan dövlətinin başçısı, prezidenti kimi hazırkı işlərlə, problemlərlə yanaşı, daima respublikamızın gələcəyi haqqında düşünürəm, ona qayğı göstərirəm və bunun üçün bu gün imkanım daxilində olan bütün tədbirləri həyata



keçirirəm. Bu tədbirlərdən biri də Azərbaycan gənclərinin ali təhsil almasının təkmilləşdirilməsidir».

Dünyaşöhrətli prezident Heydər Əliyevin Azərbaycan xalqına, Azərbaycan Vətəninə, Azərbaycan millətinə, gələcək ümidimiz olan gələcəyin qurucuları gənc nəslə böyük qayğısının bu parlaq nümunəsi oxucunun qəlbini təlatümə gətirir, hamını sevindirir və hörmətli prezidentə ümumxalq məhəbbəti qazandırır.

Heydər Əliyevin təhsil müəssisələri və onların maddi-texniki bazasının genişləndirilməsində əvəzsiz xidmətləri həmişə xalqımızı sevindirmişdir. Azərbaycanda 1970-ci ildə 70 min tələbəni əhatə edən on üç ali məktəbin sayı on səkkizə çatdırılmışdır. Bu dövrdə tələbələrin miqdarı artıb yüz beş min olmuşdur.

Heydər Əliyevin böyük qayğısı və rəhbərliyi əsasında ali məktəblərin bütün sahələri inkişaf etdirilir, yüksək göstəricilərə nail olur. Eyni zamanda, ümumtəhsil orta məktəbləri və ixtisas məktəbləri yeni nailiyyətlər qazanırlar.

Heydər Əliyevin qanunun aliliyini qorumaq və vəzifəsindən, ictimai mövqeyindən asılı olmayaraq ali təhsilə böyük qayğı bəsləməsi, onu inkişaf etdirməsi həmişə sevindirici olmuş, ona böyük hörmət qazandırmışdır.

Heydər Əliyev fədakar fəaliyyəti ilə təhsil sahəsində görkəmli uğurlar qazanmış, şərəfli xidmətlərinin ölməzliyini, əbədiliyini bütün sahələrdə təsdiq etmişdir.

Heydər Əliyevin siyasi kursunun davamçısı hörmətli Prezidentimiz İlham Əliyev ədəbiyyatın və təhsilin qayğıkeşi Heydər Əliyevin müqəddəs azərbaycançılıq və türkçülük ideyasını təntənəli şəkildə həyata keçirir.

Dahi dövlət xadimi Heydər Əliyevin sözün qüdrətindən və hikmətindən istifadə edərək Azərbaycan xalqının inkişaf yolunu parlaq zirvəyə qaldırması böyük tarixi şəxsiyyət və müdrik mütəfəkkir olduğunu təsdiqləyir, ona ümumxalq məhəbbəti qazandırır, əbədi yaşar düha Heydər Əliyevin adını milyonların qəlbinə həkk edir.

Təhsil qurucusu və qayğıkeşi Heydər Əliyev demişdir: «Azərbaycan əsrlər boyu müstəqil olmaq arzusu ilə yaşamış, xalqımız əsrlər boyu azad olmaq istəmiş, öz müstəqil dövlətinin olması arzusu ilə yaşamış, müstəqil ölkəsinin vətəndaşı olmaq istəmişdir».

Azərbaycan xalqını bu müqəddəs arzusuna dünyaşöhrətli, dahi dövlət xadimi Heydər Əliyev çatdırmış, Azərbaycan xalqı azad olmuş, müstəqil dövlətini qurmuş, elm, təhsil, maarif, ədəbiyyat və mədəniyyətinin əbədi saflığı kimi parlaq uğurlar qazanmışdır. Azərbaycan xalqının müdrik oğlu, bənzərsiz və əvəzsiz lideri, dahi siyasətçi, görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyev ədəbiyyat və təhsilin müdrik qayğıkeşi olmuş, ədəbiyyat və təhsilin inkişaf proqramını zirvələrə yüksəltmişdir.

Tarixdə möhkəm dövlət quruculuğunu həyata keçirmiş, əfsanəvi türk qəhrəmanı Atilla, müstəqil Azərbaycan dövləti yaratmış Şah İsmayıl Xətai, müasir Türkiyə Respublikasının yaradıcısı böyük Atatürkdən sonra bütün Türk dünyasının görkəmli dövlət xadimi, zəmanəmizin canlı Atatürkü Heydər Əliyev Müstəqil Azərbaycan dövləti yaratmış, ilk Milli Konstitusiyanı qəbul etmiş, bütün sahələr üzrə elmlərin inkişaf proqramını vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müdrik kəlamları, ədəbi-tarixi prosesi aşkarlaması Azərbaycan ədəbiyyatının parlaq inkişaf proqramıdır. Onun zəngin irsi yaradıcı ziyalılarımıza, sənətkarlara ədəbiyyatımızı zənginləşdirməyin misilsiz sahələrini müəyyənləşdirir, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi, təhsilimizi və təhsil xadimlərimizin səmərəli fəaliyyətini öyrənməyin səmərəli vəzifə olduğunu göstərir.

Heydər Əliyevin mənalı ömür yolu ədəbiyyat və incəsənətlə bağlı olmuş, həqiqi sənətkarı zəmanəsinin və xalqının müdrik oğlu, bədii həyat salnaməsinin yaradıcısı adlandırmış, onların yaradıcılıq yolunu öyrənməyi zəruriliyini göstərmişdir.

Azərbaycan xalqının yazılı və şifahi ədəbiyyatı onun milli-mənəvi sərvəti, bədii-tarixi salnaməsidir. Dünya ədəbiyyatı mədəniyyətinə Xaqani, Nizami, Məhsəti, Nəsimi, Xətai, Füzuli, Vidadi, Vaqif, Axundov, Sabir, Cəlil Məmmədquluzadə, H.Cavid, Ə.Cavad, S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rəhim, O.Sarıvəlli, İsmayıl Şıxlı kimi dahi söz ustaları verən Azərbaycan xalqının zəngin ədəbiyyatı qədim və mürəkkəb bir inkişaf yolu keçmişdir.

Ədəbiyyat söz sənətidir, ədəblərin toplusudur, zərif, incə, təsirli tərbiyə vasitəsidir, bədii-estetik zövq mənbəyidir, təlim-tərbiyəvi mahiyyətli, obrazlı həyat salnaməsidir. Gənc nəslin ədəbiyyatı mükəmməl öyrənməsi səmərəli vəzifədir.

Ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə Prezident Heydər Əliyevin böyük qayğısı söz sənətkarlarını ilhamlandırmış, müəllim



və tərbiyəçilərin tələbkarlığını qüvvətləndirmişdir. Gənc nəslin insanpərvərlik, vətənpərvərlik, əməksevərlik, vətəndaşlıq məktəbi olan ədəbiyyat qüvvətli təlim-tərbiyə vasitəsidir, həyatın güzgüsü, həyat hadisələrinin obrazlı, bədii ifadəsidir.

Şairlər, yazıçılar, dramaturqlar fitri istedada malik yaradıcı insanlardır, yaradıcılıq azadlığın sinonimi və parlaq zirvəsidir. Tarixi həqiqətdir ki, yaradıcı əmək hörmət qazandırır, sərvəti artırır, cəmiyyətə və insana maddi və mənəvi baxımdan xidmət edir.

Qədim tarixə malik olan Azərbaycan ədəbiyyatı haqqında Heydər Əliyev iftixarla demişdir: «Azərbaycan xalqı öz müqəddəratını əlinə aldıqdan sonra əvvəlki nəsillər tərəfindən yaradılmış zəngin klassik mənəvi irsə də yiyələnmiş, öz tarixini dərk və bərpa etmişdir... Orta əsr Şərqinin ən böyük şairləri və mütəfəkkirləri Xaqani, Nizami, Füzuli qədim Azərbaycan mədəniyyətinin digər karifeyləri, dünya sivilizasiyasını dahiyanə əsərlərlə zənginləşdirən bu şəxsiyyətlər məhz sovet dövründə, xalqımızın mənəvi həyatında vətəndaş hüququ qazanmış, müasir mədəniyyətlə qaynayıb qarışmışdır».

Deməli, sovetlər dövrünə qara yaxmağı qəbul etməyən ulu öndərimiz Heydər Əliyev gənclərin birinci forumundakı nitqində demişdir: «O dövrdə Azərbaycan xalqının elmi, təhsili, mədəniyyəti sürətlə inkişaf etmişdir». Azərbaycan ədəbiyyatında zəhmət adamlarının zəngin bədii obrazları yaradılmış, arxitektorlarımız bir sıra ictimai-mədəni abidələr ucaltmışlar.

Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildən hakimiyyətə gəlməsi intibah yaratmış, ədəbiyyat, elm və mədəniyyətin inkişafında parlaq uğurlar qazanmışdır. Nizaminin anadan olmasının 850 illik yubileyinin keçirilməsi, əsərlərinin Azərbaycan və dünya xalqlarının dillərində çap olunması, Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsini gücləndirmək haqqında qərarın çıxarılması, Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı Heydər Əliyevin şəxsi təşəbbüsünün şərəfli nəticəsidir.

Azadlığın carçısı Xəlil Rza poeziyasının, Hüseyn Cavid və Əhməd Cavad zəngin irsinin qiymətləndirilməsi alqışlarla qarşılanır.

1937-1938-ci illərin repressiyaları Azərbaycan xalqının görkəmli şəxsiyyətlərini məhv etmişdir. Xəlil Rza Ulutürkün «Davam edir-37» adlı salnaməsində tarixi həqiqət göstərilir.

Xəlil Rza Ulutürk Heydər Əliyevi məğrurluq zirvəsinə yüksəldir, xalqın azadlığını onun müdrikliyində, dahiliyində, xeyirxahlığında görüb yazır:

Azadlıq Allahı tək əyləşib öz yerində!
Yerin, göyün nuru var peyğəmbər gözlərində!
Rahatlığı nur saçır, əzəməti dərində,
Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük,
Dədə Heydər – Atatürk!

Heydər Əliyev ədəbiyyata, elmə, mədəniyyətə böyük qayğı bəsləyir, bədii əsərlərin insana mənəvi zövq verməsini, onu kamilləşdirməsini və zənginləşdirməsini çox inandırıcı göstərir, bədii ədəbiyyatın qüvvətli siyasi tərbiyə vasitəsi olduğunu vurğulayır.

Bədii əsərlər gənc nəslin zehninə qüvvətli mənəvi təsir edir, vətəndaş yetginliyini, mədəni keyfiyyətlərini zənginləşdirir. Ədəbiyyat gənc nəslin təlim-tərbiyə vasitəsi, bədii-estetik zövq və yüksək əxlaqi keyfiyyətlər mənbəyidir.

Zəngin irsi, əsərləri, nitqləri, müşahidələri mədəniyyətimizin və ədəbiyyatımızın proqram sənədləri olan Heydər Əliyev Səttar Bəhlulzadəni «Azərbaycan təbiətinin nəğməkarı», Molla Pənah Vaqifi «Dövrün şirin şairi», Q.Zakiri «Zamanın döyüşkən oğlu», M.F.Axundovun «Xalqın maarifçi filosofu», C.Məmmədquluzadəni «Mənəviyyat mənbəyi, ənənəvi dayaq» adlandırmış, əsərlərinin təlim-tərbiyəvi mahiyyətini yüksək qiymətləndirmişdir.

Heydər Əliyev M.H.Şəhriyarın 1998-ci ildə keçirilən 90 illik yubileyində demişdir: «Bu günkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi, sənət və elm xadimlərinin müqəddəs borcudur». Bu dərin mahiyyətli elmi-nəzəri kəlam bütün Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, tarixinin inkişaf yolunu, tərbiyəvi əhəmiyyətini aşkarlayır və M.H.Şəhriyarın zəngin irsini gənc nəslə öyrətməyin müqədəs vəzifə olduğunu göstərir.

Azərbaycan ədəbiyyatının böyük qayğıkeşi Heydər Əliyev azərbaycançılıq və türkçülük ideologiyasının memarı, müstəqilliyimizin qurucusudur.

Ulu öndərimiz Heydər Əliyev demişdir ki, Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda,



Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir. Ədəbiyyatımız və mədəniyyətimiz mənəvi potensialımızdır.

Ədəbiyyatımızın böyük qayğıkeşi Heydər Əliyev müasir insanları, gələcəyin qurucuları olan gənc nəsli yeni əxlaq prinsipləri əsasında tərbiyələndirməyin zəruriliyini vurğulamış, gənc və yaşlı yazıçılarla görüşlərində zəngin təlim-tərbiyəvi mahiyyətli sənət əsərləri yaratmağın parlaq proqramını vermişdir.

XX əsr Azərbaycan incəsənətinin və ədəbiyyatının parlaq ulduzları Ü.Hacıbəyov, C.Cabbarlı, S.Vurğun və S.Bəhlulzadənin əsərlərində təlim-tərbiyəvi mahiyyət, bədii-əxlaqi keyfiyyətlər çox qüvvətli və təsirli verilmişdir.

Qiymətli sənət əsərləri xalis güzgü təsiri bağışlayır, insanların formalaşmasına, inkişaf etməsinə, mənəvi səviyyəsinin yüksəlməsinə, əxlaqi keyfiyyətlərinin zənginləşməsinə əsaslı kömək göstərir.

Xalqımızın müdrik oğlu Heydər Əliyev ədəbiyyatı və incəsənəti yüksək dəyərləndirir: «Bəzən elm üçün əlçatmaz olan zirvələri ədəbiyyat və incəsənət fəth edə bilir».

Aydındır ki, alimlər hadisələri və tarixi faktları ardıcıllıqla aşkarlayırlar, yazıçılar isə hadisə və faktları obrazlı şəkildə təsvir və tərənnüm edirlər.

Eyni mənbədən qidalanan tarixçi və yazıçını fərqləndirən əsas məsələ tarixçilərin faktlara, yazıçıların bədii ümumiləşdirmələrə və obrazlılığa üstünlük verməlrindən ibarətdir.

Heydər Əliyev bu problemin elmi-nəzəri şərhini verərək yazır: «Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurlu və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir. Mədəniyyətin milli sərvətlərinin demək olar ki, əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir».

Azərbaycan ədəbiyyatında yüksək sənətkarlıqla yazılmış, zəngin təlim-tərbiyəvi mahiyyətli, əxlaqi keyfiyyətli, müasir və tarixi mövzularda qələmə alınmış əsərlər müasir dövrümüzün tərbiyə mənbəyidir.

Bu baxımdan Əhməd Cavadın, Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Məmməd Rahimin, Osman Sarıvəllinin, Mehdi Hüseynin, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Fikrət Qocanın, İlyas Əfəndiyevin və başqa sənətkarların zəngin bədii irsi daha səciyyəvi və qiymətlidir.

Adları çəkilən dahi sənətkarların əsərləri misilsiz təlim-tərbiyə xəzinəsidir və tədris olunması əsas vəzifələrdən biridir.

Heydər Əliyev yazır: «Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, cərgələrində yazıb yaratmış, Azərbaycan ədəbiyyatını, mədəniyyətini və dünya ədəbiyyatını zənginləşdiribdir».

«Səməd Vurğun öz dövrünün şairlərinin şairidir» hökmünü verən Heydər Əliyev yazır: «S.Vurğunun əsərləri öz dövrünün tələbləri, hökmü və ideologiyası əsasında yazılmışdır». Səməd Vurğunun tarixi mövzularda yazdığı əsərlər onun, həm də istedadlı bir tarixçi olduğunu təsdiqləyir.

Gənc nəslin Vətənə, xalqa, əməyə, elmə məhəbbəti Səməd Vurğun poeziyasında bədii ifadəsini tapmış, «Bilsin ana torpaq, eşitsin vətən, müsəlləh əsgərəm mən də bu gündən» şeri məna və məzmunu baxımından gəncliyin Vətənə məhəbbət mənbəyidir.

Heydər Əliyev Azərbaycan xalqının keçmişinə, Azərbaycanın klassik sənətkarlarına, klassiklərdə maarifçilik probleminə böyük qayğı bəsləmiş və klassiklərin əsərlərini öyrənməyi gənc nəslin parlaq vəzifəsi hesab etmişdir. Klassik ədəbiyyat təlim-tərbiyəvi mahiyyətlidir, qüvvətli tərbiyə vasitəsi, estetik zövq mənbəyidir.

Əsrlərin və nəsillərin yadigarları olan klassik sənətkarların əsərləri, muzeyləri, qəbirləri, məzarları müqəddəs abidədir, ziyarətgahdır, təlim-tərbiyənin mənbəyidir, gözəl tərbiyəvi təsir vasitəsidir.

Klassiklərə böyük qayğının nəticəsidir ki, Heydər Əliyev demişdir: «Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir». Bu hökm bütün klassiklərə şamil edilir. Dünyaşöhrətli Prezident Heydər Əliyevin rəhbər olduğu dövrdə ədəbiyyat, mədəniyyət və incəsənət inkişaf etdirilmiş, zənginləşdirilmişdir.

Heydər Əliyev klassiklərə dərin hörmət bəsləmiş, əsərlərinin nəşr olunmasına, yubileylərinin keçirilməsinə, muzeylərinin yaradılmasına, heykəllərinin ucaldılmasına, adlarının ədəbiləşdirilməsinə böyük qayğı bəsləmiş və yüksək uğurlar qazandırmışdır.

Dahilərin yubleylərinin keçirilməsi Heydər Əliyevin siyasət aləminin korifeyi olduğunu nümayiş etdirmişdir. Bu sahədə şərəfli fəaliyyət göstərmişdir.



Xaqaninin, Nizaminin, Nəsiminin, Füzulinin həyat və səadət həsrəti fəlsəfədir, həyat eşqinin əsasında yaradılmış ömürsalnaməsidir. Qədim Azərbaycan mədəniyyətinin korifeyləri dünya xalqlarının dərin hörmətini qazanmışdır.

Heydər Əliyev dahi Füzulinin yubileyində demişdir: «Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parıldayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən, inkişaf etmiş Qərb ölkələrində də çox məşhur olmuşdur... Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə ucaltmışdır... Bu mənəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, bütün müharibələrdən, döyüşlərdən, vuruşlardan keçərək yaşayır, günü-gündən yüksələrək zirvələr fəth edir».

Ümummilli liderimiz Heydər Əliyev 13 sentyabr 1996-cı ildə Füzuli haqqında üç sərəncam vermiş və həmin sərəncamlar «Azərbaycan» qəzetinin 14 sentyabr tarixli nömrəsində dərc olunmuşdur. Bu sərəncamlar dahi şəxsiyyət Heydər Əliyevin ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə qayğısının parlaq nümunəsidir. Həmin tarixdə Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivinə Salman Mümtazın adının devrilməsi haqqında sərəncam da vermişdir.

Xalqımızın böyük, möhtərəm tarixi ilə fəxr edən ulu öndərimiz Heydər Əliyev iftixarla demişdir: «Bizim xalqımızın böyük dövlətçilik tarixi ədalətli olubdur. Ən qədim dövrlərdə Azərbaycan torpağında əzəmətli dövlət olmuşdur. Orta əsrlər də Azərbaycan dövlətçiliyinin tarixində gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti».

Şah İsmayıl Xətai görkəmli sərkərdə, Azərbaycanın şahı, Səfəvilər dövlətinin başçısı, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insan, zəngin əbədi-bədii irs yaradan istedadlı sənətkardır. Azərbaycan xalqının ədəbiyyat və incəsənəti tükənməz bir xəzinədir. Müqəddəs Vətən torpağı xalqımızın mənəvi həyatıdır.

Heydər Əliyev deyir: «Vətənpərvərlik insanın daxilindəki duyğulardır, əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır». Tarixi həqiqətdir ki, ədəbiyyat, mədəniyyət və incəsənət əsərlərində səmimiyyət və sadəlik duyğuları olmalı, fikirlə hissin vəhdəti sağlam və inandırıcı luyğularla təsir bağışlamalıdır.

Heydər Əliyev şərəfli fəaliyyətində «Hörmət hörmət gətirir, qayğı dövlət yetirir» atalar sözünə həmişə sadiq olmuş, ədəbiyyat, incəsənət, mədəniyyət və elm xadimlərinə misilsiz qayğı bəsləmiş, dahiyanə xeyirxahlığını və tələbkarlığını onlardan əsirgəməmişdir. Ulu öndər Heydər Əliyev dahi sənətkarların əsərlərini gənc nəslə öyrətməyin əhəmiyyətini xüsusi dəyərləndirmişdir.

Heydər Əliyev əfsanəvi dirijor Niyazinin yaradıcılığını yüksək qiymətləndirmişdir: «Niyazi səslərin korifeyidir, dirijorluq pultu arxasında möcüzəyə dönür».

Azərbaycan şifahi xalq yaradıcılığı zəngin təlim-tərbiyə və əxlaqi-estetik zövq mənbəyidir. 1846-cı il 20 avqusta ingilis tarixçisi Vilyam Toms «Ateneum» qəzetində şifahi xalq yaradıcılığını «Folklor» adlandırmışdır. Folklor xalq hikməti, xalq biliciliyi, xalq müdrikliyi mənasını verir. Xalqın mənəvi xəzinəsi folklor sənət əsərlərinin ən gözəl nümunələrini, zərif incilərini özündə toplayır, bədii ümumiləşdirmələr əsasında təcəssüm etdirir, yüksək əxlaqi keyfiyyətlər aşılayır.

Folklor (şifahi ədəbiyyat) poeziyanın ilk mənbəyidir. Yazılı ədəbiyyatın başlanğıcı folklordur. Azərbaycan xalqının zəngin şifahi xalq yaradıcılığı vardır.

Folklorda xalqın dünya görüşü, mənəviyyatı, adət-ənənəsi, həyata baxışı, qabiliyyəti, milli dəyərləri əks olunur, mənəviyyatımızın paklığı bədii ifadəsini tapır. Xalqın gözəl Novruz bayramında ən xoş arzular cilalanır.

Heydər Əliyev Novruz Bayramının həqiqi qiymətini vurğulayaraq demişdir: «Novruz bayramı ürəklərdə saf duyğuların oyanması üçün insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün gözəl zəmin yaradır. Yaxınların yad olunması, umu-küsünün, kin-küdurətin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ənənələrindəndir».

Deməli, Novruz bayramı Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən, ənənələrindən, adətlərindən biridir, xalqımızın zəngin mənəviyyatının paklığıdır, saflığıdır. Azərbaycan şafahi xalq ədəbiyyatında Novruz bayramına həsr olunmuş zəngin əbədi-bədii xəzinə vardır.

Xalqımızın müdrik oğlu Heydər Əliyev folklora böyük qayğı bəsləmiş, xalq istedadlarının yüksək qiymətləndirmişdir: «Xarı Bülbül» müsabiqələrinin təşkili, görkəmli saz-söz ustaları Aşıq Alının anadan olmasının 180, Aşıq Ələsgərin anadan olmasının 150, Qurban Primovun anadan olmasının 90 illik yubileyinin keçirilməsi dahi öndərin qayğısının nəticəsidir.

Heydər Əliyev maddi abidələri «xalqın daşdaşmış tarixidir» adlandırmış, «Avesta», «Kitabi-Dədə Qorqud», «Manas», «Alpamış» və «Gültəkin» dastanlarını yüksək dəyərləndirmiş, «Dədə Qorqud» dastanı «hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Türkdilli xalqları birləşdirən dahiyanə dastandır» hökmünü vermişdir. «Bu dastan bütün Türk dünyası üçün qədim və müqəddəs tarixi sənət abidəsi, tərbiyə mənbəyidir».

Heydər Əliyev 1997-ci ildə «Dədə Qorqud» dastanın 1300 illiyinin rəsmi qeyd olunması haqqında fərman imzalamış və göstərmişdir ki, bu əbədi incidəki ideyalar və fikirlər bugünkü nəsil üçün də böyük əhəmiyyət kəsb edir və mən əminəm ki, belə bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır.

Nəzmlə və nəsrlə yazılmış «Dədə Qorqud» dastanı haqqında ilk dəfə Atababa Musaxanlı 1928-ci ildə «Ədəbiyyatdan iş kitabı» dərsliyində, 1930-cu ildə Əmin Abid «Azərbaycan öyrənmə yolu» məcmuəsində «Əşirət dövrümüzdəki ədəbiyyatımıza aid vəsiqələr» adlı məqaləsində geniş məlumat vermişdir.

Xalq şairi, Yazıçılar Birliyinin sədri Anar «Dədə Qorqud dünyası» adlı fundamental əsər yazmış, A.Səmədovun «Kitabi-Dədə Qorqud» dastanın tədqiqi və öyrənilməsi tarixindən» adlı monoqrafiyası çap olunmuşdur.

Professor Ə.Dəmirçizadənin «Qaraca çoban» adlı mənzum pyesi və monoqrafiyası, Elçinin fundamental əsəri çap olunub oxucuların mütaliəsinə verilmişdir.

Heydər Əliyev deyir: «Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli səhifələrin indiki və gələcək nəsillərə çatdırmağın özü xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir».

Görkəmli tədqiqatçı- alim, mahir pedaqoq, professor Sadıq Şükürovun «Heydər Əliyev ədəbiyyat və incəsənət haqqında», «Heydər Əliyev ədəbiyyatımız və mənəviyyatımız» adlı elmi-nəzəri monoqrafiyasında xalqın mənəvi sərvəti olan folklorun tarixi inkişaf yolu geniş şərh olunur, maraqlı ümumiləşdirmələrlə yekunlaşdırılır. Professor S.Şükürovun əsərlərində Heydər Əliyevin ədəbiyyatın

təlim-tərbiyəvi mahiyyətinə qayğısı haqqında elmi-nəzəri və pedaqoji-metodik araşdırmaları və elmilik prinsipi əsasında təhlili orijinaldır.

Yeni Azərbaycan Partiyasının memarı, Müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyev azərbaycançılıq və türkçülük ideologiyasının banisidir, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin müdrik qayğıkeşidir, parlaq zəka sahibidir, gənc nəslin təlim-tərbiyəsinin hamisidir, klassik irsimizin, folklorumuzun, mənəvi sərvətlərimizin öyrənilməsinin mahir təbliğatçısı, ədəbi tənqidimizin, ana dilimizin xilaskarıdır, yaşlı yazıçıların və gənc istedadların mənəvi dəstəkçisi, prezident təqaüdü verənidir, ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinin qayğıkeşidir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: «Bizim xalqımız qədim dövrlərdən də elm, mədəniyyət, musiqi tarixində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə ötən bütün əsrlərin nailiyyətlərindən istifadə etməklə daha böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, mədəniyyətimizi zənginləşdirmişlər. XX əsrin ikinci yarısı isə bu baxımdan daha məhsuldar olmuşdur».

Ümummilli liderimiz Heydər Əliyev ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə dərin qayğı bəslənmiş, əməksevər, xeyirxah, müdrik, qəhrəmanlıq ruhunda qüvvətli təlim-tərbiyə, bədii-estetik və əxlaqi keyfiyyətlər vasitəsi olduğunu zəngin irsində göstərmişdir.

Ədəbiyyat mənəviyyat güzgüsüdür, həyatı obyektiv surətdə ümumiləşdirir, obrazlarla əks etdirir, milli-mənəvi dəyərləri real verir, milli ruhun güclənməsinə, vətənpərvərlik, qayğıkeşlik, səmimilik, sədaqətlilik, azərbaycançılıq, türkçülük ideyalarının qüvvətlənməsinə, dərk olunmasına kömək edir, özünü tanıma, özünüdərk və özünəqayıdış prosesinin insana ən gözəl əxlaqi keyfiyyətlər aşılamasına təkan verir.

Ədəbiyyatın təbliği, tədqiqi, nəşri səmərəli öyrənilməsi, tədris olunması, Heydər Əliyevin şəxsi təşəbbüsü, sərəncamları, fərmanları, qayğısı sayəsində inkişaf etdirilməsi, gənc nəslə milli-mənəvi dəyərlərin mənimsədilməsi problemi həyata keçirilmiş və keçirilir.



Ulu öndərimiz Heydər Əliyevin təşkilatçılıq bacarığı və böyük siyasi nüfuzu sayəsində ədəbiyyatın təlim-tərbiyəvi mahiyyəti ətraflı tədqiq olunmağa və səmərəli tədris edilməyə başlanmış, müasir müstəqillik dövrümüzdə parlaq zirvəyə yüksəldilmişdir.

Xalqın ruhu və milli-mənəvi dünyasına dərin məhəbbət bəsləyən Heydər Əliyev təhsilin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin müdrik hamisi olmuş, onun inkişafına və zənginləşdirilməsinə şərəfli xidmət etmişdir.

Fitri istedadlı dövlət xadimi, ədəbiyyat və mədəniyyətin böyük qayğıkeşi Heydər Əliyev demişdir: «Elm üçün əlçatmaz zirvələri ədəbiyyat və incəsənət fəth edə bilir». Aydındır ki, əlçatmaz zirvələr tutmağa qadir olan ədəbiyyat və incəsənətin təlim-tərbiyəvi mahiyyəti çox zəngindir.

Məhz buna görə də gələcək ümidimiz olan gənc nəslin biliyini, daxili aləmini, dünyagörüşünü, təlim-tərbiyəvi və bədii-estetik zövqünü zənginləşdirmək üçün bədii ədəbiyyatı mükəmməl öyrətmək, mütaliə etdirmək, səmərəli tədrisinə nail olmaq, şüurlu mənimsətmək müasir dövrümüzün Təhsil İslahatı Proqramının qarşıya qoyduğu şərəfli problemlərdən biridir.

Respublikamızın milli tərbiyə konsepsiyası hələlik işlənib hazırlanmamışdır. Lakin Prezidentin zəngin irsində tərbiyənin məzmunu və öyrənilməsinin səmərəli üsulları milli tərbiyə konsepsiyasının müddəalarını müəyyənləşdirir.

Heydər Əliyev gənclərin birinci forumunda demişdir ki, «hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Qanunun aliliyinə, insanların hüquq və azadlıqlarının qorunmasına sadiq olmalıdır».

Ümummilli liderimiz Heydər Əliyevin 6 fevral 1996-cı il tarixli «Xalq qəzeti»ndə dərc olunmuş bu dərin məzmunlu, parlaq ideyalı nitqi oxucuya çox təsirli təlim-tərbiyəvi və bədii-estetik zövq verir. Gənclərimiz ümumbəşəri dəyərləri və xalqımızın milli-mənəvi dəyərlərini mənimsəməli, milli ruhda tərbiyə olunmalı, tariximizi, dilimizi, milli ənənələrimizi şüurlu mənimsəməlidirlər.

H.Əliyev irsində Vətən, xalq, millət, dil, din, milli ənənələr sevgisi, «hər bir gəncin vətənə, ölkəmizə doğma torpağımıza sədaqətli» olması, «doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını göz bəbəyi kimi» qoruyub saxlaması əsas yer tutur.

H.Əliyevin şəxsi nümunəsi xalqına, Vətəninə, bütün insanlara sədaqətlilik öyrədir. Prezidentin irsində əqli, mənəvi və fiziki tərbiyə geniş şərhini tapır, sağlamlıq, gümrahlıq, fiziki kamillik insan fəaliyyətinin zəruri amili kimi qiymətləndirilir.

Gənclərimiz xalqımızın tarixini, qəhrəmanlıq keçmişini mükəmməl öyrənməli, vətənpərvərlik eşqi, qələbə əzmi ilə yaşamalıdırlar. Milli vətənpərvərlik gənc nəslin həyat prinsipi, həyat qanunu, nizamnaməsi olmalıdır.

XX yüzilliyin dünyaşöhrətli, dahi şəxsiyyəti H.Əliyevin yüksək insani keyfiyyətləri, saf və zəngin mənəviyyat xəzinəsi gənc nəslin formalaşmasında, hərtərəfli inkişafında misilsiz tərbiyə mənbəyidir.

Hörmətli Prezidentimiz Heydər Əliyevin milli və ümumbəşəri dəyərlərin səmərəliliyi haqqında ideyaları elmin, təhsilin, ədəbiyyat, mədəniyyət və incəsənətin, gənc nəslin təlim-tərbiyəsinin zirvə proqramıdır. Heydər Əliyevin elmi irsini kompleks və sistemli tədqiq edib aşkarlamaq, gənc nəslin mütaliəsinə vermək çağdaş dövrümüzün əsas problemlərindən biridir.

Heydər Əliyevin uşaqlıq və gənclik illəri, təhlükəsizlik orqanlarında 1969-cu ilə kimi çalışması, Azərbaycanda (1969-1982), Moskvada (1982-1987), Naxçıvanda (1990-1993) səmərəli fəaliyyəti və 1993-cü ildən böyük siyasətə qayıdışı mənalı ömrün parlaq ədəbi-tarixi salnaməsidir.

Hörmətli Heydər Əliyev cənablarının məruzələri, xatirələri, çıxışları, müsahibələri, sərəncamları, fərmanları, qərarları, imzaladığı qanunlar, şah əsəri yeni Konstitusiyamız, yüksək şəxsi nümunəsi, misilsiz iş üslubu, insan qəlbini təlatümə gətirən müdrik xeyirxahlığı, ciddi tələbkarlığı və humanist qayğıkeşliyi həmin salnaməni aşkarlayan qiymətli mənbələrdir.

Zəngin zəka və tənqidi təfəkkür sahibi olan Heydər Əliyev Vətənə, xalqa, dövlətə sadiq tarixi şəxsiyyətdir, elmə, sənətə, zəhmətkeşlərə, ziyalılara, sənətkarlara, mütəxəssislərə, veteranlara, qaçqın və məcburi köçgünlərə, əlillərə, bütün insanlara müdrik rəhbərdir.

«Vətən birdir və hamı Vətən uğrunda çalışmalıdır» əqidəsinə sadiq qalan hörmətli Prezidentimiz Heydər Əliyev demişdir: «Xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban



verməyə hazıram». «Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır», «Azərbaycan xalqı vahiddir» müqəddəs kəlamları yeni Konstitusiyamızda həkk olunmuşdur.

Bütün dünya azərbaycanlılarının və azərbaycan-sevərlərinin fəxri rəhbəri Heydər Əliyevin irsi milli ideologiyamızın formalaşdırılmasına, təhsil islahatının uğurla həyata keçirilməsinə və təlim-tərbiyə məsələ-lərinin həllinə düzgün istiqamət verir.

Maarifpərvər ziyalı, mahir pedaqoq, gözəl müəllim ömrü yaşayan Heydər Əliyevin əməksevərliyi, təfəkkür dərinliyi, zəngin nitq mədəniyyəti, qüvvətli natiqliyi, geniş dünyagörüşü, heyrətamiz biliyi, möhkəm hafizəsi, iş üslubundakı çeviklik, prinsipiallıq, qətiyyət, qayğıkeşlik, tələbkarlıq, ardıcıllıq onun dahi şəxsiyyət olduğunu səciyyələndirir, xalqla yekdilliyini, həmrəyliyini, səmimiyyətini əsaslandırır. Bu keyfiyyətlər Heydər Əliyev irsinin elmi-nəzəri və pedaqoji-metodik baxımdan milli tərbiyə konsepsiyasını aşkarlayır.

Heydər Əliyev müstəqil respublikamızın ilk müəllimlər qurultayına göndərdiyi təbrik məktubunda Azərbaycan müəlliminin yeganə məqsəd və amalını dəqiq göstərmişdir: «Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü Vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək».[1]

Milli təhsilin carçısı və xilaskarı, dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev təhsildə kompleks şəkildə əsaslı islahatların aparılmasına dair xüsusi sərəncam imzalamış, dövlət komissiyası yaratmışdır.

Komissiya təhsil sisteminin strukturu, təlim və tərbiyənin məzmunu, kadr hazırlığı, elmi-nəzəri, pedaqoji-psixoloji və metodik məsələlərin aparılması haqqında islahat proqramı hazırlayır.

Dövlət komissiyasının sədri, təhsil naziri professor Misir Mərdanov iftixar hissilə göstərir ki, hörmətli Prezidentimiz Heydər

---

[1] «Azərbaycan müəllimi», 1 oktyabr 1998-ci il).

Əliyev irsinin əsasında hazırlanan dövlət proqramında gənc nəslin təlim-tərbiyə probleminə qayğı, müstəqil respublikamızda milli tərbiyə konsepsiyasının yaradılmasında yeganə amillərdir.

Heydər Əliyev irsində müəllim peşəsinə dərin hörmət və ehtiram bildirilir, «ən dəyərli, zəkalı, tərbiyəli vətəndaşları hazırladığına görə «müəllim adı dünyada ən yüksək addır» qiyməti verilir.

Heydər Əliyev irsində milli və ümumbəşəri dəyərlərə, demokratik və dünyəvi prinsiplərə əsaslanan təhsil sisteminin yenidən qurulub humanistləşdirilməsi və məzmununun yeniləşdirilməsi milli tərbiyə konsepsiyasının əsasını müəyyənləşdirir.

Ulu öndər Heydər Əliyevin təhsilə və təhsil xadimlərinə qayğısı ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə qayğısı ilə vəhdət təşkil edir.



# IV BÖLMƏ

## ƏDƏBİYYATIN TƏDRİSİNDƏ TƏLİM TƏRBİYƏVİ, BƏDİİ - ESTETİK VƏ YÜKSƏK ƏXLAQİ KEYFİYYƏTLƏRİN SƏMƏRƏLİ ÖYRƏDİLMƏSİ ŞƏRƏFLİ VƏZİFƏDİR

Azərbaycan təhsil sisteminin başlıca vəzifələri dərin və hərtərəfli biliyə, demokratik dynagörüşünə, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan gənc nəsli tərbiyə etməkdən ibarətdir.

Azərbaycanda gənc nəsli Vətənə sədaqət ruhunda tərbiyə etmək müqəddəs kəlamını ədəbiyyatın tədrisində daha səmərəli öyrətmək imkanları çox genişdir.

Ümummilli liderimiz Heydər Əliyevin ədəbiyyata qayğısında bu problem ətraflı şərhini tapmışdır. Ədəbiyyat xalqın həyat, insan, gözəllik, mənəviyyat və humanizm haqqında estetik və fəlsəfi düşüncələrinin bədii ifadəsi, qüvvətli tərbiyə vasitəsidir.

Ədəbiyyat həyatı obrazlarla ümumiləşdirir, ədəbiyyat ideya və məzmun zənginliyi ilə oxucuya gözəl və tərbiyəvi təsir bağışlayır. Buna görə də ədəbiyyat müəllimi zəngin biliyə, pedaqoji ustalığa malik olmalı, gənc nəslə elmin əsaslarını şüurlu mənimsətməli, onları vətənpərvər və əməksevər ruhda tərbiyələndirməlidir. Görkəmli Azərbaycan şairi Abbas Səhhət gözəl demişdir:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, Vətənimdir, Vətənim!

A.Səhhət gənc nəsli Vətəni sevməyə çağırır. Ona görə ki, Vətən bizə «nanu nəmək» vermiş, «hər kişiyə ana» olmuş, Vətən «sinəsi üstündə bəslədiyi», «əcdadımızın mədfəni»dir, «Vətəni sevməyən insan olmaz, olsa da o kəsdə vicdan olmaz». Dahi sənətkarın poetik kəlamı ədəbiyyatı mükəmməl tədris etməyin və gənclərə şüurlu mənimsətməyin müəllimlərə vətəndaşlıq borcu olduğunu təsdiqləyir.

Bədii əsəri bütöv bir orqanizmə bənzətmək olar. Bəddi əsərdə işlədilən hər bir söz müəyyən məqsəd daşıyır, sənətkarın irəli sürdüyü fikirlə bağlı olur. Bədii əsərin başlıca ideyası, mənası

təhlil zamanı oxucuya, dinləyiciyə aydın olmadıqda, sənətkar ideyası anlaşılmır, nəticədə əsər lazımi şəkildə mənimsənilmir.

Ədəbiyyatı, xüsusilə klassik poeziyanı rəmzi ifadələrdən kənarda təsəvvür etmək çətindir. Ə.Xaqani yazır:

Ağlamaqdan fayda çıxmaz, sil gözünün yaşını,
Ey dəmirçi, al çəkici, əz Zöhhakın başını.

Əfsələddin Xaqani Şirvani bu misralarda sözçülüyə, təfsilata getməmiş, oxucuya çatdıracağı fikri çox yığcam ifadə etmişdir. Zöhhak olduqca zülmkar qədim İran hökmdarıdır. Xalq bu zülmdən cana doymuş, nəticədə dəmirçi Gavə dəri önlüyünü bayraq edib Zöhhakın zülmünə qarşı çıxmış və onu məhv etmişdir. Beləliklə, Zöhhak xalq arasında zülm rəmzinə çevrilmişdir. Bu beytin mənası da zalıma müti olmamaq, onun zülmünə qarşı çıxmaq, özünün insanlıq ləyaqətini qorumaqdır.

Sənətkar yaratdığı obrazın xarici görkəmi, daxili mədəniyyəti, adamlarla rəftarı haqqında uzun-uzadı danışmır, onunla bağlı məcazi sözlər işlədir, münasibətini bu yolla ifadə edir.

Deməli, bədii əsəri təhlil edib, düzgün nəticə çıxarmaq və qiymətləndirmək lazımi bilik tələb edir. Bədii əsərin təhlili ətraflı aparılmalı, nəticəsi aşkarlanmalıdır.

Respublikamız müstəqillik qazandıqdan sonra dövlətimiz təhsil sahəsində müstəqil siyasət yeridir. Təhsil sistemində islahat aparmaq, ayrı-ayrı təlim fənlərinin məzmununu dəqiqləşdirmək zərurəti meydana çıxır. Ədəbiyyat tədrisinin məqsədini, bədii əsərin təhlilini mədəniyyətimizin tarixi kökləri, xalqımızın milli adət-ənənəsinin ədəbi əsərlərdə ifadəsi baxımından təhlil etmək lazımdır.

Bədii əsər üzərində işin müvəffəqiyyəti bir sıra amillərlə şərtləşir. Ədəbiyyat tədrisinin məqsədi şagirdləri bədii əsərin xüsusiyyətləri, həyat hadisələrini əks etdirmə prinsipi ilə tanış etmək və ədəbiyyat tarixi kursunu mənimsəməyə hazırlamaqdan ibarətdir.

Sənətkarın əsərində bədiilik müxtəlif yollarla yaranır və sözlər məcazi məna daşıyır. Dahi Nizami Gəncəvi «İsgəndərnamə» əsərində deyir:

Şerimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən,
Bir vərəq yazmaqla bitirərdim mən.



«İsgəndərnamə»ni yüksək sənət nümunəsi vəsiyyəsinə qaldıran bədiiyatdır, «bəzəkli dondur». Bədii əsər üzərində iş diqqətlə aparılmalıdır. Pedaqoji-metodik cəhətdən bu vacib işə sadədən, asandan başlamaq lazımdır. Müəyyən hazırlığa malik olmayan şagird mürəkkəb vasitələri başa düşməkdə, irihəcmli əsərləri sənət əsəri kimi qiymətləndirməkdə çətinlik çəkir. Məhz buna görə də bu istiqamətdə işə səmərəli başlamaq vacibdir.

Sənətkar əsərin bədii təsirini artırmaq üçün müxtəlif üsullardan istifadə edir: bəzən fikrini sual şəklində ifadə edir, bəzən bədii təzad yaradır, bəzən bir əşyanın əlamətini başqa bir əşyanın üzərinə köçürür. Bu istiqamətdə aparılan iş zamanı misranın, yaxud cümlənin sətiraltı mənası şərh olunmalıdır.

Təlim materialının məzmununu yaxşı mənimsətmək, bu biliyi dərinləşdirmək üçün pedaqoji-metodik prinsipə səmərəli əməl etmək lazımdır. Deməli, məzmun və ideyanın şüurlu dərk edilməsi əsas məqsəddir.

Epik əsərlərdə yazıçı tərəfindən yaradılan obrazların səciyyəsi, portreti, fikir və düşüncəsi, istək və arzusu, epik təsvirlər, peyzaj-təbiət təsvirləri məzmun üzərində işin əsasında durmalıdır. Obrazların təhlili zamanı sənətkarın sözdən istifadəsinə diqqət verilməlidir. Müəllif yaratdığı obraz haqqında fikrini birbaşa açıq deməsə də, onunla bağlı işlətdiyi sözlərdən münasibəti aydınlaşır, obrazın daxili aləmi, əməlləri haqqında nəticə çıxarmaq oxucunun öhdəsinə buraxılır.

M.F.Axundovun «Aldanmış kəvakib» povestində müəllifin Şah Abbas və Yusif Sərracla əlaqədar işlətdiyi sözlərdən onun həmin obrazlara münasibəti aydınlaşır. Oxucu nəticə çıxarır ki, Şah Abbas zülmkar, Yusif Sərrac isə islahatçı hökmdardır. Bu cəhət epik əsərlərdəki bütün obrazlarla bağlı olduğundan, diqqət həmin istiqamətə yönəldilməlidir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bədii əsərlərin şərhinə geniş yer verilir. Qədim zamanlardan xalqın istək və arzusu öz ifadəsini bədii ədəbiyyatda tapmışdır. Adamların real həyatda görmədikləri, lakin görmək istədikləri cəhətlər romatnik yolla müxtəlif sənət əsərlərində əks olunmuşdur. Hökmdar və xalq, insan hüquqlarının müdafiəsi, ədalət, halal zəhmət və s. kimi cəhətlər Azərbaycan ədəbiyyatının əsas mövzusu olmuşdur.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvi, İmadəddin Nəsimi, M.Füzuli, M.F.Axundov kimi sənət-

karların yaradıcılıq nümunələrində bunu çox aydın görmək olur. Eləcə də N.Vəzirov, Ə.Haqverdiyev və başqalarının yaradıcılığında görmək mümkündür. Respublikamız müstəqillik əldə etdikdən sonra əsrlərdən bəri xalqın həsrət çəkdiyi məsələlər öz real həyati ifadəsini tapır.

Ədəbiyyat tariximizdə adamların mənəvi azadlığını, hüquq toxunulmazlığını müdafiə və təbliğ edən bədii əsərlər ümumtəhsil məktəblərinin təlim materialları sırasına daxil edilməklə bu və ya digər sinifdə tədris olunur və üzərində geniş iş aparılır. Xalqın əsrlərdən bəri arzuladığı məsələlərin bu gün həyata keçdiyini şagirdlərin nəzərinə çatdırmaq üçün müqayisə priyomundan istifadə etmək, əsərdəki hadisələri günün reallığı ilə əlaqələndirmək olduqca faydalıdır.

Nizami Gəncəvinin yaradıcılığının ana xəttini insan və onun taleyi təşkil edir. İnsanlara edilən ədalətsizliyi, zülmü, onların hüquqlarının tapdalandığını görən şair zülmə, ədalətsizliyə qarşı çıxır, hökmdarları insafa, ədalətə çağırır.

Nizaminin «Sirlər xəzinəsi» əsərindən «Nuşirəvan, vəziri və bayquşların söhbəti» hekayəsində Nuşirəvan zülmünün sorağının quşlara da çatdığından söz açılır. Böyük humanist şair hökmdarın zülmü nəticəsində ölkənin bərbad olduğunu onun özünə dərk etdirməklə ədalətə səsləyir. «Qarı və Sultan Səncər» hekayəsində huququ, ləyaqəti tapdalanan qarı Sultan Səncərin ədalətsizliyini onun üzünə deyir:

Hər elin hökmdarı el dərdinə qalandı,
Zülmün hara çatıb ki, var-yoxumuz talandı...
İnsan indi taparmı, arasa ədaləti?
Zümrüd quşu aparıb harasa ədaləti.

Böyük Nizami bir tərəfdən Nuşirəvan, Rast Rövşən kimi obrazların zülmü nəticəsində ölkənin xarabalığa çevrildiyini, insan ləyaqətinin tapdalandığını deyirsə, digər tərəfdən Hörmüz, Şirin kimi obrazların simasında ədalətin xalq həyatında-cəmiyyətdə necə əmin-amanlıq yaratdığını göstərir. Şahlığın Şirinə çatması ilə əlaqədar ölkədə dəyişiklik yaranır. Bu hadisənin poetik təsviri çox real və təsirli verilir:

Şirinin əlinə çatanda şahlıq,
Ölkədən hər yana yayıldı işıq.
Ədalətlə etdi rəiyyəti şad,
Məhbuslar olundu həbsdən azad.



Ümumtəhsil məktəblərində təfərrüata gedilməməli, ədəbiyyat elminin əsasları, daha səciyyəvi cəhətləri öyrədilməlidir. Əslində ədəbiyyat proqramları və dərsliklərində ədəbiyyatın parlaq ulduzları, onların şah əsərləri şagirdlərə təqdim olunur.

Görkəmli şair Abbas Səhhətin «məsləkim tərcümeyi-halımdır» sözləri olduqca maraqlıdır. Bu kəlam belə bir qənaətə gəlməyə əsas verir: şəxsiyyətin məsləki, əqidəsi keçdiyi həyat yolunda formalaşır, sənətkarın məsləki isə onun yaradıcılığında ifadə olunur.

Bədii ədəbiyyatın tarixi inkişafda öyrədilməsi, mənimsədilməsi məqsədilə müxtəlif tarixi mərhələlər üzrə icmal mövzuları verilir. Bu zaman Azərbaycan ədəbiyyatı inkişafının əsas cəhətləri tədris edilən ədiblərin yaradıcılıq xüsusiyyətləri ilə əlaqədə öyrədilir.

Müxtəlif dövlətlərin qarşılıqlı əlaqəsini, müxtəlif yazıçıların yaradıcılığını birləşdirən ideyaları, ədəbi prosesin inkişafındakı varisliyi aydınlaşdıran icmal mövzuları məktəb ədəbiyyat kursunun tamlığını, bütövlüyünü təmin edən vasitə yerində çıxış edir.

Respublikamız müstəqillik yoluna qədəm qoyduqdan sonra təhsil sahəsində yeniləşmə, proqram və dərsliklərin yenidən işlənməsi zərurəti yarandı. Ədəbiyyatdan proqram və dərsliklərin yeniləşməsinə ehtiyac daha aydın göründü. Qarşıya çıxan zərurət nəticəsində yeni proqramlar tərtib edildi, onun əsasında dərsliklər yazıldı. Bir neçə ildir ki, həmin dərsliklər məktəblilərin istifadəsindədir.

Azərbaycanda mühacirət ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirilir. Mühacirət ədəbiyyatının Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Səməd Ağaoğlu, Məmməd Əmin Rsulzadə, Mirzə Bala Məmmədzadə, Əlimərdanbəy Topçubaşov, Ceyhun Hacıbəyov, Əhməd Cəfəroğlu, Əbülvahab Yurdsevər, Almaz Yıldırım, Banin Ümmülbanu, Məhəmməd Sadiq Aran, Hüseyn Camal Yanar, Teymur Atəşli, Musa Zəyəm, Nağı Şeyxzamanlı və başqa görkəmli nümayəndələrinin həyatı, yaradıcılıq yolu haqqında oxuculara məlumat verilir.

Məktəblərimizdə ədəbiyyat tədrisi tarixi müəyyən inkişaf yolu keçmişdir. Müasir dövrümüzdə ədəbiyyatdan təlimin məzmunu işlənir, tarixilik, elmilik, pedaqoji və metodik prinsiplər əsasında

seçilib müəyyənləşdirilir; təhlil edilir, oxuculara, şagirdlərə, aspirantlara, kütlələrə çatdırılır.

Azərbaycan xalqının yaratdığı söz sənəti mənşəyi və formalaşmasına görə çox qədimdir. Yazılı ədəbiyyat nümunələrinin yaramasında çox-çox əvvəllər xalq yaradıcılığı nümunələri yaranmış, ağızdan-ağıza, nəsildən-nəslə keçərək cilalanıb büllurlaşmış, saflaşmış və indiki dövrümüzə gəlib çatmışdır. Xalqımız öz arzu və istəyini, hiss və həyəcanını, sevinc və kədərini, duyğularını, cəmiyyətə münasibətini «söz sənəti» vasitəsilə şifahi xalq ədəbiyyatında–folklorda əks etdirmişdir.

Müxtəlif dövrlərdə yüzlərlə lirik şeir, lətifə, əfsanə, atalar sözləri və məsəllər, bayatı, nağıl və dastan yaranmışdır. Xalqımız öz tarixinin sənət nümunələrini yaşatmış, nəsildən-nəslə ötürərək zənginləşdirmişdir.

Şifahi xalq ədəbiyyatı yazılı ədəbiyyat üçün mənbə rolunu oynayır. Yəni yazılı ədəbiyyat öz qidasını, əsasən, şifahi xalq yaradıcılığından alır. Folklor yazılı ədəbiyyatın inkişafında müəyyən rol oynayır, həm də onun hesabına zənginləşir. Ədəbi yaradıcılığın bu iki növü bir-birinə təsir göstərir, bir-birindən istifadə edərək bəhrələnir.

Ədəbiyyatın bu iki qolu orta ümumtəhsil məktəblərin-də də qarşılıqlı əlaqədə öyrədilməlidir. Məktəbdə ədəbiyyat tədrisi böyük inkişaf yolu keçmiş, bu prosesdə ədəbiyyatın müxtəlif problemlərinin, o cümlədən şifahi xalq yaradıcılığının təlimində dəqiqləşmələrin aparılmasına təşəbbüs göstərilmiş və müəyyən təcrübə qazanılmışdır.

Xalq yaradıcılığına dərin məhəbbət, milli adət və ənənəyə hörmət və sadiqlik Azərbaücan xalqının qanında, canındadır. Bu cəhətdən görkəmli sənətkarların xalq yaradıcılığından bəhrələnmələri, əsərlərində ondan istifadə etmələri təbiidir.

Şərqin dünyaya bəxş etdiyi müdrik söz ustalarının şöhrətlənməsi bir tərəfdən fitri istedadları hesabına idisə, digər tərəfdən onların xalqla, xalq yaradıcılığı ilə bağlılığı hesabına idi. Xaqani Şirvani, N.Gəncəvi, Nəsimi, M.Füzuli, Məsihi, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, C.Cabbarlı, S.Vurğun kimi sənətkarlar mənsub olduqları xalqın və qonşu xalqların milli mədəniyyətini, tarixini diqqətlə öyrənmiş, onlara rəğbətlə yanaşmış, ondan istifadə etməkdən çəkinməmişlər.



Dahi Nizami Gəncəvi ədəbiyyatımıza yüksək əməllər, nəcib hisslər tərənnüm edən ölməz söz ustası kimi daxil olmuşdur. Nizamini ucaldan, böyüdən, dünyəvilşədirən, onu xalqa yaxınlaşdıran, folkloru gözəl bilməsi və başqa xalqların şifahi xalq yaradıcılığını gözəl bilməsidir. O, bütün əsərlərində xalq yaradıcılığından geniş ölçüdə istifadə etmişdir.

Nizami Gəncəvi xalq hikmətinə böyük məhəbbətlə yanaşır, ondan səmərəli istifadə edir. Nizami Gəncəvi Fərhada aid tarixi abidələri oxucuya poetik dillə çatdırır:

«Xosrovdan, Şirindən qalan yadigar,
Gizlində deyildir, durur aşikar.
Şəbdiz atın şəkli, Bisütun dağı,
Pərviz sarayının eyvanı, tağı…»

Nizami Gəncəvi «Xosrov və Şirin» mövzusunu yazılı ədəbiyyata ilk dəfə gətirən dahi Firdovsiyə hörmətlə deyir:

«Söylərkən o həkim bu xoş dastanı,
Çıxarıb içindən eşqi, fəğanı,
Altmış yaşındaydı yazanda bunu
Saxlaya bilmirdi yayda oxunu,
Altmışda sevginin, eşqin həycanı
Titrədə bilməzdi yorğun qocanı».

Nizami Gəncəvi hikmət və nəsihətlərini oxucuya çatdırır, «Xosrov və Şirin» əsərinin başlanmasında deyir:

«Köhnə dastanların qoca ustadı
Öz hekayəsinə belə başladı…».
«Köpək kimi yemək, içmək nədir, nə?
Bir pişik olsa da, can ver eşqinə!
Pişiyin eşqiylə yaşamaq, inan,
Yaxşıdır, şir olub, yalnız qalmaqdan».

Əsərdə «Büzürgümidin «Kəlilə və Dimnə»dən qırx məzmun danışması, Şirinin rəfiqələri Firəngiz, Süheyla, Əcəbnuş, Fələngnaz, Humayun, Səməntürk, Pərizad, Xütənxatun, Gövhərmülgün əfsanə söyləmələri gözəl təsir bağışlayır.

Nizami Gəncəvi «Xosrov və Şirin» poemasında xalq yaradıcılığının zəngin xəzinəsindən istifadə edir, atalar sözləri və hikmətli ifadələrdən oxuculara çatdırır:

«Gövhəri gövhərlər qiymətdən salar,
İpəyi ipəklər hörmətdən salar…»

«Bilici deyəni etmədim təkrar
Məlumu deməkdən kimə fayda var».

«Çox yemək, az yemək yaxşı şey deyil,
Etidalı gözlə, hər qaydanı bil».

«Eşitməmisənmi bu məşhur sözü!
Quyu qazan adam düşəcək özü».

Hikmətli sözlər vasitəsilə yoldaşlıq, dostluq, mərdlik, qəhrəmanlıq, ədalətlilik kimi nəcib əxlaqi sifətlər təbliğ olunur və oxucuya təlqin edilir.

Qabaqcıl müəllimlər bu ideyanı diqqətlə izləyir, tədris prosesində nəzərə alırlar. Onlar bu müdrik kəlamları dərsdə səmərəli şərh edirlər:

Nizami Gəncəvi «Leyli və Məcnun» poemasını yazanda da Azərbaycan xalqı arasındakı rəvayətlərdən, müdriklərin söylədikləri hekayətlərdən geniş istifadə etməklə yüksək sənət nümunəsi yaratmışdır. Poemanın «Məcnun vəhşilər arasında» hissəsində hikmətli kəlamlardan səmərəli istifadə edilmişdir:

«İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban!»

Nizami Gəncəvi «Oğlum Məhəmmədə nəsihət» şerində hikmətli söz və ifadələrdən çox zəngin nümunələr vermişdir:

«Ucalmaq istəsən bir kamala çat,
Kamala ehtiram göstərir həyat».
«Səadət kamalla yetişir başa
Xalqa hörmət elə, ədəblə yaşa».

«Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan».

Nizami Gəncəvi «Leyli və Məcnun», «Yeddi gözəl» poemalarında bu hikmətli kəlamlardan çox səmərəli istifadə etmiş, zəngin nümunələr yaratmışdır.



Şahzadə qızların söylədikləri hekayələr xalq yaradıcılığından gələn rəvayətlərdir. Birinci iqlim padşahının qızı hekayəsini danışarkən hadisəni nağıl etməyə belə başlayır:

«Uşaqdım kamallı, incə düşünən,
Qohumlarımızdan eşitdim ki, mən,
Behişt sarayının xanımlarından
Varmış bir zahidə, lətif bir insan».

Qara günbəzli sarayda yaşayan qara geyimli hind qızı Bəhram şaha söylədiyi nağılda səbirsizliyin, dözümsüzlüyün insanın başına gətirdiyi faciədən söhbət açır, şaha təmkinli olmağı məsləhət görür:

«Əlində yumşalsa dəmir, yaxşı bil,
Səbirlə yumşalar, hiddətlə deyil».

Sarı gümbəzli sarayda məskən salan sarı geyimli Rum gözəli Yağmanaz isə şaha inadkar kəniz haqqında əhvalat danışır. Hökmdar təmkinlə kənizin məhəbbətini qazanır, nağıl sarı rəngin tərifi ilə tamamlanır.

«Sarı bir örtüyün dalından axşam,
Yaxşı işıq verər yaxılanda şam».

Yeddinci iqlim padşahının qızı hekayətini belə başlayır:

«Bir anam vardı ki, evin duzuydu
Qarılar qurd olar, o bir quzuydu.
Nağıl edirdi ki, tanış bir nəfər,
Qonaq eyləmişdi məni bir səfər».

Şair «İsgəndərnamə» poemasında İsgəndərlə əlaqədar müxtəlif variantlardan istifadə etmişdir. «İsgəndərin buynuzu var» kimi ifadələr indi də el arasında işlədilir. «İsgəndərin həyat çeşməsini axtarması» barədə müxtəlif rəvayətlər mövcuddur. Nizami bunlardan məharətlə istifadə etmişdir.

Nizami əsərlərində elə xalq təcrübəsinin adı çəkilir ki, o təcrübə əsrlərin sınağından keçərək zəmanəmizə qədər gəlib çatmış və indi də yaşayır. Məsələn: xalq təbabətində gözəgəlməyin qarşısını almaq üçün üzərrikdən istifadə olunur. Bu təcrübəni «İsgəndərnamə» əsərində poetik şəkildə belə ifadə edir:

«Səlamət yaşamaq istəsən əgər,
Oda üzərrik at hər gün, hər səhər...»

Nizami xalqın hikmətli ifadələrindən müxtəlif məqamlarda müxtəlif şəkildə istifadə edir. Bəzən öz fikrini əsaslandırmaq, qüvvətləndirmək üçün atalar sözlərini olduğu kimi işlədir:

«Belə məsəl çəkmiş aqil bir insan:
Qurd girməz sürüyə yatmasa çoban».

Nə gözəl söyləmiş qoca bir ərən:
«Dil ətdən yaranmış, qılınc dəmirdən».

Bu problemlə bağlı Məhəmməd Füzuli yaradıcılığı da diqqətəlayiqdir. Zəngin ədəbi irsə malik olan Füzuli yaradıcılığında şifahi xalq ədəbiyyatından bacarıqla istifadə etmişdir. Füzuli Azərbaycan nağılları ilə bağlı alleqorik əsərlər yazmış, əfsanə və rəvayətləri, atalar sözü, zərb məsəllər və xalq ifadələrini ədəbiyyata gətirmiş, yüksək sənət inciləri yazmışdır.

Məhəmməd Füzulinin «Leyli və Məcnun» poemasında xalq yaradıcılığından sənətkarlıqla istifadə olunmuşdur:

«Dərsiz mənə var dilrübalar,
Leyli kimi çox pəriliqalar...
Billah deməniz bu hərfi zinhar,
Aləmdə bir ondan özgə kim var?
Bülbül gül üçün qılanda nalə,
Dərdinə dəva olurmu lalə?
Xosrov deyiləm ki, mənə dilbər
Şirin ola gah, gah Şəkkər?!»

M.Füzuli Nizaminin «Xosrov və Şirin» poemasının qəhrəmanlarına, öz eşqinə uzun müddət sadiq qala bilməyən Xosrovun xarakterinə, xasiyyətinə işarə etmiş və Məcnunun sadiqliyini, fədakarlığını, dönməzliyini göstərmişdir.

Can sözdür əgər bilərsə, insan,
Sözdür ki, deyirlər özgədir can...
...Gər qətlimə dust çəksə şəmşir,
Yox məndə rizadan özgə tədbir...
...Eşq ilə riya deyil müvafiq...

Şairin poemada obrazların nitqində işlətdiyi aforizmlər, əsasən, əxlaqi-tərbiyəvi mahiyyət daşıyır. Anası Məcnuna nəsihət edərkən öz fikrini aşağıdakı aforistik beytlə çatdırmağa çalışır:

«Sən lələsən, olmagil səbusəng,
Döndərmə günəş görüb rəvan rəng».

Füzuli folklordan elə həssaslıqla istifadə edir ki, o həm şerin məna dərinliyini artırır, həm dilini asanlaşdırır, həm də oxucunun



asan başa düşməsinə şərait yaradır. Xalq arasında tez-tez işlənən «hər aşiqin bir dövranı var» atalar sözü Füzulidə aşağıdakı şəkildə işlədilir:

«Sürdü Məcnun növbətin, imdi mənəm rüsvayi-eşq,
Doğru derlər hər zaman bir aşiqin dövranıdır».

O həm məhəbbət rəmzi kimi xalqın dilində əzbər olan Məcnunu xatırlayır, onun da bir vaxt rüsvayi-eşq olduğunu deyir, həm də atalar sözünü sənətkarlıqla işlədir.

«El ağzını bağlamaq olmaz», «El ağzı çuval ağzı» kimi atalar sözlərindən şair çox incəliklə istifadə edir:

«Demiş hər ğönçəyə aşiqligim razın səba derlər,
«El ağzın tutmaq olmaz, qorxuram, ey gül, sana derlər».

Füzuli yaradıcılığında alleqoriya mühüm yer tutur. «Bəngü-badə», «Söhbətül-əsmar», «Yeddi-cam», «Səhhət və Mərəz» əsərləri alleqorik şəkildə yazılmışdır.

Azərbaycan ədəbiyyatı tarixində Əbdürrəhim bəy Haqverdiyev və Nəcəb bəy Vəzirovun zəngin ədəbi irsində şifahi xalq yaradıcılığından səmərəli istifadə olunmuşdur. Bu görkəmli sənətkarlar zəngin ədəbi irs yaratmış və folklordan yaradıcı şəkildə bəhrələnmişlər.

Azərbaycanda təhsilə səmərəli qayğının nəticəsidir ki, ədəbiyyat dərsliklərində tarixilik prinsipi əsas götürülmüş, dərslikdə verilən əsərlər elmi-nəzəri cəhətdən təhlil edilmiş, dərslikdə poetik nümunələrə geniş yer verilmişdir.

Məramına, tərtibi prinsiplərinə görə bir-birindən fərqli olan dərsliklərdə ədəbiyyatımızın bütün nəsillərini təmsil edən nümunələrin poetikasına geniş yer verilmişdir. Poetik əsərlərdə şairlərin düşüncəsi, dünyagörüşü bədii ifadəsini çox təsirli tapmışdır. Buna görə də dərslikdəki poetik əsərlər şagirdlərə bədii-estetik təsir bağışlayır.

Dərsliklərdə verilən poetik nümunələrin öyrədilməsi müəllimdən ustalıq tələb edir. Poetik əsərlərin öyrədilməsində emosional qavramaya, canlı estetik təəssürata, əsərdəki bənd, beyt və misraların təhlilinə geniş yer vermək, klassik, obrazlı və mürəkkəb lirikanı lazımi səviyyədə mənimsətmək zəruridir.

Poeziya öyrədilərkən müəllim əsərin məzmun və ideyasını geniş aşkarlamalı, emosionallığa, obrazlılığa, həssaslığa xüsusi diqqət yetirməlidir. Dahi Məhəmməd Füzuli şeri elmi olan bir bədii

əsər sayır və onun bədii-estetik, təlim-tərbiyəvi mahiyyətini yüksək dəyərləndirir.

Müəllim dərsin giriş hissəsində poetik əsərin müəllifi haqqında məzmunlu məlumat verməli, şairin yaradıcılığına maraq oyatmalı, onun şəxsiyyəti, əlyazmaları, yubileyi, ev muzeyi, adının əbədiləşdirilməsi, əsərlərinin nəşri haqqında qısa və təsirli izahat aparmalıdır.

Şerin təhlilinə maraq oyatmaq, estetik mənasını şüurlu dərk etdirmək, poetik əsərin ideya məzmununu müəyyənləşdirmək, şerin əzbər öyrənilməsinə nail olmaq lazımdır.

İslam dəyərlərinin poetikada əksi və şagirdə çatdırılması xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, insanın formalaşmasında, mənəvi-əxlaqi sifətlərə yiyələnməsində İslam dəyərlərinin çox böyük əhəmiyyəti vardır. Həmişəyaşar İslam dəyərləri bədii ədəbiyyatın mövzusu olmuş, ərəb və Azərbaycan dilində yaradılmış poetik əsərlərdə bədii ifadəsini tapmışdır.

Məlumdur ki, Nizami Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Əbül-Üla Gəncəvi, Qətran Təbrizi, Saib Təbrizi, İ.Nəsimi, Həbibi, M.Füzuli, S.Ə.Şirvani Azərbaycan, həm də fars dilində yazdıqları şerlərdə irfani mövzulara müraciət etmiş, gözəl, yaddaqalan poetik nümunələr yaratmışlar.

İndi müstəqillik qazanmış Azərbaycan Respublikasının Konstitusiyasında ölkənin demokratikləşməsi, humanistləşdirilməsi, insan azadlıqları, o cümlədən din azadlığı ön plana çəkilmişdir. İndi milli-mənəvi dəyərlər üzərində tərbiyə səmərəli aparılır.

Ulu öndərimiz Heydər Əliyev demişdir:

«İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və çox şərəfli bir vəzifədir. Bu, bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik».

Orta ümumtəhsil məktəblərində klassik Azərbaycan ədəbiyyatı tarixilik, elmilik prinsipləri əsasında sistemli tədris olunur. Bu zaman klassik ədəbiyyatın məzmun və məna xüsusiyyətlərindən, ideya istiqamətindən bəhs edərkən islam dininin və onun müqəddəs kitabı olan Qurani-Kərimin bu ədəbiyyata təsirini izah etməmək mümkün deyildir.

Uşaqların mədrəsədə öyrəndikləri Qurani-Kərim, həmçinin Sədinin, Füzulinin islam dininin tələbələrinə cavab verən poetik



əsərləri olmuşdur. Ədəbiyyat dərslərində Qurani-Kərimin yüksək ideallarından mənəvi qida alan Ə.Firdovsi, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli və başqalarının poetik nümunələri öyrədilir.

Şərqin dahisi sayılan, poetik nümunələri ilə bəşəriyyəti heyrətə gətirən, yaradıcılığının yüksək dəyəri və bədii gücü ilə əsrləri adlayıb bu gün də əlçatmaz bir zirvədə dayanan Nizami Gəncəvinin «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İsgəndərnamə» əsərlərində islam dəyərləri geniş şəkildə öz əksini tapmışdır.

Nizami Gəncəvi yazır:

Şəfqətli, ədalətli tanrının adı ki var,
Hikmət xəzinəsini açan açardır, açar.
Hər sözün, düşüncənin odur əvvəli, sonu,
Nə söyləsən, tanrının adıyla qurtar onu.[1]

«Sirlər xəzinəsi»ndə verilən bu poetik nümunələr «Leyli və Məcnun», «Yeddi gözəl», «Xosrov və Şirin» və «İsgəndərnamə» əsərlərində də vardır. Nizami əsərlərində Allahın əzəli və əbədi olması fikrini də əks etdirmişdir.

Qüdrətilə varlığa həyat verən həyatda,
Əbədiyyət timsalı özüdür kainatda...[1]

Dini fəlsəfi fikrə görə varlıq aləmi yaradan və yaşadan Allah-taaladır.

Sən, ey bu varlığı yoxdan xəlq edən,
Həva bəxş eyləyən, çalan, səslədən...
...Səxa xəznəsini icad eyləyən,
Varlığı yaradan, abad eyləyən...[2]

Böyük Nizami belə fikirə gəlir ki, bütün mövcudatı yaradan Allah-taaladır və onların varlığı Allah-taalaya bağlıdır.

Nizami əsərlərində: Allah-taalanın var olması, Allahın varlığın başlanğıcı olmaması, varlığının sonunun olmaması, vahid (tək) olması, heç bir şeyə bənzəri olmaması, yəni yaradılmışların heç birinə bənzəməməsi, varlığında heç kimsəyə və heç bir şeyə möhtac olmaması, var olanların Allaha möhtac olması, elmi bilməsi,

---

[1] N.Gəncəvi. Sirlər xəzinəsi. Bakı, 1981, səh. 21.
[1] Yenə orada, səh. 21.
[2] N.Gəncəvi. «Yeddi gözəl». Bakı, 1983, səh. 98.

görməsi, eşitməsi, gücü yetməsi, öldürmək, diriltmək haqqında ətraflı bəhs edir.

Nizami Gəncəvinin «Xosrov və Şirin» əsərində Allahın qüdrəti ilə kainatın və insanın yaranması, səmada sayrışan ulduzların insana estetik zövq verməsi çox təsirli verilir:

...Göyləri xəlq edib yaraşıq verən,
Saysız ulduzlara nur, işıq verən,
İnsan şüuruna hikmət öyrədən,
İncə xəyallara sənət öyrədən...
...Zülmət gecələri işıqlandıran...
...Günəşli və aylı bir aləm verən,
Bu yeri, bu göyü odur saxlayan...
...İstəsə aləmi pozar, məhv edər.[1]

Nizami poemalarında Allahın təkliyi məsələsini də qoymuş, bütpərəstliyə qarşı aparılan mübarizəni geniş əks etdirməyə çalışmışdır. «İsgəndərnamə»də Makedoniyalı İsgəndəri peyğəmbər səviyyəsində tərənnüm edir. İsgəndər tutduğu torpaqda yerli xalqın dilinə, adət-ənənəsinə hörmətlə yanaşır. İrana gələndə isə atəşpərəstliklə bağlı olan atəşgahları tamamilə dağıdır.

«Tövrat», «Zənbur», «İncil» və «Qurani-Kərim»in təsiri ilə klassik şairlərimiz maraqlı əsərlər yaratmışlar. Müqəddəs kitablardan sonuncusu Qurani-Kərim olmaqla bizim peyğəmbərimiz həzrəti Məhəmməd Mustafaya nazil olmuşdur. Bu, şairlərimizin qəlbində qürur və iftixar hissi oyatmışdır. Onlar bunu öz əsərlərində əks etdirmişlər.

Nizami Gənəvi «Xəmsə»sində bu məsələni genişliyi ilə açıqlamışdır. «Sirlər xəzinəsi»ndə: «Sonuncu peyğəmbərin şəninə», «Peyğəmbərin meracı», «Peyğəmbərin mədhi», «Xosrov və Şirin»də: «Peyğəmbərin tərifi», «Leyli və Məcnun»da: «Sonuncu peyğəmbərin tərifi», «Peyğəmbərin meracı», «Yeddi gözəl»də: «Peyğəmbərin mədhi», «Peyğəmbərin meracı»; «İsgəndərnamə»də («Şərəfnamə»): «Sonuncu Peyğəmbərin tərifi», «Peyğəmbərin meracı»; «İqbalnamə»də «Sonuncu Peyğəmbərin tərifi» və s.

Dahi Nizami Gəncəvinin davamçısı olan Məhəmməd Füzuli poeziyasında İslamın əksi canlı və təsirli verilmişdir.

---

[1] N.Gəncəvi. Xosrov və Şirin. Bakı, 1983, səh. 22.



Məhəmməd Füzuli «Leyli və Məcnun» poemasının minacatında insanın torpaqdan yarandığını qeyd edir:

Ya rəb, kərəm et ki, xarü zarəm,
Dərgahə bəsi ümidvarəm.
Torpaq idim, eylədin bir insan,
Müstövcibi-əqlü qabili-can.
Gər can isə xaki-dərgahəndir,
Vər əql isə saliki-rəhindir.

Bu misralar üzərində iş gedərkən aydın olur ki, Füzuli insanın Allah-taala tərəfindən torpaqdan yarandığını göstərmişdir.

Məhəmməd Peyğəmbərin müqəddəs kəlamların-dan birində deyilir:

«Bir saat elm öyrənmək altmış il ibadətdən üstündür. Hər kim mənə bir hərf öyrətsə, mən ona qul olaram. Elm dünyanın uzaq ölkəsində olsa da ona yiyələnmək üçün yola çıxmaqdan çəkinməyin. Alimin qələminin mürəkkəbi, bir şəhidin qanından daha müqəddəsdir. Elm öyrənin, çünki elm sahibi yaxşını pisdən seçməyi bacarır. İnsan elmlə xoşbəxtliyin zirvəsinə çatır».

Gənc nəslin mənəvi aləminin zənginləşməsində, onların nitqinin inkişafında, bir şəxsiyyət kimi formalaşmasında ədəbiyyatın rolu böyükdür. Təlim-tərbiyəvi əhəmiyyətinə görə ədəbiyyat orta ümumtəhsil məktəbinin təlim fənləri arasında çox mühüm yer tutur.

Məktəbdə ədəbiyyat tədrisinin məqsədi odur ki, şagird bədii söz sənətinin idrak vasitəsi olduğunu anlasın, onun ictimai həyatla bağlılığını başa düşsün, oxuduğu əsəri qiymətləndirməyi bacarsın, onun vasitəsi olan sözün işlənmə məqamını öyrənsin. Bunun üçün daha kamil söz sənətkarlarının əsərlərini öyrənmək, onlardan düzgün nəticə çıxarmağa səy göstərmək lazımdır. Təlim materialı kimi proqram və dərsliklərə daxil edilən ədəbi faktın, bədii nümunənin qarşıya qoyulan məqsədə nə dərəcədə müvafiq olduğu nəzərə alınmalıdır.

Xalqımızın milli istiqlaliyyət qazandığı müasir şəraitdə məktəblilərin milli ruhda tərbiyə edilməsi təlim-tərbiyə müəssisələrinin qarşısında başlıca problem olaraq durmaqdadır. Təhsil qanununda qeyd edilir: «Təhsil sisteminin başlıca vəzifələri dərin və hərtərəfli biliyə, bacarığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə və demokratik dünyagörüşünə, soy-kökünə və Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə

dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən, türk dünyasının və islam əxlaqının yaratdığı dəyərlərə yiyələnən, biliyinə, yüksək mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın qabaqcıl vətəndaşlarının səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdədir».[1]

Şübhəsiz, mənəviyyatla əxlaq arasında oxşarlıq, məzmunca yaxınlıq olmasına baxmayaraq, mənəviyyat əxlaqa nisbətən daha geniş məzmuna malik anlayışdır. Belə ki, əxlaq mənəviyyatın tərkib hissələrindən, onun əsas komponentlərindən biridir. Məhz bu baxımdan da mənəvi tərbiyə əxlaq tərbiyəsindən daha geniş məzmunu özündə ehtiva edir.

Bəşər tarixinin bütün dövrlərində doğruluq, sədaqət, ədalət, düzlük, mərdlik, dostluq, nəciblik və s. bu kimi mənəvi keyfiyyətlər insanlar tərəfindən bəyənilmiş, təqdir edilmiş, əxlaqsızlıq, qorxaqlıq, xəyanət, zülmkarlıq, xəsislik və s. kimi mənfi sifətləri pisləmiş, onlara qarşı daim mübarizə aparmışlar.

Azərbaücan xalqının mili mənəvi-əxlaqi keyfiyyətlərindən biri qızlarımızın və qadınlarımızın həya-abır və namusla həyat sürməsi, ailəyə möhkəm sədaqəti başqa millətlər tərəfindən də həmişə böyük ehtiramla yad edilir.

Nizami «Xosrov və Şirin» poemasında azərbaycanlı qızı Şirinin Xosrova saf eşqinə baxmayaraq, ailə həyatına hazır olduğunu hökmdar bibisi Məhin Banuya belə izah edir:

Gözümdən qanlı yaş töksəm də heyhat,
Olsam, olacağam bir halal arvad.

Şirin bu niyyətini Xosrova da açıq bildirir:

Hərçənd ki, şahsan, kəbinsiz yenə,
Yetişə bilməzsən istəklərinə.

Bu nəcib və incə keyfiyyətləri dahi şair başqa əsərlərində də tərənnüm etmişdir.

Böyük Füzuli də xalqımızın qızlarını daim ismətli, həyalı və namuslu görmək istəmiş, «Leyli və Məcnun» poemasında anasının Leyliyə verdiyi nəsihətində belə ifadə etmişdir:

Key şux! Nədir bu geftugulər?

---

[1] «Xalq qəzeti», 6 yanvar. 1993-cü il.



Qılmaq sənə tənə eybculər?
Neyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?
Neyçün sənə tənə edə bədgu?
Namusuna layiq işimdir bu?...
...Oğlan əcəb olmaz, olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?

Valideynlərimiz övladlarının namusu, sədaqətli olmaları qayğısına qalmış, onları təmiz ruhda böyütməyə çalışmışlar.

Xalqımızın müqəddəs milli keyfiyyətlərindən biri də ailə namusudur. Qeyrətli kişilərimiz və oğullarımız ailələrinin namusu uğrunda ölümə belə getdikləri kimi, ismətli qızlarımız, gəlinlərimiz və analarımız da öz pak adlarının ləkələnməsinə hər cür cəza qarşısında razılıq verməmişlər.

Bunun parlaq nümunəsini xalqımızın müqəddəs salnaməsi «Kitabi-Dədə Qorqud» dastanlarında görürük. Dastanda Qazan xanın arvadı Burla xatunun və oğlu Uruzun qeyrəti, isməti, namusu buna gözəl nümunədir, tarixi örnəkdir.

Qızlarımızın və qadınlarımızın ən müqəddəs milli keyfiyyətlərindən biri də kişi qeyrətli, cəsarətli, igid olmalarıdır. Əfsanəvi qəhrəman hökmdar olan anamız Tomris düşmən qarşısında baş əymir, zülmkar İran şahı Keyxosrovun başını kəsərək qanla dolu tuluğun içinə salıb deyir: doyunca iç, tökdüyün qandan!

Nizami «İsgəndərnamə» poemasında Bərdə hökmdarı qoçaq Nuşabənin dünya fatehi İsgəndərdən çəkinməyərək ona verdiyi cavabı belə səciyyələndirir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir Aslanam düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Tarixdə Koroğlunun Nigarı, qaçaq Kərəmin Həcəri dünyaşöhrətli qəhrəman olmuşlar, ümumxalq məhəbbəti qazanmışlar.

Milli dəyərlərimizdən biri də xalqımızın gənc nəslə, əməyə, əməkçi insanlara hörmət hissləri aşılamaqdır. Belə ki, uşaqlara başa salmaq lazımdır ki, əmək nəticəsində meydana gələn məhsullar müqəddəs hesab olunur: məsələn, çörəyi ayaq altına tökmək, zibilliyə atmaq, onu pisləmək qəbahətdir. Əksinə, çörəyə əl basıb,

yaxud ondan bir tikə qoparıb and içmək şübhəli bir məsələni aydınlaşdırır, adamlarda inam oyadır.

Xalqımızın milli dəyər kimi yüksək qiymətləndirdiyi keyfiyyətlərdən biri də qocalara xüsusi hörmət edilməsidir. Belə ki, qocalara həssaslıqla ehtiram göstərib, onların buyruqlarını yerinə yetirmək yaşca kiçik olanlardan tələb edilir.

Xalqımıza məxsus milli-mənəvi dəyərlərdən biri də bütün dünya xalqları içərisində birinci yerdə dayanan qonaqpərvərliyimizdir. Xalqımız həmişə bu gözəl və nəcib keyfiyyəti ilə haqlı olaraq fəxr etməkdədir. Ölkəmizə qonaq gəlmiş xarici ölkələrin nümayəndələri öz xatirələrində, elmi əsərlərində bizim yüksək qonaqpərvərliyimizdən yazmışlar.

Dünyaşöhrətli fransız yazıçısı Aleksandr Düma «Qafqaz səfəri» əsərində yazır: «Onlar yaxınlaşanda bir nəfər (görünür, o, dəstənin başçısı idi) bizi qarşılayıb, qonaqpərvərlik əlaməti olaraq duz-çörək təklif etdi... Biz onların əllərini səmimiyyətlə sıxıb ayrılanda, dəstənin başçısı yenə bizə duz-çörək təklif etdi. Bu, yerli xalqın adətidir. Onlar təkcə qonağın axşam yeməyini deyil, səhər yeməyinin də qayğısına qalırlar. Mən onun adını soruşdum. Adının Əbdüləzim olduğunu bildirdi».

Xalqımızın milli dəyərlərindən biri də öz Vətəninə və doğma dilinə olan sonsuz hörməti və məhəbbətidir. Doğma Vətənimizi və ana dilimizi yad təsirlərdən, hücumlardan qorumaq qeyrətli oğullarımızın müqəddəs borcu olmuşdur.

Dünyaşöhrətli xalq şairimiz Səməd Vurğun «Yandırılan kitablar» adlı əsərində fars millətçilərinə nifrət edərək deyir:

...Cəllad! Mənim dilimdədir bayatılar, qoşmalar,
De, onları heç duydumu sənin o daş ürəyin?
Hər gəraylı pərdəsində min ananın qəlbi var,
Hər şikəstəm övladıdır bir müqəddəs diləyin;
De: onları heç duydumu sənin o daş ürəyin?

Söylə, sənmi xor baxırsan mənim şer dilimə?
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!
Sənmi «türkəxər» deyirsən ulusuma, elimə?
Dahilərə süd vermişdir Azərbaycan gözəli...
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!



Əzəl başdan düşmənimdir üzü murdar qaranlıq,
Hər torpağın öz eşqi var, hər millətin öz adı.
Kainata deyişmərəm şöhrətimi bir anlıq,
Mənəm Odlar ölkəsinin günəş donlu övladı!
Hər torpağın öz eşqi var, hər millətin öz adı!

Bir varaqla tarixləri, utan mənim qarşımda,
Anam Tomris kəsmədimi Keyxosrovun başını?
Koroğlunun, Səttarxanın çələngi var başımda.
Nəsillərim qoymayacaq daş üstündə daşını;
Anam Tomris kəsmədimi Keyxosrovun başını?

Xalq şairi Səməd Vurğun Bəkilov xalqımızın dili haqqında demişdir: «Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Biz dil məsələsini hər yerdə göz bəbəyimiz kimi gözləməliyik». Eyni zamanda sevimli şairimiz başqa xalqlara da səmimi münasibət bəslədiyini gizlətmir və fəxrlə deyirdi: «Mən bütün insanlara, bütün xalqlara və millətlərə səadət arzulayıram və bu yolda çalışıram. Lakin bununla belə məndə ötəri ən müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır, onun dili və şeri mənim vicdan səsimdir, o, mənim doğma anamdır».[1]

Xalq şairi Səməd Vurğunun Vətənimizə, xalqımıza, ana dilimizə bəslədiyi dərin və misilsiz məhəbbəti gənc nəslə öyrətmək təhsilin və təhsil xadimlərinin, müəllimlərin, pedaqoqların, tərbiyəçilərin şərəfli borcu və müqəddəs vəzifəsidir.

Konstitusiyamızda rəsmiləşdirilmişdir ki, xaldqımızın dili Azərbaycan dilidir və Azərbaycan Respublikasının rəsmi dövlət dili də Azərbaycan dilidir. Bu müqəddəs kəlam Konstitusiyamızın iyirmi birinci maddəsində göstərilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci Forumundakı nitqində demişdir: «Hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini-rus dilini də, ingilis dilini də, fransız dilini də, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu, lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dil bilməsini tələb edir. Mən gənclərimizə bu tövsiyəni verirəm.

[1] Səməd Vurğun. Əsərləri, v cild. Bakı, 1972, səh. 320.

...Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun».

Azərbaycan Respublikasının Konstitusiyasının yetmiş dördüncü maddəsində deyilir: «Vətənə sədaqət müqəddəsdir».

Azərbaycan xalqı yüzilliklər boyu bu müqəddəs kəlama sadiq olmuşdur. Təhsilə qayğının əsas problemlərindən biri Konstitusiyamızda göstərilən bu müqəddəs kəlamı təhsil xadimləri, müəllimlər, tərbiyəçilər, ziyalılar gənc nəslə şüurlu dərk etdirməlidir-lər.

Ümummilli liderimiz Heydər Əliyev Müstəqil Azərbaycan Respkblikası Gənclərinin Birinci Forumundakı nitqində demişdir:

«Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətərpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik».

Heydər Əliyev gənc nəslin təlim-tərbiyəsində şifahi xalq yaradıcılığının əhəmiyyətini həmişə yüksək dəyərləndirmişdir. Azərbaycan şifahi xalq ədəbiyyatının tədris olunmasının zəruriliyini göstərən ulu öndərimiz Heydər Əliyev demişdir ki, qədim və zəngin tarixə malik olan Azərbaycan şifahi xalq yaradıcılığı, Azərbaycan folkloru misilsiz təlim-tərbiyə və bədii-estetik zövq mənbəyidir. Folklor gənc nəslin dünyagörüşünü, biliyini, mənəvi aləmini, dilini, vətənpərvərliyini, əməksevər-liyini, Vətənə və xalqa sevgisini zənginləşdirir, onun hərtərəfli inkişafına əsaslı qüvvət verir.

Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin mənalı ömür yolu ədəbiyyat və incəsənətlə vəhdətdə olmuş, xalqımız görkəmli sənətkarı zəmanəsinin və xalqının müdrik oğlu, bədii həyat salnaməsinin yaradıcısı adlandırmışdır.

Bütün türk dünyasının müdrik lideri Heydər Əliyev demişdir: «Azərbaycan ədəbiyyatı Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin estetik fikrinin inkişafına nəcib təsir göstərmiş, məsələn, Avropa ədəbiyyatını yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir».



Azərbaycan şifahi xalq yaradıcılığı bədii sənət inciləri xəzinəsidir, zəngin təlim-tərbiyə mənbəyidir. «Folklor» ingilis sözüdür, xalq hikməti, xalq biliciliyi, xalq müdrikliyi deməkdir. İlk dəfə «folklor» sözünü 1846-cı ildə ingilis tarixçisi Vilyams Toms işlətmişdir.

Şifahi xalq yaradıcılığı xalqın tarixini ifadə edən salnamədir. Xalqın qəhrəmanlıq tarixi, adət-ənənələri folklorda bədii əksini tapmışdır.

Möhtərəm prezidentimiz Heydər Əliyev folklorun, klassik ədəbiyyatın mahiyyətini, dövlətçiliyimizin inkişafı və yeni nəslin tərbiyəsi üçün əhəmiyyətini yüksək dəyərləndirmiş, ədəbiyyatın nəşrinə və təbliğinə müntəzəm qayğı göstərmişdir. Azərbaycan xalqının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi Xaqani, Nizami, Füzuli, Nəsimi kimi dahi sənətkarların nəsillərə qədirşünaslıq örnəyi göstərməsini dövlət başçısı həmişə qiymətləndirmişdir.

Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayında (2001) demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

Tarixi həqiqətdir ki, xalqın milliyini, mənəvi dəyərlərini yaşadıb inkişaf etdirən onun dilidir, həyat salnaməsi şifahi və yazılı ədəbiyyatıdır. Hörmətli prezidentimizin dili ideoloji-fəlsəfi mükəmməlliyi, informativ zənginliyi, emosionallığı, ictimai-siyasi natiqlik sahəsindəki dərin təcrübəsi, fitri istedadı bütöv və perspektivli bir məktəbdir.

Azərbaycan şifahi xalq yaradıcılığı və klassik ədəbiyyatının nadir inciləri dövlət başçısının nitqlərinə məna dərinliyi, şirinlik və fəlsəfi mahiyyət gətirir, onun ensiklopedik zəkasının zənginliyini göstərir.

Etnik folklor irsinin və milli-mənəvi dəyərlərin toxunulmazlığının təminatçısı möhtərəm prezidentimiz Heydər Əliyev demişdir: «Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın».

Folkloru-şifahi söz xəzinəsini milli dəyərlərin ölməzliyi naminə qoruyub nəsillərə çatdırmaq müstəqil dövlətin mənəvi borcudur.

Xalqımızın milli öndəri Heydər Əliyev etnik folklor irsini milli poetik təfəkkür və mənəvi mədəniyyət faktı kimi yüksək dəyərləndirir. Bu baxımdan «Aşıqlar birliyi», «Aşıq Pəri məclisi» yaradılması, Aşıq Alı, Aşıq Ələsgər kimi söz sənətkarlarının dövlət səviyyəsində yubileylərinin keçirilməsi, əsərlərinin nəşri və təbliği folklor irsinə qayğının nəticəsidir. Aşıq Ələsgərin 175 illik yubileyinin dövlətçilik səviyyəsində keçirilməsi Heydər Əliyev qayğısının təntənəsidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20 aprel 1997-ci ildə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verdiyi fərmanda deyilir: «Oğuz türklərinin tarixini əks etdirən «Kitabi-Dədə Qorqud» yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur».

Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə həsr olunmuş, folklorumuzun möhtəşəm tarixi salnaməsi olan «Kitabi-Dədə Qorqud» dastanı pedaqoji-psixoloji, təlim-tərbiyəvi mahiyyətinə, milli-bəşəri dəyərlərinə görə uzun illər orta və ali məktəblərdə tədris olunmuş, indi də tədris olunur.

Xalq şairi Səməd Vurğun gözəl demişdir:

Hər saxsı parçası, hər məzar daşı,
Nəsildən-nəsilə bir yadigardır.

Dastanın 1300 illik yubileyinin YUNESKO tərəfindən keçirilməsi təşəbbüsünü bu mötəbər qurumda türk dünyasının müdrik milli lideri Heydər Əliyev qaldırmışdır. 1997-ci ilin 20 apreli qorqudşünaslığın ikinci doğum tarixi olmuşdur.

Heydər Əliyev 21 aprel 1999-cu ildə «Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı haqqında» sərəncam vermiş, Azərbaycanı dünyaya tanıtmaq amalının həyata keçirilməsi probleminin proqramını aşkarlamışdır.

Heydər Əliyev hakimiyyət başına keçdiyi 1969-cu ildən etibarən X.Şirvani, N.Gəncəvi, M.Füzuli, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, S.Vurğun, R.Rza kimi bəşər ədəbi fikrinin korifeylərinə və milli mənəviyyatımıza qayğını artırmışdır.

Ədəbiyyatın, milli mənəviyyatın qorunub saxlanmasında və şəxsiyyətin formalaşmasında rolunu yüksək dəyərləndirən Heydər Əliyev demişdir: «Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mənəviyyatın



çox böyük rolu olmuşdur... Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam».

Prezident şəxsiyyətin formalaşmasında və bədii-estetik zövq almasında folkloru və yazılı ədəbiyyatı zəngin xəzinə məktəbi adlandırır.

Dövrümüzün görkəmli dövlət xadimi, YAP-ın memarı, müstəqil dövlətçiliyimizin banisi Heydər Əliyev cəmiyyətin mənəvi, ruhi, etik, estetik və sosial həyatının saflaşdırılmasını xüsusi vurğulayır, gənc nəslin hərtərəfli inkişafında xalqın mənəvi sərvətinin-şifahi xalq yaradıcılığının, folklorun, klassik ədəbiyyatın mahiyyətini çox yüksək dəyərləndirir, onun öyrədilməsinin, tədris olunmasının səmərəli yollarını göstərir.

Heydər Əliyev düzlüyü, bütövlüyü, mənəvi saflığı və zənginliyi həyat norması sayır, sənət və sənət adamlarına, xalqına və Vətəninə səmərəli xidmət edən insanlara böyük qayğı bəsləyir. Xalqın milli mənlik şüurunun formalaşdırılmasında ən qüdrətli tərbiyə vasitəsi olan bədii ədəbiyyatın mahiyyətini dəyərləndirən dövlət başçısı sənətkarı dövrünün, xalqının oğlu adlandırır.

«Kitabi-Dədə Qorqud» dastanı xalqımızın mənəvi sərvəti, ədəbiyyatımızın ulu mənbəyi, folklorumuzun və pedaqoji fikir tariximizin ədəbi-tarixi salnaməsidir.

Dastanı elm aləminə alman şərqşünası Henrix Fridrix Fon Dits ilk dəfə 1815-ci ildə məlum etmiş, Drezden Kral kitabxanasında tapmışdır. Bundan sonra dastanın Vatikan və Berlin nüsxələri aşkarlanıb öyrənilməyə başlanmışdır. Türkiyə şərqşünasları 1916-cı ildən dastanın tədqiqi ilə səmərəli məşğul olmuşlar.

Türk şərqşünasları İsmayıl Hikmət, Orxan Şaiq Gökyay və Məhərrəm Erkinin, rus şərqşünasları V.V.Bartold, A.N.Kononov, A.Y.Yaqubovski, V.Jirmunski, Azərbaycan qorqudşünaslarından Əmin Abid, A.Musaxanlı, R.Əfəndiyev, M.H.Təhmasib, Ə.Dəmirçizadə, H.Araslı, Ə.Qarabağlı, V.Vəliyev, P.Əfəndiyev, Ş.Cəmşidov, Q.Namazov kimi tədqiqatçıların şərəfli əməyi vardır.

Dünyaşöhrətli ulu öndərimiz Heydər Əliyev demişdir: «Kitabi-Dədə Qorqud» bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda, tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir».

Dastanın sahibi Azərbaycan xalqıdır, onun yubileyi qorqudşünaslığın, folklorşünaslığın ziyafətidir, tarixi bayramıdır.

Prof. Oqtay Əfəndiyev qeyd edir ki, dastanın yubileyi mənəviyyatımızın, ədəbiyyatımızın, dilimizin, xalqımızın tarixidir. Prof. Tofiq Hacıyev dastanı nəhəng türk ədəbi abidəsi, bütün dünya abidələrindən biri adlandırır.

Möhtərəm prezidentimiz deyir ki, bu dastan «Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir».

Bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının, türk dünyasının ümid çırağı Heydər Əliyev xalqımızın mənəvi sərvəti, zəngin bədii-estetik və təlim-tərbiyə xəzinəsi olan şifahi və yazılı ədəbiyyatın tədqiqinə, təbliğinə, nəşrinə və tədrisinə misilsiz qayğı göstərir.

Görkəmli ictimai xadim Heydər Əliyevin parlaq zəkası, dərin biliyi, geniş dünyagörüşü, dövlətin bütün atributlarını, ərazi bütövlüyünü qoruyub saxlamaq qeyrəti, zəngin daxili və xarici siyasəti xalqımızın uğurlu gələcəyinə, ədəbiyyat və mədəniyyətimizin inkişafına şərəfli xidmət edir.

Dünyaşöhrətli siyasətçi, görkəmli dövlət xadimi, ədəbiyyat, mədəniyyət, incəsənət və elmin qayğıkeşi Heydər Əliyevi daxili gözəllik, mənəvi saflıq, əməksevərlik, humanizmi, vətənpərvərlik, sözlə əməlin vəhdəti, sağlam düşüncə, dözümlülük, yüksək təşkilatçılıq istedadı, azərbaycançılıq əqidəsi səciyyələndirir.

Zəmanəmizin müdrik və fitri istedadlı, möhkəm iradəli, parlaq zəkalı, zəngin təcrübəli, dərin bilikli dövlət başçısı, böyük siyasi xadim, qüdrətli milli lider, tarixi şəxsiyyət Heydər Əliyevin 80 illik yubileyi Azərbaycan xalqı və dünya azərbaycanlıları tərəfindən fərəh və qürurla qeyd olunmuşdur.

Ümummilli lider Heydər Əliyev ədəbiyyatın tədrisində təlim-tərbiyəvi, bədii-estetik və yüksək əxlaqi keyfiyyətlərin səmərəli öyrədilməsini müasir müstəqillik dövrümüzün şərəfli vəzifəsi saymış, bu müqəddəs problemin həyata keçirilməsini təhsil sisteminin, pedaqoji kollektivin və təhsil xadimlərinin qarşısında duran zəruri vəzifə, səmərəli vətəndaşlıq borcu adlandırmışdır.



# V BÖLMƏ

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HƏRBİ TƏHSİLƏ QAYĞISI

Xalqı tarixdə yaşadan onun dahi şəxsiyyətləridir. Azərbaycan xalqının ləyaqətli oğlu Heydər Əliyev 1969-cu ildən Azərbaycana rəhbərlik etməyə başlamışdır. Heydər Əliyev ömrünü xalqına, Vətəninə həsr edən dahi şəxsiyyətdir. 1993-cü ildə Heydər Əliyevi Azərbaycan xalqı yekdilliklə Prezident seçdi.

Prezident Heydər Əliyev «Əsrin müqaviləsi»ni imzaladı, daxili hərc-mərcliyə son qoydu, sabitlik yaratdı, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, Ermənistanla uzunmüddətli atəşkəsə nail oldu və iqtisadiyyatımızın inkişafına şəmərəli şərait yaratdı.

Humanist rəhbər Heydər Əliyev şəhid qəbristanlığı salınmasına qətiyyən imkan vermədi. Buna görə də Türkiyədə Mustafa Kamal Atatürkə göstərilən əbədi ümumxalq ehtiramı Heydər Əliyevə göstərilir.

Şəxsiyyəti əlçatmaz zirvəsindən uca olan Heydər Əliyev şəxsiyyəti əbədi yaşayır və yaşayacaqdır. Heydər Əliyev təhsil sisteminin bütün sahələrinə, o cümlədən hərbi təhsilə böyük qayğı göstərmişdir. Azərbaycanda və Naxçıvanda hərbi məktəblərin açılması və hərbi mütəxəssislərin yetişdirilməsi sahəsində Heydər Əliyev şəfərli fəaliyyət göstərmiş, hərbi təhsilin proqramını vermişdir.

Heydər Əliyev Azərbaycan xalqının Azərbaycandilli Azərbaycan Respublikasının banisi oldu və iftixarla dedi: «Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir. Azərbaycan bundan sonra heç zaman, heç bir dövlətin vassalı, asılısı və müstəmləkəsi olmayacaqdır!» Heydər Əliyevin ucalığı əbədidir, çünki Vətəndə torpaq sevgisi ilə mayalanmış, əqidə mübarizəsi ilə saflaşmışdır. Buna görə də Heydər Əliyev Azərbaycan xalqının idealıdır, XX əsr Türk Dünyasının lideridir.

Heydər Əliyev beynəlxalq meydanda düşmən qarşısında böyük tarixi təcrübəsi, siyasi, diplomatik məktəbi olan dahi şəxsiyyətdir ki, bunu Lissabon zəfərinin sevinci xalqımıza ərməğan verdi. Azərbaycanda təhsil, elm və mədəniyyətin inkişafı yüksək vətəndaşlıq qayəsinin bəhrəsinə çevrildi, hamını sevindirdi. Ona

görə ki, Heydər Əliyev elm, təhsil və mədəniyyətin qayğıları ilə çox səmərəli məşğul oldu, həm də hərbi təhsilə xüsusi təkan verdi, onu zənginləşdirdi.

Azərbaycan xalqının keçdiyi dövrə qısa nəzər salmaq maraqlıdır. Azərbaücan xalqının çətin vəziyyətində Əbdürrəhman Vəzirov xalqa başçılıq etməyi bacarmadı. Ayaz Mütəllibov öz xalqına prezident kimi şərəfli xidmət edə bilmədi. Onu əvəz edən Yaqub Məmmədov da bu vəzifənin icrasını bacarmadı. Xalq cəbhəsinin sədri Əbülfəz Elçibəy prezident seçildi. Bu dövrdə Ermənistanla müharibə gedirdi. Gəncədə Surət Hüseynov qiyam qaldırdı. Azərbaycanı parçalamaq xülyasına düşən Əlikram Hümbətov «Talış-Muğan Respublikası» yaratmaq azarına tutuldu.

Azərbaycan xalqının dəvəti ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və Ali Sovetin sədri kimi gərgin fəaliyyətə başladı. Əbülfəz Elçibəy özlərinin Kələki kəndinə getdi Əlikram Hümbətovun və Sürət Hüseynovun fitnəsinin qarşısı alındı.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Hərbi təhsilə də böyük qayğı göstərdi. Azərbaycan Polis Akademiyasının yaradılmasına, Naxçıvanda, Bakıda və digər şəhərlərdə hərbi akademiyaların təşkilinə nail oldu, şərəfli fəaliyyətini davam etdirməyə başladı və dərin ümumxalq məhəbbəti qazandı.

Heydər Əliyev 1991-ci il 4 sentyabr tarixli fərmanı ilə Azərbaycanın Müdafiə Nazirliyini yaratdı. Yüksək döyüş hazırlığı olan ordunun yaranmasına və formalaşmasına geniş şərait yaratdı. Ancaq 1993-cü ilin ikinci yarısından Silahlı Qüvvələrin yenidən qurulmasına başladı.

Vətən xaini R.Qazıyevi vəzifədən rədd etdi. General-polkovnik Səfər Əbiyev Azərbaycan Respublikasının Müdafiə Naziri təyin edildi. Dünya dövlətləri Azərbaycanın haqq səsini eşitdi, Azərbaycanı ərazi bütövlüyünə qəsd edilən, təcavüzə məruz qalan dövlət kimi tanıdı və onun ədalətli bir dövlət olduğuna tamamilə inandı.

Müasir dövrümüzdə ümummilli liderimiz Heydər Əliyevin hərbi təhsilə qayğısını onun istedadlı sələfi Respublikanın Prezidenti İlham Əliyev şərəflə inkişaf etdirir, Vətəni və xalqı ilhamla xoşbəxt və firavan gələcəyə aparır, xalqın dərin məhəbbətini qazanır.



Təhsil sistemi sahəsinin inkişafında Heydər Əliyev fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Millət vəkili Mehriban xanım Əliyeva Prezident İlham Əliyevə şərəfli kömək edir, Heydər Əliyev ideyasına sadiq qalır !

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 15 iyun 1999-cu ildə «Azərbaycan Respublikası-nın təhsil sahəsində islahat Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncam vermişdir.

Sərəncamda Azərbaycan Respublikasının təhsil sahəsində islahatının məqsəd və vəzifəsi ətraflı şərh olunur, səmimiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması təhsil sistemi ilə təmin edildiyi göstərilir. Azərbaycanın tarixin qədim qatlarında mədəniyyət ocağı olduğu və Azərbaycanda müasir dövrümüzdə orta ixtisas və orta təhsil şəbəkələrinin yaradıldığı geniş verilir.

20-ci illərdən Azərbaycanda dünyəvi təhsil məktəblərinin açılması və yüksək ixtisaslı milli kadrların hazırlanması ön plana çəkilmişdir. 1969-cu ildə Respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev Azərbaycanda elm, təhsil və mədəniyyətin yüksəlməsinə səmərəli təkan verdi. Ancaq 1988-ci ildən ehtibarən Azərbaycanda təhsil sahəsində də dağıdıcı tendensiyalar baş verir.

Bu dövrdə Ermənistanın Azərbaycana torpaq iddiaları əsasında başlanmış müharibə nəticəsində Dağlıq Qarabağ və onun ətraf rayonları zəbt olundu, bir milyondan çox soydaşlarımız öz doğma yurdundan qovuldu, ərazimizin 20 faizi işğal olundu, 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas məktəbi, bir ali məktəb filalı dağıdıldı.

Azərbaycan Respublikası öz müstəqilliyini təsdiq edən Konstitusiya aktını qəbul etmişdir. Azərbaücanda 1993-cü ilin iyunundan bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əlverişli siyasi, iqtisadi, hüquqi, əxlaqi-mənəvi mühit yarandı.

İslahatın gedişində elmi-tədqiqat işlərinin səmərəli aparılması, təhsil sistemi işçilərinin və təhsil alanların sosial müdafiəsinə, həm də sağlamlığına xüsusi şərait yaradılmışdır.

Təhsil sistemində islahatların üç mərhələdə, 1999-cu il, 2000-2003-cü illər və 2004-cü ildə həyata keçirilməsi, yəni proqramda nəzərdə tutulan bütün tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi əhatə edilmişdir.

«Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nda təhsil sisteminin real vəziyyəti qısa şərhini tapmışdır. Tarixi mənbələrdən aydındır ki, eramızın üçüncü əsrindən başlayaraq Azərbaycanda ilkin savad verən ayrıca məktəblər yaranmışdır. VII əsrdən isə oxumaq istəyənlərin təhsil sistemi yaradılmışdır.

Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Həmədan, Ərdəbil kimi şəhərlərə X-XIII əsrlərdə elm və mədəniyyət mərkəzləri gözəl təsir bağışlamışdır. Bu mərkəzlərdə təhsil alanlar fəal iştirak etmiş, uğurlar qazanmışlar.

Azərbaycanın Gəncə, Şamaxı, Beyləqan, Naxçıvan, Bərdə, Təbriz, Marağa kimi şəhərlərində XII-XV əsrlərdə ali məktəblər, rəsədxanalar, kitabxanalar fəaliyyət göstərmişlər.

XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə daxil edildi və milli məktəblər ləğv olundu, tədris rus dilində aparılmağa başlandı.

Rus imperiyasının dağılması nəticəsində 1918-ci ilin mayında Azərbaücan Xalq Cümhuriyyəti yarandı. 1920-ci ildən təhsil sistemi inkişaf etdirilməyə başlandı.

Ümummilli lider Heydər Əliyevin müstəsna fəaliyyəti nəticəsində 70-80-ci illərdə təhsil sisteminə xüsusi qayğı göstərildi, təlim-tərbiyə müəssisələri genişləndirildi, milli kadrların hazırlanmasına xüsusi diqqət yetirilməyə başlandı. 1969-cu ildə Azərbaycan Respublikasında on iki ali məktəb alduğu halda, 1980-ci illərin əvvəllərində ali məktəblərin sayı on yeddiyə çatdırıldı. 1970-ci illərin ortalarından hər il orta hesabla 800-900 nəfər, 1980-ci illərin əvvəllərində isə ildə 1000-1400 nəfər Respublikadan kənardakı ali məktəblərə təhsil almağa göndərilmişdir.

Ancaq 1992-ci ildə qəbul olunmuş «Təhsil Qanunu» təhsil prosesinin inkişafına kifayət qədər şərait yarada bilmədi. Azərbaycan Respublikasının demokratik yolla seçilmiş ilk Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya qəbul edildi, bütün Şərqdə ilk dəfə olaraq ümumi icbari orta təhsilin həyata keçirilməsinə başlanıldı.

Müasir dövrümüzdə təhsil sisteminin yeni normativ-hüquqi iqtisadi və informasiya bazası yaradılmış, yeni tipli elm, təhsil mərkəzləri və təhsil müəssisələri qurulmuşdur. Təhsilin tədris, elmi-metodiki və informasiya təminatı real tələbata uyğun qurulmuşdur.



Azərbaycan Respublikasında Ulu öndər Heydər Əliyevin «Təhsil millətin gələcəyidir» müdrik kəlamı Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004-2008-ci illər) ilə yüksək səviyyədə həyata keçirilir. Bu proqramın doxsan yeddi maddəsi təhsillə bağlıdır.

Ulu öndərimiz Heydər Əliyev Respublikamıza rəhbərlik etdiyi 1969-2003-cü illərdə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına qaldırmış, gəncliyin tərbiyəsinə xüsusi qayğı göstərmişdir.

Heydər Əliyev 1996-cı il fevralın 2-də Gənclərin Birinci Forumundakı nitqində və 1996-cı il martın 30-da imzaladığı «Azərbaycanda təhsil sistemində islahatların aparılmasına dair» Sərəncamında gənclərin yüksək səviyyədə təhsil almasına xüsusi qayğı göstərmişdir. Gəncliyin tərbiyəsi məsələsi həmişə diqqət mərkəzində saxlanmış, mənəvi tərbiyə sahəsinə səmərəli açıqlamalar verilmişdir. Hazırda Heydər Əliyevin mübarizələrlə dolu mənalı həyat yolu nümunəsində gənc nəslə tərbiyə vermək pedaqoji kollektivin müqəddəs vəzifəsidir.

Heydər Əliyev bəşəriyyətin insanlığa bəxş etdiyi nadir təbiətli şəxsiyyətlərdəndir. Mənalı ömrünü xalqının ictimai, iqtisadi, siyasi və mədəni həyatının dirçəlişinə sərf etmiş və xalqın müstəqillik yolu ilə irəliləməsinə çalışmışdır. Heydər Əliyevin mübarizələrlə dolu ibrətamiz həyat yolu gənc nəsil üçün əsl örnəkdir. O, gənclərimizin milli ruhda tərbiyə olunmasını, milli-mənəvi dəyərlərimiz əsasında formalaşmasını daim diqqət mərkəzində saxlamışdır.

Mənəviyyatı təmiz, pak, torpaq qədrini bilən, milli mədəniyyətini dərk edib onunla fəxr edən, milli adət-ənənələrini, tarixini, elmini, mədəniyyətini dərindən öyrənən gənclər yetişdirmək vəzifəsini ümummilli liderimiz Heydər Əliyev təhsil işçilərinin qarşısına başlıca məqsəd qoymuşdur.

Ümummilli lider Heydər Əliyev demişdir: «Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey olmaz. Təhsil ocaqlarımızda gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələn-

dirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır».[1]

Heydər Əliyev 1979-cu ilin aprelində Bakıda keçirilən konfransda demişdir: «İnsanın mənəvi keyfiyyətlərinin, xarakterinin ilk əlamətləri ailədə formalaşır. Ailə ilk tərbiyəçi kimi insanın formalaşmta-sında mühüm rol oynayır. Uşaqlar ailədə dünyaya göz açır, məktəbdə bir şəxsiyyət kimi formalaşırlar».

Ümummilli liderimiz Heydər Əliyev iftixarla demişdir: «Öz dilini bilməyən, dilini sevməyən adam öz tarixini yaxşı bilməz. Ana dilini bilməyən adam Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Cavidi, Sabiri, Mirzə Cəlili, Səməd Vurğunu oxuya bilməz...», «...Azərbaycan çoxmillətli, demokratik bir dövlətdir. Milliyyətindən asılı olmayaraq hər bir vətəndaş üçün Azərbaycan ana Vətəndir». «Milli-mənəvi dəyərlərimizi toplamaq, qorumaq, gələcək nəsillərə çatdırmaq hər birimizin müqəddəs borcudur».

Məlum həqiqətdir ki, mənəviyyata insanı ucaldan, zənginləşdirən milli Azərbaycan vətənpərvərliyi, milli ləyaqət, dəyanət, düşmənə nifrət, Azərbaycan xalqının adət-ənənələri, ana dilini bilmək, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdəti daxildir.

Hər bir Vətəndaş öz vətəninə sadiq olmalı, onu qorumalı, Vətəni uğrunda, torpağı uğrunda, ata-anasının müdafiəsi yolunda şəhidliyə hazır olmalıdır. Bu mənada torpaqlarımızı işğal edən ermənilərin vəhşi iç üzünü açıb bütün dünya ictimaiyyətinə göstərə bilən Heydər Əliyev böyük və qüdrətli vətənpərvərdir.

İstər sağlığında, istərsə də həyatdan gendəndən sonra Ulu Öndərimiz, Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev haqqında çox kitablar yazılıb, onun çoxsahəli fəaliyyətinin ayrı-ayrı aspektləri bu kitablarda öz əksini tapıbdır. Dünya siyasətində xüsusi yer tutan və müqəddəs insan haqqında yenə də kitablar yazılacaqdır.

Xalqımızın fəxri, müstəqil Azərbaycanımızın şöhrətini göylərə qaldıran, fenomen zəkası, ağlı və müdrikliyi ilə dünyanı heyrətə salan Ulu Öndərimiz Heydər Əlriza oğlu Əliyev bu günümüzün və gələcək tariximizin şəxsiyyətidir.

Dahi siyasi xadim, qüdrətli dövlət başçısı, Azərbaycan xalqının xilaskarı Heydər Əliyevin təhsilə və təhsil xadimlərinə həmişə böyük qayğısı olmuşdur. Mənalı həyatını xalqının

---

[1] Heydər Əliyev. Seçilmiş fikirlər. Bakı, 1997, səh. 76.



xoşbəxtliyinə həsr edən Heydər Əliyev görkəmli Azərbaycan şairi Hüseyn Cavidin iyirminci yüzilliyin əvvəllərində yazdığı müdrik kəlamı həyata keçirmiş, parlaq uğurlar qazanmışdır.

Hüseyn Cavid yazmışdır:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü...

Heydər Əliyev Azərbaycan xalqının arzu və istəyini yerinə yetirdi, elmi, səhiyyəni və mədəniyyəti böhranlı vəziyyətdən çıxartdı, Milli Ordunu yaratdı və dedi ki: «Mən Azərbaycan Milli Ordusunun gücünə inanır, Azərbaycan əsgərinə güvənirəm».

Heydər Əliyevin məqsədyönlü və gərgin əməyinin, zəhmətinin sayəsində xalqımızda xoş gələcəyə, sabaha inam, vətənpərvərlik, torpağa, bayrağa, Vətənə sevgi əzmi yarandı. Gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsini vacib sayan Heydər Əliyev göstərirdi ki, gənclərimiz tariximizi yaxşı bilməlidirlər, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Ali Baş Komandanımız, Ulu Öndərimiz Heydər Əliyev cəbhə bölgələrinə gedib soyuq səngərlərdə yurda keşik çəkən Vətən oğulları ilə tez-tez görüşdüyündən, həmişə onlarla bir yerdə olduğundan, Milli Ordumuzun döyüşkən ruhunu, Azərbaycan əsgərinin qətiyyətini görən düşmənlərimiz geri çəkilməyə, məkrli planlarından əl çəkib danışıqlar masası arxasında əyləşməyə məcbur oldular.

Ümummilli lider Heydər Əliyev demişdir: - «Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm».

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tarixi salnaməsinin yaradıcısıdır. Qısa bir müddət ərzində Vətənimiz, odlar diyarı Azərbaycanda hərb ocaqlarını yaratdı.

Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni həyatın bütün sahələrində böyük ad qazanaraq bütün dünyada tanındı. Heydər Əliyev dühasına, ucalığına bütün dünya xalqları

heyran qaldı. Ulu Öndər Heydər Əliyev öz mərdliyi, iradəsi və Tanrının bəxş etdiyi gənc və istedadı ilə dahilik zirvəsinə ucaldı.

Dahilər dahisi Heydər Əliyev demişdi: - «Mən həyatımın qalan hissəsini də öz xalqıma həsr edəcəyəm» və «Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz».

Uca dağ qədər vüqarlı, əlçatmaz səma qədər ucalardan uca Heydər Atamız, Ulu Öndərimiz, Hərb Günəşimiz, Ədəbi liderimiz millətini beynəlxalq cəmiyyətdə təmsil edən yeganə dövlət xadimi idi. Azərbaycan tarixinin şanlı səhifələrinin banisi idi.

Ulu öndər Heydər Əliyev demişdir: «Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var. Hər bir peşə şərəflidir. Ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir».

Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyətinin görkəmli nümayəndələri Səməd Vurğunun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Üzeyir Hacıbəyovun, Cəfər Cabbarlının, Bülbülün, Məmməd Səid Ordubadinin, Nəriman Nərimanovun, Niyazinin xatirə muzeylərinin yaradılması və bu muzeylərdəki mədəni irsimizin bu günə qədər gəlib çatması Heydər Əliyevin şərəfli fəaliyyətinin nəticəsidir.

Heydər Əliyev Azərbaycan xalqı ilə həmişə fəxr etmiş, onun parlaq uğurlarına sevinmiş və demişdir: «Mənim həyatımın məqsədi və mənası Azərbaycan, Azərbaycan xalqıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm ən xoşbəxt adam kimi həyatımı başa çatdıracam. Buna nail olmağa çalışıram və çalışacam».

Heydər Əliyev Vətən müharibəsində, hərbi münaqişələrdə, 20 Yanvar 1990-cı il qırğınında, Qarabağ müharibəsində həlak olmuş, itgin düşmüş, vəfat etmiş Azərbaycanın şanlı oğlanlarının və qızlarının xatirəsinə həmişə hörmət bəsləmişdir.

Heydər Əliyev Mehdi Hüseynzadə haqqında demişdir: «Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan, kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıda ucaldılmış abidəsi Vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir».

Ulu Öndər Heydər Əliyev Azərbaycanın Milli Qəhrəmanı General-Leytenant Rövşən Əkbərov haqqında demişdir:



- «O, gənc Azərbaycan övladıdır, döyüşlərdə cəsarətlə iştirak edib. Mən Füzuli rayonu ərazisində, döyüş yerində onu görmüşdüm.

Xatirimdədir, vaxtilə Naxçıvana da gəlmişdi. Sədərəkdə də olmuşdu. Bu da xatirimdədir ki, C.Naxçıvanski adına Hərbi Məktəbi oxuyub qurtaranlardan biridir. Yəni mənim qəlbimdə o vaxtilə hazırladığım gənclərdən biridir. Gənc, Vətəninə sadiq, təmiz, saf insandır».

12 dekabr 2003-cü ildə ümummilli liderimiz Heydər Əliyev vəfat etdi, ölümsüzlüyün parlaq zirvəsinə yüksəldi.

Ümummilli liderimiz, əbədi Ali Baş Komandanımız, dünya şöhrətli Prezidentimiz Heydər Əlirza oğlu Əliyevin ölümü xalqımızı sarsıtdı.

Heydər Əliyev hüquqi, dünyəvi, demokratik, müstəqil Azərbaycan Respublikasının banisidir.

Heydər Əliyev gələcəyimizdir. Çünki gələcəyimizi necə qurmağın yollarını Heydər Əliyev öncədən bizə göstərib. Bu parlaq uğurlara görə Heydər Əliyev dünənimiz, bu günümüz və gələcəyimizdir.

Ulu öndər, Azərbaycan xalqının dahi oğlu, Azərbaycan dövlətçiliyinin qurucusu, Yeni Azərbaycan Partiyasının memarı Heydər Əliyev Azərbaycanı sevir, onun romantik təbiəti, uca dağlı, sərin çeşməli, bağlı-bağatlı, alyaşıl geyinmiş meşəli, zəngin tarlalı, Xəzər dənizli cənnət diyar olduğu ilə fəxr edir və iftixarla deyir:

«Xəzər canlı bir orqanizmdir. Burada həyat sakitdir. Xəzər əsrlər boyu yaşamış və yaşayacaqdır və daha da böyük rol oynayacaqdır. Xəzəri sevən insan kimi mən onun yaşamasını, onun təmiz olmasını və onun təbiətinin qorunub saxlanmasını istəyirəm. Mən Xəzəri sevirəm».

Ümummilli lider Heydər Əliyev bəşəriyyət tarixində müdrik insan, dünyaşöhrətli siyasi xadim, sülhün, azadlığın, xoşbəxtliyin, firavanlığın carçısı, zəhmətkeşlərin xilaskarı, dahi və yenilməz sərkərdə olmuş, ümumxalq hörməti qazanmışdır.

Heydər Əliyev dahilərin dahisi, Azərbaycan xalqının müdrik qayğıkeşi və xilaskarı olmuş, milyonlarla insanların qəlbində özünə əbədiyaşar parlaq abidə qurmuşdur. Bu müqəddəs abidə yaşamış, yaşayır və yüzilliklər boyu yaşayacaqdır.

Azərbaycan başı qarlı uca dağlar, yamyaşıl meşələr, kəhrəba zəmilər, axar çaylar, mavi göllər, durnagözlü bulaqlar,

barlı-bəhrəli bağlar, təbii gözəlliklər diyarıdır. Azərbaycan xalqı yaradıcı əməksevər, vətənpərvər, qonaqpərəst, işgüzar, xeyirxah, qayğıkeş və tələbkar xalqdır. Bu keyfiyyətlərinə görə də bəşəriyyət tarixində şöhrət qazanmış, qazanır və qazanacaqdır.

Azərbaycanın yeraltı, yerüstü sərvətləri zəngindir. Buna görə də yadelli işğalçıların təcavözkarlığına həmişə qalib gəlmiş, tarixi qəhrəmanlıq qeyrətini qoruyub saxlamışdır. Azərbaycanın minillik tarixə malik abidəsi, qalaları, tikililəri xalqın vətəndaşlıq və qəhrəmanlıq tarixinin əbədi yadigarlarıdır.

Dahi şəxsiyyətlər, fitri istedadlı sənətkarlar, mahir elm, mədəniyyət, ədəbiyyat, incəsənət və dövlət xadimlərinin müqəddəs Vətəni, Azərbaycan Respublikası həmişə şöhrət qazanmış, yadelli işğalçılara ağır zərbə vurub məhv etmiş Cavanşir və Babək kimi əbədi yaşamaq eşqi qazanan qəhrəmanların parlaq ana yurdu olmuşdur. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasını parlaq zirvələrə yüksəltmiş, inkişaf etdirmiş, ona hörmət qazandırmışdır.

Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının Vətənini, dövlətini, millətini sevən dahi şəxsiyyətidir. Heydər Əliyev mənalı ömrünü, şərəfli fəaliyyətini xalqına, millətinin gələcəyinə həsr etmiş, Azərbaycanın daha firəvan gələcəyi naminə çalışmışdır.

Əlçatmaz, uca bir zirvə olan Heydər Əliyev dövlətçiliyimizi, müstəqilliyimizi, azadlığımızı qorumağın səmərəli yollarını göstərmişdir.

Heydər Əliyevin Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafında şərəfli xidmətləri misilsizdir. Heydər Əliyev dahi Azərbaycan sənətkarlarının zəngin irsini öyrənməyi gənc nəslin yeganə vəzifəsi hesab edir, bədii söz sənətinin gənc nəslin mənəviyyatını, biliyini zənginləşdirdiyini yüksək qiymətləndirir.

Nizami Gəncəvi sözün incəliyi və əhəmiyyəti haqqında yazmışdır:

Yeniliklər törədən bu qoca kainatda,
Sözdən kəskin və incə bir şey tapılmaz hətta.
Düşüncənin əvvəli, bütün sayların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu!..
Söz bayraqdan daha çox əldə eyləyir zəfər,
Qılıncdan daha artıq qalxıb alar ölkələr.



Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızın xoşbəxtliyi oldu. 1993-cü il oktyabrın 10-da Respublika sarayında təntənəli andiçmə mərasimində Vətənə, dövlətə, xalqa sədaqət andı içən Heydər Əliyev ilk növbədə Azərbaycanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasını, respublikamızın ictimai-siyasi həyatında sabitliyin əldə edilməsini, ölkəmizin Dünya Birliyində ləyaqətli yer tutmasını, beynəlxalq inteqrasiya proseslərinə fəal şəkildə qoşulmasını, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun həyata keçirilməsini, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, cəmiyyətin həyatının bütün sahələrində əsaslı dəyişikliklər aparılmasını, respublikanın iqtisadi, sosial islahatlar yolu ilə inkişaf etdirilməsini, ölkədə bazar iqtisadiyyatı münasibətlərinin bərqərar edilməsini qarşısında duran vəzifələr kimi şərh etmişdir.

Azərbaycan xalqının, xüsusilə 91-lərin müraciəti ilə 1993-cü il iyunun 9- da Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu hadisədən üç gün sonra o vaxtki Azərbaycan Prezidentinin öz postunu tərk edib gizli şəkildə Bakıdan getməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 1993-cü il iyunun 24-də Heydər Əliyevə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri verildi.

Ölkədə təyin edilmiş növbədənkənar prezident seçkilərinədək, Ermənistan ilə müharibə vəziyyətində olan Azərbaycan üçün ikinci cəbhə açaraq onu parçalayıb dünya xəritəsindən silmək istəyən qüvvələrin təhriki ilə respublikanın cənub bölgəsində baş qaldırmış separatçılığın, eləcə də Şimal və Qərb sərhədyanı rayonlarında gedən bu cür proseslərin qarşısını Heydər Əliyev qətiyyətlə ala bildi.

Eyni zamanda, ölkədəki siyasi qarşıdurmadan və qeyri sabitlikdən istifadə edən Ermənistan silahlı qüvvələri bütün sərhəd boyu hücuma keçərək qəsbkarlıq planlarını həyata keçirir, Azərbaycanın yeni-yeni torpaqları zəbt olunur, işğal olunmuş yerlərin əhalisi məhv edilir, qaçqın, məcburi köçkün vəziyyətinə düşürdü.

Prezident Heydər Əliyevin daxili və xarici siyasətində Azərbaycanın ən böyük problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli, atəşin dayandırılması, işğal

olunmuş ərazilərin geri qaytarılması, qaçqınlar ilə bağlı məsələlər ön planda dururdu.

Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli üçün ATƏT-in Minsk konfransı çərçivəsində ardıcıl iş aparmağa başladı və 1994-cü ilin may ayında atəşkəs haqqında sazişin imzalanmasına nail oldu.

Prezident Heydər Əliyev atəşkəş sazişindən səmərəli istifadə etdi, dövlətçiliyin möhkəmləndirilməsi, hərbi qulluqçuluq, nizami ordu yaradılması, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid islahatları aparması sahəsində çox əhəmiyyətli təbirlərin icrasına başladı.

Heydər Əliyevin prezidentliyi dövründə, yəni 1994-cü ilin oktyabr ayında və 1995-ci ilin mart ayında Azərbaycanın müstəqilliyinə qarşı silahlı çevriliş cəhdləri oldu və bunların qarşısı alındı.

Heydər Əliyevin məqsədyönlü fəaliyyəti ilə 1993-cü ilin sonunda və 1994-cü ilin əvvəllərində Azərbaycan ordusu hərbi əməliyyatlar aparmaqla parlaq uğurlar qazandı.

Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi və parlament seçkiləri keçirildi. Bu dövrdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi yaradıldı.

Dünyaşöhrətli Prezident Heydər Əliyev Şərq və müsəlman ölkələri tarixində ilk dəfə Azərbaycan Respublikasında ölüm cəzasını ləğv etməklə dünyada parlaq uğurlar qazandı. Konstitusiyadakı müstəsna hüquqlar əsasında amnistiya aktı qəbul edildi və yüzlərlə insanlar azad olundu.

Heydər Əliyev Azərbaycanın misilsiz sərvəti olan neft məsələlərinə böyük əhəmiyyət verərək zəngin neft yataqlarımızın işlənilməsində xarici şirkətlərlə əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır.

Xəzərin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının xarici neft şirkətləri konsorsiumu ilə birlikdə işlənməsi və hasilatın pay bölgüsü haqqında 1994-cü il sentyabrın 20-də bağlanmış və sonralar həqiqətən «Əsrin müqaviləsi» adlandırılmış ilk neft müqaviləsi Azərbaycan iqtisadiyyatının dirçəldilməsində böyük bir mərhələnin başlanğıcını qoymuşdur.

Ermənistanın Azərbaycana hərbi təcavüzü, respublikamızın torpaqlarının 20 faizinin işğal olması nəticəsində qaçqın və məcburi



köçkün vəziyyətinə düşmüş bir milyon soydaşımızın ağır vəziyyətinə və problemlərinə Prezident Heydər Əliyev mütəmadi surətdə xüsusi diqqət və qayğı göstərmişdir.

Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsini ardıcıl sürətdə təmin etmək üçün Heydər Əliyev tərəfindən xüsusi Dövlət proqramı qəbul olunmuş və həyata keçirilməkdədir.

Heydər Əliyev əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə bir çox əhəmiyyətli tədbirlər həyata keçirmiş, bu işdə ünvanlılıq prinsipinə üstünlük verərək aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin pensiya və müavinatlarını xeyli artırmışdır.

Bununla yanaşı son illərdə Heydər Əliyevin imzaladığı Prezident sərəncamları ilə təhsil, səhiyyə, kütləvi informasiya vasitələri, bədən tərbiyəsi və sosial təminat sistemində çalışan işçilərin, həmçinin, mədəniyyət, incəsənət işçilərinin və Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin aylıq vəzifə maaşları xeyli yüksəlmişdir.

Azərbaycan xalqının zəngin milli-mənəvi irsinin saxlanmasında Heydər Əliyevin şərəfli xidmətləri misilsizdir. Azərbaycanın qocaman mədəniyyət və incəsənət xadimlərinə, gənc yazıçı və şairlərə, gənc istedadlara Prezident tərəfindən təyin edilmiş fərdi və xüsusi təqaüdlər Heydər Əliyevin bu sahəyə böyük və misilsiz qayğısının parlaq nəticəsidir.

Prezident Heydər Əliyev Azərbaycan Respublikasında sülh, xoşbəxtlik, azadlıq və firavanlığın carçısı və xilaskarı olmuş, əhaliyə çox böyük qayğı bəsləmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmiş, respublikada Silahlı Qüvvələri möhkəmləndirmiş, dövlət müstəqilliyinin əsas bazasına çevirmişdir. Ona görə ki, Heydər Əliyevin şərəfli fəaliyyətində əsas və müqəddəs məsələ Azərbaycanın gələcəyi olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq və türkçülük müqəddəs ideyasını xalqımızı ilhamla xoşbəxt gələcəyə aparan dünyaşöhrətli Prezidentimiz İlham Əliyev şərəflə həyata keçirir, Azərbaycana qüdrətli Silahlı Qüvvələri və mübariz gəncləri ilə parlaq uğurlar qazandırır.

## VI BÖLMƏ

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TƏHSİL SAHƏSİNDƏ FƏALİYYƏTİ VƏ TƏDBİRLƏRİ

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifinin və mədəniyyətin inkişafına mütəşəkkil şəkildə səmərəli xidmət yetirirdi. Ona görə ki, çar hakimiyyəti Rusiyanın müstəmləkəsi altında olan xalqların milli-siyasi mənlik şüurunun tərəqqisinə maneçilik törədir, xalqa zülm edir, xalq maarifi işinin inkişafına imkan vermirdi.

Çar Rusiyasında xalq marifi və xalq maarifinin əsas aparıcı qüvvəsi olan müəllimlər təqiblərə məruz qalır, acınacaqlı həyat keçirirdilər. Maarifin inkişafına, müəllimlərin gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmağına qətiyyən imkan verilmirdi. Təhsil sahəsində vəziyyət çox ağır idi.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda 1969-cu ildən dövlət rəhbərliyinə başlamış, siyasi uzaqgörənliyi, vətənpərvərliyi, təşkilatçılığı ilə xalqın mənafeyini müdafiə etmiş, milli ideologiyanı canlandırmışdır.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini həmişə yüksək qiymətləndirmiş, onun keçirdiyi tədbirlərin xalqımızın tarixində silinməz iz buraxdığını göstərmiş və demişdir:

«Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır.O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu».

Şimali Azərbaycan 1917-ci ilin fevralından 1918-ci ilin mayınadək olan dövrdə çox çətin vəziyyətdə olmuşdur. 1917-ci il fevralın 23-də Petroqradda fəhlələrin tətil və nümayişləri ilə



başlayan demokratik inqilab fevralın 28-də çarizmin süqutu ilə başa çatdı.

Azərbaycanlılara qarşı «Daşnaksutyun» və Erməni Milli Şurası Bakıda azərbaycanlılar yaşayan hissəni top atəşinə tutdular.

1918-ci il martın 31-dən aprelin 2-nə kimi erməni əsgərləri dinc əhaliyə qarşı əl soyqırımı tətbiq etdi və üç gün ərzində təkcə Bakıda on iki mindən çox azərbaycanlı qətlə yetirildi. Mart soyqırımı Şamaxı, Quba, Xaçmaz, Lənkəran və Səlyanda davam etdirildi.

1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin başlanması düşmənin planlarını pozub ləğv etdi.

1918-ci il mayın 28-də Milli Şuranın katibi Həsən bəy Ağayevin oxuduğu istiqlal bəyannaməsində deyilirdi ki, Azərbaycan müstəqil dövlətdir, onun siyasi quruluş forması Xalq Cümhuriyyətidir. Azərbaycan Xalq Cümhuriyyəti dövlətlərlə dostluq əlaqəsi yaradacaq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar verəcək, onların sərbəst inkişafına şərait yaradacaqdır.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Əlimərdan bəy Topçubaşov (1862-1939), Fətəli xan Xoyski (1875-1920), Nəsib bəy Yusifbəyli (1881-1920), Həsən bəy Ağayev (1875-1920), Aslan bəy Səfikürdski (1880-1937), Xosrov Paşa bəy Sultanov (1879-1941), Məmmədhəsən Hacinski (1875-1931), Xəlil bəy Xasməmmədov (1875-1947) Azərbaycan xalqının azadlığı və xoşbəxtliyi uğrunda şərəfli fəaliyyət göstərmiş, ümumxalq hörməti qazanmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Milli bayraq haqqında Bakı şəhərində verdiyi 9 noyabr 1918-ci il tarixli qərarında deyilirdi: «Milli bayraq kimi, yaşıl, qırmızı, mavi rənglərdən və ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayrağı qəbul edilsin».

M.Ə.Rəsulzadə Azərbaycan parlamentinin 27 aprel 1920-ci ildə keçirilən sonuncu iclasındakı nitqində demişdir: «Qardaşlar! Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca eyləyən bir məmləkətdir. Onun xilasına gedən bir qüvvəni biz məmuniyyətlə yola salırıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliyimizi çeynəməsin. Halbuki, qardaşlar,

bizdən soruşmadan torpağımıza keçən hər hansı bir qüvvə dostumuz deyil, düşmənimizdir. Gələn rus ordusudur. Onun istədiyi 1914-cü il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsilə yurdumuza gələn işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim etmək ultimatumunu qəbul etməyə ehtiyac yoxdur. Bu ultimatumu kəmali-nifrətlə rədd edirik».

Bakı şəhərində 1919-cu ilin dekabrın 2-11-də «Müsavat» partiyasının ikinci qurultayı keçirildi. Qurultayda partiyanın yeni Mərkəzi Komitəsi seçildi.

Xalq maarifi sahəsində ciddi nailiyyətlər əldə olundu. Müəllim kadrları hazırlandı, məktəb sisteminin milliləşdirilməsinə başlandı. Bakı Universiteti yaradıldı və respublikanın ərazi bütövlüyü qorunub saxlanıldı.

Ancaq Azərbaycana qarşı düşmənçilik ara vermirdi. V.İ.Lenin 1920-ci il martın 17-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramda yazır: «Bakını tutmaq olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin».

1920-ci ilin martında Bakıdan ordu hissəsi Qarabağın dağlıq hissələrinə göndərildi. 1920-ci il aprelin 28-də Sovet Rusiyasının təcavüzü nəticəsində, beynəlxalq münasibətlərə və benyəlxalq hüquqa zidd olaraq dünya birliyi tərəfindən tanınmış suveren Azərbaycan dövləti süqut etdi.

Məlum həqiqətdir ki, iyirmi üç ay ərzində dövlət strukturları və ordu yaradıldı. Bakı Dövlət Universiteti təsis edildi, Azərbaycan dili dövlət dili elan olundu, təhsil sistemi milliləşdirildi, səkkiz saatlıq iş gününə keçildi, seçkilər haqqında qanun qəbul olundu, dövlətin ərazi bütövlüyü təmin edildi.

Azərbaycan Milli Şurası Fətəli xan Xoyskinin başçılığı ilə Müvəqqəti hökumətin göstərilən tərkibini təsdiq etdi:

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri;

Xosrov Paşa bəy Sultanov –Hərbi nazir;

Məmməd Həsən Hacınski – Xarici işlər naziri;

Nəsib bəy Yusifbəyli – Maliyyə və xalq maarifi naziri;

Xəlil bəy Xasməmmədov –Ədliyyə naziri;

Məmməd Yusif Cəfərov – Ticarət və sənaye naziri;

Əkbər ağa Seyxülislamov – Əkinçilik və əmək naziri;



Xudadat bəy Məlik – Aslanov – Yollar və poçt-teleqraf naziri;

Camo bəy Hacınski – Dövlət nəzarəti naziri.

Yenicə yaradılmış Cümhuriyyət Hökümətinin başçısı Fətəli xan Xoyski 1918 il mayın 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi.

Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 1918-ci il 27 dekabr tarixli əmri ilə Azərbaycan-türk dili orduda dövlət dili qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti mətbuatın inkişafına ciddi təkan verdi. 1918-1920-ci illərdə mətbuat keyfiyyət və kəmiyyət baxımından milli mədəniyyətin tərkib hissəsi oldu. İki il içərisində yüzə yaxın qəzet və jurnal çıxdı.

Milli azadlıq ideyalı «İstiqlal» (1918-1920), «Azərbaycan» (1918-1920), «Qurtuluş» (1920), «Mədəniyyət» (1920), «Gənclər yurdu» (1918), «Zənbur» (1919) kimi mətbuat orqanları nəşr olunub oxucuların mütaliəsinə verilmişdir.

Həsən bəy Zərdabi 1875-ci ildə «Əkinçi» qəzetini yaratdı və milli mətbuatın nümunəsini xalqa hədiyyə verdi.

Tiflisdə Cəlaləddin və Səid Ünsizadə qardaşları «Ziya» (1879-1880), «Ziyayi-Qafqaziyyə» (1880-1884) və «Kəşkül» (1883-1891), Məhəmməd ağa Şahtaxtlının «Şərqi-Rus» (1903-1905) qəzetləri çap olunmuşdur.

Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev «Həyat» (1905-1906) qəzetini, Əli bəy Hüseynzadə «Füyuzat» (1906-1907) jurnalını çıxartmışdır.

Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalı demokratiya və azadlıq ideyalarını təbliğ etməyə başladı, mövhumatı, cəhaləti tənqid etdi, maarif və mədəniyyətin inkişafına əsaslı təkan verdi.

Bu dövrdə «İqbal» (1912-1915) qəzeti, Ə.Müznibin «Dirilik» (1915) jurnalı:, «Açıq söz» (1915) qəzeti nəşr olunmuşdur.

İsa bəy Aşurbəyovun «Kaspi» mətbəəsində M.Rəsulzadənin müdirliyi və redaktorluğu ilə çıxan «Açıq söz» qəzeti xalqın istiqlal uğrunda gələcək mübarizəsinin konspeksiyası olan «türkləşmək, islamlaşmaq, müasirləşmək» şüuarını açıq şəkildə təbliğ edirdi.

Bu dövrdə «İqbal», «Dirilik», «Təkamül», «Açıq söz», «İstiqlal» və s. mətbuat orqanları xalqı milli mədəniyyətə çağırır, maarifi, milli məfkurəni təbliğ edirdi.

Çarizmin müstəmləkəçilik siyasəti təhsili rus dilində aparır, milli dil və mədəniyyətin inkişafına imkan vermirdi, təhsilə və müəllimlərə zülm edirdi.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədirliyi ilə yaradılmış birinci Hökumət kabinəsində Xalq Maarifi Nazirliyi təşkil olundu.

Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik Azərbaycan xalq maarifinin vəziyyətini və bu sahədəki vəzifələri müəyyənləşdirdi. Xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifəsi ləğv edildi. Məktəb və maarif işi nazirliyin və təlimatçıların ixtiyarına verildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncəyə köçdükdən sonra nazirliyin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili işləri üzrə üç müstəqil şöbə yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan-türk dili dövlət dili elan edildi. Məktəblər milliləşdirildi. 1918-ci il 28 avqust tarixli qərarla ibtidai tədris müəssisələrində tədris ana dilində aparılmağa başlandı.

1919-cu ildə Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. 1919-cu ilin avqust ayında Bakı, Gəncə, Şəkidəki müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirildi, Azərbaycan qız seminariyası adlandırıldı. Göyçay və bir sıra şəhərlərdə realnı məktəblər açılmağa başlandı.

Azərbaycanda müəllim kadrlarına və dərs vəsaitlərinə çox böyük ehtiyac var idi. Bu ehtiyacı ödəmək üçün Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Səməd ağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ağa bəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və başqaları «Türk əlifbası», «Təzə elmi hesab», «İkinci il», «Yeni məktəb», «Ədəbiyyat dərsləri», «Müntəxəbat», «Türk çələngi», «Tarixi-təbii», «Rəhbər cəbr» dərsliklərini 1919-cu ildə çap etdirib məktəblilərin istifadəsinə verdilər.

1919-cu ildə müəllimlər seminariyasının direktoru Rəşid bəy Əfəndiyevin rəhbərliyi ilə Azərbaycan dilini öyrədən kurslar



açıldı. Azərbaycanın şəhərlərində azərbaycanlı fəhlələr üçün xüsusi texniki axşam kurslarının açılmasına başlandı.

Cümhuriyyət dövründə xalq maarifinin inkişafı ilə bağlı maarif və milli mədəniyyəti təbliğ edən və yayan cəmiyyətlərin və xeyriyyəçi təşkilatların yaranmasına xüsusi diqqət yetirildi. Bu sahədə maraqlı tədbirlər görüldü, təşkilatlar yaradıldı. Bu baxımdan «Türk ocağı» mərkəzi, «İstiqlal» muzeyi, kitabxanalar açıldı və fəaliyyətə başladı.

Azərbaycan Cümhuriyyəti Parlamentinin 1919-cu il sentyabrın 18-də qəbul etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk dilində yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifi Nazirliyinin sərəncamına bir milyon manat verildi.

1920-ci il aprelin 27-də Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal olunduğuna görə xalq maarifinin inkişafı sahəsində həyata keçiriləcək çoxsaylı tədbirlər yarımçıq qaldı.

Azərbaycanda ədəbi mühitin inkişafı bədii ədəbiyyatda həmişə ifadə olunmuşdur. Dünyanın zəngin ədəbiyyatlarından birini yaratmış Azərbaycan xalqı tarix boyu azadlıq arzusu ilə yaşamış, azadlıq idealları uğrunda həmişə mübarizə aparmışdır. Bu mübarizələr xalqın şifahi və yazılı ədəbiyyatında bədii ifadəsini tapmışdır.

«Kitabi-Dədə Qorqud», «Koroğlu» eposlarında, qəhrəmanlıq dastanlarında, Nizami Gəncəvi, Xaqani, Şirvani, Nəsimi, Xətai, Füzuli və başqa dahi sənətkarların əsərlərində insan haqları, azadlıq və vətənpərvərlik ideyaları tərənnüm edilmişdir.

Azərbaycanda azərbaycançılıq ideyasının yaranmasına bu əsərlər zəmin yaratmışdır. Milli azadlıq hərəkatının əsasında A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi və başqa görkəmli yaradıcı ziyalılar fəaliyyət göstərirdilər.

Azərbaycançılıq ideologiyası, Azərbaycanda milli dövlətçilik təfəkkürü dövrün C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli və onlarca digər yazıçı, publisist və maarif xadimlərinin əsərlərində, fəaliyyətlərində əksini tapdı.

Bu dövrün ədəbiyyatında xalqın azadlıq, xoşbəxtlik, istəyi, milli şüurun oyanması, istiqlaliyyət uğrunda siyasi mübarizə ilə

bağlı azərbaycançılıq ideologiyası məzmunca və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu və Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə yüksək zirvəyə çatdı.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında silinməz işlər buraxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün öz poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur.

M.Ə.Rəsulzadə, M.Məmmədzadə, Parlamentin sədri Əlimərdan bəy Topçubaşov, sədr müavini Həsən bəy Ağayev, Cümruhiyyət hökumətinin sədri Fətəli xan Xoyski, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Üzeyir və Ceyhun bəy Hacıbəyli qardaşları, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Əhməd Cavad, Abdulla Şaiq, Salman Mümtaz, Əlabbas Müznib və başqaları Cümhuriyyət dövrünün ədəbiyyatını ilk dəfə araşdırmış, tədqiq etmiş və dəyərləndirmişlər.

Adları çəkilən görkəmli korifeylər «türkləşmə, islamlaşma, müasirləşmə» ideyalarını irəli sürür və onun qələbəsinə çalışırdılar. M.Ə.Rəsulzadə 1919-cu ildə «Azərbaycan» qəzetində yazırdı: «Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur.

Ey millətin lisanül-qeydi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hüriyyət eşqi təlqin ediniz!».

Cəlil Məmmədquluzadə güneyli, quzeyli Azərbaycanın taleyini düşünərək demişdir: «Gəliniz əsrlərlə millətin ürəyində daşbağlayan dərdlərini açıb tökək!».

Cümhuriyyətin əvvəlcə Ukraynada, bundan sonra isə Türkiyədə rəsmi elçisi olan Yusif Vəzir Çəmənzəminli deyirdi ki: «Bu gün yazıçıya dil azadlığı, qələm azadlığı gərəkdir!».

Bu dövrdə N.Vəzirov, S.S.Axundov, Y.V.Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu pedaqoji sahədə çalışır, publisistika ilə məşğul olurdular.

F.Köçərli, S.Mümtaz, Seyid Hüseyn, Y.V. Çəmənzəminli ədəbiyyat tarixi məsələləri ilə səmərəli işləyirdilər.

Görkəmli şəxsiyyətlər Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ömər Faiq, Eynəli bəy Sultanov, Hüseyn Minasazov Tiflisdə çox məsuliyyətli işləyir, maarif, mədəniyyət, ədəbiyyat və incəsənət haqqında tədqiqat aparır, Vətənə və xalqa şərəfli xidmət edirdilər.



Cümhuriyyətin türkçülük, müasirlik, türk və islam tarixinin tərənnümü, ilk müstəqil dövlətin dəstəklənməsi, milli dövlətçilik ideologiyasının ifadəsi, ordunun parlaq uğurları, ermənilərin Qarabağ qiyamı, Azərbaycanda ermənilərin dinc əhaliyə qarşı törətdikləri soyqırımları, vəhşiliklər, ərazinin talan olunması, daşnakların Bakıda tarixi abidələri, elm və mədəniyyət ocaqlarını yandırması, mart qırğınları, şəhidlik və qəhrəmanlıq səhifələrinin xatırlanması, düşmənin ifşa olunması istiqlal dövrü poeziyasının əsas mövzuları olmuşdur. Bu poetik əsərlər, poeziya salnamələri bədii-estetik və tərbiyəvi mahiyyət daşımış, oxucuya gözəl təsir etmişdir.

Cümhuriyyət romantizminin istedadlı şairi Məhəmməd Hadi poeziyasında milli müstəqillik və azadlıq uğrunda mübarizənin parlaq tərənnümünü vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin uğurlu fəaliyyətini Abdulla Şaiq, «Mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm» deyən Əhməd Cavad, Ümmügülsüm, Ə.Müznib, Balaqardaş, Mürşid, Əli Şövqi, Əli Yusif və başqa sənətkarlar poeziyasında yüksək səviyyədə tərənnüm etmiş, oxucunun mənəvi aləmini zənginləşdirmişlər.

1918-ci ilin martında erməni daşnaklarının Bakıda, həmçinin Azərbaycanın başqa yerlərində azərbaycanlılara qarşı törətdikləri soyqırımlarını C.Məmmədquluzadə, Ü.Hacıbəyli, Mirzəbala Məmmədzadə, Seyid Hüseyn, Abdulla Şaiq kimi qabaqcıl Azərbaycan sənətkarları əsərlərində ifşa edir, onlara nifrət və lənət yağdırırdılar.

Cümhuriyyət dövrü ədəbi prosesinin canlan-masında dramaturiya da oxuculara gözəl təsir bağışlayır, Vətən və xalq düşmənlərini, erməni daşkanlarını ifşa edirdi. Milli oyanış, milli azadlıq hərəkəti, istiqlaliyyət, müstəqil dövlətçilik məsələləri, xalqın yaddaşına qayıdış kimi duyğular dramaturiyanın əsas mövzusu olmuşdur.

Dramaturiyada Azərbaycan, Turan, Qafqaz, Türk dünyası obrazları çox qüvvətli verilmişdi. Buna görə də bu dövrün dramaturiyası mətbuatda çox yüksək dəyərləndirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində fəaliyyəti və tədbirləri çox səmərəli olmuş, uğurlu nəticələr vermişdir. 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin

1918-ci il 28 may tarixli qərarı ilə Xalq Maarif nazirliyi yaradılmışdır.

Nazirlər Şurasının 30 iyun 1918-ci il tarixli qərarı ilə ümumi orta təhsil, ali və orta ixtisas və peşə məktəbləri şöbələri təsdiq edilmişdir. 1920-ci ildə bütün təhsil şöbələri Xalq Maarif Komisarlığına tabe edilmişdir.

Məlumdur ki, 1959-cu ildən 1988-ci ilə kimi Azərbaycanda təhsillə bağlı Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi olmuşdur. Bu iki nazirlikdən başqa Dövlət Texniki Peşə Təhsili Komitəsi də təhsillə bağlı işləmişdir. Deməli, bu dövrdə Azərbaycanda təhsillə bağlı iki nazirlik və bir komitə fəaliyyət göstərmişdir.

Həmin iki nazirlik və bir komitə 1988-ci ildə ləğv edilmiş, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi yaradılmışdır.

Azərbaycan respublikası Prezidentinin 1993-cü il 3 sentyabr tarixli sərəncamı ilə Təhsil Nazirliyi yaradılmış və fəaliyyətə başlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti fəaliyyətə başladığı 1918-ci il 28 maydan xalq maarifinin məzmun və formaca müstəqil dövlətçilik ənənələrinə uyğun qurulmasını rəsmiləşdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifi və təhsil müəssisələrinin milliləşdirilməsini, tədrisin ana dilində aparılmasını, anadilli məktəblər şəbəkəsinin genişləndirilməsini müəyyənləşdirdi.

1919-cu ilin avqust ayında III müəllimlər qurultayı keçirildi. Qurultayın Xalq Maarifi nazirliyinə verdiyi təqdimat əsasında məktəb islahatını və təhsilin məzmunca milliləşdirilməsini əsaslandıran proqram və dərslik islahatı komissiyası yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil tarixində ilk dəfə məktəbəqədər tərbiyə müəssisələrinin nümunəsini yaratması ən səmərəli tədbirlərindən biri kimi qiymətləndirildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919-cu il bir sentyabrda Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul etmişdir. Bu qanunda xaricdə təhsil alan yüz nəfərin xərcinin ödənilməsi də göstərilmişdir. Xalq Cümhuriyyəti Hökuməti maarif, təhsil, mədəniyyət məsələlərinin təməlini qoymuş, bir çox işlərin ideya əsaslarını vermişdir.



Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirmiş, Xalq Cümhuriyyətini «bizim milli sərvətimiz, tariximizin parlaq səhifəsi» adlandırmışdır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair arxiv sənədləri və fundamental nəşrlər işıq üzü görmüş, 2003-cü ilin mart-may aylarında Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyinə həsr olunmuş beynəlxalq elmi sesiya keçirilmiş, «Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası»nın nəşr olunması üçün hazırlıq işlərinə başlanmışdır.

Ensiklopediya iki cilddən ibarət 2004-cü ildə nəşr edilmiş, tarixi salnamə təsiri bağışlamış, yüksək dəyərləndirilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin iki cilddən ibarət ensiklopediyasının buraxılması ulu öndərimiz Heydər Əliyevin zəngin irsinin əsasında icra edilmişdir.

Ümumilli liderimiz Heydər Əliyevin zəngin irsində Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının «Milli sərvəti» və «Azərbaycan tarixinin parlaq səhifəsi» adlandırılmış, onun fəaliyyətinin ətraflı araşdırılması, tədqiq olunması və tarixilik, elmilik, pedaqoji prinsiplər əsasında şərh edilməsi göstərilmiş, nəşr olunub xalqa çatdırılmasının zəruriliyi qeyd olunmuşdur.

Deməli, «Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası»nın iki cilddən ibarət tərtib edilib nəşr olunması və xalqa çatdırılması ümumilli liderimiz Heydər Əliyevin şərəfli fəaliyyətinin parlaq nəticəsi, bədii-tarixi salnaməsidir.

## VII BÖLMƏ

## TƏHSİL XADİMLƏRİNİN MAARİFÇİLİK FƏALİYYƏTİ

Azərbaycanda XIX əsrin sonu və XX əsrin əvvəllərində elmi-pedaqoji fikrin inkişafında A.Bakıxanov (1794-1846), M.Ş.Vazeh (1792-1852), M.F.Axundov (1812-1878), S.Ə.Şirvani (1835-1888), H.M.Zərdabi (1837-1907) və başqa mütəfəkkirlər səmərəli fəaliyyət göstərirlər.

Azərbaycan təhsilinin görkəmli xadimləri öz sələflərinin maarifçilik ideyalarını, elmi-pedaqoji fikrini inkişaf etdirməyə başlayır, bu sahədə məsuliyyətli çalışırlar. Buna görə də kitabda təhsil xadimlərinin maarifçilik fəaliyyəti haqqında qısa məlumat vermək əhəmiyyətlidir.



## NİZAMİ GƏNCƏVİ
## (1141-1209)

Qədim və zəngin tarixə malik olan Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatı xəzinəsinə Əbül-Üla, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi dahi sənətkarlar vermişdir.

Cəmiyyətin bütün sahələrində olan təhsil sistemində aparılan islahatlar ölkəmizdə artıq dönməz xarakter almışdır. Ümumbəşəri dəyərlərlə yanaşı milli zəminə əsaslanan islahatlar həmin istiqamətlərdə elmi-pedaqoji tədqiqatların sürətləndirilməsi və dərinləşdiril-məsini tələb edir.

Azərbaycan Respublikasında milli dövlət quruculuğu bütün sahələrdə, o cümlədən təhsil sistemində islahatlar artıq dönməz xarakter alıb inkişafa başlamışdır.

Təlim-tərbiyə işini təhsil sistemi üzərində qurmaq üçün gənc nəslin milli-mənəvi dəyərlərimiz mükəmməl və şüurlu öyrənmələri onların vətəndaşlıq borcudur.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: «Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz». Ulu öndər Heydər Əliyevin bu müdrik kəlamından aydındır ki, gənc nəslimiz Azərbaycan xalqının milli dəyərlərini və ənənələrini mükəmməl öyrənməlidir ki, Vətənimizi, xalqımızı sevsin, vətənpərvər, əməksevər, humanist olsun.

Rus imperiyası dövründə gənc nəsli milli ruhda tərbiyələndirmək əvəzinə, «kommunist əxlaqının əsaslarını» mənimsətmək əsas tutulmuş, milli-mənəvi dəyərlərin öyrədilməsi qadağan edilmişdir. Azərbaycan xalqının mənəviyyat xəzinəsi çox zəngin və dəyərlidir. Bu xəzinəni öyrənmək üçün pedaqogikanı, pedaqoji fikir tarixini, milli Azərbaycan ideologiyasını, təhsil sistemini və təhsil xadimlərinin elmi-nəzəri və pedaqoji fikir tarixi haqqında fəaliyyətini mükəmməl öyrənmək lazımdır.

Dahi Nizami Gəncəvinin ədəbi-pedaqoji irsi XII əsrdən «əxlaq dərsliyi» mahiyyəti daşıyır və ondan səmərəli istifadə edilir. «Qüvvət elmdədir» deyən Nizami «Xəmsə»sində əxlaq, əmək, estetik, hüquq, ekoloji və fizik tərbiyə məsələləri haqqında ətraflı bəhs etmiş, tərbiyənin əsaslı şərhini vermişdir.

Nizami Gəncəvi şəxsiyyətin hərtərəfli inkişafında təhsil, təlim və tərbiyənin əhəmiyyətini yüksək qiymətləndirir, insanın əqli zənginliyinin və əxlaqi saflığının möhkəmlənməsində qüvvətli vasitə olduğunu poetik dillə tərənnüm edir.

Estetik tərbiyənin qüdrətli vasitəsi olan «sözü» Nizami Gəncəvi «dünyanın şərəfi», «dünyanın sərvəti» adlandırır. Xəlil Rza Ulutürk Nizami Gəncəvini «bədii sözün tanrısı» adlandırmış, onun dahi tərbiyəçi-pedaqoq olması ilə fəxr etdiyini cilalamışdır. «Yeddi gözəl» poemasında Nizami Gəncəviyə müraciət edilir:

Zəhmətdən incimə yeni mədən aç,
Bu dünya əhlinə xəzinələr saç!

Dünya ədəbiyyatı tarixində şöhrət qazanan dahi Azərbaycan şairi Nizami Gəncəvi misilsiz poeziya xəzinəsi olan «Xəmsə» müəllifidir. Onun beşlik adlanan «Xəmsə»sinə «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İsgəndərnamə» poemaları daxildir.

XII əsrin ikinci yarısında Azərbaycan intibah ədəbiyyatı Nizaminin yaradıcılığında yüksək zirvə təşkil edir və dahi sənətkar lirik və epik şerin inkişafına qüvvət verir. Nizami irsində humanizmi və demokratiklik, əməkçi insana və qadına səmimi münasibət, onu Şərqdə intibah dövrü şerinin dahi şairi səviyyəsinə yüksəldir.

Nizami Gəncəvi «Leyli və Məcnun» poemasında adının İlyas, atasının Yusif, babasının Zəki Müəyyəd olduğunu yazmışdır. Nizaminin dayısı Xacə Ömər dövrünün hörmətli şəxslərindən biri olmuş, ona böyük qayğı bəsləmişdir. Nizaminin anası Rəisə xanım zəngin mənəviyyatlı igid qadın olmuşdur.

Nizami Gəncəvi 1141-ci ildə Gəncədə anadan olmuşdur. Onun uşaqlıq və gənclik illəri Gəncədə keçmişdir. O, ömrü boyu Gəncədə yaşamışdır. Yalnız bir dəfə qızıl Arslan onu Gəncənin otuz ağaclığına otuz günlük bir səfərə dəvət etmişdir.[1]

Nizami Gəncəvi Gəncədə mükəmməl təhsil almışdır. O, dövrünün bütün elm sahələrini dərindən öyrənmişdir. Bu dövrdə Gəncə Yaxın və Orta Şərqin ən mühüm elm və tədris mərkəzlərindən biri olmuşdur. Gəncədə Əbül-Üla Gəncəvinin məktəbi dünya miqyasında şöhrət qazanmış, Xaqani Şirvani (1126-1199) kimi dahi sənətkarlar yetişdirmişdir.

[1] Əliyar Səfərli, Xəlil Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1998, səh. 124.



«Sirlər xəzinəsi» əsərində Nizaminin dini və dünyəvi elmləri dərindən bildiyi göstərilir. Nizami türk, ərəb və fars dillərini mükəmməl bilmişdir. Əsərlərini yazanda müxtəlif mənbələri araşdırmış, həmin mənbələrin mayasını və əsasını götürmüş, ondan yaradıcı şəkildə faydalanmışdır.

İntibah şairi Nizami Yaxın və Orta Şərq poeziyasının ən yüksək nümunələrini yaratmış, şerə yeni istiqamət vermişdir. Nizami klassik Şərq şerinin qəsidə, qəzəl və rübai şəkillərini yaratmışdır. Onun lirikasında gələcəyə inam duyğusu hakimdir, çünki bu lirik əsərlər Azərbaycan intibahının ən yüksək sənət inciləridir.

Nizami Dərbənd hakimi Bəybars ibn Müzəffərin göndərdiyi Afaq adlı kənizlə 1172-ci ildə evlənmişdir. Onun oğlu Məhəmməd 1174-cü ildə anadan olmuşdur. Məhəmməd 14 yaşında şerə böyük maraq göstərmiş, şair olmaq həvəsilə yaşamışdır.

Nizami Məhəmmədin ağıllı, istedadlı bir gənc olduğunu göstərmiş, onu şair yox, həkim etmək istəyini bildirmişdir. O, oğluna nəsihət etmişdir ki;

Oğul, sözlərimə qulaq as,
Ata nəsihəti faydasız olmaz.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Nizaminin ömür-gün yoldaşı Afaq 1180-ci ildə vəfat edir.[1] Nizami Gəncəvi Sasani şahzadəsi, sonra isə məşhur şahlardan olmuş II Xosrovun alban şahzadəsi Şirinə olan faciəli eşqinə həsr etdiyi «Xosrov və Şirin» poemasında sevimli Afaqın xatirəsini ümumiləşdirmişdir. Bu poemanı Nizami Şərqdə geniş yayılmış «Xosrov və Şirin» dastanı əsasında yazıb yaratmışdır.

«Afaqın ölümündən bir qədər keçəndən sonra Nizami ikinci dəfə evlənir, lakin yenə də taleyi ona yar olmur. Şairin ikinci arvadı 1188-ci ildə rəhmətə gedir. Elə həmin il də Nizami şirvanşah II Əxsitandan yeni poeması üçün sifariş alır. Şirvanşah xahiş edir ki, şair nakam sevgililər Leyli və Məcnun haqqında ərəb əfsanəsini nəzmə çəksin».[1]

[1] Çingiz Qacar. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997, səh. 93.
[1] Yenə orada, səh. 96.

Nizami əvvəlcə bu şifarişi rədd etmək istəyir. Ancaq oğlu Məhəmmədin təsiri altında bu sifarişi qəbul edib «Leyli və Məcnun» poemasını yazır. Nizami ömrü boyu Afaqı unutmamış, həmişə Afaqı ürək ağrısı və məhəbbətlə xatırlamış, şəxsi həyatının kədərli keçməsini əsərlərində bəxtinin uğursuzluğu kimi kədərlə təsvir etmişdir.

Nizami poeziyasında və poemalarında bir sıra qadın surətləri yaratmış, qadına real varlıq kimi yüksək qiymət vermiş, qadını həyatın bütün gözəlliklərini özündə cəmləşdirən insan adlandırmışdır. Nizamişünas professor Rüstəm Əliyev bu problemlərin ətraflı elmi-nəzəri şərhini vermiş, dahi Nizami Gəncəvinin intibah poeziyasının parlaq zirvəsinə yüksəldiyini göstərmişdir.

Dahi Nizami Gəncəvi «Xəmsə»sində əxlaq, ağıl, estetik, əmək, təbiəti mühafizə və fiziki tərbiyə məsələləri haqqında fikir və ideologiyalarını çox canlı, təsirli, inandırıcı və səmimi tərənnüm edir, oxucuların dərin hörmətini qazanır.

Nyu-York universitetinin Yaxın Şərq xalqlarının dili və ədəbiyyatı kafedrasının müdiri, şərqşünas, professor Piter Çelkovski R.Tizenqauze 1975-ci ildə Nyu-Yorkda çap olunmuş «Gözə görünməz dünyanın güzgüsü» adlı əsərində yazmışdır:

«Şərq ədəbiyyatında Nizaminin «Xəmsə»sinə bərabər ikinci bir əsər yoxdur. Dərin təfəkkürə malik dilşünas alim, psixoloq Nizami öz estetizmi, dramatizmi və təsvirləri ilə dahiliyini sübut edir. Bütün bunlar Nizami dühasını əks etdirən səciyyəvi cəhətlərdir. Nizami əsərləri öz ətrafında yüzlərlə pərəstişkar toplamış olsa da, onu təqlid edənlərin heç biri onun səviyyəsinə qalxa bilməmişlər».

Dahi Nizami Gəncəvi söz rəssamı, heykəltəraş, memar kimi sözlərdən binalar qurur. Dahi şer ustadı Nizami mahir və əvəzsiz sənətkardır.

Nizami Leyli və Məcnunun oxuduqları məktəbi və «İsgəndərnamə»də təsvir etdiyi Aristotel məktəbini dünyəvi məktəb kimi dəyərləndirir, dini təşkilatlarla əlaqəsi olmadığını göstərir. O, oğlunu da dindar olmağa qoymur, həkim etmək arzusu ilə yaşayır.

Nizaminin əsərlərində, xüsusilə əxlaqi görüşlərində əməksevərlik, çalışqanlıq əsas yer tutur, insan əməyi yüksək qiymətləndirilir və tərənnüm edilir:

Onunçün öyrətdim ki, əlimi bu sənətə,



Bir gün sənə əl açıb, düşməyim xəcalətə.
Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,
Əlimin zəhmətiylə toxdur gözüm, deyil ac.

Nizaminin əsərlərində müəllimin fəaliyyəti yüksək qiymətləndirilir, təlim və tərbiyənin həyata keçirilməsində müəllimin fəaliyyəti dəyərləndirilir. Onun əxlaqi görüşlərində dostluq və yoldaşlığa qiymət verilir, oğluna əxlaqi nəsihət edilir: «Yaxşı ad qazanmış dostlarla», «xoş ətirli dostlarla» səmimi dost olmaqla «ağ günə, vara yetişərsən», «xoş ətirli dostların olsa, avaralardan xilas olarsan».

Nizami Gəncəvi «Sirlər xəzinəsi» poeması ilə Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsini yaratmışdır. 1174-1175-ci illərdə yazılmış bu poema dahi şairin yaradıcılıq manifestidir.

Professor Əliyar Səfərli və professor Xəlil Yusifli ədəbiyyat dərsliklərində yazır ki, bu poema dahi Nizami yaradıcılığının manifestidir. «Xəmsə» adı əsərə həqiqi verilmiş, yeni fikirlər, ideyalar, qənaətlər bu əsərdə ətraflı ifadə olunmuşdur. Müəllif poemada lirik monoloqlar şəklində oxucu ilə söhbət edir, istismar dünyasına və istismarçılara nifrət edir, insanları orta əsrlərin qatı zülməti içərisindən işığa, həqiqətə, xeyrə doğru çağırır. Xalq və hökmdar problemi Nizami poeziyasının, o cümlədən «Sirlər xəzinəsi» poemasının əsasını təşkil edir.

Nizami dühasının böyüklüyü xalqla hökmdar arasındakı münasibətləri cəsarətlə göstərməkdən, hökmdarların cinayətlərini üzlərinə deməkdən, onları ədalətə, insanlığa, sülhə istiqamətləndirməkdən ibarətdir. Şairin ədəbi irsinin əsas amillərindən biri hökmdarların ədalətli olmasına çalışmaqdır. Nizami yazır:

Zülm eləmək yaxşı deyil, heç zaman,
Tökmə nahaq qan, gedər abrın, həyan.
Hümməti xalqın pis olar, qorx aman,
Məzlum ahından çəkin, ey hökmran.

Nizami «Şahlıq üçün şərtdir ədalət fəqət» deməklə hökmdarları ədalətli olmağa, xalqa zülm etməməyə çağırır. Nizami Gəncəvi «Sirlər xəzinəsi» poemasını yüksək sənətkarlıqla yazmış, dərin məzmunlu, parlaq ideyalı əsər yaratmış, bu poemanı Azərbaycan intibahının qiymətli abidəsi səviyyəsinə yüksəltmiş, təlim-tərbiyəvi və bədii-estetik mahiyyətli sənət incisi kimi oxuculara ərmağan vermişdir.

Nizami Gəncəvinin «Xosrov və Şirin» poeması dərin ictimai, fəlsəfi mahiyyətli, intibah ideyalarını şərh edən, aşiqanə-fəlsəfi roman silsiləsinə mənsub olan sənət incisidir. Şair poemanı Sultan Toğrulun taxta çıxdığı dövrdə yazdığını «Bu şerin tarixi və səbəbi haqqında» adlanan bölmədə vermişdir. Poemanın əsas mövzusu Xosrovun Şirinə olan səmimi məhəbbətidir. Buna görə də bu məhəbbətin təlim-tərbiyəvi mahiyyəti çox sənətkarlıqla cilalanmış, bədii sözün qüdrətilə tərənnüm edilmişdir.

Nizami Gəncəvi poemada bəşəri problemlər, mütərəqqi ideyalar, insan obrazları məsələsinin həllini bədii sözün poetik təsiri ilə həll edib cilalamışdır. Əsərdə Xosrov, Şirin, Fərhad, Mahinbanu, Hörmüz, Şapur, Büzürgümil, Məryəm, Şəkər, Şiruyə kimi rəngarəng obrazlar silsiləsi yaradılmışdır. Əsərin əsas qəhrəmanı Xosrovdur.

Əsərdəki Şirin obrazı günəş təbiətli, zəngin mənəviyyatlı, ismətli, tərbiyəli, nurani qadındır. Şirin humanizmin möhtəşəm forması, ən kamil insan surətidir, qadın qəlbinin poeziyası, qadın iradəsinin möhkəmliyi, qadın sevgisinin zənginliyi, fədakarlığı və zirvəsidir. Həyatı insanlıq və qadınlığın adını doğrultmaq üçün mübarizələrdə keçən Şirin müqəddəs anadır, mahir azərbaycanlı qadındır, ismətli xanımdır.

«Xosrov və Şirin» poeması zəngin məzmun və ideyalı, dahi Nizaminin insan gözəlliyinə dərin inamını ifadə edən, oxucuya gözəl təlim-tərbiyəvi, bədii-estetik və yüksək əxlaqi keyfiyyətləri şüurlu mənimsədən sənət incisidir.

Nizami Gəncəvi 1188-ci ildə yazdığı «Leyli və Məcnun» poemasında insanı zəncirli qula çevirən feodal orta əsrlərini ittiham və inkar edir. Poemada istismar dünyasına nifrət edilir, insanlara qayğı göstərilir. Poemanın qəhrəmanı Məcnundur. Poemanın süjetini yeddi gözəl xətti təşkil edir.

Poemada xeyrin şər üzərində qələbəsi təsirli verilir. Poemada insana və insanda gözəlliyin qələbəsinə inam canlı göstərilir, həm də hekayələrdə bədii ifadəsini tapır. Poemadakı hekayələr dahi Nizami Gəncəvinin azadlıq, xoşbəxtlik, təhsil, tərbiyə və təlim sistemləri haqqında ideyalarını tərənnüm etdirir və oxucuya gözəl təsir bağışlayır.

Poema dahi Nizaminin intibah dövrünün fitri istedadlı şairi olduğunu, onun pedaqoji, təlim-tərbiyəvi fikir və ideyalarını, həm



də sənətkarlıq xüsusiyyətlərini ətraflı təcəssüm etdirir və ona, ümumxalq məhəbbəti qazandırır.

XII əsrdə yaşamış hind şairi Əmir Xosrov Dəhləvi gözəl yazmışdır:

Nizami hər sözü demiş birinci,
Qoymamış cilasız qala bir inci.

Dahi Nizami Gəncəvi yaradıcılığının yekunu olan «İsgəndərnamə» poeması «Şərəfnamə» və «İqbalnamə» adlı iki hissədən ibarətdir. «Şərəfnamə» adlı birinci hissədə İsgəndərin anadan olması, məktəbdə təhsil alması, hərbi səfərləri və müharibələri ətraflı bədii təsvirini tapır. «İqbalnamə»də isə İsgəndərin bir alim kimi yetişməsi və peyğəmbərliyə çatıb, bir peyğəmbər kimi şərəfli fəaliyyət göstərməsi qeyd olunur.

Nizami Gəncəvi «Şərəfnamə»də Nüşabə surətini yaratmışdır. Poemalarında Şirin, Leyli, Fitnə kimi ağıllı, qabiliyyətli, hazırcavab, tədbirli, qayğıkeş, cəsarətli və kişilərdən daha vüqarlı qadın obrazları yaradan Nizaminin Nüşabə obrazı çox müdrikdir. Nüşabə özünün hansı səviyyəyə malik olmasının şərhini verir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir, mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Nüşabə alim, dünya fatehi İsgəndərə hadisələrin şərhini verir, ona başa salır ki, mən Bərdə hakimiyəm, sarayımda qadınlar qulluq edirlər, ədalət hökm sürür. Əsərdə Nüşabə gözəllik, insanlıq, ədalət və mərdlik mücəssəməsi kimi oxucuya gözəl təsir bağışlayır, Nizamiyə ümumxalq məhəbbəti qazandırır.

«İqbalnamə» adlanan ikinci hissədə həyat və ölüm, insan və təbiət, hökmdar və cəmiyyət, yaradılış və dünya, elm və din, kimyagərlik və var-dövlət, ağıl və əxlaq və s. məsələlərin həlli verilir. Nizami Gəncəvi İsgəndəri alim kimi səciyyələndirir:

Əmr etdi, verildi belə bir fərman:
«Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! Başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri!

«İqbalnamə»nin ikinci hissəsində İsgəndərin peyğəmbərliyi, ölümü və ideal cəmiyyətdə olması çox maraqlı göstərilir. İsgəndər

insanları xoşbəxtlik ölkəsinə dəvət edir, onlara xoşbəxt və azad yaşamağın yollarını öyrədir. Bu səmərəli fəaliyyəti İsgəndərin peyğəmbərliyini təsdiqləyir.

İsgəndər yazır:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.

Nizami Gəncəvi vaxtı boş keçirməməyi və əməksevər olmağı göstərir:

Vaxtı boş keçirmə, qələm al ələ,
Zəhmət çək dünyada bilik kəsb elə.

Dahi Nizami Gəncəvi elm xadimlərinə, alimlərə yüksək qiymət verir, elmləri alimlərdən öyrənməyin yollarını göstərir:

Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan.

Mütəfəkkir şair-pedaqoq Nizami Gəncəvi ağılın, elmin qüdrətini yüksək qiymətləndirir, İsgəndərin ölkədə elmin yüksəlməsinə, hər kəsin biliyini, elmini zənginləşdirməsinə çalışır:

Ağılsız kəslərlə oturub duran,
Ağıldan, şüurdan deməsin dastan.

Eşşəyin cəvahir olsa da yükü,
Yenə də eşşəkdir, parıldar tükü.

Ağılın çırağı elmdir, dərin bilikdir, ağıl tərbiyəsinin əsas vəzifəsi zəngin dünyagörüşə, elmlərin sirlərini kamil bilən insan yetişdirməkdən ibarətdir. Müəllim zəngin biliyə sahib olmalıdır ki, şagirdlərinə bilik öyrədə bilsin.

Nizami Gəncəvi bütün əsərlərində insanın əxlaqi saflığı uğrunda mübarizə aparmış, əxlaq tərbiyəsinə dair dahiyanə fikir və ideyalar söyləmişdir. Emləri kamil öyrənən İsgəndər ölüm ayağında əziz anasına məktubunda yazmışdır:

Anasan, bu məktub gəlib çatarkən,
Çatıb qaşlarını kədərlənmə sən!
Bu günya fanidir, əbəs ağlama,
Mənimçün yas tutma, qara bağlama!

Nizami Gəncəvi estetik tərbiyəni yüksək dəyərləndirir, ideal gözəllik, qəhrəmanlıq, məhəbbətin əbədi obrazlarını yaradır, ideal insanın daxili, xarici, mənəvi və fiziki, ictimai gözəlliyi və əzəməti haqqında ideyasını poetik dillə tərənnüm edir.



Nizaminin yaratdığı Şirin obrazının nur camalı, hündür boyu «şəkər dodaqları», «incidən daha parlaq dişləri», «şirin gülüşü», «qara saçları», «al yanaqları», «ahu gözləri», «naz-qəmzəsi», «min qəlbə həyəcan salan şöhrəti», «dərin zəkası», «abır-həyası», «yerişi-duruşu», «nümunəvi davranışı» çox gözəldir. Şirinin mərdanə ölümü də gözəldir:

Alqış bu ölümə, əhsən Şirinə,
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax,
Canana belədir canı tapşırmaq.
Çox gözəl arvad var mərdlikdə bir şir,
Çox ipək içində şirlər gizlənir.

Nizami Gəncəvinin estetik görüşləri mənəvi-əxlaqi görüşləri ilə vəhdət təşkil edir. Təbiətin şah əsəri olan insan ülvi gözəlliyə malikdir və hər şeydən qiymətlidir. Musiqi, rəssamlıq, memarlıq estetik tərbiyənin qüdrətli vasitələrindəndir.

Nizaminin yaradıcılığında təbiəti mühafizə və ekoloji tərbiyə ilə bağlı ideyalar çox qiymətli verilir. Nizami əsərlərində cəmiyyət ilə təbiət arasında harmoniya yaratmış və bunun bədii həllini tam kamil şəkildə vermişdir.

Nizami Gəncəvi bütün əsərlərində insanları təbiəti sevmək və ona qayğıkeş münasibət bəsləmək ruhunda tərbiyələndirməyə çalışmış və məqsədinə nail olmuşdur.

Nizami Gəncəvinin əmək tərbiyəsi və iqtisadi tərbiyə haqqında fikir və ideyaları çox zəngindir. Nizami «Sirlər xəzinəsi» poemasındakı «Kərpic kəsən qocanın bir cavanla hekayəti» adlı hekayəsində yazır:

Dünya görmüş insandı, qoca belə qocaydı,
Namuslu zəhmətiylə el gözündə ucaydı.

İnsan mənəviyyatını zənginləşdirən əməyin şöhrətini «İsgəndərnamə» poemasındakı əməkçi surəti gözəl qiymətləndirir:

Qəlbə fərəh verir bu gözəl diyar,
Onun bərəkətli zəmiləri var.
Burda əkin əksəm vaxtında əgər,
Məhsulu ən azı birə min verər.

Poeziyada Azərbaycanın zənginliyi, gözəlliyi, varlı, bağlı, bağçalı, bol tarlalı olduğu tərənnüm edilir. Nizami Gəncəvinin fiziki tərbiyə haqqında ideyası «kamil insan» konsepsiyasında gözəl bədii ifadəsini tapır. «Bədən sağlam olsa, saf olar söz də» müqəddəs

kəlamını poetik misrada verən dahi Nizami Gəncəvi fiziki tərbiyəni insanın sağlamlığının əsası adlandırır və yüksək dəyərləndirir.

Nizami Gəncəvi hüquq tərbiyəsi ilə bağlı fikir və ideyalarının poetik şərhini verir, cəmiyyətin ədalətli hüquq dövləti qurmasını alqışlayır, adil hökmdarın ölkənin qanunlarına hörmət etməsini vurğulayır.

Nizami Gəncəvinin təliminə görə insanlığa düşmən olan qüvvəyə qarşı qəti mübarizə aparılmalıdır. Ömrü azaldan, real həyatın maddi nemətlərindən insanları məhrum edən zülmkarlıq aradan qaldırılmalıdır. Nizami Gəncəvi «Zülmkara kömək etmə» kəlamı ilə zülmkarlara qarşı mübariz olmağı təbliğ edir.

Nizaminin əxlaqi görüşlərində əməksevərlik əsas yer tutur. İnsanları əməksevər olmağa dəvət edir. Real həyata nikbin baxış Nizaminin əxlaqi görüşlərinin ruhuna hakimdir. Nizami qəmi, kədəri insanın əsas bəlası sayır, insanı azadlığı dəvət edir. Acgöz, tamahkar, zülmkar hökmdarlara nifrət yağdırır. Azadlıq ideyaları Nizaminin bütün əsərlərinin məğzini təşkil edir.

Nizaminin əsərlərində vətənpərvərlik motivləri çox qüvvətlidir. Azərbaycanın zəngin təbiəti Nizaminin ilham mənbəyidir. Azərbaycanın cənnət guşələrindən biri olan Bərdənin tərifi insanın qəlbini pərvazlandırır:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr çəpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.

Nizami Gəncəvi «İsgəndərnamə» poemasında Bərdənin Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi, «mərdlər və gözəllər yurdu» olduğunu və ona bərabər bir ölkə tanımadığını iftixarla qeyd edir. Nizami tarixən Bərdədə olmayan İsgəndəri poemada bu ölkəyə gətirir, onun fəaliyyətini Azərbaycanla bağlayır. Nizami ədalətsiz müharibə törədənlərə nifrət edir. Nizami Gəncəvi dünya ədəbiyyatı xəzinəsinə yüksək bədii əsərlər verən ilk Azərbaycan şairidir. Şərq ədəbiyyatında «Xəmsə» adı altında məşhur olan beş poemanın müəllifi dünya ədəbiyyatının Şekspir, Dante, Göte, Nəvai və başqa böyük nümayəndələri ilə bir sırada dayanan görkəmli mütəfəkkir yazıçılarındandır.



XII əsrdə Azərbaycan Yaxın və Orta Şərqdə humanizmin beşiyi olmuş, Nizami bu ideyanı əsərləritndə vermişdir. O, Şərq ədəbiyyatındakı epik poeziyaya yeni dönüş əmələ gətirmişdir, həm də Şərq ədəbiyyatı poeziyasının tarixində ilk dəfə romantik poemalar yaratmışdır.

Nizami Gəncəvi şeirlə yazılmış novella, kiçik hekayə formasının məşhur sənətkarlarındandır. Nizami Gəncəvi xalq folklorunu yaxından və dərindən bilən bir şair olmuşdur, onun yaradıcılığı Yaxın Şərq xalqlarının folkloruna da təsir etmişdir.

Dünya ədəbiyyatının nəhəng simalarından biri olan Nizami Gəncəvi haqqında Y.E.Bertels yazır: «Nizami böyük bir insan idi, humanist və əsil xalq şairi idi. Nizami öz dahiyanə əsərlərinin bu insani xüsusiyyəti ilə də uzun əsrlər boyu bəşəriyyətin hörmətini qazanmışdır».

XII əsr Azərbaycanda intibah dövrü olmuşdur. Nizaminin qəhrəmanları İsgəndər, Xosrov, Şirin, Leyli, Məcnun və başqalarında həyat eşqi çox qüvvətli olmuşdur. Nizaminin əsərlərində elmi məsələlər, fəlsəfi problemlər üstünlük təşkil edir. Onun yaradıcılığında elmi və fəlsəfi, siyasi-ictimai məsələlər əsas yer tutur.

Nizami Gəncəvi humanist və mütəfəkkir şairdir. Ona görə ki, öz xalqını və Vətənini azad görmək onun müqəddəs arzusu olmuşdur. İnsana, xalqa məhəbbət hissi, ədalətsizliyə və rəhmsizliyə nifrət, insanın arzu və istəklərini dərk etmək və əsərlərində vermək Nizamini dahi sənətkarlıq zirvəsinə yüksəltmişdir. O, dərk etmişdir ki, istismarçılar milyonlarla zəhmətkeş insanları soyur, onların qanını içirlər.

Orta əsr təskirəçiləri Nizaminin iyirmi min beytlik lirik şeirlər «Divan»ı olduğunu xəbər verirlər. Ancaq Nizaminin yüzə qədər şeri tapılmışdır. Nizaminin qəbri açılarkən məlum olub ki, onunla birlikdə naməlum bir qadın da dəfn olunubmuş. Akademik Həmid Araslı yazır ki, xalq bunu Nizaminin məşhur Məhsəti Gəncəviyə olan romantik sevgisi ilə əlaqələndirib. Guya şairə Nizamini böyük ehtirasla sevmiş və öləndə onun yanında basdırılmasını vəsiyyət etmişdir. Araslı göstərir ki, hər iki şairin qəzəllərindən də bu sevginin düzgünlüyü təsdiq edilir.

Nizami Gəncəvi 1209-cu il martın 12-də 68 yaşında vəfat etmişdir. Onun başdaşında yazılmışdır: «Bu, müqəddəs Şeyx Nizaminin mövla Əbu Mühəmməd ibn-İlyas ibn-Yusif ibn-Zəkinin

qəbridir. O, altı yüz beşinci ildə orucluq ayının dördüncü günü Allahın rəhmətinə getdi».

Bir çox şeyxlər kimi Nizaminin məzarı üstə məqbərə tikilir və insanlar buraya ziyarətə gəlirlər. XIX əsrdə onun məzarı dağılır. A.Bakıxanov yazır ki, Qarabağ xanlığının tanınmış tarixçisi Mirzə Adıgözəl bəy onu bərpa etmək cəhdində bulunmuşdur. 1875-ci ildə fars vəliəhdi Fərhad Mirzə Qacar özünün «Yol bələdçisi» kitabında göstərmişdir ki, böyük şairin ziyarətinə gəlib. O yazır: «Biz daha yeddi verst yol gələndən sonra çox da böyük olmayan bir gümbəz gördük. Kümbəz yarıuçulmuş bir vəziyyətdə idi. Bu-şeyx Nizaminin məzarı idi. Buradan Gəncəyə yeddi verst qalırdı. Mən tələsə-tələsə məzara doğru getdim. Ancaq yaxındakı postun qarovulçuları gümbəzin üstünə o qədər ot yığmışdılar ki, içəri keçmək mümkün olmadı».[1]

Görkəmli rəsam Şmerlinq «Molla Nəsrəddin» jurnalının 1908-ci ildə çıxmış 51-ci sayında Nizaminin bu gümbəzinin təsvirini vermişdir. Nizami Gəncəvinin 800 illik yubleyi ərəfəsində məzarın üstündə on beş metr hündürlüyündə məqbərə qurulur. Şairin 850 illik yubleyi keçirilərkən bu məqbərə uçurulur və formaca həmin məqbərəyə oxşayan mərmər və qranitdən yonulmuş əzəmətli yeni məqbərə yaradılır.

Nizaminin şöhrəti Şərq dünyasına yayılmış, əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuş, öyrənilməyə başlanmış, haqqında tədqiqat əsərləri yazılmış, adı əbədiləşdirilmiş, əzəmətli heykəli ucaldılmışdır.

Dünyanın ən möhtəşəm muzeylərində rəssamların «Xəmsə» mövzularında işlənmiş minatürləri və tətbiqi sənət nümunələri indiyə kimi saxlanılır. Dünyanın kitabxana və muzeylərində Nizami «Xəmsə»sinin yüksək ustalıqla işlənmiş doqquz yüzdən artıq nüsxəsi saxlanılır.

Ümummilli liderimiz Heydər Əliyev dahi Nizaminin Gəncədə məzarının üstündə əzəmətli mərmərdən yonulmuş məqbərə qoydurmuş və demişdir: «Nizaminin əsərləri təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var».

[1] Çingiz Qacar. Qədim və orta əsr Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997, səh. 97.



Ulu öndərimiz Heydər Əliyev Nizaminin on cildlik əsərlərini Moskvada çap etdirmişdir. Onun təşəbbüsü ilə Azərbaycanda Nizami Gəncəvinin əsərləri həmişə çap olunub oxucuların mütaliəsinə verilmişdir. Bu şərəfli fəaliyyəti Prezidentimiz İlham Əliyev səmərəli davam etdirir və dahi Nizami Gəncəviyə ümumxalq məhəbbəti qazandırır.

## XACƏ MƏHƏMMƏD NƏSİRƏDDİN TUSİ
## (1201-1274)

Görkəmli elm, maarif və mədəniyyət xadimi, mahir pedaqoq Xacə Məhəmməd Nəsirəddin Tusi istedadlı alim, məsuliyyətli tədqiqatçı, filosov, dərsiklər müəllifi, ümumxalq məhəbbəti qazanmış maarifpərvər şəxsiyyətdir.

Xacə Məhəmməd Nəsirəddin Tusi 1201-ci il fevralın 17-də Tus şəhərində anadan olmuşdur. Tusinin uşaqlıq və gənclik iləri bu cənnət diyarında keçmiş, humanist, əməksevər və müdrik bir gənc kimi böyümüşdür. Onun ilk müəllimi atası olmuş, ona ədəbiyyatı, incəsənəti, elmlərin əsaslarını öyrətməyə başlamışdır.

Nəsirəddin Tusi Azərbaycanın məşhur filosofu Bəhmənyardan və dövrünün görkəmli müdərrisi Fəridəddin Damaddan dərs almış, onlardan elmlərin əsaslarını mükəmməl öyrənməyə çalışmış və arzusuna nail olmuşdur.

Gənclik illərində şöhrət qazanmış Nəsirəddin Tusi Qəhistan Hakimi Əbu Mənsurun qonağı olmuş, ona gözəl təsir bağışlamışdır. Tusinin Yaxın və Orta Şərq xalqlarının ictimai-fəlsəfi və pedaqoji fikir tarixində görkəmli yer tutduğu onu dərindən düşündürür. Ona görə ki, Tusi elmi, təbiəti sevmiş, öyrənmiş, ondan bədii-estetik zövq almışdır.

Ədibin ləqəbi Nəsirəddin, adı Məhəmməd, atasının adı Məhəmməd, babasının adı Həsəndir. Bilikli olduğuna görə xalq ona Nəsirəddin adını vermiş, Tus ləqəbini anadan olduğu şəhərin adından götürmüşdür.

Tusiyə böhtan atırlar ki, guya bir qəsidə yazıb Bağdad xəlifəsini tənqid etmişdir. Buna görə də Əlqəninin fərpmanı ilə Tusi həbs olunmuş, iyirmi ilə qədər İrandakı «Ələmut» («Qartal yuvası») qalasında sürgün kimi qalmışdır.

Hülaku xan 1256-cı ildə Bağdada hücum edir, qalanı alır, məhbuslarla Tusini də azad edir. Hülaku xanın vəfatından sonra (1265) Tusi onun oğlu Abaqa xanın (1265-1274) vəziri olmuşdur.

Nəsirəddin Tusi 1259-cu ildə Marağa rəsədxanasını tikməyə başlayır. Rəsədxananı tikir, ona rəhbərlik edir, zəngin kitabxana yaradır, dövrünün məşhur alimlərini buraya toplayır.

Tusi on beş il rəsədxanaya rəhbərlik edir, onun banisi kimi şöhrət qazanır. Bu dövrdə rəsədxananı elmi mərkəzə çevirir.



Nəsirəddin Tusinin Rəhim Sultanovun Azərbaycan dilinə tərcümə etdiyi «Əxlaqi-Nasiri» əsəri yeddi yüz ildən artıq bir müddətdə Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi istifadə edilmiş, əxlaqi, fəlsəfi və pedaqoji mahiyyətli dərslik kimi geniş yayılmış, müəllifə hörmət qazandırmışdır.

Xacə Məhəmməd Nəsirəddin Tusinin «Zic Elxani», «Təhrir eqlidis» («Evklid şəhri»), «Şəklül-qita» («Kəsişmələr şəkli»), «Əxlaqi-Nasiri» («Nasirin əxlaqa aid kitabı»), «Cavahirnamə», «Maliyyət barəsində», «Şeirlər ölçüsü», «Hesablama məcmuəsi» və s. əsərləri zəngin sənət inciləri, misilsiz ədəbi irsdir.

Marağa rəsədxanası on beş illik fəaliyyətində maarif ocaqlarından biri olmuşdur. Xacə Məhəmməd Nəsirəddin Tusi «Şərhul işarət» adlı əsərində «Ələmut» qalasında keçirdiyi ağır sürgün illərini və orada yazdığı əsərləri ətraflı şərh edir.

Nəsirəddin Tusi ömrünün 73-cü ilində dünyasını dəyişmiş, 1274-cü il iyun ayının 25-də Bağdadda vəfat etmiş, «Came Məscid»də dəfn olunmuş, məzarı ziyarətgaha çevrilmişdir. Məzarının üstündəki mərmər qəbir daşına bu poetik misralar yazılmışdır:

Elmin köməkçisi,
Elm ölkəsinin şahı,
Dövr anası belə,
Oğul hələ doğmamışdır!

Məhəmməd Nəsirəddin Tusinin Bağdadda imam Musa ibn Kazimin məzarı ilə yanaşı olan qəbrinin başdaşının üstündə hüsnxətlə yazılmış bu sözlər oxunur: «Dinin və xalqın köməyi, elm aləminin şahı. Zamanın anası belə oğul yetirməyib».

Burada Azərbaycan xalqının böyük oğlu, görkəmli filosof, astronom və riyaziyyatçı, tarixçi, maliyyəçi və huquqşünas Məhəmməd ibn Həsən Nəsirəddin Tusi uyuyur. Onun ölümündən 700 il keçir, həyatı və yaradıcılıq yolu haqqında yüzlərlə əsərlər yaradılmışdır. Ancaq Tusi haqqında «elm aləminin şahı» müdrik kəlamı işlədilməmişdir.

Otuz yaşında ikən Kuhistan ismaililərinin təhbəri Nəsirəddin Möhtəşəm onu sarayına qonaq çağırır və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edir. 1235-ci ildə Nəsirəddin Tusi ona dünya şöhrəti gətirən və bir çox dillərə tərcümə olunan məşhur «Əxlaqi-Nasiri» əsərini yazır.

Kitab hökmdarın xoşuna gəlmir və Tusi «Ələmut» («Qartal yuvası») qalasında sürgün həyatı keçirir. On iki ildən bir qədər artıq müddətdə qalada qalır və bir neçə elmi əsər yaza bilir.

Alim 1242-ci ildə tamamladığı məşhur «Şərhül-İşarət» (Əbu Əli Sinanın «İşarat» adlı fəlsəfi risaləsinə şərhlər) əsərinin sonunda yazır: «Mən bu kitabın əksər fəsillərini olmazın dərəcədə ağır bir şəraitdə yazdım. Ürək bundan artıq sıxıntı çəkə bilməzdi».

1253-cü ildə Çingiz xanın nəvəsi Hülaku xanın Yaxın Şərqə yürüşü başlayır. Onun qoşunları «Ələmut» qalasını tutur, Nəsirəddini və digər alim məhbusları azad edirlər. Riyaziyyatçı alimin ən məşhur əsərləri arasında «Şəklül-qita» («Bütöv çoxtərəfli haqda risalə»), «Cəmeül-hesab» («Lövhə və tozun köməyi ilə hesab toplusu»), «Dairənin ölçüsü», «Təhrir Öqlidis» («Evklid «Başlanğıc»ının təsviri») kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət «Zici-İlxani» («İlxanilərin astronomik cədvəlləri») əsəri isə alimin adını dünya astronomiya tarixinə salmışdır.

Nəsirəddin Tusinin «Bağdadın tarixi», «İşığın əks olunması və sınması haqda risalə», «Evklid optikası», «Göy qurşağının öyrənilməsinə dair risalə», «Qiymətli daşlar haqqında kitab», «Tibb qanunları», «Dövlət maliyyəsi haqqında risalə», Xoşbəxt günlərin seçilməsi» əsərləri ona şöhrət qazandırmışdır.

Hülaku xan Marağa rəsədxanasının tikilməsinə iyirmi min dinar pul buraxır. Rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik donluq verilir.

Rəsədxananın tikintisi 1259-cu ildə Marağa şəhərinin qərbindəki təpənin döşündə başlanır. Nəsirəddin rəsədxana binalarının layihələşdirilməsində və astronomik cihazların qurulmasında şəxsən iştirak edir.

Rəsədxananın banisi kimi şöhrət qazanır. Rəsədxananın nəzdində dörd yüz min kitab saxlanan kitabxana və bu elmi mərkəzi kadrlarla təchiz etməkdən ötrü məktəb fəaliyyət göstərirdi. Onun üç oğlu olub: Əsiləddin Həsən, Fəxrəddin Əhməd və Sədrəddin Əli. Nəsirəddin öldükdən sonra üçüncü oğlu uzun müddət rəsədxanaya rəhbərlik etmişdir.

XIV əsrdə Nəsirəddinin nəvə-nəticələri Marağadan Ordubada köçmüşlər. Səfəvilər dövründə onlar bir sıra dövlət vəzifələrində çalışmışlar. Hal-hazırda Azərbaycan Respublikasında və İran İslam Respublikasında Nəsirəddin Tusinin çox sayda varisləri yaşamaqdadır.



Mahir pedaqoq Nəsirəddin Məhəmməd Tusi zəngin elmi-nəzəri və pedaqojit irsi ilə milyonlarla insanların qəlbində yaşamış, yaşayır və əbədi yaşayacaqdır.

Mövlanə Nurəddin yazmışdır: «Millətin və dövlətin köməkçisi Məhəmməd Tusi yeganə adam idi ki, onun kimisini ana-zaman doğmayıb».

Həmdulla Qəzvini Xacə Məhəmməd Nəsirəddin Tusinin ölümünü çox mənalı səciyyələndirir, onu «ölkənin elmli padşahı», «millətin dayağı», «zəmanənin anadan doğmadığı müdrik insan» adlandırır, elmin tarixində əbədi yaşayacağını iftixarla bəyan edir, məzarının ziyarətgaha çevrilməsini göstərir.

Nəsirəddin Tusinin oğlanları Sədrəddin Əli, Əsiləddin Həsən, Fəxrəddin Əhməd marağa rəsədxanasına rəhbərlik etmişlər. Nəsirəddin Tusi xalqa, Vətənə bağlı, gənc nəslə örnək olan, mənalı bir ömür yolu keçmiş, milyonların qəlbində özünə əbədi abidə ucaltmış tarixi şəxsiyyət, gözəl insan, elm xadimi olmuşdur.

Nəsirəddin Tusi təlim-tərbiyənin əhəmiyyətinə, mənəvi təmizliyə, əxlaq saflığına, vicdan bülurluğuna xüsusi diqqət verib öyrənməyi zəruri saymış, əsərlərində elmi-nəzəri şərhini vermişdir.

Xacə Məhəmməd Nəsirəddin Tusi bütün Şərq alimləri və tədqiqatçılar üçün həqiqi mənada əxlaq və mərifət nümunəsidir. Nəsirəddin Tusi əxlaq haqqında yazdığı əsərlərlə şöhrət və qüdrət səviyyəsinə yüksəlmiş, ölümsüzlüyün parlaq zirvəsinə ucalmışdır.

Xacə Məhəmməd Nəsirəddin Tusinin zəngin elmi-nəzəri, pedaqoji-metodik və ədəbi irsinin tarixilik, elmilik, ideyalılıq prinsipləri əsasında mükəmməl tədqiq olunması və oxucuların mütaliəsinə verilməsi müasir dövrümüzün əsas problemlərindən biridir.

## MİRZƏ ŞƏFİ VAZEH
## (1792-1852)

Azərbaycan ədəbiyyatında ilk maarifçiliyin görkəmli nümayəndələrindən biri olan Mirzə Şəfi Vazeh istedadlı şair, mahir pedaqoq, dövrünün tanınmış mütəfəkkiri kimi həmişə hörmət qazanmışdır.

Mirzə Şəfi Kərbəlayi Sadıq oğlu Vazeh 1792-ci ildə Gəncədə bənna ailəsində anadan olmuşdur. Cavad xanın sarayında memar işləyən atasını çox tez itirən Mirzə Şəfi o vaxt Gəncədə yaşayan qabaqcıl fikirli Hacı Abdullanın himayəsində Gəncə mədrəsəsində təhsilini davam etdirirdi.

Mirzə Şəfinin müasiri olan alman şərqşünası A.Berje yazmışdır: «Mirzə Şəfiyə hamilik edən Hacı Abdulla onda elmə və maarifə böyük həvəs olduğunu görüb, təhsilini davam etdirməkdə ona maddi yardım göstərməkdən belə çəkinmirdi. Gəncə mədrəsə müdərrisləri gənc Şəfinin fikirlərində dini etiqada dair dəyişikliyi görüb ona dərs verməkdən imtina etdikdə o, mədrəsəni tərk etməyə məcbur olur. Şairin yaradıcılığında ruhaniliyə qarşı nifrət və mənfi münasibətin oyanması da məhz buradan başlayır».

Ərəb və fars dillərini bilən Mirzə Şəfi Gəncə mədrəsəsindən yarımçıq çıxır. Ancaq Xəyyam, Nizami, Sədi, Hafiz kimi klassiklərin əsərlərini mütaliə edir. Mirzə Şəfi Hacı Abdullanın köməyi ilə Cavad xanın qızı Püstə xanımın kənd və mülklərini idarə etmək üçün mirzəlik vəzifəsinə təyin olunur. Onun Mirzə Şəfi adlanması da bu vəzifə ilə əlaqədar idi.

1826-cı ildə Rus-İran müharibəsi zamanı Püstə xanımın qardaşı Uğurlu xanla birlikdə İrana qaçması gənc Mirzə Şəfi Vazehin işsiz qalmasına səbəb olur. Bir tərəfdən mirzəlik vəzifəsini itirməsi, o biri tərəfdən hamisi Hacı Abdullanın 1831-ci ildə ölümü onun maddi vəziyyətini ağırlaşdırır.

Hacı Abdulla öləndə özünün bir neçə yüz rubl pulunu Mirzə Şəfiyə vəsiyyət edir. Şəfi borclarını qaytara bilir və maddi vəziyyətini bir qədər yaxşılaşdırır. Ancaq bu da müvəqqəti olur. Bir yandan da mətbəələrin yaranması onun xəttatlıq sənətini az qala lazımsız bir şeyə çevirir. Şəfi olduqca ağır bir vəziyyətə duşür.

Şairin yaradıcılığına dərindən bələd olmuş ən yaxşı tədqiqatçılardan biri Mikayıl Rəfili göstərir ki, Vazeh təxəllüsünü qəbul etmiş Mirzə Şəfinin poetik istedadının çiçəklənməsi də məhz



həmin dövrə düşür. O yazır: «həyatın sınaqları və ruhanilərin təzyiqləri altında tənha və kimsəsiz qalmış şair şərabın və məşuqənin gözəlliklərini tərənnüm etməklə təsəlli alırdı. Bu şeirlər isə çox zaman Hafiz və Xəyyamdan, XVI əsrin böyük Azərbaycan şairi Füzulidən gələn uzun bir yolu davam etdirir, mistik səciyyə daşıyırdı».

XIX əsrin 20-ci illərində Gəncə Şah Abbas məscidi yanındakı mədrəsədə uşaqlara nəstəliq xətti ilə yazıb -oxumağı öyrədən Mirzə Şəfi artıq xalq arasında bir şair kimi də tanınır. Gözəl, xoşnəvis xəttat, yaxşı müəllim, dövrünün görkəmli şair və mütəfəkkiri kimi şöhrət qazanan Mirzə Şəfi bu zaman Gəncədə İran mətbəələrində çap olunmaq üçün kitabların surətini hazırlayırdı.

F.Bodenştedt müəlliminin haqqında «Şərqdə min bir gün» əsərində yazırdı: «Mirzə Şəfi, hər xırda şeydən ötəri hirslənən adam deyildi, o çox təmkinli və sakit adam idi. Çox danışmağı sevməzdi, bir söz demək istəsə fikrini aydın və qısa deyərdi. Səliqəliyi çox sevərdi».

Mirzə Şəfi Gəncədə Mirzə Fətəliyə dərs verərkən onu qəflət yuxusundan ayıldır, ruhani təhsilin gərəksiz olduğunu ona başa salır və onu tamamilə kənarlaşdırır.

Mirzə Şəfi Vazeh 1840-cı ildə Gəncədən Tiflisə köçür və orada yaşamalı olur. 1840-cı ilin noyabr ayında Mirzə Şəfi keçmiş tələbəsi Mirzə Fətəli Axundovun (1812-1878) köməyi ilə Tiflis qəza məktəbinə Azərbaycan və fars dilləri müəllimi vəzifəsinə təyin olunur. Sonra rus gimnaziyasında Azərbaycan dilini tədris edir.

Mirzə Şəfi Vazehin Tiflisdə yaşadığı illər mənalı keçir. Ona görə ki, Mirzə Şəfi Vazeh müəllimlik etməklə kifayətlənmir, həm də bədii yaradıcılıqla ciddi məşğul olur. 1844-cü ildə Tiflisdə «Divani-Hikmət» adlı məclis təşkil edən Mirzə Şəfi yaxın dostlarını, şagirdlərini, ədəbiyyat həvəskarlarını məclisə toplayır.

Məclisdə şeir yazmaq, elmlərin əsaslarını, pedaqogikanı, fəlsəfəni öyrənmək vəzifəsi həyata keçirilir. Bu dövrdə Almaniyadan gəlib Tiflisdə müəllimlik edən Fridrix Fon Bodenştedt Mirzə Şəfidən Azərbaycan və fars dillərini öyrənirdi. Bu tanışlıq böyük dostluğa çevrildi. F.Bodenştedt Mirzə Şəfinin şeirlərini 1850 -ci ildə Berlində «Şərqdə min bir gün» adlı iki cildlik kitabında nəşr etdirir.

Mirzə Fətəli Axundov iftixarla yazmışdır: «Mirzə Şəfi bütün mətalibi-ürfaniyyəti mənə təlqin etdi və gözümün qabağından qəflət pərdəsini qaldırdı».

Ədəbiyyatşünas Salman Mümtaz demişdir: «Azərbaycan türklərini avropalılara tanıdan və nəzər-diqqətini Azərbaycan ədəbiyyatına cəlb etməyə müvəffəq olan ədib və şairlərimizdən ən görkəmlisi məşhur Mirzə Şəfidir». Salman Mümtaz 1926-cı ildə Bakıda «Mirzə Şəfi Vazeh» adlı bir kitabça çap etdirmişdir.

Mirzə Şəfi Vazeh Tiflisdə azərbaycanca təlim vəsaiti yaratmaq istəyir. Gimnaziyanın fars dili müəllimi İvan Qriqoryev ilə birlikdə Azərbaycan dilinə aid müntəxəbat tərtib edir. Müntəxəbatın lüğət hissəsi («Azərbaycan-rus lüğəti») 1851-ci ilin yanvarında, müntəxəbatın özü isə 1851-ci ilin aprelində nəşrə hazır idi. Ancaq nəşriyyat çətinliklərinə görə müntəxəbat Mirzə Şəfi Vazehin sağlığında çap olunmadı.

Müntəxəbat («Tatarskaya xrestomatiya Azerbay-djanskoqo nareçiya») iki hissədən ibarət idi. Dərsliyin ikinci hissəsi lüğətlə birlikdə 1855-ci ildə Mirzə Şəfi Vazehin ölümündən sonra İvan Qriqoryev tərəfindən Təbrizdə nəşr olundu və uzun müddət gimnaziyanın aşağı siniflərində və qəza məktəblərində Azərbaycan dilini öyrənmək üçün dərslik kimi istifadə edildi.

Müntəxəbatın tam geniş nüsxəsi olan birinci hissə isə 1856-cı ilin axırında nəşr edilib maarif nazirliyinə göndərilir ki, nazirlik icazə versin, dərslik kimi istifadə edilsin. Ancaq Peterburq universitetinin professorları müntəxəbat haqqında mənfi rəy yazdıqlarına görə müntəxəbatdan dərslik kimi istifadə olunmamışdır.

Müntəxəbatda Füzulinin «Leyli və Məcnun» və digər əsərlərindən, qəzəllərindən, «Qarabağnamə» və «Dərbəndnamə»dən tərcümələr verilmişdir. Müntəxəbat zəngin idi.

Pedaqogika tarixində bu dərsliyin əhəmiyyəti haqqında akademik H.Əhmədov, prof. A.Abdullayev, prof. Camal Əhmədov, prof. Ə.Qarabağlı, prof. A.Səmədov, prof.Ş.Mikayılov, prof.S.Şükürov ətraflı bəhs etmiş, müntəxəbatı yüksək qiymətləndirmişlər.

Adları çəkilən görkəmli pedaqoqlar göstərmişlər ki, «Müntəxəbat» təkmilləşdirilmiş şəkildə lüğətlə birlikdə Azərbaycanda geniş yayılmış və məktəblərdə dərslik kimi istifadə olunmuşdur. Bu dərslikdən İrəvan mahalının azərbaycanlılar yaşayan Xocaparaq, Mehmandar, Xatınarxı, Cəfərabad, Sərvanlar, Böyük Vedi, Qəmərli, Uluxanlı, Kolanlı, Ağcaqışlaq, Ağhamşalı, Qarabazar, Gürcüstanda Məngilis, Borçalı mahalının kənd məktəblərində səmərəli istifadə edilmişdir.



Mirzə Şəfi Vazeh pedaqojit fəaliyyəti dövründə tərtib etdiyi bu müntəxəbatı ilə Azərbaycan dilində ilk dərs vəsaiti yaratmışdır. Mirzə Şəfi Vazehin bu fəaliyyətini XIX əsrin ikinci yarısında Mirzə Əbülhəsən Vəzirov Zui, Seyid Əzim Şirvani, Rəşid bəy Əfəndiyev və başqa maaripərvər mütəfəkkirlər davam etdirmiş, dərsliklər və dərs vəsaitləri yaratmışlar.

Mirzə Şəfi Vazeh 1846-cı ilin noyabr ayında Tiflisdən Gəncəyə gəlir və dövlət tərəfindən yeni açılan qəza məktəbinə müəllim təyin edilir. Gəncədə pedaqoji fəaliyyəti ilə bədii yaradıcılığını vəhdətdə inkişaf etdirir, gözəl sənət inciləri yazıb oxuculara hədiyyə verir.

Azərbaycan ədəbiyyatı tarixində «Mirzə» sözünü sənətkara dövlət başçısı, hökmdar verməmişdir. «Mirzə» sözü sənətkara xalq tərəfindən verilmişdir. Bu görkəmli xalq yazıçıları Mirzə Cəlil, Mirzə Fətəli, Mirzə Ələkbər Sabir, Mirzə Şəfi Vazeh əsl xalq yazıçıları, xalq şairləri olduqlarına görə xalq onlara «Mirzə» adını vermişdir. Mirzə Şəfi Vazehə də bu şərəfli adı onun səmərəli fəaliyyətinə, Vətənə və xalqa şərəfli xidmətinə görə xalq vermişdir.

Mirzə Şəfi Vazeh 1850-ci ilin yanvar ayında Tiflisə köçür. O, Tiflisdə zadəganlar gimnaziyasında Azərbaycan dili müəllimi təyin olunur və ömrünün sonuna kimi bu vəzifədə səmərəli çalışır, dərin hörmət qazanır.

Görkəmli mütəfəkkir Mirzə Şəfi Vazeh 1852-ci il 28 noyabrda Tiflis şəhərində vəfat edir və orada dəfn olunur. Mirzə Şəfi Vazehin adı əbədiləşdirilmiş, əsərləri nəşr olunmuş, haqqında tədqiqat əsərləri yazılmış, milyonlarla insanların qəlbində yaşamış, yaşayır və yaşayacaqdır!

## ABBASQULU AĞA BAKIXANOV QÜDSİ
## (1794-1846)

Abbasqulu ağa Bakıxanov Qüdsi II Mirzə Məhəmməd xan oğlu dövrünün alimi, mütəfəkkiri, şairi, ilk Azərbaycan maarifçiliyinin əsas nümayəndəsi, XIX əsrin birinci yarısında yeni maarifçi-realist ədəbi cərəyanın yaradıcılarından biridir.

A.Bakıxanov 1794-cü il iyunun 21-də Bakının Əmirhacıyan kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illərini Bakıda keçirən A.Bakıxanov təhsilə Bakıda başlamış, Qubada davam etdirmişdir. Qubada ruhanilərdən dərs almış, fars və ərəb dillərini öyrənmişdir. O, Firdovsi, Nizami, Xaqani, Sədi, Hafiz, Füzuli kimi dahi sənətkarların əsərlərini mütaliə etməyə başlamışdır.

A.Bakıxanov 1819-cu ildə Tiflisdə Şərq dilləri mütərcimi vəzifəsinə təyin olunur. İctimai həyatı dərindən öyrənməyə başlayır. Onun 1832-ci ildə Bakıda rus dilində məktəb açması təşəbbüsünə icazə verilmədi. A.Bakıxanov 1835-ci ildə Qubaya köçür, burada atasının Əmsar kəndində olan malikanəsində yaşayır, elmi və ədəbi fəaliyyətini davam etdirir.

A.Bakıxanov «Təhzibül-əxlaq», «Kitabi-nəsihət», «Kitabi-Əsgəriyyə», «Mişkatül-ənvar» əsərlərini burada yazmışdır. Bu illərdə A.Bakıxanov Qubada təşkil olunmuş «Gülüstan» adlı ədəbi məclisdə fəal iştirak edir. O 1841-ci ildə «Gülüstani-İrəm» əsərini fars dilində yazıb qurtarır. Bu əsərin rus dilinə tərcümə edilməsi və çap olunması üçün A.Bakıxanov tez-tez Tiflisə gedir və Tiflisdə M.Ş.Vazeh, M.F.Axundov, M.Ş.Vazehin şagirdi alman şairi Fridrix Bodenştedt və polyak şairi Lado Zablostski ilə tanış olur. Tiflisdə M.Ş.Vazehin «Divani-hikmət» məclisində fəal iştirak edir.

A.Bakıxanov mahir pedaqoq alim kimi «Təhzibül-əxlaq» və «Kitabi-nəsihət» adlı uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar təlim-tərbiyəvi mahiyyətli əsərlər yazmışdır. A.Bakıxanovun pedaqogika və psixologiyaya aid elmi-nəzəri mahiyyətli fəlsəfi əsəri olan «Təhzibül-əxlaq» müqəddimə, on iki fəsil və nəticədən ibarətdir.

A.Bakıxanovun «Kitabi-nəsihət» və ya «Nəsihətnamə» adlı pedaqoji əsəri tərbiyə və təlimə həsr olunmuşdur. Kitabda böyüklərə, ata-anaya, qohum-əqrəbaya məhəbbət, dostluğa sədaqət, mərdlik, əməyi, zəhməti sevmək, elm və təhsilə həvəs təbliğ olunur, tənbəlliyə nifrət edilir.A.Bakıxanov «Gülüstani-İrəm»



əsərini Azərbaycan və Dağıstan xalqlarının tarixinə həsr etmişdir. Əsər beş fəsildən ibarətdir. A.Bakıxanov «Kitabi-nəsihət» və «Təhzibül-əxlaq» əsərlərində elm və təhsilin əhəmiyyətini, xalq kütlələrinin mədəni inkişafını, savadlandırılmasını və maariflən-dirilməsini göstərmişdir.Azərbaycan mədəniyyətinin banilərindən biri olan A.Bakıxanovun «Əsrarül-mələkut», «Qanuni-Qudsi», «Təhzibül-əxlaq», «Kəşfül-qəraib», «Gülüstani-İrəm», «Ümumi coğrafiya», «Fars dilinin qrammatikası» əsərləri onu öz dövrünün müasir elmi səviyyəsində duran həqiqi alim kimi tanıdır və ona ümumxalq məhəbbəti qazandırır.

A.Bakıxanov Şərqi öyrənmək məqsədi ilə 1846-cı ilin mart ayında Şərqə səhayətə çıxır. Mart və aprel aylarını İranda, xüsusilə Təbriz şəhərində keçirir. Sonra Təbrizdən Tehrana gedir, iki ay burada qalır, İranın görkəmli dövlət xadimləri, alimləri, şairləri, yazıçıları və qədim mədəniyyət, incəsənət abidələri ilə tanış olur, elmi-nəzəri və pedaqoji ədəbiyyatı öyrənir.

A.Bakıxanov Tehrandan Bağdada və Məkkəyə gedir. Misirdə və Qahirədə qalır, sonra da Ərəbistanın digər şəhərlərini gəzir, xalqın vəziyyətini öyrənir. A.Bakıxanov Mədinə ilə Məkkə arasında «Vidayi-Fatimə» adlanan yerdə 1846-cı ildə vəba xəstəliyindən vəfat edir. A.Bakıxanov «Vidayi-Fatimə» adlı yerdə dəfn olunur. İndi onun məzarı haqqında heç bir məlumat və nişan yoxdur. Azərbaycanda A.Bakıxanovun adı əbədiləşdirilmiş, əsərləri çap olunmuş, abidəsi ucaldılmış, haqqında elmi-tədqiqat əsərləri yazılmışdır.

## MİRZƏ MƏHƏMMƏD ƏLİ QASIM OĞLU KAZIM BƏY (1802-1870)

Görkəmli mütəfəkkir Mirzə Məhəmməd Əli Qasım oğlu Kazım bəy 1802-ci il iyun ayının 22-də Rəşt şəhərində anadan olmuşdur. Quba xalqının tarixinə aid materiallardan məlum olur ki, onun üç əmisi Fətəli xanın sarayında vəzirlik etmişdir.

Mirzə Kazım bəyin atası öz biliyi və nüfuzu sayəsində şeyxislam rütbəsi almışdır. Mirzə Kazım bəy on iki yaşında ərəb və fars dillərini öyrənmişdi.

Mirzə Kazım bəy on yeddi yaşında «Ərəb dili qrammatikasına dair təcrübələr» adlı elmi kitabını ərəb dilində yazmışdır. O, Dərbənddə olarkən «Müəmma və lüğət» kitabını işləmiş, klassik Şərq ədəbiyyatının janr nəzəriyyəsinin şərhini vermişdir.

Mirzə Kazım bəyin atası rus imperiyasının cinayətkarlığına görə Dərbənddən köçür. 1821-ci ildə Mirzə Kazım bəy Həştərxana sürgün edilmişdir. Kazım bəy Həştərxanda ingilis dilini öyrənmiş, Şotlandiyalıların təsiri ilə xiristianlığı və Aleksandr adını qəbul etmişdir.

Mirzə Kazım bəy 1825-1826-cı illərdə Omsk Asiya məktəbində Şərq dillərindən dərs demişdir. 1826-cı ildən Kazan Universitetində Şərq dillərindən dərs deməyə başlayan Kazım bəyin iyirmi dörd yaşı var idi. Kazım bəy 1828-ci ildə Kazan universitetində türk-tatar dilləri kafedrasının müdiri işləyir.

Mirzə Kazım bəy 1831-ci ildə professor adına layiq görülür, 1845-ci ildə fəlsəfə fakütləsinin dekanı və 1846-cı ildən ərəb-fars dilləri kafedrasının müdiri vəzifəsində çalışır.

Mirzə Kazım bəy Kazan universitetində işlədiyi dövrdə «Türk-tatar dilinin qrammatikası», «Krım xanlarının tarixi», «Hənəfilər məktəbi üzrə müsəlman hüquqşünaslığının qısa kursu», «Uyğurlar haqqında tədqiqat», «Firdovsinin yaradıcılığı» və s. əsərlərini yazmışdır.

Mirzə Kazım bəyin bu tədqiqatları Avropa dillərinə tərcümə olunub geniş yayılmış, ona hörmət qazandırmışdır. Onun əsərləri bir çox universitetlərdə dərslik kimi oxunur və istifadə edilir.



Mirzə Kazım bəy 1849- cu ildə iyirmi ildən artıq işlədiyi Kazan universitetindən Sankt-Peterburq universitetinə keçir. 1855-ci ildə fars dili kafedrasının müdiri təyin olunur. O, 1844-1845-ci illərdə məktəblərdə inspektor işləyir.

Mirzə Kazım bəy 1855-ci ildə dekan işləməyə başladığı Sankt-Peterburq universitetində bu fakültənin dekanı kimi ömrünün sonuna (1870) kimi işləmişdir. Onu həmyerlisi professor Mirzə Cəfər Topçubaşov əvəz etmişdir.

Mirzə Kazım bəy Peterburqda işlədiyi dövrdə «Dərbəndnamə», «Quranın tam konkordansı», «Müridizm və Şamil», «Bab və Babilər», «Şərülislam-vərəsəlik haqqında», «İslam» və başqa fundamental əsərlər yazmışdır.

Mirzə Kazım bəy ensiklopedik biliyə, zəngin təcrübəyə malik olan alim kimi hörmət qazanmış, dilçilik, ədəbiyyatşünaslıq, tarix, fəlsəfə, pedaqogika, etika, etnoqrafiya, etimologiya, müsəlman hüququ, ədəbi tənqid, mifologiya elmləri sahəsində dəyərli tədqiqat əsərləri yazmışdır.

Mirzə Kazım bəy qırx il iki rus universitetinin professoru olmuş, elm təşkilatçısı və mahir pedaqoq kimi tanınmışdır. Peterburq universitetində on dörd Şərq dili üzrə mütəxəssis hazırlayan şərqşünaslıq fakültəsində Mirzə Kazım bəy dərs demiş, dərslik və dərs vəsaitləri yazmışdır.

Görkəmli şərqşünas, akademik İ.Y.Kraçkovski yazırdı: «Rus şərqşünasları içərisində öz böyük şöhrətinə və nüfuzuna görə birinci yerdə şərqşünaslıq fakültəsinin ilk dekanı Mirzə Kazım bəy dayanırdı. Mənşəcə azərbaycanlı olan, əsaslı Şərq sxolastik məktəbi keçən Mirzə Kazım bəy üç Şərq dilini mükəmməl bilirdi. Eyni asanlıqla Qərb dillərinə də yiyələnmiş, bu dillərin hamısında özünə Qərbdə böyük şöhrət qazandıran əsərlər yazmışdır».

Görkəmli Azərbaycan alimi rus mədəniyyətinə, böyük rus xalqına dərin rəğbət bəsləyirdi. Rusiyanı Şərqlə yaxınlaşdırmaq üçün əlindən gələni əsirgəmirdi. Alim bütün ömrü boyu doğma Azərbaycandan uzaqda yaşasa da, vətəni ilə əlaqələrini heç vaxt üzməmişdi.

Mirzə Kazım bəyin zəngin kitabxanasında Azərbaycan ədəbiyyatının bir sıra qiymətli nümunələri bu günə qədər qorunub saxlanmışdır. Burada Nizami «Xəmsə»sinin və Füzuli «Divanı»nın müxtəlif nəşrləri və əlyazma nüsxələri, A.Bakıxanovun, M.F.Axun-

dovun kitabları, Azərbaycan tarixinə və ədəbiyyatına dair əlyazmaları və çap materialları vardır.

Mirzə Kazım bəy «Türk-tatar dilinin ümumi qrammatikası» əsərində Azərbaycan dili materiallarına xüsusi yer vermişdi. Bir çox rus və Avropa türkoloqlarından fərqli olaraq Mirzə Kazıb bəy Azərbaycan dilinin türk dilləri içərisində ən zərif və məlahətli bir dil olduğunu göstərirdi».

Mirzə Kazım bəy Londondakı Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü (1829), Peterburq Elmlər Akademiyasının üzvü (1835), Kazan Vətən Dilləri Cəmiyyətinin həqiqi üzvü (1848), Kazan Universitetinin fəxri üzvü (1849), Rusiya Coğrafiya Cəmiyyətinin həqiqi üzvü (1850), ABŞ Boston Şərqşünaslar Cəmiyyətinin üzvü (1851), Almaniya Şərqşünaslıq Cəmiyyətinin üzvü (1966) seçilmişdir.

Peterburq universitetinin əməkdar professoru, Şərq dilləri üzrə fəxri doktor, Demidov mükafatı laureatı Mirzə Kazım bəyin zəngin elmi irsi öz əhəmiyyətini saxlayır, onun müstəmləkəçiliyə qarşı yazdığı əsərləri azadlıq uğrunda mübarizə aparan xalqların əlində ən qüvvətli silahdır.

Akademik V.A.Bartold demişdir: «Rus şərqşünas-lığının bütöv bir dövrü Mirzə Kazım bəyin və onun yetişdirmələrinin adı ilə bağlıdır».

Görkəmli alim, dünyaşöhrətli mütəfəkkir Mirzə Kazım bəy yaratdığı zəngin ədəbi irsi ilə əbədi yaşayır və yaşayacaqdır.



## MİRZƏ FƏTƏLİ AXUNDOV
## (1812-1878)

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mirzə Fətəli Axundov dramaturgiyanın banisi, istedadlı sənətkar, ədəbiyyatşünas, ictimai xadim, zəngin irs və bədii publisist sənət incilərinin müəllifi, peşəkar pedaqoq kimi ümumxalq məhəbbəti qazanmış dahi şəxsiyyətdir.

Mirzə Fətəli Axundov (Axundzadə) Mirzə Məhəmmədtağı oğlu 1812-ci ildə Şəki şəhərində anadan olmuşdur. Onun anası Nanə xanım Şəkili Axund Hacı Ələsgərin qardaşı qızıdır. Nanə xanımın ulu babası zənci olmuşdur.

Mirzə Fətəli Axundovun atası 1814-cü ildə ata yurdu Təbriz vilayətinin xaminə kəndinə qayıdır. O, Xaminədən çərçilik edə-edə 1810-cu ildə Şəkiyə (Nuxa) gəlmiş, 1811-ci ildə Şəkidə ikinci dəfə evlənmişdir.

1814-cü ildə Xaminə kəndinə qayıtmış, Fətəlini və anası Nanə xanımı da Xaniməyə gətirmişdi. Mirzə Fətəli iki yaşından on üç yaşına kimi, on bir il burada yaşamışdır. Mirzə Fətəli Axundov Məhəmməd Cəfər Qaracadağiyə məktubunda yazmışdır: «Mən yeddi yaşından on iki yaşadək Qaracadağda, Horand kəndində, ondan sonra Vəlibəyli obasında, Enkut eli arasında pərvəriş tapmışam».

Mirzə Fətəli Axundov uşaqlıq illərini təbiətin bu mənzərəli və füsunkar qoynunda, yaşıl və sərin yaylaqların, əlvan meyvəli bağların içərisində keçirmiş, bu gənclik illəri onun qəlbində silinməz izlər buraxmışdır.

M.F.Axundov təhsilə İran Azərbaycanında olarkən mollaxana məktəbində başlamış və mollaxanaya nifrət etmişdir. Ancaq Fətəli fars və ərəb dillərini mükəmməl öyrənmişdi.

Mirzə Fətəli Axundov Gəncədə gözəl xəttat, mahir müəllim, dövrünün görkəmli şairi və mütəfəkkiri Mirzə Şəfi Vazehdən (1794-1852) dərs almış, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, pedaqogikanı öyrənmişdi. M.F.Axundov müəllimi M.Ş.Vazehə dərin hörmət bəsləmiş, ondan köməyini əsirgəməmişdir. M.F.Axundov Qafqaz canişinliyində mütərcim işləmişdir.

Mirzə Fətəli Axundov pedaqoji fəaliyyətində ana dilli məktəb uğrunda səmərəli mübarizə aparmış, parlaq uğurlar qazanmışdır. Azərbaycanda ərəb və fars dillərinin məktəb və

mədrəsələrdə tədris dili hesab edilməsi, elmi, ədəbi və bədii əsərlərin əsasən bu dillərdə yazılması yeni maarifçilik hərəkatının görkəmli nümayəndəsi Mirzə Fətəli Axundovu narahat edir. O, bu ədalətsizliyə dözmürdü.

XIX əsrin əvvəllərində Azərbaycan dili bütün yaxın Şərqdə dərin hörmət qazanmış, alimlər, yazıçılar, ziyalılar bu dilə yüksək tələbkarlıqla münasibət bəsləmişlər. Rus ədəbiyyatının A.S.Qriboyedov, A.S.Puşkin kimi dahi sənətkarlarının A.Bakıxanovla səmimi münasibətləri, A.A.Bestujev - Marlinskinin M.F.Axundovla sədaqətli dostluğu, Azərbaycan dilini öyrənməyə başlaması Azərbaycan xalqı ilə rus xalqının arasındakı tarixi dostluğun parlaq uğurları olmuş və Azərbaycan dilinin məktəblərdə tədris edilməsinə qüvvətli təkan vermişdir. Bu səmimi münasibət qardaş rus xalqı ilə Azərbaycan xalqı arasındakı qarşılıqlı qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etmişdir.

Bu dövrdə əsas çətinliklər müəllim kadrlarının və yeni üsulla dərsliklərin olmamasından ibarət idi. Pedaqoji sahəyə xüsusi diqqət yetirən M.F.Axundov bu problemin həlli ilə əlaqədar tədbirlərin həyata keçirilməsinə çalışır, praktik fəaliyyət göstərirdi. Ona görə ki, M.F.Axundov 1834-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dilindən dərs demiş, gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmuşdur.

Mirzə Fətəli Axundov mahir pedaqoq kimi yalnız dərs deməklə kifayətlənməmiş, Zaqafqaziyanın inzibati mərkəzi olan Tiflis şəhərində müxtəlif millətlərin qabaqcıl və mütərəqqi görüşlü ziyalıları ilə səmimi dost olmuş, təhsilin qarşısında duran problemləri həll etməyin yolları haqqında tədbirlər görməyin zəruriliyini aşkarlamışdır. Digər millətlərin nümayəndələri də problemin həll olunmasının vacibliyini əsaslandırmışlar.

M.F.Axundov Azərbaycanın İran şahları və Türkiyə sultanlarının hakimiyyəti altında olduğu zamanlar azərbaycanlıların yazı işlərinin fars və ya türk dillərində aparıldığını, dərsliklərin, dərs vəsaitlərinin, oxu kitablarının olmamasını göstərirdi. O, bu vəziyyətin aradan qaldırılmasını Azərbaycanın Rusiyaya birləşməsi ilə şərh edirdi. Ona görə ki, Azərbaycan Rusiyaya birləşdikdən sonra təhsil sistemində rəsmi islahatlar aparıldı, proqramlar tərtib olundu, müəllim kadrları hazırlamaq, dərsliklərlə məktəbləri təmin etmək tədbirləri həyata keçirilməyə başlandı.



Azərbaycan ədəbiyyatının nümunələri məktəblərdə tədris olunmağa planlaşdırıldı, fars, türk və ərəb sözləri dolu, anlaşılmaz dildə olan tərcümələr rədd edildi.

M.F.Axundov 1853-cü ildə bu məsələnin həlli haqqında yazırdı: «Hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər bu məktəblərdə Azərbaycan dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı».

Bu çətinlikləri aradan qaldırmağa ilk təşəbbüs edənlərdən biri də fitri istedadlı yazıçı, mahir pedaqoq M.F.Axundov olmuşdur. M.F.Axundov Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləyərkən 1839-cu ildə öz həmvətənləri üçün yeni üsulla bir dərs kitabı tərtib etməyə başlamışdır. Ancaq M.F.Axundov Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi vəzifəsindən azad edilməsinə görə həmin dərsliyi yazıb qurtara bilməmişdir. Mirzə Fətəli Axundovun yazmağa başladığı dərsliyi onun yerinə müəllim təyin edilmiş M.Ş.Vazeh yazmışdır.

M.F.Axundovun müəllimlikdən azad olmasına baxmayaraq, həmişə pedaqoji sahədə fəaliyyətini davam etdirir, dərsliklərin tərtib edilməsində, dərsliklərə rəy verilməsində və ana dili təliminin səmərəli aparılmasında köməyini əsirgəmirdi.

Zaqafqaziya məktəblər direktoru vəzifəsini icra edən saray müşaviri N.Dementyevin 1839-cu ildə Tiflisdə çap etdirdiyi «Əlifba» və «Oxu» kitablarının hazırlanmasında M.F.Axundov yaxından iştirak etmiş, kitaba daxil edilən bütün materialları toplamış, səliqəli şəkildə müəllifə vermişdir.

«Oxu» kitabının müqəddiməsində N.Dementyev yazır: «Zaqafqaziya məktəblərində Şərq dillərindən dərs deyən müəllimlərin arzusunu nəzərə alaraq kitabdakı mətnləri Avropa qaydası ilə soldan-sağa deyil, yerli müsəlmanların adət etdikləri Şərq qaydası ilə sağdan-sola düzdük». Dərslik müəllifi N.Demantiyevin kitabın müqəddiməsində yazdığı izahatda M.F.Axundovun xeyirxah kömək etdiyini təsdiqləyir. Rəsmi arxiv sənədlərində göstərilir ki, Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi Hacı Yusif Şahnəzərovun Azərbaycan, fars və türk dillərində tərtib etdiyi dərs vəsaitlərinin 1845-ci ildə gimnaziyada müzakirəsində gimnaziyanın Azərbaycan və fars dilləri müəllimi İvan Qriqoryev, Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi M.Ş.Vazeh və canişin dəftərxanasının Şərq dilləri mütərcimi (tərcüməçisi) podporuçik

M.F.Axundov fəal iştirak etmiş, müzakirə olunan tədris vəsaitlərinin məzmunu, ideyası, pedaqoji-metodik xüsusiyyətləri haqqında xeyirxah rəy söyləmiş, köməklərini əsirgəməmişlər.

M.F.Axundov Azərbaycan dilinin tədrisinə kömək məqsədi ilə özünün bədii əsərlərindən istifadə olunmasını məsləhət bilir və yazırdı ki, bu pyeslər Azərbaycan dilində yeganə orijinal əsərlər olduğuna görə onları uşaqlara öyrətmək lazımdır. Çünki bu pyeslərin vasitəsilə Azərbaycan dilinin ruhunu, xüsusiyyətini, cümlələrin, ifadələrin quruluşunu, feillərin və sözlərin müxtəlif hallara düşməsini və sairəni öyrənmək olar.

M.F.Axundov «Əkinçi» qəzetinin 1877-ci il ikinci nömrəsində çap olunan məqaləsində yazırdı: «Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy Zərdabi! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmərətını zikr edib, bizə hey təklif edirsən elm öyrənin, elm öyrənin! Çox yaxşı, sözün bimənə və nəsihətin müfid və xeyirxahlığın sabit. İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək, kimdən öyrənək və hansı dildə öyrənək».

Mirzə Fətəli Axundov bu məktubunda kütləvi xalq məktəblərinin olmamasını, xalq müəllimlərinin çatışmazlığını, ana dilində dərs kitablarının, yeni dərsliklərin, dərs vəsaitlərinin, oxu kitablarının çatışmazlığını ana dili məktəblərinin təşkili qarşısında duran və həll olunması vacib olan ictimai və pedaqoji problemlər hesab edirdi.

Mirzə Fətəli Axundov dövlət məktəblərində təlimin rus dilində, ənənəvi məktəb və mədrəsələrdə isə ərəb və fars dillərində aparıldığına ciddi ehtirasını bildirirdi. H.Zərdabiyə yazırdı ki, məktəb açmağa, dərslik yaratmağa, müəllim gətirməyə xalqın vəsaiti yoxdur, çətin və acınacaqlı vəziyyətdir.

M.F.Axundov ümumtəhsil ideyasını irəli sürür, əhalinin bütün təbəqələrini, şəhərlilərin, kəndlilərin, qadınların, kişilərin, ümumiyyətlə hamının ana dilində dünyəvi təhsil almasını lazım bilir və bu müqəddəs ideyanı rəsmi şəkildə müdafiə edirdi.

M.F.Axundov keçən əsrin 70-ci illərində dövlətin ümumxalq təhsilinə məsuliyyətsiz olduğunu, xalqın ana dilində məktəb açılmasına maliyyə vəsaiti olmadığını rəsmi vurğulayır, Azərbaycanın gəlirinin xaricilərin cibinə, çar hökumətinin xəzinəsinə getdiyini göstərir və xalqın doğma ana dilində yazmağı, oxumağı bacarmadığını ürək ağrısı ilə rəsmi göstərirdi.



Azərbaycan xalqının ağır vəziyyətinə, dərdinə faydalı çıxış yolu axtaran M.F.Axundovun ana dilli məktəb, təlim və tərbiyə məsələləri uğrunda mübarizəsi, ictimai-siyasi, pedaqoji fikirləri, inqilabi-demokratik mövqedən çıxış etməsi siyasi mahiyyət daşıyır, çarizmin xalqa zülm etməsinin əsaslarını aşkarlayırdı.

Görkəmli humanist M.F.Axundov Azərbaycan xalqını savadsızlıq bəlasından qurtarmağa, ana dilinin inkişafına, ərəb əlifbasının əngəl törətməsinə, bu əlifbanın dəyişirilməsinə səmərəli fəaliyyətində ciddi çalışmış, əsaslı mübarizə aparmışdır.

M.F.Axundov apardığı mübarizəyə inanır və deyirdi: «Mən sizi əmin edirəm ki, əlifba məsələsi nəhayət baş tutacaqdır. Əgər bu gün olmasa, sabah, sabah olmasa da birisi gün baş tutacaqdır!».

M.F.Axundov yazıçı, dramaturq, publisist, filosof, mütərcim, mütəfəkkir maarifçi, mahir pedaqoq olmuş, müqəddəs ideyaları ilə yaşamış və həmin ideyalar müstəqil Azərbaycan Respublikası dövründə tamamilə həyata çevirilmişdir.

M.F.Axundov ədəbiyyat, mədəniyyət, sənət və təhsildə vətənpərvərlik ideyasına sadiq qalmış, ideyasızlığa qarşı mübarizə aparmışdır. O, ədəbiyyatın təlim-tərbiyəvi və bədii-estetik mahiyyətini yüksək qiymətləndirmiş, xalqa və xüsusilə gənc nəslə öyrədilməsinin zəruriliyini göstərmişdir. M.F.Axundov Azərbaycan və Yaxın Şərq ədəbi-ictimai fikrinin əsasında yetişmiş, rus və Avropa mədəniyyətinin nailiyyətlərinə yiyələnmişdir.

M.F.Axundovun əsərləri nəşr olunmuş, adı əbədiləşdirilmiş, haqqında elmi-nəzəri, pedaqoji-metodik tədqiqat əsərləri yazılmış, müqəddəs məzarı ziyarətgaha çevrilmiş, abidəsi ölümsüzlüyün zirvəsinə yüksəldilmiş-dir.

# MİR MÖHSÜN NƏVVAB
## (1833 - 1918)

Şuşa şəhəri həmişə Azərbaycanın mədəniyyət mərkəzlərindən olub. Məşhur alim, musiqişünas Firidun Şuşinskinin sözlərinə görə, XIX əsrdə bu kiçik şəhərdə ona yaxın ədəbi, musiqi və digər cəmiyyətlər, ondan artıq mədrəsə və müxətlif tipli məktəb fəaliyyət göstərirdi.

Dağlar qoynu Şuşada orta əsrlər elm, incəsənət və mədəniyyət ənənələri Azərbaycanın hər yerindən daha artıq dərəcədə özünə qərar tuta bilib. Zəngin kitabxanalarda xəttatlar kitabların üzünü köçürür, rəssamlar şəhər binalarının divarlarına nəqşlər vurur, kitablara miniaturlər çəkirdilər. Qarabağ muğam məktəbinin adı daim uca tutulmuşdur.

XIX əsrin ortalarında Azərbaycanın hər yerində mədrəsə və məktəblər yaradılırdı. Orta əsrlərə məxsus elmi biliklər sisteminə sahib ensiklopediyaçı alim Mir Möhsün Nəvvab bu şəhərdə yaşayıb-yaradır. Görkəmli musiqiçi, şair, rəsam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı olan Mir Möhsünü əsərlərinin məzmunu, səviyyəsi və həcmi etibarilə həqiqətən də orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsindən hesab etmək mümkündür. Mir Möhsün Nəvvab Şuşanın ictimai həyatında həmişə qabaqcıl, o dövr üçün mütərəqqi mövqelərdə durmuş, maarifə və mədəniyyətə şərəfli xidmət etmişdir.

Mir Möhsün Nəvvab musiqişünas, Azərbaycan dilində yazılmış «Vüzuhül-ərqam» («Rəqəmlərin izahı») risaləsinin müəllifidir. Mir Möhsün kimyagər, münəccim və məktəbə mənsub rəssamlardandır.

Mir Möhsün Nəvvab 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində anadan olmuşdur. O, Şuşadan kənara çıxmamışdır. İlk təhsilini ruhani məktəbində alan Nəvvab ərəb, fars, türk dillərini mükəmməl mənimsəmiş, sonra isə Abbas Sarıcalı mədrəsəsində astronomiya, kimya, riyaziyyat və digər elmlərin əsaslarına yiyələnmişdir.

Mir Möhsün Nəvvab 85 il yaşamış (1918), ömrü boyu Şuşanın mədəni və ictimai həyatında fəal iştirak etmişdir. Şeirlər yazmış, özünün açdığı mətbəədə kitablar nəşr etmiş, məktəblərdə dərs demiş, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş



iyirmidən artıq kitab yazmış, «Məclisi-fəramuşan» adlı ədəbi, «Məclisi-xanəndə» adlı musiqi məclisləri qurmuşdur.

Şairlərdən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Eyyub Baqqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdulayev, Seyid Şuşinski və başqaları həmin məclislərin üzvləri idilər. Bu cəmiyyətlər Azərbaycandakı digər eyni məqsədli məclislər-Şuşadakı «Məclisi-üns», Şamaxıdakı «Beytüs-Səfa», Bakıdakı «Məcməuş-şüəra» ilə sıx əlaqələr saxlayırdı.

Mir Möhsünün əsərləri içərisində «Təzkireyi-Nəvvab» toplusu daha artıq maraq doğurur. Burada XIX əsrdə Qarabağdan çıxmış 100-dən artıq şairin həyatı və yaradıcılığı haqqında məlumatlar toplanmışdır. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuşdur.

Mir Möhsün Nəvvab XIX əsrin sonlarında Şuşada ana dilində məktəb açan görkəmli təhsil xadimlərindən biridir. M.M.Nəvvab Azərbaycan mədəniyyəti, ədəbiyyatı, məktəb və pedaqoji fikir tarixində xüsusi yer tutan mütəfəkkirlərdən biri olmuşdur. M.M.Nəvvab görkəmli alim, rəsam, musiqişünas kimi tanınıb şöhrət qazanmışdır.

Şuşada «Məclisi-fəramuşan» (və ya «Məclisi-Xamuşaq) adlı ədəbi məclisin təşkilatçısı olan Mir Möhsün Nəvvab ana dilinin tədrisinə və ana dili məktəbi ideyasının inkişafı problemində səmərəli fəaliyyət göstərmiş, həmişə hörmət qazanmışdır.

Nəvvab keçən əsrin 90-cı illərində Şuşada yeni üsullu ana dilli məktəb açmışdır. Orada Azərbaycan dili, ədəbiyyat, fars dili və digər fənlər tədris edilir, dünyəvi elmlərdən məlumat verilirdi. M.M.Nəvvab Seyid Əzim Şirvani və M.T.Sidqi kimi öz məktəbində tədris etmək üçün dərslik və tədris vasitələri tərtib etmişdir.

M.M.Nəvvabın «Kəşf-ül-həqiqə», «Kifayət-ül-ətfal», «Vüzuh-ül-ərqam» və «Nəsihətnamə» adlı dörd dərsliyi məlumdur. Bu əsərlərdə səxavət, düzgünlük, şərabın zərəri, qonaq qəbul etmək, bədəni salamat saxlamaq və s. haqqında təmsillər və hekayələr toplanmışdır. Bu əsərlərdə həmçinin elmin əhəmiyyətindən, millətin geri qalmasından təəssüflə danışılır, musiqi tarixindən, musiqinin insan orqanizmi üçün müalicə əhəmiyyətindən bəhs edilir.

M.M.Nəvvabın fəaliyyətində onun 800 bənddən ibarət olan «Nəsihətnamə»si ayrıca əhəmiyyət kəsb edir.

M.M.Nəvvab dövrünün əsas elm sahələrinin demək olar ki, hamısına aid kitablar yazan, onları öz evində əlinin zəhməti ilə çap edən, həmin kitablara bədii tərtibat verən, bu kitabları öz məktəbində tədris edən nadir şəxsiyyətlərdən olmuşdur. Onun ana dili məktəbi Qarabağ mahalında yeni üsullu məktəblərin açılmasına qüvvətli təsir etmişdir.

M.M.Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. O öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı «Kifayətül-ətfal» kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdir. Alim kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirir və orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı.

«Nəsihətnamə» kitabında cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıq idi. Tanınmış pedaqoq və alimin etik görüşləri müəyyən mənada onun «Kifayətül-ətfal», «Nurül-Ənvar» və «Pəndnamə» kimi kitablarında da öz əksini tapmışdı. Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini Mir Möhsün Nəvvab bədii yaradıcılığı ilə vermişdi.

Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı «Vüzuhül-ərqam» ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Onun musiqiyə həsr etdiyi «Kəşfül-həqiqəti-məsnəvi» əsəri də vardır. Həmin risaləsində Mir Möhsün muğamların, dəstgahların mənşəyi və adlarının kökü haqqında məsələləri araşdırır. Nəvvab ilk dəfə dəstgah terminindən istifadə edir və Qarabağda məlum olan altı dəstgahın adını çəkir: (Rast, Mahur, Şahnaz, Rahavi, Çahargah və Nəva).

Mir Möhsün Nəvvab Azərbaycan, Nişabur, Zabuli, Bağdadi, Şirvani, Qacarı, Şah Xətai və başqa muğamların adlarının yaranması tarixini şərh edir.

Mir Möhsün Nəvvab yaradıcılığının tədqiqatçısı musiqişünas Zemfira Cəfərova yazır: «Vihuhül-ərqam» keçən əsrdə yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində muğam ifaçılığının və musiqi incəsənətinin vacib məsələlərindən bəhs edən qiymətli bir musiqi əsəridir».

Mir Möhsün Nəvvab 1918-ci ildə Şuşa şəhərində vəfat etmiş, müqəddəs Qarabağ qəbirstanlığında dəfn olunmuşdur. Onun müqəddəs məzarı insanların ziyarətgahına çevrilmişdir. Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənəti, maarifi və pedaqoji-fikir



tarixində şərəfli fəaliyyət göstərən, Vətəninə və xalqına şərəfli xidmət edən dahi tarixi şəxsiyyət Mir Möhsün Nəvvab yaratdığı zəngin ədəbi irslə milyonların qəlbində əbədi yaşamış, yaşayır və yaşayacaqdır. Ona görə ki, Mir Möhsün Nəvvab əbədiyaşar sənətkardır.

## SEYİD ƏZİM ŞİRVANİ
## (1835-1888)

XIX əsr Azərbaycan ədəbiyyatı tarixində görkəmli şair, kəskin satiralar müəllifi kimi şöhrət qazanan Seyid Əzim Şirvani mahir pedaqoq və maarifpərvər sənətkardır.

Şamaxıda bir sıra məhəlli məktəbləri olduğu zaman S.Ə.Şirvani 1869-cu ildə xüsusi məktəb açmış, ana dilli məktəbin bünövrəsini qoymuş, tədris planı və proqramı ilə yeni tipli məktəb yaratmışdır.

Məşhur pedaqoq Mahmud Mahmudbəyov S.Ə.Şirvaninin məktəbini Azərbaycan və fars dillərində olan şöbədən ibarət məktəb adlandırıb yüksək dəyərləndirmişdir.

S.Ə.Şirvaninin məktəbində Azərbaycan, rus, ərəb və fars dilləri, hüsnxət və rəsmxət öyrədilir, tarix, coğrafiya, hesab və digər fənlərdən ibtidai məlumat verilirdi. Azərbaycan məktəb tarixində S.Ə.Şirvaninin bu məktəbi ilk nümunəvi ana dili məktəbi olmuşdur.

Seyid Əzim Şirvani 1835-ci ildə Şamaxıda anadan olmuşdur. Atası Seyid Məhəmməd bu mahalın hörmətli və xeyirxah şəxsiyyəti kimi tanınmışdır. S.Ə.Şirvaninin atası vəfat etmiş, kiçik yaşlarından ana babası Molla Hüseynin himayəsində yaşamışdır.

Dağıstandakı Yaqsay kəndində ruhanilik edən babası Seyid Əzimi yanına aparır, ərəb və fars dillərini öyrədir. Seyid Əzim yeddi il Dağıstanda yaşayır. O, Şamaxıya qayıdır, mədrəsədə oxuyur, ruhani təhsilini tamamlayır.

Seyid Əzim 1856-cı ildə İraqa gedir, Nəcəf və Bağdadda, sonra Suriyanın Şam şəhərində ruhani mədrəsəsində oxuyub təhsilini tamamlayır. O, ruhani təhsilinin faydasız olduğunu dərk edir, onu satirik şeirlərində tənqid etməyə, dünyəvi elmləri öyrənməyə başlayır. Buna görə də Şamaxıda özünə düşmən qazanır.

Seyid Əzim Şamaxıda yeni üsul üzrə məktəb açır və ömrünün sonuna kimi müəllimlik edir. Minqreliya orta məktəbinin müəllimi A.Zaxarov 1887-ci ildə Şamaxıda S.Ə.Şirvanini görür və yazır: «Hacı Seyid Əzim Şirvani on səkkiz ildir ki, məktəbi idarə edir. Dağıstanda təhsil almışdır, bir neçə Dağıstan dillərini, fars və ərəb dilini bilir. O, rus dilində oxuyub yazmağı bacarır. Onun məktəbində rus dili də təlim edilir».

S.Ə.Şirvani Sədinin «Gülüstan» və «Bustan» əsərlərindən tərbiyəvi mətnləri tərcümə edib uşaqlara öyrədir. S.Ə.Şirvani



Şamaxıda «Şəriət», «Rəbnül-ətfal» («Uşaqların baharı») və «Tacül-kütub» adlı üç dərslik yazmışdır. O, 1874-cü ildə Şamaxıda Bakı vilayəti məclisinin açdığı məktəbdə dərs deyir. Ancaq Azərbaycan və fars dilləri müəllimi S.Ə.Şirvanini siyasi cəhətdən «etibarsız və sədaqətsiz» sayıb. Onun məktəbini bağlayırlar. O, Tiflisə, Qafqaz maarif idarəsinə şikayətə gedir və bəraət qazanır. Gəncədə Nizaminin qəbrini ziyarət edir, onun türbəsinin dağıldığını görüb bu rubaini yazır:

> Ey Şeyx Nizami, ey nizami dağılan,
> Ey Gəncədə irzü ehtişamı dağılan,
> Olmuşmu səninlə mən kimi aləmdə
> Beyti, evi, məktəbi, kəlamı dağılan?

Seyid Əzim Şirvani Şamda ali ruhani təhsilini tamamlayıb Şamaxıya qayıdır. Sonra Məkkəyə gedir. Qahirədə olur, ərəb şairləri ilə görüşür, Şərq mədəniyyəti ilə tanış olur.

Seyid Əzim Şamaxıda «Beytüs-Səfa» şeir məclisini təşkil edir və uzun müddət onun rəhbəri olur. Seyid Əzim Qarabağdakı «Məclisi-fəramuşan»ın üzvü Abdulla bəy Asi ilə, Bakıdakı «Məcməüş-şüəra» məclisinin üzvü Abdülxalıq Yusif və başqaları ilə tanış olur.

Seyid Əzim Şirvani H.M.Zərdabi ilə dost olmuş, «Əkinçi» qəzetində fəal iştirak etmiş, nadanlıq əleyhinə, maarifin tərəqqisinə aid əsərlər yazmışdır.

Seyid Əzim Şirvani ədəbi fəaliyyətə 50-ci illərin ortalarında başlamış, zəngin ədəbi irs yaratmışdır. Onun yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutur. Ədibin şeirləri, qəzəlləri, satiraları ona hörmət qazandırmış, təlim-tərbiyəvi və bədii-estetik mahiyyətli sənət inciləridir. S.Ə.Şirvani istedadlı lirik şair, maarifçi şeirlər müəllifi, təmsil, mənzum hekayə və satiraları ilə realist sənətkar kimi tanınmış və sevilmişdir.

Tarixi mənbələr göstərir ki, rus məktəbləri və burada tətbiq olunan təlim və tədris üsulları ilə tanış olan «məktəbdarlar» köhnə mollaxananı tərk edib rus məktəblərinin «üsuli-cədid» mahiyyətli davamı olan, məktəblər açmağa çalışırdılar.

Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab Qarabağı, Lənkəranda Mirzə İsmayıl Qasir, İravanda Mirzə Kazım Əsgərzadə Mütələ köhnə ruhani məktəblərini buraxıb «üsuli-cədid» məktəbləri yaradan, yeni üsulla dərs verən müəllimlərdən idilər. Bu

məktəblərdə fars dili və şəriət dərslərindən başqa ana dili, rus dili, tarix, coğrafiya və təbiiyyat dərsləri də keçirilirdi.

80-ci illərdən «Russko-tatarskaya şkola» adında dördillik ibtidai məktəblər açıldı. Bu məktəblərdə təhsil rus və Azərbaycan dilində aparılırdı. Buna görə də Azərbaycan dilində milli dərsliklərin yaranması üçün imkan və şərait yaradılırdı. Bu dövrdə ali təhsil almaq üçün Moskvaya və Peterburqa gedirdilər. H.M.Zərdabi (1837-1907) Moskva universitetinin təbiiyyat-riyaziyyat fakültəsini bitirmişdir.

Seyid Əzim Şirvani 1888-ci il iyun ayının 1-də Şamaxıda vəfat etmiş və Şamaxıdakı Şahxəndan qəbristanlığında dəfn olunmuşdur. Ədibin azərbaycanca külliyyatı həmyerlisi cərrah Mirzə Həbib Məşədi Sadıq oğlu tərəfindən 1892-ci ildə Təbrizdə daş basmaxanasında nəşr olunmuşdur. Şairin külliyyatı üç böyük hissədən ibarətdir. Birinci hissə qəsidə, həcv, mənzum məktub, tərcibənd, tərkibbənd, müxəmməs, təxmis, müsəddəs, müstəzad və s. əsərlərindən ibarətdir. İkinci hissə qəzəl, rübai, qitə, beyt və fərdlərdən, üçüncü hissə isə mənzum hekayələrdən ibarətdir.

Seyid Əzim Şirvaninin əsərləri çap olunmuş, haqqında tədqiqat monoqrafiyaları yazılmış, ümummilli liderimiz Heydər Əliyev Şamaxıda məzarının üstündə mərmərdən abidəsini ucaltdırmış, adını əbədiləşdirmişdir.

Mahir pedaqoq Seyid Əzim Şirvaninin məktəbində ana dili yeni üsulla, yəni «üsuli-cədid» ilə aparılırdı.

Seyid Əzimin məktəbi təxminən 14 il fəaliyyət göstərdi. Ruhanilərin təzyiqi və maddi vəziyyətin ağırlığı nəticəsində məktəb 1887-ci ildə bağlandı.

S.Ə.Şirvani 1877-ci ildən Şamaxı üç sinifli şəhər məktəbində Azərbaycan dili və şəriət dərsləri müəllimi işləməyə başladı.

S.Əzim Şamaxı şəhər məktəbində Azərbayxan dilinin təliminə böyük əmək sərf edərək şagirdlərə şeirlərini və Şərqin böyük klassiklərindən olan Sədi, Hafiz və başqalarından etdiyi tərcümələri oxuyurdu.

Seyid Əzim Şirvani Sədinin «Gülüstan» və «Bustan» əsərlərindən tərbiyəvi əhəmiyyətli mətnləri tərcümə edib uşaqlara oxudur və səmərəli öyrədirdi. Bir neçə ildən sonra bu bədii parçalar əsasında «Şəriət» adlı bir dərslik tərtib etdi. Seyid Əzim Şirvaninin ictimai-pedaqoji hərəkatı çox zəngindir.



S.Ə.Şirvani 1869-cu ildə pedaqoji fəaliyyətə başlayır. Onun təsis etdiyi «Üsuli-cədid» məktəbi mollaxana və mədrəsələrdən fərqlənirdi. Uşaqlar həsir üstündə deyil, skamyalarda oturur, yazı taxtasında yazırdılar. Məktəbdə proqram üzrə Azərbaycan, fars və rus dilləri, coğrafiya, təbiiyyat və hesab tədris olunurdu.

S.Ə.Şirvani 1876-cı ildə Şamaxı ruhani məclisi məktəbində Azərbaycan və fars dillərini tədris edir, 1877-ci ildən isə Şamaxı rus məktəbində işləməyə başlayır. Seyid Əzim H.M.Zərdabiyə yazdığı 20 oktyabr 1877-ci il tarixli məktubunda ona dərin minnətarlığını bildirirdi ki, bu məktəbdə işləməyinə təkan vermişdir.

1886-cı ildə «Kaspi» qəzeti yazırdı: «Şamaxıdakı bir sinifli «Məclis» məktəbinin müəllimi yazıq Hacı Seyid Əzim özünü oda-közə vursa da, heç bir şey edə bilmir. Əgər kənardan əhəmiyyətli kömək yetişməsə, möhtərəm Hacı məktəbi bağlamalı olacaq».

Seyid Əzim Şirvani Məhəmməd Hadi, Abbas Səhhət, Mirzə Ələkbər Sabir, İsmayıl Nakam kimi sənətkarların müəllimi olmuş, onun tabutunu bu hörmətli yetirmələri məzara qoymuşlar.

Azərbaycan maarifçiliyinin rişələri A.Bakıxanov, M.Ş.Va-zeh və İsmayıl bəy Qutqaşınlı yaradıcılığında əsas yer tutur və ətraflı şərhini tapır. Bu səmərəli maarifçilik fəaliyyəti S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev və N.Nərimanovun yaradıcılığında şə-rəfli inkişaf etdirilir. Ümumiyyətlə, H.M.Zərdabi, F.Köçərli, R.Əfəndiyev, M.Şaxtaxtlı, E.Sultanov, S.M.Qənizadə, N.Nəri-manov Azərbaycanda maarifçiliyin zənginləşdirilməsinə səmərəli fəaliyyət göstərmişlər.

S.Əzimin pedaqoji fəaliyyətində şəhər məktəbinin birinci və ikinci sinif şagirdləri üçün tərtib etdiyi «Rəbiül-Ətfal» (1877) və «Tacül-Kütüb» (1883) adlı dərslikləri mühüm yer tutur.

S.Ə.Şirvaninin yaratdığı «Müntəxəbat» adlı dərslik sağlığında çap olunmamışdır. Həmin dərsliyin materiallarından Aleksey Osipoviç Çernyayevskinin «Vətən dili» dərsliyində istifadə olunmuşdur. Dərslik A.O.Çernyayevskinin xoşuna gəmiş, dərslikdəki mətnləri öz dərsliyinə salmışdır.

Qafqaz Tədris Dairəsinin popoçiteli K.Yanovski 1886-cı il mayın 10-da bütün məktəblər direksiyalarına sərəncam verir ki, yay tətili zamanı yerli dil müəllimləri proqram tərtib etsinlər. Popeçi-telin Bakı, Kürdəmir, Səlyan və b. şəhərdəki dövlət məktəblərinin Azərbaycan dili müəllimləri proqram tərtib etdilər. O cümlədən ZMS-nin Azərbaycan bölməsinin və Şamaxı şəhər məktəbinin

müəllimi S.Əzim də həmin məktəb üçün proqram tərtib etdi. Bu proqram həmin il oktyabrın 16-da Bakı-Dağıstan məktəblər direktoru vasitəsilə QTD-yə göndərilmişdi.

Seyid Əzim Şirvani fitri istedadlı şair, dünyaşöhrətli mütəfəkkir, görkəmli, mahir pedaqoq və maarifçi kimi Azərbaycanda ana dili məktəbinin bünövrəsini qoymuş, Azərbaycan pedaqoji fikrini daha da inkişaf etdirib zənginləşdirmiş və milyonların qəlbində özünə əbədi abidə qurmuş, ölümsüzlüyün zirvəsinə yüksəlmişdir.

S.Ə.Şirvani uzun müddət qüsursuz işlədiyinə görə 1886-cı ildə Stanislav lentində sinədə daşımaq üçün üzərində «Səy göstərdiyinə görə» sözləri yazılmış gümüş medalla təltif edilmişdir.



## HƏSƏN BƏY MƏLİKOV ZƏRDABİ (1837-1907)

Görkəmli publisist, mahir pedaqoq, məsuliyyətli ictimai-siyasi və mədəni dövlət xadimi Həsən bəy Məlikov Zərdabi özünün ədəbi, ictimai və pedaqoji fəaliyyəti ilə dövrünün mötəbər tarixi şəxsiyyətlərindən biridir.

Həsən bəy Məlikov Zərdabi 1837-ci ildə Göyçay qəzasının Zərdab kəndində bəy ailəsində anadan olmuşdur. İbtidai məktəbi Zərdabda oxumuş, orta təhsili Tiflis gimnaziyasında almışdır. H.M.Zərdabi Moskva universtitetinin təbiiyyat-riyaziyyat fakültəsinə qəbul olub, 1865-ci ildə uğurla bitirmişdir. Universitetin elmi-mədəni tədbirlərində fəal iştirak etmiş, əlaçı oxumuş, fərdi təqaüd almış və rus dilini mükəmməl öyrənmişdir.

H.M.Zərdabi Azərbaycana qayıtdıqdan sonra elmi-pedaqoji və publisistik fəaliyyətə başlamışdır. Bu dövrdə «Torpaq, su və hava», «Bədəni salamat saxlamaq düsturul-əməli» adlı əsərlərini yazmışdır.

H.M.Zərdabi 1875-ci ilin 22 iyulunda «Əkinçi» qəzetinin birinci sayını çap etdirmiş və bununla da Azərbaycan milli mətbuatının bünövrəsini qoymuşdur.

«Əkinçi» qəzeti 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 22 sentyabrına qədər çıxmışdır. «Əkinçi» qəzeti ayda iki dəfə 300-400 tirajla nəşr olunurdu. Qəzetin 1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20 nömrəsi nəşr edilmişdir. Deməli, qəzetin cəmi 56 nömrəsi nəşr olunmuşdur.

«Əkinçi» qəzeti «Daxiliyyə», «Əkin və ziraət xəbərləri», «Mətbuat», «Elmi əsərlər» və «Tazə xəbərlər» sərlövhəsi altında beş əsas növbəyə bölünürdü. Qəzetdə Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məmmədtağı Əlizadə Şirvani, Ələkbər Heydərinin məktubları, Seyid Əzim Şirvaninin şeirləri, Mirzə Fətəli Axundovun məqalələri dərc olunmuşdur.

«Əkinçi» qəzetində dərc olunan əsərlərdə xalq kütlələrinin müasir ruhda tərbiyə olunmasına səy göstərilirdi. Bu materiallar yüksək təlim-tərbiyəvi mahiyyət daşıyırdı. Bu qəzetin Azərbaycan poeziyasının demokratik ruhda və realist istiqamətdə inkişaf etməsində rolu böyükdür. «Əkinçi» S.Ə.Şirvanini müasir mövzularda satirik əsərlər yazmağa ruhlandırırdı.

Qəzet Mirzə İsmayıl Qasirin, Hacağa Fəqir Ordubadinin, Məhəmmədtağı Sidqinin və başqa sənətkarların əsərlərinə geniş yer verir, onların yaradıcılığını inkişaf etdirirdi.

H.M.Zərdabi XIX əsrin ikinci yarısında Azərbay-canda ictimai və pedaqoji fikir tarixinin inkişafına təkan vermiş, görkəmli ictimai xadim, maarifçi, böyük mütəfəkkir kimi səmərəli fəaliyyət göstərmişdir.

«Əkinçi» qəzeti Azərbaycan dövrü mətbuatının bünövrəsidir. XIX əsr Azərbaycan ictimai-siyasi həyatının aynası olan «Əkinçi» qəzetinin cəmi 56 nömrəsi çıxmışdır.

Qəzetin birinci nömrəsində yazılmışdır: «Bu qəzeti çap elədir Badkubə gimnaziyasının müəllimi Həsən Məlikzadə Zərdabi». Çarizmin müstəmləkə siyasəti ucqarların iqtisadi-siyasi və mədəni inkişaf yolunda ciddi maneyələr törətdiyi vaxt bu qəzet nəşr olunmuşdur, yəni Azərbaycan xalqı öz ana dilində ilk qəzet oxumağa başlamışdır.

M.F.Axundovun ləyaqətli, mübariz sələfi, «Əkinçi» qəzetinin redaktoru Həsən bəy Məlikov Zərdabi (1837-1907) dahi şəxsiyyətdir. O, qədim Şirvanın Zərdab kəndində ziyalı bəy ailəsində anadan olmuş. H.M.Zərdabi orta təhsilini Şamaxı və Tiflisdə almışdır. N.Vəzirov, Ə.A.Gorani, Əbülfət Şahtaxtinski, M.Əlizadə Bakıda H.M.Zərdabinin tələbələri olmuşdur.

A.Bakıxanov 1828-1832-ci illərdə «Tiflisskiye vedomosti»nin farsca buraxılışının redaktoru və müəlliflərindən biri olmuşdur. Azərbaycan milli mətbuatının ilk bünövrəsi «Əkinçi» qəzetidir. Qəzetin banisi, redaktoru azərbaycanlı H.M.Zərdabidir. Qəzetin məzmunu, ideya istiqaməti, dili, poliqrafik bazası oxucuları nəşr olunduğu müqəddəs Azərbaycan torpağı ilə bağlayır, onun mənəvi və maddi həyatına əsaslanır, doğma həmvətənlərinə şərəfli xidmət edir.

H.M.Zərdabi M.F.Axundovdan əlavə dövrünün S.Ə.Şirvani, N.Vəzirov, Əhsənül-Qəvaid, Ə.A.Gorani, Ələkbər Heydəri kimi şair və yazıçılarına arxalanırdı. «Əkinçi» XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı və dilinin, habelə təbiətşünaslıq elminin tarixini öyrənmək üçün çox qiymətli mənbədir. Qəzet maarif, mədəniyyət, ədəbiyyat, məişət, əxlaq, geyim haqqında dəyərli məlumat verirdi.

Maarifpərvər müəlliflər oxucunu maarifləndirmək məqsədi ilə çox məzmunlu və ideyalı məqalələr yazırdılar. Qəzet müsəlman



Şərqindəki nöqsanları, fəlakətləri kəskin tənqid edirdi. Qəzetin yeni tipli ədəbiyyat, incəsənət, dil, pedaqogika, dərslik, dərs vəsaitləri, tərcümə, kitab nəsri, kitabxana haqqında faydalı yazılar dərc edib oxuculara hədiyyə verirdi. Qəzet əməkçi xalqın qanını soran tüfeyliləri ifşa edirdi.

Mirzə Ələkbər Sabir yazırdı ki, «XX əsrin əvvəlində «Əkinçi» vəfat etmişdirsə də Azərbaycan ziyalılarının çoxunu özünə «mənəvi ata» sayan H.M.Zərdabi sağ idi. O, yenə yazır, mübarizədən qalmır, «Əkinçi»də gördüyü işləri davam etdirirdi».

F.Köçərli yazırdı ki, «Əkinçi» qəzetinin ənənələrini inkişaf etdirmək, onun maarifpərvər yazılarını mətbuatda və kitablarda yaşatmaq lazımdır.

H.M.Zərdabinin babası Rəhim bəy və atası Səlim bəy dövrünün mütərəqqi görüşlü şəxsiyyətləri olmuşlar.

«İrşad» qəzeti 1907-ci ildə H.Zərdabinin maarifçilik fəaliyyətini yüksək qiymətləndirir və yazırdı: «Bakıda on bir rus-müsəlman məktəbi var. Bu məktəblərin cümləsi o bir çarənin səylərinin, zəhmətlərinin nəticəsidir».

H.M.Zərdabi Bakıda keçirilən birinci Qafqaz müsəlman müəllimləri qurultayının təşəbbüsçüsü və təşkilatçılarından bir olmuş, çox səmərəli fəaliyyət göstərmişdir.

H.M.Zərdabi 1873-cü il aprel ayının 12-də Bakı qubernatoruna ərizəsində yazmışdır ki, Quba mülkədarı, general-mayor A.Bakıxanov Bakı şəhərində tatar (Azərbaycan) dilində pulsuz qəzet nəşr etmək məqsədi ilə mətbəə açmaqdan ötrü mənə min manat pul verdi. Buna görə də qərara aldım ki, qəzetin redaktoru və naşiri olacağam, qəzeti Azərbaycan dilində nəşr edəcəyəm, qəzet iki həftədə bir dəfə buraxılacaq, abunə qiyməti iki manat olacaq, qəzetdən toplanan pul Bakıda təşkil olunmuş müsəlman şagirdlərinə yardım cəmiyyətinə veriləcək, qəzetin adı «Əkinçi» olacaq, nəşrinə 1873-cü ilin sentyabrından başlanacaqdır. Bu ərizənin surəti Gürcüstan MDTA-nin 422-ci fondunda saxlanılır (iş 546, vərəq 2).

M.F.Axundov (1812-1878), S.Ə.Şirvani (1835-1888), N.Vəzirov (1854-1926), ləzgi şairi Mirzə Həsən əfəndit Əlqədari (1834-1910), Hacı Seyid Rza Əmirzadə (1848-1908), M.Vəliyev (1835-1892), M.K.Əsgərzadə (1833-1893) «Əkinçi» qəzetində səmərəli fəaliyyət göstərmiş, Azərbaycan maarifçi-realist ədəbiyyatın, pedaqoji fikrin bayrağını parlaq zirvələrə qaldırmış, qiymətli sənət inciləri yazmış və ümumxalq məhəbbəti qazanmışlar.

H.M.Zərdabi yazırdı ki: «Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur». Xalqın maariflənməsinə şərəfli xidmət edən H.M.Zərdabi M.F.Axundovdan sonra ana dili təlimi ideyasını inkişaf etdirmiş, ana dilində dünyəvi məktəblər yaratmağın zəruriliyini əsaslandırmışdır.

H.M.Zərdabi mənalı ömrünün sonuna (1907) kimi maarifin, təhsilin inkişafına səmərəli çalışmış, əməyini əsirgəməmişdir.

Ömrünün 40 ildən artıq bir dövrünü Azərbaycan xalqının səadəti və tərəqqisi uğrunda mübarizəyə həsr edən Həsən bəy Məlikov Zərdabi Azərbaycan ziyalılarının bütöv bir nəslini yetişdirmiş, «Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası» adlandırılmış, ümumxalq hörmətli qazanmışdır.

Həsən bəy Məlikov Zərdabi 1865-ci ildə Moskva Universitetini əla qiymətlə bitirir, 1869-cu il noyabrın 18-də Bakı realnı gimnaziyasına təbiyyat tarixi müəllimi vəzifəsinə təyin edilir.

H.Zərdabi dərs deməklə kifayətlənmir, həm də azərbaycanlı balalarını məktəbə cəlb edir, tələbələrə maddi kömək etmək məqsədilə «xeyriyyə cəmiyyəti» düzəltməyə çalışırdı.

Rusiyanın şəhərlərindən H.M.Zərdabiyə teleqramımlar göndərilir, «Əkinçi» qəzeti «maarifin xəzinəsi» adlandırılır. H.M.Zərdabi 1878-ci ilə kimi Bakı realnı məktəbində işləyir. 1877-ci ildə Rusiya ilə Türkiyə arasında müharibənin başlanması və Dağıstanda baş verən üsyanlar nəticəsində «Əkinçi» üzərində nəzarət gücləndi, Zərdabi «siyasi cəhətcə təhlükəli və etibarsız» elan edilərək gizli və aşkar təqiblərə məruz qaldı.

Nəticədə qəzet bağlanıldı, özü də müəllimlikdən azad edildi. H.M.Zərdabi ömrünün 16 ilini (1880-1896-cı illər) Zərdab kəndində keçirmiş, 1896-cı ildə Bakıya gəlib «Kaspi» qəzetində əməkdaşlıq etmiş, 1897-ci ildən ömrünün sonuna kimi şəhər dumasında məktəb komissiyasının daimi üzvü olub, bu sahədə səmərəli fəaliyyətini davam etdirmişdir.

Dünyya şöhrətli mütəfəkkir Həsən bəy Məlikov Zərdabi 1907-ci il noyabr ayının 28-də vəfat etmişdir.

H.M.Zərdabinin arvadı Hənifə xanım Məlikova 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin yüz minlərlə manat xərc edib Bakıda açdırdığı «Bakı Azərbaycan qız məktəbi»nin ilk müdiri olmuşdur. Məktəbin Azərbaycan dili müəllimi Şəfiqə Şeyxzadə Hənifə xanımla səmərəli işləmişdir. Məktəb ilk dəfə 34 nəfər şagirdlə işə başlamışdı. 1902-ci ildə məktəbdə 71 nəfər şagird var idi.



H.Zərdabi başda olmaqla «Əkinçi» qəzeti və onun mütərəqqi müxbirləri M.F.Axundovun ideyalarını inkişaf etdirərək öz məqalələrində «elm əbdanı», «elm ədyandan», dünyəvi elmlərin öyrənilməsini ilahiyyatçılıqdan ayırmağı tələb edir, mövcud məktəblərdə dünyəvi elmlərin tədris edilməsini təbliğ edirdilər.

«Əkinçi»nin açdığı mübahisələrdə H.Zərdabi ilə yanaşı N.Vəzirov, Əhsənül Qəvaid, Ələkbər Heydəri, Zaqafqaziya şeyxülislamı axunda Əhməd Hüseynzadə, Məhbus Dərbəndi və başqaları yaxından iştirak edirdilər.

H.M.Zərdabi şərəfli fəaliyyətində dünyəvi elmlərin əhəmiyyətini və onun gənc nəslə çatdırılmasını əsas problem hesab etmişdir. Ona görə ki, gənc nəslin elmlərin öyrənməsinə böyük ehtiyacı vardır. Bu ehtiyacı ödəmək ziyalıların, müəllimlərin vətəndaşlıq borcudur.

Mirzə Fətəli Axundov H.M.Zərdabiyə yazdığı və «Əkinçi» qəzetinin 1877-ci il ikinci nömrəsində dərc edilən məktubunda üç problemin, yəni xalq məktəblərinin, xalq müəllimlərinin, ana dilində məktəbin və dərs kitablarının olmamasını göstərir, həm də bu problemlərin təcili həll edilməsinə köməyini arzulayır.

H.Zərdabinin ardınca «Əkinçi» qəzetinin fəal müxbirlərindən olan N.Vəzirov, S.Ə.Şirvani və başqaları da ana dilli məktəb, dünyəvi elmlərin öyrədilməsi ideyasını müdafiə edirdilər. Ümumiyyətlə, görkəmli maarif xadimlərinin ideyaları dünyəvi mahiyyət daşıyır və dövrün əsas problemləri kimi həll edilməsinin zəruriliyi göstərilir.

H.Zərdabi fiziki tərbiyəni insan şəxsiyyətinin ahəngdar inkişafının zəruri şərtlərindən biri hesab edirdi. Onun «Yer, su, hava» adlı dərsliyində də fiziki tərbiyədə tibbi amillərdən düzgün istifadə edilməsinin əhəmiyyəti geniş şərh edilmişdir.

H.M.Zərdabi o dövrün rus ictimai həyatındakı ideyasını, keçən əsrin 60-cı illərində Rusiyada başlanan mütərəqqi pedaqoji hərəkatın tələb və nailiyyətlərini yaradıcı surətdə Azərbaycana tətbiq edir və həyata keçirirdi.

H.M.Zərdabi 60-cı illərin görkəmli maarif xadimlərinin təhsil haqqındakı ideyalarını Azərbaycanda yayır və səmərəli şəkildə təbliğ edirdi. H.M.Zərdabinin təlim-tərbiyəvi ideyası həmişə Azərbaycan pedaqoji fikrini zənginləşdirmişdir.

H.M.Zərdabinin dəfn mərasimi ümumxalq matəminə çevrilmiş, «Millətin mənəvi atası», «Yetim qalmış millətin yası»,

«Yetim qalmış millət böyük atası ilə vidalaşır» kimi kəlamlar dillər əzbəri olmuş, 40 il Azərbaycan xalqının mənəvi inkişafına atalıq etmiş H.M.Zərdabi ümumxalq məhəbbəti qazanmışdır. H.M.Zərdabi «Əkinçi» qəzetinin səhifələrində yetişdirdiyi Azərbaycan maarifçiləri ilə əbədi yaşamış, yaşayır və yaşayacaqdır!.

M.F.Axundovla başlanan yeni Azərbaycan mədəniyyətinin yaradıcılarından biri olan H.M.Zərdabinin həyat yolu vətəndaşlıq salnaməsidir. H.M.Zərdabi M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı və S.Vurğunla birlikdə nəsillərin təfəkküründə əbədi yaşayacaqdır. Ona görə ki, H.M.Zərdabi öz şəxsi səadətini xalqın səadətinə qurban vermiş, xalqını sonsuz məhəbbətlə sevmiş, böyük xoşbəxtlik və misilsiz sərvət qazanmışdır.

Azərbaycan ədəbiyyatı, mədəniyyəti, maarifi, publisistikası, təhsili, məktəbləri, dərs vəsaitləri sahəsində səmərəli fəaliyyət göstərən elm xadimi Həsən bəy Məlikov Zərdabi Azərbaycanda təhsilin əməkdar xadimidir, əbədiyaşar mütəfəkkirdir. Tarixi həqiqətdir ki, böyük sənətkarlar vəfat etmir, dünyasını dəyişir və sevilərək ölümsüzlüyün parlaq zirvəsinə yüksəlir, əbədi yaşayırlar. Həsən bəy Məlikov Zərdabi də ölümsüzlüyün parlaq zirvəsində əbədi yaşayır.



## ALEKSEY OSİPOVİÇ ÇERNYAYEVSKİ (1840-1894)

Görkəmli maarif xadimi Aleksey Osipoviç Çernyayevski Azərbaycanda dərsliklər müəllifi, təhsilin pulsuz və kütləvi aparılmasının təşkilatçısı, kəndlilərin uşaqlarına qayğısı nəticəsində ümumxalq məhəbbəti qazanmış mahir müəllimdir.

Aleksey Osipoviç Çernyayevski 1840-cı ildə Şamaxıda anadan olmuşdur. O, uşaqlıq və gənclik illərini Şamaxının dilbər guşəsində keçirmiş, vətənpərvər, əməksevər, çox qabiliyyətli, tələbkar və qayğıkeş gənc kimi böyümüşdür.

Aleksey Osipoviç Çernyayevski Şamaxı qəza məktəbində ilk təhsilini almış, müəllimlərinin tapşırıqlarını ləyaqətlə yerinə yetirmiş, bədii ədəbiyyatı həvəslə mütaliə etmiş, xüsusilə görkəmli pedaqoq K.D.Uşinskinin zəngin pedaqoji irsini çox sevmiş, oxumuş və şüurlu şəkildə dərk emişdir.

A.O.Çernyayevski Şamaxı qəza məktəbini bitirdikdən sonra Mərəzə kəndində stansiya nəzarətçisi vəzifəsinə təyin edilmiş və çox səmərəli işləyib kənd əhalisinin hörmətini qazanmışdır.

Bakı qubernatoru M.P.Kolyubakinin təşəbbüsü ilə 1866-cı ildə Mərəzə kəndində ilk xalq məktəbi təsis edilir. Ancaq müəllim kadrları tapmaq çox çətin olur. Uzun müddətli axtarışdan sonra Mərəzə kəndində stansiya nəzarətçisi A.O.Çernyayevski müəllimlik vəzifəsini pulsuz olaraq öz öhtəsinə götürür. Məktəbdə səmərəli fəaliyyətə başlayır. Məktəbi lazım olan əşyalarla təmin etməyə, uşaqların oxuması üçün əlverişli şərait yaratmağı qarşısına məqsəd qoyur və çox məsuliyyətli çalışır.

1867-ci ilin mart ayında Qafqaz Təhsil Dairəsinin popeçiteli Y.Neverov Şamaxıya gəlir və Mərəzə kəndindəki məktəbə gedib onun işi ilə ciddi tanış olur. Məktəbin müəllimi A.O.Çernyayevski ilə görüşür, məktəbdə aparılan iş ona yaxşı təsir edir.

Popeçitel Y.Neverov illik hesabatında Qafqaz canişininə bu məlumat verir: «General-leytenant M.P.Kolyubakin malakan kəndi olan Mərəzədə məktəb təşkil etdikdən sonra, müəllim olmadığından onu idarə etməyi həmin kənddə stansiya nəzarətçisi işləyən A.O.Çernyayevskiyə həvalə etdi. Şamaxı qəza məktəbində oxumuş 23-24 yaşlı gənc A.O.Çernyayevski məktəbdə təlim işini pulsuz aparmağı öz öhtəsinə götürdü».

Şamaxının kəndlərində oğlanlarla qızlar bir qayda olaraq ayrı təhsil alırdılar. Ancaq Mərəzə məktəbində oğlanlarla qızlar bir yerdə oxuyur, bir yerdə təhsil alırdılar. A.O.Çernyayevskinin xüsusi pedaqoji təhsili olmamasına baxmayaraq, tədris işini səmərəli təşkil etmişdi. A.O.Çernyayevskinin məktəbi Qafqaz Təhsil Dairəsinə tabe olan dövlət ibtidai məktəblərindən çox-çox yüksəklərdə dururdu. Bu da onun pedaqoji işə həvəsi, təmənnasız olaraq ürəklə çalışmasından irəli gəlirdi.

Akademik Hüseyn Əhmədov «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» (2001) adlı dərs vəsaitində yazır: «A.O.Çernyayevskinin məktəbinin şöhrət qazanması onun xalq kütləsinə yaxınlığı, təhsilin pulsuz və kütləvi olması ilə əlaqədar idi. Dövlət məktəblərindən fərqli olaraq, burada yalnız kəndlilərin uşaqları oxuyurdu. Məktəbdə fiziki cəza yox idi. Orada rus dilində oxu və yazı, hesab tədris edilir, coğrafiya və təbiyyatdan ilkin məlumat verilirdi. Təlim əyanilik prinsipinə əsaslanırdı. Təlimdə əsas yeri mexaniki əzbərləmə deyil, şüurlu mənimsəmə tuturdu».

Z.Mehdizadə «A.O.Çernyayevskinin həyatı və pedaqoji fəaliyyəti» (1983) adlı monorafiyasında onun mühiti, dövrü, həyatı, əmək və pedaqoji fəaliyyəti haqqında ətraflı məlumat verir, hadisələri tarixilik, elmilik, pedaqoji prinsiplər əsasında ətraflı şərh edir və qısa nəticələrlə yekunlaşdırır. Buna görə də A.O.Çernyayevskinin pedaqoji fəaliyyətindən qısa bəhs etməyi faydalı hesab etdik.

A.O.Çernyayevski valideynlərin köməyi ilə Mərəzə məktəbinin yenidən plan əsasında tikilməsinə və təhsil şəraiti üçün lazım olan işlərin bərpasına nail olur. məktəbdə zəngin kitabxana yaratmaq üçün Bakı, Sumqayıt, Şəki, Gəncə, Qazax və digər şəhər kitabxanalarından, müxtəlif uşaq nəşriyyatlarından müvafiq kitablar toplayır və Mərəzə məktəb kitabxanasını yaradıb şagirdlərin istifadəsinə verir.

1867-ci ildə A.O.Çernyayevski Şamaxı qəza məktəbinin hazırlıq sinfinə müəllim təyin olunur. Mənalı həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr edən A.O.Çernyayevskini 1879-cu ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində açılan Azərbaycan şöbəsinə müfəttiş vəzifəsinə seminariyanın direktoru D.D.Semyonov dəvət edir. A.O.Çernyayevski Azərbaycan şöbəsinin müfəttişi vəzifəsində səmərəli çalışır, İrəvan, Bakı, Gəncə



quberniyalarından tələbə toplayır, şöbənin işinə qayğı göstərir, tələbə və müəllimlərin hörmətini qazanır.

Böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji ideyasını rəhbər tutan A.O.Çernyayevski yazırdı: « İbtidai xalq məktəblərinin canı müəllimdir. Tədris işinin müvəffəqiyyəti ondan asılıdır. O, kənd əhalisinin qaranlıqda qalan kütləsi içərisində maarif pioneridir. Həqiqətən demək lazımdır ki, azərbaycanlı şöbəsi məzunlarının çoxu avam kütləsi içərisinə təhsil işığı gətirmiş və gətirir».

Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsinin müdiri A.O.Çernyayevski «Əlifba» kitabını tərtib etmişdir. Onun «Vətən dili» dərsliyi ilk Azərbaycan dili dərsliyidir. Dərslik səvti üsulla tərtib olunmuşdur. F.Köçərli yazır ki, bu üsulla dərslik ilk dəfə Azərbaycanda çıxmışdır.

«Vətən dili» özündən sonra çıxan əlifba, oxu kitablarına və dərsliklərə örnək olmuşdur. Dərslik iki hissədən ibarətdir. 1880-ci ildə A.O.Çernyayevski seminariyanın Azərbaycan şöbəsinin ibtidai sinif müəllimi Səfərəli bəy Vəlibəyovla «Vətən dili» dərsliyinin ikinci hissəsini tərtib etmişdir. Bu kitabın tərtibində mahir pedaqoq və şair Həsənəli Qaradaği (1850-1929) səmərəli iştirak etmiş və kömək göstərmişdir.

A.O.Çernyayevski böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji ideyalarından bəhrələnərək «Rus dili» adlı dərslik və bu dərsliklərlə işləyən müəllimlər üçün «Rəhbərlik» adlı metodik vəsait də yazmışdır. Ona bu faydalı işdə S.Vəlibəyov yaxından kömək etmişdir.

S.Vəlibəyov yeni üsullu məktəb açılmasında səs üsulunun üstünlüklərini yüksək qiymətləndirmiş və sınaqdan keçirilməsinə kömək etmişdir. Azərbaycanda mütərəqqi görüşlü maarifpərvər ziyalılar XIX əsrin 80-ci illərindən başlayaraq Bakı, Şuşa, Gəncə, Naxçıvan, Şamaxı, Şəki və s. şəhərlərdə ana dilli məktəblər açmaq sahəsində səmərəli fəaliyyət göstərir, bu mütərəqqi ənənəni davam etdirirdilər.

Səfərəli bəy Vəlibəyov 1883-cü ildə Şuşada yay tətili zamanı istirahət edəndə müvəqqəti olsa da bir məktəb açmış və uşaqlara savad öyrətməyə başlamış, xalqın məhəbbətini qazanmışdır. Bu məktəbdə müxtəlif təbəqələrdən iyirmi beş nəfər şagird oxuyurdu.

Səs üsulu ilə tədris aparılan bu məktəbdə Səfərəli bəy Vəlibəyov şagirdlərə savad öyrətməklə kifayətlənmir, həm də yerli

məktəbdarlara səs üsulunun üstünlüyünü izah edir, bu üsulla dərs deməyin əhəmiyyətini əyani şəkildə şərh edib məktəbdarları şüurlu olaraq öyrədirdi.

Bu dövrdə təlimin ərəb və fars dillərində cansıxıcı şəkildə aparılması rədd edildi, Azərbaycan dilində aparılması müəyyənləşdirildi. Təlimin Azərbaycan dilində aparılmasına Səfərəli bəy Vəlibəyov əsas təkan verir və ürəkdən sevinirdi.

1883-cü ildə Səfərəli bəy Vəlibəyov «Qafqaz» qəzetində dərc etdirdiyi məqaləsində «Vətən dili» dərsliyini yüksək qiymətləndirir və göstərirdi ki, «Vətən dili» dərsliyi əsasında gənc nəsl, vətənimizin övladları, uşaqlar həqiqi mənada savad öyrənəcək və tərbiyə alacaqlar.

Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində Azərbaycan şöbəsi 1879-cu ildə açılmış, 1979-cu ildə onun yüz illik tarixi təntənəli qeyd edilmiş, yüksək səviyyədə yubley sessiyası keçirilmişdir.

Qafqaz komitəsinin sədri A.Çernışev 1847-ci ildə Rusiya Xalq Maarif Naziri Uvarova yazmışdır: «Qafqaz ölkəsinə, xüsusilə də yerli dillərə yaxşı bələd olan müəllimlərin olması vacibdir». Buna görə də Tiflis gimnaziyasında yerli millətlərdən olan dövlət təqaüdçülərinin sayını artırmağa və gimnaziyanı bitirənlərin hesabına məktəbləri yerli müəllimlərlə təmin etməyə üstünlük verilirdi.

Qori seminariyasına ilk dəfə otuz iki nəfər qəbul olunur. A.O.Çernyayevski iyirmi dörd nəfər yerlərdən seçib gətirir, səkkiz nəfər isə öz arzusu ilə seminariyaya gəlib oxuyur. Qəbul olunanlar içərisində S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov və b. var idi.

Prof. A.Abdullayev yazır: «A.O.Çernayayevski bu şöbəyə rusca bilən azərbaycanlı tələbələr cəlb etmək üçün İrəvan, Naxçıvan, Şuşa, Şamaxı, Nuxa, Qazax və s. yerlərə gedib, həmin şəhərlərdə «Qorodskoye uçilişe» adlanan məktəblərdən azərbaycanlı uşaqları siyahı üzrə ayırır və seminariyaya qəbul edir. Bu qəbul edilənlər içərisində sonralar Azərbaycanın görkəmli maarif, mədəniyyət və incəsənət işçiləri, istedadlı metodistlər kimi məşhur olan Rəşid bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Firidun bəy Köçərli, Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Süleyman Sani



Axundov, Qafur Rəşid Mirzəzadə, Müslüm Maqomayev və başqaları da vardır».

Azərbaycan müəllimlərinin böyük bir dəstəsi A.O.Çernyayevskidən dərs almışdır. XIX əsrin 80-ci illərindən Azərbaycan xalq maarifi və məktəbin inkişafı üçün əlverişli şərait yarandı. Yerlərdə xalq məktəblər direksiyası təşkil edildi, Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində azərbaycanlı şöbəsi yaradıldı, xalq məktəbləri genişləndi və möhkəmləndi.

Ümumiyyətlə, xalq məktəblərinin təşkili və inkişafında irəliləyiş başladı, ibtidai məktəblər təşkil edildi, ana dili təlimində yeni səs üsulu tətbiqi və nümunə dərslərinin aparılmasına xüsusi diqqət yetirildi.

A.O.Çernyayevski 1893-cü ildə «Qafqaz» qəzetində yazırdı: «Bu şöbədən buraxılan ilk müəllimlər, şöbənin nəzində olan ibtidai məktəb nümunəsində müsəlman kəndlərində düzgün təşkil edilmiş xalq məktəbləri açılmağa başlandı ki, kənd əhalisi içərisində xalq təhsili də məhz bu vaxtdan yayılmağa başladı».

Zaqafqaziya Müəllimlər Seminariyası azərbaycanlılardan müəllim kadrları hazırlanmasında şərəfli tarixi xidmət göstərmiş, görkəmli maarif xadimi Aleksey Osipoviç Çernyayevski bu sahədə səmərəli fəaliyyət ilə parlaq uğurlar qazanmışdır.

Azərbaycan xalq maarifinin inkişafında, xüsusilə kəndlərdə məktəblərin açılmasında, müəllim kadrları və dərsliklərlə təmin olunmasında Aleksey Osipoviç Çernyayevskinin xidməti çox şərəfli olmuş, ona ümumxalq məhəbbəti qazandırmışdır. Onun haqqında tədqiqat əsərləri yazılmış, adı əbədiləşdirilmişdir.

## MƏHƏMMƏDAĞA ŞAHTAXTLI
## (1848-1930)

Məhəmmədağa Sultan oğlu Şahtaxtlı 1848-ci ildə Şərur-Dərələyəz qəzasının (indiki Naxçıvan Muxtar Respublikasının Şərur rayonu) Şahtaxtlı kəndində anadan olmuşdur. İlk təhsilini Naxçıvan şəhər məktəbində almış, sonralar Tiflis gimnaziyasını bitirmişdir.

Ali təhsil almaq məqsədilə Peterburqa getmiş, orada alman dilini öyrənmiş, təhsilini Almaniyanın Leypsiq Universitetində davam etdirmişdir. O, Fransanın məşhur Sorbonna Universitetinin Şərq dilləri fakültəsini bitirmiş, uzun müddət Rusiya və Qərb mətbuatında mühərrirlik etmiş, mühazirələr oxumuş, dövri mətbuatda məqalələr nəşr etdirmişdir.

Bir sıra dilləri, təxminən 12 dili dərindən bilən Məhəmmədağa Şahtaxtlı Parisin elmi və ictimai mühitində böyük hörmət qazanmışdır. Rusiya imperator coğrafiya cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Onun fəaliyyəti Almaniya, Amerika, İran və Türkiyədə çox böyük maraq doğurmuş, ona hörmət qazandırmışdır.

1882-ci ildə «Qafqaz» qəzetinin səhifələrində dərc etdirdiyi silsilə məqalələr onun Azərbaycan xalq maarifi və məktəb təhsilinin vəziyyəti ilə dərindən tanış olduğuna dəlalət edir. O, xalqın maariflənməsi üçün yollar axtarır, ana dilində dərsliklər yazıb nəşr etdirir. Onun dərslikləri çox böyük hörmətlə qarşılanır.

Məhəmmədağa Şahtaxtlının 1906-1907-ci illərdə Tiflisdə nəşr etdirdiyi üç hissədən ibarət «Ana dili» adlı dərslikləri və «təkmilləşmiş» müsəlman əlifbası Azərbaycan ictimai-pedaqoji həyatında mühüm hadisə idi. Bu dərslik pedaqoji-metodik prinsip əsasında yazılmışdır.

Onun 1902-ci ildə nəşr etdirdiyi «Sövti Şərq əlifbası» və 1903-cü ildə nəşr etdirdiyi «Xətti-Məhəmmədağa» adlı əsərləri mövcud ərəb əlifbasını sadələşdirmək yolunda mühüm addım idi.

Nəhayət, 1903-1905-ci illərdə Tiflisdə nəşr etdirdiyi «Şərqi-rus» qəzeti xalqın mədəniyyətə, maarifə qovuşması üçün yollar axtarırdı.

«Sankt-Peterburqskiye vedomosti», «Novoye vremya», «Moskovskiye vedomosti», «Qafqaz», «Kaspi» və dijər qəzetlərlə əməkdaşlıq edən Məhəmmədağa Şahtaxtlının məqalələrində mərkəzi ideya, əsas qayə gənclərin təlimi və tərbiyəsi məsələsi idi. Gənc nəslin vətənpərvər və bilikli olması dövrün əsas tələbi idi.



Ensiklopedik biliyə malik olan Məhəmmədağa Şahtaxtlı demokratik maarifçilik mövqeyindən çıxış edirdi. Ona görə ki, görkəmli maarif xadimi idi.

Məhəmmədağa Şahtaxtlı «Şərqi-rus» qəzetinin məqsədini belə izah edirdi: «Məsləkimizi hər kəs bilir: Məsləkimiz məmləkətimizin mədəniyyətinə xidmət etməkdir». Başqa bir yerdə isə gənclərə müraciətlə yazırdı: «Elmin dalınca gedin. Elm insanı irəli aparır».

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Məhəmmədağa Şahtaxtlı bir müddət Azərbaycan Dövlət Universitetində professor vəzifəsində çalışmış, səmərəli fəaliyyət göstərmişdir. Xalq maarifi və mədəniyyətinin yüksəlməsində onun böyük xidmətləri olmuş, təhsilin ana dilində aparılmasına çalışmışdır.

Ümumiyyətlə, M.Şahtaxtlının, maarifçilik ideyası və pedaqoji fəaliyyəti Azərbaycan məktəbi və pedaqoji inkişafı tarixində əhəmiyyətli rol oynamışdır.

M.F.Axundov və H.Zərdabinin müasiri, görkəmli yazıçı və jurnalist, ömrünün 50 ildən çoxunu xalq maarifi, məktəb və milli mətbuat məsələlərinə həsr edən Məhəmmədağa Şahtaxtlının pedaqoji irsində təhsilin ana dilində aparılması fikri mərkəzi yerlərdən birini tutur.

Ana dilinin təlim roluna ayrıca əhəmiyyət verən Məhəmmədağa Şahtaxtlı təhsilin yalnız və yalnız ana dilində aparılmasını zəruri hesab edirdi. O, yazırdı ki, «İbtidai məktəb yalnız təhsilin ana dilində apardığı zaman yaxşı nəticə verər». O göstərirdi ki, məktəbdə verilən elmi-biliklərlə tanışlıq üçün ana dili çox mühüm vasitədir. Ana dili şagirdə məlum olduğundan, şagird ana dili vasitəsilə birbaşa təlimin məzmunu ilə tanış olmağa, ona yiyələnməyə başlayır.

M.Şahtaxtlı təlimin xarici dillərdə aparılmasını böyük qüsur hesab edirdi. O, yazırdı: «Tədrisin xarici dildə aparılması isə ayrı şeydir. Burada müəllim əvvəlcə şagirdləri özünün fikrini anlamağa, sonra isə dərsliklərdə olan elmi biliklərlə tanış olmağa hazırlamalıdır. Şagirdin xarici dildə mənimsəməyi bacarması və müəllimin sualına həqiqi cəldliklə cavab verməsi üçün o, ona yad olan dili əsaslı surətdə bilməlidir.

Bunun üçün, yəni başqa dildə fikirləşmək qabiliyyəti eldə etmək üçün isə minlərlə söz, çoxlu qrammatik qaydalar öyrənmək,

fikri xarici dil ilə əvəz etmək üzərində uzun vaxt çalışmaq lazımdır». Bu göstərilən problemin həllinə yalnız təlim keçilən dildə uzun zaman şifahi çalışmalar aparmaq yolu ilə nail olmaq olar. Ancaq təlimin ana dilində aparılması zəruri vəzifədir.

M.Şahtaxtlı göstərir ki, ibtidai savad məktəblərin-də şagird ana dilinə yad olan bir dilin sözlərini yalnız sinifdə müəllimdən eşidir və heç-vaxt müəllimin dilini düzgün başa düşə bilmir. Buna görə də ona kifayət qədər məlum olmayan priyomlarla verilən elmi bilikləri də düzgün mənimsəyə bilmir.

Beləliklə, məktəb illəri gəlib keçir, şagird ona yad olan dili pis mənimsəyir və məktəbi tərk edir. Təhsilin xarici dillərdə aparılmasının zərərini sübut edən Şahtaxtlı «ibtidai təhsil ana dilində olmalıdır» ideyasını geniş təbliğ edir və bu sahədə səmərəli çalışırdı.

M.Şahtaxtlı düzgün təşkil edilmiş məktəbin ana dili məktəbi üçün lazım olan şərtlərini də müəyyən edirdi. O, Avropa qaydasında məqsədə uyğun təşkil edilmiş Azərbaycan məktəbi üçün ana dilində dərsliklər tərtib etməyi, ilk növbədə isə müvafiq rus məktəblərində istifadə edilən dərslikləri ana dilinə tərcümə etməyi təklif edirdi.

Məhəmmədağa Şahtaxtlı uşaqlarda oxuya həvəs oyatmaq üçün ancaq ağızlarda gəzən və ictimai həyatını öyrənmək üçün zəngin material olan çoxlu, dərin məzmunlu nağılları, hekayələri, zərbi-məsəlləri, atalar sözlərini, nəsihətləri, aforizmləri və s. toplayıb bunlardan qiraət üçün vəsait tərtib etməyi faydalı hesab edirdi.

O, ana dilinin sərf-nəhvini tərtib etməyi və ümumiyyətlə, ana dilində dərslik və tədris vəsaitləri yaratmağın vacib olduğunu göstərir, belə hesab edirdi ki, şagird ana dilində öz fikirlərini məntiqi ardıcıllıqla şərh etməyi və ona əsaslanmağı bacarmalıdır.

Məhəmmədağa Şahtaxtlı ana dili məktəbi təşkil etmək üçün həm də müəllimin olmasını lazım dilirdi. Bu məqsədlə o, ZMS-yə ümid bağlayırdı. Seminariyada yenicə açılmış azərbaycanlı şöbəsinə işarə edən Şahtaxtlı yazırdı ki, xoşbəxtlikdən hökumət bizə, Zaqafqaziya müsəlmanlarına münasibətində əsrlik prinsipindən, çoxmilyonlu müsəlman əhalisinə qarşı tətbiq edilən prinsipindən - İsmayıl bəy Qutqaşınlının «Rusiya müsəlmanları» adı altında nəşr etdirdiyi kitabçasında göstərdiyi: «Sən vergini ver, mən isə hökmranlıq edəcəm» - prinsipindən azacıq olsa da, geri çəkilməyə başlayır.



İndi hökumət Rusiyadakı müsəlman əhalisinin mənəvi səviyyəsini qaldırmağa az-çox fikir verir. Seminariyada azərbaycanlı şöbəsinin açılması bu tədbirlərdən biri idi. M.Şahtaxtlı yazırdı ki, bu şöbə müsəlmanlara böyük hüsn-rəğbət bəsləyənlərin əlindədir və İrəvan Müəllimlər Seminariyasının məzunlarını da bura əlavə etsək, demək olar ki, müsəlman məktəbləri tamamilə arzu edilən elmi hazırlıqlı xalq müəllimlərinin yeni dəstəsinə malik olacaqdır.

Məhəmmədağa Şahtaxtlının ana dili məktəbənin təşkili üçün irəli sürdüyü üçüncü mühüm məsələ ərəb əlifbasından xilas olmaq idi. O, yazırdı ki, Azərbaycan dilində müvafiq dərsliklərin olması, mollaların pedaqoji təhsil almış xalq müəllimləri ilə əvəz edilməsi də məsələni tamamilə həll etmir. Çünki ərəb əlifbasının qüsurları üzündən ana dili məktəbləri təlim-tərbiyə işinin nəticəsinə görə lazımi səviyyəyə qalxa bilməz. Bununla belə o, əlifba məsələsində nisbətən başqa mövqedə dururdu.

Məhəmmədağa Şahtaxtlı ərəb əlifbasını dəyişdir-məyi bütöv müsəlman aləminin işi hesab edirdi. Bütün müsəlmanlar ərəbcə ibadət etdiklərindən, dualar və Quran ərəb dilində olduğundan o, ərəb əlifbasını bilməyi zəruri hesab edirdi.

Məlum olduğu kimi, M.F.Axundov tərtib etdiyi yeni əlifbanı, heç olmazsa, mövcud olan köhnə əlifba ilə bir sırada tərtib edərək cüzi zəhmətlə öyrənmək fikrini də irəli sürürdü. «Necə ki, rus mülkü əlifbası kilsə əlifbası ilə birlikdə, bir-birinə mane olmadan, eyni xalq tərəfindən yazılır və oxunur».

Məhəmmədağa Şahtaxtlı isə milli sözləri yazmaq üçün əlifba tərtib etməyi, ərəb əlifbasını isə yalnız Quranı və digər kitabları oxumaq üçün saxlamağı təlim işini çətinləşdirən bir iş hesab edirdi. O, deyirdi ki, bu vaxt şagirdlərə iki əlifba öyrətmək lazım gələr ki, bu da işi asanlaşdırmaq əvəzinə daha da mürəkkəbləşdirər. Bununla belə, o, ərəb əlifbasının dəyişdirilməsini lazım bilir və bu işdə Rusiya və Türkiyə hökumətlərinin köməyinə arxalanırdı.

Ana dili məktəbi məsələsində Məhəmmədağa Şahtaxtlının irəli sürdüyü dördüncü mühüm məsələ təlimdə səs üsulunun tətbiqi idi.

Təlimin mahiyyətinə gəlincə, Şahtaxtlı savad təlimini ərəb dilində deyil, ana dilində başlamağı təklif edirdi. O yazırdı: «Məlum olmayan ərəb dilində Quranı oxutmaq şagirdin marağını zəiflədir,

onları oxuduqlarının və tələffüz etdiklərinin məzmununa biganə qoyur».

Digər tərəfdən də o, müsəlmanların mövcud dini şəraitində Quranın tədris planından çıxarılmasını mümkün hesab etmirdi. O, yeganə çıxış yolunu təlimi sadədən, yəni ana dilindən, şagirdlərin anlaq səviyyəsinə uyğun olan Azərbaycan kitablarının oxumasından başlamağı, Quranı isə ikinci və ya üçüncü tədris ilindən başlamağı təklif edirdi. O, belə hesab edirdi ki, təlimin ana dilində olan sadə kitablardan başlanması, şagirdlərdə təlimə həvəsi söndürməz, ana dilində oxunan kitablar təlimə həvəsi artırar.

Avropa və Rusiya məktəb həyatına yaxından bələd olan Məhəmmədağa Şahtaxtlı məktəb təhsilini məktəbdənkənar oxu ilə möhkəmləndirməyi lazım bilir, «məktəb təhsili» sonralar elmi və ədəbi kitabların oxunması ilə möhkəmləndirilməzsə, tezliklə buxarlanar və şagirdin xatirində məktəbə davam etməkdən başqa bir şey qalmaz» - deyirdi.

Ana dili təlimi ideyasının sonrakı inkişafında, xüsusilə də onun təcrübi olaraq həyata keçirilməsi işində S.Ə.Şirvani, M.T.Sidqi, S.M.Qənizadə, S.Vəlibəyov, R.Əfəndiyev, N.Nərimanov, C.Məmmədquluzadə və başqaları səmərəli fəaliyyət göstərdilər. Onlar bir tərəfdən Azərbaycan dilində dərsliklər tərtib edir, bu dərsliklər vasitəsilə ana dilinin yeni üsulla tədrisini yaxşılaşdırır, digər tərəfdən də nəzəri məqalələri ilə ana dilinin təlim və tərbiyəvi rolunu müdafiə və inkişaf etdirirdilər.

Ümumiyyətlə, Məhəmmədağa Şahtaxtlı Azərbaycan marifin, mədəniyyətin, təhsilin inkişafına səmərəli çalışan, faydalı dərsliklər yazan, məşhur «Şərqi-rus» qəzetini yaradan, mənalı ömrünü Vətəninə və xalqına, onun maarif və mədəniyyətinə həsr edən əməkdar maarif xadimi, milyonların qəlbində yaşayan və yaşayacaq mahir pedaqoqdur.



## MƏHƏMMƏD TAĞI SİDQİ
## (1854-1904)

Azərbaycan pedaqoji fikir tarixində görkəmli yer tutan Məhəmməd Tağı Kərbəlayı Səfər oğlu Səfərov mahir pedaqoq, alim, şair, publisist kimi ümumxalq məhəbbəti qazanmış müdrik tarixi şəxsiyyətdir.

"Sidqi" təxəllüsü ilə tanınan Məhəmməd Tağı Səfər oğlu Səfərov 1854-cü il 22 martda Ordubadda anadan olmuşdur. İlk təhsilini molla məktəbində və mədrəsədə almış Məhəmməd Tağı Sidqi çalışqanlığı və mütaliə bacarığı ilə şifahi xalq yaradıcılığını, klassik Azərbaycan ədəbiyyatını və görkəmli dünya mütəfəkkirlərinin əsərlərini, milli və bəşəri dəyərləri səmərəli öyrənmişdir.

Məhəmməd Tağı Sidqi 1892-ci ildə "Əxtər" ("Ulduz") adlı yeni üsulla məktəb açmışdır. O, ana dilində tədrisi dövrün zəruri problemlərindən biri kimi qiymətləndirmişdir. Ana dili, coğrafiya və hesabdan əlyazması şəklində yeni üsulla dərslik tərtib etmiş, dərs deməyə başlamışdır.

Məhəmməd Tağı Sidqinin pedaqoji fəaliyyətindən razı qalan Naxçıvan əhalisi onu Naxçıvana dəvət edir. Məhəmməd Tağı Sidqi Naxçıvana gəlir və 1894-cü ildə Naxçıvanda "Əxtər" məktəbinin quruluşunda "Məktəbi-tərbiyə" adlı dördsinifli bir məktəb açır. Tədris planı tərtib edir, Azərbaycan, rus, fars və ərəb dilləri, coğrafiya, hesab fənlərinin tədrisinə başlayır.

Məktəbin müdiri Məhəmməd Tağı Sidqi 1896-cı ildə məktəbi yeni tikilmiş binaya köçürür. "Məktəbi tərbiyə"də ana dili, fars və ərəb dillərini Sidqi, rus dilini və digər fənləri Qori seminariyasını bitirmiş Ələkbər Süleymanov, şəriət dərslərini isə Hacı Ələsgər Kərimov tədris edirdi.

"Məktəbi-tərbiyə" 1896-cı ildə "Rus-Azərbaycan" məktəbinə çevrilir və xalq məktəblər direksiyasının tabeliyinə keçir. Rəsmi müəllimlik şəhadətnaməsi olmadığına və rus dilini yaxşı bilmədiyinə görə Məhəmməd Tağı Sidqi məktəbin müdirliyindən azad olunur, məktəbin müdiri vəzifəsinə rus dili müəllimi Ələkbər Süleymanov təyin edilir.

Məhəmməd Tağı Sidqinin pedaqoji fəaliyyəti nəticəsində "Rus-Azərbaycan" məktəbi Naxçıvandaşöhrət qazanır, dövlət və

ruhani məktəblərini geridə qoyur, şagirdlərin əksəriyyətini özündə birləşdirir.

Məhəmməd Tağı Sidqi rus ədəbiyyatı və mədəniyyətini öyrənir, tədris və təbliğ edir. A.S.Puşkinin 1899-cu ildə keçirilən 100 illik yubileyi münasibəti ilə Sidqi məruzə edir, məruzənin mətni kitabça şəklində çap olunur.

Məhəmməd Tağı Sidqi məktəbində cəza yox idi, özünün tərtib etdiyi "Ədəb qaydaları" tətbiq olunurdu. Məktəbdə tədris olunan etika dərsləri gözəl təsir bağışlayır, hamını sevindirirdi. Ona görə ki, məktəbdə gözəl nizam-intizam yaradılmışdı.

İrəvan qubernatoru hesabatında yazırdı: "Son vaxtlar müsəlmanlar arasında düzgün təşgil edilmiş məktəb açmaq sahəsində dönüş hiss edilir. Hesabat ilində Naxçıvan şəhərində belə bir düzgün təşgil edilmiş məktəb açılmışdır ki, orada rus dili də məcburi fənn kimi tədris edilir. İstər Ordubad, istərsə də Naxçıvanda bu məktəblərin meydana gəlməsi məscid məktəblərinə böyük zərbə idi".

Zəmanəsinin mahir pedaqoqu Məhəmməd Tağı Sidqi xalqın maariflənməsi uğrunda şərəflə çalışır, məktəblər açır, dərsliklər yazır, tədris proqramları tərtib edir, dərs deyir.

Məhəmməd Tağı Sidqinin zəngin pedaqoji – metodik irsi əlyazmaları arxivində saxlanılır. Təəssüflər olsun ki, o, bu dərsliklərini çap etdirə bilməmişdir.

Ancaq xoşbəxtlikdən bu dərsliklərdən səmərəli istifadə olunmuşdur. Bu baxımdan onun "Nümuneyi - əxlaq", "Coğrafiya xüsusunda məlumati –mücmələ", "Əssərfül – ümmül elm və nəhvi - ərəb", "Ərəb dilinin sərfi – nəhfi", "Tənviri Əfkar və təfhimi - insaniyyət", "Töhfeyi – Bənat, yainki, qızlara hədiyyə," "Qiraəti - fənniyə, "Hifzi – Səhə" kimi dərslikləri arxivdə saxlanılır.

Pedaqogikanı təhsil və tərbiyə haqqında elm dalandıran Sidqinin Azərbaycan dilində ilk dəfə "Pedaqogika" adlı dərslik tərtib etməsi onun pedaqoji elm xadimi və fitri istedada malik mahir pedaqoq olduğunu təsdiqləyir.

Məhəmməd Tağı Sidqi məktəblərdə ana dilinin tədris olunmasını zəruri bilir, müxtəlif dillərin qarışıq tədris edilməsini tənqid atəşinə tutub deyir: "Belə bir dil bu libasa bənzəyir ki, guya pambığı Türküstanda əkilib, ipəyi İranda əyrilib, rəngi Ərəbistanda verilib, üzü Azərbaycanda toxunub, Rusiyada kömrüklənibdir".



XX əsr Azərbaycan mətbuatı və ədəbiyyatı tarixində misilsiz mövqeyi olan "Molla Nəsriddin" (1906-1931) jurnalının redaktoru, görkəmli mütəfəkkir Cəlil Məmmədquluzadə (1869-1932) Məhəmməd tağı Sidqi haqqında xatirəsində yazır: "Ordubadda Sidqinin açdığı məktəb türk balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb olmuşdur. Həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçün də bir darülüfan hesab olunurdu".

Akademik Hüseyn Əhmədov "Azərbaycan məktəb və pedaqoji fikir tarixi " (2001) adlı dərsliyində Məhəmmdə Tağı Sidqinin şərəfli ömürsəlnaməsinin şərhini verir və onu "öz dövrünün yeganə Azərbaycan pedaqoqu" adlandırır.

Zəmanəsinin dahi pedaqoqu Məhəmməd Tağı Sidqi tərtib etdiyi "Qiraət kitabı" dərsliyində yazır: "Təzə əkilən tənəklərə və ağaclara su vermək nə qədər lazım isə, uşaqlara da təlim – tərbiyə kiçiklikdə bir o qədər lazımdır. Dünyada elmin ləzzətini bilmək insan üçün böyük bir səadətdir. Səadət isə bir xəzinədir ki, səy və qeyrət onun açarıdır".

Məhəmməd Tağı Sidqinin «Həkimanə sözlər» dərsliyi qiymətli tədris vəsaitidir. Dərslikdə hikmətamiz həkimanə fikirlər birinci hissədə verilir. İkinci hissədə «Məktəbin daxili rejimi» aydın şərhini tapır.

Üçüncü hissədə isə fars dilində yazılmış «Çahar çiz», yəni «Dörd söz» təhlil olunur. Həmin dörd söz «düz danışmaq», «sirri möhkəm saxlamaq», «həmişə təvazökar olmaq» və «halallıq ilə kəsb etmək» bölmələrindən ibarətdir.

Mahir pedaqoq Məhəmməd Tağı Sidqinin «Nümunəvi-əxlaq və həkimanə sözlər» adı ilə yazdığı dərsliklər zəngin mahiyyətli təlim-tərbiyə mənbəyi və pedaqoji –metodik tədris vəsaitidir.

Cəlil Məmmədquluzadə Məhəmməd Tağı Sidqinin «Əxtər» («Ulduz»), «Tərbiyə», «Qız məktəbi» adlı məktəblərini «yeniyetmə müəllim və ədiblər üçün darülürfan» adlandırmışdır.

Məhəmməd Tağı Sidqinin «Hümuneyi-əxlaq» dərsliyi şagirdlərə gözəl əxlaqi sifətlər tərbiyə etmək və imla yazdırmaq qaydalarını öyrətmək məqsədi daşıyır: «Tərbiyə» məktəbində dərin biliyə və nümunəvi əxlaqa görə şagirdlərə «İmtiyaz vərəqi» (fərqlənmə vərəqi) və «Təşəkkürnamə» verilirdi.

Məhəmməd Tağı Sidqi oğlu Məhəmmədəliyə yazdığı «Nəsihət» şerində oxuyuruq:

Dərsini yaz, oxu, elə əzbər,
Sənə verrəm qələm, kağız, dəftər.
Urusu, farsı, türki, həm ərəbi,
Bunları bilmək artırar ədəbi.

Məhəmməd Tağı Sidqi «Tənviri-əfkar və təfhimi-insaniyyət» əsərində yazır: «İnsanın qədir və şərafətini ədəb, elm, səadət, əmanət və siyanət artırır».

Məhəmməd Tağı Sidqi zahiri bəzək ilə daxili gözəlliyi müqayisə edərək yazır ki, anaların bəzəyi əbədi, tərbiyəli uşaqlardır. Mirzə Ələkbər Sabirin "Anaların bəzəyi" adlı şerində də bu ideya verilir. Seyid Əzim Şirvaninin oğluna nəsihətlərində də bu müqəddəs ideyalar təbliğ olunur, elm və dil öyrənmək zəruri sayılır.

Məhəmməd Tağı Sidqi məktəbi "elm və maarifin, ədəb və mərifətin xəzinə mənbəyi", "cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanı" adlandırır.

Məhəmməd Tağı Sidqinin zəngin bədii və pedaqoji irsində diqətli, itaətli, qeyrətli, çalışqan, ədəbli, tərbiyəli, zirək, nəfsi salamat uşaqlara dərin məhəbbət bəslənilir.

Məhəmməd Tağı Sidqinin yaratdığı "Məktəbi – tərbiyə"nin şagirdləri üçün ədəb qaydaları müasir dövrümüz üçün də əhəmiyyətlidir, faydalıdır, öyrənilməyə layiqdir.

Məhəmməd Tağı Sidqinin Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmaları İnstitutunun arxivində saxlanılan zəngin bədii və pedaqoji – metodik irsini, dərsliklərini, dərs vəsaitlərini diqqətlə araşdırmaq, toplayıb nəşr etdirmək və oxucuların mütaliəsinə vermək müasir dövrümüzün əsas məsələlərindən biridir.

Məhəmməd Tağı Sidqi bu dövrün yeganə pedaqoqudur ki, onun "Seçilmiş əsrləri" çap edilib oxuculara ərməğan verilmişdir. Ancaq onun əlyazmaları bədii və pedaqoji-metodik irsini nəşr etdirmək lazımdır. Ona görə ki, mahir pedaqoq Məhəmməd Tağı Sidqinin arxivindəki materiallar zəngin təlim-tərbiyə xəzinəsidir.



## MİRZƏ ABBAS KƏRBƏLAYİ MİRZƏ ƏLƏKBƏR OĞLU ABBASZADƏ (1860 - 1920)

Mirzə Abbas Kərbəlayi Mirzə Ələkbər oğlu Abbaszadə 1860-cı ildə Gəncədə anadan olmuşdur. Mirzə Abbasın atası Kərbəlayi Mirzə Ələkbər oğlu (1840-1906) dövrünün mütərəqqi görüşlü ziyalılarından biri kimi tanınmış, ərəb, fars və türk dillərini mükəmməl bilən müdərris olmuşdur.

El arasında Kərbəlayi Ələsgərə hörmət əlaməti olaraq Mirzə demişlər. Onun mollaxanada və mədrəsədə bir müdərris kimi fəaliyyəti qədirbilən gəncəliləri həmişə razı salmış, ona ehtiram bəslənmişlər.

Kərbəlayi Mirzə Ələkbər övladlarına böyük qayğı və tələbkarlıqla yanaşmış, onların savadlanmasına çalışmışdır. Onun qadını Xanım ailədə və qohum-qardaş arasında nüfuzlu bir ana kimi hörmət qazanmışdır. Bu mehriban qadın övladlarının tərbiyəsilə ciddi məşğul olmuş, onların ehtimadını doğrultmuşdur.

Kərbəlayi Mirzə Ələkbər oğlanları Mirzə Əli və Mirzə Abbasın, qızı Məşədi Məsmənin ərəb və fars dillərini öyrənməsinə nail olmuşdur. Mirzə Əli Ələkbər oğlu (1857-1943) mədrəsədə ərəb və fars dillərindən dərs demiş, Məşədi Məsmə (1886-1972) "Gəncə xeyriyyə cəmiyyəti"ndə fəaliyyət göstərmiş, anaların savadlı olmasını balaların xoşbəxtliyi hesab etmişdir.

Mirzə Abbas Abbaszadə ərəb və fars dillərini atasından öyrənmişdir, Gəncə mədrəsəsində məşhur müdərrislərdən Mirzə Xəlil Şexzamanov (1873-1920) və Molla Hüseyn Pişnamazzadədən (1844-1921) dərs almış, Şərq dillərini mükəmməl mənimsəmişdir.

Onun İranı, İraqı və Türkiyəni gəzməsi, Təbriz, Bağdad, İstanbul, Tehran kimi mədəniyyət mərkəzlərində olması, Xorasanda və Səmərqənddə oxuması dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

M.A.Abbaszadənin ərəb, fars, rus və türk dillərini mükəmməl bilməsi, klassik ədəbiyyatı mütaliə etməsi onun inkişafına müsbət təsir göstərmişdir. Sədinin "Gülüstan" və "Büstan" əsərlərini, Nizaminin, Xətainin, Füzulinin, A.Bakıxanovun, S.Ə.Şirvaninin ədəbi-bədii irsini oxuması onu hikmətlər aləmi ilə tanış etmişdir.

El arasında mahir müdərris kimi tanınan Mirzə Abbas Abbaszadənin pedaqoji-metodik fəaliyyəti ilə ailə həyatı bir-birini tamamlamışdır. O, həm də tələbkar və qayğıkeş ailə başçısı olmuşdur. Qadını Minə xanım həyatın qayğılarını dərk edən, taleyini təbiətdəki xoş hadisələrlə bağlayan mehriban ana olmuşdur.

Yaşadıqları Ozan məhəlləsində hamının hörmətini qazanmışdır. Bu zəngin hafizəli qadın xalqın mənəvi sərvəti olan bayatıları, laylaları, lətifələri, nağılları, nəğmələri gözəl bilir və balalarına təlqin edirdi.

Lakin istismar dünyasının mürtəce qayda-qanunları onun da həyatını ağırlaşdırır, ev dusdağına çevrirdi. Bu, ali cənab, xeyirxah ana balalarına yüksək əxlaqi keyfiyyətləri laylalar, nəğmələr, oxşamalar əsasında tərbiyə edirdi. Araşdırmalar göstərir ki, insani xüsusiyyətlərin öyrədilməsi nəslin mütərəqqi ənənələri ilə bağlıdır.

Böyük Vətən Müharibəsi illərində Mina xanımın gözünün işığı oğlu Ənvər Abbaszadənin göstərdiyi əfsanəvi qəhrəmanlıq fikrimizi təsdiqləyir. Didaktik mahiyyətli əsərlər yazan Marağalı Əvhədi tərbiyənin rolunu yüksək qiymətləndirir:

Sən nəsil törətmək fikrində olsan,
İsmətsiz qadına evlənmə, dayan.
Övladın yaramaz, ya oğru olar,
Toxum pis əkilsə pis də verər bar.

Marağalı Əvhədiyə görə mənəvi zənginliyə malik olan ata-ananın övladı Vətən və xalq üçün faydalı, ismətli və müdrik böyüyür. Böyük söz sənətkarı göstərir ki, "Şiruyə haram süd əmmişdi, xəncərinə atasını qın etdi, özü də tarixdə cinayətkar kimi nifrət qazandı".[1]

Həyati təhlükələrə məruz qalan Mirzə Abbas Abbaszadə Gəncənin mədrəsələrində, ali məktəblərində, progimnaziyalarında, oğlan və qız gimnaziyalarında ərəb, fars və ana dilində dərs demişdir.

Mirzə Abbas Abbaszadənin gənc nəslə, gələcəyin qurucularına, övladlarına dərin məhəbbəti poeziyasında səmimi verilir:

Oğul gəl, get məktəbə,
Fikir ver hər mətləbə.
Ağlın, kamalın olsun,
Qoşulma biədəblərə.

---

[1] Marağalı Əvhədi. Cami-Cəm. Bakı, 1970, səh. 95.



Ümumxalq məhəbbəti qazanmış və məşhur Mirzə müəllim kimi tanınmış Mirzə Abbas Abbaszadə yalnız dərs deməklə kifayətlənməmiş, qiraət dərsliklərinin, oxu kitablarının yaradılmasında, orijinal və tərcümə nümunələrinin balalara çatdırılmasında səmərəli fəaliyyət göstərmişdir.

Bu baxımdan onun Gəncədə "Cəmiyyəti-xeyriyyə", "Dram cəmiyyəti", "Nəşri-maarif cəmiyyəti", "Mədəni-maarif cəmiyyəti"nin yaradılmasında, fəaliyyət göstərməsində şərəfli əməyi təqdirə layiqdir.

Görkəmli yazıçı və maarif xadimi Mirzə Abbas Abbaszadənin "səadət və tərəqqi qapıları" adlandırdığı bu cəmiyyətlərin işində səmərəli fəaliyyəti onun inkişafına mütərəqqi təsir göstərmiş, onun dünyagörüşünün formalaşmasında əsas amillərdən biri olmuşdur.

Gəncə şəhər məktəbində işləməsi onun rus dilini mükəmməl öyrənməsinə kömək edir. Bu məqsədlə də Tiflisdə Aleksandrovski müəllimlər institutunda xüsusi kurs keçməsi onun pedaqoji fəaliyyətini düzgün istiqamətləndirir, müstəqil metodik fikrin inkişaf yolu ilə yaxından tanış edir.

Gəncə ali ibtidai şəhər məktəbinin ana dili müəllimi Mirzə Abbas Abbaszadə folklora olan dərin məhəbbətini artırır. Xalqın mənəvi sərvətini toplayıb nəşr etdirmək, balaların mütaliəsinə vermək onun arzusuna çevrilir.

Ədəbiyyatşünas-pedaqoq F.Köçərli maarifpərvər yazıçı Abdulla Şaiqə məktublarının birində yazırdı ki, təlim kitabı tərtib etmək çox mühüm və çətin vəzifədir, onu yazmaqda artıq ehtiyat və diqqət lazımdır. "Bu kitabların yoxluğu təlim işlərimizi geriyə salır".[1]

Bu dövrdə şəhər məktəblərindəki ciddi maddi və mənəvi çətinliklər müəllimlərin imkanlarını məhdudlaşdırır, tədris işinin düzgün qurulmasını, əbədi-bədii parçaların, dünyəvi fənnlərin öyrənilməsinə imkan vermirdi.

Mirzə Şəfi Vazeh hikmətlər və nəsihətlərdən ibarət "Müntəxabat"ı (1855), A.O.Çernyayevskinin və S.Vəlibəyovun "Vətən dili" (1883-1888), R.Əfəndiyevin "Uşaq bağçası" (1898),

---

[1] Abdulla Şaiq. Əsərləri, beşinci cild. Bakı, 1978, səh. 402.

"Bəsirətül əftal" (1902), S.Hacıbəyovun "Hədiyə" adlı qiraət dərslikləri çap olunmuş, xeyli təcrübə qazanılmışdır.

F.Köçərli yazırdı: "Bizim əqidəmizə görə, Uşinskinin birinci il "Rodnoye slovo" (Ana dili) dərsliyi rus məktəbləri üçün hansı əhəmiyyətə malikdirsə, Çernyayevskinin "Vətən dili" dərsliyi də azərbaycanlılar üçün elə bir əhəmiyyətə malikdir".[1]

M.A.Abbaszadə qabaqcıl təcrübədən bəhrələnərək qarşısına qiraət dərsliyi yaratmaq məqsədini qoyur. O, 1900-cü ildə Gəncədə Əsgər və Əhməd Hacı Həsənzadə qardaşlarının mətbəəsində "Birinci il. Türk əlifbası" dərsliyini çap etdirir. Kitabın üzərində yazılmışdır: "Tərtib edəni Yelzavetpol şəhər məktəbinin türk dili müəllimi Mirzə Abbas Abbaszadə, Yelzavetpol şəhər məktəbləri üçün dərslik kimi qəbul olunmuşdur".

Dərsliyin ikinci (1907) və üçüncü (1910) nəşri Gəncədə həmin mətbəədə, dördüncü (1913) və "mübtədilər üçün birinci kitab" olan "Əlifba"nın son tamamlanmış beşinci nəşri isə (1914) Bakıda İsabəy Aşurbəylinin "Kaspi" mətbə-əsində çap edilmişdir.

Əlli iki səhifədən ibarət nəfis şəkildə buraxılan bu dərslikdə pedaqoji prinsipin tələbləri əsasən gözlənilmiş, uşaqların yaş və bilik səviyyəsi, qavrama bacarığı nəzərə alınmışdır. Dərslikdə əyaniliyin tələbləri də gözlənilmişdir.

Nəfis şəkildə buraxılan bu dərslik iki hissədən ibarətdir. Dərsliyin "Birinci kitab" adlanan əvvəlinci hissəsində əlifba, hərflərin yazılış qaydalarından nümunələr verilir və hüsnxətt qaydalarına əməl edilir.

Dərsliyin məziyyətlərindən biri əyanilik prinsipinin nəzərə alınması, maraqlı və təsirli nümunələrin verilməsindən ibarətdir. Sözlərin yazılışı (at, ot, şir, şar, durna, qaz, quzu, xoruz və s.) və şəkillər səliqə ilə göstərilir. Dərsliyin bu hissəsində verilən mətnlər uşaqların yaş və bilik səviyyəsinə münasib seçilmişdir.

Bu baxımdan "Çoban və kitab" mətninə diqqət edək: Bir çoban yoldan bir kitab tapdı. Kitabı açdı, oxumaq istədi, bacarmadı. Kitabı yerə qoyub dedi: "Axundu görəndə dil-dil oxuyursan, məni görəndə lal olursan".

Kitabın ikinci hissəsi sadədən-mürəkkəbə prinsipi əsasında tərtib olunmuş, mahir bir maarifpərvər müəllimin yaradıcı süz-

---

[1] F.Köçərli. Seçilmiş əsərləri. Bakı, 1963, səh. 242.



gəncindən keçirilmiş, praktik nümunələr ön plana çəkilmişdir. Müəllif balalara təbiət və cəmiyyət hadisələri haqqında məlumatı canlı və təsirli bədii nümunələr əsasında vermişdir.

Bu baxımdan "Çöl heyvanları", "Çöl quşları", "Ev quşları", "Əti yeyilən quşlar", "Ət yeyən quşlar", "Oxuyan quşlar", "Ölçülü saylar" və s. mətnlər daha səciyyəvidir. Heyvanların, quşların şəkillərinin göstərilməsi, adlarının yazılması haqqında bədii sözün qüdrətilə məlumat verilməsi yaxşı təsir bağışlayır. Belə ki, balaların hafizəsi zənginləşdirilir, heyvanlar və quşların faydalı və faydasız olması haqqında bilikləri dərinləşdirilir.

Dərsliyin məziyyətlərindən biri də nəzm və nəsr nümunələrindən ibarət mətnlərin, maraqlı təmsillərin, atalar sözü və məsəllərin diqqətlə seçilməsindən ibarətdir. Bədii mətinlərin sonunda verilən hikmətli ifadələr məzmun və ideyanın səmərəli mənimsənilməsini əsaslandırır.

Kitabdakı mətnlərə diqqət edək: "Məktəb" şerinin sonunda "Aman, aman övladım! Gözlə batmasın adım" beyti verilmişdir. "Canavar", "Çoban və qurd" mətnlərindən sonra hikmətamiz ifadələr diqqətlə seçilmişdir.

"Qurd tükünü dəyişər, xasiyyətini dəyişməz", "Qurddan çoban olmaz". "Durna və tülkü" təmsilinin sonunda "Nə tökərsən aşına, o da çıxar qaşığına", "Qarı və qardaşları"ndan sonra "Yağışdan çıxdıq, yağmura düşdük", "Ac qarı"dan sonra isə "Artıq tamah baş yarar", "Çox yemək az yeməkdən qoyar".

Dərslikdə R.Əfəndiyevin "Durna", "Qış", "Dörd fəsli" şerləri toplanmışdır. Bu şerlərdə fəsllərin səciyyəsi poetik sözün qüdrətilə açılır, təbiətin füsünkar gözəllikləri aşkarlanır, balalara bədii-estetik zövq aşılanır, onların dil mədəniyyəti, söz ehtiyatı zənginləşdirilir. Şerlərin sonunda verilən tapmacalar, "Yayda yatanı ilan vursun", "Qışda isə gedəni borana düşsün" kimi hikmətamiz ifadələr dərin məna daşıyır.

Bütün məziyyətlərinə görə "Əlifba" dərsliyi yalnız Azərbaycanda deyil, təlim Azərbaycan dilində olan Dilican, Qaraqoyunlu dərəsi, Zəngəzur, Uluxanlı, Vedi, Göyçə, Borçalı, Krım, Orta Asiya məktəblərində belə dərsliyə olan tələbi ödəmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulmasının ilk illərində bu dərslikdən istifadə olunmuş, onun materiallarından yeni dərsliklərə salınmışdır. "Əlifba" dərsliyində materiallar diqqətlə

seçilmiş, təlim-tərbiyəvi mahiyyəti nəzərə alınmış, folklordan, klassik ədəbiyyatdan səciyyəvi didaktik nümunələr götürülmüşdür. Müəllifin pedaqoji-metodik baxımdam ixtisasını mükəmməl bilməsi və qabaqcıl dərsliklərdən faydalanması "Əlifba"nın məziyyətini artırmışdır. Dərsliyin çar məmurları tərəfindən qadağan edilməsi də onun həmin məziyyətlərindən irəli gəlirdi.

Yazıçı-jurnalist Əhməd İsayevin "Hardasan qədim Gəncə" bədii-tarixi araşdırması bu baxımdan qiymətlidir. Onun "Bir bulaq çağlayırdı" kitabında oxuyuruq: "Gəncənin elm və məktəb salnaməsində çoxlu açılmamış səhifələr, naməlum fədailər var... Tarixi araşdırırsan, uzaqlardan elə bil ulduzlar parlayır: neçə-neçə nurlu adamın adı bilinir, özü görünür, sözü eşidilir. Hayıf ki, biz onları az tanıyırıq, az araşdırırıq".

Həmin elm və mədəniyyət fədailərindən biri də maarif xadimi Mirzə Abbas Abbaszadədir. Lenin ordenli əməkdar müəllim Paşa Hüseynovun xatirələrinə diqqət yetirək: "1901-ci ildə ilk dəfə məktəbə getdim. Burada yalnız rus dili tədris olundu, ana dilinə icazə verilmirdi. Sənət məktəbinin müəllimi Mirzə Abbaszadə "Əlifba" kitabını hazırlamışdı. Gözümlə görmüşəm. Haradasa, deyəsən, elə Gəncədə çap da elətdirmişdi.

Müəllimlərdən Məmməd Xəlilov və Mehralıbəy Muradov bax, həmin bu kitabdan istifadə edərək gizli surətdə uşaqlara ana dilini öyrədirdilər. Çar məmurları elə bir iy bilirdilər ki, hədə-qorxu, təqiblər başlanır, dərsin şirin yerində, çantalar, kitab-dəftər göyə sovrulur, müəllimlər dözmür, getməyə məcbur olurdular, Mehralıbəy Muradov və Hacı Kərim Sanılı dözməyib getdilər".

Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, maarifpərvər müəllim Ömər Faiq Nemanzadə (1872-1938) "Xatirələr"ində Gəncə ədəbi mühitinin səciyyəvi xüsusiyyətlərini mənalandıraraq yazır: "Şəhərdə zamana görə gözəl qurulmuş qız-oğlan gimnaziyaları, şəhər məktəbləri vardı. Bunlarda türk tələbəsi yox deyiləcək dərəcədə idi. Bu ulu şəhər daxili, mədəni işlərində olduğu kimi, xarici görünüşündə də ikiyə bölünmüşdü. Gimnaziyalar, şəhər məktəbləri, klublar, teatrlar, mədəni təşkilatlar, cəmiyyət-xeyriyyələr, işıqlı geniş küçələr, təzəliklər... Bu tərəfdə dustaqxanalar, qələlər, məhkəmələr, molla mədrəsələri, seyid mərsiyə otaqları, pir ocaqları istədiyiniz qədər köhnəliklər, qaranlıqlar...



Bu tərəfdə uca və əzəmətli Şah Abbas məscidinin qapı və həyəti... namaza gələn aftafalı möminlərin çoxluğundan görünmür. Burası hər gün, hər saat qarışqa kimi qaynayır, çünki qoca bir millətin müqəddaratı buradda həll olunur. Ulu bir kütlənin mənliyi burada yerlərə sərilir. Cavan, qoca, oxumuş, oxumamış, hamısı burada, yalnız öz yaşayış və səadət ümidini ruhanilərdən diləyir. İştə Nizaminin Vətəni olan Gəncənin 1896-dakı halı".[1]

Bütün varlığı ilə Vətənə və xalqa bağlı olan Mirzə Abbas Abbaszadə belə bir ağır şəraitdə yaşamalı, xalqın balalarını savadlandırmalı olur. Xalqın xoşbəxtliyini maarifdə, savadlanmaqda görən mütəfəkkirlərin vətəndaşlıq amalı mütərəqqi və aydın idi. Onun dünyagörüşünü maarifçilik və azadlıq ideyaları silahlandırmışdır.

Gəncənin maarif fədailərindən M.M.Axundzadə (1875-1923), M.A.Mollazadə (1860-1922), A.T.S. Məhəmmədzadə (1882-1912), Ə.R.Şamçızad (1888-1939), Ə.H.Məhəmmədzadə (1817-1946), A.Əfəndizadə (1856-1925), Şeyxzamanovlar və Pişnamazzadə qardaşları ilə əqidə dostu olması, xeyriyyə cəmiyyətlərində fəal iştirak etməsi Mirzə Abbas Abbaszadəyə gözəl təsir bağışlayır, onun inkişafına əsaslı təkan verir.

M.A.Abbaszadə xalq yaradıcılığı ilə ciddi məşğul olur. Folklor nümunələrini toplayır, balaların mütaliəsinə vermək arzusu ilə yaşayır. Bu məqsədlə 1914-cü ildə Bakıda "Arvad ağısı, bayatı, haxışta, sevgi, layla, qaynana-gəlin sözləri" kitabını çap etdirir. Kitabın titul səhifəsində göstərilir ki, naşiri və yığanı müəllim Mirzə Abbas Abbaszadədir.

Müəllif folklor materiallarını toplayarkən orijinallığa, didaktik mahiyyət daşımasına, rəngarəngliyinə ciddi fikir vermişdir. Kitabdakı bayatılar, laylalar, haxıştalar, nəğmələr, qaynana və gəlin deyişmələri hiss-həyəcan bildirir, ağır məişət həyatını əks etdirir, qəriblik, Vətən və xalq məhəbbətini, xalqın adət və ənənələrini, məişət mərasimlərini təsirli ümumiləşdirir.

Folklorşünas professor Paşa Əfəndiyev "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1981) dərsliyində M.A.Abbaszadənin folklorun toplanması, nəşri və öyrənilməsi tarixində şərəfli əməyini qiymətləndirir. Gənc tədqiqatçı T.Məmmədova "Uşaq folklorunun

[1] Ömər Faiq Nemanzadə. Xatirələrim. Bakı, 1985, səh. 55-56.

toplanması, nəşri və öyrədilməsi tarixindən" adlı məqaləsində M.A.Abbaszadənin fəaliyyətini qeyd edir, onun səmərəli əməyini yüksək qiymətləndirir.

Lakin Mirzə Abbas Abbaszadənin "Qafqazın ərazisini və tayfalarını təsvir edən materiallar" məcmuəsində (SMOMPK) iştirak etməsindən danışılmır. Halbuki bu sahədə onun xidmətləri qeyd olunmalı və folklorla bağlı fəaliyyətində məcmuənin müsbət təsiri göstərilməli idi.

Həmin məcmuədə (1881-1914) Azərbaycan folklorunun toplanması, nəşri və öyrənilməsi sahəsində çox xeyirxah işlər görülmüşdür. Məlumdur ki, Zaqafqaziya müəllimlər seminariyasının (Qori Seminariyasının) azərbaycanlı tələbələri bu sahədə fəal çalışmış, müəllimləri onlara düzgün istiqamət vermiş və nəhayət, Azərbaycan şifahi xalq yaradıcılığının bir çox nümunələri toplanmış, nəşr edilib öyrənilmişdir.

Azərbaycanda zəngin mərasim nəgmələrinin yaradılması və xalqın dillər əzbəri olması məlumdur. Belə ki, el qəhrəmanları, adlı-sanlı adamlar, mübariz cavanlar vəfat edəndə onların haqqında əvvəlcə tərifnamələr söyləyir, ürək yanğısı ilə mərhumun qəhrəmanlığından, igidliyindən, qoçaqlığından danışır, nəhayət, kədərli, qəmli matəm havasını oxuyardılar.

İndi də onun izləri bir sıra yerlərdə qalmaqdadır. Məhz həmin mərasim nəğmələrinin toplanması, nəşri və öyrədilməsi ilə Mirzə Abbas Abbaszadə də bir müəllim kimi məşğul olmuşdur.

Mirzə Abbas Abbaszadənin kitabından götürülmüş nümunəyə diqqət yetirək: "Açılmayan tüfəngin, siyrilməyən xəncərin öz canına qurban! Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın, saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun, altının bədöv atına, çiyninin süzən tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli sözünə anan qurban!...".

Kitabda toplanan ağılar, bayatılar, haxıştalar, mahnılar, sevgi haqqında nəğmələr, laylalar, qaynana və gəlinlərin dilindən söylənilən maraqlı və hikmətamiz poetik nümunələr əsasən müasir dövrümüzdə belə öz əhəmiyyətini itirməmiş, bir sıra folklor antologiyalarının, müntəxabatlarının, topluların bəzəyinə çevrilmişdir. Səbəbi isə didaktik mahiyyət daşıması və əxlaqi keyfiyyətlər aşılanmasından ibarətdir.



Kitabın yenidən çap olunması Azərbaycan şifahi xalq yaradıcılığı və uşaq ədəbiyyatı üçün yaxşı hədiyyə olardı. Ona görə ki, kitabdakı folklor nümunələri müasir dövrümüz üçün də əhəmiyyətlidir. Təsadüfi deyil ki, bu kitab 1918-ci ildə ikinci dəfə Bakıda "Məktəb"in elektrik mətbəəsində "Sərbəst imla ilə arvad ağısı" qeydi ilə çap olunmuşdur. Müəllif kitabın üzərində yenidən xeyli işləmişdir.

Mirzə Abbas Abbaszadə "İrşad" (1905-1908), "Həyat" (1905-1906), "Tərəqqi" (1908-1909), "Yeni irşad" (1911-1912), "İqbal" (1912-1915), "Yeni iqbal" (1915-1917) və s. qəzetlərdə müxtəlif imzalarla, o cümlədən "Mirzə", "Mirzəzadə", "Mirzə Abbas", "Abbas Abbaszadə", M.Abbaszadə", "M.A.Abbaszadə", "Abbas Mirzəzadə", "Gəncəli", "A.Gəncəli", "M.Gəncəli" və s. imzalarla çıxış etmişdir.

Onun "Dəbistan" (1906-1908), "Rəhbər"(1906-1907), "Məktəb"(1911-1920) adlı uşaq jurnallarında iştirakı haqqında araşdırmaların aparılması da Gəncə ədəbi mühitinin öyrənilməsi üçün əhəmiyyətlidir. Yaxşı olardı ki, bu məqalələr ayrıca kitab şəklində çap olunub oxuculara hədiyyə veriləydi.

Azərbaycan müəllimlərinin birinci qurultayında fəal iştirak edən Mirzə Abbas Abbaszadə ikinci qurultayın (1907) Gəncədə keçirilməsi uğrunda M.A.Axundzadə (1875-1923), F.Ağazadə (1880-1931), M.A.Mollazadə (1860-1922), A.T.Sur Məhəmmədzadə (1882-1912), M.H.Pişnamazzadə (1847-1921), M.İ.Şeyxzamanov (1856-1925), H.H.Rəfibəyli (1850-1920) kimi maarifpərvər müəllimlərlə birlikdə fəal mübarizə aparmışdır.

Doğrudur, Gəncə ziyalıları bu işdə ciddi çalışdılar, çox məsuliyyətli hazırlıq gördülər. Lakin Qafqaz canişinliyi qurultayın Gəncədə keçirilməsinə razılıq vermədi. Ancaq Gəncə ziyalıları ikinci qurultayda fəal iştirak etdilər. Hətta, qurultaydan sonra M.A.Abbaszadənin "Əlifba", M.A.Mollazadənin "Türk dili və yaxud türkcə qiraət" dərslikləri Gəncədə çap olundu.

Maarif fədaisi M.A.Abbaszadə yalnız ana dilində qiraət dərslikləri yaratmaqla kifayətlənməmiş, fars dilində də qiraət, oxu kitabı tırtib etmiş, balaların qiraətə olan tələbini ödəməyi özünə mənəvi borc bilmişdir.

Bu baxımdan 1909-cu ildə Gəncədə Həsənzadə qardaşlarının mətbəəsində çap etdirdiyi "Qiraəti-farsi" (Farsca-qiraət) dərliyi çox faydalıdır, səmərəli metodik axtarışların məhsuludur.

Kitabın üzərində yazılmışdı: "Təbii üsulla farsca qiraət kitabı. Birinci cild. Ruscadan tərcümə. Mütərcimi Gəncə mədrəsəsinin fars dili və əlifba müəllimi Mirzə Abbas Abbaszadə. Müsəhhihi Gəncənin vitse-konsulu Ağamirzə İsaq xan. Birinci çapı. Gəncə mədrəsəsinin proqramı əsasında tətrib olunmuş, mədrəsənin müəllim heyəti tərəfindən təsdiq edilmişdir. Naşiri Mirzə Məhəmməd Əlizadə, Gəncə, 1909. Kitab gəncə mədrəsəsinin kitabxanasında satılır".

Kitabdakı mətnlər sadədən mürəkkəbə, asandan çətinə prinsipi əsasında verilmiş, dərsliyin tələbləri əsasən gözlənilmişdir. Dərslik çap olunan qiraət kitablarının, xüsusilə böyük rus pedaqoqu K.D.Uşinskinin dərsliklərinin əsasında tərtib olunmuşdur. Mətnlər Azərbaycan həyatına uyğunlaşdırılmışdır.

Kitabda iyirmi yeddi mətn verilmişdir. Bu mətnlərin verilməsində iki əsas məqsəd qarşıya qoyulmuşdur. Bunlardan biri balaların fars dilini öyrənməsi, digəri isə onların bədii mətnlərlə tanış olması, yüksək, əxlaqi keyfiyyətlərə yiyələnməsindən ibarətdir.

"Mənim kitab və dəftərim", "Qardaşlar və bacılar", "Səməd çırağı hazırlayıb yandırır", "Tənbəl və səyli", "Yaxşı və pis şagird", "Həsən və Həmid", "İnsanın bədəni", "Biz nə yeyib, nə içirik" kimi mətnlərdə uşaqlar təbiət aləmi, cəmiyyət hadisələri, məktəb həyatı, elmin və sənətin səmərəsi haqqında maraqlı məlumat alır, dostluq, qardaşlıq və səmimiyyətin mənasını dərk edirlər.

Mətnlərin sonunda verilən suallar, çalışmalar, hikmətamiz nümunələr balaların müstəqilliyinə, yaradıcı fəaliyyətinə, mətnin məzmun və ideyasını dərketməsinə geniş imkan yaradır. Onların düşüncəsini, təfəkkürünü, hafizəsini zənginləşdirir, mütaliəyə marağını artırır.

Təəssüflər olsun ki, hələlik bu qiymətli dərsliyin sonrakı nəşrləri və ikinci hissəsi haqqında arxiv materiallarında heç bir məlumat yoxdur. Aparılan araşdırmalar da, hələlik istənilən nəticəni verməmişdir.

Görkəmli mütəfəkkir Mirzə Abbas Abbaszadənin Gəncə mədrəsəsinin birinci və ikinci şöbələri üçün "Şəriət dərsi" kitabları Gəncədə və Bakıda dəfələrlə çap olunmuşdur. Üzərində müəllifi,



mütəfəkkiri və naşiri Gəncə ali ibtidai şəhər məktəbinin türk dili müəllimi və Gəncə mədrəsəsi müəllimlərindən Mirzə Abbas Abbaszadə yazılmış həmin kitablar 1902-ci ildən başlayaraq Gəncədə və Bakıda dəfələrlə çap olunmuşdur.

Bu kitabların beşinci nəşri 1917-ci ildə Bakıda Orucov qardaşlarının "Elektrik" mətbəəsində buraxılmışdır. "Gəncə müəllimləri tərəfindən qəbul edilmiş" şəriət dərsliklərində folklor nümunələrindən hikmətamiz və nəsihətamiz bədii parçalara üstünlük verilməsi müəllifin mütərəqqi görüşləri ilə əlaqədardır. Keçmiş istismar dünyasının ziddiyyətlərindən yaxasını qurtarmayan kitablarda tərbiyəvi cəhətlər geniş yer tutur.

"Şəriət dərsi" kitablarında müəllifin maarifpərvər əqidəsi, mütərəqqi görüşləri ifadə olunmuşdur. Belə ki, balaların təlim-tərbiyəsinə aid hikmətamiz mahiyyətli nümunələrə üstünlük verilmişdir.

Ümummilli liderimiz heydər Əliyev İslam dininin məktəblərdə tədris olunmasının əhəmiyyətini göstərərək demişdir: "İslam dininin bəşəriyyətə bəxş etdiyi nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir və xüsusən cəmiyyətdə davranışda İslam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Buna görə də İslam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə Təhsil Nazirliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımi tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Heç bir qüvvə bizim dinimizi, inamımızı əlimizdən ala bilməz".

Göstərilən keyfiyyətlər maarifpərvər müəllim M.A.Abbaszadənin balalara yüksək əxlaqi keyfiyyətlər aşılamaq arzu və istəyilə bağlıdır.

Bu baxımdan bəzi bədii mətnlərə diqqət yetirək: "Tənbəl dedi:-Bu gün oynayıram. Səyli dedi:-Bu gün oxuyuram, səhər oynayaram". Başqa bir dialoqda oxuyuruq: "Əli, gəl işlə. Əli:-Başım ağrıyır. Əli, gəl çörək ye. Əli:-Mənim qaşığım hardadır".

Göründüyü kimi, bu kiçik nümunələrdə elmə, sənət öyrənməyə, əməyi sevməyə, çalışqanlığa, halallığa çağırış, tənbəlliyə, pintiliyə nifrət təbliğ olunur. Müəllifin tənbələ nifrət, çalışqana, qoçaqlığa hörmət bəslədiyinin şahidi oluruq.

Qeyd olunan həmin məziyyətlər müəllifin metodik görüşləri, müəllimlik təcrübəsi ilə bağlıdır. Görkəmli şəxsiyyətlər göstərmişlər ki, müəllim bütün qüvvəsini, canını və biliyini şagirdlərə, xalqa verənlərdir.

Mənalı ömrünü xalqın savadlanmasına, gənc nəslin təlim-tərbiyəsinə həsr edən Mirzə Abbas Abbaszadənin ədəbi-pedaqoji fəaliyyətinin iyirmi beş illiyini Gəncənin "Xeyriyyə", "Dram", "Nəşri-maarifi", "Mədəni-maarif" cəmiyyətləri 1919-cu ildə təntənəli qeyd etmişdir.

M.A.Abbaszadənin yubleyi Gəncə maarif və mədəniyyətinə, Gəncə ədəbi-pedaqoji fikrinə sonsuz qaygı və məhəbbətin ifadəsi kimi qiymətləndirilmiş, çox geniş şəkildə keçirilmiş və 1920-ci ildə yekunlaşdırılması nəzərdə tutulmuşdur. Bu yubley haqqında Sankt-Peterburq, İrəvan, Tiflis, Qazax, Baxçasaray, Moskva arxivlərində qiymətli materiallar vardır.

Mirzə Abbas Abbaszadənin yubileyindən yadigar qalmış tarixi sənədlərdə görkəmli, mədəniyyət, ədəbiyyat, incəsənət və dövlət xadimlərinin fotoşəkilləri vardır: Nəriman Nərimanov, Səmədağa Ağaismayıl oğlu, Cəlil Məmmədquluzadə, Əliağa Şıxlınski, Kərimbəy və Səmədbəy Mehmandarovlar, Mirzə Məhəmməd Axundzadə, Hacı Hüseyn Rəfibəyli, Xudadat bəy Rəfibəyli, Pişnamazzadələr, Şeyxzamanovlar, Səmədağa Acalov, Əlimirzə Nərimanov Sənani, Mirzə Əli Qəmərlinski, Məhəmməd Hadi Əbdülsəlimzadə, Hüseyn Cavid, Abbas Səhhət, Firidun bəy Köçərli, Süleyman Sani Axundov, Abdulla Şaiq, Həbibbəy və Mahmudbəy Mahmudbəyovlar, Sultan Məcid Qənizadə, Əli Razi, Hacı Kərim Sanılı, Fərhad Ağazadə, Əli Nəzmi, Mirzə Abbas Mollazadə, Mehralı bəy Muradov, Mirzə Məhəmməd Əlizadə, Akif Əfəndizadə, Məhəmməd Xəlilov və başqaları. Bir həqiqəti də etiraf edək ki, bu fotoşəkillərin çoxunu tanıyıb müəyyənləşdirmək mümkün olmadı.

Yubileydə Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəyov Mirzə Abbaszadənin Vətənə və xalqa xidmətini, şərəfli əbədi-pedaqoji fikrini aşkarlayır, gəncəlilər və qonaqlar adından ona səmimi arzularını bildirir.

Məclisin ünvanına göndərilən təbrikləri görkəmli maarif xadimi İdris Axundzadə oxuyur. Azərbaycan Demokratik Cümhuriy-



yəti adından doktor Həsənbəy Ağayevin və Nəsibbəy Yusifbəyovun təbrik məktubları böyük alqış sədaları altında yubilyara çatdırılır.

Gəncə sənətkarları Mirzə Abbas Abbaszadəyə qızıldan bir medal hədiyyə verirlər. Gəncə xeyriyyə cəmiyyətləri yubilyara qiymətli hədiyyələr bağışlayırlar.

Yubilyarı evindən avtomobildə görkəmli maarif xadimləri Həbibbəy Bağırzadə, İdris Axundzadə, Mirzəcəfər Əsgərzadə və Abdulla Həsənzadə gətirib hörmətlə təqdim etmişdir.

Yubley mərasimində Azərbaycan dilində görkəmli şair Əhməd Cavad, rus dilində müdrik pedaqoq Məmmədəli Əhmədzadə məruzə etmişlər.

M.A.Abbaszadənin yubleyi 1919-cu ilin 23 mayında Gəncənin yay klubunda keçirilmişdir. Ədəbiyyatımızın fitri istedadlı söz ustası Əhməd Cavad 1919-cu ildə 2 iyun tarixli "Azərbaycan" qəzetində "Abbaszadə Mirzə Abbasın yubileyi" adlı maraqlı bir məqalə çap etdirmiş, ədibin mənalı həyat yolunun parlaq səhifələrini aşkarlamışdır:

"Gəncənin göyü indiyə qədər belə bir şən və mükəmməl yubley görməmişdir". Məclisdə dövrün ziyalıları, maarif və mədəniyyət xadimləri, birlik və cəmiyyətlərin nümayəndələri iştirak etmiş, ürək sözlərini söyləmişlər.

Söz mülkünün bayraqdarı Əhməd Cavad məqaləsində yazır: "Mirzə Abbasın əlifba tədrisində aramızda tayı bərabəri yoxdur. Onun "Birinci kitab"ı türk dünyasının birinci əlifbasıdır. "Əlifba" aşiqi bulunan bu müəllim ömrünün 25 ilini yaşadı. Bu yaşamaqda o sənətini və millətini sevdi.

Həmd olsun! Millət bu gün ona təqdir ediyor".

Gəncə ruhani mədrəsəsində, altısinifli şəhər məktəbində dərs deməklə, Mirzə Abbas Abbaszadə kifayətlənmir, dərsliklər, dərs vəsaitləri, şifahi xalq ədəbiyyatı topluları yaratmaqla səmərəli məşğul olur.

M.A.Abbaszadənin "Birinci kitab", "Farsca qiraət", "Şəriət dərsi", "Arvad ağası" kitabları məktəblərdə dərsliyə olan tələbi uzun illər ödəyə bilmişdir.

Mahir pedaqoq Mirzə Abbas Abbaszadənin ədəbi-pedaqoji fəaliyyətini Məhəməd Əmin Rəsulzadə yüksək qiymətləndirir, azadlığın carçısı olduğunu qeyd edərək yazır: "Mirzə Abbas canını

qurban verdi. O, ilk şəhidlərdən biridir. Mirzə Abbas pedaqoji sahədə qiymətdar əməkləri ilə məşhur tanınmış müəllimlərdən olubdur".

Mirzə Abbas Abbaszadə Vətənini və xalqını sevən görkəmli şəxsiyyət, mahir pedaqoq olmuş və xalqın hörmətini qazanmışdır.

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində mahir müdərris, məktəbdar, pedaqoq, rəssam, tərcüməçi, folklorşünas, publisist, xeyriyyəçi, humanist, gözəl insan, zəngin mədəniyyətli, müdrik ata, ailə başçısı, ictimai xadim, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində mahir müdərris, məktəbdar, pedaqoq, rəssam, tərcüməçi, folklorşünas, publisist, xeyriyyəçi, humanist, gözəl insan, zəngin mədəniyyətli, müdrik ata, ailə başçısı, ictimai xadim Mirzə Abbas Abbaszadənin 2000-ci ilin sentyabr ayında anadan olmasının 130, əlifba kitabının nəşr edilməsinin 100 illiyi və Azərbaycanın istiqlaliyyət və azadlığı uğrunda şəhid olmasının 80 illiyi böyük təntənə ilə qeyd olundu. Ədibin "Şəriət dərsi" adlı dərsliyi nəşr edildi, haqqında elmi-metodik məqalələr yazıldı, müqəddəs məzarı və abidəsi üzərinə əklillər qoyuldu. Xalqımız görkəmli oğlunu hörmətlə xatırladı.

Lakin təəsüflər olsun ki, hələ də Mirzə Abbas Abbaszadənin zəngin ədəbi-pedaqoji irsi çap edilib oxucuların mütaliəsinə verilməmişdir.

Görkəmli publisistlər Əhməd İsayev və Sabir Hacıyev Mirzə Abbas Abbaszadənin haqqında qiymətli məqalələr yazmış, faydalı məsləhətlər söyləmiş, bir sıra açılmamış səhifələri aşkarlamışlar.

Bu baxımdan yazıçı jurnalist Əhməd İsayevin gəncəlilərə əbədi hədiyyə verdiyi "Gəncə və gəncəlilər" adlı roman-xronikası ömürlük abidədir. Əslində istedadlı jurnalistin mahir qələminin məhsulu olan "Gəncə və gəncəlilər" elmi-publisist əsərdir, tarixi-bədii salnamədir.

Azərbaycan pedaqoji-ictimai fikir tarixində Mirzə Abbas Abbaszadə şərəfli mövqeyə malikdir.Dünya şöhrətli ümummilli liderimiz Heydər Əliyev iftixarla demişdir: "İlk Azərbaycan Demokratik Respublikasının yaradıcılarını bu gün böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Onlar Azərbaycan xalqının tarixində böyük xidmətlər göstərmişlər və Azərbaycanda ilk dəfə müstəqilliyin, demokratiyanın əsasını qoymuşlar".

Mirzə Abbas Abbaszadə bu xoşbəxt və şərəfli insanlardan biridir. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" (1923) kitabında yazır: "1920-ci ildə Azərbaycanın istiqlaliyyəti naminə Gəncə üsyanında bolşevik-erməni birləşmələrinin qətlə yetirdiyi şəhidlərimizdən biri də müəllim Mirzə Abbas Abbaszadə olmuşdur".



Azərbaycan Ziyalılar Cəmiyyətinin Prezidenti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektoru, akademik Məmmədtağı Cəfərov 17 mart 2001-ci ildə demişdir: "Yaxın və Orta Şərq mədəniyyət mərkəzlərin-dən biri olan Gəncə dünya şöhrətli Nizami və Məhsəti kimi dahi şəxsiyyətlər yetişdirmişdir. Görkəmli ədəbiyyat və mədəniyyət xadimi Mirzə Abbas Abbaszadə Nizami yurdunun əbədiyaşar tarixi şəxsiyyətlərindəndir".

Mirzə Abbas Abbaszadə haqqında ilk məlumatı Moskva, Leninqrad, Kiyev, Minski, Paris, Tiflis, İrəvan, Bakı, Aşqabad, Krım, Basarkeçər, Dilican və s. arxivlərindən cəbhə və əmək veteranı, filologiya və pedaqoji elmləri doktoru, professor Abbas Səmədov toplamış, qəzet, jurnal və kitablarda dərc etdirmiş, onun ailə üzvlərinə, qohumlarına, sevimli nəvəsi Mirzə Abbas müəllimə hədiyyə vermişdir.

Mirzə Abbas Abbaszadə Gəncənin general qubernatoru Xudadat bəy Rəfibəyli, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyli, parlamentin sədri Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədli, Aslan bəy Səfikürdski, Cavad xanın nəticələri İsmayıl bəy Ziyadxanlı və Adil bəy Ziyadxanlı kimi tarixi şəxsiyyətlərlə birlikdə Vətənə və xalqa şərəfli xidmət etmişdir. Mirzə Abbas Abbaszadə göstərilən şərəfli xidmətlərinə görə milyonların qəlbində yaşayır və yaşayacaqdır.

# SƏFƏRƏLİ BƏY VƏLİBƏYOV
## (1861 - 1902)

Səfərəli bəy Vəlibəyov XIX əsr Azərbaycan pedaqoji fikir tarixinin görkəmli simalarından biridir. O, Zaqafqaziya (Qori) müəllimlər seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on doqquz ilini pedaqoji işə sərf etmişdir. Səfərəli bəy Vəlibəyov bu müddətdə onlarla istedadlı gənc yetirmişdir ki, bu gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, Vətənə və xalqa namusla xidmət göstərmişlər.

C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov və bir çox başqaları ibtidai təhsillərini S.Vəlibəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini həmişə minnətdarlıqla yad etmişlər. Onu da qeyd edək ki, S.Vəlibəyov böyük ədib və müəllim S.S.Axundovun doğma dayısıdır.

Səfərəli bəy Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Əvvəllər mollaxanada oxumuş, ərəb və fars dillərini mükəmməl öyrənmiş, 1875-ci ildə Şuşa şəhər məktəbinə daxil olub, 1879-cu ildə həmin məktəbi bitirmişdir. Səfərəli bəy Vəlibəyov Zaqafqaziya (Qori) Müəllimlər seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinə tələbə toplamaq məqsədilə Şuşaya gələn A.O.Çerniyayevski ilə səmərəli söhbət aparmışdır. A.O.Çernyayevski zirək və hazırlıqlı olduğunu görüb, onu seminariyanın ikinci sinfinə qəbul etmişdir.

Seminariya həyatı, buradakı təlim-tərbiyə sistemi başqa seminaristlər kimi S.Vəlibəyovun da mənəvi inkişafına müsbət təsir göstərirdi. Gələcək müəllim təhsilin ilk günlərindən başlayaraq özünü qabil və işgüzar bir gənc kimi göstərir, tədris fənlərinə dərindən yiyələnir, dünya ədəbiyyatı nümunələrini sevə-sevə mütaliə edir, pedaqogika elmi haqqında mükəmməl bilik alır.

Qori Müəllimlər Seminariyası nəzdində bir ibtidai məktəb açılmışdı ki, bu məktəbdə bir tərəfdən şagirdlərə sövti üsull Azərbaycan və rus dillərində dərs deyilir və onlar əsas şöbəy hazırlanırd. Digər tərəfdən də seminariyanın siniflərində oxuya tələbələr üçün təcrübə dərsləri keçirilirdi. Müəllim olmadığına gör bu məktəbi idarə etməyi də əvvəllər öz üzərinə götür



Çerniyayevski sonralar bu vəzifəni tutmağa Səfərəli bəy Vəlibəyovu hazırlamışdı.

1881-ci ildə seminariyanı bitirən Səfərəli bəy Vəlibəyov burada vəzifəsində saxlanılır. 1896-cı ilə qədər bu məktəbdə fəaliyyət göstərir. İbtidai məktəbdə işlədiyi zaman bir tərəfdən burada təhsil alan uşaqları əsas şöbəyə hazırlayır, digər tərəfdən də əsas şöbənin tələbələrinin bu məktəbdə keçirdikləri pedaqoji praktikaya rəhbərlik edirdi.

Səfərəli bəy Vəlibəyov tələbələrin pedaqoji praktikasına çox ciddi yanaşmış və dönə-dönə göstərmişdir ki, gələcək müəllimlərin hazırlığında əsas məsələlərdən biri pedaqogikaya mükəmməl yiyələnməkdən ibarətdir.

Səfərəli bəy Vəlibəyov ancaq bu məktəbdəki fəaliyyəti ilə kifayətlənməmişdir. O, ictimai və pedaqoji fəaliyyətini yay tətili zamanı da davam etdirmişdir.

1883-cü ildə yay tətili zamanı Şuşada istirahət edən Səfərəli bəy Vəlibəyov burada bir məktəb açaraq uşaqlara savad öyrədirdi. Onun məktəbində müxtəlif təbəqələrdən olan iyirmi beş şagird oxuyurdu. Tədris səs üsulu ilə aparılırdı. O, eyni zamanda yerli məktəbdarlara da səs üsulunu izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq göstərirdi. Bu vacib işinə görə o, Qafqaz Təhsil Dairəsi popeçiteli tərəfindən mükafatlandırılmışdır.

Aparılmış tədqiqatlar göstərir ki, Səfərəli bəy Vəlibəyov minariyada ancaq pedaqoji işlə məşğul olmamışdır. O, həm də minariyadaxilində gedən məfkurə mübarizəsində daim fəal iştirak mişdir.Bu tədbirlərdə maraqlı elmi-nəzəri məlumatlar vermişdir.

Məlunmdur ki, XIX əsrin 90-cı illərində Qafqaz təhsil ytatı manlarının bəzi mürtəce başçıları Azərbaycan və gürcü dillərini minariyanın tədris proqramlarından çıxartmağa cəhd edirdilər. na qarşı çıxan A.O.Çernyayevski, Ə.Axundzadə və N.Lomouri barabər S.Vəlibəyov da böyük iş görmüşdür. O, bu mürtəce yasətə qarşı əks mövqe tutmuşdur. Zaqafqaziya Müəllimlər minariyasından azad edilməsinin bir səbəbi də məhz bu məsələdə nsipial mövqe tutması olmuşdur.

S.Vəlibəyov 1896-cı ildə Bakıya köçmüş, burada iki il əllimlik etmişdir. Daha sonra isə Bakı gömrükxanasında ümaçı vəzifəsində işləmişdir.

S.Vəlibəyov 1902-ci ildə avqust ayının 31-də Bakıda vəfat etmişdir.

S.Vəlibəyovun mühüm xidmətlərindən biri də ana dilində dərslik tərtib etməsidir. Onun A.O.Çernyayevski ilə birlikdə 1888-ci ildə nəşr etdirdiyi "Vətən dili"(II hissə) uzun müddət məktəblərdə istifadə edilmişdir.

Səfərəli bəy Vəlibəyov 1888-ci ildə Tiflisdə "Qüdrəti-xuda" adlı kitabını nəşr etdirmişdir. Cəmi 44 səhifədən və 20 qiraət materialından ibarət olan bu kitab sinifdənkənar oxu üçün nəzərdə tutulmuşdur. Burada təbiət, cəmiyyət haqqında səthi anlayış verilir, uşaqlara ağıllı məsləhətlər aşılanırdı.

Səfərəli bəy Vəlibəyov Azərbaycan dilində qamus yaratmağa da ilk təşəbbüs göstərmişdir. O, bu gözəl təşəbbüsə başlamış, lakin məlum olmayan səbəblərə görə onu davam etdirməyə çalışmışlar.

Səfərəli bəy Vəlibəyov "Xəzineyi-əxbar" ("Xəbər-lər xəzinəsi) adlandırdığı bu qamusun I və II hissələrini 1891-ci ildə Tiflisdə çap etdirmişdir. Bu, 240 səhifədən ibarət ensiklopediya tipli kitab idi. Təkcə "A" hərfini və 3000-dən yuxarı istilahı əhatə edən "Xəzineyi-əxbar"da ədəbiyyat, tarix, coğrafiya, etnoqrafiya və s. haqqinda qısa məlumatlar verilir, ayrı-ayrı görkəmli şəxslərin tərcümeyi-halı nəql edilirdi.

Müxtəlif fənnlər üzrə dərsliklərin olmadığı bir vaxtda bu kitab qiymətli bir vasitə olmuş, daha dogrusu, dərslikləri əvəz etmişdir. Səfərəli bəy Vəlibəyov həm də fars məktəbləri üçün sövti üsulla ilk dərslik tərtib edən müəlliflərdən biridir. Səfərəli bəy Vəlibəyov 1896-cı ildə Bakıda "Üsuli-cədidi-lisani-farsi" adı ilə çap olunan bu dərsliyi qabaqcıl rus və Avropa pedaqoji elminin son nailiyyətləri əsasında tərtib etmişdi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdindəki ibtidai məktəbdə on beş il dərs deməsi, A.O.Çernyayevski ilə birlikdə "Vətən dili" dərsliyinin II hissəsini hazırlaması bu kitabın tərtib olunmasında böyük rol oynamışdır. "Üsuli-sədid" 160 səhifədən ibarət olub bir neçə hissəyə bölünürdü. I hissədə uşaqlara sövti üsulla hərflər öyrədilirdi. Kitabın böyük bir hissəsini təşkil edən II hissədə mənzum və mənsur parçalar verilirdi.

Səfərəli bəy Vəlibəyov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tutan məşhur pedaqoq, kamil metodist istedadlı tərbiyəçidir.



XIX əsrin 80-ci illərindən başlayaraq qabaqcıl ziyalıların ana dili məktəbi yaratmaq cəhdləri get-gedə artırdı. Bakı, Şuşa, Naxçıvan, Nuxa, Şamaxı və s. şəhərlərdə görkəmli mütəxəssislər, mütərəqqi maarifçilər ibtidai təhsil verən ana dili məktəbləri açmaqda davam edirdilər.

1883-cü ildə Şuşada Səfərəli bəy Vəlibəyov tərəfindən bir məktəb açıldı. Yay tətili zamanı Şuşada istirahət edən ZMS-in azərbaycanlı şöbəsinin ibtidai məktəb müəllimi S.Vəlibəyov müvəqqəti olsa da, bir məktəb açaraq, uşaqlara savad öyrədirdi.

Onun məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird oxuyurdu. Tədris əsas üsulu ilə aparılırdı. Səfərəli bəy Vəlibəyov şagirdlərə yalnız savad öyrətməklə kifayətlənmirdi. O, eyni zamanda, yerli məktəbdarlara səs üsulunun izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq nümunələr əsasında göstərirdi.

Azərbaycanda başlanan yeni məktəb hərəkatı Zaqafqaziyanın digər şəhərlərinə də təsir edirdi. Bu təsir Tiflis və İrəvan kimi iri şəhərlərdə özünü daha çox göstərir, burada da yeni üsullu məktəblər meydana gəlir, azərbaycanlı uşaqlar məktəbə cəlb edilirdilər.

Belə məktəblərdən biri 1880-ci ildə Tiflisdə hər iki cinsdən olan uşaqlar üçün müsəlman cəmiyyəti tərəfindən açılmışdır. Az sonra 1883-cü ildə "Kəşkül" qəzetinin redaktoru Cəlal Ünsüzadə Qafqaz Təhsil Dairəsinə müraciət edərək Tiflis şəhərinin Meydan sahəsində azərbaycanlı uşaqlar üçün III dərəcəli xüsusi məktəb açmağa rəsmi icazə istəmişdir. İrəvan şəhərində yeni üsulla ana dilli məktəbin meydana gəlməsi də bu illərə təsadüf edir. İrəvanda yeni üsullu məktəb Məşədi Molla İsmayıl Hacı Kazımov (1845-1886) tərəfindən 1882-ci il martın 28-də açıldı. Məktəbə ilk dəfə 14 şagird qəbul olunmuşdur. Onlardan 12-si azərbaycanlı, 2-si isə erməni idi. Məktəbdə ana dili ilə bərabər rus dili və hesab tədris edilirdi. XIX əsrin ikinci yarısında Azərbaycanda və bütün Zaqafqaziyada meydana gələn yeni məktəb hərəkatı tezliklə Cənubi Azərbaycana da yayılmaga başladı.

Zaqafqaziyada başlanan yeni məktəb hərəkatının İran, o cümlədən Azərbaycan maarifinin inkişafına təsiri bəzən xarici mətbuatda kölgədə buraxılır və ya inkar edilirdi. Ancaq o dövrün mətbuatından və son zamanlar aparılan tədqiqatlardan aşkar olunur ki, Zaqafqaziyada başlanan yeni məktəb hərəkatı İran və Cənubi Azərbaycan xalq maarifinin tərəqqisinə əsaslı təsir göstərmişdir.

XIX əsrin ikinci yarısında və sonlarında İran və Zaqafqaziya arasında ticarət və ədəbi əlaqələr mövcud idi. Bu əlaqələr nəticəsində Zaqafqaziyada, o cümlədən Azərbaycanda ana dili məktəbi, xalq maarifi sahəsində başlanmış yeniliklər Cənubi Azərbaycanın mütərəqqi maarifçi-pedaqoqlarının nəzər-diqqətini cəlb edir, onlar əməli təşəbbüs göstərməyə başlayırlar.

Bu sahədə ilk təşəbbüs edənlərdən biri inqilabçı demokrat Mirzə Həsən Rüşdiyyə Təbrizli (1850-1943) olmuşdur. Mütərəqqi təlim-tərbiyə üsullarını İranda yaymağı qarşısına məqsəd qoyan M.H.Rüşdiyyə təlimin yeni üsullarını və məktəb açmaq qaydalarını öyrənmək məqsədi ilə İrandan mühacirət edib Zaqafqaziyaya gəlmişdir. O, xeyli zaman İrəvanda qalmış,pedaqogika elminin yeniliklərini öyrənməyə böyük səy göstərmişdir. Rüşdiyyə təkcə nəzəri məsələlərlə məşğul olmamış, həm də təcrübə aparmaq məqsədilə 1883-cü ildə İrəvanda yeni üsullu bir məktəb açmışdır.

İrandan İrəvana gəlib məktəb açan və onun qaydalarını öyrənənlərdən biri də Rüşdiyyənin böyük qardaşı Axund Mirzə Əli, digəri isə onun həmvətəni olan Mirzə Kazım idi. Onlar İrəvan gimnaziyasında Azərbaycan dili müəllimi vəzifəsində işləyən məşhur pedaqoq F.Köçərlini və metodist Çistyakovun açıq dərslərində iştirak edir, ana dilinin tədrisində yeni üsulu mənimsəyirdilər.

Rüşdiyyə məktəbi İrəvan pedaqoji ictimaiyyətinin rəğbətini qazanmışdır. Hətta məktəblər direksiyası ona mükafat vermiş və maddi yardım göstərmişdir. 1883-1888-ci ilə kimi bu məktəbdə çalışan Rüşdiyyə zəngin pedaqoji təcrübə toplayaraq Təbrizə qayıtmış və həmin ildə "Mədrəsəye-Rüşdiyye" adlı bir məktəb açmışdır. Lakin cahillərin xoşuna gəlməyən bu məktəbi tezliklə bağladılar. Mirzə Həsən Rüşdiyyə 1893-cü ildə Təbrizin "Şeşkilan" məhəlləsində "Rüşdiyye-ye-müzəffəriyyə" adlı başqa bir məktəb açır. Burada savad təlimi ana dilində aparılırdı. "Rüşdiyye-ye-müzəffəriyyə" Səfəvilər dövründən sonra Cənubi Azərbaycanda ilk Azərbaycan məktəbi idi. Bu məktəbin meydana gəlməsi Cənubi Azərbaycan maarifi üçün tarixi bir hadisə idi.

Qısa müddət ərzində "Rüşdiyyə" məktəbi yaxşı metodlu və intizamlı bir məktəb kimi Təbrizdə, eləcə də İranda şöhrət qazanmışdır. 1895-ci ildə "Rüşdiyyə" məktəbi 200-dən çox şagirdə malik idi. Bunların yarıdan çoxu yoxsulların uşaqları olub, pulsuz təhsil alırdı.



Rüşdiyyə məktəbi Cənubi Azərbaycanda yeni məktəb uğrunda mübarizənin başlanğıcına və ruhani məktəblərində islahat aparılmasına səbəb oldu. İranın digər şəhərlərində, o cümlədən Tehranda "Rüşdiyyə" məktəbi nümunəsində yeni tipli məktəblər təsis edildi.

Azərbaycanda başlanan yeni məktəb ideyası ilə bərabər, sövti üsulla dərslik tərtib etmək təcrübəsi də, Cənubi Azərbaycana yayıldı. İrəvan, Tiflis, Şuşa, Şamaxı, Nuxa və Bakının qabaqcıl məktəb və müəllimlərinin nailiyyətləri ilə tanış olan Həsən Rüşdüyyə əldə etdiyi zəngin pedaqoji təcrübəni tətbiq etmiş və bunu Təbrizdə açdığı məktəblərdə təcrübədən keçirmiş, "Vətən dili" adı ilə 1894-cü ildə Təbrizdə nəşr etdirmişdir.

Maraqlıdır ki, M.Ə.Elxanov və A.O.Çernyayevski kimi Mirzə Həsən Rüşdiyyə də öz dərsliyini "Vətən dili" adlandırmış və müəllimlər üçün ayrıca metodiki vəsait tərtib etmişdir.

İran maarifçilərindən olan M.Tərbiyətin yazdığına görə, Mirzə Həsən Rüşdiyyə "Vətən dili" adlı metodik vəsaitində Mirzə Fətəli Axundovun əlifba haqqındakı səmərəli fikirlərindən istifadə etmiş və metodik vəsaitini zənginləşdirmişdir.

Səfərəli bəy Vəlibəyov Azərbaycan maarif və mədəniyyəti tarixində görkəmli və əməkdar mədəniyyət xadimi kimi əbədiyaşar mahir pedaqoqdur.

## MİRZƏ ƏLƏKBƏR SABİR TAHİRZADƏ
## (1862 - 1911)

Azərbaycan ədəbiyyatı, mədəniyyəti, məktəb və pedaqoji fikir tarixində şair-satirik, şair-vətəndaş, şair-pedaqoq kimi Mirzə Ələkbər Sabir Tahirzadənin şərəfli yeri vardır.

Təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə Sabir təxəllüsü ilə tanınan Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə böyük mütəfəkkir, ictimai xadim olmaqla bərabər, həm də gözəl müəllim, tanınmış pedaqoq idi. Özünün orijinal pedaqoji fikirləri ilə Azərbaycan mədəniyyətinin, məktəb təhsilinin, gənclərin humanitar tərbiyəsinin tərəqqisinə çalışmış və parlaq uğurlar qazanmışdır.

M.Ə.Sabir 1862-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Şamaxı ədəbi mühiti ilə bərabər Şirvan pedaqoji mühiti Sabirin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərmişdir.

Sabir ilk təhsilini ənənəvi məktəbdə, molla yanında almış, ərəb və fars dillərini öyrənmişdir. Sonralar o, həmyerlisi S.Ə.Şirvaninin Şamaxıdakı yeni üsullu məktəbində təhsilini davam etdirmişdir. Bu məktəbin üstün cəhətlərindən biri o idi ki, burada ümumtəhsil fənlərilə bərabər, Azərbaycan, rus və fars dilləri də tədris edilirdi. Sabirin şair kimi yetişməsində S.Ə.Şirvaninin, sonralar isə məşhur şair Abbas Səhhətin səmərəli təsiri olmuşdur.

Mirzə Ələkbər Sabir 1885-ci ildə Məşhəd şəhərinə gedir, bir müddət İranı və Orta Asiyanı səyahət edir. Bu dövrdə bir çox görkəmli şəxsiyyətlərlə tanış olur və klassik ədəbiyyatı mütaliə edib öyrənir. Bir tərəfdən 1905-1907-ci illərin inqilabi hərəkatı, digər tərəfdən isə 1906-cı ildə Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşrə başlanması, ilk şerlərinin orada çap edilməsi M.Ə.Sabirin bir satirik kimi formalaşmasına qüvvətli təkan verdi.

Mütəxəssislərin fikrincə, "Molla Nəsrəddin" jurnalının ən görkəmli simalarından biri, daha doğrusu, bu jurnala qarşı əməkçi kütlələrin məhəbbətini və əksinə, zalımların isə kinini qazandıran və başqa sözlə, desək "Molla Nəsrəddin"i "Molla Nəsrəddin" edən simalardan biri, bəlkə də birincisi Mirzə Ələkbər Sabir olmuşdur.

M.Ə.Sabiri "Molla Nəsrəddin" yetişdirmişsə, "Molla Nəsrəddin"i də Mirzə Ələkbər Sabir yüksəklərə qaldırmışdır. M.Ə.Sabir olmasaydı, "Molla Nəsrəddin" belə yüksək nüfuzu qazan



bilməzdi. "Molla Nəsrəddin" jurnalı Mirzə Ələkbər Sabir Tahirzadənin inkişafına çox böyük təkan vermişdir.

M.Ə.Sabir məqalələrində oxucusunun şüuruna çatdırmaq istəyir ki, indi mədəniyyət, elm, ürfan əsridir. O, "zaman nə istəyir?" adlı məqaləsində yazır: "Hər bir dərdin, millətin çarəsinə baxmaq zamanı yetişdi. Əcaba, bizim də dərdimizin çarəsi varmı?".

Mirzə Ələkbər Sabir fikrincə, "Çarəmiz, ən böyük çarəmiz məktəbdir. Məktəb, yenə məktəb! Hər şəhərdə, bacardıqca hər kənddə mütləq məktəb açmalı, övladi-vətəni tərəqqiyə, mədəniyyətə çatdırmalı".

Xalq şairi Mirzə Ələkbər Sabirin uşaqlar üçün yazdığı nəğmələr, mənzum, hekayə və təmsillər öz tərbiyəvi əhəmiyyətini bu gün də saxlayır və müstəqil, suveren Azərbaycan məktəblisinin yüksək ideya-estetik tərbiyəsində mühüm rol oynayır.

Mirzə Ələkbər Sabirin ən böyük arzularından biri gələcək cəmiyyətə layiq həqiqi vətəndaşlar, vətənpərvərlər yetişdirməkdən ibarət olmuş və bu sahədə səmərəli fəaliyyət göstərmişdir.

M.Ə.Sabir uşaqlara xalqın, millətin gələcəyi, ümid çırağı kimi baxırdı. "Ey millətin ümidi, dili-canı uşaqlar!" – deyən şair-pedaqoq gənclərin gələcəyinə inanır, onlara böyük ümid bəsləyirdi.

M.Ə.Sabir hər zaman çox sevdiyi əməkçilərin maariflənməsi, azad, işıqlı dünyaya çıxması arzusu ilə yaşayır və ümidini gələcəyə bağlayırdı. Onun poeziyasında bu müqəddəs arzu bədii ifadəsini tapmışdır.

M.Ə.Sabir qadın azadlığını, qadınların elmli və tərbiyəli ana olmalarını xalqın ümumi azadlığının tərkib hissəsi hesab edir, Fatma və Tükəzbanları elmli, savadlı, təhsilli və tərbiyəli ana dərəcəsinə çatdırmağa çalışırdı. Ömrünün sonuna kimi bu əqidə ilə yaşamışdır.

M.Ə.Sabiri düşündürən, onu narahat edən problemlərdən biri məktəb təhsilli, təhsilin məzmunu, uşaq və gənclərin təlim və tərbiyəsi idi. O, şerlərinin bir çoxunu məhz bu məsələlərə həsr etmiş, dövrünün neqativ hadisələrini satira atəşinə tutmuşdur. Onun satirası çox qüvvətli və əhəmiyyətli olmuşdur.

M.Ə.Sabirin fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də onun özünün məktəb açması, şairliklə yanaşı məktəbdarlıq etməsidir. Məlumdur ki, o, 1908-ci ildə Şamaxı şəhərində "Ümid"adlı yeni üsullu məktəb açır. "Ümid məktəbi" yeni tipli məktəb idi, o zamanlar deyildiyi kimi "Üsuli-cədid" məktəbi idi.

M.Ə.Sabir bu məktəbi son dərəcə ağır bir şəraitdə açmışdı, köhnəpərəstlərin, mollaxana tərəfdarlarının hər cür hücumlarına, hədə-qorxusuna məruz qalsa da, maarifpərvər şair öz yolundan dönməmiş, ürəkdən sevdiyi və gələcəyinə böyük ümidlər bəslədiyi ümumxalq işini əzm və mətanətlə davam etdirmişdir. Bütün bunlara baxmayaraq, "Ümid məktəb"i cahil, avam adamların təziyiqinə davam gətirmir və bir ildən sonra bağlanır.

1910-cu ildə Bakıya gələn M.Ə.Sabir Balaxanıda "Nəşri-marif" xeyriyyə cəmiyyətinin açdığı ibtidai məktəbdə, sonra isə Sabunçuda müəllimlik edir. M.Ə.Sabirin əsas xidmətlərindən biri uşaq ədəbiyyatı ilə bağlı olmuşdur. O, uşaq psixologiyasının incəliklərinə qədər dərindən bələd idi. Şerlərində gənc nəsildə nəcib insani sifətlər tərbiyə etmək onun yeganə arzularından idi. O, bir tərəfdən köhnə üsullu məktəbi tənqid edir, digər tərəfdən isə yeni üsullu məktəblərdə elm öyrənməyin əhəmiyyətini və şərəfli oldugunu təblig edirdi. Onun ideyası həmişə hörmətlə qarşılanır və yayılırdı.

Azərbaycan ədəbiyyatında inqilabi-satirik məktəbin banisi Mirzə Ələkbər Sabir şeirlərinin birində gəncləri yeniliyə, tərəqqiyə, elm oxumaga, maariflənməyə çagırıb deyirdi:

"Elmin izzəti payidar olur,
Cəhlin nikbəti canşikar olur;
Hər kəs elm oxuyur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zəmanıdır1
Oxumaq hər adəmin əbədi nişanıdır!"

Onun məktəblilər üçün yazdığı nəğmələr bu gün də sevilə-sevilə oxunur və təblig edilir. Şairin "Yalançı çoban", "Molla Nəsrəddin və oğru", "Cütçü", "Yaz günləri", "Uşaq və buz", "Ağacların bəhsi" və s. şerləri Azərbaycan uşaq ədəbiyyatının ən nadir incilərindəndir.

M.Ə.Sabir vətəndə böyük xalq kütləsinin hörmətini və məhəbbətini qazanmışdır. O, geniş xalq kütləsi arasında dünyəvi elmlərin yayılmasına çalışır, yetişməkdə olan gənc nəslin təhsili ilə bərabər, tərbiyəsinə də ayrıca əhəmiyyət verir və "Tərbiyə" adlı şerində yazırdı:

"...Tərbiyətlə keçir ümuri-cahan,
Hər işin ibtidaisi tərbiyədir!



Tərbiyət elmsiz deyil məqbul
Ki, onun müqtəzası tərbiyədir!"

Mirzə Ələkbər Sabir təlimin ana dilində aparılmasını, ana dilinin təlim və rərbiyəvi əhəmiyyətini dəyərləndirmişdir.

Azərbaycan ədəbiyyatı tarixində satirik ədəbi məktəbin banisi, «Hophopnamə» adlı poeziya salnaməsinin, təlim-tərbiyəvi, bədii-estetik və yüksək əxlaqi keyfiyyətlərin poeziya çələnginin yaradıcısı, dünyaşöhrətli xalq şairi Mirzə Ələkbər Sabir Tahirzadə yaratdığı zəngin və tərbiyəvi mahiyyətli ədəbi irsi ilə yaşamış və əsrlər boyu yaşayacaq, ümumxalq məhəbbəti qazanacaqdır!

## FİRİDUN BƏY KÖÇƏRLİ
## (1863-1920)

Azərbaycan ədəbiyyatı və pedaqoji fikir tarixində Firidun bəy Köçərli görkəmli ədəbiyyatşünas və maarifpərvər pedaqoq kimi tanınmış, səmərəli fəaliyyət göstərmiş və ümumxalq məhəbbəti qazanmışdır.

Firidun bəy Əhməd bəy oğlu Köçərli 1863-cü il yanvar ayının 26-da Şuşa şəhərində anadan olmuşdur. Firidun bəy Köçərli ibtidai təhsilini Mirzə Kərim Münsizadənin məktəbində almış, 1876-cı ildə atasının arzusu ilə rus məktəbinə daxil olmuş, rus dilini öyrənmişdir.

Görkəmli pedaqoq A.O.Çernyayevski (1840-1894) Zaqafqaziya şəhərlərini gəzir, Qori seminariyasına azərbaycanlı tələbələr toplamağa başlayır. O, Firidun bəy Köçərlini, 1879-cu ildə Qori müəllimlər seminariyasının hazırlıq sinifinə oxumağa qoyur. Firidun bəy Köçərli burada rus dilini, rus ədəbiyyatını mükəmməl öyrənir. Seminariyada əlaçı oxuyur, mədəni tədbirlərdə çox fəal iştirak edir, həmişə mükafatlandırılır.

Firidun bəy Köçərli 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirir və Irəvan gimnaziyasına Azərbaycan dili müəllimi vəzifəsinə təyin edilir. Gimnaziyada gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmağa, pedaqoji fəaliyyətini şərəfli davam etdirməyə başlayır. O, on il İrəvan quberasında müəllim işləyir. 1895-ci ilə kimi işlədiyi bu gimnaziyada A..Puşkin, M.Y.Lermantov və Koltsovun bir sira şerlərini rus dilindən Azərbaycan dilinə tərcümə edir.

Firidun bəy Köçərli Qafqaz Təhsil Dairəsi popeçitelinin 1895-ci il 30 oktyabr tarixli əmrilə Qori Müəllimlər Seminariyasına dəyişdirilmişdir. O, 1895-ci ildə "Novoye Obozreniye" qəzetində "Azərbaycan komediyaları" əsərini çap etdirir. 1903-cü ildə nəşrə başlayan "Şərqi-Rus" qəzetinin nəşrindən razı qalan Firidun bəy Köçərli qəzetdə fəal iştirak edir.

Firidun bəy Köçərli ədəbi-estetik və pedaqoji-metodiki görüşlərinin formalaşmasında rus demokratik pedaqoji fikrindən faydalanmış və inkişaf etmişdir.

Firidun bəy Köçərli 1910-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri vəzifəsinə təyin



edilmişdir. Firidun bəy Köçərli ömür gün yoldaşı Badisəba xanım Vəkilova ilə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini 1918-ci ildə Qazağa köçürmüş, 1920-ci ilin sonuna kimi Qazax Müəllimlər Seminariyasının müdiri vəzifəsində çox səmərəli işləmiş və ümumxalq məhəbbəti qazanmışdır.

Görkəmli ədəbiyyatşünas və maarifpərvər pedaqoq Firidun bəy Əhməd bəy oğlu Köçərli 1920-ci ildə Gəncə şəhərində vəfat etmişdir. F.Köçərlinin əsərləri çap edilmiş, adı əbədiləşdirilmiş, haqqında dissertasiyalar müdafiə olunmuş, faydalı tədqiqat əsərləri yazılmışdır.

Firidun bəy Köçərli ana dilini məktəblərdən çıxartmaq istəyən "maarif" cinovniklərini ifşa etmiş, K.D.Uşinskinin müdrik kəlamlarına sadiq qalmışdır. Uşinski yazmışdır:"Bir millətin malını, dövlətini və hətta Vətənini əlindən alsan ölüb itər, amma dilini alsan fot olar və ondan bir nişan qalmaz".

Firidun bəy Köçərli "Ana dili" məqaləsində yazmışdır: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayesi mənziləsindəndir. Ananın südü bədənin mayesi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və Vətənini sevdiyi kimi, ana dilini də sevir".

Firidun bəy Köçərli mənalı ömrünü xalq maarifinə həsr edən Sultanməcid Qənizadəni "iyirmi beş il xalq maarifi yolunda çalışan maarif xadimi" adlandırır və yazırdı: "Bizim maarif qədri bilməyən avam camaat arasında bu əmri əmələ gətirmək daha böyük hünərdir".

Firidun bəy Köçərli Azərbaycan xalq müəllimlərinin bütöv bir ilkin dəstəsinin tərbiyəçisi, özünün və sevimli müəllimi, Qori Müəllimlər Seminariyasının Azərbaycan Şöbəsinin müdiri Aleksey Osipoviç Çernyayevskinin və görkəmli rus pedaqoqu K.D.Uşinskinin pedaqoji fəaliyyətini yüksək qiymətləndirir, mənalı ömrünü xalqa, Vətənə və gənc nəslin təlim-tərbiyəsinə həsr edən bu dahi pedaqoqları maarif və mədəniyyətin elm xadimləri adlandırır, onların əbədi yaşayacaqlarını göstərir.

Firidun bəy Köçərli Azərbaycanın görkəmli və milli məktəbdarları Q.Zakir, Abdullabəy Asi, S.Ə.Şirvani, M.F.Axundov, Nazim Ağa Salik, Nakam Ismayılbəyov, Mirzə Mehdi Nacini "xoşbəxt şairlər və dəqiq ədiblər" adlandırır, onların səmərəli

humanist, vətənpərvər, əməkdar, maarifpərvər. tələbkar və qayğıkeş insan olduqlarını qiymətləndirir.

Firidun bəy Köçərli A.O.Çernyayevskinin Tiflisdə nəşr olunmuş "Vətən dili"dərsliyinin birinci (1882) və ikinci (1888) hissəsini yüksək qiymətləndirmiş və yazmışdır:

"Bu dərsliklər o zamana qədər fars dilində mövcud olan çərəkə əsasında, yəni hərfləri höccələmək üsulu ilə dərs keçən Azərbaycan məktəblərində tamamilə yeni bir islahat əmələ gətirdi."

Firidun bəy Köçərli R.Əfəndiyevin "Uşaq bağçası", "Bəsirətül-ətfal", Nəriman Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", Abdulla Şaiqin "Qramatika" dərsliklərinin əhəmiyyətini göstərmiş və yüksək dəyərləndirmişdir.

Firidun bəy Köçərli İrəvan gimnaziyasında otuz ilə qədər azərbaycan dili müəllimi vəzifəsində işləmişdir. O, M.Ə.Elxanov və onun "Vətən dili" dərsliyi barəsində maraqlı məlumat verir və bu dərsliyin əhəmiyyətini yüksək qiymətləndirir. Azərbaycan xalqını maarifləndir-mək və mədəniyyətləndirmək ideyasını təbliğ edən Firidun bəy Köçərli ictimai bəlaların əsasını cəhalət, nadanlıq və elmsizlikdə görür, xalqı maarifi elmi öyrənməyə dəvət edir.

Firidun bəy Köçərli görkəmli maarifpərvər şair Seyid Əzim Şirvaninin "Nadanlıq dərdinin dərmanı elmdir", "Hər kimin elmi var, o insandır" müqəddəs kəlamını xalqa çatdırır və yazırdı: "Müəllimlərin səyi və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər".

Tarixi sənədlərdən məlumdur ki, XIX əsrin 70-ci illərinə qədər azərbaycanlılardan müəllim kadrları hazırlayan məktəblər olmadığına görə, uzun müddət uşaqların tərbiyəsi əsasən "üsuli-təlimdən bixəbər və ədəbi-tərbiyədən binəsib olan məktəbdarların əlində idi".

Firidun bəy Köçərli göstərirdi ki, müəllim məktəbin çırağıdır. Müəllim öz sənətini, şagirdləri öz övladı kimi sevməli, onların təlim-tərbiyəsi ilə möhkəm məşğul olmalı, əhalini savadlandırmağa çalışmalı və hörmət qazanmalıdır. Firidun bəy Köçərli, İsabəy Abakarov və Əhmədağa Mustafayev kimi müəllimlərin göstərilən keyfiyyətlərə malik olduqlarını nümunələr əsasında təsdiqləyirdi.



Firidun bəy Köçərli müəllimlərin müəllimlikdən uzaqlaşmasını əsasən az əmək haqqı (məvacib) aldıqları ilə əlaqələndirdi: "Bir peşə ki, öz ərbabını həmişə fəqir və zillətdə saxlaya, onun ehtiyaclarını necə ki, lazımdır ödəməyə, aclıqdan və susuzluqdan, istidən və soyuqdan özünü və əyalını mühafizə etməyə, o peşəyə ərbabı tərəfindən artıq meyl və rəğbət olunmaz. O peşənin sahibi çalışır ki, özgə bir xeyirli işin və mənfəətli kəsbin dalınca getsin".

Firidun bəy Köçərli "gimnaziyalarda mahir və öz işlərinə bələd olan müəllimlərin yoxluğuna ümdə səbəb kamil müəllim yetirən darülmüəllimlərin yoxluğudur, o institutlar və darülmüəllimlər ki, ondan müəllimlər hasilə gəlir, qayda üzrə təsis olunmamışdır. Onlarda pedaqogika elminə dair və təlim işlərinə mənsub məlumat verilməyib. Gimnaziya müəllimlərindən çoxlarını tanıyıram ki, pedaqogika fənn və elminin babası sayılan Yan Amas Komenskinin və Lohan Henrix Restalotsinin adlarını eşitmiş olsunlar".

Firidun bəy Köçərli bu qərara gəlir ki, əgər müəllimlərin əmək haqqı artırılarsa, onlar uşaqların təlim və tərbiyəsi ilə layiqli məşğul olacaq və hörmət qazanacaqlar.

Azərbaycanda məktəb və pedaqoji fikirinin inkişafında istedadlı müəllim, metodist, görkəmli maarif xadimi kimi tanınıb hörmət qazanan Firidun bəy Əhməd bəy oğlu Köçərli zəngin ədəbi və publisistik irsi ilə əbədi yaşamış, yaşayır və yaşayacaqdır. Ona görə ki, Firidun bəy Köçərli əməkdar maarif xadimi, mahir pedaqoq, vətənpərvər və dahi şəxsiyyətdir.

## MAHMUDBƏY MAHMUDBƏYOV
## (1863 - 1923)

Mahmudbəy Poladbəy oğlu Mahmudbəyov 1863-cü ildə Şamaxı şəhərində anadan olmuşdur. İlk təhsilini məhəllə məktəbində almış, 1874-cü ildə Şamaxı şəhərindəki "Məclis məktəbi"nə daxil olmuşdur.

1879-cu ildə Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində təşkil edilmiş azərbaycanlı şöbəsinin hazırlıq sinfinə qəbul olunmuş və 1883-cü ildə seminariyanın tam kursunu bitirmişdir.

Mahmudbəy Mahmudbəyov 1883-cü ilin iyul ayından 1888-ci ilin sentyabr ayına qədər Yelzavetpol (Gəncə) quberniyasının Padar, Ağcabədi, Ağdam kənd məktəblərində müəllimlik etmişdir.

Mahmudbəy Mahmudbəyov 1888-ci il sentyabr ayının 4-də Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğunun sərəncamına göndərilir. O, 1888-1891-ci illərdə Dilman və Kalva kənd məktəblərində müəllimlik edir.

1891-ci ilin oktyabr ayında Mahmudbəy Mahmudbəyov Göyçay kənd normal ikiillik məktəbinə müəllim təyin edilir və 1896-cı ilin yanvar ayına qədər burada şagirdlərin təlim-tərbiyəsi ilə səmərəli məşğul olur. O, 1896-cı ildə fevral ayının 17-də Lənkəran qəzasının Qızılağac kəndində açılmış məktəbə müəllim təyin edilir və həmin ilin sentyabr ayına qədər Qızılağacda müəllim işləyir.

Mahmudbəy Mahmudbəyov 1896-cı il sentyabr ayının 1-dən Sabunçudakı ikisinifli məktəbə müəllim təyin edilir. Lakin, bir ay keçməmiş onu Bakıdakı 2-ci "Rus-tatar" məktəbinə müəllim təyin edirlər.

1898-ci ilin sentyabr ayından Mahmudbəy Mahmudbəyov 3-cü "Rus-tatar" məktəbinə müdir təyin edilir. O, 1919-cu ilə qədər həmin məktəbdə müdir işləyir və 1919-cu ilin yanvar ayının 16-da Bakı quberniyasının 4-cü rayonu üzrə inspektor təyin edilir. M.Mahmudbəyov 1920-ci ildən Abşeron rayonu üzrə inspektor təyin olunur. Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra Xalq Maarifi Komissarlığında mühüm işlərdə işləmiş və ömrünün son dövrlərində 7№-li Şura məktəbinə rəhbərlik etmişdir.

Mahmudbəy Mahmudbəyov qırx illik elmi-pedaqoji fəaliyyəti dövründə xalq maarifi, təlim-tərbiyə müəssisələrinə dair



bir sıra qiymətli fikirlər irəli sürmüş, Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı tarixində mühüm xidmətlər göstərmişdir.

XX əsrin əvvəllərində Azərbaycan məktəblərinin ibtidai siniflərinin dərsliklərlə təmin edilməsində Mahmudbəy Mahmudbəyovun xüsusi xidmətləri olmuşdur. Onun 1907-ci ildə quruluşu və tərtib prinsipləri etibarı ilə özündən əvvəlki dərsliklərdən fərqli olaraq, yeni qaydada yazıb nəşr etdirdiyi "Türk əlifbası və ilk qiraət dərsliyi" 1923-cü ilə qədər 14 dəfədən çox nəşr olunmuş və dəyərli bir tədris vəsaiti kimi uzun müddət Azərbaycan məktəblərində istifadə edilmişdir.

Mahmudbəy Mahmudbəyov dərslik tərtibi üzərindəki fəaliyyətini davam etdirmiş, dövrünün görkəmli pedaqoqları ilə birlikdə 1908-ci ildə "İkinci il" dərsliyini Bakıda nəşr etdirmişdir. Dərslik qabaqcıl maarif xadimləri, müəllimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Dərslik bir vəsait kimi sonralar dəfələrlə nəşr edilmiş və məktəblərimizdə uzun müddət istifadə olunmuşdur.

Dərsliyə daxil edilmiş materiallar, o cümlədən "Yanğında da çatmaq" (A.S.Puşkindən tərcümə), "Mehriban qadın", "Ana və oğul", "Yalançı", "Oxumaq üçün hər şeydən keçməli", "İki kotan" və s. adlı kiçik hekayələri tərbiyəvi cəhətdən ibrətamizdir.

Mahmudbəy Mahmudbəyov Abbas Səhhətlə birlikdə 1909-cu ildə ibtidai məktəbin üçüncü sinif şagirdləri üçün "Yeni məktəb" adlı dərsliyini nəşr etdirmişdir. "Yeni məktəb" dərsliyi də elmi-pedaqoji və metodik tərtibinə görə başqa dərsliklərdən fərqlənirdi. Dərslik 156 səhifədən ibarət olub, orada qiraət üçün verilən materiallar təlim və tərbiyəedici xarakteri ilə fərqlənirdi.

Həmin kitabda Azərbaycan yazıçı və şairlərinin əsərlərinə geniş yer verilmişdir. "Yeni məktəb" dərsliyi bir neçə dəfə nəşr olunmuş, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da məktəblərimizdə tədris edilmişdir.

Mahmudbəy Mahmudbəyov dərsliklər tərtibi üzərindəki fəaliyyətini davam etdirmiş və 1913-cü ildə A.Səhhətlə "Türk ədəbiyyatına ilk qədəm" dərsliyini nəşr etdirmişdir.

Mahmudbəy Mahmudbəyovun pedaqoji fəaliyyəti-nin bir hissəsini dövrü üçün çox faydalı olan Azərbaycanda ilk pedaqoji jurnalın redaktorluğu təşkil edir. O, 1906-cı ilin sentyabrından başlayaraq "Rəhbər" adlı aylıq pedaqoji jurnal nəşr etdirir.

Jurnalın 1,2,3,4-cü nömrələri 1906-cı ildə, 5-ci və sonuncu nömrəsi isə 1907-ci ildə nəşr olunmuşdu. Jurnalın baş məqalələrində Mahmudbəy Mahmudbəyov ədəbiyyata, məktəb və gənc nəslin təlim-tərbiyəsinə dair qiymətli fikirlər söyləmişdir.

Mahmudbəy Mahmudbəyov Azərbaycan maarifi tarixində həm də nəzəri hazırlıqlı, təcrübəli ana dili tədrisi metodisti kimi görkəmli yer tutmuşdur. Dövri mətbuatdakı metodik məsələlərə həsr etdiyi məqalələrində müəllifi olduğu ana dili dərsliklərinin tərtibi prinsipləri, ana dili tədrisi, imla məsələləri və dili sadələşdirmək, onu ərəb, fars sözlərindən təmizləməkdən bəhs etmişdir.

Mənalı həyatının 40 ilini müəllimliyə, xalq maarifinə səmərəli həsr etmiş görkəmli pedaqoq Mahmudbəy Mahmudbəyov 1923-cü ildə mart ayının 13-də altmış yaşında Bakıda vəfat etmiş və dəfn olunmuşdur.

Azərbaycan təhsilinin inkişafında şərəfli ömrünün qırx ilini həsr etmiş, mahir pedaqoq, görkəmli publisist, dərsliklər, elmi-nəzəri və pedaqoji-metodik məqalələr, zəngin ədəbi irs müəllifi Mahmudbəy Mahmudbəyovun müqəddəs məzarı ziyarətgaha çevrilmiş, adı əbədiləşdirilmiş, əmək fəaliyyəti haqqında əsərlər yazılmış, əbədiyaşar pedaqoq olduğu göstərilmişdir.



## RƏŞİD BƏY İSMAYIL OĞLU ƏFƏNDİYEV (1863-1942)

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində realist şair və dramaturq, görkəmli uşaq yazıçısı və maarif xadimi Rəşid bəy Əfəndiyev zəngin ədəbi-bədii irs yaratmışdır.

Rəşid bəy Əfəndiyevin xalq müəllimi, maarif cəbhəsinin fədakar nümayəndəsi kimi elmi, maarifi və mədəniyyəti ürəkdən təbliğ etməsi, həm də fitri istedadlı sənətkar kimi sənət əsərləri yaratması ona ümumxalq məhəbbəti qazandırmışdır.

Rəşid bəy Əfəndiyev ədəbi yaradıcılığa şerlə başlamış, insan qəlbini təlatümə gətirən poeziya yaratmışdır. Onun şərəfli fəaliyyəti ədəbiyyatşünaslar tərəfindən yüksək dəyərləndirilmişdir.

Azərbaycan ədəbiyyatı tarixində Rəşid bəy Əfəndiyevi bir yazıçı kimi tanıdan və məşhurlaşdıran, oxuculara sevdirən dram əsərlərdir. Rəşid bəy Əfəndiyevin "Qan ocağı", "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Saqqalın kəraməti", "Bir saç telinin qiyməti", "Pul dəlisi", "Tiflis səfərləri", "Diş ağrısı", "Qızıl gül" komediyaları Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirən gözəl sənət incilərdir.

Şərq ədəbiyyatında dramaturgiyanın banisi kimi tanınan və ümumxalq məhəbbəti qazanan Mirzə Fətəli Axundovun klassik ənənələrini çox böyük maraq və sənətkarlıqla davam etdirən Rəşid bəy Əfəndiyev mahir dramatirqdur. Onun dram əsərləri Mirzə Fətəli Axundovun dram əsərlərində təbliğ etdiyi maarifçilik ideyalarını geniş şəkildə oxuculara və tamaşaçılara çatdırmış və indi də çatdırır. Ona görə ki, bu sənət əsərləri dərin məzmun və ideyaya malikdir, tərbiyəvi mahiyyəti çox qüvvətli, həm də təsirlidir.

Görkəmli sənətkarlar ədəbiyyatın qüdrətli tərbiyə vasitəsi olduğunu göstərmişlər. Onlar poeziyanı "silah", bədii əsərləri "tərbiyənin əsas amili", "bədii-estetik zövqün zirvəsi" adlandırmışlar.

Həmişə məktəbin qarşısında duran başlıca məsələlərdən biri təlimlə tərbiyənin vəhdətidir. Bu problemin şərhində Rəşid bəy Əfəndiyev səmərəli fəaliyyət göstərmişdir. Rəşid bəy Əfəndiyevin fəaliyyəti çox şərəflidir.

Şəkidə doğulan (1863), ilk təhsilini orada əvvəlcə mollaxana, sonra isə rus məktəbində alan Rəşid bəy Əfəndiyev Zaqafqaziya

(Qori) Müəllimlər Seminariyasında oxumuş görkəmli maarif xadimlərindən biridir. Bir müddət Azərbaycan kəndlərində müəllimlik etdikdən sonra Rəşid bəy Əfəndiyev Qori Müəllimlər Seminariyasına müəllim dəvət olunmuş və burada öz pedaqoji və metodik bacarığını təkmilləşdirmək üçün yorulmadan çalışmışdır.

R.Əfəndiyev ədəbiyyatımıza M.F.Axundov ədəbi məktəbinin davamçısı kimi daxil olmuş, öz komediyaları ilə tanınmışdır. Lakin bədii yaradıcılığında da o, görkəmli müəllim maarif xadimi kimi ümumxalq şöhrəti qazan-mışdır.

R.Əfəndiyevin çoxsahəli yaradıcılığında ibtidai siniflərdə ana dili və ədəbiyyat tədrisi məsələləri mühüm yer tutmuşdur. Bu cəhət onun dərsliklərində ("Uşaq bağçası" və "Bəsirətül-ətfal") öz pedaqoji və metodik həllini tapmışdır. "Uşaq bağçası" adlı əlifba kitabını 1887-ci ildə yazmış, kitab ilk dəfə 1898-ci ildə İstambulda çap edilmişdir: "Bəsirətül-ətfal" 1901-ci ildə Bakıda çap olunmuşdur.

R.Əfəndiyev 1863-cü ildə Şəkidə anadan olmuş, uşaqlığını ilk gənclik illərini orada keçirmişdir. Atası ruhani olsa da, elm, ürfan dostu idi, oğlu Rəşidin təlim və təhsilinə xüsusi qayğı göstərirdi. Məsciddə dini təhsil və quranla müxtəsər tanışlıqdan sonra Rəşid atasının arzusu və məsləhəti ilə Şəkidəki rus məktəbinə daxil olur.

Köhnəpərəstlərin dedi-qodularına baxmayaraq, rus dili, zəngin rus mədəniyyəti ilə tanışlıq gənc Rəşiddə təhsilini daha da artırmaq həvəsi oyadır. O, 1879-cu ildə Qori Müəllimlər Seminariyasına qəbul olunur, 1882-ci ildə seminariyanı, müvəffəqiyyətlə bitirib fəaliyyətə başlayır. A.Şaiq, S.S.Axundov, S.Qənizadə ilə birlikdə müəllimliklə məşğul olur, bütün mənəvi qüdrətini, bilik və bacarığını xalq maarifinin tərəqqisinə sərf edir.

Rəşid bəy Əfəndiyev Azərbaycan maarifpərvərləri sırasında məktəbin, məktəblilərin ehtiyacını nəzərə alaraq dərslik yaradan, tərcümələr edən, didaktik mənzumələr yazan müəllimlərdən biridir. "Uşaq Bağçası", "Bəsirətül-ətfal" dərslikləri onu maarif cəbhəsinin fədakarlarından biri kimi şöhrətləndirir. Müəllif bu kitabları çox böyük çətinliklə və ağır zəhmətlə İstanbulda, Bakı və Tislisdə çap etdirir.

O, hələ Tiflisdə işləyərkən tərtib etdiyi ədəbi-qiraət kitabını 1901-ci ildə iki min nüsxə tirajla "Bəsirətül-əftal" adı ilə Bakıda nəşr



etdirmiş və seminariyada dərslik kimi istifadəyə vermiş, dərin hörmət qazanmışdır.

"Uşaq bağçası"nda olduğu kimi, müəllif bu kitabda da şagirdlərə savad təlimi, oxu texnikasını inkişaf etdirməklə yanaşı, həm də onların tərbiyə edilməsinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir.

"Bəsirətül-əftal" kitabı üç hissədən ibarətdir. Birinci hissədə hər biri bir dərsdən ibarət olan kiçik hekayələr verilmişdir ki, bunların bəzisi nəzm, bəzisi nəsrlə yazılmış sənət əsərləridir.

Kitabın II hissəsində ədəbiyyat və tərbiyə məsələlərinə həsr edilmiş mətnlər verilmişdir ki, müəllifin fikrincə, müəllim bu mətnlər vasitəsilə "şagirdlərin qəlbinə, kamilincə nəsihət verəcəklər".

Üçüncü hissədə "müsəlman dininin" əqidəsinə münasib bir sıra mətnlər vermişdir. Bu mətnlərin təlim-tərbiyəvi mahiyyəti qüvvətlidir.

"Uşaq bağçası" kitabında olduğu kimi "Bəsirət-ül-Ətfal" kitabında da müəllif rus və Azərbaycan klassiklərinin bəzi əsərlərinin tərcüməsini vermişdir.

Azərbaycan klassik şairlərindən M.Füzuli və S.Ə.Şirvanidən bir sıra parçalar verməklə yanaşı, böyük rus şairlərindən İ.A.Krılovun "Ana və meymun", "Kəndli və ilan", "Qurd və pişik", A.S.Puşkinin "Kaftar", "Torçu və balıq", "Baxçasaray fontanı" və s. hekayə və şerlərini tərcümə edərək kitaba daxil etmişdir.

Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası" kitabının A.O.Çernyayevskinin "Vətən dili" kitabından bir sıra fərqi və üstünlüyü vardır. Bu fərq ondan ibarətdir ki, A.O.Çernyayevskinin "Vətən dili" kitabı vasitəsilə ərəb əlifbasını şagirdə altı aydan az vaxtda öyrətmək mümkün olmadığı halda, R.Əfəndiyevin "Uşaq bağçası" kitabı vasitəsilə bu əlifbanı bir ay müddətində öyrətmək, şagirdlərə yazı vərdişləri aşılamaq mümkün idi. Buna görə də Rəşid bəy kitabın titul səhifəsində belə yazmışdır: "Savadsız adam bir ayda oxuyar və yazar".

Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası" kitabı Azərbaycan dilində təhsil verən bütün dövlət və xüsusi tədris məktəblərində istifadə etmək üçün Qafqaz Tədris Dairəsi tərəfindən bəyənilmişdir. "Uşaq bağçası" dörd dəfə nəşr edilmişdir.

1892-ci ildə R.Əfəndiyev o zamankı Zaqafqaziyanın ən böyük elm, mədəniyyət mərkəzi olan Tiflis şəhərinə köçür, burada müəllimlik etməklə yanaşı, ruhani idarəsində işləyir.

R.Əfəndiyev 1900-1916-cı illər arasında on altı il Qori Müəllimlər Seminariyasında ana dili və şəriətdən dərs deyir. Odur ki, dramaturqun ilk şerlərində islam ehkamlarının təsiri güclüdür.

Rəşid bəy Əfəndiyev təkcə öz dərslikləri, elmi-pedaqoji əsərləri ilə deyil, müxtəlif şəhərlərə gedib təşkil etdiyi məktəblər, savad kursları, həmçinin bədii əsərləri vasitəsilə də təlim-tərbiyə işi ilə ciddi məşğul olmuşdur.

1880-ci il mayın 13-də təsdiq edilmiş əsasnaməyə görə Azərbaycan şöbəsinin məqsədi Zaqafqaziyanın Azərbaycan kəndlərindəki ibtidai məktəblər üçün bilikli və təcrübəli müəllimlər hazırlamaqdan ibarət idi.

İlk dəfə seminariyaya otuz iki nəfər qəbul olundu. Bunlardan iyirmi dörd nəfəri A.O.Çernyayevski tərəfindən yerlərdə seçilərək dəvət olunmuş, qalanları isə öz arzusu ilə gəlmişdi. Bunlardan on doqquz nəfər şöbənin əsas siniflərinə, on üçü isə hazırlıq sinfinə qəbul olundu. Seminariyaya ilk qəbul olunanlar içərisində gələcəyin məşhur pedaqoqlarından S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev və b. var idi. İlk dəfə qəbul olunanlardan üçü Naxçıvan qəza məktəbindən, on üç nəfəri isə Şuşa qəza məktəbindən idi. Müəllimlər Seminariyasında tələbkarlıq və qaygı möhkəm idi.

Azərbaycan xalq pedaqogikasının qiymətli incilərindən qidalanan, mütərəqqi rus və dünya pedaqogikasının görkəmli nümayəndələrinin pedaqoji ideyalarından və qabaqcıl məktəb təc-rübəsindən faydalanan ilk xalq müəllimlərini hörmətlə xatırlayırıq. Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəlibəy Vəlibəyov, Əlişbəy Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məm-mədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqamayev, Pənah Qasımov, Əhməd Seyidov və başqaları dərin ümumxalq məhəbbəti qazanmışlar.

Azərbaycan şöbəsinin təşkilində, onun tərəqqisində A.O.Çernyayevskinin çox mühüm xidmətləri olmuşdur. Azərbaycan müəllimlərinin böyük bir dəstəsi A.O.Çernyayevskidən sonra, semi-nariyanın Azərbaycan şöbəsinə rəhbərlik edən F.Köçərli, R.Əfəndiyev ibtidai məktəbin Azərbaycan dili müəllimi S.Vəlibəyov öz müəllimlərinin şərəfli yolunu davam etdirərək seminaristlərin



elmi-pedaqoji və metodiki hazırlığı işində unudulmaz xidmətlər göstərmişlər.

Rəşid bəy İsmayıl oğlu Əfəndiyev 1863-cü ildə Nuxa (Şəki) şəhərində ruhani ailəsində anadan ilmuşdur. Atası onu yeddi yaşında olarkən mollaxanaya oxumağa qoymuşdur. İsmayıl əfəndi oğluna əlifba, lüğət, ərəb sərfi-nəhvi və məntiq kitablarından dərs verər, Hafizin külliyyatının, Sədinin "Gülüstan" və "Bustan", Füzulinin "Leyli və Məcnun" əsərlərini oxudub əzbərlətdirərmiş.

Rəşid bəy Əfəndiyev eşitmişdir ki, Tiflisdə yaşayan yüksək rütbəli həmyerlisi M.F.Axundov maddi imkanı olmayan gənclərə hökumət hesabına məktəbə daxil olmaq işinə kömək edir. Buna görə də o, 1878-ci ildə M.F.Axundovun yanına gedir. M.F.Axundov ona yaxın gələcəkdə Zaqafqaziya Müəllimlər Seminariyasında açılacaq müsəlman şöbəsində hökumət hesabına oxumağa düzəldəcəyini vəd edir.

Rəşid bəy Əfəndiyev 1928-ci ildə "Qızıl qələm" qəzetində yazmışdır: "1878-ci ildə Tiflisdə möhtərəm ədiblə görüşməyə müyəssər oldum. Hökumət xərci ilə məktəblərin birinə daxil olmağıma yardımını istədim. Qori darülmüəllimeyninə girməyimi istədim. Qori darülmüəl-limeyninə girməyimi tövsiyə etdi".

Gənc Rəşid bəyin böyük dramaturqla görüşüb söhbət etməsi onda dramaturgiya və teatr sənətinə maraq oyadır. Rəşid bəyin bu marağı onu "Hacı Qara"nı səhnədə oynamağa həvəsləndirir.

1879-cu ildə Qori Müəllimlər Seminariyası nəzdində müsəlman şöbəsi açılır. Müsəlman şöbəsinin müfəttişi A.O.Çernya-yevski (1840-1894) Nuxa şəhərinə gələrək rus məktəblərindən Rəşid bəylə birlikdə altı nəfər şagird seçib Qoriyə göndərir. Rəşid bəy Əfəndiyev Zaqafqaziya müəllimlər seminariyasının biricnci əsas kursuna (dövlət xərci hesabına) qəbul olunur.

Seminariyanın direktoru tərəqqipərvər pedaqoq D.D.Sem-yonov və müsəlman şöbəsinin müfəttişi A.O.Çernyayevski Rəşid bəyi məktəbin pedaqoji həyatına daha yaxından cəlb edir.

Rəşid bəy 1882-ci ildə A.O.Çernyayevskinin tərtib etdiyi və 1883-cü ildə daş basmada çap etdirdiyi "Vətən dili" adlı əlifba kitabını müəllifin xahişi ilə gözəl xətlə yazıb çapa hazırlayır.

Rəşid bəy Əfəndiyev 1882-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasını müvəffəqiyyətlə bitirərək Qutqaşendə yeni açılan ibtidai məktəbə müdir və müəllim təyin edilir.

Rəşid bəy Əfəndiyev səkkiz il Qutqaşen məktəbində işlədikdən sonra 1890-cı ildə yeni məktəb təşkil etmək üçün Xaçmaz kəndinə göndərilir. Rəşid bəy 1892-ci ildən 1899-cu ilədək Tiflis Azərbaycan məktəbində ana dili müəllimi və Zaqafqaziya ruhani idarəsinin katibi vəzifələrində işləyir.

Rəşid bəy "Ömər məktəbi"ndə işləyərkən şəhər məktəblərinin quruluşu və çar hökumətinin maarif sahəsindəki siyasəti ilə yaxından tanış olduğu kimi, özünün bilik və bacarığını da maarif dairəsinin rəhbərliyinə və Tiflisdə işləyən bəzi alimlərə göstərə bilmişdi.

Onun rus və Şərq dillərini mükəmməl bilməsi, geniş etnoqrafik və tarixi biliyə malik olması professor V.M.Rozendə müsbət rəy yaradır. Odur ki, Rəşid bəyi N.A.Lopatinski Şərq dilləri lüğəti düzəltmək üçün özünə köməkçi, professor V.M.Rozen isə özünə tərcüməçi qəbul etmişdi. Rəşid bəy N.L.Lopatinski və V.M.Rozenlə birlikdə göstərdiyi fəaliyyət haqqında yazmışdır: "Tidlisdə yaşadığım zaman N.L.Lopatinski məni. Asurinin lüğətini şərh etmək işində ərəb və fars kəlmələrini göstərməyə dəvət edirdi".

Rəşid bəy Əfəndiyev müəllimliyə başladığı ilk illərdən etnoqrafiya və arxeologiya ilə maraqlanmış, Qutqaşen rayonunun, Nuxa qəzasının tarix və mədəniyyətini öyrənib gələcəkdə bu barədə əsər yazmaq üçün qeydlər aparırdı.

Rəşid bəy Əfəndiyev xalqımızın şifahi ədəbiyyat nümunələrini, qədim geyim formalarını, məişət qaydalarını öyrənib material toplamışdı.

Rəşid bəy Əfəndiyev "Müsəlmanlar arasında xalq maarifi" məqaləsində yazırdı: "Müsəlman əhalisi arasında təhsil ləng aparılır. Kəndli uşaqları məktəblərə təsadüfi yazılır, məktəblərə davam etmir və təsərrüfat işlərindən azad olan vaxtlarda dərsə gedirlər ki, bu da iki-üç aydan artıq olmur. Qalan vaxtlarda kənd məktəbi boş qalır. Uşaqlar iki aylıq təhsil müddətində nə öyrənə bilərlər? Müsəlman məktəbi əhli üçün kədərdir. Belə ki, o məktəblərdə uşaqların, gənclərin qızıl dövrü faydasız keçir".

Qadın azadlığı üçün qadın maarifini əsas məsələ hesab edən Rəşid bəy Əfəndiyev "Müsəlman qadınlarının vəziyyəti və uşaqların tərbiyəsi" məqaləsində qadınların savadsızlığının uşaqların tərbiyəsi və mədəni inkişafımız üçün zərərli olduğunu göstərir, qız məktəbləri açılmasını tələb edirdi.



Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Soltanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov və başqa maarifpərvər ziyalıların qadın maarifinin təşkili üçün apardıqları mübarizəyə Azərbaycanın bütün tərəqqipərvər ziyalıları səs verir, qabaqcıl mətbuatın səhifələrindən bu barədə müzakirələr açılırdı.

Rəşid bəy Əfəndiyev müəllimliyə başladığı gündən böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji fikirlərini dərs dediyi məktəblərdə həyata keçirməyə, Azərbaycan məktəblərini rus məktəbləri səviyyəsinə qaldırmağa çalışırdı.

Rəşid bəy Əfəndiyev Rusiyada yaradılan yeni tipli milli xalq məktəbini yaratmaq və ona ana dilində dərsliklər yazmağı qarşısına məqsəd qoyub və yazır. Rusiyada yeni tipli milli xalq məktəbləri yaratmaq üçün ana dilində əlifba və qiraət kitabları yazan müəlliflər kimi, o da Azərbaycan xalq məktəbləri üçün birinci növbədə ana dilində dərs kitabları yaratmağı qarşısında məqsəd qoyur. Rəşid bəy məqsədini izah edərək yazır:

"Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb dağılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabları kimi öz məktəbimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür".

Rəşid bəy Əfəndiyev dərs kitablarına daxil etdiyi bədii pedaqoji parçalarda qadın maarifi məsələsinin təbliğinə daha çox fikir vermişdir. O bu əsərlərində xalqa anladırdı ki, kişinin möhkəm, səmimi ailə qura bilməsi, uşaqların tərbiyəli və elmli olması, qadınların ailə üzvləri ilə səmimi və mədəni rəftar etməsi, gələcək nəslə düzgün tərbiyə verə bilməsi üçün qızların oxuyub savadlanması-nın böyük əhəmiyyəti vardır.

Rəşid bəy Əfəndiyev yazırdı: "hər şey sərf və xərc olunduqca tükənər və əksilər. Amma elm sərf olunduqca artar və ziyadələnər. Bir nəfər alim şəxs elmini sərf etsə, özündən başqa neçə yüz alimlər meydana gətirər, həm də öz elm və məlumatını ziyadələndirər. Hər alim bir şəmə bənzər ki, ondan neçə-neçə şəmlər yandırmaq müyəssərdir".

Rəşid bəy Əfəndiyevin metodik məqalələri, məktubları və K.D.Uşinskinin "Ana dili tədrisinə rəhbər" kitabının təsiri ilə yazdığı "Müəllimlər üçün üsuli-cədid üzrə ən əvvəl dərsə şüru etmənin qaididir" adlı metodika kitabı Azərbaycan müəllimlərinə ana dili

və rus dili tədrisinin keyfiyyətini yüksəltməkdə xeyli kömək etmişdir.

R,Əfəndiyevin elmi-pedaqoji fəaliyyəti təkcə dərs kitabları və metodik əsərlər yazmaqla bitmir. O, 1911-ci ilə kimi ibtidai məktəb proqramları, 1911-ci ildən sonra Qafqaz Maarif Dairəsinin tapşırığı ilə orta məktəblər və müəllimlər kursu üçün dərs proqramları tərtib etməklə də məşğul olmuşdur.

Xalqın maariflənməsi və mədəni tərəqqisində müəllimlərin roluna böyük əhəmiyyət verən Rəşid bəy Əfəndiyev onların pedaqoji ustalığını yüksəltməyi və yeni müəllim kadrları hazırlamağı ən vacib məsələlərdən hesab edirdi. Buna görə də o, müəllimlər üçün metodik məktub və məqalələr, məktəblər üçün dərs proqramları yazmaqla kifayətlənməyərək, yay tətilləri dövründə Azərbaycan şəhərlərində, hətta Şimali Qafqazın Teberda şəhərində də qısa müddətli müəllimlər kursu təşkil edərək onlara yeni tədris üsulların öyrədir, pedaqoji mühazirələr oxuyur və müəllimin qarşısında duran vəzifələri izah edirdi. Dövrünün tərəqqipərvər ziyalıları Rəşid bəy Əfəndiyevin xalq maarifinin inkişafı üçün, göstərdiyi xidmətləri yüksək qiymətləndirirdilər.

Rəşid bəy Əfəndiyevin tərtib etdiyi dərs kitablarında, yazdığı pedaqoji və metodik məqalələrdə mükəmməl hazırlıqlı bir pedaqoq kimi çıxış etməsi və seminariyadakı əməli pedaqoji fəaliyyəti nəzərə alınaraq 1904-cü ildə ona hami-tərbiyəçi adı, 1906-cı ildə assistentlik dərəcəsi verilmişdir.

Rəşid bəy Əfəndiyev 1910-cu ildən 1916- cı ilə kimi gizli səsvermə yolu ilə seminariyanın pedaqoji şurasının katibi vəzifəsinə seçilmiş, 1911-ci ildə isə Qafqaz Maarif Dairəsinin fərqlənmə medalı ilə təltif olunmuşdur.

Rəşid bəy Əfəndiyev 1916-cı ildə Zaqafqaziya Müəllimlər Seminariyasından azad olunaraq İravan quberniyasının müsəlman məktəblərinin müfəttişi vəzifəsinə təyin olunur. O, İravanda müfəttişliklə bərabər, məktəbləri savadlı müəllim kadraları ilə təmin etmək üçün təşkil etdiyi üç aylıq müəllimlər kursunda dərs deyir.

Rşid bəy Əfəndiyev 1920-ci ildə Nuxa seminariyasına direktor təyin edilir. Müəllimlik və ədəbiyyatşünaslıqla məşğul olur. Onun 1925-ci ildə qırx beş illik yubileyi keçirilir. Fərdi təqaüdə layiq görülür.



Rəşid bəy Əfəndiyev pedaqoji və əmək fəaliyyəti ilə bədii yaradıcılığını vəhdətdə inkişaf etdirmiş, parlaq uğurlar qazanmışdır. Ona görə ki, hər iki sahəni gözəl bilirdi.

Görkəmli mütəfəkkir Rəşid bəy Əfəndiyev 1942-ci ildə Nuxada (Şəkidə) vəfat etmiş və orada dəfn olunmuşdur. Onun müqəddəs məzarı ziyarətgaha çevrilmişdir.

R.Əfəndiyevin elmi-pedaqoji fəaliyyəti və dünyagörüşü elmi-pedaqoji və bədii irsi, fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir.

1960-cı ildə Nuxa şəhərində Rəşid bəyin ev-muzeyi açılmışdır. Şəkidə onun adına küçə var. 1961-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı (Azərnəşr) Rəşid bəy Əfəndiyevin "Dram əsərləri" kitabını nəşr etmişdir.

1963-cü ildə onun anadan olmasının 100 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. 1979-cu ildə "Gənclik" nəşriyyatı onun "Seçilmiş əsərləri"ni nəşr etmişdir. 1980-ci ildə açılan Şəki ölkəşünaslıq muzeyinə Rəşid bəy Əfəndiyevin adı verilmişdir.

Görkəmli şair və dramaturq, istedadlı uşaq yazıçısı, mahir maarif xadimi, gözəl müəllim, mütərcim, publisist Rəşid bəy Əfəndiyev (1863-1942) zəngin ədəbi irs yaratmış, Vətənə və xalqa şərəfli xidmət etmiş, əbədiyaşar mütəfəkkir kimi ümumxalq məhəbbəti qazanmışdır.

## ƏLİ BƏY HÜSEYNZADƏ
## (1864-1940)

XX yüzillikdə Türk dünyası üçün misilsiz əhəmiyyət kəsb edən türkləşmək, islamlaşmaq, avropalaş-maq təliminin yaradıcısı Əli bəy Hüseyn oğlu Hüseynzadə (Əli Turan) dünyaşöhrətli dahi mütəfəkkir, maarif xadimidir.

Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə (Əli Turan) 1864-cü il 24 fevralda Salyan şəhərində anadan olmuşdur. Atası Molla Hüseyn Hüseynzadə Tiflis müsəlman məktəbinin müəllimi olmuşdur. Anası Xədicə xanım Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadənin qızıdır. Valideynlərini uşaq yaşında itirən Əli bəy babası Axund Əhməd Səlyaninin himayəsində böyümüşdür.

Axund Əhməd Səlyani iki il Qafqazın Şeyxülislamı olmuş, dini fəaliyyəti ilə yanaşı milli məfkurə istiqamətində də ciddi işlər görmüşdür.

Şeyxülislam Axund Əhməd Səlyani "Tarixi-ədəbiyyati-türki" adlı əsər yazmış, türk millətinin böyükləri, əski türklərin yazısı, cığatay ədəbiyyatının qızıl dövrü, uyğur dili, Əlişir Nəvai haqqında söz deməyi özünə borc bilmişdir.

"Qafqaz məmləkətinin xalqları" və digər əsərləri Şeyxülisla-mın zəngin biliyə malik olmasını təsdiqləyir. Uzun illər dostluq etdiyi Mirzə Fətəli Axundov, Həsən bəy Məlikov Zərdabi və Seyid Əzim Şirvani yüksək məziyyətləri haqqında qiymətli fikirlər söyləmiş, onun fəaliyyətini yüksək dəyərləndirmişlər.

Əli bəy Hüseynzadə ibtidai təhsilini Tiflis müsəlman məktəbində, orta təhsilini isə Tiflis birinci klassik Gimnaziyasında (1875-1885) alıb, Peterburq Universitetinin fizika-riyaziyyat (1885-1889), İstambul Darülfünunun Əsgəri-Tibbiyyə fakültəsini (1889-1895) uğurla bitirmişdir.

Peterburq Universitetində mendeleyev, Nikolay Menşutkin, Yeqor Vaqner və Nikolay Veketov kimi böyük kimyaçı alimlərdən dərs alan Əli bəy Hüseynzadə, universitetin şəqşünaslıq fakültəsində Yukovskinin mühazirələrini də dinləmiş, Rəssamlıq Akademiyasının məşğələlərində iştirak etmişdi.

Əli bəy Hüseynzadənin İstanbul Universitetində təhsil aldığı illəri səciyyələndirən Yusif Akçura yazmışdır: "Qafqazlı Əli Hüseyn



əfəndi bu universitetdə parlaq fəaliyyət göstərdi. Yunan və latın ədəbiyyatına aşina olmaqdan əlavə, alman, rus, ingilis ədiblərini xeyli mütaliə etmiş və Şərq ədəbiyyatına şərqşünaslar nöqteyi-nəzərdən vaqif olmuşdu. Üstəlik rəssam idi və kaman çalırdı. Arkadaşlarının hamısı əski dövr ədiblərinin ad və rəsmlərini ancaq "Kiçik Laronsse"dən bilirdilər. Rus fikir və ədəbiyyatına tamamilə yabançı idilər. Əli bəy Batı İrfan və mədəniyyətini, Batı ədəbiyyatını tanıtmaqda professorlara çox xidmət etdi".

İstanbul Darülfünunun tələbəsi Əli bəy Hüseynzadənin adı bu illərdə Türkiyə tarixinə "İttihad və Tərəqqi" cəmiyyətinin qurucularından biri kimi daxil olur.

Əli bəy Hüseynzadə 1895-1897-ci illərdə Heydərpaşa əsgəri xəstəxanasında dəri mütəxəssisi, Türkiyə-Yunanstan müharibəsi zamanı, 1897-1900-cü illərdə Tesaliya savaşında hərbi həkim işləmiş, müharibədən sonra 1900-cü ildə müsabiqə yolu ilə İstanbul Darülfünununda dosent, sonralar isə professor seçilmişdir.

Əli bəy Hüseynzadə 1903-cü ildə Bakıya qayıtmış, Əhməd bəy Ağa oğlu ilə birlikdə 1906-1907-ci illərdə "Həyat" qəzetinin və "Füyuzat" dərgisinin baş redaktoru vəzifəsində səmərəli işləmişdir. 1907-ci ildən sonra mədəni həqiqətdən haqsız məhrum olan Ə. M. Topçu-başovun yerinə "Kaspi" qəzetinin baş redaktoru olmuşdur.

1905-ci ildə Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Adil Xan Ziyadxan, Əli Mərdan bəy Topçubaşov Qafqaz müsəlmanları tərəfindən Peterburqa göndərilmişdir.

Əli bəy Hüseynzadənin ən böyük tarixi xidməti türk millətinin qurtuluşu üçün yeni məfkurə sistemi olan "Türkləşmək, İslamlaşmaq, avropalaşmaq" təlimini irəli sürməsi olmuşdur.

1910-cu ildə ittihadçı dostlarının dəvəti ilə İstanbula köçən Əli bəy Hüseynzadə Bakıdan ayrılarkən şəxsi əmlakını 1908-1910-cu illərdə müdiri və türk (Azərbaycan) dili müəllimi olduğu "Səadət" məktəbinə hədiyyə vermişdir.

Əli bəy Hüseynzadə 1911-ci ildə İstanbulda süvari zabiti Şəmsəddin bəyin qızı Əhdiyyə xanımla evlənmiş, Səidə Santur, Səlim Turan və Feyzavər Alpsar adlı üç övladı olmuşdur.

Əli bəy Hüseynzadə 1911-ci ildə "İttihad və Tərəqqi"nin ilk qurucularından biri olmuş və 1911-ci il sentyabrın 1-də yaradılmış "Türk yurdu" cəmiyyətinin yaradıcısı kimi fəaliyyət göstərmişdir.

Əli bəy Hüseynzadə 1916-1917-ci illərdə təhsil və səhiyyə sahəsində şərəfli fəaliyyətini davam etdirmiş, "Milli Təlim və Tərbiyə Cəmiyyətinin", həm də "Türk-Macar Dostluq Cəmiyyəti" idarə heyyətinin üzvü olmuşdur.

Əli bəy Hüseynzadə 1918-ci ildə Əhməd bəy Ağaoğlu ilə birlikdə Bakıya gəlmiş, Azərbaycan Cümhuriyyətinin təsis olunmasında İştirak etmişdir. Əli bəy Hüseynzadə 1919-1921-ci illərdə Türkiyədə bir neçə dəfə həbs olunur.

Həbslərdə Əli bəy Hüseynzadə elmi-ictimai fəaliyyətini davam etdirir, Azərbaycan Cümhuriyyətinin İstanbuldakı elçisi Yusif Vəzir Çəmənzəminlinin Azərbaycan türk ədəbiyyatı tarixini yazmasına və əsərin təbliğ edilib yayılmasına kömək edir, yardımını əsirgəmir.

Əli bəy Hüseynzadə 1926-cı il fevral ayında Bakıya gəlir, Birinci Türkoloji Qurultayın fəxri üzvü seçilir, çıxış edir. Onun çıxışının mətni türkiyəli alim Hilmi Ziya Ülgenin "Türk sosializminin və türkçülüyün atası Əli Turan" əsərinə daxil edilib oxuculara çatdırılır. 1926-cı ildə Bakıda nəşr olunan "Qərbin iki dastanında türk" əsəri Əli bəyin təqdim etdiyi məruzənin mətnidir.

Əli bəy Hüseynzadə 1926-cı ilin 25 martında Bakını tərk edir, Bakıdan son gedişi olur. Əli bəy Hüseynzadə 1928-ci ildə dahi Şotland filosofu Adam Simitin 1776-cı ildə yazdığı və 1881-ci ildə Parisdə nəşr olunmuş "Sərvəti millət" əsərini fransız dilindən Azərbaycan dilinə tərcümə edir, böyük siyasi iqtisad alimi olduğunu və fransız dilini kamil bildiyini təsdiqləyir.

Əli bəyHüseynzadə 1928-ci ildə Kamal Cənab ilə birlikdə "Ensiklopedik tibb lüğəti"ni yazmışdır. Əli bəy Hüseynzadə 1933-cü il iyul ayında Türkiyənin maarif naziri olmuşdur. O, 1934-cü ildə "Turan" soyadını götürmüşdür. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tərtibiçi rəssamı Əli bəy Hüseynzadə olmuşdur.

Əli bəy Hüseynzadə 1907-ci ildən pedaqoji fəaliyyətə başlamış, "Səadət" məktəbində dərs demiş, dərsliklər tərtib etmişdir. Əli bəy Hüseynzadə 1910-cu ildən ömrünün sonuna (1941) kimi Türkiyədə yaşamış, İstanbul Universitetində professor vəzifəsində işləmiş, ümumxalq məhəbbəti qazanmışdır.



Mənalı ömrünü elmə, mədəniyyətə, ədəbiyyata, incəsənətə, maarifə, pedaqoji fikrin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə həsr edən Əli bəy Hüseynzadə mahir maarif xadimi kimi sevilmişdir.

Professor Əli bəy Hüseynzadə İstanbulda Üsküdarın Ehsaniyyə məhəlləsində yaşamışdır. Səməd Ağamalıoğlu Əli bəy Hüseynzadəni "bəyaz saqqallı, pəmbə üzlü, gözəl gözlü, rəssam, musiqişünas, filosof, qəzetçi, professor, doktor, mütərcim, bütün bir dövrün həqiqətən gizli həyat qaynaqlarından biri", M.B.Məmmədzadə "türk dünyasının fəxri, türkləşmək, islamlaşmaq, avropalaşmaq təliminin müəllifi və "Azərbaycan bayrağını mənalandıran üç ümdə amilin ideoloqu", A.Cövdət və Z.Gökalpin "hələ sağlığında böyük müasirləri tərəfindən rəsuli-həqq", M.Hadi "dahi" adlandırmış, onun humanist, vətənpərvər, maarifpərvər, mahir pedaqoq, xeyirxah, müdrik tarixi şəxsiyyət olduğunu iftixarla qeyd etmişlər.

Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə (Əli Turan) 1940-cı il martın 17-də bazar günü İstanbulda vəfat etmiş, Qaracaəhməd qəbirstanlığında dəfn olunmuşdur. Əli bəy Hüseynzadənin məzarinin üstündəki başdaşında yazılmışdır: "Tibb fakültəsi, dəri professoru Hüseynzadə Əli Turan".

Görkəmli mütəfəkkir Əli bəy Hüseynzadənin "Siyasəti-fürsət"(1994), "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar"(1996), "Türklər kimdir və kimlərdən ibarətdir" (1997), "Qərbin iki dastanında türk"(1988), "Seçilmiş əsərləri" (2007) adlı kitabları nəşr olunmuş, adı əbədiləşdirilmiş, haqqında əsərlər yazılmış, heykəli ucaldılmış, İstanbul şəhərinin Qaracaəhməd qəbirstan-lığındakı müqəddəs məzarı ziyarətgaha çevrilmişdir.

Əməkdar elm və maarif xadimi, professor Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə (Əli Turan) dünyaşöhrətli, fitri istedadlı, ümumxalq məhəbbəti qazanmış və ölümsüzlüyün parlaq zirvəsinə yüksəlmiş, həmişəyaşar, qəhrəman və dahi Azərbaycan oğludur.

## SULTAN MƏCİD QƏNİZADƏ
## (1866-1937)

Azərbaycan pedaqoji fikrinin görkəmli nümayən-dəsi, Bakıda ilk "rus-müsəlman məktəbləri"nin təməlini qoyan Sultan Məcid Qənizadə 1866-cı ilin aprel ayında Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərində anadan olmuşdur.

Hələ uşaq ikən yazıb oxumağı atasından öyrənən Sultan Məcid Qənizadə ilk təhsilini məhəllə məktəbində almış, sonra isə dövrünün məşhur şair və müəllimi S.Ə.Şirvaninin "Üsuli-cədid" məktəbində və Şamaxıdakı rus məktəbində oxumuş, oranı bitirmişdir.

Əvvəldən pedaqoji işə meyl göstərən Sultan Məcid Qənizadə Şamaxıdakı pedaqoji kurslara davam edrək məhəlli və ibtidai məktəb müəllimi adını almışdır. Təhsilini davam etdirmək üçün S.M.Qənizadə 1883-cü ildə Tiflisə gedərək o zaman Zaqafqaziyada yeganə ali pedaqoji məktəb sayılan Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur.

Tiflis Müəllimlər İnstitutunda təhsil alması Sultan Məcid Qənizadənin dünya baxışının formalaşmasına və onun gələcək maarifçilik fəaliyyətinə çox böyük müsbət təsir göstərmişdir. 1887-ci ildə oranı müvəffəqiyyətlə bitirən S.M.Qənizadə həmin ildə Bakıya gəlmiş, özünün məslək yoldaşı Həbib bəy Mahmudbəyovla barabar ilk yeni tipli "Rus-müsəlman" ibtidai məktəbini açaraq 1905-ci ilə qədər burada çalışmışdır.

S.M.Qənizadə müəllimlik etməklə kifayətlən-məmiş, həm də ədəbi fəaliyyətə başlamışdır. O, 1894-cü ildə uşaqlar üçün xalq nağılları əsasında "Tülkü və Çaq-çaq bəy" adlı mənzum hekayə, 1898-ci ildə "Məktubati-Şeydabəy Şirvani" ümumi başlığı altında nəşr etdirdiyi məşhur "Müəllimlər iftixarı" və 1900-cü ildə "Gəlinlər həmayili" adlı əsərlərini yazmışdır.

XX əsrin əvvəllərində Sultan Məcid Qənizadənin ədəbi-pedaqoji fəaliyyəti daha da genişlənir. Bu dövrdə onun həyatında və pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri Zaqafqaziya Müəllimlər Seminariyasındakı müfəttişlik fəaliyyətidir.

S.M.Qənizadənin müfəttiş təyin edilməsini alqışlayan N.Nərimanov 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi "Mühüm



bir məsələ" adlı məşhur məqaləsində yazırdı: "Yüz illərdə ixtiyarlarını itirmiş, indi zor ilə hərəkət edən millətlərə yavaş-yavaş ixtiyar verilir, hər millətin ana dili uşaqlar üçün vacib olub məktəblərdə oxunur".

Azərbaycan dili də müəllimlər seminariyasında məcburi fənlərdən hesab edilir, hətta "seminariyanın müsəlman şöbəsinə məşhur, qeyrətli, hümmətli mühərrirlərimizdən Sultanməcid Qənizadə inspektor təyin edildi".[1]

S.M.Qənizadə 1908-ci ildə Qori seminariyasından Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayon müfəttişi vəzifəsinə köçürülmüş və 1917-ci ilə kimi bu vəzifədə çalışmışdır.

Sovet hakimiyyəti illərində S.M.Qənizadə respublikanın Xalq Maarif Komissarlığında və bir sıra elmi-pedaqoji idarə və müəssisələrində çalışmış, bütün qüvvə və bacarığı ilə xalq maarifinin inkişafına kömək göstərmişdir.

S.M.Qənizadə 1937-ci ildə vəfat etmişdir.

S.M.Qənizadənin yaradıcılığında pedaqoji məsələ-lər mərkəzi yer tutur. O, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə ilk "rus-müsəlman" məktəblərinin banisi, görkəmli müəllim, qabaqcıl maarif xadimi, təcrübəli pedaqoq və metodist, eyni zamanda, pedaqogika nəzəriyyəçisi kimi daxil olmuşdur.

Onun pedaqoji fəaliyyətində və fikirlərində yeni maarif və məktəbin təbliği, elm və təhsilin əhəmiyyəti mühüm yer tutur. Özünün sənət yoldaşları olan H.Mahmudbəyov, F.Köçərli, N.Nərimanov, M.T.Sidqi, Ə.Cəfərzadə və onlarla başqaları kimi, Azərbaycan xalqının elm və mədəniyyət yolunda tərəqqi etməsinə sədaqətlə çalışmış, feodal-patrialxal adətlərin düşməni, yeni məktəbin, maarif və mədəniyyətin carçısı olmuşdur.

S.M.Qənizadə millətin məruz qaldığı ictimai bəlaların kökünü elmsizlikdə, savadsızlıqda görürdü. S.M.Qənizadə bu fikirdə idi ki, xalqı zülmətdən, qaranlıqdan, cəhalətdən xilas etmək üçün işıq lazımdır. "İşıq gələndə zülmət öz-özündən məhv olar və onunla belə, hər şey öz rəngində görünər".

---

[1] ("Həyat" qəzeti, 18 iyun 1906, №131).

Onun fikrincə, xalqın cəhalətdən qurtarması üçün lazım olan işıq – məktəbdir. Belə ki, "tərəqqiyi-səlimin əvvəlinci pilləsi məktəbxana astanasından başlanır. "Hər bir tərəqqinin" binası məktəbxana üstündə bərqərar olsa gərəkdir".

Beləliklə, dövrün bir sıra problemlərini, millətin məruz qaldığı bütün ictimai bəlaların kökünü elmsizlikdə görən S.M.Qənizadə elmi, məktəbi bütün tərəqqinin əsası hesab edirdi. O, "Müəllimlər iftixarı" əsərində ürək döyüntüsü ilə yazırdı: "Bizlər üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yansa gərəkdir. Cəhalət mülkünə, əgər bir möhrab doğacaq isə, yenə məktəb divarından tülu edəcəkdir...".

Maarif və məktəbi xalqın tərəqqisində mühüm amil hesab edən S.M.Qənizadə xalqın oyanacağına, bütün şəhər və kəndlərdə yeni-yeni məktəblər açılacağına, millət balalarının məktəbə cəlb edəcəyinə və xalqın əxlaqi tərbiyəsində özünü göstərən qüsurların aradan qalxacağına böyük inam bəsləyirdi.

Məhz buna görədir ki, o, Azərbaycanda meydana gələn yeni məktəbləri və məktəbdarları alqışlamış, ona sevinmişdir. Bu sevinc onun qəlbini pərvazlandırmışdır.

XIX əsr Azərbaycan məktəb tarixinə "rus-tatar" məktəbi adı ilə daxil olunmuş bu yeni tipli məktəblər özünün spesifik cəhətləri ilə fərqlənirlər. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan ərazisində ilk rus-Azərbaycan məktəbi bir çox tədqiqatçıların göstərdiyi kimi, 1887-ci ildə deyil, hələ xeyli əvvəl, 1875-ci ildə Gəncə quberniyası Qazax qəzasının Salahlı kəndində təsis edilmişdir. Bu məktəbin banisi milliyyətcə tatar olan Qazax sakini Tauxiddin Mamleyev idi.

Keçən əsrin 70-ci illərində Tiflisə gələn Tauxiddin Mamleyev 1872-ci ildə imtahan verərək müəllimlik hüququ almış, QTD-nin icazəsi ilə Salahlı kəndində rus-Azərbaycan məktəbi açılmışdır. Bu məktəb bir sinifli xüsusi məktəb idi.

Tədris planına şəriət, Azərbaycan və rus dillərində oxu və yazı, hesab, rəsmxət, təcrübi qrammatika və gimnastika daxil idi. Yeganə məktəbin müvəffəqiyyəti digər quberniyalardan əvvəl məhz Gəncə quberniyasının kəndlərində rus dilində dövlət məktəblərinin meydana gəlməsini sürətləndirdi.

Göstərilən məktəb 1878-ci ildə zemstvo məktəbinə çevrildi və təhsil haqqı ləğv edildi. Bir sıra müvəffəqiyyətlərinə baxmayaraq



Salahlı rus-Azərbaycan məktəbi eyni adlı təhsil ocaqlarının sonrakı inkişafında elə bir rol oynamadı. Sonralar bu adla məktəblərin meydana gəlməsi və cəmi Qafqazda geniş yayılması sözün həqiqi mənasında Azərbaycanın görkəmli pedaqoqoları "iki həmvətən, həmdərd və həmməslək" (H.Vəzirov) olan S.M.Qənizadə ilə H.Mahmudbəyovun fəaliyyəti ilə bağlıdır.

Müsəlman dininə mənsub olduqlarından şəhər məktəblərində dərs deməlari qanunla qadağan edilən S.M.Qənizadə ilə H.Mahmudbəyov Bakıya gələrək 1887-ci ildə xüsusi rus-Azərbaycan məktəbi təsis etdilər.

Məktəbin tədris planına Azərbaycan, rus və fars dilləri, hesab, coğrafiya, tarix və şəriət daxil idi. Qısa müddət ərzində xalqın hörmətini qazanan Bakı rus-Azərbaycan məktəbi 1891-ci ildə camaatın tələbi nəticəsində dövlət xərcinə keçirildi. Bu məktəblərin sayı ilbəil artırdı. XIX əsrin son 10 ili ərzində təkcə Bakı şəhərində rus-Azərbaycan məktəbi fəaliyyət göstərirdi.

Həmin dövrdə Şuşa,Nuxa, Naxçıvan, Şamaxı, Gəncə şəhərlərində və digər yerlərdə də rus-Azərbaycan məktəbləri meydana gəldi və XIX əsrin əvvəllərində xeyli genişləndi.

Kəndlərdə də belə məktəblər təsis edildi. Rus-Azərbaycan məktəbləri özünün orijinallığı, daxili quruluşu, təhsilin məzmunu, yerli əhali üçün daha əlverişli olması ilə Zaqafqaziya və Qafqazın digər yerlərində yaşayan müsəlmanların da diqqətini cəlb etdi və o, yerlərə də yayıldı.

Göstərilən məktəblərin müvəffəqiyyəti, hər şeydən əvvəl, orada real fənlərin tədrisi, təlimin yeni üsulla aparılması ilə əlaqədar idi. Məktəbin baniləri təlim-tərbiyə işini irəlilədən dərsliklər, tədris vasitələri tərtib edir və nəşr etdirirdilər.

S.M.Əfəndiyev, C.Cabbarlı, M.Müşfiq, S.Rüstəm, S.Hüseyn, F.Qasımzadə və b. ilk təhsilini bu məktəblərdə almışlar. Bu məktəblər azərbaycanlılardan olan müəllim kadrlarının hazırlanmasına da xeyli kömək etdi.

Rus-Azərbaycan məktəblərinin müəllimləri, çarizmin ağır şəraitinə baxmayaraq xalq arasında elmi, təhsili, qabaqcıl rus və Azərbaycan mədəniyyətini yaydılar. Bu məktəblər XIX əsr Azərbaycan ibtidai məktəbləri içərisində ən əhəmiyyətli və faydalı məktəb tipi idi.

İnqilabdan sonra Azərbaycanda sovet məktəblərinin yaradılmasında rus-Azərbaycan məktəblərinin qabaqcıl təcrübəsindən istifadə edilmişdir. Çox səciyyəvidir ki, yeni tipli tədris ocağı olan bu məktəblərin şöhrəti Bakıdan çox-çox uzaqlara yayılmış, az bir müddət içərisində Azərbaycanın bir sıra rayon və şəhərlərində yaradılmışdır.

Naxçıvan, Səlyan, Şuşa, Gəncə, Şamaxı və başqa yerlərdə, sonralar isə İrəvanda, Orta Asiyada, Stavropolda, Teymurxanşurada da həmin tipdə məktəblər meydana gəldi. S.M.Qənizadə 1893-cü ildə Səmərqəndə gedərək qırx gün orada qalıb səs üsulu ilə dərs verilən məktəb açmışdı.

S.M.Qənizadənin mühüm xidmətlərindən biri də bundan ibarət idi ki, o, dərsliklər yaratmaq kimi məsul bir işə girişmiş və bu sahədə də xeyli iş görmüşdür.

S.M.Qənizadə rus və Azərbaycan dillərinin qarşılıqlı surətdə öyrənilməsi işinə xüsusi əhəmiyyət verirdi. Onun "Azərbaycan dilində yazıb oxumaq və sərf-nəhvi öyrənmək üçün rusca yazılmış dəstəvuz"hesab etdiyi "İslahati-Azərbaycan" Qafqazda yaşayan azərbaycanlıların rus və Azərbaycan dillərinin təcrübi yolla öyrənilməsinə kömək edən ən yaxşı dərslik idi.

Məhz bunun nəticəsidir ki, bu dərslik 1890-cı ildən 1922-ci ilə qədər altı dəfə nəşr edilmiş, hər dəfə müəllif onun üzərində yenidən işləmiş, müvafiq dəyişikliklər edərək sadə mətnlər, sxemlər, izah və lüğətlər daxil etməklə dilin təcrübi öyrənilməsini yaxşılaşdırmağa çalışmışdır.

Onun dərslikləri sadədən mürəkkəbə, yaxından uzağa prinsipi əsasında tərtib edilmişdir. Bu dərsliklərin bir əhəmiyyəti budur ki, cümlə təhlili və qrammatik qaydaların öyrənilməsi üçün verilən mətnlər, şagirdlərin əxlaqi tərbiyəsi nöqteyi-nəzərindən diqqətlə seçilmiş, tərbiyəvi mahiyyətli əsərlərdən nümunələr verilmişdir.

S.M.Qənizadə təkcə dərsliklər tərtib etməklə kifayətlənməmiş, həm də şagirdlər üçün sinifdənkənar oxu kitabları tərtib etmiş və öz dostlarını da bu işə cəlb etmişdir.

Təzəcə açılmış yeni tipli məktəbdə şagirdlərin yaş səviyyəsinə uyğun, sağlam məfkurəli oxu kitabları yox idi. S.M.Qənizadə belə bir vəziyyətin qarşısını almaq, şagirdləri sağlam məfkurəli ədəbiyyatla qidalandırmaq, onları birinci növbədə



mütərəqqi rus mədəniyyəti ilə tanış etmək məqsədi ilə "Nübar", "Cami-mərifət", "Çıraq" və N.Nərimanovla birlikdə "Sovqat" adlı uşaq qəzet və yurnalları nəşr etməyə təşəbbüs göstərmişdir. Lakin S.M.Qənizadənin bu nəcib səyi çar senzurasına xoş gəlməmiş, onun bu təşəbbüsləri rədd edilmişdi.

S.M.Qənizadə öz dövrünün şairlərinə müraciət edərək onları millət balalarının tərbiyəsinə, əxlaqına və təhsilinə kömək edən əsərlər, xüsusilə hekayələr yazmağa çağırırdı. Tərbiyəvi mahiyyətli əsərləri yüksək qiymətləndirirdi. Onun Azərbaycan xalq nağıllarının elm və tərbiyəvi təsirinə xüsusi əhəmiyyət verməsi maarifpərvərliyini təsdiqləyirdi.

S.M.Qənizadənin pedaqoji fikirlərində əxlaq, onun tarixi kateqoriya olması, zəhmətkeşlərin mütərəqqi əxlaqi keyfiyyətlərə malik olması göstərilir. Onun fikrincə, dünya malına, malik olmaqdansa, yüksək əxlaqi keyfiy-yətlərə malik olmaq, mərifət sahibi olmaq daha faydalıdır. Dünyada dövlət təkcə mala, mülkə, çoxlu qızıla malik olmağa deyilmir, insanın əsil dövləti onun əxlaqi keyfiyyətləri, səxavəti, dəyanətidir və bu dövlət tükən-məzdir, əbədidir, sərfəlidir.

S.M.Qənizadənin pedaqoji fikirlərində, ümumi şəkildə olsa da, əxlaqi tərbiyənin üsul və vəzifələri öz əksini tapmışdır. O, xalqın, o cümlədən gənclərin əxlaqi tərbiyəsinə təsir edən amillər içərisində bədii ədəbiyyatın rolunu qiymətləndirir, bədii əsərlər vasitəsilə oxucunun əxlaqına, tərbiyəsinə təsir etməyi mühüm vasitə hesab edirdi.

S.M.Qənizadə öz bədii əsərlərinə bu nöqteyi-nəzərdən yanaşmış və bunlar vasitəsilə oxucunun şüuruna nüfuz etməyə, ona nəcib insani hisslər aşılamağa çalışmışdır. Onun fikrincə bədii əsərlərin məzmunlu və zəngin tərbiyəvi mahiyyətli olmalıdır.

S.M.Qənizadə maarifçi dostu M.T.Sidqiyə yazdığı bir məktubda da bu məsələyə toxunur və oxucunun əxlaqına, tərbiyəsinə müsbət təsir göstərən həyati əsərlər yazmağı lazım bilirdi. Bu cəhətdən o, Sidqinin əsərlərinə yüksək qiymət verir və deyirdi ki, Sidqinin əsərlərinin hamısı sidq-ürəkdəndir, onları əzbərləmək lazımdır".

S.M.Qənizadənin fikirlərində bədii əsər və teatrla bərabər, gəncinin mətbuatın, xüsusilə qəzetin böyük tərbiyəvi rolu öz əksini tapmışdır. O, qəzeti "ümumi və mühüm iş" adlandırır, qəzet nəşr

edənləri müdafiə edir, nəşrə başlayan hər bir yeni qəzeti alqışlayır, xalqın maariflənməsi və ümumi mədəni tərəqqisi yolunda irəliyə atılmış addım hesab edirdi.

S.M.Qənizadənin fikrincə, şəxsiyyətin təşəkkülün-də özünütərbiyənin də böyük rolu vardır. O, deyirdi ki, hər bir insanın əxlaqi saflığı daim özünütərbiyə etməkdən, öz qüsurlarını ləğv etməyə çalışmaqdan asılıdır.

S.M.Qənizadənin pedaqoji fikirlərində mərkəzi yerlərdən birini müəllim vəzifəsi tutur. Bu fikirlər onun bir sıra bədii əsərlərində, xüsusilə «Müəllimlər iftixarı» əsərində real əksini tapmışdır.Ona görə ki, bu əsər tərbiyəvi mahiyyətlidir.

S.M.Qənizadə tərbiyə işinin müvəffəqiyyətlə aparılmasında müəllimin bacarığını, istedadını yüksək qiymətləndirirdi. O, deyirdi ki, "Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilirsə, yaxşı müəllim kəctab millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər".

S.M.Qənizadə parta arxasında oturan körpə uşaqların arasında sabahın yaradıcılarını görür və onların düzgün tərbiyə olunmasını tələb edirdi. Onun fikrincə, müəllimin nəsihəti, tərbiyəsi hər cür bahalı şeylərdən, məsələn, qızıl həmayildən və mirvari kəlübənddən qiymətlidir. Çünki onlar sinə və gərdan zinəti ikən, bu, ruh və can nicatı üçündür. Azərbaycanda mütərəqqi pedaqoji ideyalardan qidalanan və onu davam etdirən S.M.Qənizadənin pedaqoji irsi çox zəngindir. Onun əsərləri Azərbaycanda pedaqoji fikrin inkişafında müəyyən rol oynamış, onun təsis etdiyi "rus-müsəlman" məktəbi əsasında yaradılan məktəblərdə minlərlə azərbaycanlı balaları təlim-tərbiyə almış, onun dərslikləri, lüğətləri, bədii əsərləri və tərcümələri azərbaycanlı balalarının və zəhmətkeşlərin zehni və mənəvi tərəqqisinə kömək etmişdir.

S.M.Qənizadənin yarıməsirlik praktik pedaqoji fikirləri milli və pedaqoji fikir taiximizin ayrılmaz hissəsini təşkil edir. Onu ölümsüzlüyün əbədiyaşar parlaq zirvəsinə yüksəldir. Ona görə ki, Sultan Məcid Qənizadənin yaratdığı zəngin əbədi irsi onu yaşadır və ona ümumxalq məhəbbəti qazandırır.



## HƏBİB BƏY MAHMUDBƏYOV (1864-1828)

XIX əsr Azərbaycan məktəb tarixində fəxri yer tutan "rus-tatar" (Azərbaycan) məktəblərinin meydana gəlməsi və inkişafı sözün həqiqi mənasında S.M.Qənizadə ilə bərabər, həm də, H.İ.Mahmudbəyovun adı ilə bağlıdır.

Azərbaycanda məktəb və maarif işlərinin tərəqqisində yorulmadan çalışan, şüurlu həyatının qırx bir ilini maarif işlərinə sərf edən Azərbaycanın qabaqcıl maarifpərvəri və ilk müəllimlərindən olan Həbib bəy Mahmudbəyov 1864-cü il iyun ayının 6-da Şamaxı şəhərində anadan olmuşdur.

Onun atası İbrahim Xəlil xeyirxah və məktəb işini sevən bir adam idi. O, Şamaxıda uşaqları məktəbə cəlb etmək və yoxsul şagirdlərə yardım göstərməkdən çəkinməzdi. Hamı ona xeyirxah və qayğıkeş insan kimi hörmət edirdi.

Həbib bəy səkkiz yaşında ikən Şamaxıda məhəllə məktə-bində oxumağa başlamışdır. Molla Mirzə Hüseynin məktəbində verilən dini-sxolastik təhsil Həbib bəyi təmin etmədiyindən, o, Şamaxı şəhər məktəbinə daxil olmuşdur.

1872-ci ildə Şamaxı zəlzələsi nəticəsində şəhər məktəbinin binası tamamilə uçduğundan Həbib bəy təhsilini davam etdirmək üçün Bakıya köçmüşdür. 1873-cü ildə Bakıda realnı məktəbinə daxil olmuş və 1881-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

Həbib bəy müəllim olmaq, xalqı cəhalətin və avamlığın ağır pəncəsindən xilas etmək arzusu ilə yaşayan gənclərdən idi. O, bu məqsədlə də 1882-ci ildə Tiflis Aleksandrovski Müəllimlər İns-titutuna daxil olmuşdur. Azərbaycanda maarif və məktəb işlərinin ağır vəziyyətdə olduğu illərdə, yəni 1887-ci ildə o, həmin institutu bitirib şəhər məktəbi müəllimi adını almış və Sultan Məcid Qənizadə ilə birlikdə Bakıya gəlmişdir.

Çar maarif məmurlarının və yerli mürtəce əhval-ruhiyyəli şəxslərin, həmçinin ruhanilərin müqavimətindən qorxmayan Həbib bəy Mahmudbəyov və S.M.Qənizadə Qafqaz Tədris Dairəsinə ərizə verib məktəb açmaq üçün icazə istəmişlər. Böyük əzab-əziyyətdən sonra Qafqaz Tədris Dairəsinin 27.09.1887-ci il, 5771 №-li təliqəsi

əsasında həmin ilin oktyabr ayında azərbaycanlı uşaqlara yeni qaydada təlim-tərbiyə vermək və xüsusi fənn kimi ana dilini təlim etmək üçün Bakıda ilk "rus-tatar" məktəbini açmağa nail olmuşlar.

Həbib bəy Mahmudbəyov sonralar, bu məktəbin təşkilinin böyük əhəmiyyətindən bəhs edərək yazmışdır: "Bütün Rusiyada bizim məktəblər müdhiş bir vəziyyətdə idi. Ana dili hər yerdə gözdən düşmüşdü, onu öyrənmirdilər, bir dənə də olsa türkcə dərslik yox idi. Biz, şüurlu gənc müəllimlər, necə olursa olsun öz ana dilimizi diriltməli, rus-tatar məktəblərində onun məcburi bir fənn kimi keçilməsinə nail olmalı, dərsliklər tərtib etməli, ruscadan türkcəyə (azərbaycancaya) uşaq hekayələri tərcümə etməli, qiraətxana və kitabxanalar açmalı, uşaq jurnalları nəşr etməli idik".

Beləliklə, gənc müəllimlər öz qarşılarında çox mühüm məsələlərin həllini qoymuş və mənalı həyatlarını xalqa namusla xidmət etmək kimi müqəddəs bir işə həsr etmişlər.

Həbib bəy Mahmudbəyovla Sultan Məcid Qənizadənin açdıqları məktəbin bir məqsədi də azərbaycanlı uşaqları hökumət məktəblərinə, xüsusən də realnı məktəblərə hazırlamaqdan ibarət olmuşdur.

Sinif məşğələləri üçün ayrılan iki otağın təchizatı on altı ədəd partadan, iki yazı taxtasından, iki stol və bir neçə stuldan ibarət idi. Üç otaq isə müəllimlər otağı idi. Həmin məktəbin 1887-ci il üzrə dərs cədvəlindən görün-düyü kimi, orada rus, tatar və fars dilləri, həmçinin hesab və şəriət dərsləri keçirilirdi. S.M.Qənizadə ana dili ilə fars dilini, Həbib bəy isə hesab və rus dilini tədris edirdi.

Bu məktəbin rus-tatar məktəbi adlanmasının səbəbi o idi ki, burada həm dövlət dili olan rus dili, həm də yerli xalqın dili kimi Azərbaycan dili tədris olunurdu. Həbib bəyin məktəbində ilk günlər 10-15 nəfər şagird oxuduğu halda, az bir vaxtda şagirdlərin sayı 50 nəfərə çatır, 2-ci dərs ilində isə məktəbdə 80 nəfər şagird təhsil alırdı.

Bu, xüsusi məktəb sayıldığından, dövlət ona maddi yardım göstərmirdi. Burada təhsil haqqından əldə edilən pul çox az olduğundan müəllimləri və məktəbi idarə etmək mümkün deyildi. "Rus-tatar" məktəbində oxuyan şagirdlərin bir çoxu Bakının yoxsul təbəqəsinə aid olduğundan onlar təhsil haqqından azad edilmişdilər.

Həbib bəy Mahmudbəyovla Sultan Məcid Qənizadə maddi cəhətdən çox çətinlik çəkirdilər. Yoxsulluq və məhrumiyyətlərlə dolu olan həyatlarını az da olsa yüngülləşdirmək məqsədi ilə onlar boş



vaxtlarda xüsusi dərs deyir, xəritə və yazı nümunələri çap etdirib satmaqla özlərini dolandırırdılar.

Həbib bəy məktəbin maddi vəziyyətini bir qədər yüngülləşdirmək üçün onu dövlət hesabına keçirməyi Bakı şəhər Dumasından xahiş etmişdi. Dumanın sərəncamı ilə təşkil olunmuş məktəb komissiyası şagirdlərin biliyini yoxlayıb onların müvəffəqiyyətlərindən razı qalır. Ümumiyyətlə, «digər məktəblərlə müqayisədə «Rus-tatar» məktəbinin şagirdləri təlim müvəffəqiyyətlərində heç də geri qalmırdılar».

Bundan sonra Həbib bəy məktəbin ümumi xərci üçün Bakı Duması nəzdində olan məktəb komissiyasından ildə altı yüz manat pul almağa müvəffəq olur. Xeyli əziyyətdən və bir çox çətinliklər çəkdikdən sonra Həbib bəy Mahmudbəyovun və S.M.Qənizadənin gərgin əməyi səmərə verməyə başlayır, "Rus-tatar" məktəbini bitirən şagirdlər o vaxta qədər azərbaycanlı uşaqların daxil ola bilmədikləri Bakı realnı məktəbinə, həmçinin texniki və ticarət məktəblərinə müvəffəqiyyətlə imtahan verirlər.

"Rus-tatar" məktəbinin fəaliyyət göstərdiyi dörd ildə oranı yüz nəfərə qədər şagird bitirmişdi. Bu məktəbi bitirən şagirdlər savadlı idilər.

Beləliklə, 1887-ci ildə Həbib bəy Mahmudbəyovun və Sultan Məcid Qənizadənin təşəbbüsü ilə Bakıda ilk dəfə açılmış xüsusi «Rus-tatar» məktəbinin sayı getdikcə artdı. Belə ki, 1913-cü ildə Azərbaycanda on üç belə məktəb var idi. Onlardan doqquzu oğlan, üçü qız «Rus-tatar» məktəbi və biri isə 6 sinifli "Rus-tatar" məktəbi idi. Yetmiş müəllimi olan bu məktəblərdə 2.243 oğlan, 337 qız təhsil almışdı ki, onlar da azərbaycanlı qızlar idi.

Həbib bəy Mahmudbəyov «Rus-tatar» məktəbi ilə yanaşı olaraq 1889-cu il 20 sentyabrdan 1891-ci il 1 sentyabra kimi Mixaylovski Bakı şəhər məktəbində müəllimlik də etmişdir. Qafqaz Tədris Dairəsinin 1905-ci il 17.09.1386 №li əmrinə əsasən Həbib bəy 1.09.1905-ci ildən 1916-cı ilə qədər Bakı ikisinifli şəhər məktəbində müdir vəzifəsində çalışmışdır.

Bu görkəmli maarif xadimi iyirmi beş ilə qədər Bakıda Duma nəzdində olan məktəb komissiyasının üzvü olmuşdur. Burada o, müəllimlərin, xüsusilə «Rus-tatar» məktəblərində dərs deyən Azərbaycan dili müəllimlərinin əmək haqqının artırılması üçün xüsusi səy göstərmişdir.

Həbib bəy Azərbaycanda sovet hökumətinin yeni tədbirlərini, xalq maarifi və məktəb sahəsindəki bəyannaməsini təbii qarşılamışdır. O, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk günlərdən etibarən bütün bilik və qüvvəsini xalq maarifinin yenidən qurulmasına, sovet məktəbinin təşkilinə yönəltmişdir. Yeni müəllim kurslarının təşkilində yaxından iştirak edən Həbib bəyin özü də şəxsən orada dərs demişdir.

Həbib bəy Mahmudbəyov 1921-ci ildə Azərbaycan Ali Pedaqoji İnstitutunun təşkili və açılışında yaxından iştirak etmiş, 1927-ci ilə kimi institutda direktor müavini vəzifəsində işləmiş və rus dili dərsi demişdir.

Fədakar xalq müəllimi və görkəmli maarif xadimi olan Həbib bəy Mahmudbəyov 1928-ci ilin yayında vəfat etmişdir.

Azərbaycan xalqı gənc nəslin təlim-tərbiyəsində və maarif sahəsində böyük xidmət göstərmiş H. Mahmudbəyovu daim yüksək ehiram və hörmətlə yad edir və xatırlayır. Həbib bəy Mahmudbəyovun adı əbədiləşdirilmiş, zəngin ədəbi irsindən müəyyən nümunələr çap olunmuş, haqqında əsərlər yazılmış, müqəddəs məzarı milyonlarla insanların ziyarətgahına çevrilmiş, əbədiyaşar mahir pedaqoji, əməkdar maarif xadimi kimi əbədiyaşar fəxri adı qazanmışdır.



## CƏLİL MƏMMƏDQULUZADƏ
## (1869-1932)

Görkəmli yazıçı, "Molla Nəsrəddin" ədəbi məktəbinin və tənqidi realizmin banisi, istedadlı nasir, hekayə ustadı, məsuliyyətli dramaturq, mahir publisist, azərbaycançılıq ideologiyasının yaradıcılarından biri Cəlil Məmmədquluzadə mahir ictimai-siyasi, elm-maarif, ədəbiyyat və mədəniyyət xadimidir.

Yeni ədəbi məktəb yaratması, kiçik hekayələrin böyük ustadı, mübariz "Molla Nəsrəddin" jurnalına rəhbərlik etməsi Cəlil Məmmədquluzadəyə "Mirzə" rütbəsi qazanmaq şərəfini vermişdir.

Qədim tarixə malik olan Azərbaycan ədəbiyyatında millilik, ziyalılıq, vətəndaşlıq cəhətləri "Mirzə" adını daşıyan M.F.Axundov, M.Ş.Vazeh, M.Ə.Sabir kimi dahi sənətkarlara nəsib olmuş, onlar öz şəxsiyyətində və yaradıcılığında bu müqəddəs adı parlaq zirvələrə yüksəltmişlər.

Müasir dövrümüzdə "mirzə" zözü "ustad" mənasını bildirir və xalq yazıçısı, xalq şairi titulunu ifadə edir. Bəşər mədəniyyətinin görkəmli şəxsiyyəti, böyük demokrat, xalqımızın milli iftixarı Mirzə Cəlil Məmmədquluzadənin yaradıcılıq yolu, ədəbi irsi gənc nəslin müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsinin misilsiz məktəbidir.

Cəlil Məmmədquluzadə 1866-cı il fevralın 10-da Naxçıvanda anadan olmuşdur. O, uşaqlıq və gənclik illərini təbiətin bu cənnət guşəsində keçirmiş, humanist, vətənpərvər, əməksevər, qayğıkeş, tələbkar və müdrik bir gənc kimi böyümüşdür.

Cəlilin atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu (1840-1905) təhsil almamışdır. O, çox zəngin dünyagörüşünə və təbii biliyə malik olmuş, övladlarının təhsil almağına çalışmışdır.

Cəlil Məmmədquluzadə 1873-1878-ci illərdə mollaxanada oxumuş, ərəb və fars dillərini, Şərq tarixi və ədəbiyyatını öyrənməyə həvəs göstərmiş, müəyyən nailiyyətlərə yiyələnmişdir.

Cəlil Məmmədquluzadə Naxçıvan şəhər üçsinifli ibtidai məktəbdə oxumuş, müəllimlər ona gözəl münasibət bəsləmiş, bilik vermişlər. Məktəbin müdiri Konstantin Nikitin (1832-1894), Qori Müəllimlər Seminariyasını uğurla bitirmiş Əliməmməd Xəlilov

(1862-1896) və başqa müəllimlər Cəlil Məmməd-quluzadəyə qayğı bəsləmiş, biliyini zənginləşdirmişlər.

Cəlil Məmmədquluzadə 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasını uğurla bitirmiş, A. O. Çernya-yevski (1840-1894), D.D.Semyonov (1834-1902), Mirzə Əbdülsəlam Axundzadə (1843-1907), Səfərəli bəy Vəlibəyov (1861-1902) və başqa mahir pedaqoqlardan dərs almış, elmi-nəzəri və pedaqoji-metodik görüşlərindən bəhrələnmişdir.

Cəlil Məmmədquluzadə seminariyada mədəni-kütləvi tədbirlərdə fəal iştirak etmiş, inşa və tərcümə dərslərində, ədəbi gecələrdə səmərəli çalışmışdır. Cəlil Məmmədquluzadə 1887-ci ilin sentyabr və otyabr aylarında Irəvan quberniyasının Uluxanlı kənd ibtidai məktəbində müəllimlik etmişdir.

Cəlil Məmmədquluzadə Əliməmməd Xəlil oğlunun müdir olduğu Baş Noraşen məktəbində 1887-ci il 13 noyabrda pedaqoji fəaliyyətə başlamışdır. O, Baş Noraşen kəndində bədii yaradıcılığa başlayır və "Çay dəsgahı" alleqorik dramını yazır.

Cəlil Məmmədquluzadə 1890-cı ildə Nehrəm kənd ikisinifli məktəbdə müəllim işləməyə başlamış və 1897-ci ilə kimi işləmiş, ümumxalq hörməti qazanmışdır. O, Nehrəmdə müəllimlik etməklə kifayətlənməmiş, "Kişmiş oyunu" (1892) pyesini, "Danabaş kəndinin əhvalatları" (1894) povestini yazıb oxuculara ərməğan vermişdir.

Cəlil Məmmədquluzadə 1895-ci ildə Moskva və Peterburqa səfər etmiş, maarifpərvər dünyagörüşünü zənginləşdirmiş, xalqı maarifə cəlb etməyə çalışmışdır.

Cəlil Məmmədquluzadə Nehrəmdə müəllim işləyərkən 1896-cı ildə Həlimə Nağı qızı ilə ailə həyatı qurmuşdur. Onun qızı Münəvvər Məmmədzadə (1897-1965) anadan olmuşdur. Həlimə xanım 1897-ci ildə vəfat etmiş, Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində pedaqoji fəaliyyətini dayandırmışdır.

Cəlil Məmmədquluzadə 1897-1903-cü illərdə İrəvan və Naxçıvan hüquq orqanlarında işləmiş, 1903-cü ildə "Poçt qutusu" hekayəsini yazmışdır.

Cəlil Məmmədquluzadə 1901-ci ildə Nazlı xanım Kəngərli ilə ailə həyatı qurmuş, ancaq Nazlı xanım 1904-cü ildə Tiflisdə vəfat etmişdir. Cəlil Məmmədquluzadə 1903-cü ilin dekabrından Tiflisdə yaşamış, Məmmədtağı Şahtaxtlinskinin (1846-1931) Tiflisdə nəşr



etdirdiyi "Şərqi-Rus" qəzetində əməkdaşlıq etmiş, hekayə, məqalə və oçerklərinin qəzetdə dərc edilməsinə nail olmuşdur.

Cəlil Məmmədquluzadə Ömər Faiq Nemanzadə və Məşədi Ələsgər Bağırovla bu mətbəəni almış, orada işləməyə başlamışdır. Cəlil Məmmədquluzadə 1906-cı il aprelin 7-də Tiflisdə "Molla Nəsrəddin" jurnalını çap etdirmiş, Azərbaycanın və Şərqin həyatında şərəfli fəaliyyət göstərən bu jurnalın təsisçisi və banisi olmuşdur.

"Molla Nəsrəddin" jurnalı 1917-ci ilə qədər Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-ci illərdə Bakıda nəşr olunmuşdur. Cəlil Məmmədquluzadə 1907-ci ildə Qarabağın məşhur xanlarından olan Əhmədbəy Cavanşirin qızı Həmidə xanımla (1873-1955) ailə həyatı qurmuşdur.

Cəlil Məmmədquluzadə ilə Həmidə xanımın Midhət (1908-1932) və Ənvər (1911-1979) adlı oğlanları olmuşdur. Midhət Məmmədquluzadə Politexnik İnistitutu, Ənvər Məmmədquluzadə Azərbaycan Tibb Universitetini bitirmişdir.

Cəlil Məmmədquluzadə 1920-ci ilin sentyabrından 1921-ci ilin mart ayına kimi Cənubi Azərbaycanın Təbriz şəhərində yaşamış, burada "Molla Nəsrəddin"jurnalının səkkiz nömrəsini çap etdirib yaymışdır.

"Molla Nəsrəddin" öz mündəricısinə görə zəmanəsinin ən mütərəqqi, ən populyar, ən kütləvi və oxunaqlı bir jurnalı idi. Bütün bunlara görədir ki, bu jurnal tez bir zamanda böyük nüfuz qazandı və geniş yayıldı.

Jurnalın qarşısına qoyduğu başlıca məsələlərindən biri zəhmətkeş kütlə içərisində maarifçilik ideyalarını yaymaq, geriliyi, nadanlığı, cəhaləti tənqid atəşinə tutmaq idi. Mirzə Cəlil jurnalın məqsədini belə izah edirdi:

"Bizim birinci işimiz, birinci vəzifəmiz gözümüzün qabağında dərin yuxuda olan islam milləti idi. Bəxti qara Şərqin yatmış millətlərinin qəflət yuxusundan ayılması məsələsi idi".

Sadə xalq dilində nəşr olunan jurnal ilk nömrələrindən birində belə yazırdı: "Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub o qədər xa-xa edib güldünüz... Əgər bilmək istəsəniz kimin özünə güldünüz, o vaxt qoyunuz qarşınıza ayinəni və diqqət ilə baxınız camalınıza...".

Mirzə Cəlilin tənqid atəşinə tutduğu obyektlərdən biri cahil mollalar, çar məmurları, bəylər və xanlar, istismarçılar və başqaları idi.

Cəlil Məmədquluzadənin pedaqoji ideyaları M.F.Axundov ənənələrini davam etdirərək Azərbaycanda pedaqoji hərəkata qabaqcıl mədəniyyətin təsirinin genişlənməsinə xidmət edirdi.

Cəlil Məmmədquluzadənin pedaqoji fikirləri içərisində vətənpərvərlik, xalqlar dostluğu, humanizm, nikbinlik, sadəlik, təvazökarlıq, səmimilik, mərhəmətlilik, mehribanlıq, səxavətlilik və s. kimi əxlaqi-mənəvi keyfiyyətlər mühüm yer tutur.

Mirzə Cəlil xalqın dilini, dilin saflığını onun varlığının mühüm şərtlərindən biri hesab edirdi. O, bir sıra məqalə və hekayələrindən ana dilini xarici dillərin təsirindən qoruyub saxlamağa çalışırdı.

"Molla Nəsrəddin" jurnalında xəlqilik ideyası, təlim-tərbiyənin ana dilində aparılması ideyası geniş surətdə təbliğ edilir, ana dili tədrisi bütün təlim işinin mərkəzinə qoyulurdu.

"Molla Nəsrəddin" jurnalı ana dilində məktəblərin açılması və dərslərin ana dilində aparılmasını təkidlə irəli sürərkən, onu hərarətlə müdafiə edərkən ana dilinin saflığını da müdafiə edir və onun ərəb, fars, osmanlı sözlərindən xilas olmasına çalışırdı.

"Molla Nəsrəddin" jurnalı yazırdı ki, Azərbaycanın görkəmli oğulları olan Abbasqulu Ağa Bakıxanov, M.F.Axundov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi öz əsərlərini, nəsihətnamələrini, dram əsərlərini Azərbaycan dilində yazmışlar, onlar doğma Azərbaycan dilini sevmişlər, onun təmizliyini, səlistliyini, gözəlliyini müdafiə etmişlər, onlar arzu etmişlər ki, uşaqlarımız ana dilində dərs oxusunlar.

Cəlil Məmmədquluzadə 1932-ci il 4 yanvarda Bakı şəhərində vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuş, məzarı ziyarətgaha çevrilmişdir. Cəlil Məmmədquluzadənin əsərləri çap olunmuş, onun haqqında dissertasiyalar, monoqrafiyalar, bədii əsərlər, xatirələr yazılmış, adı əbədiləşdirilmiş, Naxçıvanda, Cəlilabadda heykəlləri ucaldılmış, yubileyləri keçirilmiş, ölüm-süzlüyün parlaq zirvəsinə yüksəldilmiş, milyonların qəlbində əbədi yaşamaq hörməti qazanmışdır.



## ƏHMƏD BƏY AĞAOĞLU (ƏHMƏD BƏY HƏSƏN BƏY OĞLU AĞAYEV) (1869-1939)

Azərbaycan maarif və mədəniyyət tarixində görkəmli ictimai-siyasi və pedaqoji-metodik elm xadimi Əhməd bəy Ağayev təhsilini xaricdə almış, latın, yunan, fransız, ingilis, rus dillərini mükəmməl bilən, on bir kitabın, yüzdən çox elmi-nəzəri, pedaqoji-metodik məqalənin müəllifi dahi şəxsiyyətdir.

Əhməd bəy Həsən bəy oğlu Ağayev 1869-cu ildə Şuşada anadan olmuşdur. Uşaqlıq və gənclik illərini təbiətin bu romantik dilbər guşəsində keçirmiş, vətənpərvər, əməksevər, humanist, müdrik bir gənc kimi böyümüşdür.

Əhmədi atası Həsən bəy Şuşa məhəlli məktəbinə qoymuş, o, bu məktəbdə ərəb və fars dillərini mükəmməl öyrənmişdi. Təhsilini Şuşanın rus məktəbində davam etdirməyə başlamışdır. Bu məktəb Şuşanın ermənilər yaşayan yuxarı hissəsində yerləşirdi. Məktəbdə Əhmədlə dörd nəfər azərbaycanli, cəmi beş nəfər oxuyurmuş. Onları ermənilər təhqir etmiş, həmişə əziyyət verdiklərinə görə məktəbi yalnız Əhməd bitirmişdir.

Əhməd bəy Ağaoğlu yazırdı: "Bu beş nəfərin illər boyu davam edən təhsil həyatında erməni cocuqlarından çəkdikləri zülmü təsvir etmək imkan xaricindədir. Yüzlərlə erməni cocuğu birdən üstümüzə hücum edirlər. Müqavimət göstərmək fikrinə düşəndə şapaz və təpik altında bizi əzirdilər. Bəzən gizlincə sözü bir yerə qoyub üzərimizə bir böhtan atır, hamısı üzümüzə şahid durur, bizə haqsız yerə cəza verdirməyə nail olurdular. Arkadaşlarımızın çoxu dözə bilmədilər. Məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən yalnız mən tab gətirə bildim".

Əhməd Şuşada təhsilini bitirə bilmir. Tiflisdə bir saylı gimnaziyaya daxil olur, əlaçı oxuyur və 1885-ci ildə uğurla qurtarır. O, gürcü dilini də mükəmməl öyrənir.

Ə.Ağaoğlu 1885-ci ildə Peterburq Texnologiya İnstitutuna qəbul olur. Ancaq xəstə olduğuna görə birinci kursdan sonra Vətənə qayıdır.

Əhməd bəy Ağaoğlu 1888-ci ildə Parisə gedir və 1894-cü ilə qədər Fransa kollecində, siyasi biliklər və hüquq məktəblərində oxuyur, həm də Parisdə Sarbanna Universitetinin ilahiyyat

fakültəsini bitirir. O, latın, yunan, fransız, ingilis, rus dillərini mükəmməl öyrənir.

Təhsilini xarici ölkədə almış ilk azərbaycanlı Əhməd bəy Ağaoğlu 1892-ci ildə İngiltərədə dünya şərqşünaslarının Beynəlxalq Konqresində "Şiyə məzhəbinin qaynaqları" mövzusunda məruzə edir və mükafatlandırılır. Fransada görkəmli ilahiyyatçı Şeyx Cəmaləddin Əfqani ilə tanış olur, islahatçılıq, ideyalarını öyrənir.

Ə.Ağaoğlunun 1927-ci ildə İstanbulda çap olunan kitabında İslam dininin müasir həyatla əlaqəsi verilir. Ə.Ağaoğlu doqquz dili mükəmməl bilirdi, on bir kitabın və yüzdən çox elmi-nəzəri məqalənin müəllifi idi.

Ə.Ağaoğlu 1894-cü ildə Fransadan Şuşaya gələndə maarifpərvər elm xadimi Əli bəy Hüseynzadə ilə tanış olur. O, Türkiyədə Sultan Əbdülhəmid rejiminə qarşı çıxan "Gənc türklər" təşkilatı ilə tanış olur, onun ideyasını inkişaf etdirməyə başlayır.

Ə.Ağaoğlu Rusiyada yaşayan görkəmli müsəlman mütəfəkkiri İsmayıl Qaspiralı, Q. İbrahimov, V.Toğan, Y.Akçura və başqaları ilə ümumtürk problemi ətrafında səmərəli mübarizəyə başlayır.

Ə.Ağaoğlu "İslama görə və islamçılıqda qadın", "İslam, Axund və hatiful-qeyb" əsərlərində və bir sıra məqalələrində M.Şaxtaxtinski, E.Sultanov, S.Mehmandarov, N.Nərimanov, T.Bayraməlibəyov və başqaları kimi rus mətbuatında Qərbin və Rusiyanın antiislam meyllərini ifşa etmişdir.

Ə.Ağaoğlu Bakı qubernatorluğunun dəftərxanasın-da müdir işləmiş, Bakıda və Şuşada fransız dilindən dərs demiş, "Kaspi", "Kavkaz" və başqa qəzetlərdə məqalələr çap etdirmişdir.

H.Z.Tağıyevin (1821-1926) təsis etdiyi "Kaspi" qəzetində Ə.Ağaoğlu 1898-ci ildən ictimai xadim və hüquqşünas Ə.Topçubaşovla birlikdə redaktor işləmiş, qəzeti zənginləşdirmişdir.

Əhməd bəy Ağaoğlunun "Məşriq" adlı qəzet buraxmaq arzusu nəticəsiz qalır, icazə verilmir. O, "İrşad" qəzetində əməkdaşlığa başlayır. Bundan əlavə "Kavkaz", "Kaspi", "Həyat", "Proqres", "Tərəqqi" və s. qəzetlərdə fəal iştirak edir.

Ə.Ağaoğlu "Gənc türklər" təşkilatının Türkiyədə hakimiyyətə gəlməsinə görə, 1909-cu ildə İstanbula köçür. İstanbulda jurnalistik, ictimai-siyasi, elmi-nəzəri və pedaqoji-metodik fəaliyyətini səmərəli davam etdirir. O, 1911-ci ilin noyabr ayında "Türk yurdu" jurnalını nasirlərindən biri olur və jurnalın inkişafına təkan



verir. Jurnalda azadlıq, xoşbəxtlik, təlim-tərbiyə mahiyyətli materialların dərc olunmasına geniş-şərait yaradır, müxbirlərin səmərəli işləməsini təbliğ edir.

Vətənə və xalqa səmimi xidmətinə görə onu "Tərcümani-həqiqət" və "Gənc türk" qəzetlərinə redaktor təyin edir, ona qayğı bəsləyirlər.

Ə.Ağaoğlu İstanbul Universitetində türk mədəniyyəti tarixindən, islam hüququndan, rus dili və ədəbiyyatından mühazirələr oxuyur. Görkəmli mütəfəkkir Ə.Ağaoğlu 1914-cü ildə Türkiyə Millət Məclisinin üzvü seçilir. 1918-ci ildə Azərbaycan xalqına hərbi yardım göstərmək üçün Azərbaycana gələn Türk qoşunları komandanının hərbi müşaviri təyin olunur.

Ə.Ağaoğlu Gəncə şəhərində 1918-ci ildə dörd ay qalır və bu dövrdə "Türk sözü"adlı qəzet yaradır, onun təsisçisi və redaktoru olub gəncəlilərə hədiyyə verir. Ə.Ağaoğlu "Gənc türklər" təşkilatına səmimi münasibətinə görə ingilislər tərəfindən İstanbulda həbs edilir, "İttihad və Tərəqqi" partiyasının yetmiş nəfərdən ibarət üzvləri Aralıq dənizindəki Malta adasına sürgün edilir və burada üç il həbsdə qalır.

Ancaq sürgün illərində üç il Maltada "Üç mədəniyyət" adlı əsərini yazır. Əsər 1927-ci ildə İstanbulda çap olunur. Onun sürgün müddəti 1922-ci ilin fevralında qurtarır. O, İstanbula gəlir. Ə.Ağaoğlu 1923-cü ildə Ankaraya köçür, orada Respublika Türkiyəsinin ilk prezidenti Böyük Mustafa Kamal Atatürkün ən yaxın məsləkdaşlarından biri olur.

Türkiyədə mətbuat və xəbərlər idarəsinin müdiri işləyir, "Xalq Cümhuriyyəti partiyası"nın və "Xalq Partiyası" təşkilatçılarından biri kimi fəaliyyət göstərir, "Hakimiyyət milliyyət" qəzetinin redaktoru vəzifəsində səmərəli çalışır.

Əhməd bəy Ağaoğlunun "Üç mədəniyyət" (1927), "Hindistan və İngiltərə" (1929) , "Sərbəst insanlar ölkəsində" (1936), "Dövlət və fərd" (1936),"Türk hüquq tarixi" (1931-1933), "Mən ...yəm" (1936), "Sərbəst firqə xatirələri" (1950) adlı kitabları İstanbul şəhərində, "Türk-təşkilatı əsasiyyəsi" (1925-1942), "İxtilam, inqilab-mı?"(1941-1942) adlı kitabları isə Ankara şəhərində nəşr edilmişdir.

Görkəmli alim, publisist, hüquqşünas, ilahiyyatçı, istedadlı yazıçı, mahir pedaqoq Əhməd bəy Ağaoğlu mütərəqqi ideyalarını kitablarında ətraflı şərh edib oxuculara çatdırır.

Əhməd bəy Ağaoğlu Yaxın və Orta Şərqdə, Rusiyada və Qərbi Avropada Şərqşünas, publisist, tənqidçi, ictimai xadim kimi tanınmış, hörmət qazanmışdır. Şuşada Azərbaycan dilində qiraət zalı açmış, London, İstanbul və Kembric universitetlərində 1892-ci illərdə mühazirələr oxumuş, 1905-ci ildən "Həyat" qəzetinin redaktoru olmuşdur.

Əhməd bəy Ağaoğlu 27 oktyabr 1900-cü il tarixli "Kaspi" qəzetində dərc edilən "Qafqazda məktəb məsələsi" adlı məqaləsində yazmışdır: "Məktəb hər yerdə və hər zaman sadəcə olaraq məktəb olmalı, daha doğrusu tərbiyə və təhsil məbədi olaraq qalmalı və təcrübəli tərbiyəçilərin rəhbərliyi altında uşaqlara və öz sənətinə məhəbbətilə ilhamlanan gənc nəslin tərbiyə olunduğu yer olmalıdır ki, burada onlar daha çox elmi, yaxud praktik xeyirli məlumatlar almış olsunlar. Yalnız belə məktəb, məktəb adlana bilər, daha doğrusu elm və təhsil məbədi sayıla bilər ki, insanlar din və milliyyətindən asılı olmayaraq ümumi ideyalar, ümumi sevgi ilə birləşdirə, birbirinə yaxınlaşdıra, qovuşdura bilər ki, ən korlanmış insan ürəyi belə bu ideallar qarşısında baş əyə bilər".

Əhməd bəy Ağaoğlu müsəlman xalqlarının mənəvi tələbatını ödəmək imkanına malik olmayan ənənəvi məktəb və mədrəsələrdə islahatlar aparılmasının tərəfdarı idi. O, azadlığın və xoşbəxtliyin, təhsilin carçısı olmuşdur.

Əhmədin anası Nairə xanım və böyük əmisi Hacı Mirzə Məhəmməd onun oxuması üçün çox əmək sərf etmişdir.Əhmədin anası Sarıcaəli elindən Rəfi bəyin qızı Nairə xanım idi. Əhməd Ağaoğlu yazır ki, "anam incə, zərif, həssas bir varlıq idi. Anam sarıvəlli elinin ədası ilə hüsünlü, ələmli nağıllar söylər, mənə tərbiyə verər, elm öyrənməyə məndə həvəs yaradardı".

Anası Əhmədin evdə atası və əmisindən gizli rus dilində təhsil almasını təşkil edir, riyaziyyat, tarix, coğrafiya fənlərindən ilkin məlumatı yiyələnməsinə nail olur.

Əhməd bəy Ağaoğlu 1939-cu ildə vəfat etmiş, ölümsüzlüyün əbədiyaşar parlaq zirvəsinə yüksəlmişdir!

Əbədiyaşar mütəfəkkir Əhməd bəy Ağaoğlu, İsmayılbəy Qaspıralı, Yusif Akçura, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Məhəm-



məd Əmin Rəsulzadə və başqa milli demokratiya düşüncəli, dahi şəxsiyyətlərlə birlikdə vətənpərvər, əməksevər, xeyirxah, müdrik tarixi şəxsiyyət olmuşdur.

Türkdilli xalqların milli inkişafında türkçülük (pantürkizm) ideyaları mütərəqqi rol oynamışdır. Bu ideya azad yaşamağın, vətənpərvər, əməksevər, humanist, bacarıqlı, mübariz olmağın carçısı idi.

Əhməd bəy Ağaoğlunun ideyalarına müasir Türkiyə həyatı, dahi Mustafa Kamal Paşa Atatürkün qoyduğu sosial-siyasi xətt bəraət qazandırmış, onun həqiqət meyarı olduğunu təsdiqləmişdir. 1924-cü il 24 iyul tarixli Lozani müqaviləsi türklərin şanlı qələbəsini təsdiqlədi. Türkiyə qələbə çaldı, öz indiki torpaqlarını qoruyub saxladı. Ziya Göyalpın 1991-ci ildə Bakıda çap olunan "Türkçülüyn əsasları" kitabında göstərilir ki, işğalçıları Türk dövləti darmadağın edib ölkədən qovdu.

Əhməd bəy Ağaoğlu yazır: "Dövlət millətindir. Millət dövləti quran ünsürdür. Bütün hakimiyyət ona aid olduğu kimi, bütün hüquq da ondadır".

Görkəmli elm və mədəniyyət xadimi, istedadlı hüquqşünas Əhməd bəy Ağaoğlu vətənpərvər, əməksevər, mahir pedaqoq və əbədiyaşar tarixi şəxsiyyətdir.

Təəssüflər olsun ki, xaricdə təhsil alan ilk azərbaycanlı, doqquz dili mükəmməl bilən, on bir kitabın, yüzdən artıq elmi-nəzəri və pedaqoji-metodik məqalənin müəllifi, məsuliyyətli tədqiqatçı, elmin və mədəniyyətin mütəfəkkiri Əhməd bəy Ağaoğlunun həyatı, yaradıcılığı, zəngin elmi-nəzəri, ədəbi-tarixi irsi tədqiq olunmamış, onun haqqında elmi-tədqiqat monoqrafiyası yazılmamış, əsərləri çap olunub oxuculara ərməğan verilməmiş, adı əbədiləşdirilməmiş, abidəsi ucaldılmamışdır. Mənalı ömrünü Vətəninə və xalqına həsr etmiş, doqquz dili mükəmməl bilən, on bir kitabın, yüzdən artıq elmi-nəzəri məqalənin müəllifi, məsuliyyətli tədqiqatçı, mahir pedaqoq Əhməd bəy Həsən oğlu Ağayevin (Əhməd bəy Ağaoğlunun) əsərləri çap olunmalı, adı əbədiləşdirilməlidir.

Xoşbəxtlikdən görkəmli alim Şahnəzər Həsənov "Əhmədbəy Ağaoğlunun dünyagörüşü" (1998) adlı faydalı monoqrafiyasını yazmış, prof. Camal Mustafaye-vin redaktorluğu ilə çap olunmuş, oxuculara hədiyyə verilmişdir. Əqidəsi pak, vicdanı təmiz, nəcib əməlli, parlaq zəkalı, istedadlı mütəfəkkir Əhməd bəy Ağaoğlu

yaratdığı zəngin ədəbi-tarixi salnamə ilə milyonların qəlbində yaşamış, yaşayır və əbədi yaşayacaqdır.



## NƏRİMAN NƏRİMANOV
## (1870-1925)

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, azadlıq, xoşbəxtlik, maarif və mədəniyyət ideyalarının carçısı, M.F.Axundov realist məktəbinin ilk davamçısı, istedadlı nasir, dramaturq, publisist Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov qabaqcıl ideyaların carçısı, mahir pedaqoq, dahi sənətkardır.

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. Uşaqlıq illərini bu cənnət diyarda keçirmiş, təhsilə çox səmərəli maraq göstərmiş, qardaşından və əmisindən yazıb-oxumaq öyrənmiş, ədəbiyyatla tanış olmağı özünə şərəfli borc bilmişdir.

Nəriman Nərimanov 1882-ci ildə Qori Müəllimlər Seminariyasının nəzdində olan ibtidai məktəbdə oxumuş, 1885-ci ildə seminariyaya qəbul olmuş və 1890-cı ildə bitirmişdir. Tələbəlik illərini mənalı keçirmiş, ictimai və mədəni tədbirlərdə fəal iştirak etmiş, həmişə mükafatlandırılmışdır.

Nəriman Nərimanov 1890-cı ildə Tiflis quberniyasının Qızılhacılı kəndinə müəllim təyin edilmiş, bir il işlədikdən sonra Bakıya köçmüş və progimnaziyada müəllimlik etmişdir. Bundan sonra realnı məktəbdə və oğlan gimnaziyasında gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmuş, pedaqoji fəaliyyətini davam etdirmişdir.

Nəriman Nərimanov 1894-cü ildə Bakıda kütləvi xalq qiraətxanası açır. Qiraətxana geniş fəaliyyətə başlayır, burada müşavirələr və kitab müzakirələri, zəngin tədbirlər keçirilir. Nəriman Nərimanov fəal çalışır və dərin hörmət qazanır.

Bu dövrdə N.Nərimanov ana dilində dərsliklər tərtib edir, bədii əsərlər və məqalələr yazır. N.Nərimanov "Təzə xəbərlər" adlı qəzet, "Sovqat" və "Məktəb" adlı jurnallar nəşr etmək üçün çar idarələrinə müraciət edir. Ancaq müxtəlif bəhanələrlə onun xahişləri rədd olunur.

N.Nərimanov "Nadanlıq" (1894) pyesini, "Dilin bəlası, yaxud Şamdan bəy" (1895) komediyasını, "Bahadır vəSona" (1896) romanını, "Nadir şah"(1899) faciəsini yazır, N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə edir.

N.Nərimanov Azərbaycan qəzalarına gedir, tamaşalar təşkil edir, kənd məktəblərinin tikilməsinə ciddi kömək göstərir. N.Nərimanovun atası 1840-cı ildə vəfat edir. Ancaq ali təhsil almaq arzusu ilə yaşayır.

N.Nərimanov 1902-ci ildə Odessa Universitetinin tibb fakültəsinə qəbul olur və əlaçı oxuyur. 1905-ci ildə universitet müvəqqəti bağlanır. Nərimanov Bakıya qayıdır, "Hümmət" təşkilatında çalışır, məqalələr yazır. Sonra universitetə gedir. 1908-ci ildə universiteti bitirib Bakıya gəlir, şəhər xəstəxanasında həkim işləyir.

N.Nərimanov 1909-cu ildə Tiflisə gedir, mart ayında inqilabi təbliğat üstündə həbs olunur və yeddi ay Metex qalasında saxlanıldıqdan sonra iki il müddətinə Həştərxana sürgün edilir. Həştərxanda məqalələr yazır, mühazirələr oxuyur. Həştərxan zəhmətkeşləri onu şəhər dumasına üzvü seçirlər.

N.Nərimanov 1913-cü ildə Bakıya qayıdır və Qara şəhər xəstəxanasında cəhalət əleyhinə mübarizə aparır və "Pir" (1913), "Bir kəndin sərgüzəşti" (1915) əsərlərini yazır.

Nəriman Nərimanov 1917-ci ildə "Hümbət" qəzetinin baş redaktoru olur, 1918-ci ildə N.Nərimanov xalq komissarı vəzifəsində işləyir. V.İ.Lenin Nərimanovu 1919-cu ildə Moskvaya çağırır və Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq Şöbəsinin müdiri vəzifəsinə təyin etdirir.

Nəriman Nərimanov Azərbaycan İnqilab Komitəsinin sədri vəzifəsində, Azərbaycan Xalq Komissarları Sovetinin sədri vəzifəsində işləyir. O, xalqın maddi və mənəvi inkişafına səmərəli xidmət edir və ümumxalq məhəbbəti qazanır.

Nəriman Nərimanov SSR İttifaqı Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri vəzifəsinə seçilmişdir. N.Nərimanov həmin vəzifədə işləyərkən 1925-ci ildə Moskvada vəfat etmişdir. Nəriman Nərimanov Moskvada Qızıl meydanda dəfn edilmiş, məzarı üstündə büstü ucaldılmışdır. Nəriman Nərimanovun məzarı milyonlarla insanların ziyarətgahına çevrilmişdir.

Nəriman Nərimanovun adı əbədiləşdirilmiş, əsərləri nəşr edilmiş, xatirə muzeyi yaradılmış, haqqında tədqiqat və bədii əsərlər, xatirələr yazılmış, dissertasiyalar müdafiə olunmuş, abidəsi ucaldılmışdır.

Azərbaycan pedaqoji fikir və məktəb tarixinin salnaməsində şərəfli yer tutan, istedadlı dramaturq, nasir, publisist, tərcüməçi,



ictimai-siyasi dövlət xadimi Nəriman Nərimanov mənalı həyatını xalqın azadlığı, xalq maarifi və mədəniyyətinin inkişafı uğrunda mübarizəyə həsr etmiş dahi şəxsiyyətdir.

Nəriman Nərimanov ədəbiyyatın bədii sənətkarlıq, həyatilik, səmimilik, inandırıcılıq və təlim-tərbiyəvi, bədii-estetik mahiyyətini yüksək qiymətləndirirdi. O, ədəbiyyatı ictimai məsələlərlə məşğul olan ideoloji təbliğat vasitəsi adlandırırdı. Nəriman Nərimanov mollanəsrəddinçilər kimi, bədii əsərdə danışıq dilinin təbiiliyini, canlılığını, əlvanlığını müdafiə edib saxlamağın zəruriliyini göstərir, özü də bu göstərdiyi xüsusiyyətlərə səmərəli əməl edirdi. Buna görə də mahir pedaqoq və fitri istedadlı yazıçı kimi ümumxalq məhəbbəti qazanır, ictimai-siyasi dövlət xadimi kimi Vətənə və xalqa şərəfli xidmət edirdi.

Nəriman Nərimanov mahir pedaqoq, istedadlı nasir, dramaturq, publisist, məsuliyyətli həkim və görkəmli dövlət xadimi idi. Şərəfli fəaliyyətində həmişə xalqın birliyi, xoşbəxtliyi, azadlığı və möhkəm dostluğu uğrunda mübarizə aparan Nəriman Nərimanov istismarçı hakim sinfə nifrət etmiş, onu kəskin tənqid atəşinə tutmuşdur.

Nəriman Nərimanovu xalqımızın ağır vəziyyətdə yaşaması, ölkədə savadsızlığın, məktəblərdə nizam-intizamsızlığın kök salması narahat edir, ciddi mübarizə aparmağın zəruriliyini göstərirdi. Buna görə də dünya elmlərinin öyrənilməsini təbliğ edir, uşaqların yeni tipli məktəblərdə oxumasına çalışırdı.

N.Nərimanovun 1899-cu ildə nəşr etdirdiyi «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi», «Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça», "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça» adlı dərslikləri xüsusi əhəmiyyətə malik olmuşdur.

«Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» Azərbaycan məktəblərində səmərəli dərslik olmuşdur. Nəriman Nərimanov, H.Zərdabi, F.Ağayev, S.S.Axundov, A.Şaiq, Ü.Hacıbəyov kimi maarifpərvər yoldaşları ilə birlikdə 1906-cı ildə Bakıda Azərbaycan müəllimlərinin birinci qurultayının çağırılmasına çalışmışdır. Onun bu dövrdə yazıb çap etdirdiyi "Müəllimlər ictimainə dair", «Müsəlman müəllimlərinin yığıncağı münasibətilə bir neçə söz" və s. məqalələri maarif və məktəbə həsr olunmuşdur.

N.Nərimanov 1906-cı il avqustun 15-dən 28-nə kimi davam edən birinci qurultayda əlifba islahatı, yeni proqram və dərsliklər tərtibi, ana dili təlimi haqqında məsələlərin həllində şərəfli fəaliyyət göstərmişdir.

N.Nərimanovun xalqın mənəvi-əxlaqi kamilliyini əsas amil sayır, tərbiyənin məqsədinin vətənini və xalqını sevən mübariz, fiziki cəhətdən sağlam gənc nəsl yetişdirməkdən ibarət olduğunu şərh edir. O, pedaqoji fikirlərində təhsil və tərbiyənin vəhdətini, təhsilin tərbiyəyə müsbət təsirini həyati faktlar əsasında təhlil etmişdir.

N.Nərimanov insan şəxsiyyətinin formalaşmasında tərbiyənin rolunu əsərlərində yüksək qiymətləndirir. O, uşaqların tərbiyəsində valideynlərin əsas fəaliyyət göstərməsinin, çox məsuliyyətli olmasının ətraflı şərhini verir. Tərbiyəçi tərbiyə işində ardıcıl olmalı, xeyirxahlığa, tələbkarlığa əməl etməlidir. Tərbiyə tam, ardıcıl və müntəzəm verilməlidir.

N.Nərimanovun əsərlərində şəxsiyyət, vicdan və fikir azadlığı, insan fəaliyyətində şərəf ucalığı çox təsirli və inandırıcı verilir, oxucunun qəlbini pərvazlandırır. Gənc nəslin əxlaq tərbiyəsinin çox məsuliyyətli və şərəfli olduğu, əxlaqi normaların zəmanənin dəyişməsi ilə əlaqədar olaraq dəyişib inkişaf etməsi inandırıcı bədii təsvirini tapır.

N.Nərimanov xalqlar dostluğunun möhkəmlən-məsini yüksək qiymətləndirir və "Hümmət" qəzetində yazır ki, "bizim məsləkimiz bütün insanları birləşdirməkdir. Millətlər üçün vahid olan məqsəd və ideal bütün millətləri qardaşlığa dəvət edir".

Dahi sənətkar, mahir pedaqoq N.Nərimanov Vətən, millət, xalq üçün çalışmağı xeyirxahlıq, müdriklik, vətənpərvərlik hesab edir, Vətənin xoşbəxtliyini insanların müqəddəs arzusu adlandırır. O, fiziki və zehni əməyi yüksək qiymətləndirir, bəşəriyyətin xoşbəxtliyini əməkdə görür, yüksək əxlaqi keyfiyyətlərin yaranmasında əməyin əsas olduğunu təsdiqləyir.

N.Nərimanov pedaqoji fikirlərində dini-fanatizmi tənqid edir, cahil və müftəxor ruhanilərə nifrət yağdırır. Onun pedaqoji irsində təlimin məzmunu və üsulları yüksək dəyərləndirilir, mollaxanalarda və dövlət məktəblərində aparılan ruslaşdırma siyasəti kəskin tənqid edilir.

"Millətin dilini bilmədən, onun dərdinə dava etmək çətindir" müqəddəs kəlamın müəllifi N.Nərimanov ana dilini qiymətli gövhər



adlandırır, onu inkişaf etdirən və keşiyində duran Həsənoğlu, Füzuli, Vidadi, Vaqif, Zakir kimi dahi sənətkarların zəngin irsini yüksək qiymətləndirir və gənc nəslə öyrədilməsini vacib sayır.

N.Nərimanov ana dilinin təlim və tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi:

"Ana dili... nə qədər ali, hissiyati qəlbiyyə oyandıran bir kəlmədir! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzmli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqətimadəranəni sənə o dildə bəyan edibdir, bir dil ki, sən hələ bələkdə ikən lay-lay şəklində öz mənafeyini sənə yetirib ruhun ən dərin guşələrində nəqş bağlayıbdır!"

N.Nərimanov Azərbaycan dili və ədəbiyyatının inkişafı uğrunda ardıcıl mübarizə aparmışdır. O, yazırdı ki, azərbaycanlı uşaqlar nəinki Puşkinin, hətta Şeksprin və Şillerin şerlərini öyrənməlidirlər. Lakin bunu o zaman edə bilir ki, əvvəl M.Ə.Sabirin, M.P.Vaqifin, Qasım bəy Zakirin, M.V.Vidadinin şerlərini öyrənmiş olsunlar.

N.Nərimanov pedaqoji fəaliyyətində qadın təhsili məsələsinə çox məsuliyyətli diqqət yetirir, qadının hüquqsuzluğu, təhsildən məhrum olması, istismar edilməsi haqqında müqəddəs ideyasını açıqlayır, bu sahədə mübarizə aparmağın zəruriliyini göstərir.

İnqilabdan əvvəl və sovet hakimiyyəti dövründə N.Nərimanov qadınların təhsilə cəlb edilməsinə qayğı göstərmiş, çıxış və məruzələrində qadınların təhsilə cəlb edilməsinin vacib problemlərdən biri olmasının elmi-nəzəri şərhini vermişdir.

Azərbaycan qadınlarının azadlığı işində N. Nərimanovun xidmətlərinə böyük əhəmiyyət verən A.Sultanova yazırdı ki, N.Nərimanov Şərq qadınlarının azadlığı yolunda ilk mübarizə aparanlardandır. O, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk günlərdən qadınlar arasında iş məsələsini irəli sürür, bir çox kütləvi mitinqlərdə, konfrans və qurultaylardakı çıxışlarında qadın azadlığını ardıcıl müdafiə edir. A.Sultanova yazmışdır: "Biz onun simasında qadınlar arasında işin bütün məsələlərinin möhkəm müdafiəçisini görürdük".

Azərbaycanın qabaqcıl fikirli müəllim və maarifçiləri olan H.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Köçərli, N.Vəzirov, S.M.Qənizadə, Ü.Hacıbəyov, S.S.Axundov, Ə.Əfəndiyev, M.Mahmudbəyov, F.Ağazadə və başqaları kimi

N.Nərimanov da məktəblərdə təlim-tərbiyə işlərinin müvəffəqiyyətlə həyata keçirilməsində müəllimin roluna aid bir sıra maraqlı fikirlər söyləmişdir.

N.Nərimanov xalqın inkişafında müəllimin əməyini yüksək qiymətləndirir, müəllimin xalqın arasındakı səmərəli fəaliyyətini, xalqın mədəni inkişafına çalışmasını dəyərləndirir. O, müəllimdən tələb edir ki, pedaqogikanı, təlim və tərbiyənin prinsip və üsullarını, psixologiyanı mükəmməl bilmək, həm də təlim prosesində şüurlu öyrətmək lazımdır.

N.Nərimanov şagirdlərin fərdi xüsusiyyətlərini təlim-tərbiyə işində nailiyyətin əsası hesab edərək yazırdı:

"Hər uşağın özünə məxsus bir qeyri xasiyyəti, təbiəti olmağına görə hamıya bir qayda və qanun ilə dərs vermək, hamıya bir dildə bəyan etmək olmaz. Hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası, zehinli, zəkavətli, bir parası zehinsiz, fəhmsiz, bir parasının qüvveyi hafizəsi qüvvətli, bir parasınınkı naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mühafizə edər, hər kəsin öz biliyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eybinə görə çarə taparsa, əlbəttə, təlim və tərbiyə düz yol ilə gedib, tərəqqi əla dərəcəsinə çatar".

N.Nərimanov 1879-cu ildə açılmış Azərbaycan şöbəsinin Qoridən Azərbaycana köçürülməsini əsas problemlərdən biri kimi qiymətləndirir və yazırdı: "Açıq deməli, Qori darülmüəllimi Bakıda, Gəncədə və ya qeyri müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı, altmış nəfər müsəlman uşağı və daha ziyada öz evlərində olarkən seminariyada elm təhsil etməyə mümkünləri olacaqdır. Yəni gündüzlər padşahlıq, xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub, axşamlar öz evlərinə gedərlər".

Qori Müəllimlər Seminariyasının Azərbaycana köçürülməsi müəllim kadrların artması məsələsinə kömək edəcəyinə şübhə yoxdur, həm də xalqın ümumi mədəni tərəqqisinə təsir göstərəcəyi inandırıcıdır.

N.Nərimanov 1919-cu ildə Həştərxan quberniya xalq maarif şöbəsinin müdiri vəzifəsində işlədiyi zaman qısa müddətli pedaqoji kurslar açıb müəllimlər hazırlamasını təşkil etmişdi. N.Nərimanov "Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub"unda yazmışdır:



"Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər çətin, ağır və məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan çox şey varsa, onun ən birincisi zəhmətdir. Ona görə də Sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmət sevən olsunlar. Yəni başqasının yox, öz zəhmətlərinin qüvvəsinə ehtiyaclarını rəfedici olsunlar".

N.Nərimanov gənc nəsildə əməyə məhəbbət aşılanmasını, təbiəti sevməyi onlara öyrətməyi müəllimin şərəfli vəzifəsi hesab etmişdir. O demişdir ki, müəllimlər cəsur, cürətli, dəyanətli, doğruçu və vicdanlı dövlət və hökumət qurucuları olacaq gənc nəsli yetişdirməlidirlər. N.Nərimanov yazmışdı: "Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar.

Yəni bir parça çörəkdən ötəri ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün qatığa qara deməsinlər".

Şagirdlərin düzlük və doğruçuluq tərbiyəsində müəllimin şəxsi nümunəsinə böyük üstünlük verən və şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alan Nəriman Nərimanov göstərdi ki, "uşaqlarla daima əlaqədar olan hərəkətinizdə, sözünüzdə artıq dərəcədə ehtiyatlı olmalısınız, çünki uşaq gördüyünü tez götürər.

Azərbaycan Şərq üçün bir məktəbdir. Yəni Şərq hazırki halında qalarsa, biz ona hər cəhətdən müəllim olacağıq".

N.Nərimanov göstərmişdir ki, müəllim fədakar olmalı, xalqın xoşbəxtliyi və azadlığı uğrunda, uşaqların savadlı, mübariz, cürətli, çalışqan, əməksevər, vətənpərvər yetişməsində səmərəli çalışmalıdır.

Müəllim ömrünü xalq yolunda, zəhmətkeş balalarının təlim-tərbiyəsi uğrunda fəaliyyətə həsr etməli, ümumxalq məhəbbəti qazanmalıdır. Müəllim uşağı sevməli, ona qayğı göstərməli, təlim-tərbiyə üsullarını mükəmməl bilməlidir. Ona görə ki, müəllim yalnız uşaqların müəllimi deyil, həm də özünün müəllimidir.

Görkəmli elm və mədəniyyət, maarif və dövlət xadimi Nəriman Nərimanov əməksevər, zəhmətkeşlərin azadlığı, xoşbəxtliyi, xalq maarifi və mədəniyyətinin, Azərbaycan ədəbiyyatının inkişafı uğrunda səmərəli mübarizə aparan, Vətənə və xalqa şərəfli xidmət edən tarixi şəxsiyyət, əbədiyaşar dahi sənətkar və uzaqgörüşlü mahir pedaqoq olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev (1923-2004) Nəriman Nərimanovu "dövlət xadimi", "böyük və qaynar həyatını bütünlüklə partiya və xalq işinə sərf etmiş dahi sənətkar" adlandırmış, Vətənin və xalqın azadlığı uğrunda şərəfli mübarizə aparan, sadə xalq müəllimliyindən görkəmli dövlət xadimi vəzifəsinə qədər yüksələn Nəriman Nərimanovun əbədiyaşar mütəfəkkir olduğunu göstərmişdir.

Mahir pedaqoq Nəriman Nərimanov zəngin ədəbi-bədii irsi və ictimai-siyasi fəaliyyətinin canlı salnaməsi ilə insanların qəlbində yaşamış, yaşayır və yaşayacaqdır.



## ÖMƏR FAİQ NEMANZADƏ (1872-1937)

XX əsr Azərbaycan ictimai-siyasi fikrinin inkişafında mahir pedaqoq, görkəmli publisist, istedadlı yazıçı və şair Ömər Faiq Nemanzadə mənalı ömrünü Vətəninə və xalqına həsr etmişdir. Xalqımızın azadlığı uğrunda mübarizədə, maarifin inkişafında, mətbuatın yaradılmasında və yayılmasında Ömər Faiq Nemanzadə ədəbiyyat, mədəniyyət və ictimai xadim kimi tanınmış və xalqın dərin məhəbbətini qazanmışdır.

Ömər Faiq Nemanzadə 1872-ci ildə Gürcüstanın keçmiş Axalsix qəzasinin Azqur kəndində Neman kişinin ailəsində anadan olmuşdur. Uşaqlığını Axalsix qəzasının romantik qoynunda keçirmişdir. O, bir neçə il molla məktəbində oxumuşdur. Ancaq dini təlim onu qane etməmişdir.

Atasının arzusu ilə yeni açılmış rus məktəbinə daxil olmuş, rus dilini öyrənmişdir. Onun arzusu Qori Müəllimlər Seminariyasında oxumaq olmuşdur. Lakin dindar anası "oğlumu kafirlərin içərisinə buraxmaram" deyib etiraz etmişdir.

Ömər Faiq xatirələrində yazır ki, anamın təkidi ilə 1882-ci ildə İstanbula "Fateh" mədrəsəsinə getdim. Lakin mədrəsədə dini tədrisdən imtina edir və dünyəvi elmlər öyrədilən "Darüş-şəfəq" adlı dövlət məktəbinə dəyişirilir.

Bu məktəbdə şəriət dərslərindən əlavə, tarix, fizika, kimya, coğrafiya, zoologiya fənləri tədris olunur, fransız dilinin öyrənilməsinə xüsusi fikir verilirdi. İtanbul ədəbi-ictimai mühiti Ömər Faiqin mütərəqqi dünyqgörüşünün inkişafına gözəl təsir edir.

"Darüş-şəfəq" pansionunda müdavimlər həftədə bir dəfə şəhərə buraxılırdılar. İnqilab yuvasına çevrilən pansionda müdavimlər gizli şəkildə Namiq Kamalın, Tofiq Fikrətin və başqa görkəmli sənətkarların istibdad əleyhinə yazılmış əsərlərini, müxtəlif qəzet və jurnalları oxuyurdular.

Ömər Faiq təxminən on il burada təhsil alır. O, sinif yoldaşları ilə divar qəzeti çıxardığına görə bir ay həbs edilir, ciddi əziyyət çəkir.

Ömər Faiq 1891-ci ildə məktəbi bitirir və Qalata poçtxanasında fəaliyyətə başlayır. Burada bir il işləyir. İstibdada qarşı mübarizə aparan inqilabçı türk gəncləri ilə gizli əlaqə saxlayır.

Onların gizli fəaliyyəti aşkarlananda Ömər Faiq çətinliklə qaçıb Vətənə gəlir və Batumda bir ay həbs olunur. Onu bir həmyerlisi zaminə götürüb Vətənə gətirir. Vətəndə fanatiklər onu "kafir Ömər" deyə məclislərdən qovur, hörmətdən salmağa çalışırlar.

Ömər Faiq vətənpərvər azərbaycanlı cavanlarla möhkəm dost olur və 1892-ci ildən onlarla Azərbaycan xalqının azadlığı uğrunda mübarizənin ön sıralarında fəaliyyət göstərir.

1894-cü ilin sentyabrından Şəki şəhərində pedaqoji fəaliyyətə başlayan Ömər Faiq yazırdı: "Hər millətin tərəqqi dərəcəsi müəllimlərin dərəcəsi ilə bilinir. Müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir".

Şəkidəki "Üsuli-cədid" məktəbini Ömər Faiq özü açmışdır. Məktəbdə iki yüz şagird oxuyurdu ki, bunların əksəriyyəti pulsuz oxuyan kasıb uşaqları idi.

Yeni tədris üsulunda Naxçıvanda ilk məktəbi M.T.Sidqi, Lənkəranda M.İ.Qasir, Şuşada M.M.Nəvvab açmışdır. Ömər Faiq həmin pedaqoqların bünövrəsini qoyduqları yeni üsuli-cədid məktəbini davam etdirmişdir.

Ömər faiq Nemanzadə "Şərqi-Rus" qəzetində, "Qeyrət" mətbəəsində və "Molla Nəsrəddin" jurnalında çalışdığı dövrdə də müəllimliyi özünə şərəf saymışdır. Görkəmli elm xadimi Əziz Şərif "Keçmiş günlərdən" adlı xatirələr kitabında yazır: "Cəlil Məmmədquluzadə Azərbaycan balalarını gimnaziyaya girməyə hazırlaşdırmaq üçün Tiflisdə xüsusi pansion açmış və məni də bu pansiona qoymağı atama təklif etmişdir... Pansionda Cəlil Məmmədquluzadə özü bizə rusca, Ömər Faiq Nemanzadə isə azərbaycanca dərs verirdi"

Şəkidəki dördsinifli məktəbdə Ömər Faiq Nemanzadə, Məhəmməd Hafiz Əfəndi Şexzadə, Molla Tacəddin və seminariya qurtarmış Qəzənfər dərs deyirdi. Bir az sonra məşhur maarif xadimi Şəfiqə xanım Əfəndizadənin əri, cərrah Fuad Əfəndiyevin və peşəkar tərcüməçi Adil Əfəndiyevin atası Ələddin Əfəndiyev də bu pedaqoji kollektivin tərkibinə daxil olur. Ələddin Əfəndiyev Axalsixidə məktəbi-aliyə qurtarmışdır.

Ömər Faiqin xatirələrindən aydın olur ki, bu müəllimlərin heç bir xüsusi pedaqoji təhsil almamışdır. Məktəbdə dərslik yox idi, Türkiyədən gətirmək qadağan idi. Yalnız Krımda "Tərcüman" qəzeti



mətbəəsində İsmayıl Qasprinskinin çap etdirdiyi "Türkcə qiraət", "İlk hesab" və "Coğrafiya" kitablarından istifadə olunurdu.

Məhəmməd Hafiz Əfəndi Şeyxzadə Şamaxıya gəlir və yeni məktəb açır. Ömər Faiq 1898-ci ilin aprelində "Tərcüman" qəzetində yazırdı: "Nuxadakı üsuli-cədid məktəbi kimi bir məktəb də Şamaxıda bina etmişdik. "Şamaxıda Şexzadənin arvadı və qızı tərəfindən idarə olunan bir qız məktəbi də açılmışdır. Burada əlli qız oxuyur".[1] Şəfiqə xanım Bakıya Hacı Zeynalabdin Tağıyevin qız məktəbinə göndərilir. Şamaxıda məktəbi Gövhər xanım idarə edirdi.

Şamaxıda hesab, tarix, coğrafiya və ana dili dərslərini yenə Ömər Faiq Nemanzadə deyirdi. O, iki il Şamaxıda müəllimlik edir. 1902-ci ilin yanvarında Şamaxıda baş verən dəhşətli zəlzələ nəticəsində doğma Axalsixə gəlir. Bir ildən sonra doğma bacısını Tiflisdə müalicəyə gətirir.

Tiflisdə Ömər Faiq Məhəmmədağa Şahtaxtinski ilə görüşür. Bu zaman Cəlil Məmmədquluzadə də xəstə qadınını Tiflisə müalicəyə gətirir və Məhəmmədağa Şahtaxtinski ilə tanış olur. Ömər Faiq yazır ki, "türk aləminin mərkəzi" Tiflisdə Cəlil Məmmədquluzadə ilə əqidə dostu olduq.

Ömər Faiqin 1903-cü ildə Tiflisə gəlməsi yaxşı nəticə verir. 1905-ci ildə "Şərqi-Rus" qəzeti borca düşüb bağlanır. Mətbəə satışa qoyulur. Ömər faiq, Cəlil Məmmədquluzadə (1869-1932) və naxçıvanlı Məşədi Ələsgər Bağırov (1868-1943) "Qeyrət" mətbəəsini Məhəmmədağa Şahtaxtinskidən (1048-1930) satın alır. "Qeyrət" mətbəəsinin və Cəlil Məmmədquluzadənin Tiflisdəki pansionatının təşkilində, həm də "Molla Nəsrəddin" jurnalının nəşrində maddi yardım göstərən naxçıvanlı Məşədi Ələsgər Bağırov (on beş ının manat pul xərcləmişdir) imkanını əsirgəməmişdir.

"Qeyrət" mətbəəsində C.Məmmədquluzadə, Əhməd bəy Cavanşir, M.S.Ordubadi, Namiq Kamal, Ə.Haqverdiyev, Ə.Nəri-manov, Harun Sultanov, Əbdürrəhim Talıbov və başqa görkəmli şəxsiyyətlərin əsərləri çap olunmuşdur.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalı nəşr olundu. Jurnalın redaktoru C.Məmmədquluzadə, məsul katib isə Ömər Faiq Neman-zadə idi. "Molla Nəsrəddin" jurnalı xalqımızın tarixində mədəni

[1] «Tərcüman» qəzeti, 1998, 17 aprel.

nailiyyətlərimizin şah əsəri və zəngin xəzinəsi olmuşdur (1906-1931).

Cəlil Məmmədquluzadə Ömər Faiqi "Molla Nəsrəddin" jurnalında "sahili-ixtiyar" adlandırmış, məslək yoldaşı, müdrik kö-məkçisi və sədaqətli cəbhədaşı kimi qəlbən sevib yüksək qiy-mətləndirmişdir.

Mübariz jurnalist və publisist, ictimai xadim, şair və yazıçı Ömər Faiqin "Seçilmiş əsərləri" (1983) haqqında akademik Bəxtiyar Vahabzadə yazmışdır: "Sətirlər arasında Vətən və xalq üçün, onun taleyi üçün alışıb yaan bir ürək gördüm. Bu ürək Mirzə Cəlillərin, Sabirlərin, Nadirlərin ürəyi ilə bir vurur".

Akademik Əziz Mirəhmədov, prof. Abbas Zamanov, prof. Xeyrulla Məmmədov tədqiqat əsərlərində Ömər Faiq Nemanzadənin fəaliyyətini yüksək qiymətləndirmişlər. Bir həqiqəti inkar etmək olmaz ki, Ömər Faiq Nemanzadənin mənalı ömür yolunu, zəngin ədəbi-pedaqoji irsini elmi araşdırmalar əsasında Milli Məclisin deputatı, görkəmli alim Şamil Qurbanov rəsmi sənədlər, arxiv materialları, xatirələr, dərsliklər və monoqrafiyalar əsasında tədqiq etmiş, "Ömər Faiq Nemanzadə" (1992) adlı tədqiqat əsərini, "Ömər Faiq Nemanzadə" (1985) kitabını, bir çox elmi-tənqidi məqalələrini, Ömər Faiqin "Xatirələrim" (18985) və "Əsərləri" (1983) kitablarını nəfis şəkildə çap etdiribdir.

Prof. Şamil Qurbanovun tədqiqatlarından səmərəli bəhrələndiyimə görə görkəmli alim və gözəl insan, səmimi əqidə yoldaşım Şamil müəllimə dərin minnətdarlığımı bildirirəm.

Ədəbiyyatşünas F.Vahidov "Ömər Faiq Nemanzadənin dünya görüşü" mövzusunda dissertasiya yazmış, ədibin həyatını, yaradıcılıq yolunu ətraflı təhlil etmişdir.

Cəlil Məmmədquluzadə yazır: "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı". Ömər Faiq Mirzə Cəlillə birlikdə jurnalda səmərəli çalışmışdır. Ömər Faiq 1920-1921-ci illərdə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru və "Yeni fikir" qəzetinin redaksiya heyyətinin üzvü olmuşdur.

Ömər faiq 1893-1903-cü illərdə maarifçiliklə məşğul olmuş, maarifin müxtəlif sahələrinə dair qiymətli məqalələr yazmış və Axalsixdə, Şəkidə, Şamaxıda, Gəncədə, Bakıda müəllimlik etmiş, dərs demişdir. Ömər Faiq Nemanzadə memuar ədəbiyyatımızın ən qiymətli nümunələrindən olan "Xatirələrim" (Bakı, 1985, 125 səhifə)



kitabında yazır: "1893-1903-cü ilə kimi olan on ildə Axalsixdə, Şəkidə, Şamaxıda, Gəncədə, Bakıda və daha başqa yerlərdə bulunduğum vaxtlarda gördüyüm ictimai və siyasi yaraların acısı hələ ürəkdən çıxmamışdır". Ömər Faiq etiraf edir ki, hökumətin zülmündən açıq yazmaq olmurdu, ancaq ruhani və dini istibdaddan yazırdım.

Ömər Faiq Nemanzadə Borçalı, Axalsix, Axalkələk qəzalarının və Acarıstanın ictimai-siyasi, xüsusilə ədəbiyyat, maarif və mədəniyyət sahəsi ilə ciddi məşğul olur, vəziyyəti mətbuatda aşkarlayırdı.

Ömər Faiq Nemanzadənin Gəncədə pedaqoji fəaliyyəti səmərəli keçmiş, maarif sahəsində şöhrət qazanmış, yeni dərsliklərin və dərs vəsaitlərinin yaradılmasında, pedaqoji kollektivin hərtərəfli hazırlanmasında səmərəli əməyini əsirgəməmişdir.

Azərbaycan xalq şairi, dövlət mükafatı laureatı Rəsul Rza (1910-1981) "Poeziya zəhmət və ilhamdır" adlı əsərində Ömər Faiq Nemanzadəni böyük hörmət və məhəbbətlə xatırlayaraq yazmışdır: "Bir dəfə anamın bibisi nəvəsi Əli Mərdan adlı yaşıdımın Gəncə ...ye və qiraət texnikumu haqqındakı söhbətindən həvəslənərək, ...s ilinin ortasında Gəncəyə getdim ki, bu texnikuma daxil olum. O zaman bu texnikumun ditektoru Nemanzadə Ömər Faiq idi. Mən "Molla Nəsrəddin" jurnalının görkəmli xadimlərindən biri olan bu ...n haqqında çox eşitmişəm. Direktorun adına ərizə yazdım. Ərizəni yüksək "ədəbi dildə" yazmışdım. Burada "böyük arzu", "yeganə ümid", "səadət günəşi", "xalqa fədakarlıqla xidmət etmək", "yazıq bir ananın gözündəki sevinc şöləsinin sönməsinə razı olmayasınız, axır bu ananın bütün ümidi yeganə oğlunun gələcəyinə bağlıdır", "mənə gülümsəyən səadət günəşinin üzünü məyusluq buludu ilə örtülməyə qoymayan" kimi qəliz ibarəli cümlələr vardı.

Ərizəni katibəyə verib cavabını gözlədim. Həyətdə uşaqlar məni əhatə edib ürək verməyə, sakit eləməyə başladılar.

Birdən məni direktorun yanına çağırdılar. Ömər Faiq balaca boylu bir adam idi. Üzü çopur idi, baxışları iynə kimi, adama sancılan göy gözləri vardı. Üzdən ona əlli-əlli beş yaş vermək olardı. Deyirlər ki, onu çox az adam gülümsəyən görüb. Mən əlbəttə həyəcan keçirirdim. Birinci sual:-Bunu özünmü yazmısan? Bu sualda nə hədə-qorxu, nə məhəbbət, nə də mərhəmət hiss olunurdu. "Bəli!" – deyə cavab verdim. Sizdən çox rica edirəm, Faiq əfəndi –

deyə əlavə etdim. Ömər Faiqin sərt və qaraqabaq sifətində gülümsünməyə bənzər bir şey göründü. Sanki onun tikanlı soyuq gözləri isindi. Lakin dediyi sözlər məni sevindirmədi.

İlin bu vaxtı kim oxumağa gələr, dərslər çoxdan başlanmışdır.

Donub qaldım. Dedim, yəqin batdım. Zorla bu sözləri deyə bildim: "Mən geri qayıda bilmirəm". Lakin ilk təssürat məni aldatmamışdı. Direktorun üzündə xoş bir qərar oxudum.

Səni texnikuma götürəcəyəm. Barmağı ilə ərizəni göstərib "buna görə" – deyə əlavə etdi. Onun səsində metal cingiltisi eşidildi: "Bu ərizədəki təmtəraqlı ifadələri, köhnəlmiş təşbehləri, göz yaşı və fəryadı bir yana atsaq, demək olar ki, sən istedaddan məhrum deyilsən".

Gəncə texnikumuna daxil oldum. Birinci məktubu anama yazdım: "Bir həftəlik intizardan sonra cavab aldım. Anam məktəbə qəbul olduğum üçün sevinirdi".

Dahi söz sənətkarı Rəsul Rzayev İbrahim oğlunun xatirəsi Ömər Faiq Nemanzadənin xeirxah, tələbkar, qayğıkeş, humanist və vətənpərvər tarixi şəxsiyyət, gözəl insan, müdrik maarif xadimi olduğunu həyat həqiqətləri əsasında təsdiqləyir.

Ömər Faiq Nemanzadə Gəncədə işlədiyi şəhərin bir, beş saylı və başqa məktəblərində ədəbiyyat, tarix və coqrafiya fənlərindən dərs demiş, pedaqoji-mütodik tədbirlər keçirmiş, istedadların müəyyənləşdirilməsində əməyini əsirgəməmişdir.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının professoru, respublikanın əməkdar zootexniki Rəhim Mehdiyev Ömər Faiq Nemanzadənin sevimli tələbəsi olmuşdur. Prof. Rəhim Mehdiyev Ömər Faiq Nemanzadəni hörmətlə xatırlamışdır: "Ömər Faiq müəllim çox tələbkar, qayğıkeş, səmimi və gözəl insan idi. Dərslərin yüksək səviyyədə tədris olunmasına, tələbələrin dərsə səmərəli davamiyyətinə, müəllimlərin keyfiyyətli dərs keçməsinə, əyanilikdən müntəzəm istifafə olunmasına, tələbələrin biliyinin düzgün qiymətləndirilməsinə müntəzəm nəzarət edir, ciddi tədbirlər görürdü.

Bizim sənət və ziraət texnikomumuzun gözəl kitabxana və oxu otağı var idi. Kitabxanada həmişə maraqlı tədbirlər, kitab müzakirələri, ədəbi gecələr keçirilirdi. Mən, Yusif Məmmədəliyev, Səməd Vurğun, Mikayıl Rzaquluzadə, Mir Cəlal, Cəfər Xəndan kimi görkəmli şəxsiyyətlərlə tələbəlik illərində tanış olmuşam. Ömər faiq



müəllim tələbələrə və bütün gənclərə dərin hörmət və məhəbbətlə yanaşır, onlardan xeyirxah köməyini əsirgəmirdi".

Milli mətbuat, xalq maarifi və ictimai-siyasi hadisələrlə bağlı səmərəli fəaliyyət göstərən Ömər Faiq xalqın azadlığı uğrunda mübarizələrin tərkib hissəsi olan ana dili probleminin düzgün həllinə səmərəli çalışır, ana dilinin saflığı uğrunda böyük səy göstərirdi. O, ağır zəhmətlə ictimai-tarixi və ədəbi-bədii əsərləri, dərs vəsaitlərini çap etdirmək məqsədilə görkəmli sənətkar Cəlil Məmmədquluzadə ilə birlikdə Tiflisdə "Qeyrət" mətbəəsini yaratmışdır. Maarifpərvər ictimai xadim Ömər Faiq milli mətbuat, xalq maarifi və ictimai-siyasi hadisələri xalqın azadlığı uğrunda mübarizə ilə vəhdətdə təhlil edirdi.

Xalqın milli şüurunu inkişaf etdirmək, xalqı maarifləndirmək sahəsində ana dilində oxu kitablarının, dərsliklərin və dərs vəsaitlərinin çap olunmasını vacib sayan Ömər Faiq yazırdı: "Xalqın anlaya biləcəyi bir dilimiz olmalıdır. Bu ümumi nüfuzlu dil dəxi marifətli millətlərdə olduğu kimi şəksiz, xalqa yaxın olan mətbuat dilidir. Dili, mətbuat dili olmayan bir millətin siyasi vücudiyyəti də olmaz".

Ömər Faiq "Xatirələrim" memuarında bu əqidəsinə sadiq olduğunu vurğulayır. Mahir pedaqoq Ö. F.Neman-zadə 29 iyun 1904-cü il tarixli "Şərqi-Rus" qəzetində yazır: "Dilimizin anşıqlığını, əlifbamızın yaramazlığını mənə ilk dəfə öyrədən 1894-ü ildə Şəki milli məktəbinin 7-8 yaşındakı balaları oldu... Köhnə tədris üsulunun çətinliyi üstə artan əlifba yaramazlığı yalnız yeddi yaşındakı balacaları deyil, yetmiş yaşındakı bəzi böyüklərimizi də çox çaşdırır. Müstəqil dil və ədəbiyyatı olmayan bir millətin siyasi istiqlaliyyəti də sağlam ola bilməz".

Bu dövrdə görkəmli maarif xadimləri V.Əfəndiyev, Vəlibəyov, A.O.Çernyayevski, F.Ağazadə, M. Mahmud-bəyov, Hacıbəyov, H.Mahmudbəyov və başqaları ilə eyni cəbhədə çalışan Faiq Şəki, Şamaxı və Gəncədə müəllim işləyərkən dərsliklərə olan ləbatı görmüş və xatirələrimdə yazmışdır: "O zaman ən çətin əsələ məktəblər üçün kitab tapmaq idi. Qafqazda çap edilmiş kcə məktəb kitabı yox idi. İstər Türküstan, Krım, istərsə rcüman" (1851-1914) tərəfindən çap edilən türkcə qiraət, ilk sab, coğrafiya kitabları idi".

İsmayıl bəy yazırdı: "Bütün Rusiyada tatar adlananların hamısı bir ailənin üzvüdür, türklərin övladlarıdır. Onların bir hünərli ana dili-türk dili vardır. Türk tayfası öz qüdrətli ədəbiyyatlarını, poeziyasını və s. yenidən yaratmaq üçün öz dillərini birləşdirməlidirlər".

Tarixi qaynaqlardan aydın olur ki, İsmayıl bəy türk xalqlarının maariflənməsi uğrunda səmərəli fəaliyyət göstərmişdir. Onun dərsliklərin yaranması və çap olunub məktəblərə çatdırılması sahəsində şərəfli xidməti vardır.

Məktəb və pedaqoji fikir tariximizin zənginləş-məsində, ədəbiyyatımızın və ana dilinin örənilməsində, tədrisin keyfiyyətini yüksəltmək sahəsində Ömər Faiq Nemanzadənin səmərəli pedaqoji fəaliyyəti faydalı mənbədir.

Görkəmli maarif xadimi Ömər Faiq Nemanzadəyə 1927-ci ildə otuz üç il mədəni-maarif cəbhəsində səmərəli çalışdığı nəzərə alınaraq Azərbaycan hökumətinin qərarı ilə Ümumittifaq dərəcəli təqaüd verilir.

Ancaq mahir maarif xadimi yenə də yaradıcılıqla məşğul olur, dərslik, dərs vəsaiti, elmi metodik məqalələr yazır. Ömər Faiq Nemanzadə Hacı Kərim Sanılı və H.Axundovla birlikdə Zəhmət məktəbləri üçün yazdığı "Üçüncü il" dərsliyini 1927, 1928 və 1929-cu illərdə çap etdirir.

Lakin 30-cu illərin təhlükəsi nəticəsində Ömər Faiq 1933-cü ildə Bakıda həbs olunur və iki aydan sonra buraxılır.

Ömər Faiq Nemanzadənin qardaşı oğlu həkim Hüseyn Nemanzadə, bacısı oğlu Əhməd Peninov, bacısı qızı həkim Kəbirə Peninova represiyaya uğramış, sürgün olunmuşdur.

Ömər Faiq Nemanzadə əziz övladları, Bakıda Tibb İnstitutunu bitirən həkim balalarına 1933-cü il noyabrın 5-də dədə-baba yurdu Azqurddan Bakıya göndərdiyi məktubda yazmışdır: "Kamil, Kamilə, Ədilə və Bəxti! Həyat və təbiətlə mübarizəni öyrənin. Qəza, təsadüf və ölüm kimi təbii hallar qarşısında zəiflik, acizlik, iradəsizlik göstərməyiniz. Ciddi və səbirli olunuz".

Ömər Faiq Nemanzadəni Axalsixdə on nəfər ziyalı ilə birlikdə 1937-ci il iyulun 16-da Gürcüstan SSR Daxili İşlər Komissarlığının nəzdindəki üçlüyün sərəncamı ilə həbs etmiş, oktyabrın 7-də istintaq qurtarmış və məhkəmə olmadan oktyabrın 19-da Üçlüyün tərtib etdiyi 29 saylı "Tamamilə məxvi" protokol əsasında Tiflisdə güllələmişlər.



1958-ci ilin aprel ayının 10-da Gürcüstan SSRİ Ali Məhkəməsi Üçlüyün qərarını ləğv edib Ömər Faiq Nemanzadəyə və onunla həbs olunmuş ziyalılara bəraət vermişdir.

"Türk xalqlarının düşməni" (M.Ə.Rəsulzadə) Stalin Məhsəti türklərini 1944-cü ilin noyabrında bir neçə saatın ərzində vaqonlara doldurub orta Asiya və Qazaxstan səhralarına sürgün etdirdi. Məhsəti türklərinin yaşadığı iki yüz iyirmi yaşayış məntəqəsi bir neçə saat ərzində silah altında vəhşicəsinə boşaldılmışdır. Məhsəti türklərindən qırx min kişi həmin vaxtı cəbhədə faşizmə qarşı vuruşurdu. Səhra şəraitində qışın soyuğunda on yeddi min uşaq ölmüşdü.

Məhsəti türkləri Azərbaycanda məskunlaşmış, Sabirabad, Saatlı və başqa rayonlarda özlərinə gözəl kənd və qəsəbələr salmışlar. Azərbaycan Demokratik Respublikasında Məhsəti türkləri azad və xoşbəxt yaşayır, müstəqilliyimizin on illiyini təntənəli bayram edir, kənd təsərrüfatının və sənayenin inkişafında şərəfli əməklərini əsirgəmirlər.

Görkəmli maarif və mədəniyyət xadimi Ömər Faiq Nemanzadənin müqəddəs arzuları azad, demokratik, suveren Azərbaycan Respublkasında həqiqətə çevrilmiş-dir. Mahir pedaqoqun əsərləri çap olunmuş, haqqında tədqiqat əsərləri yazılmış, adı əbədiləşdirilmişdir.

## ABBAS SƏHHƏT
## (1874 - 1918)

Abbas Səhhət tanınmış Azərbaycan şairi olmaqla yanaşı, həm də maarifçi, pedaqoq, həkim və publisist, tərcüməçi, ictimai xadim idi.

Abbas Səhhət (Abbasqulu Əliabbas oğlu Mehdizadə) Şamaxı şəhərində anadan olmuşdur. İlk təhsilini atasının yanında ənənəvi ruhani məktəbində almışdır. Kiçik yaşlarından türk, fars və ərəb dillərini öyrənmişdir.

Abbas Səhhət 1894-cü ildə İrana gedir və Tehran Universitetinin tibb fakültəsinə daxil olur. O, təhsil illərində Şərq dillərinə aid biliklərini daha da artırmaqla yanaşı, həm də fransız dilini öyrənir.

1901-ci ildə Şamaxıya qayıdan Abbas Səhhət öz həmyerlisi məşhur şair M.Ə.Sabirlə yaxınlıq edir, məşhur müəllim və pedaqoq-ədəbiyyatşünas F.Köçərli ilə tanış olur, şerlərini yazır və "Şərqi-rus" qəzetində çap etdirir.

A.Səhətin həyatında onun pedaqoji fəaliyyəti ayrıca yer tutur. O, 1901-ci ildən ömrünün sonuna qədər Şamaxı real məktəbində ana dilindən dərs demiş, xarici ölkələrin görkəmli şairlərinin əsərlərindən tərcümələr etmişdir.

A.Səhhət yaşlı məktəblilər üçün şerlər yazır, onları "Rəhbər", "Dəbistan" və "Məktəb" adlı pedaqoji jurnallarda çap etdirir, maarifçilik ideyalarını təbliğ edirdi.

A.Səhhət yeni üsullu "Üsuli-cədid" və "Rus-Azərbaycan" məktəblərini yüksək qiymətləndirir, bu təhsil ocaqlarını «bütün dərdlərin əlacı», "bütün xəstəliklərin dərmanı" adlandırır.

O, müəllimlərə müraciət edərək deyirdi ki, müəllim məcburiyyətdən suni-istifadə etməməlidir, onun fikirləri "millətin tərbiyəsinə, xalqa şüurlu surətdə xidmət etməyə yönəlməlidir".

A.Səhhətin elmi-pedaqoji fəaliyyətində yeni üsullu dərsliklər tərtib etmək də mühüm yer tutur. Özünün həmyerlisi və sələfi S.Əzim, müasirləri S.M.Qənizadə, H.Mahmudbəyov və başqaları kimi A.Səhhət də öz şagirdləri üçün dərsliklər tərtib etmişdir.

Onun şerləri dövrün məşhur pedaqoqları, o cümlədən M.Mahmudbəyov, A.Şaiq, F.Ağazadə tərəfindən tərtib edilən "Türk əlifbası" (1907), "İkinci il" (1908), "Gülzar"(1912), "Ədəbiyyat



məcmuəsi" (1912) kimi dərsliklərə daxil edilmişdir. Bu kitablar məktəblilərin sevə-sevə oxuduqları dərsliklər idi. Bu kitablara daxil edilən hekayə və şer parçalarının bir çoxu onun öz əsərləri, digərləri isə onun dünya xalqları ədəbiyyatından etdiyi tərcümələr idi.

Yuxarıda deyildiyi kimi, onun özü də dərsliklər tərtib etməkdə iştirak etmişdir. M.Mahmudbəyovla birlikdə hazırladıqları "Yeni məktəb" (1909) və "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərslikləri xüsusi əhəmiyyət kəsb edirdi.

Dərsliyə verilən elmi-pedaqoji tələblər baxımından bu kitablar zəmanəmizin ən yaxşı dərslikləri hesab olunur və həmişə yüksək qiymətləndirilir.

A.Səhhət elmə, məktəbə, təhsilə, ana dilinə və ədəbiyyata, bunların təlim və tərbiyəvi əhəmiyyətinə ayrıca əhəmiyyət verirdi.

A.Səhhət elmi, təhsili, məktəbi işıq, mərifət, cəhaləti isə düşmən adlandıraraq qorxmadan, cəsarətlə, işıq, mərifət dalınca getməyi, "Mərifətə sahib olmağı", "indiki düşməni-cəhaləti yox etməyi" tövsiyə etmişdir.

A.Səhhət şerlərində "Ayıl, ey ümməti-mərhumə ayıl", - deyə xalqın elmdən, təhsildən olan "ölmüş" nümayəndələrini ayıltmağa, təhsilə cəlb etməyə çağıraraq göstərir ki, "Xabi-qəmə aludə", "Asudə" yatmaq vaxtı deyil, indi "mədəniyyət" dəmidir. Ona görə də elm və təhsil yolunda "mərdanə", səylə çalışmaq, buna "kəsb-urfan" etmək lazımdır.

A.Səhhət insanın təhsil üçün səy göstərməsini xüsusi qeyd edir və nikbinliklə göstərirdi ki, hər kəs təhsil alıb elmlərə yiyələnərsə, o, təbiət və cəmiyyət sirlərini aşkara çıxara bilər, istədiyi kimi təbiəti dəyişdirər, hər çətin işi yerinə yetirər, məqsədinə nail olar.

A.Səhhətə görə "Elm heç kəsin malı deyildir", təhsil mənsubiyyətindən və ictimai mənşəyindən asılı olmayaraq hamı üçün bərabər olmalıdır.

Bunun üçün o, ana dilində yeni üsullu məktəblər açılmasını, ümumi icbari təhsilin həyata keçirilməsini tələb edirdi.

A.Səhhət müəllimin işini məktəblə məhdudlaşdır-mayıb, öz işini məktəbdən xaricə çıxararaq hər zaman, hər yerdə şagirdlərin elm-tərbiyəsi qeydinə qalmağa, onlara müntəzəm rəhbərlik etməyə, nümunə olmağa çağırır: istər məktəb daxilində, istərsə də məktəb xaricində müəllimlər gərək öz yetirmələrinin davranışına diqqət

etsin, qüsurlarını təshih etməyi özünə borc bilsin... Müəllim gərək bütün varlığı ilə onlar üçün nümunə olsun.

Dövrünün görkəmli maarifpərvərlərindən olan A.Səhhət ana dili və onun tədrisi məsələlərinə də xüsusi diqqət yetirmişdir. O, özündən əvvəlki qabaqcıl pedaqoqların dil haqqında fikirlərinə əsaslanaraq, demokratik ideyalı müasirlərinin səsinə səs verir, ana dilində məktəblər açmaqda və Azərbaycan dilinin saflığı uğrunda mübarizədə fəal iştirak edirdi.

A.Səhhət dili və ədəbiyyatı hər bir millətin qurtuluşunun əsası sayırdı, "...bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq, onu sevməmək olarmı?... – deyə şair ana dilini sevməyə, onu öyrənməyə çağırırdı.

A.Səhhətin pedaqoji fəaliyyətində diqqəti cəlb edən məsələlərdən biri də onun dövrü mətbuatda uşaq şerləri və hekayələri ilə çıxış etməsidir. Bu mənada onun "məktəb" adlı pedaqoji jurnalın və "Kəlniyyat" adlı satirik jurnalın səhifələrində dərc olunan şerləri çox xarakterikdir. Uşaq psixologiyasına dərindən bələd olan A.Səhhətin uşaqlar üçün yazdığı şerləri uşaqlar tərəfindən sevilə-sevilə oxunurdu.

A.Səhhət gənc nəslin bədii-estetik zövqünün formalaşmasına ayrıca əhəmiyyət verirdi. Onun 1916-cı ildə yazdığı "Məktəblərdə nəğmə və musiqinin əhəmiyyəti" adlı məqaləsi bu mənada ayrıca əhəmiyyət kəsb edir.

Abbas Səhhətin yaradıcılığında və pedaqoji fikirləri içərisində Vətən anlayışı, Vətənə məhəbbət hissi çox güclüdür. Onun "Vətən" adlı bir şeri demək olar ki, Azərbaycan pedaqoji fikir tarixində Vətən haqda deyilmiş sözlərin bir növ məcmusu, onun yekunudur. Aşağıdakı misralar Vətən sevgisi və vətənpərvərlik tərbiyəsinin qızıl səhifələrini təşkil edir:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim...
Məni xəlq eyləmiş, əvvəlcə xuda,
Sonra vermiş, vətənim nəşvü-nüma
Vətənim verdi mənə nanü nəmək,
Vətəni, məncə, unutmaq nə demək?

Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.



Südüdür kim,dolanıb qanım olub,
O mənim sevgili cananım olub.

Saxlaram gözlərim üstə onu mən,
Ölərəm əgər əldən getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən - əcdadımızın mədfənidir,
Vətən – övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz,
Olsa da, o şəxsdə vicdan olmaz.

Abbas Səhhətin tədris etdiyi Vətən sevgisi, Vətən məhəbbəti, vətənpərvərlik ideyaları öz dövründə uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsində mühüm rol oynadığı kimi, bu gün də - torpaqlarımızın bir hissəsi erməni daşnaklarının tapdağı altında olduğu, Vətən övladlarından bir milyonunun qaçqın, köçkün vəziyyətində çadırlarda, tələbə yataqxanalarında, Vətən, yurd həsrəti ilə yaşadıqları bir dövrdə daha aktual səslənir.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, fitri istedadlı şair Abbas Səhhət maarifin, təhsilin, pedaqoji fikrin mahir carçısı, təlim-tərbiyəvi mahiyyətli sənət incilərinin əbədiyaşar yaradıcısıdır.

## MİRZƏ MƏHƏMMƏD MİRZƏ KƏRİM OĞLU AXUNDZADƏ (1875-1923)

XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində Gəncə ədəbi-pedaqoji mühitində mütərəqqi canlanmanın başlanması maarif və mədəniyyət sahəsində mühüm rol oynayır. Gəncədə yeni-üsullu məktəblər açılır, mətbəələr yaradılır, dərsliklər çap olunur, milli teatrın bünövrəsi qoyulur, qarşılıqlı ədəbi əlaqələr xeyli möhkəmlənir, maarifpərvər ziyalılar yetişir, səmərəli fəaliyyətə başlayırlar.

Bu dövrün ədəbi-pedaqoji fikir tarixini tədqiq etmək, öyrənmək, açılmamış səhifələri aşkarlamaq çağdaş zəmanəmizin başlıca problemlərindən biridir. Odur ki, Gəncə ədəbi-pedaqoji və ictimai-fikir tarixini tarixi qaynaqlar əsasında nəzərdən keçirməyə böyük ehtiyac vardır.

Bu dövrdə Gəncə mətbəələrində çap olunan "Qiraət" (1907), "Elmi hesab" (1908), "İkinci kitab" (1910), "Birinci kitab" (1913), "Əlifba" (1914) və s. dərsliklərin tədqiq edilib öyrənilməsi klassik pedaqoji irsə böyük qaygının nəticəsi kimi qiymətləndirilməlidir. Lakin indiyə kimi Gəncə pedaqoji-metodik ədəbi mühiti əsaslı tədqiq olunub öyrənilməmişdir.

Müasir dövrümüzün tələbləri baxımından görkəmli maarif xadimi, maarifpərvər şair və dramaturq, istedadlı jurnalist və tərcüməçi, mahir pedaqoq və faydalı dərsliklər müəllifi Mirzə Məhəmməd Mirzə Kərim oğlu Axundzadənin (1875-1923) mənalı həyat yaradıcılığının tədqiq olunmasına böyük ehtiyac vardır.

Onun ehtiyac və çətinliklər içərisində keçən həyat yolu Şərqi Avropada və Asiyada mürəkkəb və ziddiyyətli dövrə təsadüf edir. Vətənində və qürbətdə "nələr çəkən" maarifpərvər sənətkar həmişə hakim sinfin riyakar nümayəndələri tərəfindən təhqir edilmiş, məhrumiyyətlərə düçar olmuşdur.

Mənalı ömrünü maarif və mədəniyyətin inkişafına həsr edən M.M.Axundzadə 1875-ci ilin baharında Gəncədə anadan olmuş, dahi Nizami yurdunun füsünkar qoynunda böyümüş, romantik uşaqlıq illərini bu dilbər guşədə keçirmişdir. O, Gəncə mədrəsəsində oxumuş, məşhur müdərris Mirzə Xəlil Şeyxzamanovdan (1873-1920) dərs almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir.



Onun Şərq dillərini öyrənməsində Şərqdə dini təhsil almış ...asının böyük rolu olmuşdur. Zəmanəsinin mütərəqqi ziyalılarından ...an və məşhur müdərris kimi tanınan Mirzə Kərim oğlu ...əhəmmədin ərəb, fars və türk dillərini öyrənməsində, mütaliə ...ədəniyyətinin genişləndirilməsində və klassik ədəbiyyatı mütaliə ...məsində şərəfli əməyini əsirgəməmişdir. Maarifpərvər ata oğlunu ...əncə gimnaziyasına qoymuş, onun təhsil almasına, rus dilini ...ükəmməl öyrənməsinə, rus, Avropa və Şərq ədəbiyyatını maraqla ...ütaliə etməsinə xüsusi səy göstərmişdir.

Gimnaziya illərini səmərəli keçirən M. M.Axund-zadə rus ...ilini mükəmməl öyrənir, mütərəqqi rus, Avropa və Şərq ...ədəbiyyatını mütaliə etməklə kifayətlənmir, bir sıra görkəmli ...sənətkarların əsərlərini tərcümə edir.

Bu baxımdan Mirzə Məhəmməd Axundzadənin V.Şekspirin "...Venesiya taciri", "İki qorxaq var", D.Defonun "Robinzon Kruzo", ...V.Qoqolun "Evlənmək", "Dinmək", Namiq Kamalın "Vətən", ...Sədrəddin Həsən və Məhəmməd Rüfətin "Nədamət" əsərlərini, eyni ...zamanda, "Türk oğlanları", "Akif bəy", "Düxtəri hindu" və s. ...müxtəlif hekayələri doğma ana dilinə çevirməsi şərəfli əməyin ...bəhrəsi kimi qiymətləndirilməlidir.

Gəncə gimnaziyasının iyirmi beş yaşlı əqaid və Azərbaycan ...dili müəllimi M.M.Axundzadə məktəblərdə dərsliyə olan tələbi, ...qismən də olsa ödəmək məqsədilə "Sərfi-türki" dərsliyini 1896-cı ...ildə Tiflisdə çap etdirmişdir.

Müəllif dərsliyini F.İ.Buslayev (1818-1897), V.Y.Stoyunun (1820-1895), V.P.Ostroqorski (1840-1902), K.H.Uşinski (1824-1870) kimi görkəmli rus metodistlərinin dərslikləri və metodik ...tövsiyələri əsasında tərtib etməyə səy göstərmişdir.

Dərsliyin tərtib etibarilə quruluşu, materialların bölgüsü, ...pedaqoji-metodik işləmələr, verilən nümunələr və bir sıra qeydlər bu ...nin düzgünlüyünü göstərir. Müəllifin prof. Mirzə Kazımbəyin (1805-1870), M.P.Budaqovun, m.Ə.Vəzirovun və L.M.Lazarevin ...dərslikləri ilə tanış olmasına və bunlardan istifadə edib ...faydalanmasına şübhə qalmır. Mənalı ömrünü Azərbaycan ...ədəbiyyatının tədrisi problemlərinin tədqiqinə həsr edən prof. ...Qarabağlı yazır: "Bədii ədəbiyyatın məktəbdə geniş tədrisi işində ...V.Q.Belinski, N.Q.Çernişevski, N.A.Dobrolyubov kimi

şəxsiyyətlərin və F.İ.Buslayev, V.Y.Stoyunin, V.P.Ostroqorski kimi pedaqoq metodistlərin çox böyük xidmətləri olmuşdur."[1]

Həmin məsələnin düzgünlüyünü və hərtərəfli şərhini prof. A.Abdullayev özünün sanballı tədqiqat əsəri "Azərbaycan dilinin tarixindən" dərsliyində ətraflı göstərir.[2]

M.M.Axundzadənin "Şərfi-türki" adlı qrammatika dərsliyi[1] pedaqoji prinsipin tələblərinə müvafiq yazılmış, məktəblilərin yaş və bilik səviyyəsi əsasən nəzərə alınmış, maraqlı nümunələr göstərilmiş, praktik və metodik işləmələrə xeyli üstünlük verilmişdir. Dərslik azərbaycan dilinin öyrənilməsində məktəblərdə olan tələbi öz dövrünə görə qismən ödəyə bilmişdir.

M.M.Axundzadə yalnız dərs deməklə kifayətlənməmiş, xalqın qiymətli mənəvi sərvəti olan folklorun toplanmasında, klassik ədəbiyyatın öyrənilməsində səmərəli fəaliyyət göstərmişdir. Onun bir sıra faydalı elmi-metodik məqalələri müəllimləri metodik istiqamət baxımından silahlandırmış, dünyəvi elmlərin öyrənilməsinə və tədrisin məzmunlu təşkilinə maraq doğurmuşdur.

M.Şahtaxtinskinin (1846-1930) redaktor olduğu "Şərqi-Rus" qəzetində 1903-cü ildən "Nahi", "Hadi", "Axundzadə," "Gəncəvi" və s. imzalarla məqalələr çap etdirən M.M.Axundzadə xalqlar arasında mədəni əlaqələrin zənginləşməsində səmərəli əməyini əsirgəmirdi.

Azərbaycan xalqının mədəni həyatında böyük yeniliklər əmələ gəlməyə başladığı bir dövrdə baş verən siyasi mübarizələr ictimai şəraiti daha da genişləndirir, mütərəqqi ideyaların yayılmasına, yüksək əxlaqi keyfiyyətlərin genişlənməsinə təkan verir.

Ölkədə maarifçilik ideyaları gündən-günə yeni vüsət alır, "üsuli-cədil", "rus-tatar" (Rus-Azərbaycan) məktəblərinin yaranması kimi mühüm problemlər ön plana çəkilir, təşəbbüskarlıq artır. Ziddiyyətlərin kəskinləşməsi qabaqcıl ideyaları daha da qüvvətləndirir, ədəbi və pedaqoji inkişafı, vətənpərvərlik və hümanizm ideyalarını dərinləşdirir.

---

[1] Ə.Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968, səh. 7.
[2] A.Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966, səh. 13.
[1] M.M.Axundov. Sərfi-türki. Tiflis, 1896.



Beləliklə, ədəbiyyata maraq geniş miqyas alır, maarifçilik ideyaları bədii əsərlərin əsasını təşkil edir, əxlaqi-didaktik mahiyyətli sənət nümunələri geniş yayılır və dərsliklərə yol tapır. Bir sözlə, XX yüzilliyin ilk onilliklərində demokratik ideyaların genişlənməsinə tarixi hadisələrin gedişi də müəyyən şərait yaradır.

Gərkəmli maarifpərvər sənətkarlar səmərəli fəaliyyət göstərirlər. Maarifçilərin dünyagörüşləri öz məna tutumunun dərinliyi və genişliyi ilə mütərəqqi hadisələrlə bağlı inkişaf edir, getdikcə geniş yayılır və dərin nüfuz qazanır.

Göstərilən bütün bu xüsusiyyətlər maarifçilərin, o cümlədən də M.M.Axundzadənin pedaqoji-ədəbi fəaliyyətinə mütərəqqi təsir göstərir. O, "Həyat", "İrşad", "Açıq söz", "Yeni həqiqət", "Günəş", "İqbal", "Həqiqət" kimi qəzetlərdə, məşhur demokratik "Molla Nəsrəddin" jurnalında "Qeybi", "Hatif", "Gəncədən Qeybi", "Zalıbəy", "Köhnə şair", "Gəncə şairi", "Gözü ilə görən", "Molla zoru", "Molla pərəst", "Tamrançı", "Hacıkəndli", "Hatifi Gəncəyi", "M.M.Axundov" və s. imzalarlarla və felyetonlar yazıb oxucuların dərin hörmətini qazanırdı.

Görkəmli tədqiqatçı, qocaman jurnalist Qulam Məmmədli[1] və tədqiqatçı M.Rzayeva öz tədqiqat əsərlərində M.M.Axundzadənin gizli imzaları haqqında məlumat verir, onun görkəmli sənətkar olduğunu göstərirlər.

Tarixi araşdırmalardan aydın olur ki, M. M. Axund-zadə Gəncədə "Cəmiyyəti-xeyriyyə", "Dram cəmiyyəti", "Nəşri-maarif", "Mədəni-Maarif", cəmiyyətlərinin yaradıcılarından biri olmuş, maarif və mədəniyyət yayılması uğrunda fədakarlıqla mübarizə aparmış, sözün həqiqi mənasında, maarif və ədəbiyyat fədaisi olmuşdur.

Bu baxımdan onun Gəncə ruhani məktəbində illik imtahanların yekununa həsr etdiyi "İrşad" qəzetinin 1906-cı il tarixli 143-cü sayında çap olunan məqaləsi səciyyəvidir. Məqalədə göstərilir ki, ruhani məktəbində tədris yarıtmaz qurulduğundan olduqca nöqsanlıdır, tədris metodikasından düzgün istifadə olunmur, elmlərin, ana dilinin və ədəbiyyatın öyrənilməsinə fikir verilmir.

Böyük arzularla yaşayan maarifpərvər müəllim xalqın maariflənməsində adları çəkilən cəmiyyətləri "səadət və tərəqqi

---

[1] Qulam Məmmədli. İmzalar. Bakı, 1977.

qapıları" adlandırır, nikbin ümidlə göstərilir ki, fəqirlərimizin dərdini çəkənlərə, məktəb və mədrəsələrimizin qeydinə qalanlara kömək ediləcəkdir.

Bununla da demokratik ideyaların maarif və mədəniyyət sahəsindəki təsirinə işarə olunur. Ümumiyyətlə, məqalədə Gəncə ruhani məktəbində savadsızlığın hökm sürdüyü kəskin tənqid olunur, savadsız ruhanilərin saxtakarlığı və riyakarlığı göstərilir.

Bu hadisə ilə bağlı olaraq M.M.Axundzadənin vəziyyəti daha da ağırlaşır, ruhanilər onu təqib etməyə, çar hökumətinə satmağa başlayırlar. Məhz buna görə də Əli Nəzmi "Molla Nəsrəddin" jurnalında "Cüvəllağı" imzası ilə "Gəncə adlı" bir felyeton yazır.[1] Felyotonda deyilir ki, "A, Molla Nəsrəddin!...Sən kaşifi-müşkülatsan. Bizim də bir müşkülatımız var, gəlsənə onu da həll edəsən, müşkülatımız budur:

"İrşad"ın 143-cü nömrəsində Hatif izmalı bir məqalə var idi. Gəncə məktəbi-ruhanisinin illik imtahanı barəsində söyləyirdi... Məqalə məktəbin müəllimlərinə xoş gəlməzdi. Ona cavabı-rədd yazmaq istədilər. Amma bacarmailar. Həm kimə üz tutdularsa da qərar qoyublar ki, hər kəs o məqaləyə cavab yazsa, ona hər birisi bir abbası versin. Gəlsənə o məqaləyə cavab yazasan. Kişilər bir abbası pul verirlər və bundan əlavə yekə məktəbi-ruhaninin müəllimlərini müşküldə qoymaq olmaz... Biçarələri müşküldən qurtar".

Göründüyü kimi, felyetonda kəskin satira hakimdir. Müəllif həqiqəti obrazlı və təsirli verir, Hatifə tamamilə haqq qazandırır. Ruhani məktəbini, onun müəllimlərini satira atəşinə tutur. Ruhani məktəbinin müəllimlərindən heç biri qəzetə cavab yazmağı bacarmır. Bu da həqiqi mənada "müşkülatdır". Məktəb və müəllim üçün bundan böyük müşkülat ola bilməz.

Müəlliflərin tənqidi obyektiv və dəqiq, məqsədləri tamamilə aydındır. Belə ki, Gəncə ruhani məktəbində illik imtahanın yekunu vəziyyətin acınacaqlı olduğunu, savadsızlığın hökm sürdüyünü aydın göstərir.

M.M.Axundzadə məqalə və feltetonlarda, satirik şerlərində "Molla Nəsrəddin" ədəbi məktəbinin ideyalarına, C.Məmmədquluzadə və M.Ə.Sabirin amalına, üslubuna sadiq qalmış, istismar dünyasının törətdiyi dəhşətli faciələri, ədalətsizliyi,

---

[1] «Molla Nəsrəddin». 1906, № 14.



cəhaləti, nadanlığı, mürtəce adət-ənənələri kəskin tənqid atəşinə tutmuş, kimsədən ehtiyat etməmişdir.

Bütün fəaliyyətində mübariz "Molla Nəsrəddin" jurnalının ideyalarının carçısı olmuş, müxtəlif imzalarla məqalə və felyetonlar yazmışdır.

Jurnalın redaktoru C.Məmmədquluzadə və onun əməkdaşları M. M. Axundzadəyə düzgün yaradıcılıq istiqaməti vermiş, onu irticadan qorumağa çalışmışlar.

Onun felyetonlarında tənqid hədəfləri konkret, dil sadə və aydındır. "Başqa əyləşmək davası" felyetonunda[1] kəskin satira hakimdir, din xadimlərinin ədalətsizliyi, adi etika qaydalarından kənar obrazlı formada ifşa olunur.

Müəllif "bir qaz yerişi atdı", "birisi köçdən geri qalıbmış, "kök quzu kimi yırğalana-yırğalana", "Mollaya da demək olar ki, bir az sıx otur", "Söyüşlər başlanıb yumruq davasına keçdi", "yarım saat bir-birini əzişdirəndən sonra camaar onları (mollaları) sakitləşdirdi" kimi ifadələr dərin məna verir.

M.M.Axundzadəyə görə qadın hüququnun tapdalanması istismar quruluşunun öz bəlasıdır. M.M.Axundzadənin "Gəncə", "Uğursuz", "Gəncə işləri" kimi dəyərli məqalələrində bu xoşagəlməz hallar tənqid atəşinə tutulur.

Onun satiraları, felyetonları. Məqalələri və dram əsərləri məzmun, sənətkarlıq və ideya baxımından bir-birini tamamlayır, həm də maarifpərvər sənətkarların düşmənlərini artırır.

Azərbaycan müəllimlərinin 1906-cı ilin 16 avqustunda Bakıda çağrılmış və 13 gün davam etmiş ( 28 avqustda bağlanmışdır) I qurultayında sədr H.Zərdabi, müavin N.Nərimanov, katab F.Ağayev seçilmişdir.[1]

Bu qurultayda Gəncə gimnaziyasının maarifpərvər müəllimi M.M.Axundzadə fəal iştirak etmişdir.[2] Azərbaycan burjuaziyasının nümayəndələrini ifşa edən I qurultayda qərara alındı ki, Azərbaycan

---

«Molla Nəsrəddin ». 1909, №30

Ə.Ağayev. Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri, Bakı, 1969 (dissertasiya); Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. 1969, №2, səh 7.

"Təzə həyat" qəzeti, 11 aprel, 1907,№9

müəllimlərinin II növbəti qurultayı 1907-ci ildə Yelzavetpol şəhərində (Gəncədə) çağrılsın.

İkinci qurultayın hazırlanmasından ötrü komissiya təşkil edildi. Bakıda bu məsuliyyətli işə rəhbərlik görkəmli maarif xadimi H.Zərdabiyə, Gəncədə isə M.M.Axundzadəyə tapşırıldı. M.M.Axundzadə Gəncədə maarifpərvər müəllim F.Ağazadə ilə birlikdə geniş fəaliyyət göstərir və çox səmərəli iş aparır.[3]

. Gəncənin maarifpərvər ziyalıları qurultaya hazırlıq komissiyasına hərtərəfli kömək göstərir, öz qüvvələrini əsirgəmirdilər. İkinci qurultayın Gəncədə keçirilməsinə Qafqaz canişinliyi icazə vermişdir. Bu da maarif və mədəniyyət xadimlərini razı salmışdı.

Lakin, müəllimlərin ikinci qurultayının Gəncədə çağırılmasına mürtəce görüşlü ziyalılar, ruhanilər, xalq maarifinin düşmənləri müxtəlif bəhanələrlə maneçilik törədirdilər.

Çar hökuməti qurultayın Gəncədə çağrılmasına icazə vermədi. Ona görə ki, müəllimlər maarif nazirini 26 noyabr 1899-cu ildə təsdiq etdiyi "qətnamə" ilə razılaşmalıdırlar. Müəllimlər qurultayın xalq məktəbləri inspektorunun iradəsilə keçirilməsini inkar etdilər. Maarif nazirinin təsdiq etdiyi "qətnamyə" əsasən inspektor istədiyi vaxt qurultayı bağlayar, istədiyi nümayəndəni qurultaya buraxmaz, yaxud qurultaydan kənar edər, eyni zamanda proqram və dərsliklərin müzakirəsinə şərait yaratmaya bilər.[1]

"Qətnamə" maarif nazirliyinin öz mənafeyini müdafiə edir, müəllimlərin bütün imkanlarını məhdudlaşdırır, hüququnu tamamilə tapdalayırdı. Xalq müəllimləri bu cür özbaşınalığa imkan vermirdilər. Xalq maarifinə zərbə vurmağa çalışan burjua nümayəndələri ifşa olunurdular".[2]

Dövlət xadimi Sultanməcid Əfəndiyev (1887-1937) yazırdı: "20 nəfərdən artıq" qiyamçı müsəlman müəllimi" məktəbdən və tamamilə öz vəzifələrindən kənar edildikdən sonra zahirən sakitlik əmələ gəlmişdi. Bu zaman, 1907-ci ildə çağrılan müəllim

---

[3] «İrşad» qəzeti, 22 may 1906. «Həyat» qəzeti, 23 iyul 1906.

[1] "İrşad qəzeti", 17 may, 1907, №1

[2] S.Əfəndiyev. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. B 1957, səh34.



qurultayı böyük rol oynadı... Bu qurultayda irticaçı aləmin nümayəndələri ifşa olunurdular".

Dövlət xadimi Sultanməcid Əfəndiyev 91887-1937) yazırdı: "20 nəfərdən artıq qiyamçı müsəlman müəllimi" məktəbdən və tamamilə öz vəzifələrindən kənar edildikdən sonra zahirən sakitlik əmələ gəlmişdi. Bu zaman, 1907-ci ildə çağrılan müəllimlər qurultayı böyük rol oynadı... Bu qurultayda irticaçı aləmin nümayəndələri ifşa olunurdular."

Müəllimlər qurultayının Gəncədə çağırılması ilə əlaqədar olaraq M.M.Axundzadə bir sıra silsilə məqalələrlə mətbuatda çıxış edir və məsələnin ətraflı şərhini verir.

Maarifpərvər müəllim "Hatif" imzası ilə çap etdirdiyi üəllimlər ictimai pozuldumu?" məqaləsində yazır: «Müəllimlər ctimaının Gəncə şəhərində olmağı mümkün olmadı. Çünki hökumət u ictimaa və bu ittifaqa razı ola bilmədi. Bunun üçün də müəllimlər ctimaının qabağına çəkilməyə səddlər qabaqcada hökumət rəfindən "qərardad" adı ilə hazır qoyulmuşdu. Bu zahirən iki əlmədən ibarət isə, həqiqətdə Səddi-İskəndər kimi möhkəm bir əddir".[1]

M.M.Axundzadə "qətnamə"nin şərtlərini haqlı olaraq "səddi-kəndər" adlandırır, ruhanilərin, burjua nümayəndələrinin Gəncədə ağrılmasına maneçilik törətdiklərini faktlarla göstərir və elmi kildə əsaslandırır.[2]

Azərbaycan müəllimlərinin ikinci qurultayı 1907-ci il qustun 25-də Bakıda çağrıldı. M.M.Axundzadə Gəncə əllimlərinin nümayəndəsi kimi qurultayda fəal iştirak etdi. rultay yeni dərsliklərin yaradılması problemini qarşıya qoydu və ın zəruriliyini əsaslandırdı.

Gəncədə "Nəşri-maarif" cəmiyyəti M. M. Axund-zadənin liyyətilə "bağbanlar rusi və müsəlmani məktəbinin müəllimi" A.Mollazadənin "Türk dili və yaxud türkcə qiraət", Gəncə drəsəsinin müəllimləri A.Məhəmmədzadə və A.Mollazadə badan sonra öyrənilən "İkinci kitab" adlı qiraət dərsliklərini nəşr b balaların istifadəsinə verdi.

---

[1] şad» qəzeti, 30 may 1907. № 96.

[2] şad» qəzeti, 1907. № 96.

M.M.Axundzadə həm gimnaziyada dərs deyir, həm folklor nümunələri toplayır, həm də klassik ədəbiyyat sahəsində tədqiqat aparırdı. Dahi Nizaminin həyatı, yaradıcılığı haqqında ilk dəfə kitab yazmaq Gəncə gimnaziyasının müəllimi M.M.Axundzadəyə nəsib olmuşdur. O, üzərində kitabçadan vüsul olan pul tamamilə Şeyx Nizaminin günbəzinə sərf olunacaqdır" yazılmış "Şeyx Nizami" kitabını 1909-cu ildə Gəncədə çap etdirmişdir.

Kitabın naşiri maarifpərvər müəllim-şair Məmmədbağırbəy Şeyxzamanоv (1880-1920) olmuşdur. Titul səhifəsində bir şəkil verilmiş və şəklin altında yazılmışdır: "Bu xərabə məzarda aya, görəsən kimdir belə xar yatır?" Kitabı oxuyandan sonra müəllifin Nizami haqqında dərin biliyinə heyran qalırsan. Bu kitab Nizami haqqında qiymətli dərslikdir.

M.M.Axundzadə Nizaminin məqbərəsini təmir etdirmək üçün çox çalışmış, lakin nail ola bilməmişdir. Nizami günbəzinin acınacaqlı vəziyyətini poetik sözün qüvvətilə oxucuya çatdırmağı özünə mənəvi vicdan borcu saymış və yazmışdır:

Yol kənarında bir məzari-həqir,
Dağılıb, günbəzi olub viran.
Ona məxluqdan olub təhqir.
Bağlanır günbəzinə hər heyvan.
Mənzəri adəmə edir təsir,
Axıdır qəlbi hər dəqiqə qan.
Kimsə etməz sual: "Kimdir bu?"
Ona quşlar olubdu fatihəku.
Bu xaraba məzarda, aya,
Görəsən kimdir, böylə xar yatır?
Kimsə etməz bunu sual əsla,
Sizə mən söylədim, onu təqrir.
Edəsiz, ol məzari siz, əmma,
Layiqincə, əzizlər, təmir.
O yatan Gəncəli Nizamidir.
Şüəra qisminin əzəmidir.[1]

Kitabda pedaqoji prinsipin tələbləri nisbətən gözlənilmiş, balaların yaş və bilik səviyyəsi nəzərə alınmışdır. Kitab pedaqoji prinsip əsasında yazılmışdır.

---

[1] M.M.Axundov. Şeyx Nizami. Yelizavetpol, 1909, səh. 19-20.



Müəllif Nizaminin qısa tərcümeyi-halı haqqında müfəssəl məlumat verir. Dahi sənətkarların saray şairi olmadığını, "birinci dərəcəli şairlər"in cərgəsində durduğunu, əsərlərinin yazıldığı tarixi və təlim-tərbiyəvi əhəmiyyətin yığcam təhlil edir.

Məktəb tariximiz üçün çox maraqlıdır ki, Nizaminin haqqında Azərbaycan dilində ilk dəfə kitab yazan Gəncə gimnaziyasının müəllimi M.M.Axundzadə olmuş və kitabı Gəncədə çap etdirmişdir.

O, gimnaziyada bu kitabdan dərs demiş, Nizami haqqında məlumat vermiş və dərsliyini balalara oxutmuşdur. Bu da bir həqiqətdir ki, Nizaminin ölüm tarixini (1957-ci ilə kimi 1203-cü il yazılırdı) ilk dəfə Axundzadə öz kitabında düzgün müəyyənləşdirmiş, 1209-cu il olduğunu yazmışdır.

Ümumuyyətlə, M.M.Axundzadə Nizami ədəbi irsinin öyrənilməsi və oxucuların mütaliəsinə verilməsi yolunda əsl fədai olmuşdur. Axundzadənin "Şeyx Nizami kimdir", "Gəncədən" adlı məqalələri də Nizamiyə həsr olunmuşdur. Həmin məqalələrdə Nizami irsinə, onun "atlar ayağının altında qalmış qəbrinə, uçub dağılmış günbəzinə" qayğısızlıqdan bəhs edilir və göstərilir ki, Nizaminin məqbərəsini abad etmək, onun adını əbədiləşdirmək lazımdır.

Maarifpərvər müəllim M.M.Axundzadənin "Yaxşı adət", "Başda əyləşmək davası" kimi feleyonları təlim-tərbiyə baxımından indi də müasirliyini itirməmişdir.

Ədibin məqalə və felyetonları onu həqiqi mollanəsrəddinçi kimi səciyyələndirməyə haqq qazandırır, dərslikləri və pedaqoji-metodik fəaliyyəti pedaqoji-ictimai fikrin carçısı olduğunu sübuta yetirir. O, hərtərəfli elmi-ədəbi və pedaqoji-metodik hazırlıqlı ədəbiyyat və mədəniyyət xadimidir.

M.M.Axundzadənin "Teatr nədir?" kitabında teatr və onun …xi haqqında maraqlı məlumat verilir, teatr "məktəbi-ədəb", …çılar isə "Bütün cahani-bəşəriyyətə və insaniyyətə" şərəfli xidmət edən müəllim adlandırılır. Bu kitab M.M.Axundzadəni bir teatrşünas kimi səciyyələndirməyə imkan verir.

Kitabda teatrın əsas xüsusiyyətlərindən məhəbbətlə danışılır, …n tərbiyəvi mahiyyəti qeyd olunur.

Bu da təbiidir, çünki müəllif "Dram cəmiyyəti"ndə fəal …ak etmiş, onun təşkilatçılarından biri olmuş və səhnədə müxtəlif

rollarda çıxış etmişdir. Odur ki, sənətşünas-dramaturqun teatr haqqındakı mülahizələri inandırıcıdır.

Dramaturgiya sahəsində M.F.Axundovun mütərəqqi ənənələrindən bəhrələnən M.M.Axundzadə bir sıra maraqlı dram əsərləri yaratmışdır. "Röyam, yaxud həqiqətə təsadüf", "Səd Vəqqas", "Məhəbbətsizliyin nəticəsi, yaxud da ata-ana təqsiri" çap olunmuş və səhnədə oynanılmışdır.

M.M.Axundzadənin pyeslərindən "Hər nə əkərsən, onu biçərsən", "Sonrakı peşmançılıq səmərə verməz", Aldanmış cavan", "Anamın kitabı", "Hiyləgər Əbdül" müxtəlif səhnələrdə tamaşaya qoyulmuşdur.

M.M.Axundzadə "Yaşına-yaşına, çıxdı ocaq başına" adlı operettanın liberettosunu yazmışdır. Üç pərdəli bu operettanın sonunda əsərin qəhrəmanı cavan oğlan Ağacavad riyakar din nümayəndələrinə deyir: "Demək ki, namussuz övrətlər sizi qeyrətə gətirdi, siz də bu qoca vaxtınızda saqqalınızdan utanmayıb namuslu övrətlərə də əl uzatmaq istəyirsiniz? Demək ki, yaşına-yaşına, çıxdınız ocaq başına".

"Hər nə əkərsən, onu biçərsən" əsərində Səlim bəy və Rəşid bəy kimi mənəvi cəhətdən şikəst olan tüfeylilər ifşa olunurlar. "Sonrakı peşmançılıq fayda verməz" adlı dörd pərdəli komediyada qaçaq saxlayan, fitnələrə bais olan, faciələr törədən Şərif bəy tənqid atəşinə tutulur, riyakar əməllərinin qurbanı olur. Mirzə Camal haqlı olaraq deyir: "Sonrakı peşmançılıq səmərə verməz".

M.M.Axundzadənin dram əsərlərində real həyat hadisələri qələmə alınır və ümumiləşdirilir. Dramaturq təlim-tərbiyə məsələlərinə üstünlük verir, oxucularına və tamaşaçılarına yüksək əxlaqi keyfiyyət aşılamağa çalışır.

Tədqiqatçı C.Muradov "Unudulmaz sənətkar" adlı qiymətli məqaləsində M.M.Axundzadənin həyatı və yaradıcılığı haqqında məlumat verir və onun haqqında lazımi tədqiqat aparılmamasını təəssüf hissi ilə bildirir. Məqalədə deyilir ki, "M.M.Axundzadənin dramaturq kimi formalaşmasına təsir edən amillərdən biri M.F.Axundov ənənələri olmuşsa, digər keçən əsrin sonunda Gəncədə mədəni-maarifin canlanması idi".

Həmin mülahizələrin əsaslandırılmasında ədəbiyyatşünaslardan F.Hüseynov, S.Şükürov, İ.Ağayevin axtarışları mühüm rol oynayır və ədibin zəngin irsinin tədqiq olunmasının zəruriliyini ön plana çəkir. Mirzə Məhəmməd Axundzadə xalqın mənəvi sərvəti olan folklora zəngin təlim-tərbiyə məktəbi, bədii-estetik zövqün mənbəyi kimi baxır, doğma xalqının hikmətini, müdrikliyini, yaradıcılığını yüksək qiymətləndirir, onun balalara öyrədilməsini zəruri bildirir.



M.M.Axundzadə səmərəli axtarışları nəticəsində xalq yaradıcılığı nümunələrindən ibarət "Məclis yaraşığı" adlı kitabını çap etdirmişdir.[1] Üç yüz cürbəcür məzhəkələrdən ibarət tərtib olunan bu kitab 1917-ci ildə yenidən həmin mətbəədə nəşr olunmuşdur. Kitabdakı məzhəkələr dərin məzmunlu, təlim-tərbiyəvi mahiyyətli, didaktik əhəmiyyətə malik olan bədii sənət nümunələridir.

M.M.Axundzadənin pedaqoji-metodik fəaliyyəti ilə yaradıcılığı vəhdət təşkil edir, bir-birini tamamlayır. Onun bədii əsərlərində, xüsusilə şerlərində və dram əsərlərində balaların qiraətə olan tələbini ödəmək, onlara nəcib əxlaqi keyfiyyətlər aşılamaq məqsədi qoyulur. Bu da ədibin müəllimlik fəaliyyətindən irəli gəlir və maarifpərvərliyini əsaslandırır.

M.M.Axundzadə yalnız müəllimliklə kifayətlənmir, başqa ictimai işlərlə, maarif və mədəniyyətlə, qadın azadlığı və tərbiyəsi uğrunda ciddi mübarizə aparırdı.

Dramaturqun kitabına "İdarə" imzası ilə yazılan "Bir neçə söz" adlı müqəddimədə deyilir: "Əsərini oxuculara təqdim etdiyimiz Mirzə Məhəmməd Gəncənin ən köhnə müəllimlərindəndir. Həyatının sonuna qədər ömrünün ən çoxunu müəllimlikdə keçirmişdir. Mirzənin ən çox mübarizə apardığı qadın azadlığı və qadın tərbiyəsi olmuşdur. Bu əsər də xalq arasında davam etməkdə olan əski adətə qarşı yazılmışdır. Gəncənin meşşan və xırda burjua və yarım feodal mühiti nəzərə alınarsa, Mirzənin orada maarif uğrundakı fəaliyyəti həqiqətən təqdirə layiqdir".

Şüurlu həyatını şərəfli və müqəddəs saydığı müəllimlik sənətinə həsr edən, mütərəqqi ideyaların carçısı M.M.Axundzadə "Molla Nəsrəddin" jurnalının məramnaməsinə sadiq qalmışdır. Onu çar hökuməti ruhanilərin fitvası ilə «şübhəli» müəllim kimi 1908-ci ilin iyul ayında həbsə alır və beş il müddətinə Zakaspiyə sürgün edir. Ədibin sədaqətli əqidə və məslək dostlarından N.Nərimanov,

[1] M.M.Axundzadə. Məclis yaraşığı. Bakı, 1910.

C.Məmmədquluzadə, Ömər Faiq, Ə. Qəm-küsar, Ə.Nəzmi onu xilas etməyə çalışmışlar, lakin bacara bilməmişlər.

Böyük qızı Pakizə xanımın dediyinə görə, N.Nərimanov Mirzə Məhəmmədi sürgündən azad etdirmək üçün xüsusi fəaliyyət göstərmişsə də, daşqəlbli çar cəlladlarını inadlarından döndərə bilməmişdir.

Tarixi araşdırmalar göstərir ki, mütərəqqi əqidəsinə, demokratik ideyalarına sadiq qalan M.M.Axundzadə həqiqətin, ədalətin, zadlığın carçısı olmuşdur. Onu əqidəsindən, sarsılmaz ideyasından bütün təqib və işgəncələr döndrə bilməmişdir.

M.M.Axundzadənin səciyyəvi xarakteri Əli Nəzminin məşhur "Zindan" şerində orijinal bədii ifadəsini tapmışdır.[1]

Böyük demokrat Cəlil Məmmədquluzadənin 1927-ci ildə Əli Nəzminin "Sijimqulunamə" kitabına[2] yazdığı müqəddimədə deyilir: "Məşədi Sijimqulunun aşağıdakı nəzmi, elə yadımdadır ki, Gəncədə bir mollanın şeytanlanması ilə bir çox türk cavanlarının və o cümlədən Mirzə Məhəmməd Axundovun (Hatifin) çar hökuməti tərəfindən həbsə alınıb sürgün edilmələri münasibətilə yazılmışdır".[3]

"Molla Nəsrəddin jurnalında çap olunan həmin "Zindan" şerinin birinci və sonuncu bəndi müqəddimədə nümunə verilir. Lakin şerin beş bəndi haqqında danışmır. Əslində bu şer istismarçı hakim sinfə ölüm aktı təsiri bağışlayır.

Prof. F.Hüseynov haqlı olaraq yazır: "Çarizm xalqın azadlıq meyylərinə qarşı hücuma keçdiyi ilk illərdə gözüaçıq, mütərəqqi fikirli ziyalıların müxtəlif bəhanələrlə tutulub sürgün edilməsi Əli Nəzmi poeziyasında mühüm mövzulardan biri olur. "Əşari-məhzunanə" və "Zindan" şerləri də bu mövzuda yazılmışdır. Müəllif birinci şerdə əvvəlcə təbiət təsviri verir, xəzan, qış, boran haqqında söhbət açır və bu fonda ölkəni başdan-başa bürüyən zülm və istibdadı qamçılayır. Xalqın dil və mədəniyyətinin, mənəviyyat və milli heysiyyətinin ayaqlar altına düşdüyündən acı-acı şikayətlənir.

Həm "Əşari-məhzunanə", həm də "Zindan" şeri realllığı, həyatiliyi və siyasi kəskinliyi ilə nəzəri cəlb edir".[1]

---

[1] «Molla Nəsrəddin» jurnalı. 1908, № 27.
[2] Əli Nəzmi. Sijimqulunamə. Bakı, 1927.
[3] C.Məmmədquluzadə. Əsərləri, III cild. Bakı, 1967, səh. 560.
[1] F.Hüseynov. Əli Nəzmi. Bakı, 1970, səh. 42.



Böyük demokrat Cəlil Məmədquluzadənin diqqətini xüsusilə cəlb edən "Zindan" şerinin M. M. Axundzadə haqqında yazdığı və ictimai məzmun, kəskin ideya daşıdığı aydındır. Yüksək sənətkarlıqla qələmə alınmış bu şerin tənqid hədəfi dəqiqdir. "Zindan" satirasında şair öz fikrini bədii şəkildə ümumiləşdirməyə çalışmışdır. O, burada ancaq bir neçə nəfər mübariz, maarifpərvər ziyalının həbs edilməsindən deyil, ümumiyyətlə, dövrün demokratik gənclərinin acnacaqlı taleyindən bəhs edir.

Doğrudan da, M.Ə.Sabirin satirası əsasında yazılmış və M.M.Axundzadənin sürgün olunmasına həsr olunmuş bu şerdə ictimai quruluş bədii sözün real və təsirli ifşa edilir. Şerdəki "Çəkmə bu millət qəmini, əlaman", "Verdimi amalına layiq əvəz", "Vurdumu zəncir pərü balına?" və s.misralarda hakim sinfin vəhşiliyi satira atəşinə tutulur:

Mən demədimmi ki, fəğan eyləmə!
Eybini mollanın əyan eyləmə!
Şeyx tanı, sofini qan eyləmə!
Fikrini nitqində bəyan eyləmə!
Baxmadın, əfsus, bu gün halına!
Dəydi bəla tiri-pərü balına![1]

Ə.Nəzminin "Əşari-məhzunanə" (1908) şeri M.M.Axundzadənin sürgündə olduğu zaman Tehranda yazmış olduğu "Nələr çəkdim bu qürbətdə, əzizim!" mətləli şerinə cavabdır.

M.M.Axundzadənin şeri əslində ictimai məzmunlu mənzum məktubdur. Məktubda doğma Vətənindən didərgin salınmış qürbət eldə keçirdiyi ağır və həsrətli günlər, günahsız müqəssir olması, mənəvi əzab çəkməsi, elindən, ailəsindən dostlarından ayrı düşməsi, irtica illərinin dəhşətləri poetik ifadəsini tapmışdır.

Bədii salnamə təsiri bağışlayan Əli Nəzminin şerində deyilir ki, sizin kimi maarifpərvər azadlıq carçıları yurdumuzdan, doğma ana Vətənimizdən qürbət ellərə sürgün ediləndə arzular könüllərdə ürüyür, ölkəni qəm-qüssə bürüyür, Vətən və dil məhv olur, ümid çırağı sönür.

Şerdə zəngin təbiət və cəmiyyət hadisələri sənətkarlıqla qələmə alınır, elə bil ki, təbiət vətənin igid övladlarının həsrətini çəkir: "Qəmgin bir tövr almış xəndan tarlalar", "Məhzun durur süslü

---

[1] Əli Nəzmi. Seçilmiş əsərləri. Bakı, 1979, səh. 41.

bağlar". Lakin mütəfəkkir şair-müəllim nikbindir, cəfa çəkənin səfa sürəcəyinə əmindir, çünki "bir gün Günəş çıxar bir saf üfüqdən", arzular, ümidlər həqiqətə çevrilər.

İstedadlı şair "Molla Nəsrəddin" jurnalının üslubunun tələblərinə tamamilə sadiq qalır, özünə müəllim və səmimi ideya, məslək dostu bildiyi M.M.Axundzadəyə həqiqəti, ölkədə olan ağır vəziyyəti, çar hökumətinin törətdiyi cinayətləri poetik dildə deməkdən qətiyyən çəkinmir. Əli Nəzmi şerini bu misralarla bitirir:

Qəmdir, bütün türk aləmin bürümüş,
Arzular könüllərdə çürümüş.
Gündə yüz-yüz, yeni-yeni hadisat,
Başımızda partlayırlar, yox nicat.
Türk yurdunun sağ qanadı kəsilir,
Türk milləti gündən-günə əksilir.
Türk bəsləyən, türk qadını, türk qızı,
Bədnam oldu, ar öldürməzmiş bizi,
Türk milləti, türk vətəni, türk eli,
Türk ocağı, türk ölkəsi, türk dili,
Məhv oluyor, gələcəyi ağlatır,
Millətimin şərbətinə zəhr atır.[1]

M.M.Axundzadənin şer yaradıcılığı mollanəsrəd-dinçilərin diqqətini cəlb etmişdir. Bu baxımdam onun "Əvvəlki qəza əmrini fərmana yazıblar" misrası ilə başlayan və mövzusu İran həyatından alınmış şeri səciyyəvidir. Şerdə ictimai quruluşun faciələri, din və onun tüfeyli nümayəndələri satira atəşinə tutulur:

Elm əhli olub rütbədə insani mükəmməl,
Bielmiliyi qeyri-müsəlmanə yazıblar.[2]

Tarixdən məlumdur ki, 1906-cı ilin sonu, 1907-ci ilin əvvəllərində Zəngəzur mahalında möhkəm aclıq baş vermiş, əhali əzab-əziyyət çəkmişdir. Bu hadisı ilə əlaqədar olaraq bir sıra bədii əsərlər yazılmışdır.

Azərbaycan ədəbiyyatında mübariz satiranın banisi M.Ə.Sabirin "Çayda çapan" imzası ilə "Molla Nəsrəddin" jurnalında çap olunan «Tömeyi-nahar» satirası da bu hadisəyə həsr olunmuşdur. Poetik ümumiləşdirmələrlə ictimai hadisələrin orijinal təsviri verilə

[1] Əli Nəzmi. Seçilmiş əsərləri. Bakı, 1979, səh. 43.
[2] «Molla Nəsrəddin», 1908, № 37.



bu əsərin təsiri ilə bir sıra şairlər öz qələmlərini sınamışlar. Həmin şairlərdən biri də "Qeybi" imzası ilə "Ac" şerini "Mola Nəsrəddin" jurnalında M.Ə.Sabirə cavab olaraq çap etdirən M.M.Axundzadədir. Şerdə oxuyuruq:

A molla, sən də lütf edib bizim də dastanı gör,
Uşaqsan şit əmi, kim, eyləyim bəyanı gör!...
Hamı rəyasət axtaran yetişdi öz muradına,
Nə qədər pullar aldılar, fəqirü aclar adına.
Bu günkü gündə acların yetişməyiblər dadına.
Qapılarında inləyən fəqirləri, fəğani gör!...[1]

Göründüyü kimi, Sabir üslubunda yazılmış bu satirik şerdə hadisələr canlı, tənqid hədəfi aydındır. Onun qadın azadlığına, din və mövhumatın, mürtəce adət-ənənələrin, savadsızlığın və s. xoşagəlməz halların tənqidinə həsr etdiyi satirik əsərləri də qiymətlidir.

Çarizmin ucqar xalqları təqib və təhqir etməsi, hakim millətçi ideoligiyası mütərəqqi görüşlü ziyalıları, maarifpərvər yazıçı-müəllimləri çıxılmaz vəziyyətə salmışdı.

Çar mütləqiyyətinin xalqları saxlamaq siyasəti maarifçilərin nifrətinə səbəb olmuşdur. Onların fəaliyyəti izlənilir, məhdud-laşdırılır, dövri mətbuatda çıxış etmələrinə imkan verilmirdi.ona görə ki, çar senzurası dövri mətbuatı ciddi nəzarət altına almış, öz monopoliyasına çevrilmişdi. Belə bir şəraitdə M.M.Axundzadənin təqib edilib sürgün olmasına kömək etmək mümkün deyildi.

Demokratik görüşlü ziyalıların bütün fəaliyyəti ciddi şəkildə yoxlanılır, əsərlərinin nəşrinə qətiyyən icazə verilmirdi. Lakin M.M.Axundzadə amal qardaşları kimi mübariz mövqeyindən çəkinmir, səmərəli fəaliyyətini davam etdirirdi.

M.M.Axundzadənin İranda Məmmədəli şahın irticaçı dövlətini, Rəhim xan və Mirhaşım kimi tüfeyli zülümkarları satira atəşinə tutması M.Ə.Sabir ədəbi məktəbinə sadiq qalmasını sübuta yetirir, əsaslandırır.

Mirzə Məhəmməd Axundzadənin dünyagörüşündə sürgün illəri müəyyən mütərəqqi dönüş əmələ gətirmiş, siyasi hadisələrin mahiyyətinə nüfuz edə bilmişdir. Belə ki, 1914-cü ildə sürgündən

[1] «Molla Nəsrəddin», 1907, № 29.

Gəncəyə gəldikdən sonra dini kitabların tərcüməsi və tərtibi ilə məşğul olmur.

M.M.Axundzadənin 1914-1917-ci illərdə Gəncədə pedaqoji fəaliyyətini davam etdirməsi, dərs deməsi və xeyriyyə cəmiyyətlərində fəal iştirakı yaxşı təsir bağışlayır.

M.M.Axundzadə 1918-ci ilin yanvarından 1920-ci ilin dekabr ayının sonuna kimi Bakıda pedaqoji fəaliyyətini davam etdirmiş, Ə.Haqverdiyev, A.Şaiq, S.S.Axundov, M.Mahmudbəyov, S.M.Qənizádə və başqa maarifpərvər yazıçı-müəllimlərlə tanış olmuş, onların işlədikləri məktəblərdə dərs demiş, dövri mətbuatda çıxış etmiş, əsərlərinin səhnədə oynanılmasına və çap edilməsinə çalışmışdır. Bu sahədə xeyli iş görmüş, "Məclis yaraşığı" (1910) kitabını, bir sıra məqalə, felyeton və satirik şerlərini çap etdirmişdir.

M.M.Axundzadə 1921-ci ildə Gəncə gimnaziyasına müəllim göndərilmişdir. Seminariyada maarifpərvər müəllimlərdən Cavad bəy Rəfibəyli, Azad bəy Əmirov, Əli Razi Şamçızadə və başqaları ilə birlikdə işləmiş, mənalı ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, səmərəli ictimai fəaliyyət göstərmişdir.

M.M.Axundzadənin ölümü də şərəfli olmuşdur. Belə ki, 1923-cü ilin iyul ayında seminariya məzunlarının buraxılışı münasibətilə Gəncənin yaxınlığındakı romantik Qızılqaya adlanan yerdə təntənəli verilişə rəhbərlik M.M.Axundzadəyə tapşırılır. Bu məsuliyyətli işi şərəflə icra edən istedadlı müəllim evə qayıdan axşamı qəflətən xəstələnir və vəfat edir.

Qədirbilən gənclər Vətənin yazıçı-müəllim oğlunu çox böyük ehtiramla şəhərin Səbzkar adlanan qəbirstanlığında dəfn edirlər. Ədibin matəminə Gəncə quberniyasının ziyalıları, əmək adamları, tələbələr axın-axın gəlir, son dəfə vidalaşırdılar. Tabut tər güllər içərisində görünmürdü.

Ümumxalq kədəri doğuran matəmlə əlaqədar məşhur mollanəsrəddinçi Əli Nəzmi epiqrafında "Müəllim və şairlərimizdən Mirzə Məhəmməd Axundovun vəfatı münasibətilə "qeydini verdiyi məşhur "Ölüm" şerini yazır.

Mənalı yaradıcılıq yolunun kamilləşdiyi bir dövrdə, ömrünün qırxsəkkizinci ilində həyatdan vaxtsız gedən M.M.Axundzadənin vəfatına həsr olunmuş bu şerini Ə.Nəzmi onun tabutu önündə həyəcanla oxuyur. Şerdə M.M.Axundzadə "ədib, dühа" adlandırılır, arzu və əməllərinin yarımçıq qaldığı göstərilir.



Ə.Nəzmi "Səni əlindən ölüm aldı bəxtsiz elimin", "Elə yetişdirəcəkdin ziyalılar daha çox", "Arzuna yetişməyən hünərlərinlə bizdən cida oldun", "bizi pak əməllərinə həsrət qoydun", "O pak ruhuna min ehtiram, min hörmət" kimi misralarında ədibə ümumxalq məhəbbəti ifadə edir, onun Vətən və xalq qarşısındakı xidmətlərini bədii sözün poetik qüdrətilə ümumiləşdirir.

Vətəndaş yazıçı-müəllim M.M.Axundzadə haqqında yazılmış "Ölüm" şeri şərəfli bir ömrün canlı və çox təsirli tarixi-bədii salnaməsidir.

Ədibin sürgün illərində və ömrünün ağır günlərində qədirbilən xalqımız ona və ailəsinə dərin hörmət bəsləmiş, istənilən köməyini əsirgəməmişdir.

M.M.Axundzadə hər cür təqib və təzyiqlərə dözən, maarifin, azadlığın, xalqlar dostluğunun carçısı olan, atəşin əzmi sarsılmayan mübariz yazıçı, mahir pedaqoq olmuşdur.

M.M.Axundzadənin əsərləri nəşr olunub oxucuların mütaliəsinə verilməli, adı əbədiləşdirilməli, yaşadığı binaya xatirə lövhəsi vurulmalı, dövrü, həyati, yaradıcılıq yolu ətraflı tədqiq olunub araşdırılmalı və oxucuların mütaliəsinə verilməlidir. Ona görə ki, M.M.Axundzadənin mənalı ömür salnaməsi, bədii-pedaqoji irsi zəngin təlim-tərbiyə məktəbi təsiri bağışlayır.

Mirzə Məhəmməd Axundzadənin poeziyası, satiraları, felyetonları, məqalələri, dərslikləri, dram əsərləri, tərcümələri, xatirələri, zəngin irsi toplanmalı, xalqın malına çevrilməli, oxucuların mütaliəsinə verilməlidir.

## HACI KƏRİM SANIYEV (SANILI) HÜSEYN OĞLU
## (1878-1937)

Ədəbiyyat və mədəniyyət tariximizdə şərəfli xidmətləri olan görkəmli maarif xadimi Hacı Kərim Sanılı çox çətin və mürəkkəb bir ömür yolu keçmişdir. Onun haqqında arxivlərdə, muzeylərdə, kitabxanalarda material tapmaq mümkün deyildir. Ancaq Azərbaycan Dövlət Tarix arxivinin 406-cı fondunda saxlanılan 472 saylı qovluqdakı materiallar Hacı Kərim Sanılı haqqında qiymətli mənbədir.

Ədəbi və pedaqoji fikrimizin inkişafında müstəsna xidmətləri olan Hacı Kərim Sanıyev (Sanılı) Hüseyn oğlu 1878-ci ilin baharında Qazax mahalının Çaylı kəndində anadan olmuşdur. Uşaqlığını "göylərə baş çəkən Göyəzən" dağının romantik ətəklərində, "al yaşıl geyinmiş yamyaşıl meşələrin" (S.Vurgun) qoynunda keçirmiş, füsünkar təbiəti sevmiş, ondan bədii zövq almış, təbiətə vurulmuşdur.

H.K.Sanılı ibtidai təhsilini Çaylı kənd mollaxanasında almış, fars və rus dillərini öyrənməyə xüsusi həvəs göstərmiş və müqəddəs məqsədinə nail olmuşdur.

Kənd içərisində "Əkinci Söyün" ləqəbilə tanınan Hüseyn kişi zəmanəsinin maarifpərvər insanlarından biri olmuşdur. O, oğlunun Qazaxda rus dilini öyrənməsinə şərait yaratmışdır. Hacı Kərim rus dilini böyük həvəslə öyrənmişdir.

Bünövrəsi 1876-cı ildə qoyulan Qori Müəllimlər Semirayasının nəzdində 1879-cu ildə açılan "Rus-tatar" ("Rus-Azərbaycan") şöbəsində Qazax mahalından təhsil alanlar çox idi. Əhmədağa Mustafayev (1864-1932) bu seminariyanı 1885-ci ildə bitirmiş, Qazax seminariyasının F.Köçərli və P.Qasımovdan sonra müdiri işləmiş, görkəmli maarif xadimi olmuşdur.

Qazax mahalının Salahlı kəndindən Qori Seminariyasını Süleyman Qayıbov (1863-1932), İsmayıl Qayıbov (1886-1967), Səlim Əfəndiyev (1881-1946), Əhməd Gülməmmədov (1881-1943), İsfəndiyar Vəkilov (1888-1960) və başqa görkəmli maarif xadimləri bitirmişlər.

Buna görə də Hacı Kərim Sanılının bu seminariyaya qəbul olunması haqqında qərarda deyilir: "Qəbul imtahanlarını müvəffəqiyyətlə verdiyi üçün Hacı Kərimin yoxsulluğu nəzərə alınaraq, onun seminariyanın pedaqoji şura iclasının 28 avqust 1893-cü il tarixli 5 saylı protokoluna əsasən dövlət hesabına oxumağı barədə qərar qəbul edilir".[1]



H.K.Sanılının elimlərin əsaslarını öyrənən istedadlı bir gənc olduğunu 1893-1894-cü tədris ilində verilən xasiyyətnamə təsdiqləyir: "Sanıyev ciddi, əməksevər, yaxşı hazırlıqlı bir gəncdir. Xeyirxah və təvazökar əxlaqa malik olan Sanıyev hamıdan çox bilikli olması ilə təşəxxüs etmir. Yoldaşları onunla yaxınlaşmağa və dostlaşmağa səy göstərirlər. Onda mümkün qədər çox bilik əldə etməyə qüvvətli meyl vardır. Ona görə də müəllimlərin və tərbiyəçilərin hər bir məsləhətinə həvəslə yanaşır. O, sinifdə keçirilən dərslərlə kifayətlənmir, çoxlu kitablar oxumaqla bərabər tarix və coğrafiya ilə məşğul olur".[1]

Seminariyada təhsil rus dilində aparılırdı. H.K.Sanlı rus dilini mükəmməl öyrənir, rus və Qərb ədəbiyyatını, tarix və coğrafiyanı əsaslı öyrənməyə çalışır və öz müqəddəs məqsədinə nail olur.

Yelzavetpol quberniyasının Mansurlu kəndində anadan olmuş Qarğabazar (Qaryagin, sonra Fizuli adlanır) məktəbinin direktoru işləmiş Musa Quliyev (1869-1922) ilə Yelzavetpol quberniyasının Cəbrayıl qəzasının Qarğabazar kəndində göz açmış Əsgər Eyvazov (1880-1931) Hacı Kərim Sanılı ilə eyni sinifdə oxuyub, təhsil aldığı əqidə dostlarıdır.

Maarifpərvər pedaqoq Əsgər Eyvazov 1902-ci ildə Gəncə şəhərinin Bağbanlar "Rus-Azərbaycan"məktəbində müəllim-nəzarətçi işləmişdir. Tədrisin keyfiyyətini yüksəltmək, müəllimlərin pedaqoji-metodiki səviyyəsini təkmilləşdirib inkişaf etdirmək üçün böyük səy göstərən Əsgər Eyvazov açıq dərslərin keçirilməsinə, müzakirə olunmasına, dərsə verilən tələblərə əməl edilməsinə xüsusi diqqət yetirmiş, Gəncədə mahir pedaqoq kimi hörmət qazanmışdır.

Ə.Eyvazov 1991-ci ildə Qarğabazarda ilk qız məktəbi yaratmış və R.Əfəndiyevin qızı Maral xanım Nəbiyevanı həmin məktəbə müdir təyin etmişdir. Maral xanımın həyat yoldaşı Əhməd Nəbiyev Qarğabazar oğlan məktəbində müəllim işləmişdir.

---

[1] Seminariyanın materialları, 1684 saylı iş, səh. 3.

[1] X.Fətəliyev, İ.İsayev, Pedaqoji irsimizdən. Bakı, 1991, səh.10.

Hacı kərim Sanılı Musa Quliyev və Əsgər Eyvazovla səmimi qəlb dostu olmuş, onlar müqəddəs əqidələrinə sadiq qalmışlar. Hacı Kərim Sanlı pedaqoji fəaliyyətə Zəngəzur mahalının Xaçmaz kəndində 1898-ci ilin sentyabrında müəllim kimi başlamış, məktəb müdiri təyin edilmiş və 1902-ci ilin sentyabrına qədər işləmişdir.

1902-ci ilin sentyabrında Gəncəyə gəlmiş, şəhər məscidinin yanındakı "Rus-Azərbaycan" məktəbində müəllim olmuşdur. Sonra isə qeyri-rəsmi "Rus-Azərbaycan" məktəbi açmış, dəfələrlə Tiflisə getmiş, Müraciət etmiş, nəhayət çox çətinliklə məktəbi rəsmiləşdirə bilmişdir.

Qafqaz Təhsil Dairəsi direktorunun əmri ilə Hacı Kərim Sanılı həmin məktəbə müdir təyin edilmişdir. Ədib qısa müddətdə məktəbi bacarıqlı müəllimlərlə, xüsusilə rus dili müəllimləri, dərs vəsaitləri ilə təmin etmiş, azərbaycanlı qızların oxuması və rus dilini öyrənməsinə çalışmışdır.

Prof. H.Əhmədov yazır ki, Yelzavetpol quberniyasında ilk "Rus-Azərbaycan" məktəbi 1898-ci ilin aprelində açılmış, maarifpərvər müəllimlər dərs deməyə, dərsliklər yaratmağa başlamışlar. Dünyəvi elmlərin və rus dilinin tədris olunub öyrədilməsi ruhaniləri razı salmamış, H.K.Sanılı təhqir olunmuş, ona pedaqoji fəaliyyətini davam etdirməyə imkan verilməmişdir.

Hacı Kərim Sanılı 27 fevral 1904-cü ildə Yelzavetpol quberniyasının xalq məktəbləri direktoruna "Rus-Azərbaycan" məktəbinin müdirliyindən azad olunması haqqında bu raportu göndərmişdir: «Yelzavetpol şəhərinin bir neçə "qabaqcıl" müsəlmanı camaat arasında mənim barəmdə elə əhval-ruhiyyə oyadıb ki, bu da həyatımda bədbəxt bir hadisənin baş verəcəyinə şübhə doğurmur. Zati aliləri, Sizdən böyük bir ehtiramla xahiş edirəm ki, məni tutduğum vəzifədən azad edin. Həyatımın xilası üçün Yelzavetpoldan çıxım gedim".[1]

Hacı Kərim Sanılı raportun cavabını almadığına görə Çaylı kəndinə qayıtmağa məcbur olur. Nəhayət, 1904-cü ilin 29 martında Yelzavetpol xalq məktəbləri direktoruna sənədlərinin poçtla göndərilməsi haqqında məktub yazır. Lakin məktubuna cavab almadığına görə 1904-cü ilin sentyabrında inspektor Aleksey

[1] Azərbaycan Mərkəzi Dövlət Tarix Arxiv, fond 406, siyahı iki.



Kuzminə müraciətində yazır: "Direktor işimi mütləq göndərməlidir ki, mülki məhkəmə idarəsində tapdığım iş əlimdən çıxmasın".

Lakin Hacı Kərim Sanılı bir ildən artıq işsiz qalmış, kifayətləndirici cavab almamışdır. Yenidən, 1905-ci ilin mayında Yelzavetpol quberniyası xalq məktəbləri direktorlarına müraciət etmiş və göstərmişdir ki, işlə təmin olunmamışdır.

H.K. Sanılı Tiflisə getmiş, Rodionovla görüşmüş, 12 may 1905-ci il tarixdə Poylu kəndinə müəllim göndərilmişdir. Sonra isə Dağkəsəmən kəndinə rus dili müəllimi təyin edilmişdir. Kənddə əhalinin hörmətini qazanan H.K.Sanılı qısa müddətdə məşhur peaqoq kimi tanınır.

O, klassik rus ədəbiyyatını səmərəli mütaliə edir, milli ədəbiyyatı əsaslı öyrənir, yazıb-yaratmaq eşqilə yaşayır. Balaların təlim-tərbiyəsilə məşğul olur, müəllimlik vəzifəsini şərəflə yerinə yetirir. Lakin 1906-cı ildə Sanılı siyasi görüşlərinə görə polis məmurları tərəfindən həbs edilir.

Məktəbin müdiri Qiyasbəyovun Yelzavetpol quberniyası xalq məktəbləri direktoruna Sanılı haqqında göndərdiyi məktubdakı dəlillər də nəzərə alınmır, Sanılı həbsdən azad olunmur.

Qafqaz tədrisinin dairə direktoru Dağkəsəmən məktəbində ciddi yoxlama aparır və yoxlamanın nəticəsi haqqında Yelzavetpol quberniyasının general-qubernatoruna 1907-ci ilin yanvarında göndərdiyi məlumatında yazır: "Hacı Kərim Sanılı gözəl əxlaqi keyfiyyətlərə malikdir, şagirdlərinin rus dili dərsindən bilikləri çox yaxşıdır. Ümumiyyətlə, rus dilini və mədəniyyətini xalqın arasında yayan ağıllı və çox lazımlı bir şəxsdir. Sanıyevin səyi nəticəsində Dağkəsəmən məktəbində müsəlman qızları rus dilini öyrənirlər".

Hacı Kərim Sanılıya verilən 23 mart 1906-cı il tarixli xasiyyətnamədə oxuyuruq: "Hacı Kərim Sanıyevin yazdıqları doğrudur və vəzifəni ədalətlə yerinə yetirən ağıllı və ziyalı bir müsəlmandır. O, Yelzavetpolda müsəlmanlar üçün ikisinifli məktəb açılmasını və həmin məktəbdə müsəlman qızları üçün ayrıca sinif qurmağı və onların Bağban qızlar məktəbi və ümumi əmək cəmiyyətinə cəlb olunmalarını müdirlikdən xahiş etmişdir.

Cənab Sanıyevin rus mədəniyyətini xalqına çatdırmaq istəməsi və öz millətini savadlandırmaq cəhdi nadan müsəlmanları qorxuya salmışdır ki, hamı ruslaşacaq. Buna görə də onu hədələməyə, ölümlə qorxutmağa başladılar. Qubernator Litsayın və

müdirliyin köməyinə və təkidinə baxmayaraq, o öz həyatını qorumaq üçün vəzifəni qoyub Tiflisə gedir, bəraət qazanır, sonra isə Poyluda müəllimlik edir".

Hacı Kərim Sanılının Dağkəsəmən məktəbinə müdir olmaq arzusu baş tutmur, çünki Qiyasbəyov cənablarına söz verilmişdir. O da müdir təyin olunmuşdur. Əməkdar müəllim Paşa Hüseynov Hacı Kərim Sanılı haqqında xatirələrində demişdir: "Hacı Kərim Sanılı, Mehralıbəy Muradov və Məmməd Xəlilov Gəncədə bizə dərs deyirdilər. Onlar bizə çox səmimi, ata qayğısı ilə yanaşır və gözəl dərs deyir, öyrədirdilər.

Hacı Kərim Sanılı çox qayğıkeş, məsuliyyətli, tələbkar, nizam-intizamı gözləyən yüksək səviyyəli şair təbiətli müəllim idi. Klassiklərin əsərlərini, folkloru, xüsusilə poeziyanı əzbər bilir və bizə öyrədir, həm də ciddi soruşurdu. Rus dilini gözəl metodla tədris edir, ana dili ilə paralel müşahidələr aparır, bizə şüurlu dərk etdirirdi. Mənə ədəbiyyatı Hacı Kərim müəllim öyrətmiş, məndə ədəbiyyata böyük maraq oyatmışdır. Mən bütün müəllimlik fəaliyyətimdə çalışmışam ki, Hacı Kərim müəllimin metoduna, əqidəsinə, tədris üsuluna yiyələnim. Bütün məziyyətlərimə görə müəllimimə minnətdaram. Onun xatirəsi qəlbimdə əbədi yaşayır, ondan öyrənirəm".

Ümumiyyətlə, Hacı Kərim Sanılının vəziyyəti ağır olmuş, ehtiyac içərisində yaşamışdır. Qafqaz təhsil dairəsinin göstərişilə maaşdan əlavə sanılıya 133 manat verilməsi nəzərdə tutulmuş, ancaq əməl olunmamışdır.

1910-cu ilin aprelində Hacı Kərim Sanılı Sank-Peterburq müəllimlər insttitutu nəzdində təşkil edilən əl əməyi kursuna göndərilir. İnstitutun direktoru A.Konstantinovun imzası ilə verilən vəaiqədə deyilir ki, Hacı Kərim Sanıyev ağac dülgərliyi üzrə ibtidai işlər kursunu müvəffəqiyyətlə qurtarmışdır və həmin ixtisas üzrə təhsilini təkmilləşdirmək üçün yenə də bir neçə dəfə Peterburq İnstitutunun əl əməyi kursuna göndərilməlidir. "Sanıyev bir təlim tədris fənni kimi, əl əməyi dərsinin bütün lazım olan nəzəri və tarixi məlumatları ilə tanış olmuşdur. Buna görə də ona ümumtəhsil məktəblərində əl əməyi dərsi aparmağa icazə verilir".

Azərbaycan Dövlət Tarixi arxivindəki sənədlərdə Hacı Kərim Sanılının ədəbiyyata, tarixə, etikaya və estetikaya xüsusi fikir



verdiyi, şagirdlərində ədəbiyyata, poeziyaya, folklora həvəs oyatmağa böyük səy göstərdiyi məlum olur.

Ümumiyyətlə, Hacı Kərim istedadlı sənətkar və mahir pedaqoq kimi tanınmış, həmişə mükafatlandırılmış-dır. 1913-cü ildə Hacı Kərim Sanılıya səmərəli pedaqoji fəaliyyətinə görə tərifnamə və III dərəcəli Stanislav ordeni verilir. Ancaq onun orden almağa on beş manat pulu olmur. Sonra həmin pulu toplayıb ordeni alır.

1913-cü ilin oktyabrında Sanılı Yelzavetpoldakı "XVII məhəllə (prixod) məktəbi"nə dəvət olunur. Ancaq illik 470 manat maaş onu təmin etmədiyinə görə Dağkəsəmən məktəbində qalır, Yelzavetpola getmir.

1914-cü ilin bir sentyabrında H.K.Sanılı Qazax ali başlanğıc məktəbində dərs deməyə başlayır. Qazaxda məktəblərin açılmasına, genişləndirilməsinə, dərslik, dərs vəsaitlərilə təmin olunmasına əsaslı kömək göstərən Sanılı müəllim kadrların hazırlanmasında var qüvvəsini əsirgəmir. Həftəlik və aylıq təşkil olunmuş hazırlıq kurslarında müəllimlərə pedaqoji-metodik istiqamət verir, tədrisin keyfiyyətini yüksəltməyin yollarını öyrədir.

1920-ci ildə Bakıya köçür, orta ixtisas və ali məktəblərdə işləmək, nəşriyyatlarda çalışmaq, həm də bədii yaradıcılığını inkişaf etdirmək istəyir. Hacı Kərim Sanılı rus və fars dillərini mükəmməl bilir, Avropa və Şərq ədəbiyyatını səmərəli mütaliə edir, öyrənir, həm nəşriyyatda çalışır, həm də pedaqoji texnikumunda dərs deyir. 1930-1931-ci illərdə iki cilddən ibarət çap olunan "Azərbaycan türk xalq şivələri lüğəti" kitabının redaktoru Hacı Kərim Sanılı olmuşdur.

Hacı Kərim Sanılı 1937-ci ilə kimi Bakı şəhər xalq maarif şöbəsinin müfəttişi vəzifəsində çalışmış, görkəmli şair-pedaqoq kimi müəllim-tərbiyə probleminin yüksək səviyyədə həyata keçirilməsinə şərəfli xidmət etmişdir.

Mənalı ömrünün qırx ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Hacı Kərim Sanılının "Böyüklər üçün əlifba kitabı" dərsliyini Yeni Əlifba Komitəsi 1924-cü ildə "Yeni türk əlifbası" adı ilə çap edib istifadəyə vermişdir.

Müəllif, uşaqların yaş və bilik xüsusiyyətlərini nəzərə almış, pedaqoji prinsiplərə və dərsliyə verilən tələbələrə əsasən əməl etmiş, dərsliyi nadir orijinal və tərcümə nümunələrilə zənginləşdirmişdir.

Hacı Kərim Sanılı 1927-1930-cu illərdə Ö.F.Nemanzadə və H.Axundovla "Üçüncü il" (bu dərslik dörd dəfə təkrar nəşr

olunmuşdur), 1927-ci ildə Əhməd Seyidovla "Türk əlifbası" dərsliklərini çap etdirmişdir.

H.K.Sanılının dərslikləri proqram əsasında tərtib olunmuş, dərsliyə verilən tələblər gözlənilmiş, təlim-tərbiyə baxımından faydalı bədii mətnlər, poeziya və nəşr nümunələri, təmsillər seçilmişdir.

H.K.Sanılının "Türk əlifbası" dərsliyinə yazdığı "Bir neçə söz" adlı müqəddimə müəllimlərə pedaqoji-metodik istiqamət verir, nitq mədəniyyəti, yazı texnikası, nağıletmə haqqında metodik tövsiyyələrini bildirir.

Uşaqların təmsilləri daha çox mütaliə edib öyrəndiyini bilən Hacı Kərim Sanılı Ə.Məhzunla 1927-ci ildə "Meymun və ilan" kitabını çap etdirmişdir. Kitabdakı "Meymun və ilan", "Oxlu kirpi", "Dolaşa", "Kirpi", "Leylək" şerlərini Hacı Kərim Sanılı yazmışdır. Ümumiyyətlə, kitabdakı bədii mətnlər tərbiyəvi mahiyyət daşıyır.

Hacı Kərim Sanılı insan qəlbini təlatümə gətirən, ona bədii-estetik zövq verən, biliyini zənginləşdirən, təbiətin vurğunu olan şair-pedaqoqdur.

Xalq şairi Süleyman Rüstəmin "Səni sevir, səni unutmarıq" adlı xatirəsində oxuyuruq: "Təbiəti yaxşı bilən şair Hacı Kərim Sanılı yol boyu bizə otlardan, çiçəklərdən, böcəklərdən, arılardan, quşlardan ayaqüstü mühazirə oxuyaraq bundan zövq alır". Deməli, şair-müəllim təbiətin vurğunu olmuşdur.

Hacı Kərim Sanılı əsərlərində təbiətin füsünkarlığı, romantikası, gözəlliyi, fəsillərin ecazkarlığı, fərdi xüsusiyyətləri bədii sözün qüdrətilə çox təsirli cilalanır, qüdrətli vasitəsinə çevrilir.

H.K.Sanılının sözə qənaət etməsi, sözün məna dərinliyinə diqqət yetirməsi və yerində işləməsi onun ədəbi və pedaqoji fəaliyyətinin vəhdətindən irəli gəlir. Onun dağları "telli, toqqalı", "lalədən ənlikli", "ağ qardan xalı, gümüşü qolbağılı, yaqut sırğalı" olan təbii lövhəyə bənzətməsi gözəl təsir bağışlayır.

İstedadlı şair və müdrik pedaqoq Hacı Kərim Sanılının mahir qələmindən çıxmış "Yazda", "Yaz işləri", "Yaz yaxınlaşır", "Dinamit mahnısı", "Bəsdi Bağırova", "Ramiz Əzimzadəyə" və s. şerləri nadir sənət inciləri, uşaq ədəbiyyatının gözəl nümunələridir.

Hacı Kərim Sanılının «Canavar hökuməti», «Aran köçü», «Turut qaçaqları», «Namus davası», "Novruz və Gülarə" adlı poemalarında yüksək əxlaqi keyfiyyətlər təbliğ olunur.



Həyat hadisələrini real lövhələrdə göstərən "Aran köçü" poemasında vətənpərvərlik hissi, müdrik qocaların təmkinliyi, anaların məhəbbəti, gəlinlərin isməti, cavanların igidliyi təsirli və inandırıcı verilir.

İki hissədən ibarət olan "Aran köçü" əvvəlcə "İnqilab və mədəniyyət" jurnalında (1926), sonra isə 1927-ci ildə kitab şəklində çap olunmuşdur. Hacı Kərim Sanılının "Yeni Şərqilər" adlı ilk şerlər kitabı 1919-cu ildə, "Kəndimiz", "Aran köçü", "Namus davası", "Dəli öküz", "Meymun və ilan" (Ə.Mahzunla şərikli) kitabları 1927-ci ildə, «Turut qaçaqları» 1935-ci ildə çap olunmuşdur.

Hacı Kərim Sanılı haqqında ədəbi tənqid 30-cu illərdə obyektiv fikir söyləməmiş, real təhlil verməmişdir. Atababa Musaxanlı "Aran köçü" və onun müəllifi" adlı məqaləsində poemanın həyat həqiqətini düzgün əks etdirməsini göstərir, lakin ideyasını ətraflı və düzgün şərh etmir.

Mehdi Hüseyn "Kəndli ədəbiyyatının inkişafı yolunda" məqaləsində "Aran köçü" poemasını "ən səmimi əsər" adlandırır.

S.Əfəndizadə "Aprel və ədəbiyyat" adlı məqalə-sində Hacı Kərim Sanılını "kəndli şairi" adlandırmışdır. Prof. M.Rəfili "Kəndli ədəbiyyatı doğru vəzifələr qarşısında" və "Yeni kəndli ədəbiyyatı haqqında" adlı məqalələrində Hacı Kərim Sanılı ilə Katib Zeynalovun əsərlərinin kəndlərdə geniş yayılmasının səbəbini kəndli psixologiyasının obyektiv və inandırıcı göstərilməsilə əsaslandırır.

M.Rəfili buna görə də Hacı Kərim Sanılını ilk dəfə "Kəndli şairi" adlandırmışdır. M.Rəfili "Katib Zeynalovun yaradıcılığı haqqında" məqaləsində Sanılının zəngin yaradıcılıq yolu haqqında düzgün fikir söyləmir, əsərlərinin məzmun və ideyasını şərh etmir.

Hənifə Zeynallı və Əli Nazim "Ədəbiyyat müntəxabatı" (1934) dərsliyinin müqəddiməsində yazır ki, "Hacı Kərim Sanılı şura əndinə müraciət edərək sosialist quruluşu prosesində aradan qaldırılan patrialxal kənd məişətinə münasibətini təsviri başlayır, onu yalnız müsbət bir hadisə olaraq göstərir, onu sevə-sevə tərənnüm edirdi".

1930-cu illərin dövrü mətbuatını diqqətlə nəzərdən keçirdikdə Hacı Kərim Sanılı yaradıcılığına haqsız və ədalətsiz hücumların, əsassız mülahizələrin, elmi və nəzəri mənbəyi olmayan fikirlərin şahidi oluruq.

H.K.Sanılı 1931-ci ildən sonra dərslik hazırlamır, çünki, mətbuatda "Qolçomaq şairi", "Sinfi düşmən" adlandırılır. Xalq şairi Süleyman Rüstəm H.K.Sanılının uşaq şerlərini və dərsliklərindəki poetik nümunələri uşaqların şüurunu zəhərləyən mənasız "cızmaqara" adlandırır. Onları qadağan etməyin zəruriliyini göstərir[1].

Müəllim Mərdan Muradxanlı "Yeni tədris kitabları haqqında" adlı məqaləsində yazır: "Otuzuncu illərin axırlarında dərs kitabları Sanılının qolçomaq şerləri və Hüseyn Cavidin burjua şerləri ilə doldurulmağa başladı. Əsas etibarilə baxılacaq olursa adları çəkilən yazıçılar özləri tədris kitablarının müəllimləri idilər. Təsərrüfat və sairə cəbhələrdə sinfi düşmən ideoloji cəbhəsinin, kitab cəbhəsini öz əlinə almağa çalışırdı. Axır illərdə o kitablarında işçi, koixozçu, sosializm və sairə sözlər işlənirdisə də o kitabın mündərəcəsindəki həmin sinfi düşmən ideologiyasını pərdələmək üçün idi".[1]

Belə saxtakar və böhtançı yazılar H.K.Sanılı kimi görkəmli sənətkarı, mahir pedaqoqu məhv etmək məqsədi daşıyır. Ona görə ki, böhtançı mahiyyətlidir. Hacı Kərim Sanılı 1930-cu ildə "Bakinski raboçi" qəzetinə göndərdiyi məktubda ona hücum edən ədalətsiz tənqidçilərin fikrini rədd edərək yazırdı: "Mənə istinad edilən bu "ləkə"ni qəti sürətdə üzərimdən atıram, qətiyyən qəbul etmirəm, ona görə ki, hamısı uydurma və böhtandır".

Görkəmli ədəbiyyat və maarif xadimi Hacı Kərim Sanılının pedaqoji fəaliyyəti və ədəbi yaradıcılığı Nizami yurdu, Şərqin qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncə ilə möhkəm əlaqədardır. Ona görə ki, Hacı Kərim Sanılı Gəncədə yaşamış, pedaqoji fəaliyyət göstərmiş, məktəb açmış, oğlanların və qızların məktəbə gəlib oxumasına səmərəli kömək göstərmiş, dərsliklərin və dərs vəsaitlərinin yaradılmasına çalışmışdır.

Göstərilən məziyyətlərinə, Vətənə və xalqa sonsuz məhəbbətinə, zəngin ədəbi-pedaqoji irsinə görə Hacı Kərim Sanılı oxucularının qəlbində özünə əbədi abidə qurmuşdur.

---

[1] "Müəllimə kömək", 1932, № 2-3.

[1] Müəllimə kömək", 1932, № 6-7, səh .19-20.



Prof.Sadıq Şükürov 1970-ci ildə H.K.Sanılı haqqında kitabını çap etdirmişdir. Kitabda Sanılının yaradıcılıq yolu əsaslı şərh olunur və gözəl dəyərləndirilir.Ədibin fəaliyyəti dövrü mətbuatda yüksək qiymətləndirilmişdir.

Müstəqil Respublikamızda Hacı Kərim Sanılının, əsərləri ümumtəhsil orta məktəblərinin ədəbiyyat, qiraət-oxu dərsliklərini zənginləşdirmiş, gənc nəslin mütaliəsinə verilmişdir. Sanılının ədəbi-pedaqoji irsi gənc nəslin təlim-tərbiyəsində qiymətli bədii xəzinədir.

Görkəmli sənətkar, mahir maarif xadimi Hacı Kərim Sanılının əsərləri çap olunmuş, adı əbədiləşdirilmiş, haqqında əsərlər yazılmış, Vətənə və xalqa şərəfli xidmət etdiyi, əbədiyaşar tarixi şəxsiyyət olduğu göstərilmişdir.

## FƏRHAD MƏŞƏDİ RƏHİM OĞLU AĞAZADƏ ŞƏRQLİ (1880-1931)

Görkəmli maarif xadimi, pedaqoq və publisist Fərhad Ağazadə Azərbaycan məktəb və pedaqoji fikir tarixinin inkişafında səmərəli fəaliyyət göstərən mütəfəkkirdir. Fərhad Ağazadə ana dlində dərsliklər tərtib etmək, Azərbaycan dilinin orfoqrafiyasını yaratmaq və onu zənginləşdirmək, ərəb əlifbasının nöqsanlarını göstərmək sahəsində M.F.Axundovdan sonra ikinci simadır.

Fərhad Ağazadə Yaxın və Orta Şərqdə latın qrafikası əsasında yaradılmış ilk "Əlifba" kitabının əsas müəllifi olmuşdur. Fərhad Ağazadə Azərbaycan maarif və mədəniyyət tarixini tədqiq etmişdir. H.Zərdabi və F.Köçərlinin həyatı, fəaliyyət və xidmətləri haqqında ilk əsaslı məlumatı F.Ağazadə vermişdir.

F.Ağazadə "İkinci il" (1908, 1912, 1925) dərsliyinin müəllimlərindən biridir. Fərhad Ağazadə Şərqli iki yüzdən artıq pedaqoji və publisistik məqalənin və bir neçə kitabın müəllifidir.

Fərhad Məşədi Rəhim oğlu Ağazadə Şərqli 1880-ci il avqust ayının 12-də Yelzavetpol quberniyasının Şuşa şəhərində anadan olmuşdur. Fərhad Ağayev uşaqlıq illərini Qarabağda keçirmişdir. Fərhad Ağazadə Camal bəy Fətəlibəyovun 1893-cü il mart ayının 18-də açdığı üçüncü dərəcəli "rus-müsəlman" tipli məktəbin birinci sinfinə on üç yaşında davam etməyə başladı. Məktəbdə çox yaxşı oxuyan Fərhad Ağazadə məktəbi 1895-ci ildə qurtardı.

1895-ci ildə Camal bəy Fətəlibəyov onun məktəbini uğurla bitirən Fərhad Ağazadəni Qoriyə apardı. 1895-ci il sentyabrın 1-də Fərhad Ağazadə kiçik hazırlıq sinfinə dövlət hesabına qəbul olub oxumağa başladı.

Fərhad Ağazadə tədris ilində seminariyanı bitirir. Onun haqqında sinif rəhbəri yazmışdır: "Ağayev Fərhad ciddi, səyli, bacarıqlı, nəzakətli şagirddir".

Fərhad Ağazadə seminariyada rus dilini mükəmməl öyrənir, rus və dünya klassik ədəbiyyatını mütaliə edir. Fərhad Ağazadə 1900-cu ilin sentyabrından Xaçmaz məktəbində müəllimlik etməyə başlayır. Bir ildən sonra Şuşa şəhər məktəbində işləyir. 1902-ci ilin sentyabrından 1905-ci ilin iyul ayına kimi Yelzavetpol



quberniyasının Gorus iki sinifli məktəbində müəllimlik fəaliyyətini davam etdirir.

Fərhad Ağazadə 1905-ci ilin dekabrında Bakı şəhərindəki birinci "Rus-müsəlman" məktəbinin III şöbəsinə müəllim təyin olunur. O, 1996-cı ildə məktəbin müdiri vəzifəsinə təyin edilir. 1909-cu ilin 8 yanvarında Bakıda IV "Rus-müsəlman" məktəbinin direktoru vəzifəsinə keçirilir.

Fərhad Ağazadə 1906-cı ildə Bakıda təşkil edilən "Nicat" maarif cəmiyyətinin yaradılmasında fəal iştirak edir. H.M.Zərdabi, N.Nərimanov, M.Mahmudbəyov, F.Ağazadə, S.S.Axundov, Ü.Hacıbəyov S. Əbdülrəhmanbəyov, Ə.Cəfərzadə bu cəmiyyətin üzvü olmuşdur. Cəmiyyət 1906-cı ilin 22 avqustan rəsmi təsdiq edilir və ona məktəblər açmağa, məktəblərdə oxuyan kasıb uşaqlara kömək etməyə icazə verilir. Bu sahədə cəmiyyət səmərəli fəaliyyət göstərir.

1906-cı ilin avqust ayında I müəllimlər qurultayı çağrıldı. Bu qurultay məktəblərdə ana dilinə verilən saatların artırılmasını, proqramların tərtibini, ibtidai təhsilin ümumi və icbari olmasını, təlimdə yeni üsullardan istifadə edilməsini qərara aldı. Bu sahədə Fərhad Ağazadə yaradıcı fəaliyyət göstərdi, zəngin məzmunlu çıxış etdi. Lakin bu qurultayın qərarları tamamilə həyata keçirilmədi.

Azərbaycan müəllilərinin II qurultayı 1907-ci ildə keçirildi. Ancaq bu qurultayların qərarları icra olunmadı. 1907-ci ildə yaradılan "Səadət" məktəbinə 1909-cu ul sentyabrın 1-də Fərhad Ağazadə müdir müavini təyin edilir. Ü.Hacıbəyov bu məktəbdə bir il idi ki, rus dili dərsi deyirdi. Məktəbin müdiri Əlibəy Hüseynzadə dərin biliyə, qüdrətli qələmə malik idi. Ancaq panislamist-pantürkist mövqe tutduğuna görə ziyalılar onu kəskin tənqid edirdilər.

"Səadət" məktəbinin dini cəmiyyət məktəbi olmasına baxmayaraq, buradakı müəllimlərin çoxusu mütərəqqi görüşlü ziyalılar idi. Məktəbdə istifadə edilən kitabların çoxu "rus-müsəlman"məktəbində oxunan kitablar idi.

Fərhad Ağazadə 1912-ci ildə "Ədəbiyyat məcmuəsi" adlı Müntəxabat kitabını "Kaspi" mətbəsində çap etdirir. Fərhad Ağazadənin "Yeni türk əlifbası" adlı kitabı nəşr olunur. Fərhad Ağazadə 1923-cü ildə "Nə üçün ərəb əlifbası türk dilinə yaramır" adlı elmi kitabını ərəb əlifbası ilə çap etdirir və ərəb əlifbasının qüsurlarını göstərir.

Azərbaycanın IV sovetlər qurultayı yeni əlifbanın I dərəcəli məktəblərdə tədricən tətbiqi haqqında qərar qəbul etdi. 1929-cu ilin bir yanvarında hər yerdə əlifbaya keçirildi. 1926-cı ildə Fərhad Ağazadənin "ASSR-də yeni türk əlifbasının yaranma tarixi və onun ideyaların həyata keçirilməsi" adlı kitabı nəşr olundu.

1926-cı il 26 fevralda Bakıda birinci Türkoloji qurultayı keçirildi və martın 6-da fəaliyyətini yekunlaşdırdı. Qurultay Yeni Əlifba Komitəsinin işinə qüvvətli təkan verdi. Qurultayda Fərhad Ağazadə "Türk dillərinin orfoqrafiyası" mövzusunda geniş məruzə ilə çıxış etdi.

Fərhad Ağazadə 1927-ci ildə "Yeni türk əlifbası layihələrinin inifikasiyası üzrə materiallar", 1928-ci ildə Q.Qaraqaşlı ilə birlikdə "Yeni əlifba hərəkatının inkişaf tarixinə və nailiyyətlərinə dair oçerklər" kitablarını nəşr etdirmişdir. Türkiyədə də bu ideya yüksək qiymətləndirildi və yayıldı.

Fərhad Ağazadə 1926-1927-ci illərdə bir neçə müəlliflə "Zəhmət məktəbi" və "Savada doğru" dərsliklərini yazıb çap etdirir, məktəblərdə tədris işinə təkan verir.

1930-cu ildə Fərhad Ağazadə Azərbaycan elmi-Tədqiqat İnstitutunun fəxri işçisi seçilmişdir. O, Azərbaycan pedaqoji fikir tarixi elminin yaradılmasına çalışan ilk təşəbbüskarlardan olmuşdur. Onun 1926-cı ildə "Firidun bəy Köçərlinin bioqrafiyası" adlı yazdığı əsərin əlyazması faydalı olur. Bu əlyazması əlyazmalar institutunda saxlanılır.

Fərhad Ağazadənin həyat yoldaşı Gövhər xanım Kuçayeva Ağazadə uzun müddət uşaq bağçalarında və ümumtəhsil məktəblərində gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur.

Gövhər xanımın xatirələri AMEA Əlyazmaları fondunda saxlanılır. Dərin məzmunlu xatirələrdə Fərhad Ağazadənin 1927-ci ildə Moskvaya dəvət olunması, mühazirə oxuması, rus ədəbiyyatını mükəməl bilməsi, dünyanın görkəmli alimləri ilə dost olması, vətənpərvərliyi haqqında zəngin məlumat vardır.

Ə.Haqverdiyevin həyat yoldaşı Ceyran xanım, prof. Bəkir Çobanzadənin həyat yoldaşı Dilarə xanım, H.K.Sanılı ilə Ağazadələr arasındakı səmimiyyət haqqında geniş xatirələr oxucuya gözəl təsir bağışlayır.



Fərhad Ağazadəyə Müttəfiq Şura Cümhuriyyətləri maarif işçiləri ittifaqının Azərbaycan çöbəsinin mərkəzi idarəsi fərdi təqaüd verir, onun səmərəli fəaliyyətini yüksək qiymətləndirir.

Fərhad Ağazadə 1929-1930-cu illərdə bir neçə dəfə müalicəyə gedir. Ancaq xəstəliyinin qarşısı alınmır.

Fərhad Ağazadə 1931-ci il yanvarın 4-də vəfat edir. "Kommunist" qəzeti onun şəklini dərc etməklə hüzünlü bir nekroloq çap edir. Görkəmli maarif və mədəniyyət, elm və təhsil xadimi Fərhad Ağazadənin haqqında tədqiqat əsərləri yazılmış, adı əbədiləşdirilmişdir.

## ABDULLA ŞAİQ TALIBZADƏ
## (1881 - 1959)

Abdulla Şaiq Axund Molla Mustafa oğlu Talıbzadə 1881-ci il fevral ayının 25-də Tiflis şəhərində ruhani ailəsində anadan olmuşdur.

A.Şaiqin atası Axund Molla Mustafa İdareyi-ruhaniyyədə işləyir və altısinifli şəhər məktəbində müəllimlik edirdi. Şaiq 1888-ci ildə Tiflisin altısinifli məktəbində oxumağa başlamış, fars və ərəb dillərini öyrənmişdir.

Abdulla Şaiq 1893-cü ildə anası və böyük qardaşı ilə birlikdə İranın Məşhəd şəhərinə gedib yeddi il (1900-cü ilə qədər) yaşamış və təhsilini davam etdirmişdir. Şaiq ədəbi yaradıcılığa bu illərdə başlamış, "Valeh" təxəllüsü ilə qəzəllər yazmış, həm də Y.A.Krılovun "Sazandolar", "Qurd və pişik", "İki öküz", "Meymun və gözlük", "Qarğa və pendir" təmsillərini fars dilinə tərcümə etmişdir.

Abdulla Şaiq 1920-ci ildə Bakıda fars dilində yazdığı "Gülşəni-ədəbiyyat" dərsliyində Y.A.Krılovdan tərcümə etdiyi bu təmsilləri də vermişdir. Abdulla Şaiq 1900-cü ildə Xorasandan Tiflisə qayıtmışdır.

A.Şaiq 1901-ci ildə Bakıda Nəriman Nərimanovun iştirak etdiyi komissiya qarşısında imtahan verib, məktəblərdə Azərbaycan dili müəllimi diplomu alıb və 1901-ci ilin oktyabr ayından müəllimliyə başlamışdır.

A.Şaiq N.Nərimanov, H.Zərdabi, N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov və başqa görkəmli yazıçı-maarif xadimləri ilə birlikdə xalqın mədəni inkişafı yolunda fədakarlıqla səmərəli çalışmışdır.

Abdulla Şaiq müəllimlik etməklə kifayətlənmir, dərsliklər yazır, bədii yaradıcılıqla və gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olurdu. O, 1905-ci ildən sonra uşaqlar üçün şerlər və hekayələr yazır, "Molla Nəsrəddin" jurnalında fəal iştirak edir.

Abdulla Şaiq Talıbzadə 1906-cı ildə yoxsul ailədən olan Ruziyyə adlı tərbiyəli, mərifətli, zəngin mənəviyyatlı, zərif və gözəl bir qızla evlənir. Səmimi və xoşbəxt yaşayırlar. Ancaq 1911-ci ildə Ruziyyə vəfat edir. Abdulla Şaiq Ruziyyənin xatirinə "Şair və qadın" adlı bir dramatik poema yazır, həm də "Bəxtsiz rəfiqəmə" adlı (1912) iki şer yazır:

Zəhmət ilə yuva yapdım sevərək,
Tarumar eylədi cövr ilə fələk.

Abdulla Şaiq doqquz il sürən subaylıq həyatına 1920-ci ildə son qoyur. O, dərbəndli Şahzadə xanımla evlənir. Onun həyatı xoşbəxt olur. Abdulla, Şaiqlə Şahzadə xanımın Kamal və Yıldırım adlı oğlanları, Gülbəniz adlı qızları olmuşdur.

Mustafa Quliyev yazmışdır: "Şaiq sağlam ruha, sarsılmaz bir iradəyə malikdir. Abdulla Şaiqin vicdan eşqi olmuşdur. Onun oğlanları və qızı da Vətən eşqi ilə yaşayan, ümumxalq məhəbbəti qazanan, insanlığın zirvəsinə yüksələn parlaq şəxsiyyətlərdir".

Abdulla Şaiq Axund Mustafa oğlu Talıbzadə 1959-cu il iyun ayının 24-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Abdulla Şaiq sevərək yaşayan, sevilərək dünyasını dəyişib milyonların qəlbində özünə əbədi abidə quran dahi şəxsiyyətdir. Onun müqəddəs məzarı Fəxri Xiyabanda ziyarətgaha çevrilmişdir.

A.Şaiq 1920-ci ildən sonra ali məktəblərdə Azərbaycan ədəbiyyatı tarixindən mühazirələr oxuyur, proqramlar və dərsliklər tərtib edir. Abdulla Şaiqi partiya və hökumət xalq qarşısında səmərəli xidmətinə görə Lenin ordeni, Qırmızı əmək bayrağı ordeni ilə təltif edir, ona Əməkdar İncəsənət xadimi adı verir.

1946-cı ildə Abdulla Şaiqə ehtimad göstərilir, Ali Sovetə deputat seçilir və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif olunur.

Abdulla Şaiq şair, nasir, dramaturq, uşaq yazıçısı, maarif xadimi, ədəbiyyat dərslikləri müəllifi kimi ümumxalq hörməti qazanır. Abdulla Şaiq "Cənnət kimi bir cahan" arzusu ilə yaşayır, zülmə hakim sinfi tənqid edir, istismar dünyasını lənətləyir, azadlığı, xoşbəxtliyi tərənnüm edir. 1914-cü ildə yazdığı "İdeal və insanlıq" adlı əsərində hadisələri düzgün verir.

A.Şaiqin "Məktub yetişmədi", "Köç", "Pir" kimi hekayələri "Dursun", "Əsrimizin qəhrəmanları" adlı povestləri inqilabdan əvvəlki Azərbaycan həyatının canlı lövhələrini verir.

A.Şaiqin uşaq əsərləri dərsliklərdə, oxu kitablarında, "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında nəşr edilirdi. Onun "Yıldırım" dramı, "Araz" romanı gözəl sənət əsərləridir. Onun əsərlərində təlim-tərbiyə və bədii-estetik mahiyyət çox qüvvətli və təsirlidir.

A.Ş.Talıbzadə "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1910), "Gülzar" (1912), "Müntəxəbat" (1919), "Türk çələngi" (1919), "Milli qiraət" (1919), "Türk ədəbiyyatı" (1920) və başqa faydalı dərsliklər yazıb məktəblərə ərməğan vermişdir.

Görkəmli maarif xadimi Cəmo Cəbrayılbəyli yazır: "Ədəbiyyat və dil tədrisi sahəsində ən təcrübəli və məlumatlı mütəxəssislərdən biri Şaiq idi. O, dərs dediyi tələbələrlə ədəbiyyat nəzəriyyəsi və tarixini öyrətməkdən başqa, onların ümumi ədəbi-mədəni inkişafı üçün də böyük səylə çalışırdı, tələbələrlə ədəbi disputlar keçirir, folklor nümunələri toplanması ilə məşğul olur, nümunə dərslərinə rəhbərlik edirdi. Şaiq bütün biliyini cavanlara verməyə çalışırdı".

Böyük ədib, müəllim və incəsənət xadimi A.Ş.Talıbzadənin yaradıcılıq yolu şərəfli və ibrətamiz olmuşdur. A.S.Talıbzadə tənqidçi və ədəbiyyatşünas kimi Füzuli, Nəsimi, Vaqif, Zakir, M.F.Axundov, Sabir, Səhhət, Hadi, Cavid haqqında əsərlər yazmış, ədəbiyyat nəzəriyyəsi ilə məşğul olmuş, dərsliklər nəşr etdirmişdir.

Onun şətəfli əməyi tamamilə pedaqoji fəaliyyətinə xidmət etmişdir. Azərbaycan xalqına, Azərbaycan maarif və mədəniyyətinin, ədəbiyyat və incəsənətin inkişafına təmənnasız və şərəfli xidmət etmiş Abdulla Şaiq dahi şəxsiyyətdir, mahir pedaqoq və maarif xadimidir.

Fitri istedadlı şair, nasir, dramaturq alim, mütərcim, görkəmli maarif xadimi Abdulla Şaiq dahi şəxsiyyətdir.

Abdulla Şaiq "Dəbistan" (1906-1908), "Rəhbər" (1906), "Məktəb" (1911-1920) adlı uşaq jurnallarında fəal iştirak etmiş, uşaqlar üçün yazdığı sənət inciləri dərc edilməsinə nail olmuşdur.

Bu qəzetin redaktorları Ə.Cəfərzadə, M.H.Əfəndizadə, M.Mahmudbəyov, Q.R.Mirzəzadə görkəmli maarif xadimləri, mahir müəllim və sənətkar olmuş, Abdulla Şaiqə dərin hörmət bəsləmişlər, A.Şaiq də onların ehtimadını həmişə doğrultmuş, jurnallara səmərəli xidmət etmişdir.

Abdulla Şaiq yazır: "Müəllimlik nəcib, müqəddəs vəzifədir. Zəmanəmizdə maarifin, təhsilin, müəllimin bu qədər yüksək əhəmiyyət və mövqe qazandığını nəzərə alaraq, xalqımızın əsas mədəniyyət ocağı olan məktəbə, pedaqoji məktəblərə, institutlarımıza daha çox fikir verilməlidir, onlar təşkilat cəhətdən təkmilləşdirilməlidir. Pedaqoji məktəblərə ən bilikli və təcrübəli müəllimlər cəlb olunmalıdır".



Abdulla Şaiqin əsərləri, dərslikləri nəşr olunmuş, adı əbədiləşdirilmiş, haqqında tədqiqat monoqrafiyaları, dissertasiyalar yazılmış, məzarı ziyarətgaha çevrilmişdir.

Azərbaycan pedaqoji fikir tarixində, Azərbaycan ədəbiyyatında Abdulla Şaiq Mustafa oğlu Talıbzadənin şərəfli xidmətləri ona ümumxalq məhəbbəti qazandırmış, milyonlarla insanların qəlbində parlaq yaşamaq uğuru vermişdir. Onun bədii və pedaqoji irsi çox zəngin təlim-tərbiyə, bədii-estetik zövq və yüksək əxlaqi keyfiyyətlər məktəbidir, misilsiz örnək və xəzinədir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir ki, Hüseyn Cavidin, Abdulla Şaiqin yaratdığı əsərlər Azərbaycan xalqının sərvətidir, onlar bu gün və gələcək nəsillər üçün dərslik kitabıdır.

## HÜSEYN CAVİD
## (1882-1941)

Mədəniyyət tariximizdə Hüseyn Cavid yalnız görkəmli dramarurq, istedadlı şair kimi deyil, həm də mahir bir pedaqoq kimi tanınır. Onun ədəbi-pedaqoji fəaliyyəti həqiqi sənət aşiqi olduğunu göstərir. Hüseyn Cavid yazır: "Yalnız məktəb lazımdır. Bütün inqilabi-mədəniyyət həmin məktəbin məhsullarıdır."

Yazıçı-müəllim H.Cavidin ədəbiyyatımızın zənginləşdirilməsində və tədrisində səmərəli əməyi böyükdür. Cavadın mənalı həyat yolu xalqa, Vətənə xidmət etməyin ən gözəl nümunələrindəndir. Buna görə də onun məktəblərimizdə öyrənilməsi sevindirici haldır.

H.Cavid Rəsizadə (1882-1941) böyük demokrat yazıçı C.Məmmədquluzadənin həmyerlisidir. O, Naxçı-vanda doğulmuş və ömrünün on səkkiz ilini fasiləsiz olaraq bu doğma şəhərdə keçirmişdir.

H.Cavidin atası ruhani olduğundan oğlunu mollaxanaya qoyur. Mollaların boş və mənasız nəsihətləri Hüseyni təmin etmir. Elə bu vaxt M.F.Axundov (1812-1878) kimi ona da bir xoşbəxtlik üz verir.

Görkəmli maarifpərvər müəllimlərdən Məhəmməd Tağı Sidqi (1854-1903) yerli əhalinin dəvəti ilə Ordubaddan Naxçıvana gəlir və dördsinifli yeni tipli «Məktəbi-tərbiyə»ni açır (1894).

Prof. A.Abdullayev qeyd edir ki, öz dövrü üçün mütərəqqi rol oynayan Məhəmməd Tağı Sidqinin məktəbində Azərbaycan, rus, fars, və ərəb dilləri, tarix, coqrafiya, hesab kimi fənlər oyrədilirdi.

Balaca Hüseynin istedadlı, hazırcavab olduğu maarifpərvər ziyalılardan Qurbanəli bəy Şərifovun xoşuna gəldiyindən ona M.T.Sidqinin məktəbinin əhəmiyyətini başa salır və orada oxumasını məsləhət görür.

Molla Abdullanı isə ondan xəbərsiz həmin məktəbdə oxuması qəzəbləndirir. Lakin Məhəmməd Tağı Sidqi ilə Qurbanəli bəy Şərifov çətinliklə də olsa, dindar atanı razı salırlar. Hüseyn 16 yaşında, yəni 1898-ci ildə Sidqinin məktəbini bitirir.

Hüseyn Cavid burada rus, fars və ərəb dillərini nisbətən öyrənir, bir sıra elmlərlə tanış olur və xüsusən ədəbiyyata böyük maraq göstərir. Buna görə də sonralar Molla Abdulla Sidqini



"Müəllimlərin müəllimi" adlandırır, Cavid isə Sidqi və Qurbanəli bəy Şərifovu hörmətlə xatırlayır.

Bədii yaradıcılığa şerlə başlayan "Salik", "Gülçin", "Arif" təxəllüsləri ilə qiymətli poeziya nümunələri yaradan Hüseyn Cavid Rəsizadə Naxçıvani həmişə müəllimlərini dərin hörmət və məhəbbətlə xatırlamış, müəllim əməyinin yüksək qiymətləndirilmiş, "müqəddəs nemət" adlandırmışdır.

Hüseyn Cavid Təbrizdə müalicə olunarkın yazır ki, "Sidqinin vəfatı xəbərini eşidib elə bildim ki, həqiqətən mənim atam vəfat edibdir". Bütün bu faktlar Cavidin müəllliminə və həqiqi müəllimlik sənətinə hədsiz məhəbbət bəslədiyini göstərir.

Hüseyn Cavid İstanbul darülfünunun ədəbiyyat şöbəsini bitirdikdən (1905-1909) sonra Naxçıvana qayıdır, onun ali təhsilli müəllim olmasına baxmayaraq, işsiz qalması hakim sinfin daşqəlbli nümayəndələrini qətiyyən maraqlandırmır. Halbuki o dövrdə ali təhsilli müəllimə istənilən qədər ehtiyac vardı.

Hüseyn Cavid müəllimlikdən əl çəkmir, evində fərdi məktəb açıb dərs deyir. Onun sabiq şagirdlərindən olan qocaman səhnə ustası, prof. Rza Təhmasib müəlliminin tələbkar və qayğıkeşliyini böyük məhəbbətlə xatırlayır.

H.Cavid bir müddət tələbəlik dostu, məşhur ədəbiyyatşünas Abdulla Tofiq Məmmədzadə Surun (1882-1912) köməkliyi ilə Gəncə ruhani məktəbində Azərbaycan dili müəllimi işləyir.

Gəncə ədəbi-pedaqoji mühiti Hüseyn Cavidin yaradıcılığına gözəl təsir bağışlamışdır. H.Cavid Gəncədə həm görkəmli sənətkar, həm də mahir pedaqoq kimi xalqın dərin məhəbbətini qazanmışdır. Ədib gənc nəslin təlim-tərbiyəsində şərəfli fəaliyyət göstərmiş, elmi və pedaqoji köməyini əsirgəməmişdir. Lakin bu da onu təmin etmədiyindən Tiflisə getməli olur. Hüseyn Cavid Tiflisdə vaxtilə M.F.Axundov və M.Şəfi kimi məslək dostlarının dərs dediyi binada yerləşən qəza məktəbində müəllimlik edir.

Yelzavetpol polismeystri 29 noyabr 1912-ci il tarixli, 822 saylı raportunda Əlahəzrət Yelzavetpol qubernatoruna yazır: "1912-ci ilin yanvarından iyulun axırlarınadək Yelzavetpol şəhərində yaşamış Hüseyn Rəsizadə Hacı Molla Abdulla oğlunun rəftarı və mənəvi keyfiyyətləri yaxşı olmuşdur. Heç bir pis hərəkəti nəzərə çarpmamışdır. O, istintaqa cəlb edilməmiş və məhkəməyə düşmə-

mişdir. Onun harada yaşadığı, haradan gəldi, haraya getdiyi haqqında məlumat yoxdur".[1]

H.Cavid 1913-cü il 2 mart tarixli "Şəlalə" qəzetində yazır: "Sevinmə, zülmə, quzum kimsənin fəlakətinə!"

H.Cavid Rəsizadə yazırdı: "Naxçıvana, Bakı və Gəncəyə məktəb, maarif lazımdır. Sidqi vətənpərvər idi, səmimiyyətli idi, mərifət sahibi idi. Millətini sevərdi". Onun 1909-cu ildə İstanbuldan məktubunda oxuyuruq: "İndi əsl məqsəd Vətənə xidmət, həm də layiqincə xidmət etməkdir". Ülvi istedadı və məğrur təbiəti H.Cavidə ümumxalq məhəbbəti qazandırmışdır.

Təssüf ki, qırmızı rus imperiyası dövründə Hüseyn Cavid "burjua yazıçısı", "pantürkist", "vətən xaini" adlandırılırdı. Ədibin ədəbi-pedaqoji yaradıcılığının və dünyagörüşünün əsas meyarı olan: "Mənim tanrım gözəllikdir, sevgidir!" unuduldu. Şairin ata babası Məşədi Qulunun, atası Molla Abdullanın və anası Ümmileyla xanımın ona verdiyi hikmətlər isə qəlbində əbədi yaşadı, həm də klassik irsində canlandı.

H.Cavid müəllimlik etməklə kifayətlənmir, həm də "Ana", "Keçmiş günlər" adlı kitablarını nəşr etdirir. Onun istər bu kitabları, istərsə də "Bahar şəbnəmləri" və digər kitabları öz dövründə Azərbaycan məktəblərinin qiraətə olan tələbini ödəmək cəhətdən də yaxşı təşəbbüs idi.

Bakı mühiti Hüseyn Cavidə müsbət təsir etmişdir. O, H.Mahmudbəyov, M.Maqomayev, Ə.İ.Səfərov, A.Şaiq kimi xalq müəllimləri ilə birlikdə Bakı məktəblərində dərs demişdir.

Respublikamızın adlı-sanlı qocaman kitabxanaçısı Əliyusif Əliyev öz müəllimi Caviddən adamı heyran edən, qəlbində silinməz izlər buraxan şairin xatirələrindən danışır. Onun rus və dünya ədəbiyyatını, Azərbaycan klassiklərini dərindən bildiyini və sevə-sevə tədris etdiyini fərəhlə qeyd edir.

Hüseyn Cavid dərs deməklə kifayətlənməyib, A.Şaiqlə birlikdə 1919-cu ildə 134 səhifədən ibarət "Ədəbiyyat dərsləri" adlı kitabını da Bakıda çap etdirmişdir.

Dərsliyin "Bir-iki söz" adlı müqəddiməsində müəlliflər qeyd edirlər ki, Azərbaycanda "Hər dürlü təlim" kitabına ehtiyac görüldüyü kimi, qəvaidi-ədəbiyyə kitablarına da böyük bir ehtiyac

---

[1] Azərbaycan MDTA, fond 62.



vardır. Buna görə də kitabın məktəblərimizdə tədris edilmək üçün çap olunması lazım bilindi.

Dərslikdə şagirdlərin bədii zövqünə ("Həyəcani-bədii") xüsusi diqqət yetirilmiş, ruha təsir etməyin iki yolu göstərilmişdir: "Biri həzz, digəri elmdir". Bu dərslikdə ədəbiyyatın xüsusiyyətləri, janrları haqqında müəyyən məlumat verilir: "Ədəbiyyat iki durludur: el ədəbiyyatı, yaxud xalq ədəbiyyatı və yazı ədəbiyyatı", "ədəbiyyatın qismləri: epik, dram. "Epik" kəlməsi hekayə mənasında olan "epos" kəlməsindəndir". Dərsliyin müsbət cəhətlərindən biri də nəzəri məsələlərin praktiki misallarla aydınlaşdırılmasıdır. Bu dərslik dövründə müəllimlərə az kömək etməmişdir.

1927-ci ildən sonra Cavidin ədəbi-pedaqoji fəaliyyətində yüksəliş illəri başlayır. Akademik Məmməd Cəfər yazır ki, yeni şərait, demokratik ideyalar Cavidi tədriclə də olsa dəyişdirir, onun dünya görüşündə və yaradıcılığında mütərəqqi dönüş yaradır.

Görkəmli maarif xadimi M.Quliyev göstərir ki, Cavidin şərəfli pedaqoji irsi, qiymətli əsərlər yazması, bir sözlə, "bizim yenilik qatarımıza oturması" hamını ürəkdən sevindirir.

Hüseyn Cavid nəinki bədii sənət abidələri yaradır, həm də teatr texnikumunda, Bakı darülmüəllimində, Azərbaycan Dövlət Universitetində (1920-1925) ədəbiyyatdan dərs deyir, xalq maarifi sahəsində yaxından çalışır, gənc kadrların yetişdirilməsində öz qüvvəsini əsirgəmir, məktəblərin yeni proqram və dərsliklərlə təmin olunmasında fəal iştirak edir.

Hüseyn Cavid müəllimlik sənətini qəlbən sevir, gənc nəslin elm-tərbiyəsi ilə məşğul olmağı özü üçün şərəf sayır. Buna görə də 1926-cı ildə təqaüdə çıxmasına baxmayaraq, yenə teatr texnikumunda həftədə bir neçə saat dərs deyir.

Respublikamızın xalq artisti Əli Zeynalov "Unudulmaz müəllim" adlı xatirəsində yazır: "Hüseyn Cavid Azərbaycan Dövlət teatr texnikumunda bizə ədəbiyyatdan dərs demişdir (1930-1933). Bizim ən çox sevdiyimiz müəllimlərdən biri o idi. O da tələbələrini sevir, onlara qaygı göstərirdi. Tələbələr ona "Cavid əfəndi" deyə müraciət edərdilər. Xasiyyəti olduqca ciddi, müəllim kimi çox tələbkar idi".

H.Cavidin pedaqoji fəaliyyəti, mahir pedaqoq olduğu haqqında qadını Müşkünaz xanım (1902-1976), qızı Turan Cavid, ... Qasımova, prof. Kövkəb Səfərəliyeva, həkim Dilşad

Mehdiyeva, prof. Mehdi Məmmədov və başqa görkəmli şəxsiyyətlər çox yüksək mahiyyətli, hikmətli xatirələrini yazmışlar.

Ədib yaxşı bilirdi ki, gənc nəsli tərbiyə etmək xoşbəxt qocalığın bəhrəsidir, pis tərbiyə bizim gələcək bəlamızdır. Vətən və xalq qarşısında bağışlanılmaz günahımızdır.

H.Cavid hələ 1923-cü ildə öz qələm və əqidə sirdaşı, sədaqətli müəllim dostu A.Şaiqin şəxsiyyəti və xidmətləri haqqında yazırdı: "Abdulla Şaiq çalışqan və təcrübəli bir müəllim, həssas, nazik qəlbli bir şair, nüfuzlu və səmimi bir insandır".

Azərbaycan məktəblərində ədəbiyyat tədrisi metodikası elminin mahir yaradıcısı kimi şöhrət qazanan və bu sahədə mütəxəssis alimlər yetişdirən mərhum professor Əliyar Qarabağlı H.Cavid haqqındakı ürəkaçan, xoş təəsseratlarını ümumiləşdirərək göstərmişdir ki, Cavidin Şaiq müəllim haqqında söylədiyi bu nəcib fikir eyni ilə Cavidin özünə də şamil edilməlidir. O, son dərəcə gözəl sənətkar, təvazökar, nüfuzlu və mahir bir pedaqoq idi.

Xalq maarifi qarşısındakı xidmətlərinə görə H.Cavid dövlət hesabına Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Almaniyaya məzuniyyətə göndərilir ki, həm müalicə olunsun, həm də müasir Avropa mədəniyyətini öyrənsin.

H.Cavidin ədəbi-pedaqoji fəaliyyəti və əsərlərinin məktəblərimizdə öyrənilməsinə çox böyük təşəbbüs göstərilmişdir. Yalnız qeyd etmək lazımdır ki, onun bir şeri də görkəmli maarifpərvər yazıçı-müəllim Rəcəb Əfəndizadənin (1898-19 1918-ci ildə Nuxa şəhərində nəşr etdirdiyi "Türk qiraəti" dərsliyinə salınmışdır.

Məlumdur ki, 20-ci illərdə başqa fənlər kimi ədəbiyyat dərsliklərinə də böyük ehtiyac hiss olunurdu. Bu ehtiyacı qismən olsa ödəmək məqsədilə M.Mahmudbəyov, H.Zeynallı, H.K.Sa A.Şaiq kimi xalq müəllimləri bir sıra dərsliklər yaratdılar.

Bu baxımdan A.Şaiqin 1922-ci ildə nəşr etdirdiyi "Qız kitabı" adlı dərsliyi çox səciyyəvidir. Dərslikdə H.Cavidin tərcümeyi-halı haqqında qısa məlumat, "Öksüz Ənvər", "İlk bahar" və "Qız məktəbi" adlı əsərləri verilmişdir.

A.Şaiq öz xatirələrində yazır ki: "Orta və ali məktəb dərsliklərinə daxil etmək üçün Hüseyn Cavidin tərcümeyi-halını özündən öyrəndim". Bunun nəticəsidir ki, ədibin təvəllüd ili və faktlar dərsliklərdə düzgün göstərilmişdir.



A.Şaiq dərsliyə H,Cavidin əsərlərindən məktəblilər üçün ən səciyyəvi, onların yaş və bilik səviyyəsinə uyğun olan gözəl nümunələr seçib salmışdır.

Dərslikdəki "Kiçik sərsəri" şerində kimsəsiz, səfil, səfalət və yoxsulluq.

Dərslikdəki "Kiçik sərsəri" şerində kimsəsiz, səfil, səfalət və yoxsulluq üzündən günahkar elan edilib asılan məsum uşaqların faciəsi verilir.

"Öksüz Ənvər" əsərində doqquz yaşlı Ənvərin yeganə pənahı olan nənəsinin vəfatına görə səkkiz gün dərsdən qalmasında və müəllimin ona verdiyi əzab-əziyyətdən danışılır. Müəllim yetim Ənvəri elə vurur ki, uşaq bircə dəfə qışqırır. əsər çox mənalı və təsirli bir sonluqla bitir:

"Aman, var annəciyim!". Sonra qəşş olub getdi.

Bu səs sinifdə olan cümlə qəlbi titrətdi.

"İlk bahar" əsərinin dərsliyə salınması təbiidir. Çünki, A.Şaiq təbiətə məftun olduğundan yaxşı bilirdi ki, bədii zövqün tərbiyəsində füsünkür mənzərəli, öyrəndikcə sirləri qurtarmayan təbiətin böyük təsir gücü vardır. Buna görə də A,Şaiq çalışır ki, uşaqlar üçün "doğma sirdaş" (Belinski) olan təbiəti onlar dərindən duyub öyrənsinlər.

"Qız məktəbində" əsəri yalnız Cavid yaradıcılığında deyil, ədəbiyyatımızda gözəl bir bədii səhnəcikdir. Zəngin ailənin qızına şair müracət edir ki, niyə sadə geyinirsən? Şairin bədii sualına məktəbli qız poetik bir cavab verir

Müəlliməm hər gün söyləyir: "Onların yox qiyməti, bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti".

Şair qızdan soruşur ki, sənin ən çox sevdiyin kimdir? Məktəbli qız cavab verir ki: "Anam, babam, müəlliməm, bir də bütün insanlar".

Pedaqoji-metodik tədqiqatların nəticəsi göstərir ki, belə əsərlər vasitəsilə uşaqlara nəsib insani hisslər aşılamaq, onların bilik dairəsini, dünyagörüşünü, nitq mədəniyyətini və estetik zövqünü zənginləşdirmək səmərəlidir.

1923-cü ildə tərtib olunmuş "İkinci dərəcəli məsai məktəblərin proqramı"na H.Cavidin "Hərb və fəlakət", "İblis", "Maral" əsərləri daxil edilmiş, "Şeyda" və "Şeyx Sənan" əsərləri isə sinifdənxaric oxu siyahısında göstərilmişdir. Lakin həmin əsərlərin

sinifdə və sinifdənxaric hansı hissələrinin oxunması, öyrənilməsi dəqiqləşdirilməli işdir. Lakin bu ilk proqramda Cavidin əsərlərinin tədris olunmasına geniş yer verilməsi yaxşı təşəbbüsdür.

Məşhur xalq müəllimlərindən H.Zeynallı, A.Şaiq, A.Musaxanlı və V.Mustafazadənin 1926-cı ildə tərtib etdikləri "İkinci dərəcəli məktəblər, pedaqoji və sair texnikumlar üçün türk dili və ədəbiyyatı proqramı"nda H.Cavidin "Şeyx Sənan" və başqa əsərlərinin tədris olunması göstərilmişdir.

Maraqlıdır ki, proqramlarda qeyd olunan həmin əsərlərin çoxu dərsliklərə salınaraq məktəblərdə tədris olunmuşdur.

H.Cavidin müfəssəl tərcümeyi-halı, əsərlərindən şagirdlərə münasib parçalar Ə.Nəzmi, Ə.Sultanlı, F.Qasımzadə, A.Dadaşov, Ə.Hüseynzadə və H.Səmədzadə tərəfindən 1932-ci ildə tərtib olunmuş "İbtidai və orta məktəb proqramları"nda göstərilmişdir: "Şeyda" (birinci və sonuncu pərdə), "Məsum və Şəfiqə", "İblis" (İblisin son monoloqu), "Nil yavrusu", "Tısbağanın zövqü" ("Azər"-dən) və müharibə əleyhinə əsərləri tədris olunmaq üçün proqrama salınmışdır.

30-cu illərdə H.Cavidin əsərləri ibtidai və orta məktəblərin, fəhlə-kəndli gənclər məktəblərinin, pedaqoji və digər ixtisas texnikumlarının proqram və dərsliklərində özünə müəyyən yer tapmışdır.

"Ədəbiyyat dərsləri" (H.Zeynallı, A.Şaiq, A.Musaxanlı), "Ədəbiyyatdan iş kitabı" (H.Mehdi, A.Marif, H.Səmədzadə, S.Rəhman), "Ədəbiyyat müntəxabatı" (Ə.Nazim, H.Zeynallı), "Ədəbiyyatdan iş kitabı" (F.Qasımzadə, H.Heydər, M.Qaradağlı), "Ədəbiyyat müntəxabatı" (Ə.Sultanlı) və başqa ədəbiyyat dərsliklərində H.Cavidin əsərlərindən bir sıra gözəl nümunələr seçilib verilmişdir.

H.Cavidin əsərlərinin gənc nəslin təlim-tərbiyəsi, dünyagörüşünün formalaşması üçün əhəmiyyətli rolu olmuşdur. Bu çox təbiidir. Ona görə ki, görkəmli yazıçı və mahir pedaqoq Hüseyn Cavid gəncliyin böyük gələcəyini görür, onun qüvvəsinə inanır və deyirdi ki:

> Onlar gələcək, güldürəcəklər,
> Bizdən daha xoş gün görəcəklər.



Hüseyn Cavid İblisin son monoloqunda istismarçı hakim sinfə, onun bədxahı, "İblis" nümayəndələrinə qarşı şagirdlərdə nifrət hissi oyadır:

> İblis nədir? – Cümlə xəyanətlərə bais...
> Ya hər kəsə xain olan insan nədir? – İblis.

Lakin H.Cavidin məktəblərimizdə öyrənilməsində bəzi qüsurlara da yol verilmişdir. Belə ki, dərsliklərin əksəriyyətində Cavidin təvəllüdü səhv olaraq 1889-cu il yazılmış, bəzən proqram və dərsliklərdə "Peyğəmbər" əsərindən bəzi çətin parçalar verilmişdir.

Ən böyük bağışlanılmaz nöqsan M.F.Axundov, Ə.Sabir, C.Məmmədquluzadə kimi böyük sənətkarlarla birlikdə Cavidin də "ticarət sənaye kapitalizmin nümayəndəsi" adlandırılması, yaradıcılığının düzgün qiymətləndirilməməsidir.

Məlunmdur ki, şəxsiyyətə pərəstişin zərərli nəticəsi olaraq B.Talıblı (1897-1938), H.Nəzərli (1895-1938), M. Müşfiq (1908-1937), T.Ş.Simurq (1889-1938), S.Hüseyn (1887-1937), H.K.Sanılı (1878-1937), Ə.Cavid (1892-1937) kimi görkəmli sənətkarlarımızla birlikdə H.Cavid də məktəblərimizdən, müvəqqəti olsa da, uzaqlaşdırılmış, tədris olunmamışdır.

Xalqımızın qayğısı nəticəsində onların əsərləri geniş oxucu kütlələrinin malı oldu, xidmətləri qiymətləndirildi, adları əbədiləşdirilirdi. Ədəbiyyat və mədəniyyət tariximizin həmin dahi sənətkarlarının ədəbi-bədii irsinin məktəblərimizdə yenidən öyrənilməsi lazım bilindi, eyni zamanda, proqram və dərsliklərin zənginləşdirilməsində əsaslı mənbəyə çevrildi.

Yazıçı və tənqidçi H.Mehdi (1905-1965) çox haqlı olaraq yazır ki: "Hüseyn Cavid kimi nadir əbədi bir simanı mədəniyyət tariximizdən silib atmaq, ən azı ədalətsizlik və bəlkə də cinayət ...ardı".

Hazırda Hüseyn Cavidin məktəblərimizdə öyrənilməsinə proqramda ayrıca vaxt ayrılmış, dərslikdə müfəssəl tərcümeyi-halı və əsərlərindən nümunələr verilmişdir.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, ...dadlı şair və dramaturq Hüseyn Cavid Rəsizadə "Peyğəmbər" (...922), "Topal Teymur" (1925), "Knyaz" (1929), "Səyavuş" (1933), "...əyyam" (1935), "İblisin intiqamı" (1936) əsərlərinin müəllifidir.

H.Cavidin mahir qələmindən "Azər", "Şeyda", "Şeyx Sənan", "Ana", "Maral", "Uçurum" kimi ölməz sənət əsərləri çıxmışdır.

Hüseyn Cavid dahi sənətkar, mahir pedaqoq idi. Lakin rus imperiyası dünya şöhrətli ədibi Sibirə sürgün etdi. H.Cavid "Sibirdən məktub" adlı şerində yazmışdır:

Ona şərh olmada ikən əməlim,
Qumlu bir sahilə bağlandı gəmim.
Daşa yaşlarla yazılmış bu qəmim,
Məni qürbətlərə tərk etdi həyat.

Dünyaya çeşməklə baxan, Allahdan qorxmayan allahsız, mənsəb, şöhrət, altun düşkünləri olan "dövlət xadimləri" xalqın varlığını qəlbində gəzdirən Hüseyn Cavidi "vətən və xalq düşməni" adlandırıb məhv etdilər. Halbuki Hüseyn Cavid demişdir: "Mənim tanrım gözəllikdir, sevgidir".

Əlibəy Hüseynzadə demişdir ki: "Cavid incə ruhlu bir şair, dahi sənətkardır" C.Cəfərov yazır ki: "Hüseyn Cavid heç bir vaxt sənətkar vicdanına xəyanət etməmişdir". Ə.Zeynalov deyir: "Cavid xasiyyətcə olduqca ciddi, müəllim kimi çox tələbkar və qayğıkeş idi". H.Cavidin həyat yoldaşı Miskinaz xanım xatirəsində yazır: "Cavid həmişə tələbələrini çox sevir, onların qayğısına qalar, dəyərli məsləhətlər verərdi". "Cavid müəllimin özünə məxsus dərs üslubu, metodu, öz dəsti-xətti, pedaqoji rəgtarı, orijinallığı, yüksək səviyyədə dərs keçmək istedadı var idi" müqəddəs kəlamını Mehdi Məmmədov demişdir.

Həyatda saflığı, müqəddəsliyi, Vətənə və xalqa səadətlə xidmət etməyi özünə şərəf bilən Hüseyn Cavid yazırdı:

Mən fəqət hüsnü-xuda şairiyəm,
Yerə emməm də səma şairiyəm.

Hüseyn Cavidin insan, həyat və dünya haqqındakı bədii-fəlsəfi görüşləri "Peyğəmbər" əsərində real verilir:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü...

Məktəblərimizdə Hüseyn Cavidin zəngin yaradıcılıq yolunu tədris edərkən azad, demokratik, respublikamızda hörmətli prezidentimiz Heydər Əlirza oğlu Əliyevin şərəfli tarixi xidmətlərini ətraflı şərh etmək, təsirli və inandırıcı nümunələr əsasında gənc nəslə şüurlu mənimsətmək müəllimin şərəfli vəzifə borcudur.



Hüseyn Cavidin movzileyini hörmətli prezidentimiz Heydər Əlirza oğlu Əliyev qurdurdu və 1906-cı ilin 30 oktyabrında Naxıvanda təntənəli şəkildə açdı. Movzileyin müəllifi Rasim Əliyev və Ömər Eldarovdur. Movzileydə Müşkinaz xanım, oğlu Ərtoğrul və Cavid ədəbi yuxuya qovuşmuşlar.

Turan Cavid dünya şöhrətli cənab prezidentimiz Heydər Əlirza oğlu Əliyevə dərin minnətdarlığını bildirmişdir, ona can sağlığı, uzun ömür daha böyük uğurlar arzulamışdır.

Hörmətli prezidentimiz heydər Əliyevin Hüseyn Cavidə misilsiz qayğısı Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, görkəmli sənətkarlarımıza dərin məhəbbətin, Vətənə və xalqa sonsuz sevginin nəticəsidir.

Hüseyn Cavidin ev muzeyi açılmış, abidəsi ucaldılmış, əsərləri çap olunub oxucuların mütaliəsinə verilmiş, haqqında qiymətli tədqiqat və bədii əsərlər, insan qəlbini təlatümə gətirən gözəl xatirələr yazılmış və yazılır. Ali məktəblərimizdə əlaçı tələbələrə Hüseyn Cavid adına fəxri təqaüd verilir.

Hörmətli prezidentimiz cənab Heydər Əliyev Hüseyn Cavidi "Azərbaycan xalqının böyük şairi, yazıçısı, dramaturqu, filosofu" adlandırmış və demişdir ki: "Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi, mənəvi irs bizim üçün o qədər əhəmiyyətli və gərəklidir".

Hüseyn Abdulla oğlu Rəsizadənin (Hüseyn Cavidin) 1910-1919-cu illər ədəbi fəaliyyətinin ilk məhsuldar dövrüdür. Hüseyn Cavid 1920-ci ildən Azərbaycan teatr texnikumunun, Bakı qadın müəllimlər seminariyasının ilk müəllimi işləyir, səmərəli ədəbi-pedaqoji fəaliyyətini davam etdirir və ümumxalq məhəbbəti qazanır.

Azərbaycan kommunist partiyası mərkəzi komitəsi Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, Heydər Əliyevin fədakar fəaliyyəti ilə 1982-ci ildə Hüseyn cavidin cənazəsi Sibirdən gətirilib Naxçıvanda dəfn olunmuşdur.

1992-ci ilin 23 oktyabrında Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə əlaqədar Heydər Əliyev dərin məzmunlu çıxışında Azərbaycanın böyük yazıçısı, şairi, dramaturqu, mütəfəkkiri, filosofu Hüseyn Cavidin mənalı həyat yolunu yüksək qiymətləndirmişdir.

Heydər Əliyev Hüseyn Cavidi Azərbaycanın, bütün türk dünyasının görkəmli sənətkarı, bəşəri ideyalar carçısı adlandırmış və

demişdir: "Bizim üçün Hüseyn Cavidin yaratdığı əsərlər daimi mədəniyyət, mənəviyyat, əxlaq mənbəyidir. Onun qədər XX əsrdə dərin mənalı, yüksək fəlsəfəyə uyğun əsərlər yaradan olmayıb. Hüseyn Cavid bəşəri bir yazıçıdır. Onun yazdıqları bəşəri xarakter daşıyır. O, dünya ədəbiyyatını zənginləşdirmişdir". Müəllimlərin müqəddəs borcu Hüseyn Cavidin əsərlərini gənc nəslə səmərəli öyrətməkdən ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 10 iyun 1995-ci ildə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılması ilə əlaqədar müşavirəni giriş sözü ilə açmış və memarların əməyini, böyük şəxsiyyətlər yetişdirmiş Naxçıvan torpağını, onun qədirbilən əhalisinin zəhmətini yüksək qiymətləndirmişdir.

Azərbaycan respublikasının dövlət başçısı Heydər Əliyev 1906-cı ilin 29 oktyabrında Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışında və anadan olmasının 112-ci ildönümündə iştirak etmiş, təntənəli mərasimdə parlaq nitqində demişdir: "Naxçıvan Azərbaycanın gözəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir dünyadır. Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi onun ruhuna olan hörmət və ehtiramın əlamətidir".

Hüseyn Cavidin məqbərəsinin təntənəli açılış mərasimində Vasif Talıbov, Anar, Hüseyn İbrahimov, Cavad Heyət, İlham Əliyev, Əli Evsən, Şamil Aşırım, Rafael Hüseynov, Zəroş Həmzəyeva, Zəlimxan Yaqub, Yaşar Qarayev, Turan Cavid maraqlı çıxış etmiş, Hüseyn Cavid ədəbi irsinin tarixi əhəmiyyətini və tərbiyəvi mahiyyətini göstərmişlər.

Müasir dövrümüzdə Hüseyn Cavidin həyat və yaradıcılığı, zəngin ədəbi-pedaqoji irsi ali və ümumtəhsil məktəblərimizdə tədris olunur. Gələcək ümidimiz, sabahın qoruyucuları olan gənc nəslə öyrədilir. Ədibin mənalı həyat yolunu və klassik irsini öyrənməyin elmi-nəzəri əsaslarını hörmətli Prezidentimiz Heydər Əliyev gözəl şərh edir:

"Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün dərslik kitabıdır".



Təbiidir ki, gəncəli müəllim Hüseyn Cavidin yüksəlməsində, bəşəri ideyalar carçısı olmasında dahi Nizami yurdu Gəncə ilham çeşməsi, istedad zirvəsidir.

Dahi Nizaminin poetik kəlamı bu fikri tamamlayır:

Gəncə-harut sehrli Babil deyil, bəs nədir?
Ürəyim-Ulduzlara nur saçan bir Zöhrədir.
Zöhrə təki ucalıb Mizam bürcünə Gəncə,
Onu belə ucaldan ülvi sözümdür, məncə.

## ÜZEYİR HACIBƏYOV
## (1885-1948)

Azərbaycan ədəbiyyatı və musiqisi tarixində görkəmli yer tutan Üzeyir Hacıbəyov dünyəvi şöhrət qazanan, milyonların bədii-estetik zövqünü oxşayan dahi mütəfəkkirdir.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci ildə Ağca-bədidə anadan olmuşdur. Onun uşaqlıq və gənclik illəri Qarabağın dilbər guşəsi Şuşada keçmiş, vətənpərvər, müdrik bir gənc kimi böyümüş, ata və anasının ehtimadını doğrultmuş, valideyinlərinə ümumxalq məhəbbəti qazandırmışdır.

Üzeyir Hacıbəyov Şuşada rus-tatar məktəbində ilk təhsilini almış, 1899-cu ildə Qori Müəllimlər Seminariyasına qəbul olmuşdur. Tələbəlik illərində seminariyanın ictimai-mədəni tədbirlərində fəal iştirak etmiş, əlaçı oxumuş, həmişə mükafatlandırılmış və 1904-cü ildə seminariyanı uğurla bitirmişdir. O, seminariyada oxuduğu illərdə görkəmli rus yazıçıları A.S.Puşkin, M.Y.Lermantov, N.V.Qoqol və başqalarının əsərlərini mütaliə etmiş, biliyini zənginləşdirmişdir.

Üzeyir Hacıbəyov seminariyanı bitirdikdən sonra Hadrut məktəbində pedaqoji fəaliyyətə başlamış, məktəbdə ədəbiyyat, tarix, musiqi və rus dilindən dərs demiş, həmişə sevilmişdir.

Üzeyir Hacıbıyov elmi-pedaqoji və publisistik fəaliyyətini inkişaf etdirmək üçün Bakıya gəlir, "Molla Nəsrəddin" jurnalının redaktoru C.Məmmədquluzadə ilə səmimi dost olur və jurnalda fəal iştirak edir. O, bu jurnalda, "Tərəqqi", "Həqiqət", "İrşad" və s. qəzetlərdə dövrün ictimai problemlərindən bəhs edən məqalələrini dərc etdirir.

Üzeyir Hacıbəyov 1910-cu ildə "Vəziyyətimiz haqqında" adlı silsilə məqalələr yazır, 1905-ci il rus inqilabının Azərbaycan həyatına göstərdiyi mütərəqqi köməyi düzgün qiymətləndirir. 1907-ci ildə yazdığı "Leyli və Məcnun" əsəri ilə Azərbaycanda milli opera sənətinin banisi olur və M.Füzuli sənətinə səmərəli qayğısını göstərir.

Üzeyir Hacıbəyov bədii yaradıcılıqla ciddi məşğul olur, "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Leyli və Harun" (1915), "Koroğlu" (1937), operalarını yazır. Bu operada Vətana v... xalqa məhəbbət, xalqlar dostluğu və tarixi qəhrəmanlıq ideyası bədii ifadəsini real və təsirli tapır.



Satirik ədəbiyyatın mahiyyətini səmərəli dərk edən Üzeyir Hacıbəyov "Ər və arvad" (1909), "O olmasın bu olsun", yaxud "Məşədi İbad" (1910), "Arşın mal alan" (1913) adlı musiqili komediyalarını yazır, istedadlı səhnə ustası və dramaturq kimi tanınır.

Üzeyir Hacıbəyov 1917-ci ildə "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında", "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" adlı məqalələri ilə səhnə əsərlərinin tərbiyəvi əhəmiyyətini göstərir və qeyd edir ki, faciə, dram, komediya, operetta böyük tərbiyəvi təsirə malikdir.

Üzeyir Hacıbəyov Azərbaycan musiqi mədəniyyətinin inkişafında görkəmli xidmətlərinə görə 1938-ci ildə Xalq artisti fəxri adına layiq görülmüş, "Lenin" ordeni ilə təltif edilmişdir. Üzeyir Hacıbəyov 1940-cı ildə Dövlət mükafatı laureatı adı almış, 1945-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş və Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Böyük musuqişünas, incəsənət xadimi, istedadlı söz ustası, dramaturq, məsuliyyətli publisit, mahir pedaqoq Üzeyir Hacıbəyov 1948-ci ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur. Onun müqəddəs məzarı üstündə abidəsi ucaldılmış, məzarı ziyarətgaha çevrilmişdir.

Üzeyir Hacıbəyovun adı əbədiləşdirilmiş, on cildlik seçilmiş əsərləri çap olunub oxuculara ərməğan verilmiş, haqqında tədqiqat əsərləri yazılmış, əsərləri dərslikləri və oxu kitablarını zənginləşdirmişdir.

Üzeyir Hacıbəyov C.Məmmədquluzadə, M.Ə.Sabir, F.Köçərli, N.Nərimanov, A.Səhhət, A. Şaiq, S.S.Axundov, R.Əfəndiyev kimi görkəmli mütəfəkkirlərlə inqilabi-demokratik və maarifpərvər-realist ədəbiyyatın inkişafında səmərəli fəaliyyət göstərmiş, Vətənə və xalqa şərəfli xidmət etmiş, zəngin ədəbi irs yaratmış, ümumxalq məhəbbəti qazanmışdır.

Üzeyir hacıbəyov 1907-ci ildə "İrşad" qəzetində dərc etdirdiyi məqalələrində "Molla Nəsrəddin" jurnalını "haqq söz danışan xalq jurnalı", "Xalqın sevinc kürsüsü", "həqiqət carçısı", böhtanı dibindən vuran bir əsər" adlandırır, təlim-tərbiyə sahəsindəki fəaliyyətini yüksək qiymətləndirirdi.

Üzeyir Hacıbəyov istismarçı quruluşa qarşı çıxır, kəndliyə pis nəzər ilə baxan və ona "dinməver, danışmaver, tərpənməver, eşitməver" ("İrşad") deyənləri kəskin tənqid atəşinə tutub ifşa etmişdir.

Ədib çarizmin xalqa vəd etdiyi saxta azadlıqlara nifrət yağdırmışdır. Onun 1906-cı ildə "İrşad" qəzetində çap etdirdiyi "Biz hamımız Qafqaz balalarıyıq" adlı məqaiəsində çarizmin milli ədavət siyasəti ifşa olunur, "Nicatımız ittifaqdadır" müqəddəs kəlamı Qafqaz xalqlarını birləşdirməyə və düşmənə qarşı birlikdə mübarizə etməyə çağırır.

H.Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə, F.Köçərli və başqa mütəfəkkirlər ilə birlikdə Üzeyir Hacıbəyov milli mədəniyyət, milli dil, milli dövlət məsələləri haqqında mükəmməl düşünürdü.

Üzeyir Hacıbəyov yazırdı ki, dilimizin sadəliyi, təmizliyi, varlığı uğrunda səmərəli mübarizə aparmalı, dilimizi qorumalıyıq. Ona görə ki, "bir millətin dili batdı, onda o millətin özü də batar, çünki millətin varlığına səbəb onun dilidir".

Görkəmli maarif xadimi Üzeyir Hacıbəyov biliyini və istedadını xalqın səadəti və azadlığı uğrunda mübarizəyə həsr edirdi. O, 1920-ci ildən pedaqoji fəaliyyətini səfərbərliyə alıb musiqişünas kadrlar tərbiyə etməyə başlayır.

1925-ci ildə Azərbaycanda Kanservatoriya yaranır. Üzeyir Hacıbəyov Kanservatoriyaya direktor təyin edilir. Bu dövrdə həm də darülmüəlliminde dərs deyir və dərsliklər yazır.

Üzeyir Hacıbəyov yalnız dərs deməк və məktəb, maarif, ana dili haqqında məqalələr yazmaqla kifayətlənməmiş, 1907-ci ildə Bakıda "Tarixi-rusi və rusi-türki lüğəti" adlı kitabını çap etdirmişdir.

Üzeyir Hacıbəyov lüğət yaradıcılığı sahəsində də fəaliyyətini xalqın azadlığı, xoşbəxtliyi məsələləri ilə əlaqələndirmişdir. Kitabda "intibahnamə" sözünün izahında yazır: "Xalqı oyatmaq, gözünü açmaq üçün yazılı vərəqələrlə intisar edən kitab".

Üzeyir haıbəyov 1907-ci ildə "Hesab məsələləri" adlı dərslik tərtib edib nəşr etdirmişdir. Kitabın girişində yazılmışdır ki, ana dilində hesab məsələlərinə dair dərsliyə pedaqoqlarımızın zərurı tələbini nəzərə alıb bu dərsliyi yazdım.

Dərsliyin tərtibində rus müəlliflərindən Komarovun «Hesab məsələləri» kitabından yaradıcı şəkildə bəhrələndim. Ona görə ki, dərslik faydalı olmalıdır. Müəllim təlimdən başqa, həm də uşağın tərbiyəsi ilə məşğul olmalıdır. "Hər adama müəllim deyib uşaqları ona tapşırmaq böyük xətadır. Ona görə ki, uşağın təlim-tərbiyəsi müəllimin öhtəsindədir".



Üzeyir Hacıbəyov 1906-cı il avqustun 15-də Qafqaz müsəlman müəllimlərinin birinci qurultayının açılışını təbrik etmiş və yazmışdır: "Cəmiyyətimizin başına gələn bəla və müsibətlərin hamısı cəhalət girdabından ibarətdir. Bu bəla və müsibətlərin törəməsi isə elmsizliyin ucundandır. Millətimizin müəllimdən başqa camaat içində olan əsas köməyi yoxdur. Bu dərdlərdən qurtarmağın əsası müəllimdir. Müəllimlərə camaat məhəbbət və etibar edir, övladlarına tərbiyə və təlim vermək üçün müəllimlərə əsaslanır, onları özlərinə arxa və dayaq bilirlər. Bütün Qafqaz müəllimlərinin içində yalnız bir Bakı müəllimləri, doğrudan da, öz vəzifələrini fəxr ilə ifa etmişlər."

Üzeyir Hacıbəyov çar hökumətinin müəllimlərə yaramaz münasibətini kəskin tənqid edir və Qori Müəllimlər Seminariyasının Azərbaycan şəhərlərindən birinə köçürülməsinin zəruriliyini göstərir. N.Nərimanovla F. Köçərlinin əsas fikri də Qori Müəllimlər Seminariyasını Azərbaycanın şəhərlərindən birinə köçürülməsi olmuşdur.

Məlumdur ki, 1918-ci ildə Firidun bəy Köçərli ömür- gün yoldaşı Badisəba xanım Vəkilova ilə həmin seminariyanın rus-azərbaycanlı şöbəsini Qazax şəhərinə köçürmüşdür. Görkəmli sənətkarlar S.Vurğun, M.Hüseyn, O.Sarıvəlli və başqaları bu seminariyanı bitirmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmağa başlamışlar.

Üzeyir Hacıbəyovun yaradıcılığında qadın azadlığı, qadın təhsili təbliğ olunur, qadına feodal-burjua, münasibəti kəskin tənqid atəşinə tutulub ifşa edilir. Qabaqcıl ziyalılar qadın azadlığı məsələsini müdafiə edirlər, dövrü mətbuatda bu problemin həyata keçirilməsinin yollarını göstərirlər.

Yazıçı Yusifbəy Vəzirovun "Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Ana və analıq", "Çarşab", N.Nərimanovun "Pir", Əfəndiyevin "Arvad məsələsi" əsərləri, qadın azadlığı və s. məhz o dövrün məhsuldur.

Qadın azadlığı məsələsinin həllində Ü.Hacıbəyovun böyük rolu olmuşdur. O, xalq mənəviyyatı və şüurunun musiqi yaradıcılığı

sahəsində demokratik ideyaların ifadəçisi kimi çıxış etdi, böyük bir tarixi vəzifəni özü həll etməyə başladı.

Üzeyir Hacıbəyov özünün musiqi əsərlərində qadın hüquqsuzluğunu, avamlığı, cəhaləti ifşa etmiş, istehzalı gülüşləri ilə ona zərbə endirmişdir. Onun "Ər və arvad" musiqili komediyasında "qıllı qabana" oxşayan kəblə qubadlar, mərcanbəylər ifşa edilir.

Pul gücü ilə qadın sevgisini satın almağa səy edən bu nadanların özləri gülünc vəziyyətə düşür, xalq onlara istehza ilə gülür. Ü.Hacıbəyov belə adamları həyat səhnəsindən atmağı lazım bili rvə onlara nifrət yağdırır.

"O olmasın, bu olsun", "Məşədi İbad" musiqili komediyasının əsas məqsədi qadın azadlığı, azad məhəbbət və sevgidir. Müəllif "Məşədi İbad" və "Arşin mal alan" əsərlərində yaratdığı səhnə tipləri ilə mövcud mühitin eybəcərliklərini göstərmiş, qadın azadlığını, azad məhəbbəti və sevgini müdafiə etmişdir. Onun Gülnazı və Sərvərinin sevgisi azad və sadə sevginin, məhəbbətin gözəl nümunəsidir. Ü.Hacıbəyovun əsərləri Azərbaycanda qadına burjua-feodal münasibətlərinə qarşı mübarizədə böyük rol oynamışdır.

Ü.Hacıbəyovun məqalələri və muqiqili əsərləri tərbiyə məsələləri ilə zəngindir.

Sələfi M.F.Axundov, müasiri N.Nərimanov kimi Ü.Hacıbəyov da teatr tamaşalarının əxlaqi-bədii tərbiyəvi cəhətinə çox böyük əhəmiyyət verirdi. O deyirdi ki, tamaşaya qoyulan hər bir əsər həyatımızın həm əxlaqi tərəfini, həm də xalqın estetik hisslərini tərbiyə etməlidir. Hər bir səhnə əsərində yüksək məfkurə ilə yüksək bədiilik bir-birini tamamlamalıdır. Xalqın balalarının təlim və tərbiyəsinə kömək göstərmək xalqa şərəfli xidmət etmək deməkdir.

Görkəmli mütəfəkkir Üzeyir Hacıbəyov bədii əsərlərin təlim-tərbiyəvi, bədii-estetik və yüksək əxlaqi keyfiyyətlərini qiymətləndirərək özünün bədii yaradıcılıq yolunu diqqətlə nəzərdən keçirib yazmışdır:

"M.F.Axundovun komediyalarından "Vəziri-Xani-Lənkəran", "Dərviş Məstəli şah", "Hacı Qara" və bizim məşhur dramaturqumuz Ə.Haqverdiyevin "Dağılan tifaq" draması ilə demək olar ki, mən inkişaf etmişəm".

Ü.Hacıbəyov ədəbi janrların hər birinə böyük əhəmiyyət vermiş, bədii əsərlərin müəlliflərindən məfkurə, əxlaq və yüksək



bədiilik tələb etmişdir. O yazırdı: "Məfkurəyə, əxlaqa malik olan və bədii üsulla yaradılan hər hansı bir səhnə əsəri, istər bədii, musiqi, istər şairanə əsər çox faydalıdır. Bu keyfiyyətlərə cavab verməyən opera, dram, operetta, komediya əsərləri faydasızdır".

Azərbaycan ədəbiyyatı tarixində Üzeyir Hacıbəyovun göstərdiyi kimi zəngin məzmunlu, ideyalı, təlim-tərbiyəvi mahiyyətli əsərlər həmişə, bütün dövrlərdə öz əhəmiyyətini saxlamış, saxlayır və saxlayacaqdır.

Buna görə də faydalı sənət inciləri həmişə öyrənilmiş, öyrənilir və öyrəniləcək, müəlliflərinə ümumxalq məhəbbəti qazandıracaqdır.

Görkəmli elm, mədəniyyət və incəsənət xadimi Üzeyir Hacıbəyovun elmi-pedaqoji fikirləri Azərbaycan pedaqoji elmi xəzinəsinin nadir inciləri, müqəddəs tərbiyə xəzinəsidir.

Dövlət mükafatı laureatı, Xalq artisti, Əməkdar incəsənət xadimi, akademik Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyovu müqəddəs elmi-pedaqoji fəaliyyəti, zəngin ədəbi irsi həmişə yaşadacaq, onu ölümsüzlüyün parlaq zirvəsinə yüksəldəcək və dahi mütəfəkkir əsrlər boyu yaşayacaqdır.

# ƏHMƏD YUSİF OĞLU SEYİDOV
## (1892-1977)

Qafqazda ilk pedaqoji elmlər doktoru, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin ilk mahir pedaqoq alimi, Azərbaycanda və Zaqafqaziyada pedaqoji fikir tarixinin görkəmli tədqiqatçısı, zəngin mənəviyyatlı, xeyirxah qayğıkeş, tələbkar, səmimi, vətənpərvər və müdrik professor Əhməd Yusif oğlu Seyidovun humanist ömür salnaməsi zəngin təlim-tərbiyə məktəbidir.

Əhməd Yusif oğlu Seyidov 1892-ci ildə Qazax Uyezdinin Aslanbəyli kəndində anadan olmuşdur. Daha dəqiq desək, Qazax mahalının İncədərəsindəki Aslanbəyli kəndini hörmətli müəllimimiz Əhməd Seyidov cənnət guşəsi adlandırmışdır.

Əhməd Seyidov üç yaşında ikən atası vəfat etmiş, anasının himayəsində böyümüşdür. İbtiqdai təhsilini əvvəlcə Kərimli kəndində, sonra isə Salahlı kəndində Qori Müəllimlər Seminariyasının məzunu Əhmədağa Mustafayevin məktəbində almışdır.

Əhməd Seyidov 1911-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına qəbul olmuş, əlaçı oxumuş, 1917-ci ildə uğurla bitirmişdir. Ü.Hacıbəyov, M.Maqomayev, F.Köçərli, R.Əfəndiyev, S.S.Axundov, H.K.Sanılı, Osman Şıxlınski, S.Əfəndiyev, Y.Qasımov, Ə.Hüseynov kimi görkəmli şəxsiyyətlərin formalaşmasında böyük rol oynayan Qori Müəllimlər Seminariyası Əhməd Seyidovun fəaliyyətinə gözəl təsir bağışlamışdır. Onun parlaq zirvələrə yüksəldilməsinə təkan vermişdir.

Əhməd Seyidov pedaqoji fəaliyyətə 1917-ci ildə Aslanbəylidə başlayır. Məktəb binası olmadığına görə öz evində ilk dəfə oğlan və qız məktəbi açır. Əhməd müəllimin məktəbini Şayəstə Seyidova, Söylü Nəsibova, Səadət Hüseynova, Sitarə Seyidova kimi istedadlı qızlar bitirib, ümumxalq məhəbbəti qazanmış, müdrik şəxsiyyətlər olmuşlar.

Əhməd müəllim oxutduğu qızları və oğlanları təhsil almaq üçün Qazax və Bakı seminariyalarına göndərir, onların qəbul olmalarında xeyirxah köməyini əsirgəmirdi. Əhməd müəllim valideynlərə də səmərəli məsləhətlər verirdi.

Əhməd Seyidov 1920-ci ildə Qazax kənd məktəblərinin inspektoru işləyir, savadsızlığa qarşı ciddi mübarizə aparır, yeni məktəblərin yaranmasına çalışır və uğurlar qazanır. 1921-1925-ci



illərdə Kosalar və Xanlıqlar kəndlərində məktəb direktoru işləyən Əhməd Seyidov 1926-cı ildən Lənkəran qəzasının maarif müdiri vəzifəsində çalışır.

O, qızların təhsil almasında geniş təbliğat aparır, bu dəfə bu rayonda qızların təhsili ilə məşğul olan inspektor vəzifəsini təsis edir. Qızların təhsil alması üçün səmərəli şərait yaradır və xeyirxah tədbirləri həyata keçirir. Mətbuatda maarif müdirinin fəaliyyəti yüksək qiymətləndirilir. Ona görə ki, gənc nəslin təlim-tərbiyəsi ilə çox ciddi məşğul olur, onların elm öyrənməsinə qüvvətli təkan verir.

Əhməd Seyidov 1927-ci ildə Lənkərandan Bakıya gəlir və 1930-cu ilə kimi Dəmiryolu məktəbləri üzrə maarif nazirliyinin inspektoru vəzifəsində işləyir.

Əhməd Seyidov 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsini bitirir və ömrünün sonuna kimi Azərbaycan Dövlət Pedaqoji Universitetində şərəfli pedaqoji fəaliyyətini davam etdirir.

O, Elmi Tədqiqat İnstitutunun pedaqogika üzrə ilk aspirantı olmuşdur. 1939-cu ildə "A.Bakıxanovun pedaqoji görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, pedaqoji elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun bu əsəri 1940-cı ildə SSRİ Elmlər Akademiyasının mükafatına layiq görülmüşdür. Özün də dosent elmi rütbəsi verilmişdir.

Əhməd Seyidov 1947-ci ildə "XIX əsrin Azərbaycan pedaqoji fikrinin əsas nümayəndələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, pedaqoji elmləri doktoru alimlik dərəcəsi almışdır. Bununla da Əhməd Seyidov Qafqazda ilk pedaqoji elmləri doktoru olmuşdur. Ona 1948-ci ildə professor elmi rütbəsi verilmişdir.

Dissertasiyada Nizami, Tusi, Həsənoğlu və Nəsiminin elmə, maarifə, təhsil və tərbiyəyə aid fikirləri, Ş.İ.Xətai, M.Füzuli, M.P.Vaqif, Mirzə Kazımbəy, A.Bakıxanov, M.Şəfi, M.F.Axundov, S.Ə.Şirvani və H.M.Zərdabinin pedaqoji görüşləri təhlil olunmuşdur.

Prof. Əhməd Seyidov fakültə dekanı, kafedra müdiri, prorektor, rektor vəzifələrində şərəflə işləmişdir. Əhməd müəllim Təmrüd Axundova, Dilrüba Mustafayeva, Əfşan Axundova, Əminə Hüseynova və bir çox başqalarının elmi rəhbəri olmuş, onları mahir pedaqoq kimi yetişdirmişdir. Onun Orta Asiyadan və Dağıstandan

yetirdiyi alimlər pedaqoji fikrin inkişafında səmərəli fəaliyyət göstərmişlər.

Əhməd Seyidov 1927-ci ildə Hacı Kərim Sanılı ilə birlikdə əlifba kitabı yazıb məktəblilərin mütaliəsinə vermişdir. Prof. Əhməd Seyidov "Pedaqogika tarixi", "Azərbaycanda pedaqoji fikrin inkişafı tarixi" adlı fundamental dərsliklərin müəllifidir.

Prof. Əhməd Seyidov pedaqogikanın nəzəri məsələsinə aid yüzdən artıq dərslik, dərs vəsaiti, elmi-nəzəri məqalələr yazmış, səksəndən çox elmlər namizədi, iyirmiən artıq elmlər doktoru yetişdirmiş, elmi rəhbər olmuşdur.

Onun elmi məsləhətçisi və opponenti olduğu elmi kadrlar pedaqoji fəaliyyətlərini davam etdirirlər. Akademik M.Mehdizadə, professorlardan A.Abdullayev, M.Muradxanov, Z.Göyüşov, S.Ağayev H.Əhmədov, Ə.Həşimov və başqaları prof. Əhməd Seyidovun yetirmələridir.

Prof. Əhməd Seyidov "SSRİ maarif əlaçısı", "Qabaqcıl maarif xadimi" döş nişanları, bir çox fərmanlar və yüksək dərəcəli mükafatlara təltif olumuşdur.

Prof. Əhməd Yusif oğlu Seyidov 1977-ci il oktyabrın 1-də Qazax rayonunun Aslanbəyli kəndində vəfat etmişdir. Hörmətli prof. Əhməd Seyidov vəsiyyət etmişdir ki, məni Bakıda Fəxri Xiyabanda deyil, doğma Qazax mahalının cənnət güşəsi olan incədərəsinin Hacı Əfəndi ziyarətgahında dəfn edin.

Professor Əhməd Seyidovun oğlanları professor Fikrət Seyidov, professor İsmayıl Seyidov, nəvəsi professor Səməd Seyidov İsmayıl oğlu onun vəsiyyətinə böyük hörmət və məhəbbətlə yanaşmış, Əhməd müəllimi Hacı Əfəndinin ziyarətgahında dəfn etmiş, müqəddəs məzarına mərmər büst qoymuş, güllü-çiçəkli ziyarətgah ormanlığa çevirmişlər.

Prof. Əhməd Seyidovun şərəfli ömür salnaməsini onun övladları zənginləşdirib şərəfləndirir. Oğlanları Fikrət Seyidov, İsmayıl Seyidov, nəvəsi Səməd Seyidov professordur, elmlər doktorudur. Fundamental pedaqoji dərslik və dərs vəsaitlərinin müəllifidir. Professor Səməd Seyidov İsmayıl oğlu (1964) Sankt-Peterburq Universitetinin psixologiya fakültəsini fərqlənmə diplomu ilə bitiribdir, psixologiya elmləri doktoru, professordur, Azərbaycan Dillər Universitetinin rektorudur, Milli Məclisin deputatıdır, ingilis



və rus dillərini sərbəst bilir, iki övlad atasıdır, fundamental dərslik və dərs vəsaitlərinin müəllifidir.

Ziyarətgah, müqəddəs məzarın nurla dolsun! Allah rəhmət eləsin! Əməkdar elm xadimi, prof. Əhməd Seyidovun pedaqoji fəaliyyəti müasir müstəqillik dövründə də bəhrəsini verir, gələcəyin qurucuları olan gənc nəslin təlim-tərbiyə mənbəyinə çevrilib gözəl təsir bağışlayır.

Prof. Əhməd Seyidovun zəngin irsi, mənalı ömür salnaməsi gənc nəslin təlim-tərbiyə, bədii-estetik zövq xəzinəsi, parlaq əxlaqi keyfiyyət zirvəsidir. Görkəmli elm və maarif xadimi, vətənpərvər, əməksevər, tələbkar, qayğıkeş və mahir pedaqoq, professor Əhməd Seyidov zəngin pedaqoji irsi, faydalı dərslikləri ilə zəhmətkeş insanların, ziyalaların, müəllimlərin, aspirantların, tələbələrin, oxucuların qəlbində əbədi yaşamış, yaşayır və yaşayacaqdır!

# ƏHMƏD CƏFƏROĞLU
## (1899-1975)

Görkəmli ədəbiyyatşünas, dilçi, publisist, türkoloq professor Əhməd Cəfəroğlu zəngin yaradıcılq yolu keçmiş, şərəfli əmək fəaliyyətinə başlamış və qiymətli əsərlər yazmış, səmərəli tədqiqat aparmış, faydalı monoqrafiyalar çap etdirib oxuculara hədiyyə vermişdir.

Əhməd Cəfəroğlu 1899-cu il aprelin 17-də Gəncədə anadan olmuşdur. Cəfər kişi 1910-cu ildə vəfat etmiş, Əhməd anası Gövhər xanımın və qohumlarının himayəsində böyümüşdür. 1905-ci ildə nankor ermənilər Gəncədə milli qırğın törətdikləri zaman Gövhər xanım üç uşağı ilə Səmərqənddə yaşayan qohumu Hacı Mirtağının yanına gedir və 1909-cu ilə kimi Səmərqənddə yaşayır.

Əhməd Cəfərovlu ibtidai təhsilini 1905-1909-cu illərdə Səmərqənddə alır. Gövhər xanım 1909-cu ildə Gəncəyə qayıdır. Əhməd Cəfəroğlu Gəncə gimnaziyasında oxuyur və 1915-ci ildə gimnaziyanı bitirir.

Əhməd Cəfəroğlu Kiyev Ali Ticarət İnstitutunun iqtisadiyyat fakültəsinə 1916-cı ildə qəbul olur. O, institutun ikinci kursundan Gəncəyə qayıdır. Ona görə ki, Kiyevdə çevriliş baş verir. 1918-ci il mayın 18-də Gəncə mərkəzi şəhər olur.

Əhməd Cəfərovlu 1919-cu ildə Bakı Universiteti-nin tarix-filologiya fakültəsinin Şərqşünaslıq şöbəsinə qəbul olur. 1920-ci il aprelin 27-də Azərbaycan Demokratik Respublikası rus bolşevikləri tərəfindən işğal edildikdən sonra Əhməd Cəfəroğlu Türkiyəyə mühacirətə getməyə məcbur olur.

Əhməd Cəfəroğlu Kiyevdə və Bakıda yarımçıq buraxmağa məcbur olduğu ali təhsilini İstanbul Universitetinin ədəbiyyat fakültəsində davam etdirir. Tələbəlik illərində tədqiqat aparmaqla səmərəli məşğul olur. Əslən Krım tatarı olan və Ukraynada yaşayan məşhur şərqşünas, yazıçı A.Krımskinin rus dilində nəşr olunmuş "Türk tarixi və ədəbiyyatı" əsərini türk dilində tərcümə edir. O, 1924-cü ildə universiteti bitirir.

Əhməd Cəfəroğlu Türkologiya İnstitutunda müəllimlik edir. Bu dövrdə Mustafa Kamal Atatürkün yaratdığı yeni Milli Hümmət gəncliyi xarici ölkələrə oxumağa göndərməyə başlayır. Əhməd



Cəfəroğlu da əvvəl Berlin, sonra isə Breslay Universitetində 1925-1929-cu illərdə mükəmməl təhsil alıb bitirir.

Əhməd Cəfəroğlu 1929-cu ilin mayında professor Fridrix Gizenin rəhbərliyi ilə "Gənvə dialektində yetmiş beş Azərbaycan bayatısının dil baxımından təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktorlu alimlik dərəcəsi almışdır.

Əhməd Cəfəroğlu 1929-cu ilin iyul ayında Almaniyadan Türkiyəyə gəlir və İstanbul universitetində pedaqoji fəaliyyətə başlayır. Universitetin ədəbiyyat fakültəsinin türk dili kafedrasına dosent təyin edilir. Dosent Əhməd Cəfəroğluna 1938-ci ildə professor elmi rütbəsi verilir. Əhməd Cəfəroğlu Şərq dillərindən başqa rus, alman, fransız və italyan dillərini də mükəmməl bilirdi. «Avçı» və "XIX əsr Azəri", "Azəri ədəbiyyatında istiqlal mübarizəsi", «XVII əsrdə Azəri şairi Məlik bəy Avçı» və «XIX əsr Azəri şairi Siraci» adlı kitablarını nəşr etdirir.

Professor Əhməd Cəfəroğlu 1932-ci ildə çap etdirdiyi "Azəri ədəbiyyatında istiqlal mübarizəsi"əsərində xəbis niyyətli erməni şovinistlərinin vəhşi əməllərini ifşa edir, onlara nifrət yağdırır və göstərir ki, mütləq "Azərbaycan tarixi" kitabı yazılmalıdır.

Prof. Əhməd Cəfəroğlu 1932-1934-cü illərdə baş redaktor və təsisçi olduğu "Azərbaycan Yurd Bilgisi" jurnalında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Füzuli, Xətai, Məlik bəy Avçı, Mirhəmzə Əfəndi Nigari, oğlu Azəri şairi Siraci və başqaları haqqında faydalı məqalələr yazıb çap etdirmişdir.

Prof. Əhməd Cəfəroğlu bu jurnallın redaksiya heyətinə prof. Fuad Köprülzadə, prof. Zəki Validi Toqan və başqa alimləri də qəbul etmişdir. Bu jurnalın ana xətti Azərbaycanı dünyaya tanıtmaq, Türk dünyasını təşkil edən Türk xalqlarının tarixini, elmini, adət və ənənələrini ətraflı şərh etmək olmuşdur.

Prof. Əhməd Cəfəroğlu 1937-ci ildə Polşa Şərqşünaslıq Cəmiyyətinin həqiqi üzvü, 1938-ci ildə isə Polşa Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Prof. Əhməd Cəfəroğlu 1940-1951-ci illərdə Türkiyədə folklor nümunələrini toplamış və doqquz kitabda nəşr etdirmişdir.

Əhməd Cəfəroğlu 40-cı illərdə "Türk amac", "Türk dili və ədəbiyyatı" jurnallarının yaradıcılarından olmuş, səmərəli fəaliyyət

göstərmiş, qiymətli əsərlərini çap etdirmişdir. Onun bu jurnallarda dərc edilən məqalələrini oxucular səmimi qarşılamışlar.

Prof. Əhməd Cəfəroğlu 1953-cü ildə "Azərbaycan dili və ədəbiyyatının dönüş nöqtəsi" və 1958-ci ildə "Türk dili tarixi" kitablarını Ankarada çap etdirib oxuculara hədiyyə vermiş, ümumxalq məhəbbəti qazanmışdır.

Prof. Əhməd Cəfəroğlu 1920-ci il aprelin 27-nə qədər olan dövrü əhatə edən "Azərbaycan dili və ədəbiyyatının dönüş nöqtələri" kitabında Azərbaycan ədəbiyyatını aşağıdakı kimi təhlil etmişdir: "Dədə Qorqud" dastanı, XI-XIII əsrlər Məhsəti Gəncəvi, Gəncəli Əbül-Üla, Şirvanlı Fələki, Şirvanlı Xaqani, Nizami Gəncəvi, İzzəddin Həsənoğlu, XIV-XV əsrlər - Nəsimi, Həbibi, Şah İsmayıl Xətai, Füzuli, Qazi Bürhanəddin.

XVI əsrdə aşıq ədəbiyyatı – "Koroğlu", "Aşıq Qərib", "Şah İsmayıl", "Əsli və Kərəm", "Lətif Şah və Telli Mehriban" dastanları, aşıqlardan – Abbas Tufarqanlı, Baxşı Naxçıvanlı, Alxas İrəvanlı, Axılkələkli, Dədə Qasım, Çıldırlı Bağda Hənim, Aşıq Gülüstan, Qərari, Fiqani, Pəsəndi, Qurbani, Şenlik; XVII-XVIII əsr – Məsihi, Səib Təbrizi, Qövsi, Məsih Şirvani, Vidadi, Vaqif, Zakir Üçlüyü; XIX-XX əsrin əvvəli – Abbasqulu ağa Bakıxanlı, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə üçlüyü; Hacı Seyid Əzim Şirvani, İsmayıl bəy Qutqaşnli və Həsən bəy Zərdabi üçlüyü; Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və Məmməd Əmin Rəsulzadə üçlüyü".

Prof. Əhməd Cəfəroğlu Azərbaycan tarixində əsas yer tutmuş, çox əhəmiyyətli və şərəfli fəaliyyət göstərmiş korifeylərin dövrləri haqqında qısa və maraqlı məlumatlar vermişdir.

Prof. Əhməd Cəfəroğlu ikicildlik "Türk dili tarixi" (1964) kitabında türk dilinin inkişaf tarixinin elmi-nəzəri şərhini vermişdir.

Prof. Əhməd Cəfəroğlu Ukrayna Elmlər Akademiyasının həqiqi üzvü (1955) seçilmiş, İnaniya hökuməti ona "Cabio" ordeni (1955) vermişdir. Prof. Əhməd Cəfəroğlu 1934-1939-cu illərdə "Uyğur sözlüyü", 1960-cı ildə "Uyğurlarda maliyyə terminləri", 1968-ci ildə "Əsgi uyğur türkcəsi" kitablarını nəşr etdirmişdir.

Prof. Əhməd Cəfəroğlu əsəri Qazi Mustafa Kamal Atatürkün bu kəlamı ilə başlamışdır: "Türk dili dillərin ən zənginidir. Ölkəsinin istiqlalını qurmağı bacaran Türk milləti dilini də xarici dillər boyunduruğundan qurtarmalıdır". Əsərin bu ön sözündə müəllif uyğur dilinin əhəmiyyətini göstərmiş, əsərdə geniş təhlil vermişdir.



Prof. Əhməd Cəfəroğlu 1973-cü ilin avqust ayında iyirmi yeddi il müddətində fasiləsiz olaraq rəhbərlik etdiyi İstanbul Universitetinin Türk Dili Tarixi kafedrasından təqaüdə çıxmışdır. Bu vəzifəsindən başqa prof. Əhməd Cəfəroğlu 1966-cı ilin aprelindən təqaüdə çıxana kimi, yəni 1973-cü ilin iyununa qədər Tükologiya İnstitutunun direktoru vəzifəsində səmərəli işləmişdir.

Prof. Əhməd Cəfəroğlu 1975-ci il yanvarın 6-da İstanbulda vəfat etmişdir. 1975-ci il yanvarın 8-də İstanbul Universitetinin mərkəzi binasında matəm yığıncağı keçirilmişdir. Matəm yığıncağında professor Məhərrəm Erkin görkəmli türk şairi Fazil Hüsnü Dağlarcanın professor Əhməd Cəfəroğlunun vəfatı münasibətilə yazdığı "Qalan səs" adlı kiçik, ancaq çox təsirli şerini oxumuşdur. Həmin şeri oxuculara hədiyyə verməyi faydalı bilirik:

Çağırdı bir ağızdan  
Dün gecə.  
Azərbaycanlı quşlar, duymadınız.  
Ağappaq kəsildi buz kimi  
Dün gecə.  
"Uyğur dili sözlüyü" duymadınız.  
Axdı bilim ölkəsinin göylərindən  
Dün gecə.  
Ulduzu sevginin, duymadınız.  
Öylə səssizdi ki,  
Dün gecə.  
Gəncəli Nizami türbəsi, duymadınız.  
Öldü  
Dün gecə.  
Əhməd Cəfəroğlu, duymadınız.

Professor Əhməd Cəfəroğlunun cənazəsi İstanbul şəhərinin "Zəncirligöy" qəbristanlığında 1975-ci il yanvar ayının 8-də cənnət məzara qoyulub, dəfn olundu. İndi onun məzarı milyonlarla insanların ziyarətgahına çevrilmişdir. Professor Əhməd Cəfəroğlunun həyat yoldaşı, ədəbiyyatşünas Suzan xanım və İstanbul şəhər Türk və İslam Sənətləri Muzeyinin direktoru vəzifəsində işləyən qızı Nazan xanım matəmdə iştirak edənlərə dərin minnətdarlıqlarını bildirdilər.

Professor Əhməd Cəfəroğlunun dəfn mərasimi çox canlı və hörmətli təşkil edilir, hamı hörmətli və dünyaşöhrətli alimə rəhmət oxuyur, müqəddəs məzarın nurla dolsun deyir.

Professor Əhməd Cəfəroğlu Türkiyədə və xarici ölkələrdə Azərbaycanı təbliğ edir. Azərbaycanın qazandığı parlaq uğurlardan maraqlı məlimat verir, onun sənaye və kənd təsərrüfatı sahəsindəki inkişafını şərh edir.Professor Əhməd Cəfəroğlunun otuzdan çox kitabının yeddisi, dörd yüzdən artıq məqaləsinin iki yüzə qədəri Azərbaycana həsr olunmuş, Azərbaycanda elmin, mədəniyyətin, ədəbiyyat və incəsənətin, kənd təsərrüfatı və sənayenin, xüsusilə təhsilin inkişafına həsr olunmuşdur.

Professor Əhməd Cəfəroğlu Azərbaycan klassik və şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı, Azərbaycanın tarixi, Azərbaycan xalqının azadlıq uğrunda apardığı qəhrəmanlıq mübarizələri, xaricdə yaşayan azərbaycan-lıların həyatı və fəaliyyətləri, Azərbaycanda təhsil və təhsil xadimləri haqqında maraqlı tarixi araşdırmalar aparmış, faydalı tədqiat əsərləri yazıb çap etdirmiş, Azərbaycanı təbliğ etmiş, onun nailiyyətlərinin elmi-nəzəri şərhini vermişdir. Ona görə ki, professor Əhməd Cəfəroğlu həmişə "mənim əsas məqsədim Azərbaycanı təbliğ etmişdir" müqəddəs kəlamına sadiq qalmışdır.

Professor Əhməd Cəfəroğlu ana Vətəni, müstəqil Azərbaycan Respublikasını 1920-ci ilin aprel ayının 27-də bolşeviklər tərəfindən işğal edilməsini mənalı ömrünün sonuna kimi qəbul etməmişdir. Professor Əhməd Cəfəroğlu elmi və ictimai-siyasi fəaliyyəti dövründə həmişə Rusiyanın silahlı çevriliş etməklə hakimiyyətə sahib olmasını kəskin tənqid atəşinə tutub ifşa etmiş, lənətlər yağdırmışdır.

Professor Əhməd Cəfəroğlu əsərlərində rus və erməni şovinistlərinin Türk-Müsəlman dünyasnın başına gətirdikləri bütün bəlaları, cinayətkar, məkrli siyasəti ifşa etmişdir. Cinayətkar sovet imperiyasının zorla milli müstəqil ölkələri özünə tabe etməsi, maddi nemətlərinə sahib olması professor Əhməd Cəfəroğlunun əsərlərində kəskin ifşa edilir. Tarix alimin uzaqgörən olduğunu təsdiqlədi. Rusiya imperiyası dağıldı, müstəqil ölkələr azad və xoşbəxt yaşamağa başladılar.

Professor Əhməd Cəfəroğlunun həyatı, elmı və ictimai fəaliyyəti A.Zamanov, K.Vəliyev, S.Tağızadə, V.Quliyev, A.Abdulla, B.Vahabzadə, Ə.Cəfərzadə, E.Əbdülhəsənli, H.Məmmədov



(Qaramanlı), M.Ənsərli və başqaları tərəfindən yazılmış əsərlərdə təbliğ edilmişdir.

Professor Əhməd Cəfəroğlu görkəmli alim, maarifpərvər pedaqoq, otuz beş kitabın, dörd yüzdən artıq məqalənin müəllifi, on dili mükəmməl bilən, humanist, vətənpərvər, əməksevər, Vətən həsrətli dahi şəxsiyyət kimi bəşəriyyətin qəlbində yaşamış, yaşayır və yaşayacaqdır.

# ƏLİYAR QARABAĞLI MƏHƏMMƏD OĞLU
## (1901-1969)

Azərbaycan ədəbiyyatının tədqiqində, təbliğində və tədrisində görkəmli metodist alim və ictimai xadim Əliyar Məhəmməd oğlu Qarabağlının şərəfli xidməti vardır. Azərbaycan xalq yaradıcılığının nümunələrini toplamaqda, nəşr etdirməkdə, orta və ali məktəblərdə tədris olunmasını nizama salmaqda istedadlı alim, mahir pedaqoq, müdrik tərbiyəçi Əliyar Qarabağlının ədəbi-pedaqoji fəaliyyəti çox zəngindir.

Görkəmli ədəbiyyatşünas, istedadlı pedaqoq Əliyar Qarabağlının ömüryolu çətin və əziyyətli olmuşdur. Ədibin pedaqoji-metodik fəaliyyəti mürəkkəb bir inkişaf yolu keçmişdir. Dövrün əzab-əziyyətləri, qorxu və təhqirləri Əliyar Qarabağlını müqəddəs əqidəsindən döndərə bilməmişdir.

Doğrudur, bütün təzyiqlər Əliyar müəllimi müəyyən mənada sarsıtmış, lakin xalqa, Vətənə, xalqın mənəvi sərvətinə, ədəbiyyat və mədəniyyətinə şərəfli xidmətlərindən qətiyyən çəkindirə bilməmişdir. Əliyar Qarabağlının qazancı Vətən və xalq qarşısında müqəddəs məsləki olmuşdur. Böyük mütəfəkkir alim saf və təmiz əqidəsinə həmişə sadiq qalmışdır.

Azərbaycan pedaqoji-metodik fikir tarixinin görkəmli yaradıcılarından biri, ədəbiyyat tədrisi metodikası ədəbi məktəbinin banisi professor Əliyar Qarabağlının ədəbi-pedaqoji və metodik irsi zəngin və rəngarəngdir.

Azərbaycanda şifahi xalq yaradıcılığının tədrisi metodikası sahəsində ilk tədqiqatçı alim Əliyar Qarabağlıdır. O, "Orta məktəbin ədəbiyyat kursunda Azərbaycan folklorunun yeri və tədrisi" mövzusunda namizədlik disertasiyası müdafiə edib (1949), pedaqoji elmləri namizədi alimlik dərəcəsi almışdır. 1950-ci ildə ona dosent elmi rütbəsi verilmişdir.

Respublikamızda ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə ilk dəfə metodist mütəxəssisləri yetişdirmək xoşbəxtliyi Əliyar Qarabağlıya nəsib olmuşdur. Camal Əhmədov, Şəmistan Mikayılov, Abbas Səmədov, Bağır Bağırov və başqa professorlar Əliyar Qarabağlının yetişdirmələridir.

Ədəbiyyat tədrisi metodikası dərsliklərinin yaradılmasında və ədəbiyyat proqramlarının tərtibində dosent Əliyar Qarabağ



mahir pedaqoq kimi ön sırada olmuş, maarif ordusunun dərin hörmətini qazanmışdır.

Prof. M.H.Təhmasib ədəbiyyat tədrisi metodikası dərsliklərinin yaradıcısı və şifahi xalq ədəbiyyatının mahir mütəxəssisi dos.Əliyar Qarabağlıdan öyrəndiyini iftixarla qeyd edərək yazır: "Əliyar Qarabağlı mənəviyyatca təmiz, öz sənətini qəlbdən sevən və qarşısındakına sevdirən bir müəllim, alim idi. Folklorun nümunələrini mənə ilk dəfə Əliyar müəllim öyrətmişdir". Əliyar müəllimə fəxri professor adı verilmişdir.

Prof. Əliyar Qarabağlı həmişə yazıb-yaratmaq, gənc mütəxəssislər yetişdirmək amalı ilə yaşamışdır. Əliyar müəllimin qəlbi qəflətən döyünməkdən qalanda prof. Abbas Zamanov "Əlvida, əziz dostumuz!", prof. Pənah Xəlilov "Müəllimlər müəlliminə, vida", prof. Abbas Səmədov «Parlaq zəkalı alim Əliyar Qarabağlı ədəbi yaşayacaqdır» adlı son yazılarında Əliyar müəllimin milyonların qəlbində ədəbi yaşayacağını göstərmişlər.

Prof. Abbas səmədov yazır: «Dahi mütəxəssis Əliyar Qarabağlı kimi şəxsiyyətlər ölmürlər, yalnız dünyalarını dəyişir, əbədiyyata qovuşurlar. Dahi elm xadimləri ana torpaqda uyusalar da, həmişə ruhən bizimlə birlikdə yaşayırlar, yazırlar, yaradırlar". Bu sirr bilinməyən, kimsəyə qalmayan, qərinələr boyu qocalmayan dünya professor Əliyar Qarabağlını vətən torpağının qoynundakı əbədi iqamətgahına apardı, onu cənnət məkana qoydu. Xoşbəxtlikdən əbədiyaşar pedaqoq prof. Əliyar Qarabağlının zəngin irsi maarif ordusuna onu yaşatmaq hədiyyəsi qaldı.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov Maarif Naziri olanda iftixar hissi ilə yazmışdır: "Əliyar Qarabağlı bütün həyatını, bütün varlığını xalq irsinə verən sədaqətli maarif işçilərindən biri idi. Müəllimlik onun təbii istedadıdır. Bu istedad Əliyar müəllimin qanında və canındadır".

Prof. Əliyar Qarabağlı yazır: "Metodika ədəbiyyat tədrisinin arıdır. Ədəbiyyat tədrisi metodikası elminə yiyələnmədən kamil müəllim olmaq müşgül məsələdir".

Akademik Həmid Araslı professor Əliyar Qarabağlını «elmin fədakar xadimi», "publisist alim və əməkdar müəllim», Zəhra xanım ...yeva «ədəbiyyat tədrisini bütün incilərinə qədər bilən böyük pedaqoq və metodist», prof. Bəşir Əhmədov «açıq qəlbli, geniş ...klı alim» adlandırır.

Əliyar Qarabağlının mənalı ömrü, zəngin elmi-pedaqoji fəaliyyəti Vətənə və xalqa şərəfli xidmət etməyin parlaq nümunəsidir. Ömrünün əlli ilini gənc nəslin təlim-tərbiyəsinə və elmi-pedaqoji fikirlərimizin inkişafına həsr edən Əliyar müəllim Azərbaycan ədəbiyyatının tədrisi metodikasının yaranmasında, təkmilləşməsində və inkişafında səmərəli əməyini əsirgəməmiş, yazmış və yaratmışdır.

Prof. Əliyar Qarabağlı kənd müəllimliyindən professor səviyyəsinə yüksəlmiş, folklorun toplanması, tədqiqi, öyrənilməsi, nəşri, təbliği sahəsində müasir mütəxəssis kimi dərin hörmət qazanmışdır.

Azərbaycanda ədəbiyyat tədrisi metodikasının elm kimi formalaşması Əliyar Qarabağlının şərəfli adı ilə bağlıdır. Alim-metodistin həyatı və elmi-pedaqoji fəaliyyəti mürəkkəb bir inkişaf yolu keçmişdir. Əliyar müəllimin məsləki, əqidəsi, inamı onun tərcümeyi-halında cilalanmış, şair Abbas Səhhətin"Mənim məsləkim-tərcümeyi-halımdır" məşhur kəlamına sadiq qalmışdır.

Professor Əliyar Məhəmməd oğlu Qarabağlı 1901-ci ildə Gürcüstanın Borçalı qəzasının Sarvan (Marneuli) rayonunun Ləcbəddin kəndində anadan olmuşdur. Onun uşaqlığı saz-söz məskəni Borşalı qəzasının romantik qoynunda keçmiş, füsünkar gözəlliyə, şairanə təbiətə malik olan Kür qırağı, Sınıq körpü, Qarayazı meşələri, Başkeçid (Dmanisi)yaylaqları, soyuq bulaqlar, göy zəmilər, Armudlu gölü, dağ çayları Əliyar Qarabağlıya bədii-estetik zövq vermişdir.

Əliyar Qarabağlı Yastı Qar, Əyri Qar, Qırxbulaq, Göybulaq, Daşbulaq yaylaqlarında uşaqlıq illərini mənalı keçirmiş, gəncliyində yazdığı "Başkeçid" rədəfli şerində bu əziz günlərini bədii sözün qüdrəti ilə ifadə etmişdir:

Dağlarında at belində gəzmişəm,
Çəmənində quzqulağı üzmüşəm.
Əyri-üyrü yollarını görmüşəm,
Köç yolunda çox araba sürmüşəm.
Yastı qarda dəyə, çadır qurmuşam,
Daşlarında vardır izim, Başkeçid.

Ləcbəddin kəndi Sınıq körpüdən on kilometr aralıdır. Qazax rayonunun Şıxlı kəndi ilə həmsərhəddir. Altmış evdən ibarət olan



Ləcbəddin kəndində su olmamış, qadınlar suyu səhənglə Xram çayından gətirmişlər. Əhali yeraltı daxmalarda yaşayırmış.

Yerli əhalinin bayatısı maraqlıdır:

Əzizim incə belə,
Naz belə, incə belə.
Qulpun qırılsın səhənd.
Nə çıxmasan incə belə?!

Əliyar Qarabağlının ilk müəllimi sazlı-sözlü aşıqlar olmuş, xalq ədəbiyyatını gəncliyindən sevmiş, folkloru öyrənməyə çalışmış və parlaq uğurlar qazanmışdır. 1976-ci ildə Qori Müəllimlər Seminariyasının bünövrəsi qoyulur. 1879-cu ildə seminariyada "Tatar-Rus" ("Azərbaycan-Rus") şöbəsi açılır. 1918-ci ildə həmin şöbəni Firidun bəy Köçərli (1863-1920) Qazax şəhərinə köçürür. Firidun bəyin yoldaşı Badisəba xanım Vəkilova ona kömək edir, seminariyaya xüsusi bina verirlər. Əliyar Qarabağlı 1921-ci ildə Qazax şəhərinə gəlir. Qazaxda Əli Hüseynovun (xalq yazıçısı Mehdi Hüseynin atası) açdığı qısa müddətli kursda oxuyur və kəndlərinə qayıdıb müəllim işləyir, sonra da müdir təyin edilir.

O, 1921-1925-ci illərdə kəndlərində müəllimlik edir. Əliyar Qarabağlı 1926-cı ildə Bakıya gəlir və pedaqoji texnikumda təhsilini davam etdirir. Sonra Bakı Dövlət Pedaqoji Universitetində (keçmiş APİ-də) ali təhsil alır, həm də tələbəlik illərində Bakının bir saylı beynəlmiləl nümunə məktəbində müəllim işləyir.

Əliyar Qarabağlı 1933-cü ildən orta məktəblər üçün dərslik hazırlamaq işinə cəlb edilir. 1939-cu ildən Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi işləyir və Azərbaycan Dövlət Universitetində ömrünün axırına kimi (1969) pedaqoji fəaliyyətini davam etdirir.

Əliyar Qarabağlının həyat yoldaşı İzzət xanım həkim, övladları Nəfisə, Roza və Gülnarə müəllimdir. Əliyar müəllim 1969-cu il may ayının birində Bakı şəhərində qəflətən vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. İzzət xanımın qardaşı dos. Əhməd Hüseynova (1920-1973) yeddi qız atası idi. Qadını Ülkər xanım ləyaqətli insan idi. Əhəd müəllimə əzəl doktorluq dissertasiyasını müdafiə etməyə imkan vermədi. Qızları Rəna, Zərnurə, Aygün, Dilşad, Mahirə, Zərifə erkən tinətli xanımlardır. Onlar ali təhsil almış, xoşbəxt həyat qurmuşlar. Zərnurə "Əhəd yaşayır" kitabını 2008-ci

ildə çap etdirmişdir. Əhəd Hüseynov Bakı Dövlət Universitetinin müəllimi idi.

Əliyar Məhəmməd oğlu Qarabağlının nəsli XVIII əsrdə Şuşa şəhərindən Borçalıya köçmüş və Ləcbəddin kəndində məskunlaşmışlar. Əliyar müəllimin atası Məhəmməd kişi represiyanın qurbanı olmuşdur. Bu zaman Qarabağlı familiyalı olanları respesiya etmişlər. Ancaq Əliyar müəllim seminariyada oxuduğuna görə onu kəndlərində tapa bilmirlər və bu nəsildən olduğu da müəyyən edilmir. Buna görə də Əliyar müəllim soyadını dəyişməmişdir. O, bütün varlığı ilə müəllimliyə başlamış, gənc nəslin təlim-tərbiyəsi ilə çox səmərəli məşğul olmuş, təcrübəli müəllim kimi sevilmişdir.

Hacı Kərim Sanılı yazırdı: "Məktəbin ruhu müəllimdir. Ruh qüvvətli olsa, arzulara tez çatmaq olar. Azərbaycan elinin kənd müəllimləri getdikləri yolun aşıqlarıdır. Ona görə ki, müəllimlər balalara səmərəli təlim-tərbiyə verir, onları bilikli və vətənpərvər yetişdirirlər».[1]

Əliyar Qarabağlı kənd müəllimi işlədiyi dövrün şirin xatirələrində səmimiyyətlə yazmışdır: "Mən hələ iyirminci illərdə kənd müəllimi olduğum zaman Şaiq müəllimin əsərlərini, dərs kitablarını dönə-dönə oxuyur, "Köç"dəki Kərim babalar, aynım qızlarını həyatda görürdüm. Lakin etiraf etməliyəm ki, "Şaiq" sözünü xeyli sonra öyrənmişdim. Mənasını bildiyim gündən hər dəfə bu sözü xatırladıqda, harada isə oxuduğum:

Kimin kim şövqü yox, -urfanı yoxdur,
Kimin ürfanı yox, -vicdanı yoxdur, -

misraları yadəma düşür və mən şövqü də, urfanı da, vicdanı da, dərdi də, qiymətli də olan Şaiq müəllimi xatırlayıram".[1]

Əliyar Qarabağlıya Borçalı ədəbi mühiti gözəl təsir bağışlayır, onun biliyini inkişaf etdirir. Gürcüstanda "Yeni fikir" qəzetində Əziz Şərif, Rza Şahvələd, Əli Nazim, Mühəqqər Rzazadə, İbrahim Sadıqov, Həsən Məmmədov, Ziyəddin Əfəndiyev, Ziya Borçalı kimi istedadlı, maarifpərvər ziyalılar qiymətli məqalələr yazır, maarifi təbliğ edirdilər. Onların məqalələri oxuculara gözəl təsir edirdi.

---

[1] «Yeni yol» qəzeti, 21 may 1924, № 11.
[1] «Azərbaycan müəllimi» qəzeti, 22 mart 1956, № 12.



Əliyar Qarabağlı bu ziyalıların önündə şərəfli fəaliyyət göstərir və xatirələrində yazırdı: "Qırx il bundan əvvəlin sözüdür. Mən kənd müəllimi işləyirdim. Tiflisdən aldığım "Ədəbiyyat dərsləri", "Üçüncü il", "Hesab məsələ və misalları", "Təbiətə ilk addım" adlı dərs kitablarını həsrətlə vərəqləyirdim. Bu kitabların üstündəki Abdulla Şaiq, Mahmud Mahmudbəyli, Ağabəy İsrafilbəyli, Camo Cəbrayılbəyli imzalarını dönə-dönə oxuyur, bu müəlliflərin nurani simalarını xəyalımda canlandırmağa çalışırdım. Axı, bu kitablar mənim özüm üçün və məsum kənd uşaqları üçün həyat dərsliyi idi".[1]

Borçalı mahalında Əliyar Qarabağlı mütərəqqi görüşlü, xalqa və Vətənə şərəfli xidmət edən, adət-ənənələrini, məişət şəraitini gözəl bilən istedadlı ziyalı, qayğıkeş və tələbkar müəllim kimi hörmət qazanmışdı.

Ali təhsil almaq məqsədilə Azərbaycana gələn Əliyar Qarabağlı texnikumda oxuyur, Abdulla Şaiq, Səməd bəy Acalov, Camo Cəbrayılbəyli kimi elm və maarif xidmətlərindən dərs alır. Əliyar Qarabağlı Abdulla Şaiqi "canli dərslik", Səməd bəy Acalovu "xalq müəllimi", "maarifin fədaisi" adlandırmışdır.

Riyaziyyat müəllimi Abbasqulu Kərimov yazır: "Əliyar müəllim şer sənətinin pərvanəsi idi. Biliyinə, sənətinə dərin məhəbbəti, şagirdlərinə ciddi tələbkarlığı və böyük qayğısı var idi. Əliyar müəllim əqidəcə çox sağlam, mənəviyyatca təmiz bir adam idi, təpədən dırnağadək mahir pedaqoq, gözəl müəllim idi".

Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda səmərəli fəaliyyət göstərən Əliyar Qarabağlı Azərbaycan-da ədəbiyyat tədrisi metodikası ədəbi məktəbini yaratmış, ədəbiyyat tədrisi üzrə metodist alimlər yetişdirmişdir.

Prof. Pənah Xəlilov yazır: "M.Rıbnikova, V. V. Qolubkov rus klassik və müasir ədəbiyyatının tədrisi sahəsində böyük xidmətlər göstərdikləri kimi, Azərbaycanda da belə bir xidmət Əliyar Qarabağlıya məxsusdur".

"Metodika ədəbiyyat tədrisinin açarıdır" müdrik kəlamını verən prof. Əliyar Qarabağlı "Orta məktəbdə rus ədəbiyyatı" (1941), "Azərbaycan məktəblərində rus ədəbiyyatının tədrisinə dair" (1958), "Ədəbiyyat dərslərində vətənə məhəbbət və düşmənə nifrət hissinin

---

[1] Camo Cəbrayılbəyli. «Xatirələrim». Bakı, 1966, səh. 5.

"tərbiyə edilməsi" (1942), "Orta məktəbdə ədəbiyyat tədrisinə dair vəsait" (1952), "Məktbdə şifahi xalq ədəbiyyatının tədrisi" (1961), "Ədəbiyyat" (VIII sinif üçün dərslik), "Ədəbiyyat" (IX sinif üçün dərslik), "Ədəbiyyat metodikası" (1952), "Azərbaycan ədəbiyyatının tədrisi" (1968) kimi dərsliklərin və dərs vəsaitlərinin müəllifidir.

Əliyar Qarabağlı üç yüzdən artıq elmi məqalə yazmış, dövri mətbuatda, jurnal, toplu və almanaxlarda çap etdirmiş, ümumxalq məhəbbəti qazanmışdır.

Prof. Əliyar Qarabağlı haqqında yetişdirdiyi professorlar Camal əhmədov, Şəmistan Mikayılov, Şahin Səfərov, Abbas Səmədov, Bağır Bağırov və başqaları dəyərli əsərlər, qiymətli xatirələr yazıb çap etdirmişlər.

Azərbaycanda prof. Əliyar Qarabağlı yeganə elmi rəhbərdir ki, onun yetişdirdiyi aspirantları prof. Bağır Bağırov və prof.Səmədov Abbas əziz müəllimləri, mənəvi ataları Əliyar Qarabağlının "Əliyar Qarabağlı – 100" adlı iki cilddən ibarət şərəfli ömür salnaməsini 2003-cü ildə çap etdirmiş və oxucuların mütaliəsinə vermişdir.

Bu tarixi salnamədə prof. Əliyar Məhəmməd oğlu Qarabağlının müqəddəs, xeyirxah, müdrik və adlı-sanlı nəsli haqqında məlumat verilir, elmi-pedaqoji fəaliyyəti ətraflı şərh olunur, oxuculara ərməğan edilir.

Ümumilli liderimiz Heydər Əliyev Əlirza oğlu demişdir: "Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır". Prof. Əliyar Qarabağlı xüsusi hörmət və qayğıya layiq olan, bilikli və zəkalı mütəxəssislər, gənclər yetişdirən mahir pedaqoqdur.

Ulu öndərimiz Heydər Əliyev 1998-ci il dekabrın 19-da demişdir: «Borçalı azərbaycanlılar diyarıdır. Burada, yəni Azərbaycanda yaşayanlar Borçalını heç vaxt ayırmayıblar. Borçalı həmişə bizim qəlbimizdə olubdur. Borçalı diyarına mən həmişə qayğı göstərmişəm, həmişə onlara öz xidmətimi göstərmişəm...

Gürcüstanda yaşayan azərbaycanlılar, borçalılar-həmişə əmin ola bilərlər ki, mən Azərbaycanın Prezidenti kimi həmişə onlarlayam. Mənim əlim sizin üstünüzdədir».[1]

---

[1] Heydər Əliyev. Mədəni irsimizin keşiyində, birinci kitab. Bakı, 2001, səh. 282.



Professor Əliyar Qarabağlı ulu öndərimiz Heydər Əliyevin həmişə qayğı göstərdiyi və səmərəli xidmətini əsirgəmədiyi Borçalı diyarının fitri istedadlı, mahir pedaqoq oğludur.

Prof. Əliyar Qarabağlının yaratdığı zəngin elmi-nəzəri və pedaqoji-metodik irs gənc nəslin təlim-tərbiyə və bədii-estetik zövq mənbəyinin xəzinəsidir. İnsanlığın parlaq zirvəsində dayanan prof. Əliyar Qarabağlı elmin zərrafı kimi milyonların qəlbində özünə əbədi abidə ucaltmışdır. Bu əzəmətli ziyarətgah abidə əbədi yaşayacaqdır, çünki professor Əliyar Qarabağlı sevərək yaşayan, sevilərək dünyasını dəyişən dahi elm və maarif xadimidir.

## MİR CƏLAL PAŞAYEV ƏLİ OĞLU
## (1908-1978)

Azərbaycan ədəbiyyatı tarixində istedadlı nasir, görkəmli ədəbiyyatşünas, mahir pedaqoq-alim kimi şöhrət qazanan Mir Cəlal Paşayevin zəngin ədəbi irsi yüksək təlim-tərbiyə və təsirli bədii-estetik zövq mənbəyidir.

Mir Cəlal Paşayev Vətənə və xalqa misilsiz məhəbbət eşqi ilə yazıb yaradan, müdrik əqidəyə, yaradıcı hafizəyə, sarsılmaz iradəyə malik olan mütəfəkkir şəxsiyyət olmuşdur.

Mir Cəlal müəllimin mənalı ömür salnaməsi, zəngin yaradıcılıq yolu və səmərəli elmi-nəzəri, ədəbi pedaqoji fəaliyyəti dahi Nizaminin müqəddəs ana yurdu, cənnət məkanı Gəncə ilə möhkəm bağlıdır və tədqiq olunub öyrənilməyə, araşdırılmağa layiq elm zirvəsidir.

Mütəfəkkir ədib Mir Cəlal Paşayev Əli oğlu 1908-ci ildə aprel ayının 26-da Cənubi Azərbaycanın Əndəlib kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Ehtiyac içərisində yaşayan Əli kişi ailəsi ilə birlikdə dahi Nizaminin doğma yurdu, Şərqin tarixi mədəniyyət mərkəzlərindən biri kimi şöhrət qazanan Gəncə şəhərinə köçmüşdür. Mir Cəlal uşaqlıq və gənclik illərini Gəncənin romantik qoynunda keçirmişdir.

Gəncəli mərhum akademik Həmid Araslının dili ilə desək, Gəncə Mir Cəlalın ilham mənbəyi, ana yurdu, ilk təhsil aldığı elm ocağı olmuşdur.

Mir Cəlal ibtidai təhsilini Gəncədə almış, ədəbiyyata, poeziyaya dərin məhəbbət bəsləmiş, xalqın müdrikliyi, biliciliyi, hikməti, mənəvi sərvəti folklora vurulmuş, onu mütaliə etmiş, klassik ədəbiyyatı öyrənməyə ciddi səy göstərmiş, ondan bədii zövq almışdır.

Mir Cəlalın dünyagörüşünün formalaşmasında, biliyinin dərinləşməsində, hərtərəfli inkişafında Gəncə ədəbi mühitinin rolu əvəzsiz olmuşdur.

1918-ci ildə Əli kişi dünyasını dəyişmiş, ailəni Mir Cəlalın böyük qardaşı dolandırmış, bütün çətinliklərə dözmüş, əməyi şərəf işi saymışdır.

Mir Cəlal 1924-1928-ci illərdə Gəncə darülmüəllimində təhsil almış, ictimai işlərdə, tələbə həmkarlar təşkilatında, yaradıcı dərnəklərdə fəal iştirak etmişdir. Tələbəlik illərində Gəncədə nəşr olunan "Qızıl Gəncə", "Ədəbiyyat sahəsində" adlı ədəbi jurnallarda Mir Cəlal, Səməd Vurğun, Əhməd Cəmil, Cəfər Xəndan, Həmid Araslı, Mikayıl Rzaquluzadə kimi istedadlı gənclərlə birlikdə fəal iştirak etmiş, əsərlər dərc etdirmiş və bu yaradıcı gənclər hamının hörmətini qazanmışlar.

Gəncədə ədəbi mübarizələr və axtarışlar dövründə Mir Cəlal Paşayev poeziyaya daha böyük həvəs göstərmiş, qələmini şer yazmaqda, tərcüməçilikdə sınamış, lakin istedadlı nasir kimi tanınıb məşhurlaşmışdır. Ona görə ki, gözəl nəsr əsərləri yazmışdır.

Mir Cəlal dərin müşahidə qabiliyyətinə malik, həyat hadisələrini dərindən dərk edib, bədii sözün qüdrətilə mənalandırılan mahir sənətkardır. O, gözəl hekayələr, oçerklər, romanlar müəllifidir.

Məşhur "Molla Nəsrəddin" jurnalının yaradıcısı, Molla Nəsrəddin ədəbi məktəbinin və Azərbaycan hekayə janrının fitri istedadlı banisi Cəlil Məmmədquluzadə Mir Cəlalın bəhrələndiyi, öyrəndiyi dahi söz ustasıdır.

Mir Cəlalın mövzu dairəsi çox geniş və rəngarəngdir. Onun hekayələrində xalqın həyatı, həyat həqiqətləri, fəlsəfi ümumiləşdirmələri real, inandırıcı və çox təsirlidir. Bu hekayələrdə məzmun dərinliyi, ideya və əxlaqi mahiyyət gözəl təsir bağışlayır. Mir Cəlalın ədəbi yaradıcılığı ilə pedaqoji fəaliyyəti bir-birini tamamladığı üçün əsərlərində təlim-tərbiyəvi cəhətlər qüvvətlidir.

Mir Cəlal 1928-ci ildə Gədəbəy rayonunda yeddiillik məktəbin müdiri, 1929-1930-cu illərdə bir saylı Gəncə orta məktəbinin direktoru işləmişdir.

Səməd Vurğun Gəncədən Moskvaya ali təhsil almağa gedərkən gəncəli dostları ilə səmimi görüşmüş, şəxsən mənəvi sirdaş olduğu Mir Cəlalın tövsiyyələrinə əməl edəcəyinə söz vermiş, "gözəllikdən ilham" almayacağına və sazının "gəldi-gedər" olmayacağına poetik and içmişdir.

1930-31-ci illərdə Kazan Dövlət Pedaqoji İnstitutunda təhsil almış Mir Cəlal 1932-ci ildə Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunun aspiranturasına qəbul olmuş, 1935-ci ildə bitirmişdir. Mir Cəlal Paşayev aspirantura illərində "Kommunist" və "Gənc işçi" qəzetlərində fəal iştirak etmiş, ilk qələm təcrübəsi olan "Sağlam adamlarda" adlı oçerklər kitabını çap etdirmişdir.

Mir Cəlal Paşayev 1936-1941-ci illərdə Bakı Dövlət Pedaqoji İnstitutunda və Bakı Dövlət Universitetində müəllim işləmiş, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığın əsaslarından dərs demişdir.

1940-cı ildə "Füzulinin poetikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Ona 1942-ci ildə dosent elmi rütbəsi verilmişdir. O, həm də dövlət universitetində çalışmış, Elmlər Akademiyasının Dil İnstitutunda Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Uzun illər arxivlərdə klassik Azərbaycan ədəbiyyatının inkişaf yollarını tədqiq edib səmərəli axtarışlar aparan Mir Cəlal Paşayev 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" (1905-1917) mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

Mir Cəlal müəllim 1948-ci ildə universitetdə professor vəzifəsinə seçilmişdir. O, 1936-cı ildən Bakı Dövlət Universitetində çalışmış, ömrünün sonuna kimi (1978) Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləmişdir.

Alim, ədəbiyyatşünas, yazıçı Mir Cəlal Paşayev yazıçılar qurultayında, Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüklərində fəal iştirak etmişdir. O, "Qırmızı əmək Bayrağı" (1967), "Şərəf nişanı" və "Oktyabr inqilabı" ordenləri, "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində "Fədakar əməyinə görə", "Qafqazın müdafiəsinə görə", "Əmək igirliyinə görə" medallarla, fəxri fərmanlar və müxtəlif respublika mükafatları ilə təltif olunmuşdur.

Prof. Mir Cəlal Paşayev bədii yaradıcılıqla kifayətlənməmiş, proqram və dərsliklər, monoqrafiyalar yaratmış, gənclərə atalıq qayğısı ilə yanaşmış, istedadlı mütəxəssislər, elmlər namizədləri və doktorları yetişdirmişdir. Bu baxımdan Nurəddin Babayev, İnayət Bəxtaşi, Bəxtiyar Vahabzadə, Altay Məmədov, Cəlal Abdullayev, Məmməd Məmmədov, Xalid Əlimirzəyev, Abbas Səmədov, Sadıq Şükürov, Əziz Mirəhmədov, Təhsin Mütəllibov, Rafiq Vəkilov, Nəriman Həsənzadə və başqa görkəmli şəxsiyyətlərin fəaliyyəti diqqəti cəlb edir.

Görkəmli elm və mədəniyyət xadimləri Həmid Araslı, Məmməd Arif, Məmməd Cəfər, Əziz Şərif, Cəfər Xəndan, Mirzə İbrahimov, Mehdi Hüseyn, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul



Rza, Əliyar Qarabağlı, Yahya Seyidov, Bəkir Nəbiyev, Pənah Xəlilov, Teymur Əhmədov, Qara Namazov, Yaşar Qarayev, Abbas Səmədov və başqaları Mir Cəlal Paşayevin şərəfli ömür yolunu, zəngin ədəbi və pedaqoji irsini yüksək qiymətləndirmiş, xalqımızın qəlbində ədəbi yaşayacağını iftixarla göstərmişlər.

Mir Cəlal Paşayevin mövzuları, orijinal yazı manerası, obrazlar aləmi, bədii təsvir və ifadə vasitələri, əsərlərinin janr xüsusiyyətləri çox zəngindir.

Onun əsərləri, ciddi yaradıcılıq uğurları müasir gənc nasirlərimiz üçün əsaslı mənbə olmuş, ondan öyrənmiş və bəhrələnmişlər. Mir Cəlalın hekayələrində həyat həqiqətləri, fəlsəfi dərinliklər real bədii ifadəsini çox canlı və təsirli tapır.

Əməyin yaradıcı və dəyişdirici qüvvəsi, müasirlik ruhu Mir Cəlal nəsrində orijinal cilalanır. Mir Cəlal Vətənimizin gözəlliyini, xalqımızın qəhrəmanlıq mübarizələrini, adət-ənənələrini inandırıcı hadisələr, real nümunələr əsasında qələmə alıb, oxucusunu inandırır, onun qəlbini təlatümə gətirir.

Mir Cəlal satirik əsərlərində köhnəlik qalıqlarını, laqeyidlik, tənbəllik, saxtakarlıq, məsuliyyətsizlik, özbaşınalıq, nankorluq, satqınlıq kimi əxlaqi keyfiyyətlərə zidd halları kəskin tənqid atəşinə tutur, ifşa edir. Yazıçının tənqid hədəfi dəqiq və aydındır.

Mir Cəlal hekayə yaradıcılığında Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Məmməd Səid Ordubadi kimi dahi söz ustalarının zəngin irsindən bəhrələnmişdir. Onun əsərlərində adi hadisələrin ümumiləşdirici, təsvir obyektinin səciyyəvi cəhətlərinin düzgün verilməsi, surətlərin orijinallığı oxucunu təmin edir.

Mir Cəlal Paşayevin 70-dən artıq bədii, elmi və publisist kitabı, beş yüzdən artıq müxtəlif mövzularda məqaləsi, resenziyası, elmi-nəzəri əsərləri, dərslikləri çap olunmuşdur. Onun əsərləri bir sıra dillərə tərcümə edilib, oxucuların mütaliəsinə verilmişdir.

Mir Cəlalın əsərlərində istismar dünyasının, qaranlıq keçmişin mənzərələri real qələmə alınır və kəskin tənqid atəşinə tutulur.

Ədibin hekayələrində köhnəliklə yeniliyin mübarizəsi, yüksək əxlaqi keyfiyyətlər, xüsusilə vətənpərvərlik, əməksevərlik, mübarizlik, ata-ana məhəbbəti təsirli bədii ifadəsini tapır.

Yazıçının "Subaylıq fəlsəfəsi" hekayəsində "subaylıq sultanlıq"deyib ömrünü mənasız hərəkətlərə həsr edən riyakarlar ifşa olunur. "İnsanlıq fəlsəfəsi" hekayəsində bənna Baxışın şərəfli əməyi, vətəndaşlıq borcu yüksək qiymətləndirilir.

Ədibin "Məzəli hekayələri" adı altında birləşdirdiyi əsərlərdə həyata münasibət aydın qələmə alınır, yazıçının kinayəsi təsirli verilir.

Mir Cəlalın "Xatirə hekayələri", "Günün hekayələri", "Mətləb hekayələri" və digər adlar altında ümumiləşdirdiyi hekayələr dərin məzmun və təsirli ideyaya malik həqiqi sənət əsərləridir.

Ədibin müharibə illərində "Açıq kitab" romanı, "Vətən yaraları", "Vətən hekayələri" kitabları çap olunmuş, ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir. Müharibədən sonra Mir Cəlal Paşayev "Yaşıdlarım" (1946), "Təzə şəhər" (1952), "Yolumuz hayanadır" (1957) romanlarını yazıb çap etdirmişdir. "Sadə hekayələr" (1955), iki cilddə "Seçilmiş əsərləri" (1956-1957), "İnsanlıq fəlsəfəsi" (1961), "Xatirə hekayələri" (1962), "Gülbəsləyən qız" (1965) kitabları nəşr olunmuşdur.

Mir Cəlalın "Bir gəncin manifesti" romanı vətəndaş müharibəsinə həsr olunmuş, 1919-1920-ci illərdə gəncədə gedən hadisələrin bədii təsviri real verilmişdir. Yazıçı vaxtı ilə müşahidə etdiyi, şahidi olduğu hadisələri qələmə almış, yaradıcılıq süzgəcindən keçirmiş, Mərdan, Sona, Bahar kimi bədii obrazlar yaratmışdır.

Dərsliklərin bəzəyi olan bu romanda verilən dərin hikmətamiz ifadə ("İtə ataram, yada satmaram") gənclərin dilinin əzbəri olmuş, vətənpərvərlik hissi tərbiyə etmişdir.

Müdrik kəlamlar Mir Cəlal müəllimin hiss-həyəcanı, ürək çırpıntıları, qəlb duyğularıdır. Müəllifin "Təzə şəhər" romanı Sumqayıta, onun inşaatçılarına, şərəfli əmək adamlarına həsr olunmuşdur. Əsərin qəhrəmanı böyük və gərfin döyüş yolu keçmiş Yunis Əhmədov inşaatçıların əməyini yüksək qiymətləndirir, fəaliyyətinə düzgün istiqamət verir.

"Yolumuz hayanadır" romanı (1958) dahi satirik şairimiz "Bənzərəm bir qocaman dağa ki, dəryada durar" deyən Mirzə Ələkbər Sabirə həsr edilmişdir. Mir Cəlal müəllim doktorluq dissertasiyasında Sabirin dövrünü, həyatını, bədii yaradıcılığını



bütün fəaliyyətini zəngin materiallar əsasında aşkarlamışdır. Bu proqramın bədii həlli romanda ətraflı ifadəsini tapmışdır.

Mir Cəlal Paşayevi oxucularının qəlbində özünə əbədi abidə qurmuş dahi mütəfəkkir sənətkardır. Görkəmli yazıçı və ədəbiyyatşünas, əməkdar elm xadimi, professor Mir Cəlal Əli oğlu Paşayev ibtidai məktəbi, yeddiillik məktəbi və pedaqoji texnikumu Gəncədə bitirmiş, Gəncədə pedaqoji fəaliyyətə başlamış, ilhamını dahi Nizami yurdu Gəncənin təbii gözəlliklərindən, "dumanlı dağların yaşıl qoynunda" yerləşən Göygöldən almışdır.

Görkəmli söz sənətkarı, mahir pedaqoq Mir Cəlal Paşayev dahi Nizami yurdu Gəncəni doğma ana Vətəni saymış, həmişə onunla fəxr etmişdir. Prof. Mir Cəlal Paşayev dahi Nizaminin müqəddəs yurdu Yaxın və Orta Şərqin cənnət guşəsi Gəncənin görkəmli elm və mədəniyyət xadimi, dünya şöhrətli söz sənətkarıdır.

Mir Cəlal Paşayevin mənalı ömür yolu Gəncə ilə möhkəm bağlıdır. Gəncə Mir Cəlal müəllimə əbədi məhəbbət şəhəri, zəngin ilham xəzinəsidir. Gəncə pedaqoji texnikumunda oxuyarkən bir şair kimi bədii yaradıcılığa başlayan Mir Cəlal "Qızıl Gəncə" qəzetində və "İlk addımlar" adlı məcmuədə ilk qələm nümunələrini çap etdirmişdir.

Mir Cəlal Paşayev yaradıcılığında üslub, təsvir və sənətkarlıq baxımından məşhur "Molla Nəsrəddin" ədəbi məktəbinin orijinal davamçısı olmuşdur. Tarixi həqiqətdir ki, Mir Cəlalsy yaratdığı bədii irsi ideya, məzmun, ictimai varlığın inikası cəhəndən tamamilə yeni bir ədəbi üslubun parlaq nümunəsi, zəngin məhsuludur.

Professor Mir Cəlal Paşayevin "Fizuli sənətkarlığı" (1958), "Azərbaycanda ədəbi məktəblər" (1947), "Klassiklər və müasirlər" (1973), "XX əsr Azərbaycan ədəbiyyatı" (1969), "Ədəbiyyatşünaslığın əsasları" (1972) kitabları Azərbaycan ədəbiyyatının nadir incilәri, fundmental elmi-nəzəri tədqiqat əsərləridir.

Xalq şairi Səməd Vurğun, akademik Həmid Araslı, prof.Cəfər Xəndan, görkəmli sənətkarlar Əhməd Cəmil, Ələkbər Ziyatay, Cahanbaxş, Mikayıl Rzaquluzadə kimi dövrün gənc ədəbi qüvvələri ilə birlikdə Mir Cəlal Paşayev Nizami yurdunda ilk qələm təcrübələrini sınaqdan keçirmiş, sənət dostları ilə əbədi fəaliyyətini inkişaf etdrimişdir.

Mir Cəlal Paşayevin 1998-ci ildə 90 illik yubileyi respublikamızda, həm də Gəncədə geniş qeyd olundu, adına küçələr qoyuldu, dərs dediyi məktəblərə ədibin adı verildi.

2002-ci ilin oktyabr ayında Gəncə şəhərində Mir Cəlal Paşayevin adını daşıyan 39 saylı orta məktəbdə şagirdlərin, müəllimlərin və şəhər ictimaiyyətinin iştirakı ilə böyük mütəfəkkirin şərəfinə ucaldılmış yeni abidənin açılış mərasimi olmuşdur.

Təntənəli mərasimdə Qazax, Tovuz, Ağstafa, Şəmkir icra hakimiyyətlərinin başçıları, elm və mədəniyyət işçiləri yazıçının xatirəsini dərin məhəbbətlə ifadə etdilər. Gəncə şəhərinin əhalisi, ziyalılar, iqtidarın nümayəndələri Mir Cəlal Paşayevin ailə üzvlərini, yaxın qohumlarını, tələbə və dostlarını bu görüşdə iştirak etdiklərinə görə səmimiyyətlə təbrik etmişlər.

Mir Cəlal Paşayevin böyük oğlu, bir çox Beynəlxalq Akademiyaların həqiqi üzvü və laureatı, Azərbaycan Milli Elmlər akademiyasının akademiki, Milli Avrasiya akademiyasının rektoru, akademik Arif paşayev, yazıçının oğlu Azərbaycanın ABS-da on il səlahiyyətli səfiri olmuş, Daxili İşlər Nazirinin müavini professor Hafiz Paşayev, Səidiyyə Ərəbistannın səfiri professor Elman Araslı, yazıçının qızları, nəvələri, yaxın qohumları, tələbələri və dostları mərasimdə iştirak etmişlər.

Abidənin qırmızı lentini yazıçının böyük, oğlu akademik akademik Arif Paşayev kəsdi və çox səmimi çıxışında mərasim iştirakçılarına dərin minnətdarlığını bildirdi.

Akademik Arif Paşayev Amerika həyatına aid nəfis şəkillər tərtib olunmuş albomu, xalq şairi Nəriman Həsənzadə bir neçə jurnal, qəzet və kitabı Mir Cəlal muzeyinə hədiyyə verdi. Məktəbin direktoru Zakir Hüseynov qonaqlara səmimi razılığını bildirdi.

Mir Cəlal Paşayevin böyük qızı musiqişünas Elmira xanım Həsənova, nəvəsi musiqi müəllimi Aytəkin Həsənova, Mir Cəlal müəllimin ailəsində böyüyüb pərvəriş tapmış bacanağı, şərqşünas alim Cümşüd Muradov, Mir Cəlal müəllimin öz qızı kimi böyüdüb köçürdüyü kitabxanaçı Rəna Xanım Muradova, bu böyük ailənin yaxın dostu Hacı İbrahim, onun həyat yoldaşı Validə xanım və başqaları bu unudulmaz şərəfli mərasimi öz xatirələri, Mir Cəlal müəllim və Püstə xanım haqqında səmimi söhbətləri ilə daha da zənginləşdirdilər. Dahi yazıçının əziz xatirəsinə həsr olunmuş rəsmi görüşlər mehriban ailə mühiti şəraitində keçdiyindən gözəl təsir bağışladı.



Görkəmli ədəbiyyatşünas alim, dahi sənətkar Mir Cəlal Paşayev Əli oğlunun Gəncə ədəbi-pedaqoji fəaliyyəti zəngin xəzinədir, gənc nəslin faydalı təlim-tərbiyə məktəbidir.

Azərbaycan ədəbiyyatının görkəmli sənətkarı, fitri isdedadlı nasir, ədəbiyyatşünas, mahir pedaqoq, professor Mir Cəlal Paşayev vətənpərvər, əməksevər, qayğıkeş və dahi tarixi şəxsiyyət, əbədiyaşar dövlət və maarif xadimidir.

## HƏMİD ARASLI
## (1909-1983)

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor Həmid Məmmədtağı oğlu Araslı görkəmli tədqiqatçı, məsuliyyətli publisist, mahir maarifpərvər pedaqoq, fitri istedadlı mütəfəkkir, vətənpərvər elm xadimidir.

Həmid Məmmədtağı oğlu Araslı 1909-cu il fevral ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. Onun uşaqlıq və gənclik illəri dahi Nizami Gəncəvinin ana Vətəni Gəncənin dilbər guşəsində keçmiş, humanist, vətənpərvər və müdrik bir gənc kimi böyümüşdür.

Həmid Araslı 1915-1920-ci illərdə Gəncə mədrəsəsində orta təhsil almışdır. O, 1921-1926-cı illərdə Gəncə Darülmüəllimində təhsilini davam etdirmiş, həmişə orta məktəb şagirdləri ilə məşğul olmuş və məktəb şagirdləri üçün ədəbiyyat dərnəyi açmış, şifahi və yazılı ədəbiyyatın nümunələrini şagirdlərə öyrətməyə çalışmış, faydalı məqsədinə nail olmuşdur.

Həmid Araslı Darülmüəllimi 1926-cı ildə uğurla bitirmiş və Nəbiağalı kənd məktəbinə direktor təyin edilmişdir. Bu məktəbdə bir il işlədikdən sonra 1927-ci ildə Gəncə şəhərində ilk dəfə açılmış yeddiillik məktəbə direktor vəzifəsinə təyin edilmişdir. Məktəbdə ədəbiyyatdan dərs demişdir.

Həmid Araslı 1928-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyat fakültəsinə qəbul olunmuşdur. Universitetdə əlaçı oxumuş, fərdi təqaüd almış, fərqlənmə diplomu ilə bitirib 1932-ci ildə Gəncə maarif şöbəsinin müavini vəzifəsinə təyin edilmişdir. Gəncədə səmərəli işləmiş, ümumxalq hörməti qaz nmışdır.

Həmid Araslı 1935-ci ildə aspiranturaya qəbul olmuş, "XIII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı" mövzusunda tədqiqat işi aparmış, dövrü mətbuatda məqalələr çap etdirmişdir.

Həmid Araslı 1943-cü ildə namizədlik dissertasiyasını müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1945-ci ildə Həmid Araslı dosent elmi rütbəsinə layiq görülmüşdür. Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətini səmərəli davam etdirən Həmid Araslı 1946-cı ildə "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif edilmişdir.



Dos. Həmid Araslı Nizami adına ədəbiyyat muzeyində elmi hissə üzrə direktor işləmiş, həm də gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmuşdur. Dosent Həmid Araslı 1953-cü ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. O, həmişə elmi-tədqiqat işini çox səmərəli davam etdirmişdir.

Dos. Həmid Araslı 1954-cü ildə "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı" mövzusunda doktorluq dissertasiya müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi almış və 1955-ci ildə ona professor elmi dərəcəsi verilmişdir.

Azərbaycan xalqının milli bədii təfəkkürünün tarixi olan ədəbiyyat tarixini Həmid Araslı çox səmərəli tədqiq etmiş, faydalı əsərlər yazmışdır. Həmid Araslı bütün, mənəviyyatı ilə Azərbaycana və onun mənəvi-mədəni həyatına bağlı ədəbiyyatşünas olmuş, orta və ali məktəblər üçün faydalı dərsliklər yazmışdır.

Həmid Araslını ədəbiyyat dünyasına gətirən xalqa və Vətənə dərin məhəbbəti olmuşdur. Ədəbiyyata sönməz sevgi onun elmi yaradıcılıq mənbəyinə çevrilmişdir. Həmid Araslının atası Məmmədtağının zəngin kitabxanası, Azərbaycan və Şərq folklorunu, həm də klassik ədəbiyyatını gözəl bilən anası Hürrübəyim xanımın söhbətləri və verdiyi məlumat hələ uşaq ikən Həmid Arslıda ədəbiyyata, klassik irsə həvəs və məhəbbət oyadan ilk mənbələr olmuşdur.

Prof. Həmid Araslı elmi-pedaqoji yaradıcılığa, ciddi tədqiqat aparmağa böyük maraqla başlamış, parlaq uğurlar qazanmışdır. Müharibə illərində ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944) yaradılmasında səmərəli fəaliyyət göstərmişdir.

Prof. Həmid Araslının İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" (1928), H.Zeynallı, A.Şaiq, A.Musaxanlı, C.Əfəndizadənin "Ədəbiyyatdan iş kitabı" (1928)adlı dərsliklərinin hazırlanmasında səmərəli köməyi olmuşdur.

Prof. Həmid Araslının elmi-pedaqoji yaradıcılığı çox zəngin və faydalı əhəmiyyətə malikdir. Ona görə ki, onun əsərləri zəngin elm mənbəyidir.

Professor Həmid Araslı 1956-cı ildə AMEA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun mətnşünaslıq şöbəsinin müdiri təyin edilir. Rusiyada, Ukraynada, Orta Asiyada, Türkiyədə keçirilən

konfranslarda məruzələrlə çıxış edir, mükafatlandırılır və "Türk dili qurumu cəmiyyəti"nin fəxri üzvü seçilir.

Prof. Həmid Araslı 1958-ci ildə AMEA-nın mükbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1968-ci ildə akademik Həmid Araslıya Özbəkistan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Akademik Həmid Araslı 1936-cı ildən başlayaraq "Ədəbiyyat müntəxabatı", "Türk dili və ədəbiyyatı", "Ədəbiyyat", "Ədəbiyyat xrestomatiyası", "Bədii oxu kitabı", "Qədim ədəbiyyat", "Ədəbi qiraət kitabı", və s. dərsliklər, proqramlar yazıb orta məktəblərə ərməğan vermiş, həmişə pedaqoji kollektivin hörmətini qazanmışdır.

Akademik Həmid Araslı ali məktəblər üçün "Ələkbər Sabirin həyatı" (1936), "Mirzə Fətəli Axundov" (1938), "Füzuli" (1939), "Fədakar şair İmadəddin Nəsimi" (1942), "Böyük Azərbaycan şairi İmadədin Nəsimi" (1942), "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığı" (1947), "Koroğlu"(1951), "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi" (1956), "Böyük Azərbaycan şairi Füzuli" (1958), "Ağıq yaradıcılığı" (1960), "Nizami Gəncəvinin həyatı" (1967) və s. dərsliklər və dərs vəsaitləri yazıb çap etdirmişdir.

Akademik Həmid Araslı mənalı ömrünün sonuna kimi (1983) orta və ali məktəblər üçün dərsliklər, dərs vəsaitləri, proqramlar yazıb çap etdirmiş, gənc nəslin təlim-tərbiyəsi ilə səmərəli məşğul olmuş və ümumxalq hörməti qazanmışdır.

Akademik Həmid Araslının kitabları rus və başqa xalqların dillərində çap olunmuşdur. Görkəmli mütəfəkkir Həmid Araslı "Qızıl Gəncə", "Şah dağı" və s. şerlər, "Şairin həyatı" povesti, "İl... məktəb", "İntizar", "Vəlinin qonaqlığı", "Maraqlı bir görüş" və s. hekaqyələrini yazıb çap etdirmiş və oxuculara hədiyyə vermişdir.

Akademik Həmid Araslı 1983-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Akademik Həmid Araslının zəngin elmi-nəzəri və pedaqoji-metodik irsi çap olunmuş, haqqında dissertasiyalar müdafiə edilmiş tədqiqat əsərləri yazılmış, əbədiyaş... dövlət, elm və maarif xadimi kimi ümumxalq məhəbbəti qazanmış adı əbədiləşdirilmişdir.



## CƏFƏR XƏNDAN HACIYEV ZEYNAL OĞLU
## (1910-1961)

İrəvan Qərbi Azərbaycanın bütün Qafqazda və Şərq ölkələrində ən böyük elm və mədəniyyət mərkəzi, türk, müsəlman şəhəri olmuşdur. İrəvan şəhəri mənbəyini Göyçə gölündən alan Zəngi çayının və Ağrı dağının vadisi üzərində, digər tərəfdən çuxur yerdə yerləşir.

Qaraqoyunlu və Ağqoyunlunun hökmranlığı dövründə İrəvan Çuxur Səd vilayətinin inzibati mərkəzi olmuşdur. 1679-cu il iyunun 4-də zəlzələ İrəvanı yerlə-yeksan etmişdir. İrəvan şəhəri azərbaycanlıların əzəli və doğma ana torpağı, əziz məskəni olmuşdur.

Bədnam Gülüstan və Türkmənçay müqaviləsi İrəvan xanlığını Rusiyaya birləşdirəndə İrəvanda on iki min nəfərlik iki min dörd yüz ailə yaşamışdır ki, bundan min beş yüz nəfər erməni olmuşdur.

İranda Rusiyanın səfiri olan yazıçı A.S.Qriboyedovun köməyi ilə ermənilər qondarma Ermənistan ərazisinə köçürülmüşdür.

Erməni millətçiləri 1905-ci ildə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə soyqırım siyasətini ardıcıl həyata keçirməyə can atmış, axırda 1988-ci ildə facıə törətmiş, "türksüz Ermənistan" bədnam siyasətilə Azərbaycan ərazisinin iyirmi faizini işğal etmiş, bir milyondan çox insan doğma ocaqlarından qaçqın düşmüşdür.

Şübhə yoxdur ki, Dağlıq Qarabağ problemi həll olunacaq, azərbaycanlılar öz doğma ata-baba yurdlarına qayıdacaqlar. O zaman Şuşada təntənəli bayram ediləcəkdir.

Azərbaycanın ayrılmaz cənnət guşəsi olan Qərbi Azərbaycan görkəmli elm, mədəniyyət, incəsənət, dövlət və ictimai xadimlər yetişdirmişdir. Faiq Bağırzadə, Mustafabəy Topçubaşov, Heydər Hüseynov, Zərifə Budaqova, Bəhmən Axundov, Arif Abbasov, Cəfər Xəndan, İsrafil Abbasov, Teymur Əhmədov, Paşa Qəlbinur, Mirəli Seyidov, Əli Fərəcov, Budaq Budaqov, Abbas Səmədov və başqa görkəmli tarixi şəxsiyyətlər ana yurdun parlaq elm xadimləridir.

Görkəmli ədəbiyyatşünas-alim, istedadlı tənqidçi, tərcüməçi, publisist, şair, tədqiqatçı, mahir pedaqoq, zəngin mənəviyyatlı ailə başçısı, xeyirxah tarixi şəxsiyyət və gözəl insan Cəfər Xəndan Hacıyev Zeynal oğlu 1910-cu il mayın 8-də İrəvan şəhərində anadan olmuşdur.

1918-ci ildə Zeynal kişi İrəvanda törədilən erməni vəhşilikləri nəticəsində ailəsilə Göyçəyə köçür. Cəfər Xəndanın atası anası vəfat edir. Cəfər Xəndan kiçik bacısı ilə Gəncədə 1925-ci ilə kimi uşaq evində yaşayır. Gəncədə yeddillik məktəbi bitirib Gəncə pedaqoji texnikumuna qəbul olur və uğurla qurtarır.

Cəfər Xəndan Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olub əlaçı oxuyur. Universiteti bitirdikdən sonra aspiranturaya qəbul olur və 1939-cu ildə "Proletar inqilabçı şair Mirzə Ələkbər Sabir" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi alır. 1940-cı ildə ona dosent elmi dərəcəsi verilir.

Cəfər Xəndan 1941-ci ildə könüllü hərbi səfərbərliyə alınıb orduda alman işğalçılarına qarşı vuruşur, həm də Təbrizdə çap olunan "Vətən yolunda" qəzetində fəal iştirak edir. Təbrizdə "Şairlər məclisi"adlı ədəbi məclisin yaradılmasında və "Şairlər məclisi" adlı antologiyanın çap olunmasında səmərəli əməyini əsirgəmir.

Professor Cəfər Xəndan zabit və publisist kimi cəbhə illərində "Vətənin şərəfinə", "Qələbəyə doğru", «Vətən yolunda» qəzetlərində məsul redaktorun müavini işləmiş, "Cəbhə illəri" (1942), "Qafqaz" (1942), "İlk ayrılıq" (1944), "Mübarizə yollarında" adlı şeirlər kitablarını çap etdirmişdir.

Cəfər Xəndan mahir tərcüməçi kimi fars dilindən Nizaminin, Xaqaninin, Ömər Xəyyamın, Heyran xanımın bir çox əsərlərinin ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir.

Cəfər Xəndan 1946-cı ildə ordu sırasından tərxis olunur və universitetdə pedaqoji fəaliyyətə başlayır. Cəfər Xəndan "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun bədii ədəbiyyatda inkişafı" mövzusunda 1948-ci ildə doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alır və 1950-ci ildə professor elmi rütbəsinə layiq görülür.

Professor Cəfər Xəndan dekan, kafedra müdiri, universitetin rektoru vəzifələrində şərəflə işləmiş, ali sovetin deputatı seçilmiş, "Qırmızı ulduz", "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı", "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə", "Əmək veteranı", "Əmək igidliyinə görə" orden və medallarla təltif olunmuş, fəxri fərmanlar almışdır.



Professor Cəfər Xəndan "Müasir Azərbaycan ədəbiyyatı", "Ədəbiyyat nəzəriyyəsi", "Sabir", "XX əsr Azərbaycan ədəbiyyatı", "Molla Nəsrəddin", "Şairin həyatı", "Cəfər Cabbarlının həyat və yaradıcılığı", "Sovet ədəbiyyatı", "Mikayıl Müşfiq", "Mir Cəlal", "Sabir yaradıcılığında sənətkarlıq xüsusiyyətləri", "Bədii ədəbiyyatda tipiklik", "Bədii ədəbiyyatın əsas predmeti" və s. dərslik və monoqrafiyaların müəllifidir.

Professor Cəfər Xəndan Hacıyev zeynal oğlu 1961-ci il avqustun 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Ümumxalq məhəbbəti qazanmış professor Cəfər Xəndan əbədiyaşar tarixi şəxsiyyətdir.

Professor Cəfər Xəndanın böyük oğlu Akif Xəndan fizika-riyaziyyat elmləri doktoru, AMEA müxbir üzvüdür. Şair Rəfiq Zəka Xəndan əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor olmuş, dünyasını dəyişmişdir. Namik Xəndan texnika elmləri doktoru, professordur. Dövlət mükafatı laureatıdır. Adil Xəndan filologiya elmləri doktoru, professordur, Bakı Dövlət Universitetində rus ədəbiyyatı tarixi kafedrasının müdiridir.

Akademik Cəfər Xəndanın zəngin mənəviyyatlı, ömür-gün yoldaşı Məhbubə xanım yüksək mədəniyyətli mahir tərbiyəçi anadır. Professor Cəfər Xəndanın şərəfli ömür salnaməsi zəngin təlim-tərbiyə xəzinəsidir.

Azərbaycan ədəbiyyatı, mədəniyyəti, təhsili, maarifi, pedaqoji fikir tarixi sahəsində şərəfli fəaliyyət göstərən zəngin ədəbi irs yaradan professor Cəfər Xəndan Hacıyev ümumxalq məhəbbəti qazanmış əbədiyaşar mütəfəkkirdir.

## HÜSEYN ƏHMƏDOV MUSTAFA OĞLU
## (1926)

Azərbaycanda pedaqoji elmin inkişafında böyük xidmətləri olan görkəmli alim-pedaqoq, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının əli məktəb işçisi, SSRİ-nin və Azərbaycanın maarif əlaçısı, pedaqoji elmlər doktoru, professor Hüseyn Mustafa oğlu Əhmədov bütün qüvvə və bacarığını Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin hərtərəfli tədqiqi və təbliğinə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına həsr edir.

O, ibtidai məktəb müəllimliyindən akademikliyə kimi mənalı və şərəfli həyat yolu keçmiş, qəlbinin odunu və hərarətini, ömrünün qaynar və coşğun illərini millətin gələcəyi olan gəncliyin tərbiyəsinə həsr etmiş, fundamental elmi əsərlər yazmış, proqram və dərsliklər hazırlamışdır.

Hüseyn Əhməd Mustafa oğlu 1926-cı il iyulun 17-də Qərbi Azərbaycanın Göyçə mahalındakı Cəmbərək (Krasnaselo) rayonun Toxluca kəndində anadan olmuşdur. Onun uşaqlıq və gənclik illəri Göyçə mahalının bu dilbər guşəsində keçmiş, müdrik bir gənc kimi böyümüşdür.

Hüseynin atası Mustafa kişi 1941-ci ildə İrəvan yaxınlığında səngər qazarkən cəbhədə həlak olmuşdur. Onun iki oğlu da 1948-ci ildə cəbhəyə göndərilmişdir.

Hüseyn Əhmədov Toxluca kəndində ibtidai məktəbi, Kənəkir rayonunun Göykilsə kəndində 1939-cu ildə yeddinci, Kənkan kəndində 1940-cı ildə səkkizinci sinfi qurtarmışdır.

Hüseyn Əhmədov anasının himayəsində yaşamış, 1943-cü ildə ailəvi Kənəkir (Abovyan) rayonundan öz kəndlərinə köçmüşdür. Hüseyn Toxulca kəndində doqquzuncu sinfi bitirmişdir.

Hüseyn Əhmədov 1943-1946-cı illərdə Toxulca kənd orta məktəbində ibtidai sinif müəllimi işlənmişdir. 1946-cı ildə "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.

Hüseynov Əhmədov 1947-ci ildə Gəncə pedaqoji texnikumunu fərqlənmə diplomu ilə bitirmiş və həmin ildə Gəncə Dövlət Universitetinin tarix fakültəsinə qəbul olmuşdur. Tələbəlik



illərində əlaçı oxumuş, fərdi təqaüd olmuş və 1951-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirib lobarant vəzifəsində saxlanılmışdır.

Hüseyn Əhmədov 1952-ci ildə Bakıda Azərbaycan Dövlət Pedaqoji Universitetində aspiranturaya qəbul olmuş və 1955-ci ildə bitirmişdir. 1958-ci ildə prof. Əhməd Seyidovun elmi rəhbərliyi ilə "İbtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunəvi rolu və ondan istifadə etmək yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, pedaqoji elmləri namizədi alimlik dərəcəsi almışdır. O, 1960-cı ildə dosent elmi rütbəsinə layiq görülmüşdür.

Dos. Hüseyn Əhmədov Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs deməklə kifayətlənməmiş, həm də elmi-tədqiqat işi üzərində səmərəli işləmiş və doktorluq dissertasiyası yazmışdır.

Dos. Hüseyn Əhmədov akademik Mehdi Mehdizadənin rəhbərliyi altında "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişafı tarixi" mövzusunda 1973-cü ildə doktorluq dissertasiyası müdafiə edib, pedaqoji elmləri doktoru alimlik dərəcəsi almışdır. 1977-ci ildə ona professor elmi rütbəsi verilmişdir.

Prof. Hüseyn Əhmədov Azərbaycan Dövlət Pedaqoji Universitetinin 1978-ci ildə pedaqogika kafedrasının müdiri vəzifəsinə seçilmişdir. O, indiyə kimi həmin kafedranın müdiri vəzifəsində səmərəli çalışır və kollektivin hörmətini qazanır.

Prof. Hüseyn Əhmədov 1978-ci ildən Azərbaycan Pedaqoji Cəmiyyətinin üzvüdür. 1981-ci ildə "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmiş, "Qızıl döş nişanı" ilə mükafatlandırılmışdır.

Prof. Hüseyn Əhmədov 1981-ci ildə "Əməkdar ali məktəb işçisi" fəxri adı almış və 1981-ci ildə "Fəal işinə görə" döş nişanı ilə təltif edilmişdir. O, bir neçə dəfə Fəxri Fərmanla mükafatlandırılmışdır.

Prof. Hüseyn Əhmədov 1990-cı ildə Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, 1993-cü ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının və Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir.

Akademik Hüseyn Əhmədov "İbtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunəvi rolu və ondan istifadə etmək yolları" (1958), "Uşaqların tərbiyəsində valideynin şəxsi nümunəsi" (1962), "Nəriman Nərimanovun maarifçilik fəaliyyəti və

pedaqoji fikirləri" (1971), "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" (1977), "N.Nərimanovun pedaqoji fikirləri" (1979), "100 yaşlı Yuxarı Salahlı kənd məktəbi" (1978), "150 yaşlı Şəki məktəbi" (1983), "XIX əsr Azərbaycan məktəbi" (1985), "XIX əsr Azərbaycanda məktəb dərsliklərinin adı, dili və məzmununa dair" (1996), "XIX əsr Azərbaycan məktəbi" (2000), "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" (2001), "100 yaşlı Qarabazar məktəbi" (1983), "Qocaman maarif ocaqlarımız" (1984), "Şəkidə ilk dünyəvi təhsil məktəbi" (1982), "Salyanda ilk məktəb" (1969), "Qutqaşen məktəbinin 90 yaşı var" (1972), "Dağkəsəmən məktəbinin yaşı yüzdür" (1976), "Yeksavad məktəblərindən biri" (1982), "Lənkəranda ilk dünyəvi təhsil məktəbi" (1982), "Yüz yaşlı Bəndam məktəbi" (1984), "qubadlıda yüz yaşlı məktəb" (1984) və s. dərsliklər, dərs vəsaitləri və tədqiqat əsərləri yazıb çap etdirmişdir.

Pedaqogika tarixi sahəsində H.M.Əhmədovun tədqiqat dairəsi xeyli geniş olmuşdur. O, Azərbaycan pedaqoji fikir klassiklərinin, maarifçilərinin, məktəbdarlarının, ilk növbədə N.Tusi, A.A. Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, H.M.Zərdabi, S.Ə.Şirvani, S.M.Qənizadə, A.O.Çernyayevski, M.Ə.Elxanov, N.Nərimanov, Ü.Hacıbəyov, R.Əfəndiyev, Ə.Y.Seyidov və başqalarının pedaqoji fəaliyyətlərini tədqiq etmiş, onların xalq maarifi, məktəb təhsili, təlim-tərbiyə ilə bağlı fikirlərini aşkarlamış və elmi-nəzəri şərhini vermişdir.

Akademik Hüseyn Əhmədov Mustafa oğlu dərin düşüncəli, parlaq zəkalı, məsuliyyətli, tədqiatçı, nüfuzlu, hörmətli, sədaqətli, qayğıkeş, bacarıqlı, prinsipial alimdir, Vətən və xalq sevgili, nəcib, alicənab, gözəl insandır, əbədiyaşar mahir pedaqoqdur.



## ŞƏMİSTAN MİKAYILOV ABDI OĞLU
## (1929)

Borçalı mahalı qədim tarixə malik sazlı-sözlü, uca dağların romantik qoynunda yerləşən buz bulaqlı, axar çaylı, alyaşıl meşəli, təmiz havalı, gözəlliklər diyarı, Azərbaycanın cənnət guşələrindən biridir.

Ulu Borçalı mahalı xeyirxah insanları, elm-mədəniyyət xadimləri, qəhrəmanları ilə ümumxalq məhəbbəti qazanmışdır. Borçalının müqəddəs abidələri, sənət inciləri tarixi xəzinə və ömür salnaməsidir.

Ulu öndərimiz Heydər Əliyev 1998-ci il 19 dekabrda demişdir ki, Borçalı azərbaycanlılar diyarıdırö Borçalı həmişə bizim qəlbimizdə olubdur. Azərbaycana rəhbərlik etdiyim illərdə Borçalı diyarına qayğı və xidmət göstərmişəm. Gürcüstanla Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri möhkəmdir. Borçalının elm və mədəniyyət xadimləri, şair və yazıçıları Vətənə, xalqa, torpağa dərin sevgi və məhəbbət bəsləyirlər.[1]

Ümummilli liderimiz Heydər Əliyevin bu müdrik kəlamlarını professor Şəmistan Mikayılovun şərəfli fəaliyyətinə şamil etmək lazımdır. Ona görə ki, professor Şəmistan Mikayılov mənalı ömrünü gənc nəslin təlim-tərbiyəsinə, pedaqoji fikrin inkişafına həsr edən, Vətəni və xalqı sevən, vətənpərvər, əməksevər, qayıfkeş və mahir pedaqoqdur.

Onun gənc elmi mütəxəssislər yetişdirmək sahəsində fəaliyyəti şərəflidir. Ona görə ki, professor Şəmistan Mikayılov bütün varlığı ilə Vətənə və xalqa bağlı gözəl insandır.

Dünya şöhrətli professor Əliyar Qarabağlı iftixarla demişdir: "Borçalı güvənc yeri, qeyrət qalası, elm-mədəniyyət, saz-söz xəzinəsi, xeyirxahlıq, xoşbəxtlik diyarı, maddi və əməyi sevən, dar günün gərəyi, elin-obanın köməyi olan qayğıkeş insanların Vətənidir".

Görkəmli alim-şair Əflatun Saraclı yazır:

Odlar diyarından olmayıb uzaq,
Qafqazın qoynunda dürdü Borçalı!

---

[1] Heydər Əliyev. Mədəni irsimizin keşiyində, birinci kitab. Bakı, 2001, s. 282.

Bir yanda Göyçədir, bir yanda Qazax
Bir yanda Tiflisdi, Kürdü Borçalı!

Borçalı mahalının Faxralı kəndi uca dağların ətəyində yerləşən gözəllik diyarı, görkəmli elm-maarif xadimlərinin ana yurdudur. Bu kəndin romantik təbiəti kimi insanları da gözəldir, xeyirxahdır, qədir biləndir.

Faxralı kəndindən Fatma Alı qızı, Polad (XVIII), Güllər Pəri, Güllər İsmayıl, Kərbəlayi Molla Alı (XIX), Misgin Nəbi, Şahla Alməmmədli, ·Kərbəlayi İbrahim, Bayram Sarvan(XX) və başqa görkəmli şairlər yetişmiş, el sənətkarları kimi ümumxalq məhəbbəti qazanmışlar.

Adları çəkilən el şairləri müxtəlif yüzilliklərdə yaşasalar da, xalqın azadlığı və xoşbəxtliyi uğrunda arzu və istəklərini tərənnüm etmiş, dillərdə əzbər yaşayan ölməz poetik əsərlər yaratmışlar.

Deməli, Faxralı kəndi həm də şairlər Vətəni və poeziya mənbəyi, ilham xəzinəsidir.

Mərhum professor Şamil Qurbanov və professor Şəmistan Mikayılov bu müqəddəs torpağın, tarixi abidələri ziyarətgaha çevrilmiş Faxralı kəndinin övladlarıdır.

Ulu Borçalı mahalı İsmayıl Mursaqulov, Vəfadar Eminov, İlqar Əhmədov, Cəmil Səfərov, Ələsgər Qayıb, Yusif Şirinov, Yusif Tapdıq, Yusifov Nəsib, Əliyev Tengiz, Əhmədov Arif kimi insanlığın zirvəsinə yüksəlmiş, əbədiyaşar şəhidlərin doğma ana torpağıdır. Borçalı öz dünyası, gözəlliyi zənginliyi olan müqəddəs ziyarətgah, cənnət guşəsidir.

Professor Şəmistan Mikayılov bu müqəddəs cənnət guşəsinin Vətən və xalq sevgili müdrik övladıdır.

Görkəmli elm və mədəniyyət xadimi, zəngin mənəviyyatlı gözəl insan, mahir pedaqoq, istedadlı tədqiatçı Şəmistan Mikayılov Abdı oğlu 1929-cu il oktyabrın 20-də Faxralı kəndində anadan olmuşdur.

Onun uşaqlıq illəri Borçalının romantik qoynunda keçmişdir. Abdı kişi yeddi oğul, bir qız atası olmuşdur. Xeyirxah, qayğıkeş və tələbkar Abdı kişi övladlarını gözəl tərbiyə etmiş, onların ali təhsil almalarına, xoşbəxt həyat quriaqlarına, Vətənə və xalqa şərəfli xidmət etməklərinə nail olmuşdur.



Şəmistan Mikayılov 1945-ci ildə Faxralı kənd orta məktəbinin onuncu sinfini bitirib, Marneuli pedaqoji texnikumunun son kursuna qəbul olur və 1947-ci ildə uğurla qurtarır.

Bir il Faxralı kəndində müəllim işləyir. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsinə qəbul olur.

Şəmistan Mikayılov tələbəlik illərində hörmətli müəllimləri H.Araslı, M.Arif, M.Cəfər, C.Xəndan, M.Cəlal, Ə.Sultanlı, Ə.Qarabağlı və başqalarının hörmətini qazanır. Universitetin tədbirlərində fəal iştirak edir, həmişə mükafatlandırılır.

Şəmistan Mikayılov 1953-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirir, həmin ildə Bolnisi rayonunun Faxralı kəndində pedaqoji fəaliyyətə başlayır. Şəmistan Mikayılov tələbəlik illərində universitetin tələbəsi Validə xanımla evlənir və Faxralıda ikisi də 1958-ci ilə kimi müəllim işləyir. 1958-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasına qəbul olunur.

Prof. Əliyar Qarabağlının elmi rəhbərliyi altında "IV-VIII siniflərdə ədəbiyyat nəzəriyyəsi anlayışının öyrədilməsi" mövzusunda 1963-cü ildə namizədlik dissertasiyası müdafiə edib pedaqoji elmləri namizədi alimlik dərəcəsi alır.

Şəmistan Mikayılov 1974-cü ildə "Azərbaycan orta ümumtəhsil məktəblərində ədəbiyyat nəzəriyyəsi tədrisinin elmi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1978-ci ildə professor rütbəsinə laiyq görülür.

Prof. Şəmistan Mikayılov Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda pedaqoji fəaliyyətini davam etdirir, ədəbiyyat tədrisi metodikası şöbəsinin müdiri, 1995-ci ildən 2004-cü ilə kimi direktor vəzifəsində işləyir. Prof. Şəmistan Mikayılov indi Təhsilin Problemləri İnstitutunda şöbə müdiri vəzifəsində şərəflə çalışır.

Prof. Şəmistan Mikayılov Abdı oğlu iyirmi elmlər namizədi yetişdirmiş, dörd nəfərin doktorluq disserasiyasına rəhbərlik etmişdir. Prof. Şəmistan Mikayılov iyirmi kitabın, jurnal məqaləsinin, on dərsliyin və dərs vəsaitinin müəllifidir. O, on proqram hazırlamış, üç yüzdən artıq qəzet və jurnallarda elmi-nəzəri və pedaqoji-metodik məqalələr dərc etdirmişdir.

Prof. Şəmistan Mikayılov xeyirxah alim, təhsil fədaisi, nəcib təbiətli, zəngin zəkalı, mahir tədqiqatçı, ömrün zirvəsinə yüksələn elm xadimi kimi dərin hörmət qazanmışdır.

Prof. Şəmistan Mikayılovun rəhbərliyi altında iki cildlik "Orta məktəbdə ədəbiyyat tədrisi" kitabı nəşr olunmuşdur. Onun IV, V, VIII siniflər üçün "Ədəbiyyat" dərslikləri, IX, XI siniflər üçün "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi dövri mətbuatda yüksək qiymətləndirilmişdir.

Prof. Şəmistan Mikayılov "Nizami Gəncəvinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələləri" kitabını hazırlamış və müəllimlərin mütaliəsinə vermişdir. O, Səid Rza Əlizadəni Azərbaycan elmi-pedaqoji ictimaiyyətinə tanıtmış, fundamental tədqiqat əsəri yazmışdır. Onun pedaqogika nəzəriyyəsi və tarixi üzrə qiymətli tədqiqat əsərləri oxucuların hörmətini qazanmışdır.

Görkəmli elm və dövlət xadimi professor Zahid Qaralov yazır: "Şəmistan Mikayılovun Azərbaycanın ən ağır günlərində keçirdiyi xətti-hərəkət çox yüksək dəyərə malikdir. 1988-1992-ci illərdə ağıllı ziyalılar Azərbaycanın dağıntılardan qurtuluş yolunu böyük ictimai xadim Heydər Əliyevdə gördülər. Heydər Əliyevə yazılmış müraciəti imzalayan məşhur "91-lər"dən biri də Şəmistan Mikayılov Abdı oğludur".

Professor Şəmistan Mikayılovun mərhum ömür-gün yoldaşı Validə xanım Bakının qazisi, Quranın ilk mütərcimi, Mir Məhəmməd Kərim Cəfərzadənin qız nəvəsi idi. Validə xanım jurnalistika fakültəsini bitirmişdi. Professor Şəmistan Mikayılov Mahir və Arifin atasıdır, dörd nəvəsi var. Oğlanlarının xoşbəxt ailəsi Şəmistan müəllimin varlığını zənginləşdirir, onun səmərəli tədqiqat aparmaq və gənc kadrlar yetişdirmək istedadına qol-qanad verir, mənalı ömrünü parlaq uğurlu zirvələrə yüksəldir.

Professor Şəmistan Mikayılovun başı ağarmışdır, sanki uca dağlara qar yağmışdır. Xalq şairi Səməd Vurğun gözəl demişdir:

Baş ağardı amma ürək,
Alovludur əvvəlki tək!

Şəmistan müəllim sağlam əqidəli sağlam mənəvi keyfiyyətləri, parlaq düşüncəli, dərin zəkalı, nikbin, xeirxah, təvazökar, səmimi, qayğıkeş, tələbkar, zəngin mənəviyyatlı gözəl insan, mahir pedaqoq, istedadlı tədqiqatçı, müdrik elm xadimi, vətənpərvər, humanist və tarixi şəxsiyyətdir.



## YƏHYA KƏRİMOV ŞƏFİ OĞLU (1927)

Azərbaycan Respublikasının Əməkdar Müəllimi, Beynəlxalq Pedaqoji Akademiyasının həqiqi üzvü, professor Yəhya Kərimov Şəfi oğlu mənalı ömrünü Azərbaycan pedaqogikası və pedaqoji fikrinin inkişafına sərf etmiş, ümumxalq məhəbbəti qazanmış alimdir.

Akademik M.Mehdizadə yazır: "Yəhya Şəfi oğlu Kərimov xalq maarifi, ibtidai məktəbin praktik üçillik ibtidai həyatı ilə bağlı olan məhsuldar alimdir. O, respublikamızda üçillik ibtidai təlimin həyata keçirilməsinə, yeni proqram və dərsliklərin tətbiqinə bilavasitə rəhbərlik etmiş, işə elmi istiqamət vermişdir. Yəhya Kərimov elmi sessiyalarda, konfranslarda məzunlu və maraqlı çıxışları ilə, ibtidai təlim metodikasının yaradılması sahəsində əziyyətli əməyi ilə müəllimlərin dərin ehtiramını qazanmışdır".

Yəhya Kərimov Şəfi oğlu 1927-ci ildə Şəki rayonunun İlisu kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illərini təbiətin bu cənnət güşəsində keçirmişdir.

Bənna Şəfi Yəhya oğlu və qadını xanım Rəcəb qızı oğlanları Cabir, Nizami, Adil, Nadir, Yəhya və Nərimanı yüksək əxlaqi keyfiyyətlər ruhunda tərbiyə etmiş, vətənpərvər və əməksevər gənclər kimi yetişdirmişdir.Yəhya Kərimov 1934-cü ildə Qax Muğal orta məktəbin birinci sinfinə qəbul olmuş, 1944-cü ildə orta məktəbi uğurla bitirmişdir. Həmin il Azərbaycan Dövlət Sənaye İnstitutunun neft sənayesi fakültəsinə qəbul olmuş, lakin ailə vəziyyətinə görə təhsilini dayandırmışdır. Onun atası 1941-ci ildə könüllü olaraq hərbi xidmətə getmişdir. Ona görə də məktəblərdə pioner dəstə rəhbəri işləmişdir.

Yəhya Kərimov 1946-cı ildə Bakı Dövlər Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsinə qəbul olub, 1950-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. O, Quba Dövlət Müəllimlər İnstitutuna baş müəllim təyin edilmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmağa başlamışdır. Yəhya Kərimov pedaqoji fəaliyyətini Qax və Gəncə ali məktəblərində davam etdirmiş, həmişə hörmət qazanmışdır.

Yəhya Kərimov 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aspiranturasına qəbul olmuş, prof. Əzəl Dəmir-

çizadənin elmi rəhbərliyi altında "İbtidai sinif şagirdlərinin nitqindəki yerli şivə xüsusiyyətləri və onların aradan qaldırılması yolları" mövzusunda namizədlik dissertasiyasını 1962-ci ildə müdafiə edib pedaqoji elmləri namizədi alimlik dərəcəsi almış və 1965-ci ildə dosent elmi rütbəsinə layiq görülmüşdür.

Dos. Yəhya Kərimov 1975-ci ildə Bakı Dövlət Universitetində "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, pedaqoji elmləri doktoru elmi dərəcəsi almışdır. Dos. Yəhya Kərimov va 1986-cı ildə professor elmi adı verilmişdir.

Professor Yəhya Kərimov "İlk addımlar", "Qönçə", "Əlifba", "Oxu", "Azərbaycan dili", "Ana dili" və s.dərsliklərin müəllifidir. Mərhum professor Bəşir Əhmədov yazır: "Professor Yəhya Kərimov yüz qırx beş kitab və kitabça, iki yüz əllidən artıq jurnal, beş yüzdən artıq qəzet məqaləsinin müəllifidir».

Prof. Yahya Kərimovun şərəfli əməyi yüksək qiymətləndirilmişdir. Yəhya müəllim Azərbaycan maarif xadimi (1967), SSRİ maarif əlaçısı (1974), Əmək veteranı (1984), Fədakar əməyə görə xatirə medalı (1970), Qırmızı Əmək bayRağı Ordeni (1971), Ali Sovetin Fəxri Fərmanı (1981), Əməkdar müəllim (1990), "Şöhrət"ordeni ilə təltif olunub mükafatlandırılmışdır.

Prof. Yəhya Kərimov zəngin mənəviyyatlı ömür-gün yoldaşı Şüfə xanımla övladları Sevinc, Emeliya, Elçin, Vaqif və Elşadı ümummilli liderimiz Heydər Əliyevin zəngin azərbaycançılıq ideyası əsasında tərbiyə etmiş, ali təhsil almaqlarına və xoşbəxt həyat qurmaqlarına nail olmuşdur. Vətənpərvər, humanist, əməksevər və müdrik övladlar Vətənə və xalqa şərəfli xidmət edir, valideynlərinə ümumxalq məhəbbəti qazandırırlar.

Prof. Yəhya Kərimov elmi rəhbərliyi ilə dörd elmlər doktoru, iyirmi beş elmlər namizədi yetişdirmişdir. Prof. Yəhya Kərimov Təhsil Problemləri İnstitutunda şərəfli pedaqoji fəaliyyətini səmərəli davam etdirir və parlaq uğurlar qazanır.

Azərbaycan maarif xadimi, maarif əlaçısı, əmək veteranı, əməkdar müəllim, professor Yəhya Kərimovun anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 60 illik yubleyinə həsr olunmuş ikicildlik «Necə varsa» adlı xatirələr kitabı (2007) və ikicildlik «Seçilmiş əsərləri» (2007) çap olunub oxuculara ərməğan verilmiş akademik Yəhya Kərimova dərin hörmət qazandırmışdır



## ABEL MƏHƏRRƏMOV
## (1950)

Abel Məhərrəmov Məmmədəli oğlu görkəmli elm, mədəniyyət, incəsənət, ictimai-siyasi dövlət xadimi, humanist, vətənpərvər, dahi şəxsiyyətdir.

Abel Məhərrəmov Məmmədəli oğlu 1950-ci il yanvarın 5-də Ağdam rayonunda müəllim ailəsində anadan olmuşdur. Abel Məhərrəmovun uşaqlıq və gənclik illəri Qərbi Azərbaycanın dilbər guşəsi olan Amasiya mahalının romantik qoynunda keçmişdir. O, vətənpərvər, əməksevər, qayğıkeş və tələbkar bir gənc kimi böyümüşdür. Qərbi Azərbaycanın cənnət guşəsi Dərəçiçək mahalı Abel Məhərrəmovun dünyagörüşünün, mənəvi aləminin zənginləşməsində misilsiz təsir göstərmiş, onun parlaq zəkasını, dilini və biliyini zənginləşdirmişdir.

Abel Məhərrəmov Amasiya rayonunun Gülbulaq kənd orta məktəbini 1966-cı ildə qızıl medalla bitirmişdir. Abel Məhərrəmov 1966-cı ildə Bakı Dövlət Universitetinin kimya fakültəsinə qəbul olmuşdur.

Tələbəlik illərində universitetin elmi-mədəni tədbirlərində, səmərəli iştirak etmiş, Moskva, Kiyev, Daşkənd, Tiflis və başqa şəhərlərdə təşkil olunmuş tələbə elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrinin mətnləri "Elmi əsərlər"də dərc olunmuş, əlaçı oxumuş, fərdi təqaüd alnış, universitetin kimya fakültəsini 1971-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Təhsil Nazirinin təyinatı ilə Abel Məhər-rəmov Ümumittifaq Elmi-Tədqiqat Dərmanlar İnstitutuna göndərilmişdir. O, bu institutda elmi-tədqiqat işi ilə ciddi məşğul olmuş, mətbuatda çıxış etməyə, tədqiqatlarının nəticəsini dərc etdirməyə başlamış, uğurlar qazanmışdır.

Abel Məhərrəmov 1973-cü ildə üzvü kimya ixtisası üzrə M.V.Lermantov adına Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olur. Aspiranturada Y.S.Zefirovun elmi rəhbərliyi ilə qoşqat rabitələrə birləşmə reaksiyalarında sulfenil xloridlərin elektrofilliyinin artırılmasının yeni metodu" mövzusunda 1976-cı ildə namizədlik dissertasiyasə müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi alır. O, 1978-ci ildə dosent rütbəsinə layiq görülür. Dos. Abel Məhərrəmov 1980-1984-cü illərdə Bakı Dövlət Universitetində tədris hissəsinin müdiri vəzifəsində işləyir. 1984-cü

ildə kimya fakültəsinin dekanı seçilən dos. Abel Məhərrəmov 1999-cu ilə kimi bu məsuliyyətli vəzifədə çox səmərəli işləyir, pedaqoji kollektivin ehtimadını doğruldur. Dos. Abel Məhərrəmov prinsipial, ardıcıl, qabaqcıl, qayğıkeş, tələbkar, səmimi, məqsədyönlü fəaliyyəti tələbələrə, valideynlərə və pedaqoji kollektivə gözəl təsir bağışlayır, ona dərin hörmət qazandırır.

Ümummilli liderimiz Heydər Əliyevin 1999-cu il 11 yanvar tarixli sərəncamı ilə Abel Məhərrəmov Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin edilir. Onun rektor vəzifəsinə təyin edilməsi kollektivi sevindirmişdir.

Müasir dövrümüzdə dörd min tələbənin təhsil aldığı Bakı Dövlət Universitetinin "Qurucu rektor" adlandırılan rektoru Abel Məhərrəmov yeni tədris binası, yeni idman kompleksi, beş yüz əməkdaş üçün iki müasir yaşayış kompleksi istifadəyə vermiş, universitetin bütün auditoriyalarını müasir üslubda təmir etdirmiş, universiteti cənnətə çevirmişdir.

Müstəqillik qazanmış respublikamızın müasir elmi-texniki tərəqqi dövründə yüksək ixtisası olan kadrlara böyük ehtiyacı var. Buna görə də Abel Məhərrəmov universitetin dünya elminə inteqrasiyası üçün bütün imkanlarından səmərəli istifadə edir, yüksək uğurlar qazanmaq üçün çox ciddi çalışır.

Abel Məhərrəmovun fəaliyyətilə universitetin elmi kitabxanası kompüterləşdirilmiş, elektron kataloq sistemi yaradılmış, universitetin nəşriyyatı yenidən qurulmuş, Abel Məhərrəmovun "Nüvə maqnit rezonansı spektruskopiyasında müasir metodlar" adlı dərsliyi çap olunub tələbələrə ərməğan verilmişdir.

Dos. Abel Məhərrəmov 1991-ci ildə "Alkenlərin üçüzvlü karbo və heterotsiklik birləşmələrin elektrofil reaksiyaları əsasında yeni sintetik yanaşmalar" mövzusunda doktorluq dissertasiyası müdafiə edib kimya elmləri doktoru adı almış və ona üzvü kimya ixtisası üzrə professor elmi rütbəsi verilmişdir.

Professor Abel Məhərrəmovun çox şaxəli elmi-tədqiqat işlərinin nəticələri səkkiz yüz yeddi elmi əsərdə, o cümlədən qırx beş monoqrafiyada, qırx altı dərslik və dərs vəsaitində öz əksini tapşırmışdır.

Prof. Abel Məhərrəmov Azərbaycan dilində ilk dəfə nəşr olunmuş "Kiçik kimya ensiklopediyası"nın həmmüəlliflərindən biridir.



Prof. Abel Məhərrəmovun rəhbərliyi altında otuz nəfər kimya elmləri doktoru və namizədi hazırlanmışdır. Ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 aprel 2007-ci il tarixli sərəncamı ilə "Xüsusi istedada malik olan şagirdlərin (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqram (2006-2010)qəbul edilmişdir.

Prof. Abel Məhərrəmovun təşəbbüsü ilə proqrama uyğun olaraq Respublika Təhsil Nazirliyinin 08.06.2007-ci il tarixli, 708 saylı əmri ilə 2007-ci ildən Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyi fəaliyyət göstərir. İndi liseydə 430 nəfər şagird təhsil alır.

Bu liseyin şagirdləri idman yarışlarında, olimpiadalarda fəal iştirak edirlər. 2009-cu ildə bu liseyin ilk məzunlarının hamısı ali məktəblərə qəbul olunmuşlar. Həmin tələbələrdən biri Prezident təqaüdünə layiq görülmüşdür.

Prof. Abel Məhərrəmov Bakı Dövlət Universitetində doktorluq və namizədlik Dissertasiya Şurasının sədri vəzifəsində şərəflə işləyir. Elm sahəsində göstərdiyi xidmətlərinə görə 2000-ci ildə Abel Məhərrəmova "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. O, 2000-ci ildə Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının «Qızıl medal»ına layiq görülmüşdür.

Prof. Abel Məhərrəmov 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Abel Məhərrəmov 2004-cü ildə Rumıniya Respublikasının Ali dərəcəli «Komandor» ordeni ilə təltif edilmişdir. Ona 2008-ci ildə Ruminiya Respublikasının Ovidius Universitetinin "Fəxri doktoru" adı verilmişdir. O, 2009-cu ilin 30 oktyabrında "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Akademik Abel Məhərrəmov 2005-ci ildə Azərbaycanın Milli Məclisinə millət vəkili seçilmişdir.

"Elmin vətəni yoxdur, vətənin isə elmə ehtiyacı çoxdur" müqəddəs kəlamının müəllifi akademik Abel Məhərrəmov istedadlı alimdir, təhsilin əməkdar təşkilatçısıdır, işgüzar və əməksevər elm xadimidir, sadə, səmimi, diqqətli, qayğıkeş, tələbkar, gözəl insan, müdrik tarixi şəxsiyyət, görkəmli kimyaçı-alim, elm və təhsil təşkilatçısı, vətənpərvər, əməksevər, dahi mütəfəkkirdir.

Akademik Abel Məhərrəmov Vətənə, xalqa, təhsilə, gənc nəslin təlim-tərbiyəsinə şərəfli sevgi və məhəbbətinə görə ümumxalq məhəbbəti qazanır və qazanacaqdır.

Akademik Abel Məhərrəmov mənalı ömrünü gənc nəslin təlim-tərbiyəsinə, bədii-estetik zövqünə və yüksək əxlaqi keyfiyyətlərinin inkişafına həsr edən, şərəfli xidmətlər göstərən mahir pedaqoq, dahi tarixi şəxsiyyət, parlaq əqidəli əbədiyaşar alimdir.



# VIII BÖLMƏ

## ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN VƏ PREZİDENTİMİZ İLHAM ƏLİYEVİN TƏHSİLİN İNKİŞAFINA QAYĞISI.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN PREZİDENT APARATİINDA KEÇİRİLƏN BAKI ŞƏHƏRİNİN TƏHSİL İŞÇİLƏRİ İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞI

**(31 avqust 1994-cü il)**

-Hörmətli Müəllimlər, maarif işçiləri, görüş iştirakçıları!

Sentyabr ayının 1-də yeni dərs ili başlanır. Bu respublikamızın həyatında mühüm, əlamətdar hadisədir. Dərs ilinin başlanması hər il böyük bayrama çevrilir. Çünki yay tətilindən sonra məktəblərimiz, müəllimlərimiz fəaliyyətə başlayır, uşaqlarımız, gənclərimiz tədris ocaqlarına gəlir, təhsillərini davam etdirirlər.

Hər il sentyabr ayında uşaqlar, yeniyetmələr, təhsil yaşı çatmış uşaqlar məktəblərə gəlir, təhsil almağa başlayırlar. Bu hadisə respublikamızın bütün vətəndaşları üçün mühümdür, əhəmiyyətlidir. Çünki demək olar ki, hər il ailədən kimsə məktəbdə oxuyur. Ona görə də həmişə olduğu kimi kiçmiş ənənələrimizə sadiq qalaraq bu il də tədris ilinin başlanması münasibətilə lazımi tədbirlər görülüb.

Yeni dərs ilinin başlanması ilə əlaqədar mən çoxminli müəllimlər ordusunun nümayəndələri ilə görüşməyi zəruri hesab etmişəm. Hamınızı, sizin simanızda müstəqil Azərbaycan Respublikasının müəllimlərini, maarif, təhsil işçilərini səmimi qəlbdən təbrik edirəm, sizə bu şərəfli işinizdə uğurlar arzulayıram."

Görüşdə çıxış edənlər yeni dərs ili ərəfəsində Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin təşəbbüsü ilə keçirilən bu tədbiri yüksək qiymətləndirərək minnərdarlıq hissi ilə bildirdilər ki, ölkədəki bir sıra ciddi çətinliklərə baxmayaraq, prezident təhsilin problemlərinə həmişə böyük diqqət yetirir və təsadüfi deyil ki, qısa müddətdə bu məsələ ilə əlaqədar iki müşavirə keçirilmişdir. Natiqlər respublikanın bütün pedaqoji kollektivləri adından bu qayğıya və diqqətə görə Heydər Əliyevə dərin təşəkkürlərini bildirirlər.

70-ci illərdə respublikada həyatın bütün sahələri kimi, təhsil sisteminin də yüksəlişini razılıq hissi ilə xatırlayan natiqlər ötən 5-6

il ərzində təhsilin deformasiyaya uğramasından, bütövlükdə sahənin aşağı düşməsindəm narahatlıqla danışdılar.

Görüşdə qeyd edildi ki, Azərbaycan Respublikası prezidentinin fərmanı ilə 1993-cü ilin sentyabr ayında Təhsil Nazirliyi təhsil sistemində vahid dövlət siyasətinin həyata keçirilməsi istiqamətində müəyyən addımlar atmışdır. Natiqlərin fikrincə, təhsil sistemində dərin islahatlar aparılması və təhsil qanununun tam qüvvə ilə işlənməsi üçün onun tədbiqi mexanizmi yaradılmalıdır. Qanuna müvafiq olaraq təhsilin inkişafına dair proqramının hazırlanmasına ehtiyac vardır.

Məlumat verildi ki, Təhsil Nazirliyi bu il ibtidai siniflər və 5-11-ci siniflər üçün humanitar profilli fənlər üzrə proqramı və dərsliklər hazırlanmasına diqqəti artırmışdır. Yeni dərs ili üçün nəşri planlaşdırılmış 73 dərslikdən 59-u çap olunmuş və ticarət təşkilatlarına, təhsil şöbələrinə təhvil verilmişdir. Qalan dərsliklər hazırda çap prosesindədir. Bu il ümumi tirajı 50 min nüsxədən çox olan 12 adda ümumtəhsil proqramları nəşr edilib yerlərə çatdırılmışdır. Azsaylı xalqların dillərində də proqram və dərsliklər nəşr edilmiş. Beş dildə "Əlifba çapa təqdim olunmuşdur. Hesablaşmalara görə bu il şagirdlərin 80 faizi yeni dərsliklərlə təmin ediləcəkdir. Lakin nəşriyyat-poliqrafiya sahəsindəki təchizat çətinlikləri və ticarət təşkilatlarının öz işini lazımi səviyyədə qurmaması bir sıra əngəllər yaradır. Bir çox natiqlər 1995/96-cı dərs ilində ibtidai sinfin şagirdlərinə dərsliklərin pulsuz verilməsinin, 5-11-ci siniflər üçün dərsliklərin isə yerli təhsil şöbələrinin xətti ilə bilavasitə məktəblərdə satılmasının faydalı addım olacağını bildirdilər.

Çıxış edənlər dərsliklərin nəşri sahəsindəki ciddi problemlərin həllinə dövlət səviyyəsində kömək göstərilməsi, şəhid ailələrinin, qaçqınların, aztəminatlı ailələrin və qonşu ölkələrdə yaşayan soydaşlarımızın uşaqlarına dərslik almaq üçün vəsait ayrılması, pedaqoji mətbuatın dövlət büdcəsindən maliyyələşdirilməsi barədə təkliflər irəli sürdülər. Respublikadakı rusdilli məktəblər üçün dərsliklər alınması sahəsindəki problemlərdən də söhbət açıldı.

Görüşdə müəllim kadrları hazırlığı işini təkmilləşdirmək lüzumundan danışarkən qeyd olundu ki, bir sıra rayonlarda dözülməz vəziyyət yaranmışdır, bəzi məktəblərdə müəllim çatışmır. Təhsil qanunu hər bir müəllimə 21 saatdan artıq dərs aparmağa imkan



vermir. Bu isə müəyyən pozuntulara gətirib çıxarır. Doğrudur, Təhsil Nazirliyi vəziyyətdən çıxış yolu tapmaq üçün məktəblərində və internat tipli təlim-tərbiyə müəssisələrində pedaqoji kadrların işə qəbul olunması qaydalarında dəyişikliklər etmiş, bu səlahiyyət birbaşa məktəb direktorlarına verilmişdir. Yeni dərs ilində növbədənkənar attestasiya keçiriləcək, müəllimlərə ali, birinci və ikinci ixtisas kateqoriyaları veriləcək və onların əmək haqlarında əsaslı fərqlər olacaqdır.

Natiqlər qeyd edirlər ki, respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin maddi və sosial vəziyyətində bir sıra problemlər yaranmışdır. İyul ayında əmək haqqının 2,2 dəfə artırılmasına baxmayaraq, onlar maaşlarını və məzuniyyət pullarını vaxtında ala bilmirlər. Ümumtəhsil məktəblərində işləyən, alimlik dərəcəsi olan müəllimlərin əmək haqqını ali məktəb müəllimlərinin əmək haqqı ilə eyniləşdirmək barədə Təhsil Nazirliyinin təklifi hələlik öz müsbət həllini tapmayıb.

Çıxış edənlər üç il ərzində ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması üçün büdcə vəsaiti ayrılmamasından narahatlıqla söhbət açdılar. Qeyd olundu ki, məktəblərin maddi-texniki bazası yarıtmaz vəziyyətə düşmüşdür, yeni dərs ilinin başlanması ilə əlaqədar avadanlıq və inventar alınmasında müəyyən çətinliklər yaranmışdır. Vəziyyətdən çıxmaq üçün respublikada belə avadanlıq istehsal edən müəssisə yaradılması zəruridir.

Görüşdə çadır şəhərciklərində yaşayan sentyabrın 1-də dərsə başlamaları üçün görülmüş və görülməli olan tədbirlərdən də bəhs edildi. Qeyd olundu ki, qaçqın və köçkünlərin sıx yaşadığı ərazilərdə yeni məktəblər təşkil olunmuş və şagirdlərin təhsilə cəlb edilməsi üçün lazımi tədbirlər görülmüşdür.

Yarımçıq qalmış məktəb binalarının tikintisini davam etdirməyin zərurili, texniki peşə məktəblərinin maddi bazasının və onlar üçün kadr hazırlığının təkmilləşdirilməsi məsələlərinə də toxunuldu.

Qəbul imtahanlarının test üçulu ilə keçirilməsi, istedadlı şagirdlərə diqqət və qaygının artırılması, təhsil sistemində müəyyən dəyişikliklər aparılması müəllimin nüfuzunun artırılması və digər məsələlər barədə də bir sıra təkliflər irəli sürülmüşdü.

Görüşdə qeyd edildi ki, indiki dövrdə təhsil prosesində gənclərin Vətənə-müstəqil Azərbaycana məhəbbət ruhunda tərbiyə

olunması, bilikli, bacarıqlı, sağlam mənəviyyatlı insan kimi formalaşması üçün kompleks tədbirlər görülməli, təhsil sisteminin bütün problemlərinin həllinə diqqət artırılmalıdır.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev görüşə yekun vuraraq dedi:

Hörmətli müəllimlər, görüş iştirakçıları!

Təhsil nazirinin çıxışında və başqa natiqlərin çıxışlarında orta məktəbin, tədrisin, təhsilin problemləri haqqında danışıldı, vəziyyət müəyyən qədər təhlil olundu, bir çox təkliflər irəli sürüldü. Əgər çıxışların hamısını ümumiləşdirsək, bir fikir aydın olur: respublikamızın təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. Bu sahədə cəmiyyətimizin çoxminli müəllimlər ordusu çalışır. Bu sahədə respublikamızın bu günü və xüsusən gələcəyi üçün çox böyük işlər görür.

Burada irəli sürülən təkliflər, mülahizələr hamısı, şübhəsiz ki, ümumiləşdirilməli və onların haqqında lazımi tədbirlər görülməlidir. Ona görə də bugünkü görüşün yekunu kimi, vəzifəli şəxslərə, xüsusən baş nazirin müavini Elçin əfəndiyevə, təhsil naziri Lidiya Rəsulovaya, prezident aparatından dövlət müşaviri Qabil Hüseynliyə və humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadəyə tapşırıram ki, burada irəli sürülmüş təkliflərin hazırlanmasını başqa nazirliklərlə, idarələrlə birlikdə öyrənsinlər, ümumiləşdirsinlər və orta məktəblərin, təhsilin vəziyyətini yaxşılaşdırmaq üçün qısa bir müddətdə, bir neçə gün içərisində əməli tədbirlər təqdim etsinlər.

Aydındır ki, indi bizim imkanlarımız məhduddur. Ona görə də təklif olunan bütün məsələləri həll etmək və yaxud təcili həll etmək mümkün deyildir. Ancaq eyni zamanda düşünürəm ki, bu məsələlərin çoxunu həll etməyə imkanlarımız vardır. Həm dövlətin, həm də ayrı-ayrı nazirliklərin, müəssisələrin, idarələrin, təşkilatların, həm də yeni yaranan özəl bölmənin imkanları var. Bunların hamısını cəmləyərək həmin problemlərin çoxunu həll edə bilərik. Hesab edirəm ki, əgər bunların hamısı yaxşı işlənilsə, lazımi tədbirlər təqdim olunsa, mən bu barədə xüsusi fərman da verə bilərəm və müəyyən bir dövr üçün iş proqramı kimi təsdiq edə bilərəm. Ona görə də mən konkret tədbirlər planı gözləyəcəyəm və güman edirəm ki, bunu etmək mümkün olacaqdır.



Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsr dövründə çox böyük nəaliyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır. Bu gün isə onu deyə bilirəm ki, əsrimiz sona çatır. Əsrin əvvəlindən indiyə qədər Azərbaycanın ərazisində, xalqımızın həyatında, təhsil, elm, mədəniyyət, şüurun inkişafı sahəsində çox böyük işlər görülüb, böyük nəaliyyətlər əldə olunub. Azərbaycan xalqı savadsızlıqdan ümumi savadlılığa keçib. O qaranlıq keçmişdən sonra indi respublikamızda xalqın bütün təbəqələrini əhatə edən yüksək mədəniyyət, təhsil, elm mövcuddur. Bunlar əsrimizin əvvəlindən indiyə qədər yaşamış, yaratmış bütün nəsillərin fədakar əməyinin, xalqa sədaqətlə xidmətinin nəticəsidir.

Eyni zamanda bunlar Azərbaycanın bütün nəsillərdən olan müəllimlərinin xalqımızı təhsilləndirmək, savadlandırmaq yolunda xidmətinin nəticəsidir.

Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nəaliyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi bunların hamısı ilk növbədə müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir. Biz bu gün nə qədər çətin bir dövrdə yaşasaq da, həyatımızda nə qədər çətin proseslər getsə də, bu nəaliyyətləri heç vaxt unuda bilmərik. Əksinə, biz bunları daim yada salmalıyıq. Çünki bunlar bizim milli sərvətimizdir. Ona görə də mən xalqımızı bu yüksək elm, təhsil, mədəniyyət səviyyəsinə gətirib çıxarmış Azərbaycan məktəbinə, müəllimlərə, Azərbaycan müəllimlərinin bütün nəsillərinə dərin minnətdarlığımı bildirirəm və xalqın iradəsini ifadə edərək deyirəm ki, biz Azərbaycan məktəbi ilə, təhsili ilə, müəllimləri ilə fəxr edirik.

Məktəb, müəllimlər həmişə xalq, insanlar arasında, cəmiyyətdə hörmət, ehtiram qazanmışlar və buna layiq olmuşlar. Müəllim adı yüksək addır. Azərbaycanda müəllimə daim böyük hörmət olmuşdur. Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur. Heç də təsadüfü deyildir ki, dilimizdə insanların bir-birinə müraciət edərkən qarşıdakı şəxsə hörmət və

ehtiram əlaməti olaraq ona "müəllim" deyir. Çoxları heç müəllim deyil, amma biz bir-birimizə müraciət edərkən "ağa", "cənab", "bəy" deyil, "müəllim" deyirik. Bu, təsadüfi deyil. Bəlkə də başqa xalqlarda belə müraciət forması yoxdur. Bu ondan irəli gəlir ki, xalqımız savadsızlıqdan, gerilikdən, ətalətdən bugünkü günə qısa tarixi bir müddətdə gəlib çatmaqda müəllimlərin rolunu qiymətləndirir və qarşısındakı adama hörmət əlaməti olaraq "müəllim" deyir. Ona görə də müəllimin cəmiyyətdə xüsusi yeri olduğu artıq heç kəsdə şübhə oyatmır. Müəllimə hörmət, ehtiram həmişə olub, bu gün də olmalıdır, gələcəkdə də olmalıdır.

Onu da bilmək lazımdır ki, bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən, tutduğumuz vəzifədən asılı olmayaraq bütün nəaliyyətlərimizə görə birinci növbədə məktəbə, müəllimə borcluyuq. Hər birimizin müəllimi olmuşdur. Bu gün yşayan adamlar-yaşlı nəsil, orta nəsil, gənc nəsil-heç kəs müəllimsiz bu səviyyəyə gəlib çatmayıb. Ona görə də hər bir vicdanlı adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir.

Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. İndi biz nə qədər çətin bir dövrdə yaşasaq da, müəllim adını daha yksəklərə qaldırmalıtıq. Mən bu gün bu salonda toplaşan müəllimlərə, maarif işçilərinə müraciət edərək sizin simanızda Azərbaycanın bütün müəllimlərinə indiki ağır şəraitdə fədakar əməklərinə görə minnətdarlığımı bildirirəm və bütün müəllimlərə xalqımız üçün, gələcəyimiz üçün mühüm və əhəmiyyətli işlərində uğurlar diləyirəm.

Ötən tarixi dövrdə Azərbaycanın təhsil sistemi müxtəlif mərhələlər keçmişdir. Cürbəcür islahatlar, dəyişikliklər olub. Onların hamısı bu və ya digər səviyyədə Azərbaycanın orta təhsilini, məktəbini inkişaf etdirib. Bunu inkar etdirmək olmaz, bu bizim tarixi keçmişimizdir, bu bizim milli sərvətimizdir. İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsis ki, təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır.

Bu sahədə müəyyən işlər görülüb. Təhsil haqqında qanun qəbul edilib. Bu qanunu həyata keçirmək, icra etmək lazımdır. Ancaq qanunla yanaşı, onun əsasında bir çox tədbirlər həyata



keçirməlidirlər. Güman edirəm ki, bunun üçün imkanlarımız və şəraitimiz var. İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin. Güman edirəm ki, bizim adamlar, müəllimlər, təhsil sahəsində ixtisaslaşmış institutlar bu işlərin öhtəsindən gələcəklər və gələ bilərlər.

Mən bu barədə heç də geniş mülahizələr irəli sürmək istəmirəm. Belə mülahizələr, təkliflər sizin tərəfinizdən, bu sahədə fəaliyyət göstərən təcrübəli şəxslər və təşkilatlar tərəfindən gəlməlidir. Biz isə bunları ümumiləşdirib, baxıb, qanun, qərar, fərman şəklinə salıb onların həyata keçirilməsi üçün imkan yaratmalıyıq. Yəni, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də biz insanların sərbəst fikirləşməsinə, sərbəst təşəbbüs göstərməsinə şərait yaradırıq. Arzumuz budur ki, bu şəraitdən bizim təcrübəli adamlar, məktəblərimiz, təhsil ocaqları səmərəli istifadə etsinlər və təhsil sisteminin təkmilləşdirilməsi üçün lazımi təkliflər irəli sürsünlər.

Bütün bunlarla yanaşı, bu gün təhsilin hansı istiqamətlərdə etməsi haqqında bir neçə kəlmə demək istəyirəm. Şübhəsiz ki, bizim gənclər orta məktəbdə yaxşı təhsil, həqiqi mənada yaxşı təhsil almalıdırlar. Bunu bilmək lazımdır ki, gənclər bizim gələcəyimizdir. Biz müstəqil Azərbaycan Respublikasının ilk illərini yaşayırıq. Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə ləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır. Mən əminəm ki, xalqımızın fitri istedadı XX əsrdə təhsil sahəsində toplanmış təcrübə, anmış məktəblərin potensialı, yüksək təhsil vermək səviyyəsi Azərbaycanın indi orta məktəbdə təhsil alan gənc nəslin gələcəyə hərtərəfli hazırlanmasına təminat verir.

Ona görə də müəllimlərdən tələb olunur ki, bütün bu imkanlardan istifadə edib orta təhsili yüksək səviyyəyə qaldırsınlar, gənclərimizin yaxşı təhsil almasını təmin etsinlər. Çünki məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır. Mən əminəm ki, bizim çoxminli müəllimlər ordumuz, məktəblərimiz vəzifələrini məhz bu cür qəbul edirlər, öz vəzifələri haqqında bu düşünürlər və bu cür də fəaliyyət göstərəcəklər.

Dediyim kimi, bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini, ənənələrimiz üzərində qurulmalıdır. Biz XX əsrdə cürbəcür mərhələlərdən keçdik, ayrı-ayrı ideologiyaların təsiri altında qaldıq. İndi xalqımız hər cəhətdən azdır. Ona görə də lazımdır ki, ümumiyyətlə, düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyalarımızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu, ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək lazımdır. Bu baxımdan indi məktəblərdə çox iş görmək lazımdır. Gözləmək lazım deyil.

Lazımdır ki, bizim gənclərimiz, orta məktəblərdə təhsil alan gənclər bütün fənlərdən yaxşı hazırlaşsınlar. Bu günün tələbləri, gələcəyin tələbləri baxımından, dünyanın hər yerində, bütün ölkələrdə inkişaf etmiş iqtisadiyyatı, texnalogiyanı, mədəniyyəti texnikanı mənimsəmək onları respublikada tətbiq etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, təhsilini, elmini dünya standartları səviyyəsinə qaldırmaq üçün bizim gənclərimiz gərək yaxşı hazırlaşsınlar. Məktəblər onlar üçün lazım olan fənlərin hamısının tədrisini gərək yaxşı təşkil etsinlər. Beləliklədə bizim gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış gənclər olsunlar.

Bunu etmək mümkündür. Çünki, həm öz əlimizdə olan potensialdan, yəni indiyənə qədər yaranmış təhsil, bilik, elm potensialından, həm də bütün ölkələrlə hazırki azad əlaqələrdən istifadə edərək, inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür. Ancaq burada şübhəsiz ki, çox sistemli iş aparılmalıdır. Bəzən belə müşahidə olunur ki, ayrı-ayrı addımlar yalnız reklam xarakteri daşıyır. Müəyyən qədər özünü göstərmək, nəsə yeni bir şey etmək, amma onon məzmununu bilmədən etmək hallarına yol vermək lazım deyil. Biz təhsil sahəsində bütün yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyi sizdən tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız.

Bir sözlə, məktəblərdə bütün fənlərin tədrisində müəllimlərimiz fədakarcasına çalışmalıdırlar. Bu fənlərin arasında bir neçə humanitar fənn var və onlara xüsusi fikir verilməlidir. Mə-



bayaq dedim, müasir texnikanı, texnalogiyanı, müasir bazar iqtisadiyyatını bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsil hazırlamaq və keçmiş dövrə nisbətəb bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır. Şübhəsiz ki, bunlar ali təhsil səviyyəsində olacaqdır. Ancaq bunların əsası orta təhsil illərində qoyulmalıdır. Yəni gənclərin bu istiqamətdə təhsillərinin artırılmasının təməli qoyulmalıdır. Bu, mütləq lazımdır. Bunun iqtisadiy-yatımızın bu günü və gələcəyi tələb edir.

Ancaq bütün bunlarla yanaşı milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Azərbaycanın tarixi keçmişdə də tədris olunub, bu barədə müəyyən kitablar da yazılıb, məktəblərdə tarix dərsi də olub. Ancaq siz bilirsiniz ki, o vaxt tarix dərslərində azərbaycan tarixinin tədrisinə çox az yer verilirdi. Şübhəsiz ki, tarix deyəndə həm dünyanın tarixi, həm başqa ölkələrin tarixi tədris olunmalıdır. Amma Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, tarix köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.

Bizim tarixi, mədəni ənənələrimiz gərək orta məktəblərdə tədris olunsun. Çünki tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər gərək öz köklərini, respublikamızın, xalqımızın tarixini bilərək bu gün də, gələcəkdə vətənpərvərlik, Vətənə xidmət, Vətənə qaygı hissi ilə yaşasınlar.

Tarxi keçmişimizin çoxu ədəbiyyatda əks olunub. Azərbaycan xalqının zəngin ədəbi irsi var. Ona görə də ədəbi irsimizin bütün gənclərə-bu gənclər hansı istiqamətdə işləyəcək, çalışacaqlarsa, ondan aslı olmayaraq-çatdırılması, bildirilməsi, tədris olunması çox mühüm bir işdir. Buna ciddi fikir vermək lazımdır.

Bunlarla yanaşı məktəblərdə Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Bildiyiniz kimi, 10-20 il bundan qabaq biz çalışırdıq ki, Azərbaycan dili bütün məktəblərimizdə tədris olunsun və gənc nəsil məktəblərdə ilk təhsil addımlarını atarkən öz dilini-ədəbi dilini, milli dilini yaxşı bilsin. Bu barədə çox işlər görülüb. Mən bu gün fürsətdən istifadə edib demək istəyirəm ki, Azərbaycanın dilçiləri, dilçilik sahəsində fəaliyyət göstərən alimlər

çox böyük işlər görüblər. Azərbaycan dilinin bu gün nə qədər zəngin, səlis və cazibədar olması bizim mədəniyyət, elm xadimlərimizin, ədəbiyyatşünas-larımızın, şairlərimizin, yazıçılarəmızın və xüsusən dilçiliklə məşgul olan alimlərimizin, mütəxəssislərimizin xidmətinin nəticəsidir. Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan azərbaycan dilimiz var.

Azərbaycan dili söz ehtiyatına görə fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu ·zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini-ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilin yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin.

Mən nə üçün bu məsələnin üzərində dururam. Çünki əldə etdiyimiz nəaliyyətlərlə yanaşı, təssüf ki. Bu sahədə qüsurlarımız, nöqsanlarımız da çoxdur. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrində istifadə edərək yaxşı danışmaq imkanına malik deyildir.

Əgər keçmişdə bu, müəyyən qədər bağışlanırdısa-çünki onda nədənsə bəzi adamlar ancaq bir dil bilməyi özləri üçün böyük nəaliyyətlər hesab edirdilər-ancaq indi bu, yolverilməz haldır. Şübhəsiz ki, hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı öz ana dilindən savayı, bir çox dillər bilməlidir. İndi bu xüsusən lazımdır. Hələ keçmişdə bizim respublikamız Sovet ittifaqının tərkibində idisə, onun çərçivəsində yaşayırdıqsa, dünyadan müəyyən qədər həddindən çox təcrid idiksə, onda bütün sovet İttifaqında əsas hakim dil rus dili idi və respublikamızda azərbaycan və rus dilləri işlənirdisə, indi biz bütün dünya ilə əlaqədəyik, müstəqil dövlətik. Bütün sahələrdə, o cümlədən, təhsil sahəsində həm qərb ölkələri ilə, həm Şərq ölkələri ilə bütün dünya ölkələri ilə əlaqə saxlayırıq. Ona görə orta məktəblərimizdə başqa dillərin öyrənilməsinə də çox ciddi fikir verilməlidir.

Keçmişdə mən bəzən ayrı-ayrı ölkələrin orta təhsilli gəncləri ilə rastlaşarkən müşahidə edəndə ki, o, 3-4 dil bilir, heyran olurdum. Eyni zamanda fikirləşirdim ki, nə üçün bizim orta məktəblərimiz belə cür təhsil vermir? Ancaq bunun müəyyən səbəbləri də var idi. O vaxtlar başqa bir sistem idi, biz Ümumittifaq tərkibində idik. İndi isə müstəqilik. Ona görə də bütün dillərin tədris olunması çox gərəkdir.



Xüsusən dünyada çox, geniş işlənən dillərin orta məktəblərimizdə öyrənilməsi vacibdir. Lazımdır ki, gənclərimiz orta məktəbi bitirərkən 2-3 xarici dil bilsinlər. Ancaq bununla yanaşı öz ana dilini bilmək hər bir azərbaycanlı üçün lazımdır. Bir də deyirəm, biz öz dilimizlə fəxr edə bilərik. Çünki dilimiz zəngin dildir, ədəbiyyatımız zəngindir, mədəniyyətimiz zəngindir və bunların hamısı da ana dilimizlə, azərbaycan dili ilə bağlıdır. Lazımdır ki, orta məktəblərimizdə bu məsələlərə çox ciddi fikir verilsin.

Xalqımızı, gəncləri vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə etmək üçün orta məktəblərdə çox iş görülməlidir. Müstəqil dövlətdə yaşayan hər bir vətəndaş birinci növbədə bu dövlətin müstəqilliyinin, süverenliyinin təmin olunmasını öz həyatının əsas vəzifəsi və məqsədi bilməlidir. Ona görə də bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər. Xüsusən humanitar fənnlər gərək gənclərimizdə Vətənə sədaqət, torpağa sədaqət, vətənpərvərlik ruhu alınsın, tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrisin. Odur ki, məktəblərdə bu fənləri tədris edərək vətənpərvərlik əhval-ruhiyyəsinin aşılanması ilə də ciddi məşğul olmaq lazımdır.

Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla mühafizə edəsən. İnsan gərək həyatının dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə, yaşasın. Bunlar hamısı vətənpərvərlikdən doğan bir şeydir. Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir, xalqının rifah halının yüksəklərə qaldırılmasını istəyir. Bütün bunlar vətənpərvərlik məfhumuna daxil olan anlayışlardır. Bunlarla yanaşı, gənclərdə vətənpərvərlik hissini tərbiyə etmək üçün şübhəsiz ki, indi, respublikamızın düşdüyü ağır dövrdə Vətəni qorumaq, torpaqlarımızı müdafiə etmək lazımdır. Çünki altı ildir ki, ölkəmiz müharibə şəraitindədir, Vətənimizə qarşı hərbi təcavüz edilibdir, biz müdafiə olunur, torpaqlarımızı qorumaq istəyirik, ərazi bütövlüyümüzü təmin etmək istəyirik. Bunu biz özümüz etməliyik.

Bir halda ki, biz müstəqil dövlətik və müstəqilliyimizi tarixi bir hadisə kimi qəbul etmişik-bu, həqiqətən də beladir-Azərbaycanın süverenliyi hər bir Azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz

taleyimizin sahibi kimi öz Vətənimizi, öz torpaqlarımızı, öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidir. Ona görə də orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına, idmana ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, onları Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır.

Orta məktəbi bitirən gənclər dərhal orduda xidmətə getməlidirlər. Ola bilər, onların hamısı getmir, lakin əksəriyyəti orduda xidmət etməlidir. Elə təsəvvür yaranmasın ki, indi müharibə şəraitində olduğumuza görə bizə ordu lazımdır. Əlbəttə, bundan ötrü güclü ordu gərəkdir. Ancaq müharibə qurtarandan, sülh yarananda sonra da, ölkəmizdə əmin- amanlıq olanda da müstəqil dövlət kimi güclü ordumuz olmalıdır. Ona görə də gəncləri hərbi xidmətə orta məktəbdən başlayaraq hazırlamaq lazımdır.

Dünyada o qədər böyük dövlət var ki, heç kimlə müharibə aparmır, ancaq onların güclü ordusu var. Elə bizimlə qonşu ölkələri götürək. Rusiya, türkiyə, İran müharibə etmir, lakin güclü orduları var. Avropa ölkələrində də həmçinin. Biz yeni, gənc müstəqil dövlətik. Ona görə də bəzilərinə elə gəlir ki, bizə ordu yalnız müharibədən çıxmaq üçün gərəkdir. Xeyr, müharibədən çıxmaq, sülh yaratmaq üçün güclü ordu bizə bu gün lazımdır. Ancaq uzaq gələcəkdə də ordumuz olmalıdır. Ona görə də bu gün birinci sinifə gedən hər bir oğlan 10-12 ildən sonra ordu sıralarında olmalı, hərbi xidmət keçməlidir. Bir daha deyirə, gənclərin hərbi xidmətə hazırlanması, vətənpərvərlik ruhunda tərbiyə edilməsi məktəblərin müəllimlərin əsas vəzifələrindən biridir. Xahiş edirəm bunu nəzərə alasınız.

Burada məktəblərin problemlərindən danışarkən onların maddi-texniki vəziyyətinə, dərs kitablarının hazırlanıb məktəblərə çatdırılması, müəllimlərin maddi təminatı məsələlərinə toxunuldu. Bunların hamısı əsaslı fikirlərdir. Bilirsiniz ki, on illər ərzində Azərbaycan Respublikasında məktəblərin güclü maddi- texniki bazası yaranmışdır. Keçmişdə hər il iri məktəb binaları tikilir, avadanlıqla, ləvazimatla təmin olunurdu. Məktəblərin dərs ilinin başlanmasına tam hazır olması üçün hər il ciddi iş görülürdü. zamanlar respublikanın imkanları var idi və işləri görə bilərdi.



Lakin son illərdə gedən cürbəcür proseslər bir tərəfdən məktəb tikintisini ya zəifləmiş, ya da dayandırmış, digər tərəfdən isə çoxdan tikilmiş məktəb binalarının təmiri, avadanlıqla təchizi sahəsində işləri xeyli azaltmış, yaxud tamamilə, dayandırmışdır. Bu, həyatımızın gerçəkliyidir və onu etiraf etməliyik.

Respublikanın iqtisadi vəziyyəti ağırdır. Avqustun 11 və 18-də mən geniş müşavirələr keçirmişəm. İki gün bundan əvvəl də əhalinin sosial müdafiəsinin gücləndirilməsi v iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsilə əlaqədar geniş müzakirə keçirmişik. Bildiyiniz kimi iyunun 15-də mən bu məsələ barədə böyük fərman imzalamışam və iki gün bndan əvvəl onun yerinə yetirilməsi gedişi müzakirə edilmişdir. Bunların hamısı açıq-aşkar göstərir ki, iqtisadiyyatımız ağır vəziyyətdədir.

Keçmiş Sovet İttifaqına daxil olan başqa respublikalar kimi, Azərbaycan da indi keçid dövründədir. Sosial-iqtisadi böhran içindədir. Digər tərəfdən isə Azərbaycan müharibə şəraitindədir, onun torpaqlarının iyirmi faizi ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, bir milyondan artıq qaçqın var. Məktəb binalarının bir qismində qaçqınlar yerləşdiilmişdir. İşğal olunmuş ərazilərdə qalan məktəb binalarının, alınan məlumatlara görə təssüf ki, dağıdılması respublikanın ümumi iqtisadiyyatına, sosial sahəyə, o cümlədən, təhsil sahəsinə vurulan ağır zərbədir. Bütün bu səbəblərə görə respublika iqtisadiyyatının indiki vəziyyəti məktəblərin maddi-texniki bazasının keçmişdəki kimi sürətlə möhkəmləndirilməsinə şərait yarada bilmir.

Ancaq burada deyildi ki, tikinti işlərinin 90 faizə qədərinin görüldüyü bir neçə məktəb binası var. Onların inşasını qurtarmaq lazımdır. Biz tikinti ilə əlaqədar belə qərar qəbul etmişik ki, inşasına çoxdan başlanmış və başa çatdırılması çətin olan obyektlərdə iş dayandırılsın. Çünki geniş miqyasda tikinti aparmaq üçün imkan və vəsait yoxdur. Lakin əsas işlərin görülüb qurtardığı məktəb binalarının tikintisinin başa çatdırmaq lazımdır. Ona görə də təkliflər siyahısına bunlar da daxil edilməlidir. Məktəblərin ləvazimatla təmin olunmasında da vəziyyət ağırdır. Ancaq dediyim kimi, bu məsələ imkan daxilində həll ediləcək və mən təklifləri gözləyirəm.

Müəllimlərin maddi vəziyyəti bizi daim narahat edir. Bilirsiniz ki, biz bu məsələlərə bir neçə dəfə baxmış, imkan daxilində müəllimlərin əmək haqqını artırmağa çalışmışıq. Ümumən əhalinin

maddi vəziyyətini müəyyən qədər yaxşılaşdırmaq barədə fikirləşir və tədbirlər hazırlayırıq. “Müəllim” sözü o qədər güclü, müəllim adı o qədər yüksəkdir ki, sözün əsl mənasında 0 dərəcədə müqəddəsdir ki, müəllimlər gərək bu çətinliklərə dözsünlər, gənc nəslin təlim-tərbiyəsi ilə məşğunl olsunlar. Respublikamızın bu ağır dövrünü hamımız birlikdə keçməliyik. Dövlət tərəfindən imkan daxilində tədbirlər görüləcək, ancaq müəllimlər, təhsil sahəsində çalışan başqa işçilər də bilməlidirlər ki, həyat həmişə belə ağır olmayacaq, dözmək lazımdır. Məktəblərin, tədrisin səviyyəsi aşağı düşməməli, müəllim adı öz nüfuzunu itirməməlidir. Müəllimlər çalışmalıdır ki, özünün müqəddəs vəzifəsini ömrünün axırınadək yerinə yetirsin.

İndi respublikada özəl bölmə inkişaf edir, ayrı-ayrı iş adamlarının, şirkətlərin, firmaların imkanları var. Əgər onlar xeyirxahlıq etmək istəyirlərsə, bu ağır dövrdə xalqımızın böhrandan çıxmasına kömək göstərmək istəyirlərsə, ilk növbədə təhsil sahəsinə üz tutmalıdırlar. Əlbəttə, bu, ayrı-ayrı məktəb binalarının az və ya çox hissəsinin kommersiya sturukturlarına verilməsindən ibarət olmamalıdır. Əksinə, təhsil ocaqlarına kömək etməkdən ibarət olmalıdır. Ona görə də mən bu gün bütün iş adamlarına, kommersiya strukturlarına, bi sözlə, yeni yaranmış özəl bölməyə müraciət edirəm. Onlardan hər birinin təhsil sahəsinə göstərdiyi kömək və xidmət dövlət tərəfindən qiymətləndiriləcəkdir. Ancaq bu iş də pərakəndə şəkildə görülməməlidir. Onlar bu işləri Təhsil Nazirliyinin vasitəsilə və ya himayəsi altında görsələr, onda dövlət də iş adamlarının təhsil sahəsi üçün nə etdiklərini biləcəkdir.

Ayrı-ayrı firmaların, assosiyaların tələbləri kömək göstərməsi, gənclərin təhsil alması üçün xaricə göndərilməsi təqdirə layiqdir. Lakin bunlar xırda tədbirlərdir. Əlbəttə deyək ki, 30-40 nəfərin xaricdə təhsil alması respublikanın həyatı üçün hadisədir. Ancaq gənclərin təhsilinə geniş miqyqasda kömək etmək bu çərçivədən kənara çıxır. Ona görə də xahiş edirdim ki, iş adamları bu barədə düşünsünlər. Təhsil Nazirliyi isə onlarla əlaqəyə girərək tədris ocaqlarının saxlanılması, təminatı, inkişafı üçün nə iş görə biləcəklərini müəyyənləşdirsin və bu sahədə dövlətin və özəl bölmənin imkanlarını birləşdirsin. Güman edirəm ki, mənim bu çağırışıma səs veriləcək və hamımız respublikanın gələcəyini düşünərək gənc nəslin tərbiyəsinə fikir verəcəyik. Respublikamızın bu günü və gələcəyi ölkəmizdə gedən proseslərlə bağlıdır. Bilirsiniz



ki, respublikamız altı ildir müharibə şəraitindədir. Bu müharibə Ermənistanın Azərbaycana təcavüzü, ərazimizin bir qismini ələ keçirmək cəhdləri ilə başlanmışdır. Bu müddətdə müəyyən səbəblər üzündən və xüsusən, ölkənin müdafiəsini təşkil etmək üçün yaradılmış orqanalarının rəhbərlərinin ayrı-ayrı mərhələlərdə buraxdığı səhvlər nəticəsində 20 faizi işğal olunmuşdur. Bildiyiniz kimi, bu ilin əvvəlindən cəbhədə çox ciddi döyüşlər getdi, ordumuz işğal olunmuş torpaqlarımızın bir hissəsini düşməndən təmizlədi. Ancaq təcavüzkar da çox güclüdür, bir çox ölkələr Ermənistana böyük kömək göstərirlər. Ona görə də apardığımız döyüşlər torpaqlarımızın tam azad olunmasına gətirib çıxarmadı.

Bildiyiniz kimi aprelin 10-dan etibarən Ermənistan silahlı qüvvələri Azərbaycanın müdafiə mövqelərinə yenidən hücuma başladılar. Bu, çox güclü və yaxşı hazırlanmış hücumlar idi. Düşmən yenə də Azərbaycan ərazisinin bir hissəsini işğal etmək istəyirdi. Qanlı döyüşlər bir aydan çox çəkdi. Azərbaycanın qəhrəman oğulları canları, qanları bahasına müdafiə mövqelərimizi qorudular, ordumuz geri çəkilmədi. Bu ağır döyüşlərdən sonra atəşkəs haqqında saziş əldə olundu. İlin əvvəlindən bəri biz bir tərəfdən ordumuzu gücləndirməyə, müdafiə mövqelərimizi möhkəmləndirməyə çalışmışıq, digər tərəfdən isə, beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçilik imkanlarından istifadə edərək məsələnin sülh yolu ilə həllinə səy göstərmişik. Bu iki proses eyni vaxtda, paralel getmişdir. Torpaqlarımızı müdafiə etməklə bərabər, sülh danışıqları da aparmışıq.

Rusiyanın, ATƏM-in Mins qrupunun vasitəçiliyi ilə mayın 12-də başlayaraq atəş kəsilmişdir və üç ay yarımdan artıqdır ki, atəşkəs davam edir. Xırda toqquşmaları nəzərə almasaq, cəbhədə sakitlikdir.

Biz indi də sülh danışıqları aparırıq. Ona görə ki, müharibə əvvəl-axır sülhlə qurtarmalıdır. Bayaq dediyim kimi, müharibəni biz başlamamışıq. Azərbaycan öz ərazisini öz torpaqlarını müdafiə edir. Başqa sözlə, biz müharibəyə qoşulmağa məcbur olmuşuq.

Sülh danışıqlarında Rusiya böyük vasitəçilik rolu oynayır. Eyni zamanda beynəlxalq təşkilatlar, xüsusən ATƏM və onun Minsk qrupu, həmin qrupun rəhbəri Yan Elnasson və onun nümayəndə heyəti daim fəaliyyətdədir. Bir neçə gün bundan əvvəl də Minsk qrupunun rəhbərləri və onun heyəti regiona gələrək bakıda,

Yerevanda və yenidən Bakıda olmuş, Azərbaycanın və Ermənistanın rəhbərləri ilə danışıqlar aparmışdır.

Biz sülh danışıqlarını bundan sonra da davam etdirəcəyik. Əgər bu danışıqlar istədiyimiz şərtlərlə nəticələnsə, sülhə nail ola bilərik. Şərtlər də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməli və buna təminat verilməlidir. Ermənistan tərəfi Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat verilməsini, Dağlıq Qarabağa müəyyən status verilməsini tələb edir. Biz həmişə demişik və yenə deyirik, əgər şərtlərimiz qəbul edilsə, status məsələsini də müzakirə etmək olar.

Eyni zamanda silahlı qüvvələrimiz möhkəmləndirilməli, ordumuz indi tutduğu mövqeləri müdafiə etməyə qadir olmalıdır. Ona görə də ictimaiyyətdə, əhalidə və xüsusən gənclərdə Vətəni müdafiə etmək əhval-ruhiyyəsi, döyüş əhval-ruhiyyəsi daim təbliğ edilməlidir. Bu işdə sizdən-müəllimlərdən kömək gözləyirik. Ona görə ki, müəllimlər ziyalılarımızın böyük bir hissəsini təşkil edir. Ziyalılar bütün bu proseslərə öz münasibətini bildirməlidirlər. Biz bütün bu addımları atarkən ictimaiyyətlə, əhali ilə xüsusən ziyalılarla məsləhətləşirik və bundan sonra da məsləhətləşəcəyik. Müəllimlərə də müraciət edirəm, siz də, təhsil sahəsində çalışan başqa adamlar da bu məsələlər barədə fikirlərimizi bildirməlisiniz. Biz bütün tədbirləri xalqın rəyinə əsasən görürük və görəcəyik. Sülh danışıqları da xalqın rəyinə əsasən aparılır. Ziyalıların fikri bizdən ötrü mühümdür.

İndiki vəziyyətdə biz gərək qaçqınlarımızın da problemlərini həll edək. Qaçqınlar isə, bildiyiniz kimi bir milyondan çoxdur. Onların əksəriyyəti işləmir, maddi cəhətdən təmin edilməlidir. Qaçqın uşaqları təhsil almalıdırlar. Ona görə də qaçqınların məskunlaşdığı yerlərdə həmin uşaqların təhsilinə mütləq ciddi fikir verilməlidir. Bu uşaqların hamısı məktəblərə cəlb olunmalı, onların təhsil alması üçün hər cür şərait yaradılmalıdır. Hər bir məktəb qaçqın uşaqlarının təhsil almasına xüsusi qayğı göstərməlidir. Məlumat verirlər ki, xarici ölkələrin ayrı-ayrı xeyriyyə cəmiyyətləri qaçqınların məskunlaşdığı yerlərdə məktəblər təşkil etmişdir. Bununla yanaşı, biz öz imkanlarımızdan da istifadə etməliyik. Qaçqın ailələrinə xüsusi qayğı göstərmək lazımdır. Eyni zamanda,



dediyimiz kimi, qaçqın ailələrdən olan uşaqların təhsilinə də xüsusi qayğı göstərməlidir.

Ziyalılarımızın, ümumtəhsil məktəblərində çalışan müəllimlərimizin vəzifəsi gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməklə bərabər, respublikada ictimai-siyasi vəziyyətin sabitliyinə çalışmaqdan ibarətdir. Çünki daxildə sabitliyin pozilması həmişə cəbhədə vəziyyətin gərginləşməsinə gətirib çıxarmışdır.

Təlim-tərbiyə işləri ilə məşğul olarkən bir məsələni də diqqət mərkəzində saxlamalısınız. Respublikanın belə ağır dövründə cinayətkarlıq artmışdır. Bu həm Azərbaycanın düşdüyü vəziyyətlə bağlıdır, həm də keçmiş Sovet İttifaqının başqa respublikalarında cinayətkarlığın artması Azərbaycana da öz təsirini göstərmişdir. Ona görə də cinayətkarlıqla mübarizə bizim əsas vəzifələrimizdəndir. Bununla əlaqədar mən avqustun 9-da fərman vermişəm. Hüquqi-mühafizə orqanları bu işlə məşğul olmalıdırlar.

Cinayət edənlərin əksəriyyəti gənclərdir. Ona görə də məktəblərdə gəncləri həm də cinayətkarlıqdan uzaq olmaq ruhunda tərbiyə etmək lazımdır. Burada çıxış edənlər dedilər-təssüf ki, respublikada spirtli içkiilərə meyl artmışdır, narkotik maddələrdən istifadə olunur. Əfsus ki, bunlara meyl edənlərin çoxu gənclərdir. Ona görə də müəllimlər, təhsil ocaqları bu sahədə fəaliyyətlərini gücləndirməlidirlər.

Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənlərimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır. Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Bununla biz nəinki cəmiyyətimizi qoruyacağıq, həm də gələcək nəsli sağlam saxlayacaq və həmin nəsildə cəmiyyətimiz, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq. Bir də təkrar edirəm, cinayətkarlıqla mübarizə, gənclərin sağlam ruhda tərbiyə olunması üçün hər kəs öz sahəsində lazımi tədbirlər görməlidir.

Bütün bu vəzifələri həyata keçirmək üçün Təhsil Nazirliyi, onun rayon və şəhər şöbələri və idarələri öz işini təkmilləşdirməlidir. Yeni yaradılmış Gənclər və İdman Nazirliyi ilə Təhsil Nazirliyi birgə fəaliyyət göstərməli, müxtəlif gənclər təşkilatlarını öz himayələri altına almalıdırlar. Burada haqqında danışılan vəzifələrin yerinə

yetirilməsində başqa əlaqədar nazirliklər də fəaliyyət göstərməlidir. Nazirlərin bir çoxunun bu gün buraya dəvət edilməsi də bununla əlaqədardır. Onlardan tələb edilir ki, öz üzərlərinə düşən vəzifələri yerinə yetirsinlər. Şəhər və rayonların yerli orqanları, icra hakimiyyəti başçıları təhsil, gənclərin tərbiyəsi məsələləri, məktəblərin vəziyyəti ilə ciddi məşğul olmalıdırlar.

Güman edirəm ki, bugünkü görüşümüz və apardığımız fikir mübadisələsi orta təhsil sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsində müəyyən mərhələ olacaqdır. Ümidvaram ki, siz və sizin simanızda bütün müəllimlər təhsil sahəsinin bütün işçiləri bu vəzifələrin yerinə yetirilməsində fədakarlıqla çalışacaqsınız.

Təhsil ilinin başlanması münasibətilə sizi bir daha təbrik edir, sizə, bütün müəllimlərə, təhsil işçilərinə şərəfli peşənizdə uğurlar, şəxsi həyatınızda xoşbəxtlik və sədaqət diləyirəm. Sağ olun!



## MƏN BUNU MİLLƏTİN, XALQIN, AZƏRBAYCANIN BU GÜNÜ, GƏLƏCƏYİ ÜÇÜN İSTƏYİRDİM

**Azərbaycan prezidenti Heydər Əliyev Respublikamızdan kənarda təhsil almış Mütəxəssislər Cəmiyyətinin üzvlərini qəbul etmişdir (21 may 1998-ci il)**

Cəmiyyətin üzvləri ilə görüşdən məmun qaldığını bildirən və səmimi sözlərə görə onlara təşəkkür edən, 75 illik yubleyi münasibətilə onunla görüşmək istəyənlərin çox olduğunu nəzərə çarpdıran Azərbaycan prezidenti Heydər Əliyev dedi:

-Mənə məlumat veriblər ki, Siz 1970-1980-ci illərdə SSRİ-nin müxtəlif şəhərlərindəki nüfuzlu ali məktəblərə müsabiqədənkənar oxumağa göndərdiyimiz tələbələrin yaratdıqları cəmiyyətin üzvləri mənimlə görüşmək istiyirlər. Mən bunu qəbul etdim. Çünki 1970-1980-ci illərdə Azərbaycandan kənarda təhsil almağa göndərdiyim insanlar mənim doğma övladlarımdır. Bəlkə də Siz bilmirsiniz ki, bu işi təşkil etmək üçün mən nə qədər əziyyət çəkdim.

Bilirsiniz ki, mən 1969-cu ilin iyul ayında Azərbaycana rəhbər seçildim. O illərdə hər bir respublikaya gənclərin SSRİ-nin müxtəlif şəhərlərində təhsil alması üçün müəyyən yer ayrılırdı. Mən 1970-ci ildə öyrəndim ki, bu məqsədlə Azərbaycana 50 yer ayrılır və bu işlə heç maraqlanan yoxdur. Bu işi öz nəzarətimə götürdüm. Mənə siyahı gətirdilər. Gördüm ki, orada adları olan gənclərin yalnız 25 faizi milliyətcə azərbaycanlıdır, qalanları Azərbaycanda yaşayan başqa millətlərdəndir-rusdur, ukraynalıdır, ermənidir və s. Mən bundan çox narahat oldum. Dedilər ki, bilirsiniz, bizim gənclər respublikadan kənarda oxumağa getmək istəmirlər, Bakıda təhsil almaq istəyirlər. Valideyinləri buraxmır, deyirlər ki, uşağımız yanımızda olsun. Başqa bir səbəb odur ki, azərbaycanlıların bir çoxu rus dilini yaxşıkənarda təhsil almaqda çətinlik çəkirlər. Dedim ...imiz orada güzəştli imtahan verirlər və gedib rus dilini öyrənəcəklər. Mənə ümumiyyətlə, min dənə bəhanə gətirdilər.

Mərkəzi Komitə o vaxt yuxarıdakı binada yerləşirdi, indi yerləşdiyimiz bu binanı mən sonralar tikmişəm. Yadımdadır, 1970-ci

il avqustun sonunda mən 50 nəfər gənci bax, həmin binada qəbul etdim, onlarla danışdım, söhbət apardım. Azərbaycan üçün çox vacib olduğuna görə mən bu işə başladım. Əlbəttə, bunu bir-iki ildə etmək mümkün deyildi. Mən 1975-ci ildə bu tələbələrin sayını 600-ə çatdırdım, sonra isə ilbəil artırdım-700, 800, 900 oldu. Əgər 1970-ci ildə birinci dəfə 50 nəfərlə köhnə binanın salonunda görüş-müşdümsə, sonrakı vaxtlar həmin görüşlər Respublika sarayında keçirildi. Oraya gənclər, onların bəzilərinin valideynləri gəldilər. Mən hər il respublikadan kənarda oxumağa gedən gənclərin qarşısında çıxış edirdim. Bir-iki dəfə təsadüf elə gətirdi ki, mən avqust ayında məzuniyyətdə oldum. Ümumiyyətlə, mən işlədiyim dövrlər çox vaxt məzuniyyətə getmirdim. Amma bəzən yay vaxtı heç olmasa, 10-15 günlük məzuniyyətə gedirdim. Harda olurdumsa-olum, -bir dəfə xaricdə idim, başqa bir vaxt Krımda dincəlirdim-əlaqə saxlayırdım, görüş təyin etdiyim gün Bakıya gəlməli və həmin gənclərlə görüşməli idim. Mənim bu gənclərlə görüşmədiyim elə bir il olmayıbdır.

Elə buna görə də siz-o vaxt oxumağa göndərdiyim gənclərin hamısı mənim doğma övladlarımsınız. Mən hər il bu gənclərin siyahısını tələb edirdim, onu gətirib mənə verirdilər. Bir dəfə demişəm, bu gün sizə də bildirirəm ki, mən Bakıdan Moskvaya gedəndən sonra buradakı mənzilimi təhvil verdim. Mənzilimi köçürməli idim. Çoxlu kitablarım var idi, onları aparmaq mümkün deyildi. Göstəriş verdim ki, mənim üçün ən əsas olan kitabları, sənədləri seçsinlər. Mən hər il respublikadan kənara oxumağa göndərdiyim tələbələrin siyahılarını Moskvadakı şəxsi evimə apardım.

Doğrudur, mən siyasi Büronun üzvü olanda böyük villada yaşayırdım. vəzifədən çıxanda sonra şəhərdəki evimə köçməyə məcbue oldum, oraya isə hər şeyi yerləşdirmək mümkün deyildi. O vaxt mən əşyalarımın bir qismi ilə vidalaşdım, çox şeyləri evə gətir bilmədim. İndi təssüf edirəm ki, bir çox qiymətli əşyaları yandırmal oldum. Amma həmin siyahılarə yenə də öz evimə apardım.

Bilirsiniz ki, mən Moskvadan Bakıya gəldim, burada yaşay bilmədim, Naxçıvana gtdim, üç il orada yaşadım. Sonra Bakıy gəldim. Əvvəllər mənim Moskvadakı evim dururdu, uşaqlarım orad yaşayırdılar. Amma sonra mən Moskvadan əşyalarımı buray gətirəndə həmin siyahıları yenə də özümlə gətirmişəm. Görürsünü



bu sənədlər mənim üçün nə qədər əzizdir. Çünki onlar mənim zəhmətimin, əməyimin bəhrəsidir.

Ona görə də mənimlə görüşmək istəyiniz haqqında məlumat alanda bunu qəbul etdim. Mən sizi çox diqqətlə dinlədim. Çox məmnunam ki, siz dediyiniz kimi, o vaxt əkdiyim toxumlar indi bu cür cücərib və böyük ağaclara dönüb. Doğrudan da, siz hər biriniz böyük bir ağacsınız, iş sahibisiniz. Mən bunu millətin, xalqın, Azərbaycanın bu günü, gələcəyi üçün istəyirdim.

Şübhəsiz ki, Azərbaycanın ali məktəblərində də təhsil alanlar çox idi və bunların içərisində yaxşı təhsil alanlar da var idi. Ancaq bunu niyə istəyirdim? Ona görə istəyirdim ki, azərbaycanlılar respublikamızda olmayan ixtisasları mənimsəsinlər. Digər tərəfdən, azərbaycanlıların bir qismi öz şəhərlərindən, respublikasından kənara çıxsın, görsün nə var, nə yoxdur. Bunun özü də böyük işdir. Mən burada qarşıma çox məqsədlər qoymuşdur. Mən xoşbəxtəm ki, bu məqsədlərimə nail olmuşam. Təbriklərinizə görə sizə təşəkkür edirəm. Məlumatınıza görə də çox sağ olun. Sizinlə bu görüşümdə çoxdan arzusunda olduğum bir fikir bir daha yadıma düşdü. Bir halda ki, siz cəmiyyət yaratmısınız, mən sizinlə-Azərbaycanda və respublikamızdan kənarda yaşayanlarla böyük bir görüş keçirmək istəyirəm. Siz bunu təşkil edə bilirsinizmi? Ümumiyyətlə, sizdə onların siyahısı varmı? Mən respublika təhsil naziri Misir Mərdanov və şöbə mmüdir Fatma Abdullazadəyə tapşıracağam. Gəlin danışaq, iyunun axırında yaxud iyulun əvvəlində belə bir görüş keçirək. Mən onun vaxtını əvvəlcədən təyin edəcəyəm, həmin adamların hamısına qabaqcadan məlumat veriləcəkdir. Biz Respublika sarayında görüşək. Bu adamlar gələrlər, özləri haqqında arayışlar verərlər. Görərik ki, kim haradadır, nə edir. Görüşərik, danışarıq ki, haradan gəlib, haraya çıxmısınız, o vaxt əkilən toxumlar indi öz bəhrələrini necə veribdir.

Mən sizə açıq deyim ki, bu işlərimdə yüksək səviyyəli kadrlara çox ehtiyacım vardır. İndi siz hərəniz bir yerdə işləyirsiniz. Amma ola bilər ki, bəziləriniz hökumət, dövlət işlərində çalışa bilərsiniz. Mən belə bir imkandan da istifadə etmək istəyirəm. Çünki siz mənim hazırladığım insanlarsınız, siyasətimi də dəstəkləyirsiniz. Güman edirəm ki, mənim xidmətlərimi də unutmamısınız. Mən təkcə sizi demirəm, hamınızı nəzərdə tuturam. Ona görə də siz bu dövlət və hökumət işlərində mənimlə daha da sədaqətlə işləyə bilərsiniz.

Mən buna inanıram. Ona görə də burada bir neçə məsələni həll etmək olar.

Mən Fatma Abdullazadəyə və Misir Mərdanova bu gün bu barədə göstəriş verəcəyəm ki, sizinlə əlaqə saxlasınlar. Gəlin belə bir görüş hazırlayaq.

Sağ olun, təşəkkür edirəm.



## XALQIMIZIN TƏHSILININ DAHA DA TƏKMILLƏŞDIRILMƏSI VƏ YÜKSƏKLƏRƏ QALDIRILMASI MÜQƏDDƏS VƏZIFƏMIZDIR

**Respublika prezidenti Heydər Əliyevin Azərbaycan Müəllimlərinin Qurultayında nitqi (25 sentyabr 1998-ci il)**

**-Əziz müəllimlər, qurultay nümayəndələri!**
**Hörmətli xanımlar və cənablar?**

Mən sizi Azərbaycanın ilk müəllimlər qurultayını, bu qurultayın nümayəndələrini və bu möhtəşəm salona toplaşanların hamısını səmimi salamlayıram, sizə can sağlığı, səadət arzulayıram.

Mən Azərbaycan müəllimləri qurultayına təbrik məktubu göndərmişəm. O, bu gün mətbuatda dərc olunubdur, siz bununla tanışsınız. O məktubumda mən müəllim haqqında, Azərbaycan müəlliminin tarixi barədə öz fikrimi ifadə etmişəm. Ancaq bu gün səhərdən sizinlə bərabər müəllimlər qurultayının iştirakçısı olduğuma və məruzələrinizi, çıxışlarınızı diqqətlə dinlədiyimə görə, buradakı ab-havanı hiss edərək mən bir neçə fikrimi, mülahizələrimi sizə çatdırmaq istəyirəm.

Hesab edirəm ki, müstəqil Azərbaycanın müəllimlər qurultayı uğurla başa çatır və qurultayın qarşısında duran vəzifələr yerinə yetirilir. Müəllimlər qurultayında sərbəst, tam demokratik şəraitdə geniş və gözəl müzakirə, fikir mübadiləsi keçirildi. Bu, məni çox sevindirir. Güman edirəm ki, siz də bu gün buradakı bütün müzakirələrdən razı olmalısınız. Çünki natiqlər istədikləri kimi danışdılar, sözlərini dedilər, fikirlərini bildirdilər və bir çox səmərəli təkliflər irəli sürdülər.

Qurultayın belə sərbəst, açıq, demokratik şəraitdə keçirilməsi müstəqil Azərbaycanda demokratiyanın mövcudluğunu, varlığını və onun inkişaf etdiyini bir daha sübut edir. Hesab edirəm ki, bu gün burada aparılan müzakirə, irəli sürülən fikirlər Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşməsi, mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üçün çox əhəmiyyətlidir, faydalıdır.

Ümid edirəm ki, burada irəli sürülən təkliflər, bəyan edilən fikirlər Azərbaycanın hazırlanan təhsil qanunu layihəsində öz əksini tapacaqdır. Təhsil islahatları ilə əlaqədar mart ayından indiyə qədər

fəaliyyətdə olan islahat komissiyası bu təklifləri nəzərə alacaqdır. Beləliklə, bugünkü qurultayda irəli sürülən fikirlərin əksəriyyəti iki dövlət sənədində öz əksini tapa biləcəkdir. Bununla bərabər, əgər ehtiyac olsa, mən bəzi məsələlərin həll edilməsi üçün xüsusi bir fərman da imzalaya bilərəm. Həmin fərmanda Azərbaycanın müvafiq nazirliklərinə, hakimiyyət orqanlarına, hökumətinə lazımi tapşırıqlar verilə bilər.

Beləliklə, mən hesab edirəm ki, müstəqil Azərbaycanın birinci müəllimlər qurultayı ölkəmizin təhsilinin gələcəyi və ümumiyyətlə, azərbaycanın gələcəyi üçün mühüm bir mərhələdir. Bizim və sizin-hamımızın vəzifəmiz ondan ibarətdir ki, bu qurultayda irəli sürülmüş fikirlər, təkliflər həyata keçirilsin və Azərbaycanda bütün təhsil daha da yüksəlsin.

Azərbaycanda təhsilin qədim və zəngin tarixi vardır. Bu gün bu barədə məlumat verildi. Siz, təhsil adamları, müəllimlər bizim təhsilin tarixini yaxşı bilirsiniz. Biz tarixin bütün mərhələlərində Azərbaycanda müəllimin, təhsilin rolunu qiymətləndiririk. Ancaq bu gün burada bildirildi, bu fikirlə mən də tamamilə şərikəm ki, Azərbaycanda təhsil, xalqımızın maariflənməsi XX əsrin əvvəlindən böyük sürətlə inkişaf edibdir və XX əsrin sonunda müstəqil Azərbaycan Respublikası böyük müəllim ordusuna, geniş təhsil şəbəkəsinə və yüksək təhsilə malikdir.

XX əsrin əvvəlində Azərbaycan müəllimlərinin birinci, ikinci qurultayları keçirilibdir. Bu gün biz əsrin sonunda müstəqil Azərbaycan müəllimlərinin qurultayını keçirərkən əsrin əvvəlində, Azərbaycan Çar Rusiyasının tərkibində olduğu, təhsilin bir hissəsinin ruhanilərin, digər qisminin isə şar hakimiyyətinin əlində olduğu bir zaman xalqımızın mütəfəkkir insanlarının müəllimlər qurultayı keçirməsini yüksək qiymətləndirməliyik və bunu böyük minnətdarlıqla qeyd etməliyik.

1918-1920-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş Xalq Cümhuriyyəti qısa bir dövr ərzində bir çox başqa məsələlərlə yanaşı, xalqımızın maariflənməsinə, Azərbaycanda təh silin yaranmasına diqqət yetirmişdir və müəllimlər qurultayını keçirmişdir. 1919-cu ildə Azərbaycanda ilk ali məktəb – Bakı Dövlət Universiteti yaradılmışdır. Biz bu gün bu tarixi hadisələri də qiymətləndirməliyik və minnətdarlıq hissi ilə qeyd etməliyik.



Sonrakı 70 il ərzində Azərbaycan sovet hakimiyyəti dövrünü yaşamışdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, o dövrdə Azərbaycan xalqı kütləvi surətdə maariflənmiş, savadlanmış, respublikamızda hər bir adamın təhsilə cəlb olunması məsələsi həll edilmişdir. Azərbaycanda savadsızlıq qısa bir zamanda ləğv olunmuşdur, respublikamızda güclü, zəngin təhsil ocaqları bu qədər gözəl müəllimlər ordusu yaranmışdır.

Bilirsiniz, tarixi nöqteyi-nəzərdən 70-80- il göz qırpımı kimi bir şeydir. Bu, kiçik bir zamandır. Amma görün, bu illərdə nə qədər böyük işlər görülübdür. Azərbaycanın siması dəyişibdir. Ötən dövrdə Azərbaycanda iqtisadiyyat, mədəniyyət, həyatın bütün sahələrində, elm sahəsində əldə olunmuş nəaliyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.

1918-1920-ci illərdə Azərbaycanda iki paralel proses gedir. Bir tərəfdən, o vaxt Azərbaycanda mövcud olan kiçik bir müəllim dəstəsi ilə məktəblər, təhsil ocaqları yaratmaq, insanların savadsızlığını ləğv etmək lazım idi. Ancaq bu böyük işi görmək üçün eyni zamanda, kadr potensialı, müəllim ordusu yaratmaq lazım idi. Böyük xoşbəxtlikdir ki, o dövrün bir çox mənfi cəhətləri ilə, Azərbaycan xalqına dəyən ziyanlarla yanaşı, bu sahədə daim inkişaf olubdur. Qısa bir zamanda, təsəvvür edin, 1920-ci illə 1930-cu il arasında Azərbaycanda bir neçə ali məktəb yaranıbdır. Bakı Dövlət Universiteti inkişaf edibdir. Amma qısa müddətdə Bakı Dövlət Universitetinin əsasında Tusi adına Pedaqoji İnstitut – indiki Pedaqoji Universitet, Tibb İnstitutu, İqtisad İnstitutu və başqa institutlar yaranıbdır.

Ondan sonrakı dövrü götürün. 1930-cu illərdə Sənaye İnstitutu yaranıbdır. 1930, 1940, 1950, 1960, 1970-ci illəri götürün. Azərbaycanda bir çox ali məktəblər olmasına baxmayaraq, 1970-ci illərdə bir neçə yeni ali təhsil vermək iqtidarına malik oldu. Ancaq bunların da əsasını təşkil edən yenə də məktəbdir, müəllimdir.

Azərbaycanda qısa bir zamanda məktəblərin sayı artdı və onlar inkişaf etdi, genişləndi. Hər bir ucqar kənddə məktəb yarandı. Doğrudur, bu proses davam edir. Məsələn, xatirimdədir, 1970-ci illərdə mən Azərbaycana rəhbərlik edəndə bəzi kəndlər var idi ki, orada məktəblər yox idi. Biz orada yeni məktəb binaları tikirdik. Amma böyük yaşayış məntəqələrində ilbəil məktəb binaları tikilirdi və onların sayı artırdı.

Məktəblərin maddi-texniki bazası haqqında burada ədalətli danışıqlar getdi. Bu, həqiqətdir. Mən bu barədə sonra öz fikirlərimi bildirəcəyəm. Ancaq eyni zamanda, təsəvvür edin, məsələn, 1979, 1980, 1981-ci illərdə hər il Azərbaycanda 35 min şagirdin oxuması üçün şəraiti olan məktəb binaları tikilirdi. Bu, bir ildə təxminən 50-60 məktəb binasının tikintisi deməkdir. Bu, o vaxt olmuşdu ki, o dövrdə məktəblərin sayı həddindən çox artmışdı.

Beləliklə, xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik. Heç bir konyukturaya, hansısa yalançı məlumatlara uyaraq öz tariximizi qaralamamalıyıq. Tariximizin qara səhifələri də amma, çox parlaq, gözəl səhifələri vardır. Biz bu tarixi yaşamalıyıq.

Mən gördüm qurultay nümayəndələrinin 400 nəfərindən çoxunun yaşı 60-dan yuxarı oloanlardır. Əgər bu adamın 60-dan yuxarı yaşı varsa, demək o, 40-45 ildir ki, müəllimlik edir, o dövrü yaşayıbdır. O, bu dövrdə təhsil alıb, müəllimlik təcrübəsini artırıbdır və Azərbaycan balalarına, uşaqlarına, gənclərinə bu gün də dərs, təhsil, tərbiyə verir. Burada əyləşənlərdən heç kəs, necə deyərlər, dünən doğulmayıbdır. Burada olan, olmayan müəllimlərin yüz faiz hamısı o illərdə doğulubdur. Azərbaycan müstəqillik əldə edəndən sonra anadan olanların hələ cəmi 6 yaşı vardır.

Bizim keçmişimizi, tariximizi bu gün ləkələmək istəyən, Azərbaycanın həyatı haqqında ədalətsiz fikirlər söyləyən adamların da hamısı təhsil alıbdır. Bəli, Azərbaycanın o dövrdəki məktəblərində, universitet-lərində təhsil alıblar. Müftə, pulsuz təhsil alıblar, Azərbaycan Respublikasının imkanlarından istifadə edib təhsil alıblar. Bir xalq məsəli var:" Adam su içdiyi quyuya tüpürməz". Biz hamımız o quyudan su içmişik və ora tüpürməyə heç kəsin haqqı yoxdur.

Mən hesab edirəm ki, azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızda təhsilin, maarifin inkişafı üçün daha da gözəl imkanlar yaranıbdır. Doğrudur, bizim maliyyə, maddi vəziyyətimiz bu imkanlardan istənilən səviyyədə istifadə etməyə imkan vermir. Amma eyni zamanda, bu, müvəqqəti bir haldır. Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə



edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində azərbaycanın təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək, inkişaf edəcək və Azərbaycan uşaqları, gəncləri bu inkişaf dövrümüzdə ilbəil daha da geniş, yüksək təhsil alacaqlar.

Bizim bu günkü qurultayımızın məqsədi, mənası məhz bundan ibarətdir. Bu gün mən sizinlə birlikdə müstəqil Azərbaycan Respublikasının ilk müəllimlər qurultayında olmağımı özüm üçün böyük xoşbəxtlik hesab edirəm. Buradakı çıxışlarda bildirildi,-hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilir və onu qiymətləndirməlidir. Mən isə bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam.

Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz. Mən indiyənə qədər heç bir sinifdə müəllimlik etməmişəm. Ancaq xatırlayıram, tərcümeyi-halımdan bilirsiniz ki, mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmamazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinifini bitirdikdən sonra pedaqoji texnikoma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim.

Bilirsiniz ki,mən pedaqoji texnikomu bitirəndən sonra Bakıda ali məktəbə daxil olundum. Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftəimdə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxt bir az dərs vermək təcrübəm olubdur. O günlər mənim xatirəmdədir. Xatirimdədir ki, nə qədər həyəcan keçirdim. əvvəlcə bizi o siniflərə aparırdılar, oturub baxırdıq ki, müəllimlər necə dərs verirlər. Bir müddət belə idi. Ondan sonra isə deyirdilər ki, gedib filan gün, filan sinifdə filan dərsi verməlisən. Nə qədər hazırlaşmaq lazım idi. Nə qədər hazırlaşsaydın da 2-ci 3-cü, 4-cü sinif uşaqları qarşısınk həyəcan keçirirdin. Mən həmin günləri indi də xatırlayıram.

Ancaq bununla bərabər bütün həyatım boyu məktəblə, təhsil sistemi ilə bağlı olmuşam. 1969-cu ilə qədər bir çox dövlət işlərində işlədiyim zaman mən daim məktəbə, ali məktəblərə maraq göstərmişəm və onların fəaliyyətində müəyyən xidmətlərim olubdur.

orta, ali təhsilin, texniki peşə təhsilinin inkişaf etməsini öz fəaliyyətimin əsas hissəsi hesab etmişəm, bununla ciddi məşğul olmuşam. Bu gün iftixar hissi keçirə bilərəm ki, o illər mən Azərbaycana rəhbərlik etdiyim zaman saysız-hesabsız məktəblər yaranıbdır, ali məktəblərin sayı, onların fakültələri, kafedraları artıbdır, yüksək səviyyəli müəllim kadrları, universitetlərdə dərs deyən alim kadrları hazırlanıbdır və bunların hamısında mənim xidmətlərim olubdur.

Bilirsiniz ki, nəhayət, 1982-ci ilin dekabr ayında məni Moskvaya işə dəvət etdilər. \siz bilirsiniz ki, mən o vaxt Sovetlər İttifaqının ən yüksək rəhbərliyində olan adamlardan biri idim. Mən Siyasi Büronun üzvü və Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini idim. Mənim bir çox vəzifələrim var idi, bir çox nazirliklərə bilavasitə rəhbərlik edirdim. Onların içərisində Sovet İttifaqının Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi də var idi. Mən Sovet İttifaqında bu üç təhsilə aid olan nazirliklərə 5 il rəhbərlik etmişəm, onların işində bilavasitə iştirak etmişəm. Mən onların məsələlərini həll etmişəm, məruzələrini dinləmişəm, kollegiyalarında, böyük iclaslarında iştirak etmişəm, nitq söyləmişəm, söz vermişəm və bir çox qərarlar qəbul etmişəm.

Bu gün biz dünyanın hər yerində təhsil sisteminin necə olduğunu bilirik. Sovetlər İttifaqı dövründə yaranmış təhsil sisteminin böyük üstünlükləri var. Biz bunu başqa ölkələrin təhsil sistemi ilə müqayisə edəndə görürük. Ancaq o sistem də tam təkmil sistem deyildi. Ona görə də onu təkmilləşdirmək lazım idi. Burada natiqlərin bəziləri dedilər ki, mən 1983-1984-cü illərdə sovet İttifaqında məktəb islahatının keçirilməsi üzrə partiya və hökumət tərəfindən yaradılmış böyük bir komissiyanın sədri olmuşam. Bildiyiniz kimi, o, vaxt məktəb islahatı hazırlandı və 1984-cü ildə bu məsələ SSRİ Ali Sovetinin sessiyasında müzakirə olundu. Mən o sessiyada məktəb islahatı haqqında məruzə etdim. Bunun əsasında qanunlar, bir çox qərarlar qəbul olundu. Beləliklə, mən bu təhsil məktəb sistemini həm gəncliyimdən, həm Azərbaycana rəhbərlik etdiyim dövrdən bilirəm, həm də SSRİ-nin rəhbərlərindən biri kimi o zaman bu sahə ilə bilavasitə məşğul olduğuma görə bilirəm.

Bildirmək istəyirəm ki, 1983-1984-cü illərdə Sovetlər İttifaqının rəhbərliyində həqiqətən ölkənin demokratikləşdirilməsi üçün bir çox addımlar atılırdı. Andropov Sovetlər İttifaqına rəhbərlik



etdiyi, mən də o vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olduğum zaman bu sahədə görülmüş işlərin hamısını bilirəm. İndi bunu geniş danışmağa vaxt yoxdur və lazım da deyildir. Ancaq atılmış həmin demokratik addımlardan biri 1983-cü ildə Sovet İttifaqında ilk dəfə "Əmək kollektivləri haqqında" qanunun qəbul edilməsi və 1984-cü ildə Ali Sovetin sessisysında məktəb islahatı barədə qanunun, bir çox qərarlarının qəbul olunması idi. Bu, tarixdir və bu tarixi heç kəs poza bilməz.

1983-cü ildə sovet İttifaqının tarixində ilk dəfə "Əmək kollektivləri haqqında" qanunun hazırlanması üzrə komissiyanın sədri mən olmuşam. Həmin qanunu mən hazırlamışam, 1983-cü ilin iyununda SSRİ Ali Sovetinin sessiyasında bu qanun haqqında məruzə etmişəm və bu qanun qəbul olunmuşdur. 1984-cü ildə "Məktəb islahatı haqqında" qanun hazırlamışam, o da qəbul edilibdir.

Doğrudur, 1985-ci ildə Qarbaçov Sovetlər İttifaqının başçısı seçiləndən sonra o illərdə görülmüş işlərə görə onda böyük bir qısqanclıq əmələ gəldi. Qarbaçov həm birinci qanunun, həm də məktəb islahatının həyata keçirilməsinə imkan vermədi, şərait yaratmadı. O özü hansısa yeni-yeni islahatlar irəli sürdü. Ancaq buna baxmayaraq, o qanunlar öz işini gördü. Məktəbin təkmilləşməsi sahəsində o illərdə bir çox işlər görülübdür.

Beləliklə, bu gün məktəb, təhsil haqqında sizinlə söhbət aparmağa və bərabərhüquqlu dialoqa girməyə mənim haqqım vardır. Ancaq bütün bunlar tarixdir, keçmişdə qalıbdır. Amma keçmişdə qalan hər bir iş də bugünkü işlərin əsasını təşkil edir.

Bu gün biz müstəqil Azərbaycanda bütün təhsilin – orta, texniki, peşə, orta ixtisas məktəblərinin və ali məktəblərin işinin yaxşılaşdırılması sahəsində ciddi tədbirlər görməliyik. Mən hesab edirəm ki, bunlar da həm qəbul olunacaq təhsil qanununda, həm də təhsil islahatı ilə əlaqədar qəbul ediləcək qanunda və qərarlarda öz əksini tapacaqdır. Əmin ola bilərsiniz ki, mən indiyə qədər topladığım təcrübəmdən istifadə edərək və Azərbaycanın prezidenti kimi müstəqil ölkəmizin gələcəyi haqqında daim düşünərək bu məsələlərlə müntəzəm məşğul olacağam. Respublikamızda məktəb, təhsil bundan sonra da mənim daim qayğılarım altında, diqqət mərkəzində olacaqdır.

Mənim haqqımda siz də çox sözlər demisiniz, mən də öz fikirlərimi indiyə qədər bildirmişəm. Amma bu gün müstəqil Azərbaycanın müəllimlərinin ilk qurultayıdır. Biz XX əsri sona çatdırırıq, XXI əsrə doğru gedirik. Mən bəyan edirəm ki, bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir.

Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki,müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, müəllimlərdən sizdən almışıq.

Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Bunu bu gün bir daha bildirmək istəyirəm. Arzu edirəm ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın. Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırardıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur. Mən tək deyiləm, hesab edirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür. Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çoxillik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı həmişə uğurlu edibdir və bu gün də uğurlu edir.

Əziz dostlar, siz fəxr etməlisiniz ki, müəllimsiniz və müəllimlik peşəsinə sadiqsiniz. Doğrudur, müəllimin maddi vəziyyəti başqa təbəqələrə nisbətən zəif olur, elə keçmişdə də belə idi. Həqiqətən belədir. Məsələn, 70-ci illərdə mən Azərbaycana



rəhbərlik etdiyim zaman, yaxud da Sovetlər İttifaqında bu məsələlərlə məşğul olduğum zaman biz daim düşünürdük ki, müəllimlərin maaşını nə təhər artıraq, onların maddi vəziyyətini necə yaxşılaşdıraq. Sizə deyə bilərəm ki, 1984-cü ildə məktəb islahatı keçirilərkən biz eyni zamanada müəllimlərin maaşının artırılması haqqında qərar qəbul etdik.

Amma bunlara baxmayaraq, hesab edirəm ki, başqa təbəqələrə nisbətən müəllimlər elə o vaxt da az təminatlı adamlar olublar və bu gün də az təminatlıdırlar. Bu, müəllimliyin xüsusiyyətidir. Çünki, əsl müəllim pul, sərvət üçün yox, həmişə mənəviyyat üçün xidmət edibdir. Xatirimdədir, orta məktəbdə, pedaqoji texnikumda oxuyanda mənim maddi vəziyyətim, yəni ailəmin vəziyyəti çox zəif idi. Ancaq görürdüm ki, mənə dərs verən müəllimlərin maddi vəziyyəti bizim maddi vəziyyətimizdən o qədər də artıq deyildir. Amma nə qədər həvəslə, sədaqətlə və nə qədər ürəklə bizə tərbiyə, dərs verirdilər. Ona görə də müəllimlik peşəsi həmişə fədakarlıq tələb edir. Bu, belə olubdur.

Mən hesab edirəm ki, insan cəmiyyətdə ən yüksək yerdə mənəviyyat durur. Maddi vəziyyət, sərvət, bu və ya başqa şeylər xeyli aşağıda durur. Bununla onu demək istəmirəm ki, müəllimlər həmişə maddi çətinlik içərisində yaşamalıdırlar. Yox, sadəcə, bu sözlərimlə mən özünü müəllimlik peşəsinə həsr edən insanın həmin peşəyə sadiqliyini sübut etmək istəyirəm. Ola bilər, o müəllimlər gedib başqa bir işlə məşğul olsaydılar, bir neçə qat artıq fayda götürə bilərdilər və maddi vəziyyətləri də yaxşı olardı. Ancaq onlar müəllimlik peşəsini seçiblər, siz müəllimlik peşəsini seçmisiniz. Buna görə də mən sizə "afərin"! deyirəm, sizin qarşınızda, müəllimin qarşısında baş əyirəm.

Eyni zamanda sizi əmin edirəm ki, müəllimin maddi vəziyyətini yaxşılaşdırmaq üçün mümkün olan tədbirləri görəcəyik, müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq üçün mümkün olan tədbirləri görəcəyik, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına nail olacağıq. Müəllimlər qurultayına bir neçə gün-həftə, on gün qalmış Nazirlər Kabinetinə, maliyyə, iqtisadiyyat nazirliklərinə göstəriş verdim ki, qurultay keçirilənə qədər müəllimlərin maaşlarının artırılması üçün nə etmək olar? On gündür bu işlə məşğul olurlar. Bildirmək istəyirəm ki, müəllimlərin maaşlarının qaldırılması üçün yaxın aylarda ciddi tədbirlər görüləcəkdir.

Siz real vəziyyəti bilməlisiniz. Real vəziyyət ondan ibarətdir ki, son üç ildə biz Azərbaycanda iqtisadiyyatı müəyyən qədər sabitləşdirmişik. Bu gün burada Azərbaycanda yaranmış ictimai sabitlik haqqında çox gözəl sözlər dediniz. Onlara görə sizə təşəkkür edirəm. Ancaq eyni zamanda, bu ictimai-siyasi sabitliyə nail olmaq üçün, başqa tədbirlərlə yanaşı, iqtisadiyyatda da sabitliyə nail olmaq lazımdır. Biz iqtisadiyyatda, maliyyə sistemində sabitliyə, normal inkişaf yoluna nail ola bilmişik. Bu, asan məsələ deyildir.

Bilirsiniz ki, son üç ildə müəllimlərin maaşı bir neçə dəfə artırılıbdır. 1995-ci ilə nisbətən müəllimlərin maaşı 1996-cı ildə 2,6 dəfə, 1996-cı ilə nisbətən 1997-ci ildə 1,7 dəfə, 1998-ci ilin birinci yarısında 12 faiz artırılıbdır. Amma bu azdır. Siz də deyirsiniz, mən də bununla razıyam. Amma təsəvvür edin, 1995-ci ilə nisbətən 1996-cı ildə 2,6 dəfə, 1996-cı ilə nisbətən 1997-ci ildə 1,7 dəfə və nəhayət bu ilin birinci yarısında 12 faiz artırılıbsa, bunun üçün vəsait tapmaq lazımdır.

Büdcədən təhsilə ayrılan vəsait ilbəil artır. 1996-cı ildə büdcənin 17 faizi, 1997-ci ildə 20 faizi, 1998-ci ildə isə 22 faizi təhsilə ayrılıbdır. Bu dinamikanı, artımı görürsünüz. Bu da azdır. Ancaq imkanlarımız bundan ibarətdir. Respublika üzrə müəllimin orta əmək haqqı 1995-ci ildə 30 min manat, 1996-cı ildə 78 min manat olubsa, bu ilin birinci yarısında 150 min manatdır. Bu, statistikadır. Ola bilər, birində çoxdur, birində azdır, amma bu, statistikadır.

Mən dünən Suraxanı rayonunda idim. Ora Neftçilər rayonudur və orada böyük istehsal var. Suraxanı rayonunda əhalinin, işləyənlərin orta əmək haqqı 400 min manatdır. Neftçilərin orta əmək haqqı 500 min, bəzən 600 min manatdır. Amma büdcədən maliyyələşdirilən təşkilatlara lazımi vəsaiti büdcəyə gəlirlərdən ayırırıq. Onu da bilməlisiniz ki, büdcədən maliyyələşdirilən təşkilatlar içərisində ən çox vəsait ayrılan təhsil sahəsidir. Bu, reallıqdır.

Onu da bilməlisiniz ki, göstərilən artımla yanaşı Azərbaycanda dediyim kimi, 1996-cı ildən iqtisadiyyatda sabitlik əmələ gəlibdir. Bu da nədən ibarətdir? Məsələn, 1994-cü ildə Azərbaycanda inflyasiya 1400 faiz, 1995-ci ildə 80 faiz, 1996-cı ildə təxminən 8-9 faiz, 1997-ci ildə 0,4 faiz olubdur. 1998-ci ildə inflyasiya yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, bu üç il



müddətində Azərbaycanda qiymətlər artmır. Maaş artır, amma qiymətlər artmır.

Bu iqtisadi məsələləri, maliyyə məsələlərini bəlkə də hər kəs dərk edə bilmir. Ancaq dövləti, maliyyəni, iqtisadiyyatı idarə etmək şüarlarla ola bilməz. İndi radikal müxalifətdə olanlar hər şeyi pisləyir, tənqid edirlər. Amma onlar yalan danışırlar. Yaxud da bəzən başqalqarı ucuz şöhrət qazanmaq üçün "filan maaşları filan qədər artırmaq, filan malların qiymətini bu qədər azaltmaq lazımdır, filan işləri belə etmək lazımdır", -deyirlər.

Bilirsiniz, kənarda durub iqtisadiyyatla məşğul olmayan və məsuliyyət daşımayan adamlar hər cür populist söz deyə bilərlər. Əziz bacılar, qardaşlar, ancaq bilin, bu iqtisadiyyatla biz məşğul oluruq, Azərbaycanın iqtisadi sabitliyini təmin etmişik. Biz şüarların hisslərin təsiri altında iş görə bilmərik. Nə mümkündürsə, biz onu edirik.

Rusiyada gedən proseslərə baxın. Rusiyada son dörd-beş ayda böyük bir böhran baş veribdir. Bu nədən ibarətdir? Maaşlar verilə bilmir. Neçə aylarla müəllimlərin maaşları, pensiyalar verilə bilmir. Büdcədən maliyyələşdirilən başqalarının maaşları verilə bilmir. Dünən bizim sosial müdafiə fondunun sədri çıxış edirdi, o, bildirdi, -bildirməsə də məndə məlumatlar var, -bizdə avqust ayının pensiyaları hamısı verilibdir. Müəllimlərin yay məvaciblərinin hamısı verilibdir. Bunu təmin etmək asan məsələ deyil, bunu bilin. Əgər büdcənin 22 faizi təhsilə və onun da əksər hissəsi maaşlara gedirsə, bu vəsaiti \ldə etmək asan məsələ deyildir.

Sizə bu məsələni də demək istəyirəm. Dünyada-Şərqi və Cənub-Şərqi Asiyada baş vermiş böyük maliyyə böhranı nəticəsində neftin və neft məhsullarının qiyməti iki dəfə azalıbdır. Bizim büdcənin gəlirinin də çox hissəsini neft məhsullarından əldə olunan gəlir təşkil edir. Mən sizə açıq deyirəm, bu, iqtisadiyyatımızın indiki mərhələsində bizə çox böyük zərbə vurubdur. Buna baxmayaraq, bizdə manatın dəyəri sabitdir. Amma Rusiyaya baxın. İqtisadi böhran orada hökuməti istefaya göndərdi-Çernomırdini prezident istefaya göndərdi. Ondan sonra Kiriyenkonu təyin elədi, yəni bir hökumət yarandı. O, bu böhranın qarşısını ala bilmədi, böhran daha da dərinləşdi. Prezident onu da istefaya göndərdi. İndi on gündür ki, yeni hökumət yaranır.

Bilirsiniz, bəli, orada bir çox maaşları artırıblar, amma onu təmin edə bilmirlər. Bu, bir tərəfdən. İkinci tərəfdən, buraxılmış cürbəcür nöqsanlar nəticəsində Rusiyanın valyutasının –rublun devalvasiyası gedib, qiyməti düşübdür. Bilirsiniz ki, Rusiyada pul islahatı keçirildi. Pullar dəyişdirildi və sıfırlar götürüldü, bir milyon gəldi oldu, nə bilim, nə qədər. Son üç aya qədər 1 dollar 6 rubl idi. Sonra maliyyə böhranı ki, başladı, 1 dollar 24 rubla qalxdı. Təsəvvür edirsinizmi, Rusiyada dolların qiyməti 4 dəfə qalxdı. Bu Rusiyanın bütün maliyyəsini, bankların vəziyyətini pozdu, maaşlar verilmir və sair. Dünən mən dinləyirdim, indi görülən bütün tədbirlər, xaricdən alınan kreditlər nəticəsində 1 dollar 15 rubl olubdur, bir az aşağı salıblar. Ancaq bu, böyük bir fəaliyyətdir.

Amma bizdə isə dolların məzənnəsi sabitdir, son iki-üç ildə manat dollara nisbətən daha da möhkəmlənibdir. Demək, üç il müddətində bizim manatın alıcılıq qabiliyyəti tamamilə sabitdir və qiymətlər də qalxmayıbdır. Bilirsiniz, maliyyənin xüsusiyyətləri, incəlikləri bəlkə də hər bir adam üçün məlum deyildir. Amma mən bunları sizlərə deməyə məcburam ki, siz bilirsiniz: Azərbaycanı bu ağır vəziyyətdə idarə etmək, iqtisadiyyatı son üç ildə sabit saxlamaq və onun inkişafına nail olmaq asan məsələ deyildir.

Yenə də deyirəm, bu, küçələrdə deyilən şüarlara, yaxud ayrı-ayrı populist danışıqlarla, məsuliyyətsiz adamların danışıqları ilə bir araya gəlməz.

Bunları etmək üçün o adamların biri gəlib məsuliyyəti üzərinə götürməlidir. Amma götürə bilməz. Çünki bu söhbətləri edən adamlar nə maliyyə, nə də iqtisadiyyatı bilmirlər. Heç bir şey bilmirlər, ancaq şüar deməyi bilirlər.

Təsəvvür edin, əgər mən 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanda iqtisadiyyatı bu qədər yüksəklərə qaldıra bilmişdimsə, Sovetlər İttifaqının büdcəsinin formalaşdırılmasına rəhbərlik edirdimsə, bu işlərlə məşğul olan adam idimsə, böyük bir superdövlətin maliyyəsini, böyük ölkələrin maliyyəsini bilən adam kimi mən sizə məsuliyyətlə deyirəm ki, vəziyyət bundan ibarətdir.

Konkret olaraq müəllimlərin maaşlarının artırılması barədə. Əgər neftin qiymətinin düşməsi ilə əlaqədar son aylarda neftdən gələn gəlirlərimiz azalmasaydı, bəlkə də elə bu qurultay zamanı maaşların artırılması haqqında müəyyən bir fərman verə bilərdim. Ancaq sizə açıq deyirəm, yaranmış belə vəziyyətdə mən bunu edə



bilmirəm. Eyni zamanda sizə bəyan edirəm ki, indi 1999-cu ilin büdcəsi hazırlanır, biz onu təxminən noyabr ayında müzakirə edəcəyik və 1999-cu ilin əvvəlindən müəllimlərin maaşının artırılacağına söz verirəm.

Mən sizə hər şey olduğu kimi deyirəm. Yalan söz demək, xalqı aldatmaq heç bir rəhbərə, vəzifəli şəxsə heç vaxt uzunmüddətli uğur gətirməyibdir. Mən isə istəyirəm ki, Azərbaycanda iayanmış ictimai-siyasi sabitlik, iqtisadi-maliyyə sabitliyi davam etsin və biz Azərbaycanın iqtisadiyyatını bu ilin sonuna qədər və 1999-cu ildə də inkişaf etdirək. Biz bunu inkişaf etdirəcəyik. Həm Azərbaycanın istehsal sahələrini hərəkətə gətirərək, həm də özəlləşdirməni apararaq, iqtisadi islahatları həyata keçirərək, torpaq islahatını həyata keçirərək istehsalı artırırıq və bu artım da öz nəticələrini verir.

Maaşı artırmaq, maliyyə əldə etmək üçün birinci növbədə ümumi daxili məhsulu artırmaq lazımdır. Mən dəfələrlə demişəm və bu gün bir də demək istəyirəm. Bilirsiniz ki, 1990-cı ildən, hətta 1989-cu ildən Azərbaycanda istehsal tənəzzülə başlayıbdır. Bu tənəzzül 1995-ci ilə qədər davam edib və istehsalın-sənaye, kənd təsərrüfatı istehsalının və ümumi daxili məhsul istehsalının həcmi hər il təxminən 20-25 faiz aşağı düşübdür. 1996-cı ildə biz bu azalmanı dayandırmışıq. Ümumi daxili məhsul 1996-cı ildə 5,8 faiz, 1997-ci ildə 8 faiz artmışdır. Bu ilin ötən aylarında isə 9 faiz artıbdır. Bu, böyük hadisədir ki, biz tənəzzülü dayandırmışıq və artıma nail olmuşuq. Bu artım çoxaldıqca bizim maliyyə gəlirlərimiz də gələcək və beləliklə, əhalinin iqtisadi vəziyyətini yaxşılaşdıracağıq, o cümlədən büdcədən maliyyələşdirilən müəllimlərin, təhsil işçilərinin maddi vəziyyətini yaxşılaşdıracağıq.

Burada bir çox təkliflər irəli sürüldü. Mən hesab edirəm ki, bu təkliflərin hamısı çox dəyərlidir və nəzərə alınmalıdır. Amma təkliflərdən bir-ikisinə öz münasibətimi bildirmək istəyirəm. Birincisi, məktəblərin, ümumiyyətlə, təhsil ocaqlarının maddi-texniki vəziyyəti haqqında. Doğrudur, indi biz əvvəllərdəki kimi məktəb binaları, ali təhsil ocaqları, lazımi binalar tikə bilmirik. Çünki bu imkanlar yoxdur. Mən sizə dedim, 1979, 1980, 1981-ci illərdə biz orta hesabla ildə 50-60 məktəb tikib istifadəyə verirdik. Yaxud da Bakı Dövlət Universitetinin, başqa universitetlərin tədris kompleksləri nə qədər genişlənib, inkişaf edibdir. Bütün bu çətinliklərə baxmayaraq, Tibb Universitetinin də yeni tədris korpusu

hazırlanıb, istifadəyə verilmək ərəfəsindədir. Mən yəqin ki, bu günlərdə gedib onunla tanış olacağam. Ancaq bunlar bizim keçmişdə olan imkanlarımız deyildir, ona görə də edə bilmirik.

Açıq demək lazımdır, əgər mən bu respublikaya rəhbərlik etdiyim zaman ildə 50-60 məktəb tikmək mümkün idisə, bu gün yenə də respublikaya rəhbərlik edirəm, niyə bunu tikə bilmirik? Ona görə yox ki, bunu bacarmırıq, istəmirik. Ona görə ki, bunun üçün bizim maddi və maliyyə imkanlarımız çatmır. Ancaq bildirirəm ki, maliyyə, maddi imkanlarımız ilbəil artacaq və bunun nəticəsində də biz Azərbaycanda yenidən təhsil ocaqlarının tikilməsi, istifadəyə verilməsi prosesini aparacağıq.

Eyni zamanda, burada tamamilə düzgün fikir söyləndi ki, bizim iş adamları, ayrı-ayrı şirkətlər ya məktəb binası tikə, yaxud da mövcud məktəblərin təmirini öz üzərinə götürə bilərlər. Burada doğru deyildi, bəzi iş adamları məscid tikirlər-o da lazımdır, mən bunu çox əhəmiyyətli hesab edirəm, - ancaq bir məscid tikəndə, bir dənə də məktəb binası tikmək lazımdır. Ona görə də mən burada deyilən fikirlərə şərik çıxaraq üzümü tuturam Azərbaycanda fəaliyyət göstərən iş adamlarına, şirkətlərə və müraciət edirəm ki, onlar bu sahədə təşəbbüs göstərsinlər. Bəyan edirəm ki, bu sahədə təşəbbüs göstərsə, hansısa bir məktəbi yaxşı təmir edib müasir vəziyyətə salmağö öz üzərinə götürsə, şübhəsiz ki, o, dövlət tərəfindən müəyyən qayğı altında olacaqdır. Ümidvaram ki, mənim bu şağırışıma qoşulanlar olacaqdır. Hesab edirəm ki, bizim Təhsil Nazirliyi mənim bu çağırışımla əlaqədar lazımi işlər görməlidir. Beləliklə, biz şirkətləri, iş adamlarını təhsilə vəsait sərf etməyə və təhsilin inkişafına qo.ulmağa cəlb edə bilərik.

Burada məktəbə altı yaşından getmək məsələsi barədə də fikir söyləndi. Mən anlamıram, nə üçün bu, indiyə qədər müzakirə olunur? 1984-cü ildə "Məktəb islahatı haqqında" qəbul olunmuş qanunda uşaqların altı yaşından məktəbə getməsi tamamilə məqbul hesab edilmişdi. Burada deyildi, doğrudan da bəzən altı yaşına çatmamış uşaqlar var ki, çox istedadlı, hazırlıqlıdırlar və onları məktəbə qəbul etmək lazımdır. Hesab edirəm ki, bu barədə də lazımi tədbirlər görülməlidir.

Mən sizə öz təcrübəmdən deyə bilərəm. Mən özüm altı yaşımda məktəbə getmişəm,-o vaxt hələ nə islahat, nə də qanun var idi, -məni məktəbə qəbul ediblər və on altı yaşımda məktəbi bitirmişəm.Oğlum isə məktəbə gedəndə hələ altı yaşı da tamam deyildi. Bunlar hamısı təkcə mənim yox, çox insanların övladlarının təcrübəsindən keçibdir və buna mane olmaq lazımdır deyildir.

Bizim hamımızın ən əsas qayğısı işğal olunmuş torpaqlardan didərgin düşmüş soydaşlarımızın, vətəndaşlarımızın vəziyyəti və onların, xüsusən çadırlarda və qeyri-münasib binalarda yaşayan ailələrin uşaqlarının təhsili məsələsidir. Mən bəzən görürəm, televiziya ilə göstərirlər ki, çadır şəhərciklərində müəllimlər uşaqlara çadır altında dərs keçirlər. Bizim dövrümüzdə bunu görmək bir tərəfdən ağırdır, çünki indi, XX əsrin sonunda bir çox vətəndaşlarımız çadırda yaşayır və uşaqlar da çadırlarda təhsil alırlar. Amma ikinci tərəfdən də bu, məndə böyük qürur hissi doğurur ki, Azərbaycan vətəndaşları, azərbaycanlılar təhsilə nə qədər bağlıdırlar, övladlarını nə qədər təhsilləndirmək, maariflənmək istəyirlər, hətta çadırda, ağır şəraitdə yaşayaraq uşaqlarını məktəbə oxumağa göndərirlər. Xüsusən çadır şəhərciklərindəki məktəblərdə dərs verən müəllimlərin fəaliyyətini qiymətləndirirəm. O müəllimlər ki, çətin vəziyyətdə, bəzən qarın altında, palçığın içində, ağır vəziyyətdə, bəzən qarın altında, palçığın içində, ağır vəziyyətdə çadırda dərs verir, özünün şərəfli müəllimlik vəzifəsini yerinə yetirir, köçkün uşaqlarını tərbiyələndirir və onlara təhsil verirlər-bunlar xüsusi hörmət və ehtirama layiqdirlər.

Bilirsiniz ki, Azərbaycanın işğal olunmuş torpaqları problemi ilə biz məşğuluq. Siz də burada dediniz ki, bu məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarısınız. Mən bu gün bir də bəyan edirəm ki, biz ötən dörd il müddətində, yəni atəşkəs əldə ediləndən sonra bu sahədə çox iş görmüşük və məsələnin sülh yolu ilə həll olunması üçün bir çox imkanlar yaranıbdır. Əminəm ki, biz buna nail olacağıq. Ancaq sizin qarşınızda bəyan edirəm: əgər biz bu yolla torpaqlarımızı işğalçı dəstələrdən azad edə bilməsək, işğal edilmiş torpaqların hamısının nəyin bahasına olur-olsun, hamımız birlikdə, indi yaranmış güclü ordumuzla və öz iradəmizlə azad edilməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik.

Bu gün buradakı çıxışlarda son vaxtlar Azərbaycanda yaranmış mövcud vəziyyət haqqında öz fikirlərinizi bildirdiniz. Bizim ən böyük nailiyyətlərimizdən biri ölkəmizdə ictimai-siyasi sabitliyin yaranmasıdır. Buna da çox çətinliklə nail olmuşuq. 1993-

cü ili xatırlayın, Azərbaycanın o ildəki vəziyyətini, vətəndaş müharibəsini və müxtəlif cinayətkar dəstələrin tuğyan etməsini yadınıza salın. Biz böyük çətinliklərdən keçərək və böyük fəlakətlərin qarşısını alaraq, Azərbaycanda vətəndaş müharibəsinə yol vermədik. Ondan sonra, 1994-cü ilin oktyabr ayında dövlət çevrilişinin qarşısını sizin köməkliyinizlə, dəstəyinizlə aldıq. 1995-ci ilin mart ayında daxildə olan düşmən qüvvələrin xarici ölkələrin xüsusi xidmət orqanları ilə birlikdə Azərbaycanı dağıtmaq məqsədi ilə başqaları dövlət çevrilişinin qarşısını aldıq.

Ondan sonra Azərbaycanın dövlətçiliyinə qarşı təxribatlar, terrorlar baş verdi. Bəli, sabunçuda olan körpünü partlatmaq istədilər-onun qarşısını aldıq. Prezidentin təyyarəsini vurmaq istədilər-onun qarşısı alındı. Biz bir çox belə bəlalardan keçib gəlmişik. Ancaq bizim iradəmiz, apardığımız siyasət, gördüyümüz işlər sayəsində Azərbaycanda bütün bu cinayətkar dəstələr zərərsizləşdirilib, ölkədə rahatlıq yaranıbdır və siz də, Azərbaycan vətəndaşları da ictimai-siyasi sabitlik şəraitində rahat, sakit yaşamaq imkanı əldə etmisiniz.

Biz bunu qoruyub saxlamalıyıq. Çünki Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu aparmaq, siyasi, iqtisadi və sosial islahatları həyata keçirmək, iqtisadiyyatı inkişaf etdirmək üçün, Azərbaycanın işğal olunmuş torpaqlarından işğalçı dəstələri çıxarmaq, respublikanın ərazi bütövlüyünü bərpa etmək üçün, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək üçün daxili vəziyyət daim sabit olmalı və hər bir təxribatçı qüvvənin qarşısı alınmalıdır.

Ancaq təəssüf olsun ki, bəzi qüvvələr yenə də Azərbaycanda qarışıqlıq salmaq, yaranmış sabitliyi pozmaq, xalqımıza çətinliklər yaratmaq istəyirlər. Siz bunu görürsünüz və çıxışlarınızdan, qəbul etdiyiniz qətnamədən belə qənaətə gəlirəm ki, bütün bu hərəkətləri pisləyir, bunlara etiraz edirsiniz, Azərbaycanın dövlətçiliyini qoruyursunuz və qoruyacaqsınız. Mən isə sizə söz verirəm ki, yaranmış ictimai-siyasi sabitliyi, Azərbaycanın dövlətçiliyini bundan sonra da qoruyacağıq, buna qadirik. Azərbaycanın dövlət müstəqilliyini qoruyub inkişaf etdirəcəyik.

Azərbaycanda demokratiya bərqərar olub, demokratiya inkişaf edir. Oktyabr ayının 11-də keçiriləcək prezident seçkiləri bir daha Azərbaycanın demokratiya yolu ilə getməsini dünyaya



nümayiş etdirəcəkdir və ölkəmizdə demokratiyanın təntənəsinə çevriləcəkdir. Mən çox məmnunam ki, siz oktyabr ayının 11-də keçiriləcək prezident seçkilərinin siyasi əhəmiyyətini və mahiyyətini yaxşı bilirsiniz. Bu gün öz çıxışlarınızda, qəbul etdiyiniz qətnamədə və xalqa ünvanlanmış müraciətinizdə bəyan etdiniz ki, bu seçkilərin keçirilməsi üçün vətəndaş kimi öz mövqeyinizi bundan sonra da bildirəcək və öz xidmətlərinizi göstərəcəksiniz.

Prezidentliyə altı namizəd var. Hər bir namizədin sərbəst fəaliyyət göstərməsi üçün imkanlar yaranıbdır. Seçicilər, siz isə istədiyiniz adama səs verə bilərsiniz. Bunun üçün hər kəs sərbəsdir, azaddır. Azərbaycanın prezidenti kimi mənim məqsədim ondan ibarətdir ki, respublikada prezident seçkilərinin sərbəst, azad, ədalətli keçirilməsi təmin olunsun. Bu, sizdən hər bir vətəndaşdan, hamınızdan asılıdır. Bu gün burada hökm sürən əhval-ruhiyyə göstərir ki, biz sizinlə birlikdə buna nail olacağıq.

Siz burada mənim ünvanıma çox dəyərli sözlər dediniz. Bunlara görə sizə təşəkkür edirəm. Sizə bildirirəm ki, mənim həyatımın mənası və məqsədi həmişə xalqa xidmət etməkdən ibarət olubdur. Bu gün də burada bütün günü sizinlə birlikdə Azərbaycanın təhsil məsələlərinin müzakirəsində iştirak edərək ölkəmizin bu gününə və gələcəyinə öz xidmətimi göstərmək istəyirəm. Siz hətta mənə, belə başa düşürəm, bir fəxri ad verdiniz. Bu mənim üçün gözlənilməz hadisə, sürpriz oldu. Bunu sadəcə, sizin ictimai təşkilatın mənə göstərdiyi hörmət kimi və xidmətlərimə verdiyiniz qiymət kimi qəbul edir və sizə təşəkkür edirəm.

Görürsünüz ki, mən nümayəndə olmasam da, sizin qurultayınızda fəal iştirak edirəm. Hətta Təhsil Şurası haqqında siyahı oxuyanda yalnız mən təşəbbüs göstərdim. Amma gördüm ki, buraxılmış həmin səhvi siz də görmürdünüz, ancaq nədənsə bunu demədiniz. Bəlkə də, mən deməsəm, siz deyəcəkdiniz. Bu barədə öz fikrimi izah etmək istəyirəm. Mən belə anladım ki, qurultayda yaradılan Təhsil Şurası ictimai təşkilatdır, müəllimlərin, təhsil işçilərinin təşkilatıdır. Ona görə də belə bir təşkilatda yalnız müəllimlər, bilavasitə təhsil sahəsində işləyənlər, bilavasitə təhsillə məşğul olanlar olmalıdırlar. Belə bir şuraya hökumət üzvlərinin və Prezident Aparatının bir çox məsul vəzifəli şəxslərini, başqa vəzifəli şəxsləri, hətta daxili işlər nazirini, müdafiə nazirini və baş prokuroru salmaqla bu şuranın tamamilə mənasını dəyişirsiniz.

Əksinə, mən hesab edirəm ki, bu şuranın müstəqil olması üçün orada dövlət nümayəndələri olmamalıdır. Gərək bu şuranın müstəqil olması üçün orada dövlət nümayəndələri olmamalıdır. Gərək bu şura müstəqil olsun, ictimai təşkilat olsun, öz sözünü hökumətə, hakimiyyət orqanlarına desin və öz təkliflərini irəli sürsün. Şurada nazirlərin olması sizə lazım deyildir. Mən isə söz verirəm ki, hər bir nazirin, hökumət nümayəndəsinin sizin şuranın bütün təkliflərinə, qərarlarına baxmasını təmin edəcəyəm. Ona görə də şuranın tərkibində onların olmasına ehtiyac yoxdur. Güman edirəm ki, şuranın tərkibi sizin də, mənim də düşündüyümüz kimi olacaqdır. Əminəm ki, bu şura formal bir təşkilat yox, işlək təşkilat olacaq və təhsilin, müəllimin, məktəbin problemlərini həll etmək üçün həmişə fəal olacaqdır. Azərbaycanın prezidenti kimi mənim tərəfimdən isə bu şura həmişə dəstək ala biləcəkdir.

Əziz dostlar, siz mənim yenidən prezident seçilməyim üçün burada öz fikirlərinizi bildirdiniz. Buna görə sizə təşəkkür edirəm. Sizə açıq demək istəyirəm ki, mən Azərbaycan xalqı qarşısında öz borcumu yerinə yetirmişəm. İndiyə qədərki həyatım və gördüyüm işlər bunu hər bir insan üçün sübut edir. Ancaq mən Azərbaycanı bu müstəqillik dövründə daha da inkişaf etdirmək üçün bundan sonra da öz xidmətlərimi göstərməyi lazım bilirəm. Ona görə ki, mən hiss edirəm-sizin də, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də buna ehtiyacı var. Bu ehtiyacı hiss edərək mən yenidən prezident seçilməyimə razılıq vermişəm.

Mən bəyan edirəm ki, əgər siz Azərbaycanın seçiciləri mənə səs verib 11 oktyabrda məni yenidən prezident seçsəniz, gələcəkdə də bu vəzifəni namusla, şərəflə yerinə yetirəcəyəm.

Əziz və hörmətli müəllimlər! Mən sizin hamınıza cansağlığı, səadət, gələcək işlərinizdə uğurlar arzu edirəm. Sizi əmin edirəm ki, mən daim sizinlə olacağam. Siz mənim ən yaxın dostlarımsınız və heç bir qüvvə məni sizdən, sizi də məndən ayıra bilməz.

Eşq olsun Azərbaycan müəlliminə!

Eşq olsun Azərbaycan müəlliminə!

Yaşasın müstəqil, demokratik Azərbaycan!



## TƏHSİL HƏR BİR DÖVLƏTİN, ÖLKƏNİN, CƏMİYYƏTİN HƏYATININ MÜHÜM SAHƏSİDİR

**Azərbaycan prezidenti Heydər Əliyevin Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında nitqi**

**19 aprel 1999-cu il**

Azərbayca təhsil sahəsində islahatların hazırlan-ması və yeni təhsil qanununun hazırlanması bizim işimizin əsas hissələrindən biridir.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Azərbaycanda iki milyon uşaq, gənc ümumtəhsil məktəblərində və ali təhsil ocaqlarında təhsil alır. Səkkiz milyon əhalidən iki milyonu, yəni bütün əhalinin dörddəbir hissəsi təhsil alır. Əgər nəzərə alsaq ki, təhsil alan hər bir uşagın, gəncin arxasında ailə durur, ailə də əhalinin o iki milyaondan əlavə hissəsini təşkil edir, beləliklə, təhsil sahəsi elə bir sahədir ki, cəmiyyət üzvlərinin, əhalinin, demək olar, tam əksəriyyəti bu sistemlə bağlıdır. O mənada ki, kimin uşağı, oğlu-qızı təhsil alıbsa-amma hamınınki, kimin ki, evdə uşağı, oğlu-qızı var, onlar təhsil alır. Azərbaycanda belədir, əksəriyyət təhsillə bağlıdır. Ona görə də təhsil sahəsi cəmiyyət üzvlərinin, demək olar ki, tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir, yaxud da iştirakı ilə bağlıdır. Bir də ona görə ki, təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüssusi, intelekyual həyatını əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Hesab edirəm ki, bu tələblər hər ölkədə var. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar.

Təəssüflər olsun ki, azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş təhsil qanunu ilə böyük zərbə vurulmuşdur. Mən təəssüf edirəm ki, təhsil sahəsində çalışan məsul şəxslər və təhsil işçiləri Azərbaycanın təhsil sisteminə vurulan bu zərbəni indiyə qədər təhlil etməyiblər, araşdırmayıblar və buna lazımi qiymət verməyiblər. Keçid dövründə iqtisadiyyata vurulmuş zərbə, yaxud

həyatımızın bir çox başqa sahələrinə vurulmuş zərbə aydındır, bunu cəmiyyət bilir. Amma təhsil sisteminə də böyük zərbə vurulubdur.

Biz indi yeni təhsil qanunu qəbul etmək ərəfəsindəyik. Təhsil qanunu Milli Məclisdə müzakirə olunub, ümumxalq müzakirəsinə verilibdir. Mən artıq dedim ki, ölkə əhalisinin demək olar ki, tam əksəriyyəti təhsillə əlaqədardır, təhsillə bağlıdır. Buna görə hər bir vətəndaş öz fikrini bildirməlidir ki, Azərbaycanın yeni təhsil qanunu onu qane edir, ya etmir.

Bununla yanaşı, biz təhsil sahəsində islahatlar proqramı hazırlamışıq. Burada Dünya Bankı bizə yardım göstərir, bizimlə əməkdaşlıq edir. Mən belə anladım ki, indi bizim təhsil islahatları komissiyası və eyni zamanda Dünya Bankının nümayəndələri yekdil fikirdədirlər ki, hazırlanmış təhsil islahatları proqramının layihəsi günün tələblərinə cavab verir. Mən bu layihəyə diqqətlə baxacağam və əgər mən də sizin fikrinizlə razı olsam, layihəni təsdiq edəcəyəm. Beləliklə, sənəd əməli iş üçün hazır olacaqdır.

Bu münasibətlə bir neçə kəlmə demək istəyirəm. Azərbaycanda təhsil sisteminin tarixi böyükdür. Ancaq Azərbaycanın təhsilində böyük dəyişikliklər, böyük inkişaf XX əsrə məxsusdur. XX əsrin əvvəllərində Azərbaycanda məktəblər çox az olubdur, ali təhsil məktəbi olmayıbdır. Mövcud məktəblər də demək olar, vahid bir prinsip, sistem əsasında qurulmayıbdır. O vaxtlar Azərbaycan Rusiya imperatorluğunun tərkibində idi, ona görə dünyəvi təhsil sistemi Rusiyada çox əsrlər ərzində olan təhsil sistemindən götürülmüşdür. Rusiya imperatorluğu dağılandan sonra, 1918-ci ildə Azərbaycanda ilk Xalq Cümhuriyyəti yaranmışdı. Xalq Cümhuriyyəti dövründə təhsil sahəsində bəzi işlər görülüb, Bakı Dövlət Universiteti açılıbdır. Bu, Azərbaycanda ilk ali təhsil müəssisəsi idi. Mən bilmirəm, onlar təhsil qanunu qəbul eləmişdilər, ya yox? Bundan xəbəriniz varmı? Deyəsən, xəbəriniz yoxdur. Mən də deyə bilmərəm, ancaq hesab edirəm ki, komissiya üzvləri, nazir mənim sualıma cavab verə bilərlər. Yəqin ki, bilmirsiniz. Mən də belə düşünürəm ki, onlar təhsil qanunu qəbul etməyiblər, yəni təhsil sahəsində ciddi addım atmağa imkanları olmayıbdır. Hesab edirəm, xalq Cümhuriyyətinin böyük xidməti ondan ibarətdir ki, Azərbaycanda ilk ali təhsil müəssisəsi yaradılıbdır. Ancaq bu ali təhsil müəssisəsinin yaranması ondan əvvəl Azərbaycanda gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsi olmuşdur.



Azərbaycanda indi mövcud olan təhsil sistemi 1920-ci ildən sonrakı dövrdə yaranıbdır. Bu sizə, hamıya məlum olan sovet təhsil sistemidir. Bunu utanmadan, çəkinmədən demək lazımdır. Bilirsiniz, biz özümüzün varlığımızı nümayiş etdirmək, göstərmək üçün heç vaxt heç kəsdən çəkinməməliyik, heç kəsdən də utanmamalıyıq. Nazir dedi ki, etiraf etmək lazımdır ki, nəinki etiraf etmək lazımdır, çox cəsarətlə, qətiyyətlə demək lazımdır ki, Azərbaycanda 1920-ci ildən indiyə qədər mövcud olan təhsil sistemi sovet sisteminin bir hissəsidir.

Mən açıq demək istəyirəm, bu təhsil sistemi çox yaxşı bir sistemdir. Hər şey öz nəticəsi ilə ölçülür. Qısa bir zamanda Azərbaycanda savadsızlıq ləğv olunub, ibtidai, ümumtəhsil məktəblərinin geniş şəbəkəsi yaranıb, on-on beş ilin içərisində Azərbaycanda bir neçə ali təhsil müəssisələri, institutlar yaranıb və tarixi nöqteyi-nəzərdən qısa zamanda, 1920-ci illə 1940-cı ilin arasında nə var, cəmisi 20 ildir, təhsil Azərbaycanın hər yerini əhatə edibdir. Azərbaycanda savadsızlıq ləğv olunub, insanlar məktəblərdə təhsil alıblar və fəaliyyətə başlayıblar. Bunun əsasında Azərbaycanın böyük elmi yaranıbdır. Elmi müəssisələr yaranıb, Azərbaycanın mədəniyyəti inkişaf edibdir, bunların hamısı təhsil sisteminin və ondan səmərəli istifadə edilməsinin nəticəsidir. İndi burada oturanların hamısı, təkcə onlar yox, bu gün Azərbaycanda yaşayanlar, həm yaşlı, həm orta nəsil, həm də gənc nəsil öz təhsilini əsasiyyini həmin bu təhsil sistemində alıblar.

Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək ...mə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət ...mi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on ...rla əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq. İndi təhsil sistemində islahatlar apararaq, onu dünya təhsil sisteminin standartlarına uyğunlaşdıraraq heç vaxt buna yol verməməliyik ki, 70 yaxud, demək olar ki, 80 ilə yaxın bir dövrdə istifadə etdiyimiz təhsil sisteminə başqa cür qiymət verilsin.

Mən sizə deyə bilərəm ki, sovet təhsil sistemi yerində ...mayıb, daim təkmilləşibdir, islahatlar keçirilibdir. Məsələn, 30-

40-cı illərdə olan təhsil sistemindən sonra 60-70-ci illərdəki təhsil sistemi fərqlidir. Bu baxımdan mən çox təssüf edirəm ki, 1992-ci ildə, Azərbaycanda yeni qüvvələr hakimiyyətə gələn zaman qısa bir müddətdə, yəni iki-üç ay içərisində nə qədər mürəkkəb, böyük sahəyə aid olan bir qanun qəbul olunubdur.

Biz keçid dövründə yaşayırıq, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra hüquqi, demokratik, dünyəvi dövlət quruculugunun öz dövlətçiliyinin əsası kimi müəyyən edib, bazar iqtisadiyyatı yaratmagı, inkişaf etdirməyi də öz iqtisadiyyatının əsas istiqaməti kimi bəyan ediblər. Amma bəyan etməklə bunlara nail olmaq arasında böyük bir məsafə var. Bəyan olunan şey heç də o demək deyildir ki, artıq o, realdır, mövcuddur. Hətta inqilabi dəyişikliklər belə, köhnə sistemi dərhal yeni bir sistemlə dəyişdirmir. İnqilabi dəyişikliklər, adətən, köhnə sistemi vurub dagıdır, amma ondan çox fərqli olan bir sistem yaratmaq üçün, buna vaxt lazımdır, illər lazımdır. Bunu bilirsiniz, Rusiyada 1917-1920-ci illərdə baş vermiş inqilabda da və keçmişdə başqa ölkələrin tarixində olmuş inqilablarda da görmüşük.

Ancaq təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişilkliklər təkamül xarakteri, tədrici dəyişilkliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan. Ancaq 1992-ci ildə qəbul olunmuş təhsil qanunu belə xarakter daşıyır. Ona görə mən deyirəm ki, bu təhsil qanunu Azərbaycan təhsilinə böyük zərbələr vurubdur.

İndi biz yeni təhsil qanunu qəbul etmək, təhsildə islahatlar aparmaq üçün, görün, nə qədər vaxt sərf edirik, bir ildən artıqdır ki, islahatlar hazırlanır, ondan da çox zamandır ki, təhsil qanunu hazırlanır. Deyəsən bir dəfə cəhd olunmuşdu ki, bu təhsil qanununa parlamentdə baxılsın, ancaq baxa bilməmişdilər. İndi iki aydır ki, o, parlamentdə müzakirə olunur. Onu ümumxalq müzakirəsinə vermişik. Bu, tamamilə normal prosesdir.

Yenə də deyirəm, təhsil qanunu elə bir qanundur, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır. Biz iqtisadi islahatları iqtisadiyyat sahəsindəki qanunlarla hazırlayır,



müəyyən çərçivədə müzakirə edir və qəbul edirik. Ancaq təhsil islahatları belə islahatlar ola bilməz.

Mən sovet təhsil sisteminsə gedən dəyişiklikləri də xatırlayıram. Sovetlər birliyinin rəhbərliyində olduğum zaman Sovet İttifaqı baş nazirinin birinci müavini vəzifəsində işlədiyim zaman SSRİ-nin bütün təhsil sisteminə rəhbərlik edirdim. O vaxtlar Sovetlər İttifaqında təhsili təşkil edən üç nazirlik var idi:Maarif Nazirliyi, Ali Təhsil Nazirliyi, Dövlət Texniki Peşə Təhsili Komitəsi. Yerlərdə, müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda üç nazirlik var idi.

Mən Sovetlər İttifaqının rəhbərliyindən başqa nazirliklərdən əlavə, bu nazirliklərin üçünə də rəhbərlik edirdim. Mən bu rəhbərliyi beş il müddətində aparmışam-1983-cü ilin əvvəlindən 1988-ci ilə qədər.

O vaxtlar Sovetlər İttifaqında "yenidənqurma" adlanan bir proses gedirdi, özünəməxsus islahatlar aparılırdı. O zaman biz Sovetlər İttifaqı parlamentində məktəb islahatı haqqında qanun qəbul etdik. Mənim xatirimdədir, bu islahatları hazırlayan kommissiyanın sədri idim. Bu qanunu, onun yerinə yetirilməsi üçün lazımi qərarlar qəbul etməkdən ötrü il yarım o komissiya ilə birlikdə işlədim. Qanunu parlamentin müzakirəsinə verməzdən əvvəl iki ay ümumxalq müzakirəsinə verdik, rəylər topladıq. Ondan sonra qanunu parlamentin müzakirəsinə verdik, orada qəbul və təsdiq olundu.

Mən indi demək istəyirəm ki, o islahatlar hansı qiymətə malik idi, hesab edirəm ki, o dövrün tələblərinə görə çox yüksək səviyyədə hazırlanan islahatlar idi. Bununla onu demək istəyirəm ki, indi xoşuna gəlməyən, hətta keçmiş sovet sistemində, guya qeyri-demokratik olan bir sistemdə də təhsilə münasibət bu qədər həsas idi. Ona görə də -mən bunu bizim təhsil işçiləri və cəmiyyətimiz üçün deyirəm-1992-ci ildə iki-üç ayın içərisində təhsil qanunu qəbul edib və onu icra edərək Azərbaycanın təhsilinə zərbələr vurmaq-bu, Azərbaycan xalqına qarşı cinayət etmək deməkdir.

Biz bu acı təcrübədən nəticələr çıxarmalıyıq. Təhsil sahəsində qəbul edəcəyimiz qanunda və islahatlar proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr verməş sistem saxlanmalı, inkişaf

etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən AZərbaycanın milli xüsusiyyətlərinə uygun olan prinsiplər, qaydalar təhsil sisteminizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində-Qərbdə də, Şərqdə də, əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik.

Bu fikirləri siz də burada söylədiniz və Dünya Bankının nümayəndələri də belə fikirdədirlər. Mən bunu məmnuniyyətlə dinlədim ki, Dünya Bankının nümayəndələri də Azərbaycanda indiyə qədər mövcud olan təhsil sisteminin müsbət cəhətlərini görür, bunları qiymətləndirirlər və bunlardan imtina etməyin tərəfdarı deyillər. Şübhəsiz ki, biz bütün beynəlxalq təşkilatların məsləhətlərinə çıx diqqətlə yanaşmalıyıq. Xüsusən Dünya Bankı ilə ki, əməkdaşlıq edirik, onun verdiyi tövsiyyələri, məsləhətləri çox diqqətlə qəbul etməliyik. Azərbaycanın reallığına, milli xüsusiyyətinə uyğun olan h ər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizdə tətbiq etməliyik. Ancaq indiyə qədər mövcud olan təhsil sistemində əldə edilmiş müsbət nəticələri və bu günün, gələcəyin tələblərinə uyğun gələn hər şeyi saxlamalı və inkişaf etdirməliyik.

Mən belə anlayıram ki, indi bizdə təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Yenə də deyirəm, Azərbaycanın təhsil sistemi son on illərdə müsbət nəticələr veribdir. Ancaq Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin bilik səviyyəsinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin. Yaxud da, Azərbaycanda Tibb Universitetində təhsil almış, həkim ixtisası, diplomu almış adam hər bir başqa ölkədə öz diplomu ilə işləyə bilsin. Ona görə də onun bilikləri, Azərbaycan Tibb Universitetində təhsilin istiqaməti gərək dünya miqyasında ümumbəşəri dəyərlər hesab edilən tibb təhsilinin səviyyəsində olsun. Məqsəd bundan ibarətdir.

Amma eyni zamanda, buna nail olaraq, yenə də deyirəm, indiyə qədər, on illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Mən hesab edirəm ki, əgər biz bu y olla



gedəriksə, qısa bir zamanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik.

Mən sizin təklifinizi – təhsil islahatlarının üç mərhələdə aparılmasını – müsbət qiymətləndirirəm. Sizin bu təklifləriniz mənim dediyim sözləri tam təsdiq edir. Yəni biz eyni fikirdəyik, 1992-ci ildə qəbul olunmuş qanun haqqında mən nə üçün bu qədər həyəcanla danışıram? Çünki, bilirsiniz, o qanunda belədir ki, "olanı dağıt, bunu hazırlamışam, bunu da həyata keçir". Həyata keçirmək də mümkün deyildir. Amma siz üç mərhələ təklif edirsiniz. Birincisi, 1999-cu il, ikincisi, 2004-cü ilə qədər, üçüncüsü də ondan sonrakı dövr. Tamamilə düzdür.

Məsələn, biz ölkəmizdə, təkcə bizdə deyil, bizə bənzər başqa ölkələrdə də belədir, iqtisadiyyatda dəyişiklikləri bir il, iki il yox, beş il, on il müddətində həyata keçiririk. Məsələn, bazar iqtisadiyyatına keçid bir ildə mümkün deyildir. Yaxud da özəlləşdirmə, dövlət mülkiyyətini xüsusi mülkiyyətə çevirmək – bu, bir ildə mümkün deyildir.

Biz 1995-ci ildə "Torpaq islahatı haqqında" qanun qəbul etmişik. İndi 1999-cu ildir, "Torpaq islahatı haqqında" qanunu hələ ki, axıra çatdıra bilməmişik. Amma indi "Torpaq islahatı haqqında" qanunu tətbiq edərkən qarşıya yeni-yeni ağır üproblemlər çıxır. İdarəetmə sahəsindəki islahatlar haqqında dünən dünya Bankı ilə keçirdiyimiz beynəlxalq konfransda bunu dedim. Yeni-yeni problemlər çıxır və onları da həll etmək üçün yeni bir proqram lazımdır. Yenə də deyirəm, əgər iqtisadiyyat sahəsində islahatları keçirmək bir il, iki il yox, bir neçə il və ondan da çox vaxt tələb edirsə, təhsil sahəsində islahatlar bundan daha çox vaxt tələb edir. Bunu anlamaq, bilmək lazımdır. Ona görə də deyirəm ki, burada inqilabi dəyişikliklər ola bilməz.

Mən sizin bu təkliflərinizi bəyənir və çox dəyərli hesab edirəm. Güman edirəm ki, hər mərhələnin tədbirlərini vaxtında hazırlayacaq və vaxtında həyata keçirəcəksiniz. Bununla onu qeyd etmək istəyirəm ki, bir halda siz üç mərhələ müəyyən etmisiniz, hər mərhələ üçün nəzərdə tutulan tədbirlər vaxtında həyata keçirməlidir ki, o birisi mərhələnin vaxtı uzanmasın. Bu çox ciddi iş tələb edir.

Hesab edirəm ki, təhsil islahatları komissiyası bununla məşğul olacaq və Dünya Bankı da bizə kömək edəcəkdir. Mən belə düşünürəm. Dünya Bankının köməyi yalnız qrant və kredit

ayırmaqdan ibarət deyildir. Çox məmnunam ki, burada Dünya Bankı nümayəndələrinin, ekspertlərinin böyük bir tərkibi iştirak edir. Dünya Bankının bizə köməyi dünya təcrübəsini Azərbaycana gətirməkdir. Biz özümüz də dünya təcrübəsini öyrənirik, təhsil işçiləri bununla məşğuldurlar. Amma burada da kömək, yardım lazımdır. Mənə belə gəlir ki, Dünya Bankılə əməkdaşlığımızın əsasını bu təşkil etməlidir. Şübhəsiz ki, kreditlər bu tədbirləri həyata keçirmək üçün çox lazımdır,zəruridir. Ümidvaram ki, siz bu kreditləri də ayıracaqsınız. Dediniz ki, milyon dollar kreditdən sonra böyük bir proqram krediti hazırlayacaqsınız. Mən bunu dəstəkləyirəm, bununla razıyam və arzu edirəm ki, bu bəyanatlarınızı, sözlərinizi real işlə təsdiq edəsiniz.

Hesab edirəm ki, Azərbaycanda islahatlar bütün sahələrdə irəliləyir. Biz dünən idarəetmə sistemində islahatlara həsr olunmuş beynəlxalq konfransın işini başladıq. Bu gün də konfrans davam edib, işi sona çatıbdır. İqtisadiyyat sahəsində çox ciddi islahatlar aparırıq. Təhsil sahəsində də islahatlar aparacağıq. Səhiyyə sahəsində islahatların keçirilməsi ilə əlaqədar mən komissiya yaratmışam. Yəqin ki, onların da təkliflərini yaxın zamanlarda müzakirə etməli və həyata keçirilməsini təmin etməliyik. Dünya Bankı kömək edir, yoxsa yox? Birgə işləyirsiniz.

Biz bununla bir daha bəyan edirik ki, Azərbaycan keçid dövründən səmərəli istifadə etməyə çalışır. Azərbaycan tutduğu yolla ardıcıl surətdə gedir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi davam edir. Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir və bu da öz müsbət nəticələrini verir. Azərbaycanın həyatının başqa sahələrində də, o cümlədən təhsil, səhiyyə sahələrində islahatlar bundan sonra həyata keçiriləcəkdir. Mən Dünya Bankına və onun bizim bu[n] Dünya Bankına və onun bizim bu işlərdə iştirak edən nümayəndələrinə təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu əməkdaşlığımız bundan sonra daha da genişlənəcək və dərinləşəcəkdir.

Gələcək işlərinizdə sizə uğurlar arzulayıram. Sağ olun!



## TƏHSİL SAHƏSİ XALQIMIZIN BU GÜNÜ, MİLLƏTİMİZİN, DÖVLƏTİMİZİN GƏLƏCƏYİ ÜÇÜN ƏN VACİB BİR SAHƏDİR

**Tələbələrlə görüşdə nitqi**

**31 avqust 1999-cu il**

-Əziz dostlar!

Bu gün bizim bu görüşümüz başlanarkən tələbələr və salonda olan bəzi şəxslər Azərbaycanın dövlət himnini oxudular. Bu, çox sevindirici haldır. Biz hələ bir neçə il bundan öncə Azərbaycanın dövlət himninin bütün məktəblərdə, universitetlərdə, digər təhsil ocaqlarında öyrənilməsi və daim oxunması haqqında qərarımızı vermişdik. Təbiidir, keçmişimizə baxanda bu, o qədər də asan deyildir, qeyri-adi haldır. Çünki bizim yaşadığımız keçmiş illərdə Azərbaycanın himni – onun musiqisi də, sözləri də olubdur – bu himnin musiqisini bəzi təntənəli mərasimlərdə eşitmişik. Amma təəssüflər olsun ki, sözlərini heç vaxt eşitməmişdik. Çünki himn oxumaq adəti yox idi. Bir də ki, biz elə bir ölkədə yaşayırdıq ki, iki himn var idi – biri Sovet İttifaqının, digəri Azərbaycanın himni idi. Ona görə də birini oxuyub, o birisini oxumasaydın, mümkün olmazdı. Onların ikisini də oxumaq yəqin ki, ağır olardı. Amma səbəb təkcə bundan ibarət deyildi. Əsas səbəb ondan ibarət idi ki, o dövrdə himn formal xarakter daşıyırdı. Formal xarakter daşıdığına görə də himn hər bir vətəndaşın, hər bir insanın qəlbinə daxil olmamışdı. Bu, keçmiş dövlət quruculuğunun çatışmazlığı, nöqsanı idi. Ancaq bu, təbii meydana gələn bir hadisə idi.

Azərbaycan müstəqil dövlət kimi müstəqilliyinin bütün elementlərini, atributlarını inkişaf, təsdiq etdirilməli, onu insanların qanına yeritməlidirlər. İnsan öz gələcəyindən vətənini, bayrağını, millətini, himnini sevməlidir. Sevmək üçün də bunu bilməlidir.

Mən bu gün bildirmək istəyirəm ki, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz dövlət himnidir və bir də Azərbaycanın dövlət bayrağıdır.

O vaxt vətənpərvər insanlar bu sahədə gözəl iş görmüşlər. Himnimizin sözləri də - indi o dövrdən 80 il keçib – bu gün bizim üçün doğmadır və həqiqətən Azərbaycanın müstəqilliyini, müstəqil

dövlət olmağını nümayiş etdirir. Onun musiqisi də Azərbaycan musiqisidir, eyni zamanda çox əzəmətli musiqidir.

Bizim ölkəmizin vətəndaşlarının bəlkə də hamısı bunu istənilən səviyyədə dərk edə bilməyibdir. Ancaq mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə bəlkə də ən yüksək əhvali-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himnini çalınmasıdır. Onu da deyə bilərəm ki, bəzi dövlət başçıları sonrakı söhbətlərdə etiraf ediblər ki, sizin himninizin musiqisi çox gözəldir, bayrağınız da gözəldir. Bu, həqiqətən belədir.

Doğrudur, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra bəziləri hesab edirdilər ki, yeni bir himn yaratmaq, onun sözlərini dəyişdirmək lazımdır. Mən hesab edirəm ki, əgər kim bunu yaratmaq, onun sözlərini dəyişdirmək istəsə, bundan yaxşısını edə bilməzdi. Bəlkə də bundan aşağı səviyyədə olardı. Ona görə də biz öz himnimizi, bayragımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

Sevindirici haldır ki, indi təhsil ocaqlarında, məktəblərdə himn öyrənirlər, oxuyurlar və bu gün onu nümayiş etdirirlər. Ancaq bu, işin hələ başlanğıcıdır və azdır. Hər bir vətəndaş, nəinki tələbə, müəllim də, professor da, alim də, nazirdə, przident də - hamımız birlikdə gərək öz himnimizi yaxşı bilək, onu yaxşı ifa etməyi də bacaraq və onu həmişə sevək. Mən bu arzularımı sizə bildirmək istəyirəm.

Güman edirəm ki, bu iş ali məktəblərdə davam edəcək, gələn görüşümüzdə təkcə bu salonun sağında duran tələbələrin himn oxumasının yox, bütün salonda ayağa durmuş adamların himn oxumasının şahidi olacağıq. Bunu da edək.

Mən də hesab edirəm ki, bizim bu günkü görüşümüz çox əhəmiyyətlidir. Çünki biz Azərbaycan təhsilinin bu gün hansı səviyyədə olduğunu bir daha müşahidə etdik və ötən illərdə Azərbaycan təhsilinin inkişaf mərhələlərini bir daha xatırladıq, yeni dərs ilinə hazırlıq işləri ilə tanış olduq.

Hesab edirəm ki, verilən məlumatlar bizdə, güman edirəm, Azərbaycan ictimaiyyətində də bu barədə yetərli qədər təəssürat yaradır və yaradacaqdır. Son illər müstəqil Azərbaycan dövlətində



təhsil sahəsində həqiqətən xeyli işlər göülübdür. Eyni zamanda biz hamımız yaxşı bilirik ki, Azərbaycanda təhsil – orta, ali təhsil on illərlə sürətlə inkişaf edibdir.

Ali təhsilin əsasını qoyun, 1919-cu ildə yaranmış Bakı Dövlət Universiteti ondan sonra Azərbaycanda çoxlu ali məktəblərin yaranmasına yol açmışdır. Məmuniyyət hissi ilə deyə bilərik ki, bizim ölkəmizdə ötən dövrlərdə vətəndaşlarımızın, yəni uşaqlarımızın, gənclərimizin bütün sahələrdə təhsil, ali təhsil alması üçün imkanlar yaranmışdır. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, 1920-ci illərdən başlayaraq Azərbaycanda xalqın təhsillənməsi, savadsızlığın ləğv edilməsi, uşaqların icbari olaraq məktəbə cəlb olunması və təhsilin inkişaf etdirilməsi prosesi sürətlə həyata keçirilibdir. Bütün bunların nəticəsində biz indi, öz dövlət müstəqilliyimizi yenidən əldə etdiyimiz bir zaman Azərbaycan həm ali və orta təhsilin maddi-texniki bazası nöqteyi-nəzərindən, həm təhsili təmin etmək üçün yaranmış yüksək səviyyəli müəllim, professor kadrları nöqteyi nəzərindən, həm də ümumiyyətlə, həyatımızı inkişaf etdirə bilən elmi potensialımız nöqteyi nəzərdən böyük təhsil potensialına malikdir.

Bunlar hamısı bizim keçmiş dövrün nailiyyətləridir və Azərbaycan əsrin sonunda dövlət müstəqilliyini əldə etdiyi zaman bizim üçün çox yararlı bir amildir. Biz bununla fəxr edə bilərik, onu heç vaxt unutmamalıyıq. Bizim hamımız həmin o illərdə Azərbaycanda mövcud olmuş yüksək təhsilin yetişdirməliyik. Bizim hamımız Azərbaycanda artan və genişlənən məktəblərin, ali məktəblərin məzunlarıyıq. Biz bunlara görə müəllimlərimizə təşəkkürümüzü bildirməliyik, onlara minnətdar olmalıyıq. Biz buna görə Azərbaycan məktəbinə minnətdar olmalıyıq.

Beləliklə, XX əsrdə sözün geniş mənasında ölkəmizdə Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bu, ən böyük nailiyyətlərimizdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyəli məktəblərimiz olmasaydı, əgər bütün gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim, professor kadrları hazırlanmasaydı, əgər elmimiz inkişaf etməsəydi, biz indi nə bu iqtisadi potensiala, nə elmi potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də

bunları unutmaq olmaz və onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır.

Məhz Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bunun əsasında təhsil sistemini inkişaf etdirməyə başlayıbdır. Doğrudur, müstəqillik əldə olunan zaman və onun ilk illərində AZərbaycanın təhsilində çox bərbad vəziyət var idi. Bu bərbad vəziyyət də 1988-1989-cu illərdən Azərbaycanda yaranmış çox mənfi ictimai-siyasi, gərgin daxili vəziyyətin nəticəsi idi. Bütün bunlar hamısı Azərbaycanın məktəblərinə, təhsil sisteminə şox mənfi təsirini göstərmişdi. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra isə birinci mərhələdə, yeni dövrdə, yəni müstəqil dövlət çərçivəsində təhsilin inkişaf etdirilməsi istiqamətlərini tapmaq ya mümkün olmamışdı, yaxud da bu sahədə çoxlu səhvlər buraxılmışdı. Ancaq ondan sonrakı dövrdə, son 4-5 ildə Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir.

Son illərdə bizim əldə etdiyimiz ən böyük nailiyyət Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması, ölkəmizin daxilində hərc-mərcliyə, dərəbəyliyə, özbaşınalığa, hakimiyyətsizliyə son qoyulması idi. Bu, Azərbaycanın bütün sahələrində canlanmaya, inkişafa təmin yaratdı. Bu ümumiyyətlə respublikamızın inkişafını təmin etdi. Məhz bu baxımdan, ona görə də təhsil sistemi öz inkişafını yenə də ardıcıl surətdə təmin edə bildi.

Təsəvvür edin, 8 milyona yaxın əhalimizin 2 milyonu oxuyanlar, təhsil alanlar, öyrədənlər – müəllimlər, təhsil verənlərdir. Bu 2 milyon bütün əhalinin dörddəbir hissəsidir. Mən deyə bilərəm ki, bu nə qədər böyük, vacib bir sahədir, xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir.

Ona görə də dövlət tərəfindən bu sahəyə diqqət, qayğı günü-gündən artır, artacaqdır və artmalıdır. Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolla gedirik. Əmin ola bilərsiniz ki, bu yolla da gedəcəyik. Ancaq bu, asan yol deyildir. Ona görə yox ki, biz bunu bacarmırıq. Yox. Biz bunu bacarırıq,



artıq öyrənmişik, yəni bunu elə əvvəldən də bilirik. Amma yeni şəraitdə yeni sistemi də qurmağı öyrənmişik. Ancaq bunun həyata keçirilməsi bir çox amillərlə, o cümlədən vəsaitlə, maddi-texniki bazanın yaradılması ilə başqa amillərlə bağlıdır.

Mən onu demək istəyirəm ki, əgər biz təhsil sistemində öz arzularımızı istədiyimiz qədər yerinə yetirə bilmiriksə, bu ona görə deyil ki, dövlət, hökumət bunu istəmir. Ona görədir ki, biz imkanlarımızın çırçivəsindən kənara çıxa bilmirik. Bilməlisiniz ki, biz bu imkanlarımızı ilbəil genişləndiririk və genişləndirəcəyik. Mən buna yüz faiz inanıram, ona əminəm. Bunların hamısı təhsilin inkişafında öz əksini tapacaqdır.

İndi həyatımızın bütün sahələrində islahatlar həyata keçirilir. Bu islahatlar zəruridir. Onlar ölkəmizdə dövlət quruculuğunun bütün sahələrində gedir. Biz müstəqil dövlət kimi yaşayır, müstəqil dövlətimizi qurur və hüquqi, demokratik, dünyəvi dövlət quruculugu prosesini həyata keçiririk.

Bu gün biz iftixar hissi ilə deyə bilərik, bir-iki aydan sonra 8 il tamam olacaqdır ki, Azərbaycan öz dövlət müstəqilliyini elan, bərpa edibdir. Bu, az bir zamandır. Bu müddət Azərbaycan üçün və başqa ölkələr üçün daha da çətin, mürəkkəb, daha da ağır bir zaman olubdur. Bunlar sizə məlumdur. Ancaq buna baxmayaraq, ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Bu, ən əsas nailiyyətdir. Onun içində isə çox böyük işlər vardır. Bunlar Azərbaycanın həyatının bütün sahələrində yeni sistemlə yaşamaq üçün islahatlar aparmaqdan ibarətdir. Bu islahatlar aparılır, onlar günü-gündən öz nəticələrini verir. Xüsusən, sosial-iqtisadi sahədə apardığımız islahatlar öz nəticəsini verir. Ölkəmizin iqtisadiyyatı tənəzzül dövründən keçdi, hazırda inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir. İqtisadiyyatın inkişaf etməsi həm xalqımızın rifah halının yaxşılaşdırılmasını, həm də təhsil sahəsində ardıcıl olaraq, ilbəil daha da çox vəsait ayrılmasını təmin edəcəkdir.

Təhsilin özündə aparılan islahatlar çox vacibdir. Siz onları aparırsınız. Bu günkü çıxışlarda bu barədə məlumatlar verildi. Mənim sizə tövsiyyəm ondan ibarətdir ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyukturaya yol verməyəsiniz, Azərbaycanın milli ənənələrinin üstündən keçməyəsiniz. Bunlar

həqiqətən həm Azərbaycan təhsilini dünyanın inkişaf etmiş ölkələrinin təhsil səviyyəsinə ardıcıl suratdə çatdırsın, həm də burada səhvlər buraxılmasın, mövcud yaxşı işlər pozulmasın.

Nəsə qurub-yaradan adam gərək düşünsün ki, o, mövcud olandan daha yaxşısını yaradır. Əgər onu yarada bilirsə, mövcud səviyyədən imtina edib onu yaratsın. Amma yarada bilmirsə, qoy mövcud olandan əl çəkməsin, hələlik onunla yaşasın.

Mən bunları ona görə deyirəm ki, keçmiş zamanlarda da - bu, yeni bir məsələ deyildir – Sovetlər İttifaqı dövründə də həmin sistemin içərisində cürbəcür formalarda dəyişikliklər edilirdi. "Gözə torpaq atmaq" məsəli var. Bəziləri deyir ki, "bundan ötrü onu etdim, bunu etdim, bu islahatı keçirdim, bunu dəyişdirdim, bu belə deyildi, mən onu dəyişdirdim". Nəticəsi nədir? Nəticəsi yoxdur. Keçmişdə mən belə insanları görmüşəm. Belə insanlar 3-4 üzdə olurlar. Bəli, dəyişiklik edir, yeniləşdirir, yenidən qurur, ona görə də təriflənirlər. Mən bəzən elə adamlar görmüşəm ki, bir neçə il belə yaşayır, başqa yolla dəyişikliklər edir, sonra görür bunun nəticəsi yoxdur.

Yəni bu keçmiş mənfi təcrübəni bilərək, mən hamıya və xüsusən təhsil sistemində çalışanlara tövsiyyə edirəm ki, siz bu islahatları cürətlə, biliklə, ağılla aparasınız, səhvlərə yol verməyəsiniz. Əgər biz iqtisadi sahədə apardığımız islahatlarda bu gün haradasa səhv ediriksə, sabah həmin səhvi düzəltmək mümkündür, haradasa ifrata yol veririksə, qarşısını almaq mümkündür, haradasa mühafizəkarlığa yol verilirsə, onu da məhv etmək mümkündür. Amma təhsil çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara – mən bu sözləri işlədirəm – yer ola bilməz.

İndi təhsil sahəsində gedən islahatlar müxtəlif xarakter daşıyır. Çox sevindirici haldır ki, biz dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemlərinin təcrübəsini öyrənirik və tətbiq edirik. Sevindirici haldır ki, biz bunun üçün yardım alırıq. Yəni Dünya Bankı Azərbaycanda təhsil sahəsində islahatların həyata keçirilməsi üçün bizimlə birgə proqram yaradıbdır. Bu bank ölkəmizə müəyyən vəsait ayırır, kömək edir. Bunlar hamısı çox sevindirici haldır. Ancaq çalışmaq lazımdır ki, islahat islahatlar naminə aparılmasın, təhsil sistemimizi daha da təkmilləşdirmək, bu günün, gələcəyin tələblərinə daha da uyğunlaşdırmaq məqsədi daşısın. Biz buna nail olmalıyıq.



Keçmişə nisbətən indi bizdə həm dövlət ali təhsil müəssisələri, universitetlər, həm də özəl müəssisələr vardır. Dövlət ali məktəblərində, universitetlərində həm ödənişli bir hissə var ki, orada tələbələr təhsil almaq üçün haqq verirlər, amma onların əksəriyyəti hökumətin hesabına təhsil alırlar. Bunlar hamısı təbii prosesdir.

Mənim arzum və narahatlığım ondn ibarətdir ki, heç kəs təhsilə qazanc mənbəyi kimi baxmasın. Burada dedilər ki, bilmirəm, 17-18-19 özəl universitet yaranıbdır. Azərbaycan yeni sistemə keçməmişdən, bəlkə də islahatların həyata keçirilməsinə başlamazdan əvvəl, təxminən 1991-1992-ci illərdə ölkəmiz çox sıçrayışla özəl universitetlər yaradılması dövrünü yaşadı. Belə universitetlər yaratdılar. Amma bunları kim və nəyə görə yaradıbdır?

Əgər kimsə həmin universitetdə təhsilin səviyyəsini dövlət ali məktəblərindən yüksək, keyfiyyətli etmək istiyirsə, çox sağ olsun - onlar bunu etsinlər və biz bunu müdafiə edirik, edəcəyik. Dəstəkləyəcəyik. Ancaq kimsə bu dövrdə bunu biznes naminə edirsə, bu, yaramaz, ondan əl çəkmək lazımdır.

Bunu açıq etiraf etmək lazımdır ki, məsələn, bizim qardaş Türkiyə Cümhuriyyətində universitetlərin, ali məktəblərin, təhsil sisteminin inkişafı Azərbaycandan sonra, xüsusən, İkinci Dünya müharibəsindən sonra başlayıbdır. Orada da dövlət universitetləri olubdur, özəl universitetlər yaranıbdır. Yaranan həmin özəl universitetlərin bir çoxu indi Türkiyənin çox yüksək səviyyəli təhsil verən universitetləridir.

Məsələn, Azərbaycanın, xalqımızın böyük dostu, məşhur alim İhsan Doğramacı, bizdə olan məlumata görə, Türkiyədə 5-6 universitetin yaradıcısıdır. Amma o, bunları nə üçün yaradıbdır? O çox yüksək səviyyəli alim, mütərəqqi insan, mütəfəkkir adam olduğuna görə istəyibdir ki, öz xalqının gənclərinin ali təhsil alması üçün xidmətini göstərsin və bunu da gösəribdir. O, bunu qazanc naminə yox, təhsil səviyyəsini artırmaq üçün edibdir. Bu, tərifəlayiq bir fəaliyyətdir, xidmətdir.

O. bir neçə universitet yaradıbdır. Məsələn, orada Hacattəpə universiteti vardır. O, həmin universitetin təməlini qoyubdur, yaradıbdır. Bu universitet Ankarada ən böyük universitetlərdən biridir. O, həmin universiteti, necə deyərlər, təkər üstünə qoyandan sonra oradan çəkilərək, gedib başqasını yaradıbdır.

Bilirsiniz ki, o, son vaxtlar Bilkənd Universitetini və Ankaranın böyük bir hissəsində universitet şəhərciyi yaradıbdır, onun əsasını özü qoyubdur, binalarını tikdiribdir, bütün dünyadan müəllimlər, tələbələr dəvət edibdir. Son 5-6 ildə orada Azərbaycandan nə qədər mütəxəssislər işləyiblər, müəllimlik ediblər, dərs deyiblər, orada çoxlu musiqiçilər çalışıblar. Yəqin ki, professorlardan, müəllimlərdən çoxu orada olubdur. Mən orada bir neçə dəfə olmuşam. Bilirsiniz, mən hər dəfə oraya gələndə həddindən artıq sevinirəm ki, bu insan xalqına nə qədər böyük xidmət göstərir: Özü də bu xidməti tamamilə təmənnasız edir. O, elan edibdir ki, özünün orada yaratdığı şəxsi mülkiyyətinin hamısı xalqa mənsubdur. Bax, bu cür mütəfəkkir, tərəqqipərvər, millətini sevən insan, şübhəsiz ki, təhsilin heç bir sahəsindən təmənna, qacanc gözləmir. O, xalqına xidmət edir.

Təbiidir ki, biz müstəqilliyimizin keçid dövrünü yaşayırıq. Mən həmişə belə fikirdə olmuşam ki, biz daim reallığı nəzərə almalıyıq. Bəzən ayrı-ayrı adamlar hesab edirlər ki, buradan sıçrayıb o sistemə düşmək olar. Bu mümkün deyildir. Həyat, cəmiyyət müəyyən bir mərhələdə öz inkişaf dövrünü keçirir. Bunu sürətləndirmək olar, amma ona zor eləyib nəyəsə nail olmaq olmaz. Ona görə də indi bizdə yaranan bu özəl təhsil sistemi, şübhəsiz ki, təqdirəlayiqdir. Şübhəsiz ki, biz bu sistemi inkişaf etdirməliyik. Ancaq yenə də deyirəm, burada birinci təhsilin səviyyəsidir.

Məsələn, nə bilim, hansısa diplomatik bir universitet yaranıbdır, filan olubdu. Diplomatiya, ümumiyyətlə, dövlətin inhisarıdır. Nədir diplomatiya? Diplomatiya hər bir dövlətin xarici siyasətini həyata keçirən təşkilatdır. Buna diplomatiya deyirlər və o kadra da diplomat deyirlər. Bunu özəl bir yerdə hazırlayıblar. Axı bu dövlətin işidir. Özəl bir qurum, yaxud da dövlətlə bağlı olmayan bir qurum həqiqətən müstəqil Azərbaycan dövləti üçün diplomatlar hazırlaya bilərmi? İnanıram ki, lazımi səviyyədə yox. Onlar oxuyacaqlar, təhsil alacaqlar, diplom da alacaqlar. Amma ola bilər, qeyri bir özəl sektorda işləsinlər. Buna heç kəs mane ola bilməz. Amma dövlət sisteminin diplomatiyasında yer tutmaq üçün, əlbəttə ki, onlar dövlət diplomatiyası təhsili almalıdırlar. Hansısa bir kəsin özəl diplomatik təhsilini almamalıdırlar.

Bilirsiniz, bunlar bəlkə də mübahisəli fikirlərdir, ancaq belə fikirləri demək lazımdır ki, insanlar düşünsünlər, insanlar bilsinlər,



bu sistemdə, bax bu özəl təhsil sistemlərinin yaranmasında bundan sonra səhvlər buraxılmasın. İndiyə qədər səhvlər buraxılıbdır. Mən bunu özüm üçün hər halda tam yəqin etmişəm. Ancaq bundan sonra gərək səhvlər buraxılmasın.

Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, burada bəyan edildiyi kimi, fənlər bizim günümüzə və gələcəyimizə həsr olunmalıdır. İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb, orta ixtisas məktəbi, yaxud da ki, orta təhsil məktəbi - bunlar xüsusi yer tutmalıdır. Çünki indi bizim orta məktəbimiz gərək ki, 11 illikdir. Əgər bu 11 il müddətində uşaq birinci sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o, gedib runiversitetə imtahan verə bilməz. Heç lazım da deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mühüm olmayıbdır, bu gün də mümkün deyildir – ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, həyyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin şüurlu üzvü olacaqdır.

İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır.

Təbiidir, fənlər çoxdur. İndi siz burada da müəyyən islahatlarla əlaqədar dəyişikliklər aparırsınız – hansının saatını artırırsınız, hansının saatını azaldırsınız. Bu sizin öz işlərinizdir. Ancaq mən bu gün bir daha demək istiyirəm ki, bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən, o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər. Biri istəyir riyaziyyatçı olsun, biri istəyir fizik olsun, biri istəyir geoloq olsun, biri istəyir hüquqşünas olsun. Qoy olsun. Ancaq orta məktəblər üçün bizim neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana

dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər.

"Ana dili" deyəndə, şübhəsiz ki, hər bir uşaq doğulandan sonra ailəsində atasından, anasından öz dilini öyrənir. Bir var ki, sadəcə öz dilini ailədə bilmək, bir də var ki, Azərbaycan dilini yüksək səviyyədə bilmək. Keçmişdə biz buna fikir verməmişik. Bu, həqiqətdir. Yəni o qədər fikir verməmişik. Eyni zamanda onu da unutmaq lazım deyil ki, keçmiş zamanlarda Sovet İttifaqının tərkibində olarkən Azərbaycanda orta təhsil və ali təhsil sistemində Azərbaycan sektoru həmişə çoxluq təşkil etdiyinə görə biz dilimizi yaşatmışıq və inkişaf etdirmişik. İndi isə, şübhəsiz, bizdə təhsilin tam əksəriyyəti Azərbaycan dilində gedir. Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, biri də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir.

Azərbaycanın tarixini mütləq bilmək lazımdır. Ona görə yox ki, onlar tarixçi olacaqlar. Əgər riyaziyyatçı millətinin, xalqının, ölkəsinin tarixini bilmirsə bu, ona üstünlük vermir. Eləcə də başqa mütəxəssislər.

Mən sizə deyim ki, keçmişdə Azərbaycanın tarixinə, bu tarix elminə orta məktəblərdə də o qədər çox fikir vermirdilər. Mən özüm bunun şahidiyəm. Hesab edirdilər ki, qoy uşaq riyaziyyatı bilsin, hesabı bilsin, fizikanı bilsin, o birisini bilsin, bubirisini bilsin, amma tarix elə şeydir ki, onu bilsə də olar, bilməsə də. Yəni tarix dərsi məktəblərdə bəzən o qədər də hörmətli dərs deyildir.

Məsələn təsadüfi deyil ki, bizim ali məktəblərdə o illərdə tarix fakültələrinə müsabiqə o qədər də böyük deyildi. Hüquq fakültəsinə müsabiqə böyük idi, amma tarix fakültəsinə yox. Mən əlbəttə, o fikirdə deyiləm ki, hər bir adam, mütəxəssis tarixçi olmalıdır. Yox. Amma hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Deməк, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır. İndi burada dedilər, bizim dərsliklər yaranır. Dərsliklər çox yüksək səviyyədə olmalıdır. Keçmişdəki dərsliklərlə indi biz tariximizi uşaqlara öyrədə bilmərik.



Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir. Bu dərslərə fikir vermək lazımdır. Xüsusən o məktəblərdə ki, Azərbaycanda dərslər rus bölməsində keçir, buna fikir vermək lazımdır.

Keçmiş zamanlarda mən bunu müşahidə etmişdim və heç vaxt unuda bilmirəm. Məsələn, Azərbaycanın başqa yerlərində yox, Bakıda rus məktəbləri çox idi. Azərbaycan məktəbləri çoxluq təşkil edirdi, amma rus məktəbləri də çox idi. Ziyalılar, dövlət işində işləyən adamların tam əksəriyyəti öz uşaqlarını rus məktəblərinə qoyurdular. Burada da müəyyən obyektiv səbəb var idi. Heç kəsi buna görə görə qınamaq olmaz. Çünki rus dili Sovetlər İttifaqında hakim dil idi. O dili bilməyən adam çox çətinliklər çəkirdi, elmə geniş şəkildə qatıla bilmirdi. Bunlar tamamilə təbii hal idi. Ancaq müşahidə olunurdu ki, rus məktəblərində, yəni dərslər rus dilində keçilən məktəblərdə Azərbaycan tarixini yaxşı tədris etməlidirlər. Götürüb SSRİ tarixini öyrədirdilər. O tarixin də əksəriyyəti Rusiyanın tarixi idi. D da ki, Amma Azərbaycan tarixinin tədrisi çox zəif idi.

Yaxud da ki, orada rus məktəblərində Azərbaycan ədəbiyyatını, Azərbaycan dilini tədris edirdilər, amma bu, o qədər də hörmətli bir fənn hesab olunmurdu, yəni onu bilsən də olar, bilməsən də. Bunları mən məhz o vaxtlar müşahidə etmişəm. Mən o vaxtlar rastlaşırdım ki, rus məktəblərində oxuyan gənclər şairlərimizi – Nizamini, Füzulini, başqalarını, müasir şairlərimizi tanımırdılar. Yaxud tanısalar da adlarını bilirdilər, onların əsərlərini oxumurdular, şerlərini oxumurdular.

O vaxt bu nöqsan mümkün idi. Amma indi bu nöqsana yol vermək olmaz. İndi biz Azərbaycanda məhdudiyyət qoymuruq. Rusdilli məktəblər var və qarışıq - rus – Azərbaycan dilli məktəblər vardır. Gürcülər yaşayan yerdə gürcü dilli məktəblər vardır. Başqa dillərdə olan bütün bu məktəblərdə, yaxud ola bilər, başqa dillərdə də məktəblər yaransın – onların hamısında Azərbaycanın tarixi, Azərbaycanın ədəbiyyatı, Azərbaycanın mədəniyyəti tədris olunmalıdır. Bu, mütləq lazımdır.

Ali təhsil haqqında biz çox danışmışıq. Hesab edirəm ki, artıq danışmağa ehtiyac yoxdur. Sizin bu gün verdiyiniz məlumatları mən nəzərə alıram və hesab edirəm ki, bu, işlərin başlanğıcıdır.

Amma ali təhsil sahəsində əsas bir yeri ali məktəblərə qəbul prosesi tutur. Orta məktəblərdə çoxları oxuyur. Təbiidir ki, hamısı ali məktəbə gedə bilməz. Ali məktəbə ancaq daha istedadlı, daha bilikli gənclər gedirlər. Ancaq bu vəzifə bugünkü deyil, elə on il, iyirmi il, otuz il, qırx il də bundan öncə bizim qarşımızda olan vəzifədir ki, həqiqətən, çoxsaylı gənclərimizin içərisindən ali məktəblərə ən istedadlıları, ən bilikliləri girsin.

Bu sahədə keçmişdə çox eksperimentlər keçirilmişdir. Mən bu işlərlə şəxsən 70-ci, 80-ci illərdə, demək olar ki, həddindən çox məşğul olurdum ki, ali məktəblərə qəbulda ədalət təmin edilsin, ali məktəblərə qəbulda rüşvətxorluğun qarşısı alınsın, ali məktəblərə qəbulda tanışbazlığın, qohumbazlığın qarşısı alınsın, ali məktəblərə qəbulda rəhbər işçilərin uşaqlarına xüsusi imtiyazlar yaranmasın. Bax, bu işlərlə biz o illər məşğul olmuşuq, mübarizə aparmışıq, müəyyən nailiyyət, müsbət nəticələr əldə etmişik. Ancaq təəssüf ki, bu nöqsanları o dövrlərdə aradan qaldıra bilməmişik. Bu, bizim təhsil sahəsində bu gün də ən vacib məsələlərimizdən biridir.

1992-ci ildən ali məktəblərə qəbul üçün Dövlət Tələbə Qəbulu Komissiyası yaranıbdır. Bu, yaxşı bir qərardır və test üsulu tətbiq olunur. İndi bizim ictimaiyyətin fikrinə görə, məndə olan məlumat belədir ki, ictimaiyyət bu test üsulunu keçmiş üsullara nisbətən daha mütərəqqi üsul kimi qəbul edir. Sizin də burada verdiyiniz məlumatlara mən inanıram ki, doğrudan da, bu yol ilə məktəblərə daha da keyfiyyətli qəbul təşkil olunur. Ancaq hesab edirəm ki, burada nöqsanlar da çoxdur.

Doğrudur, bəlkə məlumatların hamısı mənə çatmır. Mənə belə gəlir ki, o dövrlərə nisbətən indi ali məktəblərə qəbul haqqında şikayətlər azdır. Ancaq eyni zamanda danışıqlar da çoxdur. Bəzən deyirlər ki, ali məktəbə qəbul olunmuş uşaq görürsən, heç bu test imtahanından nə vaxt keçib, məlum deyil. Yaxud da ki, gəlir, ali məktəbdə o test imtahanının səviyyəsində təhsilini davam etdirə bilmir. Bir neçə belə faktlar onu göstərir ki, hələ bizim Dövlət Tələbə Qəbulu Komissiyasında nöqsanlar da var, çatışmazlıqlar da vardır. Ona görə indiyə qədər görülən işləri qiymətləndirərək, güman edirəm ki, indi bizim başqa bir sistemə keçməyə heç ehtiyacımız da yoxdur. Bu sistemi təkmilləşdirərək, eyni zamanda bizim üçün ən böyük bəla olan rüşvətxorluq, vəzifəsindən sui-istifadə etmək və başqa hallara yol verilməməlidir. Hər yerdə yol verilməməlidir. Rüşvətxorluğun



qarşısı hər yerdə alınmalıdır. Amma tələbə olan yerdə, gənc olan yerdə, uşağın inkişaf etdiyi dövrdə bu, cinayətdir ki, belə hadisələr olsun və insanların, yəni uşaqlıq dövründən, gənclik dövründən beyinlərinə girsin ki, bəli, belə bir adət var və bunsuz cəmiyyət yaşaya bilməz.

Ədalət hər yerdə lazımdır. Amma məktəbdə ədalət hamısından çox lazımdır. Siz müəllimsiniz, siz psixoloqsunuz, siz bu işləri bizdən yaxşı bilirsiniz: uşağın, gəncin şəxsiyyətinin bir formalaşma prosesi var. O proses də uşaqlıq dövründə, orta məktəbdə, ali məktəbdə keçir. Ondan sonra, şübhəsiz, insan daha da təkmilləşir, iş dövründə, yaxud başqa, yeni təhsil dövründə, yaxud başqa, yeni təhsil dövründə. Ancaq əsas o insan kimi formalaşma, şüurlu formalaşma prosesi məktəbdə gedir, ali məktəbdə, universitetdə gedir. Əgər orada gənc, uşaq ədalətsizliklə rastlaşırsa, onda belə təsəvvür yaranır ki, elə bu dünya ədalətsiz dünyadır. Buna yol vermək olmaz. Doğrudur, belə ədalətsizliklərlə mübarizə aparmaq da asan deyildir. Çünki təəssüf ki, hər bir insanı, o cümlədən müəllimi, hər bir professoru tam ədalətli etmək də asan bir məsələ deyildir. Ancaq bunlar bizim qarşımızda duran vəzifələrdir, müqəddəs vəzifələrdir. Ən əsası ona görə ki, biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycan vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bunların hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır.

Əziz dost lar, ona görə də sizin qarşınızda həddindən çox vəzifələr durur. Sizin işiniz, asan iş deyildir. əgər bütün bu deyilən, yaxud deyilməyən, buna bənzər, bu qəlbdən olan fikirlərin hamısı bizim təhsil ocaqlarında həyata keçirilsə, bu, asan iş deyildir.

Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır

və insndır. Ona görə də mən çox arzu edərdim ki, sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız.

Əziz dostlar, güman edirəm ki, bu gün yenə də bizim həyatımızın ən vacib sahəsi olan təhsil sahəsi haqqında müəyyən fikir mübadiləsi apardıq. Mən öz qəlbimdə olan fikirlərin, demək olar ki, bir hissəsini sizə çatdıra bildim. Əmin ola bilərsiniz ki, mən indiyə qədər olduğum kimi, bundƏmin ola bilərsiniz ki, mən indiyə qədər olduğum kimi, bundan sonran sonra da da müəllimlə, məktəblə, təhsil ilə bir yerdəyəm və bir yerdə olacağam, təhsilin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Biz son illər müəllimlərin əmək haqqının yüksəldilməsi barədə bir neçə tədbirlər gördük. İndi siz bilirsiniz ki, əmək haqqı keçmişdəkindən fərqlidir. Mən bu barədə də düşünürəm və maliyyə nazirinə, Nazirlər Kabinetinə göstəriş vermişəm ki, bu ilin axırına qədər müəllimlərin maaşlarının artırılması, özü də təsirli artırılması haqqında təkliflər hazırlasınlar və güman edirəm ki, biz bunu da həyata keçirə biləcəyik. Mən sizinlə bu görüşümdən çox məmnunam. Siz mənə bu gün bir daha ruh verdiniz. Azərbaycanın müstəqilliyini qoruAzərbaycanın müstəqilliyini qoruçaq və ölkəmizi inkişaf etdirmək üçün sizə bir daha cansağlığı arzu edirəm, səadət arzu edirəm və bu şərəfli işinizdə sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun!



**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**F Ə R M A N I**

**Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında**

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə - Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir.

İslamın qəbuluna qədər olan dövrün yazıları ilə yaradılan bu qiymətli xəzinənin böyük bir qismi məhv edilib, zaman keçdikcə həmin abidələrin qələmə alındığı yazı şəkilləri unudulmuş və ya ərəb qrafikasına keçirilmişdir. İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin ən yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Ərəb əlifbası yüz illər boyu geniş məkanda müsəlman Şərqi xalqlarının ümumi yazı sistemi kimi formalaşmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri islam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsindən mühüm rol oynayaraq sivilizasiyanı zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolgunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir. Bu, Azərbaycan xalqının həmin dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uygun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdır. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı mövcud əlifbanı daha da münasibi ilə əvəz etmək ideyasını meydana atmışdır.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni əlifba komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçirilməsi yolunda atılmış ilk ciddi addım idi. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əssında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə AZərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi AZərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də optimal variant əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirdi.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanun qəbul olunması ilə nəticələndi.

On ilə yaxın bir müddətdə latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütünlüklə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

1. Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin.
2. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 9 avqust 2001-ci il**



## MƏKTƏBƏ, TƏHSİLƏ QAYĞI VƏ KÖMƏK AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASƏTİNDƏ MÜHÜM YER TUTUR

**Azərbaycan prezidenti Heydər Əliyevin Bakıda ilk özəl Ümumtəhsil məktəb kompleksinin açılışı mərasimində nitqi**

**1 sentyabr 2001-ci il**

**-Əziz uşaqlar!**
**-Hörmətli təhsil işçiləri!**
**-Hörmətli valideynlər!**

Bu gün Azərbayc yeni tədris ili başlayır. Azərbaycanın bütün məktəblərində, ali məktəblərində, bütün tədris müəssisələrində iş başlayır. Bu, hər bir xalqın, hər bir millətin həyatında əlamətdar hadisədir. Çünki cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şətaitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşır. Ona görə də təhsil hər bir insana lazımdır və bu təhsili də, təbiidir ki, hər bir insan gəncliyindən, uşaqlıq vaxtından almalıdır.

Böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda təhsil XX əsrdə çox sürətlə inkişaf edibdir və təhsilə cəlb olunmayan, uşaq, gənc, insan yoxdur. Bu, bizim böyük nailiyyətimizdir ki, xalqımız tam savadlıdır, tam təhsillidir. Ancaq bilməlisiniz ki, dünyada heç də bütün ölkələrdə, hətta coğrafi nöqteyi-nəzərdən bizə yaxın ölkələrdə insanların, gənclərin hamısının təhsilli olduğunu demək olmaz.

Bu, bizim böyük nailiyyətimizdir. Ancaq vəzifəmiz təhsili daha da inkişaf etdirmək, onun keyfiyyətini artırmaqdır. Bununla, təbii ki, bizim müəllimlər, tərbiyəçilər məşğul olurlar. Azərbaycan böyük müəllim ordusuna malikdir. Böyük təhsil işçiləri ordusuna malikdir və bizim təhsil potensialımız, yəni uşaqları, gəncləri oxudub onların həyatda müxtəlif sahələrdə fəaliyyət göstərməsi üçün Azərbaycanın imkanları böyükdür. Azərbaycanda yaranmış təhsil sistemi, XX əsrdə yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XXI əsrə biz müstəqil dövlət olaraq, həmin bu sərvətlə, həmin bu böyük potensialla başlamışıq.

Mən tam ümüdvaram ki, müstəqil Azərbaycanda hər bir insan sərbəst, azad yaşayaraq, öz övladını, öz uşağını təhsilləndirə bilər, tərbiyələndirə bilər və bununla da bizim xalqımızın bilik və

mədəni səviyyəsi arta bilər. Səviyyəmiz nə qədər yüksək olsa da, biz bununla qane ola bilmərik. Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdiril-məlidir. Bütün bunlar Azərbaycanın təhsil işçilərinin üzərinə düşən vəzifələrdir. Mən bu gün fürsətdən istifadə edib, bütün xalqımızı, Azərbaycan vətəndaşlarını yeni tədris ilinin başlanması münasibətilə təbrik edirəm, təhsil işçilərinə uğurlar, uşaqlara, gənclərə isə təhsildə əla qiymətlər arzulayıram.

İndi Azərbaycan öz dövlət müstəqilliyinin10-cu ildönümünü keçirir. Bu 10 il Azərbaycanın həyatında çox mürəkkəb, ağır bir dövr olmuşdur. Ancaq böyük məmnuniyyət hissi ilə demək olar ki, biz bu ağır yoldan uğurla keçmişik və bundan sonra da azad, müstəqil, demokratik, hüquqi, dünyəvi dövlətimizin inkişafı üçün yaxşı əsaslar yaratmışıq.

Son illər Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi – siyasi sistem yolu ilə gedərək, dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır. Biz dövlət olaraq bunu da edirik. Belə bir şəraitdə dövlət təhsil təhsil sistemi ilə yanaşı, Azərbaycanda özəl təhsil sistemi də yaranır. Bu, müasir dövrün tələbləridir. Biz bu hadisəni müsbət qiymətləndiririk.

Bu gün burada gördüyüm məktəbdir, ya təhsil kompleksidir, mən adını dəqiq bilmirəm, ancaq bütün kompleks onu göstərir ki, bu, çox yüksək səviyyəli və uşaqların hərtərəfli inkişaf etməsi üçün, yüksək təhsil alması üçün, müxtəlif sahələrdə öz istedadlarını nümayiş etdirməsi üçün, yaxud onları inkişaf etdirmək üçün və gələcəkdə öz fitri istedadlarına, arzularına uyğun peşə seçmək üçün çox dəyərli bir kompleksdir.

İndi Azərbaycanda bütün iqtisadiyyat özəlləşdirmə yolu ilə gedir. Dünya təcrübəsi göstərir ki, özəlləşdirmə, şəxsi mülkiyyət iqtisadiyyatın inkişafını daha da təmin edə bilər. Bu proses də çox ağır və mürəkkəb prosesdir. Ancaq biz bu prosesin içindəyik, bu yol ilə gedirik və bu yol ilə də gedəcəyik.

Son illər Azərbaycanda özəlləşdirmə proqramlarının yerinə yetirilməsi bazar iqtisadiyyatının geniş yayılması nəticəsində, iqtisadi islahatların aparılması, kənd yerlərində torpaq islahatının, dövlət quruculuğu sahəsində, hüquq sahəsində islahatların həyata



keçirilməsi nəticəsində Azərbaycan indi yeni iqtisadi sistem yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedir. Biz bunların çox dəyərli nəticələrini görürük. Doğrudur, bu prosesin çətinlikləri də var, cəmiyyətdə müəyyən təbəqələşmə meydana çıxır. Ancaq bütün bu islahatların, tədbirlərin əsas nəticəsi ondan ibarət olacaq ki, ölkənin hər bir vətəndaşının öz rifah halını təmin etməyə imkanı olacaqdır.

Müxtəlif çətinliklər var. Həyata keçirilən islahatlar nəticəsində bəzi insanların iş yerlərindən məhrum olması, xüsusən Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, işğal olunmuş torpaqlardan bir milyondan artıq soydaşlarımızın zorla köçürülməsi, onların əksəriyyətinin çadırlarda yaşaması – bunlar hamısı bizim ölkəmizin, cəmiyyətimizin ağır problemləridir. Bunların bir çoxu keçid dövrünün problemləridir, təkcə bizim ölkəmizə, respublikamıza aid deyildir. Bunlar bütün keçmiş iqtisadi sistemindən yeni iqtisadi sistemə, Qərbdə öz müsbət nəticələrini göstərmiş iqtisadi sistemə keçid yolunun çətinlikləri, eyni zamanda, müəyyən bir vaxtda qarşıya çıxan mənfi cəhətlərdir. Ancaq biz tam əminik ki, bu çətinliklər müvəqqəti xarakter daşıyır və biz onları aradan qaldıracağıq. Azərbaycanın iqtisadiyyatı artıq 1996-cı ildən inkişaf edir və bu inkişaf ilbəil artır, insnların rifah halı yaxşılaşır, özəl sektor genişlənir, inkişaf edir və bunların nəticəsində yeni özəl müəssisələr yaranır, ticarətdə, kənd təsərrüfatında özəl sektor çox yüksək göstəricilər əldə edir. Bu, bütün başqalarında da belədir. Ölkədə, cəmiyyətdə özəl sektorun tətbiq olunması, eyni zamanda, bəzi tədris müəssisələrinin yaranmasına da gətirib çıxarır. Mən bəyan edirəm ki, bizim iqtisadiyyatımızın, iqtisadi siyasətimizin əsas istiqaməti, ana xətti bütün bu islahatların sosial yönümlüyüdür. Hər bir vətəndaşın, bütün vətəndaşlarımızın sosial problemlərinin həll olunması üçündür. Biz bu yol ilə gedirik və gedəcəyik.

Bizim indiyə qədər yaranmış və yüksək nailiyyətlər əldə etmiş dövlət təhsil sistemi bundan sonra da inkişaf edəcək, yaşayacaq və gənclərin, uşaqların çoxu, təbiidir ki, dövlət təhsil sistemindən istifadə edəcəklər. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasının dövlət büdcəsində təhsil – orta təhsilə, ali təhsilə bütün sahələrdən çox vəsait ayrılır. Təsadüfü deyil, ki, azərbaycanda ... milyona yaxın uşaq, gənc məktəblərdə, ali məktəblərdə təhsil alır. Təsadüfi deyil ki, bizim 400 mindən çox təhsil işçilərimiz var.

Bunların hamısı dövlətin qaygısı altındadır və bundan sonra da olacaqdır.

Təhsil sistemində, dövlət məktəblərində, dövlət universitetlərində nöqsanlar da var, çatışmazlıqlar da var. Bəzi təhsil müəssisələri hələ ki, uşaqlara, gənclərə müasir tələblərə uyğun təhsil vermirlər. Bəzi yerlərdə daha da narahatedici qüsurlar var. Biz bunların ardıcıl surətdə aradan qaldırılması üçün çalışırıq və çalışacağıq. Ancaq eyni zamanda, özəl təhsil müəssisələrinin yaranması da Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik. Güman edirik ki, belə özəl təhsil müəssisələrinin yaranması da Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik. Güman edirik ki, belə özəl təhsil müəssisələri Azərbaycan gənclərinin bir qisminin yüksək təhsil alması üçün yararlı olacaqdır.

Ancaq bir şeyi qeyd etmək istəyirəm ki, ümumiyyətlə, təhsil biznesə çevrilməməlidir. Bunu hamı bilməlidir. Təəssüflər olsun ki, ötən illərdə ölkəmizdə bu məsələlər hələ tam nizamlanmadığına görə, bəzi yerlərdə özəl universitetlər, yaxud özəl məktəblər yaranıbdır. Ancaq araşdıranda görürsən ki, bu, onu yaradanların artıq vəsait əldə etməsi məqsədi daşıyır. Başqa universitetlərə, məktəblər nisbətən daha da yüksək təhsil vermək məqsədi daşımır. Bu, bizi narahat edir.

İndi biznes, yəni özəl sektor bizim iqtisadiyyatımızda aparıcı yer tutur. Amma təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Əgər özəl universitetlər, özəl məktəblər yaradan şəxslər başqa məqsəd daşıyırlarsa, yəni onlar bundan özləri üçün mənfəət götürmək məsələsinə üstünlük verirlərsə, bəzən də və çox hallarda təhsilin keyfiyyəti bizim dövlət universitetlərindən, dövlət məktəblərindən aşağıdırsa, bu, həm xalqa, həm uşaqlara, həm də millətimizə xəyanətdir. Buna qətiyyən yol vermək olmaz!

Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədərr də yaxşı olacaqdır.



Ona görə mən bu gün bu özəl təhsil kompleksinə gəlib bunun açılışında iştirak edərkən, məhz bu məqsədi daşımışam. Birincisi, istəmişəm görüm, bu özəl məktəb nədən ibarətdir, hansı imkanlara malikdir və burada təhsil nə cür təşkil olunacaqdır, ikincisi, bu sözləri təkcə bu məktəb üçün yox, bütün özəl təhsil müəssisələrinə demək üçün gəlmişəm. Bu, bizim dövlətimizin siyasətidir. Bu, siyasət yəni özəl təhsil müəssisələrinin də keyfiyyətinin yüksək olması ən vacib amildir. Əgər bu olmasa, biz belə özəl təhsil müəssisələrinin yaranmasına imkan verməyəcəyik.

Bizim məktəblərimiz millidir. Bilirsiniz ki, mən son vaxtlar Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili haqqında bir çox fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında Fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu. Bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında, təkcə dövlət, hakimiyyət orqanlarında yox, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır.

Ona görə mən çox sevindim ki, bu gün mənə verilən məlumatlar bizim dövlətin siyasətinin həyta keçməsi istiqamətində məktəbin qurulmasını nümayiş etdirir. Burada bütün təhsil Azərbaycan dilində, dövlət dilində keçiriləcəkdir. Ancaq mənə məlumat verdilər ki, burada eyni zamanda, uşaqların hansı dilə daha çox həvəsi olmasından asılı olaraq, başqa dillər – ingilis dili də, rus dili də, fransız dili də, ərəb dili də, başqa dillər də tədris olunacaqdır. Bəli, təhsildə uşaqların, gənclərin gələcəyini təmin etmək üçün bizim siyasətimiz bundan ibarətdir.

Hər bir Azərbaycan gənci – bəlkə indi yaşlı adamlar üçün bu vəzifəni qoymaq mənim üçün düzgün olmaz – birinci növbədə, gərək ana dilini bilsin. Ni bu dildə yazsın, bu dildə oxusun. Məhz bu dildə Azərbaycan xalqının zəngin tarixini, zəngin mədəniyyətini, əsrlər boyu yaranmış böyük irsini öyrənə bilsin.

Ancaq biz xalqımızı, millətimizi, gəncləri bununla məhdudlaşdırmamalıyıq. Çünki bir halda ki, biz müstəqil dövlət kimi, dünya birliyində bərabər hüquqlu yer tutmuşuq, müasir dünya tələb edir ki, hər bir azərbaycanlı dilini, dövlət dilini yaxşı bilərək, onu işlək dil hesab edərək, eyni zamanda başqa dilləri – ingilis dilini

də, rus dilini də, fransız dilini də, digər dilləri də bilsin. Əgər insan müstəqil Azərbaycanda öz ana dilini, Azərbaycan dilini bilmirsə, başqa dillərdə təhsil alırsa, əlbəttə o, Azərbaycan üçün yararlı ola bilməz. Başqa dilləri öyrənmək, mənimsəmək lazımdır. Ancaq o şərtlə ki, təhsil Azərbaycan dilində keçirilsin. Azərbaycan dilində təhsillə yanaşı, başqa dillərin də çox mükəmməl öyrənilməsi təmin olunsun.

Mən bu gün məktəbdən bax, bu məlumatı aldım. Mən siniflərin bir neçəsində oldum. Məni bir şet sevindirdi. Bu, yeni bir məktəbdir. Təbiidir ki, buraya birinci sinfə uşaqlar gəlir. Ancaq artıq 8-ci sinfə qədər şagirdlər var.

Onların bəziləri indiyə qədər rus dilində təhsil alıblar. Bu, heç də qəbahət deyildir. Ancaq indi gəlib burada öz təhsillərini Azərbaycan dilində, ana dilində, dövlət dilində davam etdirmək istəyirlər. Bu, çox gözəl hadisədir. Bu, onu göstərir ki, o uşaqlar da, onların valideynləri də özlərini əsil azərbaycanlı, əsil Azərbaycan vətəndaşı, ana dilini sevən və onu qəlbində saxlayan insanlardır.

Mən inanıram ki, bu yeni məktəb çox gözəl cihazlarla, ləvazimatlarla təchiz olunub və burada çox gözəl şərait yaranmışdır. Belə bir məktəb mənim bu gün verdiyim tövsiyyələri yerinə yetirəcəkdir və beləliklə də daha yüksək bilik almış, gələcək üçün hərtərəfli hazırlıqlı gənclər buraxılacaqlar.

Mən bu münasibətlə məktəbin kollektivinə uğurlar arzulayıram.

Ümidvaram ki, onlar bu gün mənə verdiyi sözlərə sadiq olacaqlar.

Görürəm burada valideynlər var. Hər bir valideyn üçün onun uşağı, övladı hər şeydən əzizdir. Ancaq uşağı, övladı nə qədər çox istəyirsənsə, onun tərbiyəsi ilə, onun təhsili ilə də bir o qədər məşğul olmalısan. Əgər çox istəmək, sevmək nəticəsində uşaq, gənc uşaqlıq, gənclik çərçivəsindən çıxırsa, o, yaxşı təhsil ala bilməz. Ona görə də gərək valideynlər də uşaqlarına tələbkar olsunlar. Müəllimlər də tələbkar olsunlar. Məhz belə halda biz yaxşı gələcək nəsil yetişdirəcəyik.

Sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı, uğurlar arzulayıram!



## SİLAHLI QÜVVƏLƏRDƏ AZƏRBAYCANIN DÖVLƏTÇİLİYİNƏ, MÜSTƏQİLLİYİNƏ SƏDAQƏTLİ, SAĞLAM MƏNƏVİYYATLI İNSANLAR XİDMƏT ETMƏLİDİR

**Bakı Ali Birləşmiş Komandirlər Məktəbində keçirilən görüşdə Azərbaycan prezidenti Heydər Əliyevin nitqi**

**(20 iyun 2001-ci il)**

**-Əziz Azərbaycan əsgəri!**

**-Əziz əsgərlər, zabitlər, generallar!**

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümdən böyük məmunluq hiss edirəm.

Azərbaycan bu il dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd edəcəkdir. Bu, Azərbaycanın çoxəsrlik tarixində mühüm və demək olar ki, indiyə qədər heç vaxt olmamış bir hadisədir.

Azərbaycan xalqı öz dövlət müstəqilliyinə, azadlığına nail olub, öz müstəqil dövlətini qurub və Azərbaycan dövləti dünyanın inkişaf etmiş dövlətləri ilə sıx əlaqə yaradaraq, müasir dövrün tələblərinə uyğun olaraq dövlət quruculuğu prosesini həyata keçirir.

Azərbaycanın dövlət quruculuğunda siyasəti ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət qurmaqdır. Biz bu sahədə çox iş görmüşük. Artıq Azərbaycanda belə bir dövlət, belə bir cəmiyyət mövcuddur. Ancaq eyni zamanda, bizim müstəqilliyimiz gənc olduğu kimi, qurduğumuz, yaratdığımız dövlət də vvə dövlətin bütün sahələri də gəncdir. Biz Azərbaycanda dövlət quruculuğu prosesini həyata keçirərək, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycan xalqının demokratiya yolu ilə, azad, sərbəst inkişafını təmin etmək, azad, sərbəst iqtisadiyyat qurmaq məqsədi ilə bir çox islahatlar həyata keçirmişik və keçirəcəyik. Bir şey artıq dünyaya məlumdur. Bizim əsgərlərimiz də, bizim ordumuz da bilməlidir ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə , azad iqtisadiyyat yilu ilə gedir. Biz bundan sonra da ardıcıl olaraq bu yolla gedəcəyik və bu yolu müstəqil Azərbaycanın möhkəmlənməsi, inkişaf etməsi üçün yeganə yol hesab edirik.

Bilirsiniz ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman çox böyük çətinliklərlə rastlaşmışdı. Çünki o vaxt Ermənistanın Azərbaycana qarşı hücumu bir neçə il idi ki, davam

edirdi. Azərbaycanın ərazisi olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə Ermənistan tərəfindən başlanmış təcavüz müstəqillik əldə edən zaman Azərbaycan xalqı üçün çox böyük çətinliklər, böyük problemlər yaratmışdı. Ona görə də Azərbaycanda ordu quruculuğu prosesi ləng getmişdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ordu quruculuğu haqqında bəyanatlar verilsə də, həqiqi, Azərbaycanın müstəqilliyinə cavab verən ordunun yaradılması üçün hələ çox işlər görmək lazım idi. Bu işləri çətinləşdirən bir də o idi ki, bir tərəfdən, Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzünün qarşısı alınmalı idi, eyni zamanda dövlət qurulmalı və Azərbaycanın milli ordusu yaranmalı idi.

Biz belə çətin illər yaşamışıq. O illərdə Azərbaycanın mütəşəkkil, yüksək peşəkar hərbi kadrları olsaydı, onda, təbiidir ki, biz torpaqlarımızın müdafiəsini daha da yaxşı təmin edə bilərdik və Ermənistan silahlı qüvvələrinin təcavüzünə lazımi cavab vermək mümkün olardı. Ancaq təssüf ki, bunlar olmayıbdır. Əlavə etsək ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi zaman azərbaycanın daxilində ictimai-siyasi sabitlik pozulmuşdu, burada müxtəlif siyasi qüvvələr hakimiyyət uğrunda mübarizə apararaq, o vaxt bizim onsuz da az olan hərbi kadrlarımızı hərəsi bir tərəfə çıkib, hərəsi onlara öz təsirini göstərmək, hərəsi onlardan öz məqsədləri üçün istifadə etmək istəyirdi, onda təsəvvür edə bilərsiniz ki, azərbaycanda ordu quruculuğu nə qədər çətin bir dövr keçibdir.

Ancaq şükürlər olsun ki, keçmişdə, hələ sovet hakimiyyəti zamanı 70-ci illərdə, ondan sonrakı illərdə biz Azərbaycanın gələcəyi haqqında düşünərək, ölkəmizin milli zabit kadrlarının hazırlanması ilə çox ciddi məşğul olmuşduq. Bu da hamıya məlumdur. 1970-ci ildə Naxçıvanski adına Hərbi Məktəbin, -indi ona hərbi litsey deyirik, -yaranması və ondan sonrakı illərdə sovet ordusunun Azərbaycanda mövcud olan iki ali hərbi məktəbində hər il azərbaycanlı gənclərin sayının artırılması, SSRİ məkanında təxminən 140-dan artıq hərbi məktəbdə azərbaycan gənclərinin göndərilməsi- bunların hamısı 70-ci illərdən başlayaraq azərbaycanlı zabit kadrları hazırlanmasının əsasını qoymuşdur.

Təsəvvür edə bilərsiniz ki, əgər bunlar olmasaydı, Ermənistan müxtəlif ölkələrin hərbi birləşmələrindən istifadə edərək və Azərbaycana təcavüz üçün müəyyən hazırlıqlar görərək ölkəmizə



hücum etdiyi zaman Azərbaycan nə qədər ağır vəziyyətə düşərdi. O vaxt Azərbaycanda ordu quruculuğunun əsasını keçmiş illərdə bizim hazırladığımız hərbi kadrlar təşkil etdi.

Ancaq bu müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün heç də yetərli deyildir. Azərbaycanın güclü ordusunu qurmaq, Azərbaycan ordusunu dünya standartlarına qaldırmaq üçün bizə müasir tələblərə uyğun olan hərbi məktəblər və bu məktəblərdə milli zabit kadrlarının hazırlanması lazım idi. Təssüflər olsun ki, o dediyim səbəblərə görə, biz bu işə vaxtında başlaya bilmədik. Ancaq 1995-1996-cı illərdən sonra, birincisi, Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə olunandan sonra, ikincisi, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət sabitləşəndən sonra biz hərbi məktəblərimizin təşkil edilməsi, onları yüksək səviyyəyə qaldırılması işi ilə ciddi məşğul olmağa başladıq. Bu gün də məşğul oluruq və bundan sonra da məşğul olacağıq.

Bəli, burada-keçmiş Sovet İttifaqının çox qabaqcıl bir Ali Hərbi Dənizçilik Məktəbinin yerləşdiyi yerdə, bu böyük kopleksdə Azərbaycanın milli ali hərbi məktəbinin yaranması, 1997-ci ildə işə başlaması və dörd il müddətində yüksək təhsil almış zabit dəstəsinin builki buraxılışı Azərbaycan ordusunun güclənməsinə təsir edəcək və ordu quruculuğumuz üçün mühüm hadisə olacaqdır.

Amma bu, işin başlanğıcıdır. Bizdə Hərbi Akademiya yaranıbdır. Bu məktəbi qurtaran məzunlar Hərbi akademiyada da bir il təhsil alandan sonra ən yüksək hərbi biliyə, hərbi peşəyə malik olacaqlar. Bunların hamısı bizdə daha da güclü, daha da peşəkar, dünya standartlarına daha da cavab verən ordunun yaranmasına kömək edəcəkdir.

Mən sizin dəvətinizi qəbul edirəm. Avqust ayında burada keçiriləcək buraxılışa gələcəyəm. Bu hərbi məktəbi ən əla qiymətlə bitirənlərə diplomları mən özüm təqdim edəcəyəm. Bilin ki, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan ordusunun qurulması üçün, ölkəmizdə ordunun tələbatını təmin etmək məqsədi ilə hərbi məktəblərin inkişaf etməsi, genişlənməsi, onların səviyyəsinin qaldırılması üçün, bir prezident kimi, Ali Baş Komandan kimi lazım olan bütün tədbirləri görəcəyəm.

Mən bu gün sizin məktəbinizin bəzi hissələri ilə tanış oldum. Bəzi siniflərdə oldum. Dərs verən zabitləri dinlədim, gənc kursantları dinlədim. Bunlar məni sevindirdi. Sevindirdi ona görə ki, burada

artıq yüksək səviyyədə hərbi təhsil təşkil olunubdur. Bunu, təbiidir, bir ildə, iki ildə, təşkil etmək mümkün deyildir. Dörd il bundan öncə burada ilk ali hərbi təhsilə başlayan gənclər bu il təhsili bitirib orduda xidmət etməyə gedəcəklər. Bu, çox əlamətdar hadisədir.

Mən burada sizin siniflərinizdə, laboratiroyalarınız-da, təcrübə otaqlarınızda müasir tələblərə uyğun olan cihazları gördüm və müəllimlərin, -təbiidir ki, gördüyüm müəllimlərin, -biliklərini hiss etdim və o qənaətə gəldim ki, bizdə artıq ali hərbi məktəb yaranıbdır. Bu ali hərbi məktəb bu il birinci buraxılışını edəcək, hər il yeni-yeni buraxılışlar edəcək və qısa bir müddətdə-demək olar ki, 4-5 il içərisində bizim ordumuzda bu məktəbi bitirmiş yüksək səviyyəli zabit heyəti öz xidmətini göstərməyə nail olacaqdır.

Hərbi quruculuğu çətin prosesdir. Mən qeyd edim ki, bunu bir ilə, iki ilə etmək mümkün deyildir. Bizim yaratdığımız silahlı qüvvələr keçmişdə hazırladığımız kadrlar əsasında yaranmışdır. Amma indi isə bizim silahlı qüvvələrə, ordumuza müstəqil dövlətin yaratdığı alı hərbi məktəblərdə təhsil almış, müasir, tələblərə uyğun olan səviyyəyə çatmış zabit heyəti ilbəil daxil oloacaqdır. Bu, gələcəkdə Azərbaycanda ordu quruculuğu sahəsində dövlətin strategiyasını həyata keçirmək üçün ən əsas şərtlərdən biridir. Biz bunu edirik, bundan sonra da edəcəyik.

Bu məktəbi lazımi səviyyəyə qaldırmaq üçün və ümumiyyətlə, Azərbaycanda hərbi təhsili istənilən səviyyəyə qaldırmaq üçün hələ çox işlər görmək lazımdır. Mən sizin bu işlərinizi müsbət qiymətləndirərək, eyni zamanda, hərbi məktəblərin təşkil olunması və onların istənilən səviyyədə fəaliyyət göstərməsi ilə əlaqədar Müdafiə Nazirliyinin nöqsanlarını da bilirəm, onları da qeyd edirəm. Sizin məktəbinizdə də nəaliyyətlərlə bərabər nöqsanlarınız, çatışmazlıqlarınız vardır. Ona görə də əldə olunanlarla heç də arxayınlaşmaq olmaz.

Biz bununla qane ola bilmərik. Əldə olunanlar bizim böyük işimizin, müstəqil dövlətimizin gələcəkdə daha da güclü ordusunun yaranmasının ilk addımlarıdır. Ancaq bundan sonra addımlar daha da iri, daha da güclü olmalıdır. Əldə olunan təcrübədən daha da səmərəli istifadə etmək lazımdır ki, gələcəkdə, buraxılışdan-buraxılışa məzunların səviyyəsi daha da yüksək olsun. Buraxılışdan-buraxılışa bizim ordumuza gedən zabitlər daha da yüksək standartlara cavab verən zabitlər olsun.



Burada siz çoxlu fənlər keçirsiniz. Hamısı lazımdır. Təbiidir ki, birinci növbədə hərbi peşəni mənimsəmək əsas şərtdir. Çünki nə qədər güclü, nə qədər qəhrəman adam olsa da, əgər o şəxs hərbi peşəni və dünyada olan hərbi nəaliyyətləri mənimsəməsə, onlardan istifadə etmək qabiliyyətinə yiyələnməsə və bunu təmin edə bilməsə, onda, əlbəttə ki, istənilən nəticə əldə oluna bilməz. Ona görə də bu sahə-əsas sahədir. Mən güman edirəm ki, siz həm zabit-müəllim heyəti, həm də kursantlar bunlara daha çox fikir verəcəksiniz. Bizim Müdafiə Nazirliyi də bu sahədə öz işini gücləndirəcəkdir.

Burada xarici dillər öyrədilir. Onlara ciddi fikir vermək lazımdır. Çünki indi bizim ordumuz dünyanın bir çox ölkələrinin ordusu ilə əməkdaşlıq edir. Biz NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında və başqa proqramlarda iştirak edirik. Ona görə də xarici dilləri bilmək çox vacibdir. Təkcə bir dil yox, bəlkə də bir neçə dili bilmək lazımdır.

Siz gənc insanlarsınız. Sizin həyat fəaliyyətiniz yeni başlayır. 18-19-20-21 yaşında olan adamlarsınız. Bilin, böyük həyat yaşayan adam kimi mən sizə demək istəyirəm ki, bu, insanın ən xoşbəxt dövrüdür və bu dövrdən səmərəli istifadə etmək lazımdır. İtirmək lazım deyildir. Bu dövrdə, bu yaşda itirilən kiçik bir imkan sonra insanın həyatında böyük çətinliklər yaradır. Ona görə də mən sizə tövsiyyə edirəm və Ali Baş Komandan kimi əmr edirəm ki, təhsil prosesində bütün fənləri yüksək səviyyədə mənimsəməyə çalışmalısınız. Bunun üçün də təbiidir ki, mən zabit-müəllim heyətindən tələb edirəm ki, onlar öz səviyyələrini də qaldırsınlar və təhsil işini daha da yaxşı qursunlar. Bizim bu gənc kursantlara müxtəlif fənləri öyrətmək üçün can yandırsınlar, çalışsınlar. Çünki hər bir vicdanlı Azərbaycan vətəndaşının, azərbaycanlının borcu, vəzifəsi ondan ibarətdir ki, bizim gələcək nəslimiz daha bilikli olsun, daha da sağlam olsun, dünya təcrübəsini daha da mənimsəmiş olsun. Ümidvaram ki, siz həm nöqsanların aradan qaldırılması ilə məşğul olacaqsınız, həm də səylərinizi artıracaqsınız.

Hərbi peşədə xidmət göstərmək üçün fiziki hazırlıq çox vacibdir. Hər bir gənc adam istəsə, fiziki cəhətdən çox güclü ola bilər. Əgər o, öz bədəninin, vücudunun fiziki imkanlarından doğrudan səmərəli istifadə etsə, düzgün, doğru həyat tərzi keçirsə, mənfi hallara meyl göstərməsə, həmişə sağlam, fiziki cəhətdən güclü olacaqdır. Bu, insanın özü üçün lazımdır. Amma bizim ordumuz

üçün, hər bir zabit üçün də lazımdır. Ona görə də bunları deyərək, mən birincisi, dövlətin bizim gənclərimizə, vətəndaşlarımıza qayğısını ifadə edirəm, ikincisi, mən bizim ordumuzun bütün zabit heyətinin, şəxsi heyətinin istənilən tələblər səviyyəsində olması qayğımızı ifadə edirəm. Ancaq fiziki hazırlıqla yanaşı, mənəvi saflıq, mənəvi sağlamlıq da çox vacibdir və böyük yer tutur. Hesab edirəm ki, bu sizin təlim-tərbiyə işinizdə, bütün müəllim-zabit heyətinin fəaliyyətində əsas yer tutmalıdır.

Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün həsr edir? Demək, vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gənclərin əsas məqsədi budur. Əgər siz hamınız həqiqətən bu məqsədi nəzərə alaraq özünüzü hərbi peşəyə həsr etmək istəyirsinizsə və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, bizim orduda, silahlı qüvvələrdə xidmət etmək istəyirsinizsə, demək, siz sağlam mənəviyyata malik olmalısınız.

Sağlam mənəviyyat isə Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, millətimizə sədaqət-bunlardan ibarət olmalıdır. Bu keyfiyyətlərə malik olmayanlar yaxşı olar ki, nə özlərini əziyyətə salsınlar, nə hərbi məktəbə gəlsinlər, nə də orduda xidmət etsinlər.

Təəssüf ki, bizim orduda hələ bu tələblərə cavab verməyən şəxslər var. Güman edirəm, bunlar bu keçid dövrünün əlamətləridir. Biz bunları aradan qaldıracağıq. Mən bu vəzifəni Müdafiə Nazirliyinin qarşısında, hərbi hissələrin qarşısında dəfələrlə qoymuşam.

Azərbaycanın dövlətinə, müstəqilliyinə sədaqətli olmayan adam, xalqa xidmət etməyi özünə şərəf kimi qəbul etməyən adam silahlı qüvvələrdə xidmət edə bilməz. Ona görə də burada təhsil müddətində müəllim-zabit heyəti bu vəzifəni təmin etməlidir. Sizin hər biriniz bilməkisin ki, bu mənəvi dəyərlərə, mənəvi keyfiyyətlərə mali olmasanız, bütün başqa biliklərinizə baxmayaraq, siz müstəqil Azərbaycan ordusunun dəyərli zabiti, dəyərli döyüşçüsü ola bilərsiniz.

Mən güman edirəm ki, bu işi daha çox müdafiə nazirliyi aparmalıdır. Ali məktəblərdə, o cümlədən bu ali məktəbdə müəllim-



zabit heyətinin özünün mənəvi tələblərə, dəyərlərə cavab verməsini təmin etməlidir.

Burada sadəcə xidmət edib, bu xidmətinə görə maaş alıb, bu məktəbin imtiyazlarından idtifadə edib, ancaq dövlətə, millətə, müstəqilliyimizə, dövlət quruculuğuna biganə qalan adamlar belə məktəblərdə işləyə bilməzlər, təhsil, təlim işi ilə məşğul ola bilməzlər. Ona görə mən məktəbin komandanlığından tələb edirəm, Müdafiə Nazirliyindən tələb edirəm ki, bu məsələ ilə ciddi məşğul olsanız və bəlkə də bu məsələni yüksək səviyyəyə qaldırmaq üçün müəyyən konkret tədbirlər görəsiniz.

İndi bizim ordumuz dünyanın bir çox ölkələrinin orduları ilə əməkdaşlıq edir. Ona görə də bizim ordumuzun beynəlxalq əlaqələri inkişaf etməlidir. Ancaq bizim ordu quruculuğumuzda, xüsusən ali hərbi məktəblərin və bütün hərbi məktəblərin yaranmasında, ordumuzda olan zabitlərin biliyinin, hərbi peşəsinin təkmilləşməsində qardaş Türkiyə Cümhuriyyətinin və onun çox şanlı-şöhrətli ordusunun nümayəndələri bizə daim yardım edibdir, bu gün də yardım edir.

Ona görə mən bu fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyətinə, türkiyə Silahlı Qüvvələrinə və onun baş qərargah rəisinə, Azərbaycanda xidmət edən qardaş Türkiyə zabitlərinə və generallarına təşəkkürümü, minnətdarlığımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əməkdaşlıq bundan sonra daha da güclənəcək, daha da genişlənəcəkdir.

Başqa ölkələrin həm təhsil mərkəzlərindən, həm də təcrübəsindən istifadə etmək bizim üçün, yəni sizin üçün vacib məsələlərdən biridir. Ona görə də Müdafiə Nazirliyi bu barədə indiyə qədər gördüyü işləri daha da təkmilləşdirməlidir, daha da genişləndirməlidir və lazımi tədbirlər görməlidir ki, Azərbaycan ordusu, Azərbaycan zabiti dünyanın inkişaf etmiş ölkələrinin ordusunun, zabitinin səviyyəsində ola bisin.

Mən bu vəzifələri sizin qarşınızda qoyaraq ümidvar olduğumu bildirmək istəyirəm ki, hərbi məktəblərin təşkil olunma prosesi bundan sonra da inkişaf edəcək və gələcək illərdə bizim hərbi məktəblərimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Burada, sizin hərbi məktəbin yerləşdiyi bu kompleksdə çox böyük imkanlar var. Keçmişdə burada çox yaxşı binalar tikilibdir, böyük bazamız var. Demək olar ki, Azərbaycanda heç bir ali məktəbin, mən

təkcə hərbi məktəb demirəm, ümumi ali məktəbin, universitetin bu qədər geniş ərazisi və bu qədər də binaları yoxdur. O vaxtlar bunlar hamısı sovet ordusuna mənsub idi. Sovet ordusu da öz gücünü daim artırarq, bu kimi məktəblərin maddi-texniki şəraitini inkişaf etdirmək üçün hər il çox işlər görürdü. Ancaq bizim keçid dövründə burada müəyyən durğunluq olubdur. İndi görürəm ki, siz bəzi hissələrdə yaxşı təmir aparmısınız, maddi-texniki təminat işləri görmüsünüz. Amma bu, bütün korpusları, ərazini əhatə etmir. Görülən işləri bəyənirəm, ancaq bundan sonra bütün bu ərazidə olan korpuslar müasir səviyyəyə qaldırılmalı və burada təhsil alanlar, zabit-müəllim heyəti onlardan daha da səmərəli istifadə etməlidirlər.

Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşədir. Siz özünüzü bu işə sərf etməyi qərara almısınız. Mən sizin bu qərarınızı dəstəkləyirəm və Azərbaycan gənclərini dəvət edirəm ki, onların daha çoxu bu yolu seçsinlər. Çünki bu yol şərəfli yoldur, ən şərəfli peşədir. Mən məmnunam ki, Azərbaycan gənclərinin bu peşəyə marağı artır. Biz isə-dövlət, mən, Ali Baş Komandan bu peşənin Azərbaycanda, təhsil sahəsində inkişaf etməsi üçün hər bir şeyi edəcəyik.

İnanıram, siz gələcəkdə də heç vaxt heyfslənməyəcəksiniz ki, bu peşəni seçmisiniz. İnanıram, siz gələcəkdə daha çox iftixar hissi keçirəcəksiniz ki, bu peşəni seçmisiniz. Eyni zamanda inanıram ki, hər bir Azərbaycan vətəndaşı da, bizim müstəqil dövlətimizin cəmiyyəti də bu peşəni seçən adamlara, bu peşə ilə məşğul olan adamlara, bu yolla gedən adamlara daha da böyük hörmət, ehtiramla yanaşacaqlar. Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir. Tutduğunuz bu yolda sizə uğurlar arzulayıram. Məktəbi qurtarandan sonra orduya gedəcəksiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz orduda, hərbi hissədə daha da yüksək peşəkarlıq səviyyəsini təmin edəcəksiniz, daha das sağlam ab-hava yaradacaqsınız, daha da sağlam mühit yaradacaqsınız. Çünki siz dörd il müddətində burada təhsil almış, müstəqil Azərbaycan dövlətinin imkanları ilə özünüzü hərbi peşəyə həsr etmiş insanlarsınız. Bu dörd illik təhsilinizin nəticəsini biz hərbi hissələrdə sizin xidmətinizdə görmək istəyirik. O, orada daha da düzgün qiymətləndiriləcəkdir:



sizin bu təhsiliniz bizim hərbi hissələrin döyüş qabilliyyətini, döyüş keyfiyyətini, nizam-intizamını və mənəvi təmizliyini nə qədər təmin edəcəkdir. Ümidvaram ki, biz bunların şahidi olacağıq.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Tutduğunuz bu şərəfli yolda sizə böyük-böyük uğurlar arzulayıram. Sağ olun.

## ...ÖLKƏMİZİN ORDU QURUCULUĞUNDA YENİ MƏRHƏLƏ

**Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə respublika prezidenti Heydər Əliyevin nitqi**

**(25 avqust 2001-ci il)**

-Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin baş Qərargah rəisi, ordu generalı hörmətli cənab Hüseyn Qıvrıqoğlu!

-Türkiyə Cümhuriyyətindən Azərbaycana qonaq gəlmiş hörmətli generallar, zabitlər, dostlar!

-Azərbaycan Ali Hərbi Məktəbinin hörmətli müəllim-professor heyəti!

-Azərbaycan Ali Hərbi Məktəbinin ilk məzunları və bütün kursantları!

Hörmətli xanımlar və cənablar!

Bu gün müstəqil Azərbaycanın həyatında tarixi hadisə baş verir. Azərbaycanın ordu quruculuğunda yeni mərhələ başlayır. Azərbaycan ali Məktəbi son illər təkmilləşərək, inkişaf edərək, nəhayət, özünün ilk məzunlarını buraxır. Azərbaycan Silahlı Qüvvələri, Azərbaycan korpusu böyük gənc zabit korpusu ilə tamamlanır. Bunlar hamısı son on il içərisində Azərbaycanın müstəqilliyi naminə, dövlətçiliyi naminə, Azərbaycanın müdafiə imkanlarının qüvvətlənməsi naminə görülən görkəmli işlərdən biridir.

Ordu quruculuğu asan iş deyildir. Müstəqillik əldə etmiş hər bir ölkə, azadlığa çıxmış hər bir xalq öz dövlətinin bütün təsisatlarını yaradır. Məlumdur ki, ötən illərdə müstəqil Azərbaycan bütün bu təsisatları yaradıbdır. Müstəqil dövlət kimi, hüquqi-demokratik dünyəvi dövlət kimi Azərbaycan artıq öz hakimiyyəti orqanlarını yaradıb, onlar səmərəli fəaliyyət göstərir və Azərbaycanın müstəqilliyinin inkişaf etməsi üçün, dövlətçiliyinin möhkəmlənməsi üçün üzərinə düşən vəzifələri yerinə yetirirlər.

Bu sırada görülən bütün işlərdən ordu quruculuğu ən çətin, ən mürəkkəb bir sahədir. Əgər nəzərə alsaq ki, Azərbaycan on il bundan öncə dövlət müstəqilliyini əldə edəndə Ermənistan silahlı



qüvvələrinin təcavüzünün qarşısını almaq üçün müharibə edirdi və onun mütəşəkkil hərbi hissələri, ordusu yox idi, onda, təsəvvür etmək olar ki, bu illərdə Azərbaycanda ordu quruculuğu sahəsində nə qədər böyük, ağır və çətin yolu keçmişik.

Təəssüflər olsun ki, Azərbaycan keçmiş əsrlərdə müstəqil olmadığı kimi, özünün müstəqil ordusu da olmayıbdır. Yəni ordusu, silahlı qüvvələri olmayıbdır. Əgər Azərbaycan müstəqillik əldə edəndə bütün başqa peşələrdə böyük kadr potensialına malik idisə, ordu sahəsində azərbaycan bundan məhrum idi. Ona görə ordunu qorumaq, yaratmaq hər bir əsgərə hərbi peşəni anlatmaq və nizami ordu yaratmaq üçün zabit kadrları hazırlamaq-bunlar böyük iradə, böyük səylər tələb edirdi. Amma indi bütün Azərbaycan xalqı fəxr edə bilər ki, artıq biz bu sahədə də məqsədlərimizə nail olmaqdayıq.

Azərbaycanda müstəqil Azərbaycan dövlətinin hərbi məktəbinin yaranması çətin bir proses idi. Doğrudur, bizim keçmişdə sovet ordusunda xidmət edən müəyyən zabitlərimiz var idi. Bizim 70-ci illərin əvvəllərində yaratdığımız nazçıvanski adına hərbi litseyimiz var idi. Bunlar hamısı hərbi kadrların hazırlanmasında müəyyən qədər əsas yaratmışdır. Ancaq milli Silahlı Qüvvələrin, milli ordunun, gərək, milli ali hərbi məktəbi də olaydı. Biz bu işə başladıq, bu işi təşkil etdik, indi onun gözəl bəhrələrinin şahidiyik.

Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Türkiyə cümhuriyyəti ilə Azərbaycan arasında yaranmış əməkdaşlıq bizim bu işdə nailiyyətimizin əsasını təşkil edir. Çünki keçmiş zamanlarda bizim zabitlərin aldığı hərbi təhsil indi müstəqil Azərbaycanın həyatı üçün, müasir dövr üçün heç də yetərli deyilidir. Ona görə də yeni ali hərbi məktəb yaratmaq lazım idi. Bu məktəbdə tələbələrin təhsil alması üçün lazımi şərait yaratmaq lazım idi. Ən əsası da, yüksək səviyyəli hərbi biliyə malik olan müəllim heyəti yaratmaq lazım idi. Bunların hamısının həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri Azərbaycana böyük yardım etmişdir. Bizim müştərək işlərimizin nəticəsində, səmərəli əməkdaşlığımızın nəticəsində artıq indi azərbaycanda ali hərbi məktəb mövcuddur və bu gün o ilk, birinci məzunlarını buraxır.

Bir neçə yüz gənc zabit burada dörd il təhsil alandan sonra, hərbi bilikləri mənimsəyəndən sonra, müasir hərbi təcrübəni mənimsəyəndən sonra Azərbaycan Silahlı Qüvvələrinin hissələrinə xidmətə gedəcəkdir. Bu, bizim ordumuzun, silahlı qüvvələrimizin

komandan heyətinin keyfiyyətcə yüksəlməsinə çox kömək edəcəkdir. Çünki bu gün ali hərbi məktəbin məzunları artıq yeni dərs proqramı, yeni hərbi nailiyyətlərin təcrübəsi Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin böyük təcrübəsi əsasında təhsil alıblar. Türkiyənin ali Hərbi Məktəbdə dərs keçən, təlim-tərbiyə verən yüksək rütbəli zabitləri bugünkü məzunları yaxşı hazırlayıblar və inanıram ki, onlar Azərbaycanın hərbi hissələrində yeni bir əhval-ruhiyyənin yaranmasına kömək edəcəklər.

Mən çox məmnunam ki, azərbaycan üçün bugünkü tarixi gündə türkiyə cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərərgah rəisi, ordu generalı cənab Hüseyn Qıvrıqoğlu bu mərasimdə iştirak edib. Onun xüsusi olaraq, təbiidir ki, Azərbaycan hökumətinin dəvəti ilə Azərbaycana indiki səfəri və bu gün mərasimdə iştirak etməsi, burada söylədiyi nitqində Azərbaycan əsgərlərinə, zabitlərinə verdiyi tövsiyyələr üçün çox əhəmiyyətlidir. Güman edirəm ki, bu, təkcə buraya toplaşmış Ali Hərbi Məktəbin məzunları, yaxud kursantları üçün yox, bütün Azərbaycan Silahlı Qüvvələrinin əsgərləri, zabitləri üçün də çox əhəmiyyətlidir. Buna görə də mən bu gün böyük məmuniyyət hissi ilə qeyd edirəm ki, Türkiyə Cüm-huriyyəti ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq öz müsbət nəticələrini verir və bu sahələrdən ən çətini, ən ağırı olan hərbi sahədəki əməkdaşlığımız bax, bu gün burada-gözəl məktəbin gözəl meydanında öz təzahürünü tapır. Mən bunlara görə Türkiyə Respublikasının prezidenti hörmətli Əhməd Necdət Sezərə, Türkiyə Cümhuriyyətinin baş naziri hörmətli Bülənd Ecevitə, Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hüseyı Qıvrıqoğluna azərbaycan xalqı adından, Azərbaycan dövləti adından dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bu gün bu mərasimi daha da gözəlləşdirən "Türk ulduzları"nın ikinci gündür ki, Azərbaycanın, bakının səmasında qəhrəmancasına uçuşları oldu. Biz dünən də, bu gün də Türkiyənin nə qədər qüdrətli, peşəkar, nə qədər inkişaf etmiş Silahlı Qüvvələrinin mövcud olduğunun şahidiyik. Mən "Türk ulduzları"nın Azərbaycana gəlməsi münasibətilə bütün xalqımızın adından, dövlətimizin adından minnətdarlığımı bildirirəm və bəyan edirəm ki, mən onları öz şəxsi hədiyyələrimlə təltif edirəm

Əziz gənc zabitlər!



Siz xoşbəxt adamlarsınız, xoşbəxt gənclərsiniz. Ona görə ki, məktəbdə dörd il təhsil almısınız, hərbi peşəni mənimsəmisiniz və şüurlu olaraq özünüzü bu şərəfli işə, hərbi peşəyə həsr etmək niyyəti ilə yaşayırsınız və Azərbaycan ordusunda şərəflə xidmət etməyə hazırsınız. Sizin qarşınızda çox böyük vəzifələr durur. Siz bu illər aldığınız təhsili, qazandığınız təcrübəni gərək, Azərbaycanın xidmət edəcəyiniz hərbi hissələrində səmərəli istifadə edəsiniz. Birincisi, siz gərək öz xidmətlərinizlə sübut edəsiniz ki, dörd il müddətində aldığınız təhsil həqiqətən, Azərbaycan ordusunun peşəkarlığın, səviyyəsini qaldırmağa xidmət edəcəkdir. İkincisi, gərək hər bir hərbi hissədə əsgərlər üçün, zabitlər üçün mühüm olasanız. Çünki siz müstəqil Azərbaycanın milli ordusunun, milli hərbi məktəbinin məzunlarısınız. Bu, çox şərəfli addır. Bu şərəfli adı siz axıra qədər şərəflə daşımalısınız. Bu da sizin üçün çətin deyildir. Çünki bir halda ki, Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq peşəsini şüurlu olaraq özünüz seçmisiniz, demək siz bu peşəni sevirsiniz. Hərbi hissələrdə gərək əməli fəaliyyətinizdə bunları sübut edəsiniz, nümayiş etdirəsiniz və əsgərlər sizdən nümunə götürməlidirlər. Ümidvaram ki, bu, belə də olacaqdır. Azərbaycan əsgərinin birinci vəzifəsi xalqına, torpağına, millətinə sədaqətlə xidmət etməkdir. Hər il gənclər Azərbaycan ordusunda xidmət etmək üçün səfərbər olunurlar. Onlar bir il, il yarım ordu sıralarında xidmət göstərib tərxis olunurlar. Siz gərək hərbi hissələrdə tabeliyinizdə olan əsgərlərə az müddətdə hərbi peşəni öyrədəsiniz, həqiqi döyüşçü olmaq qabilliyətini onlara öyrədəsiniz. Beləliklə də Azərbaycanın hərbi potensialını daha da gücləndirəsiniz.

Azərbaycan əsgəri gərək hər şeydə türk əsgərinə bənzəməyə çalışsın. Çünki biz artıq bunun canlı şahidiyik ki, Türkiyə Cümhuriyyətinin ağır şəraitdə yaşayaraq inkişaf etməsində və ona qarşı olan təxribatların qarşısının alınmasında, vaxtilə, 20-ci illərdə Türkiyə Cümhuriy-yətinin yaranmasına mane olan qüvvələrin qarşısının alınmasında türk əsgəri böyük qəhrəmanlıq, şücaət, vətənpərvərlik nümunələri göstəribdir. Ona görə də bu ənənələri daim inkişaf etdirərək, Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri indi dünyada ən güclülərdən biri hesab olunur.

Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərindən əlavə, ən yüksək

keyfiyyəti vətənə, millətinə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, bir ölkənin əsgərinin borcudur. Dünyada, dünya ölkələrində bu sahədə böyük nümunələr də var. Bu nümunələrdən biri və bizim üçün çox yaxın, əziz olan nümunələrdən biri türk əsgərinin, Türkiyə Silahlı Qüvvələrinin Türkiyə Cümhuriyyəti yaranandan sonra türk ordusunu daim inkişaf etdirməsidir. Siz də Azərbaycan xalqına xidmət edərək, müstəqil Azərbaycan dövlətinə xidmət edərək, müstəqil Azərbaycan torpağının keşiyində duraraq, xalqımızı sevərək, vətənpərvərlik hissi ilə yaşayaraq, özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız.

Ermənistan silahlı qüvvələri vaxtilə Azərbaycan ərazisinin bir qismini işğal edibdir. Azərbaycanın ərazi bütövlütü pozulubdur. İşğal olunmuş torpaqlardan bir milyon Azərbaycan vətəndaşı, bizim soydaşlarımız didərgin düşüblər, ağır şəraitdə yaşayırlar və Azərbaycan dövlətinin ən ümdə vəzifəsi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə-obasına qaytarmaq və onlara gələcək yaşayış üçün şərait yaratmaqdır.

Biz bunun üçün məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq və bundan sonra da çalışacağıq. Dünya təcrübəsi, müasir həyatda gedən proseslər onu göstərir ki, bu cür münaqişələr sülh yolu ilə həll olunmalıdır. Nə qədər çətin də olsa, sülh yolu ilə həll edilməlidir. Biz bu çətinliklərin öhdəsindən gələrək bu yol ilə gedirik və gedəcəyik. Ancaq eyni zamanda Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa olsun, bərpa edilməlidir, işğal edilmiş torpaqlar azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycan ordusudur, Azərbaycan əsgəridir. Siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

Azərbaycan sülhsevər dövlətdir. Bizim on illik müstəqillik dövrümüz çox çətin və ağır yollardan keçibdir. Həm daxili qüvvələrin, həm də xarici qüvvələrin bizim müstəqilliyimizi pozmaq cəhdləri dəfələrlə özünü göstəribdir. Ancaq xalqımız sinə gərib və müstəqilliyimizi yaşadır. Bu ilin sonunda biz müstəqilliyimizin



onuncu ildönümünü bayram edəcəyik. Ancaq bizim xarici siyasətimizdə, həm qonşularımızla, həm də bütün dövlətlərlə münasibətlərimizdə əsas prinsip sülhsevərlik, qarşılıqlı əməkdaşlıqdır. Biz heç bir ölkə ilə müharibə etmək fikrində deyilik. Biz heç bir ölkənin torpağına göz dikməmişik.

Ancaq eyni zamanda sülhsevər dövlət olaraq biz sülhsevər siyasətimizi təmin etmək üçün güclü orduya malik olmalıyıq. Çünki, əgər, kimsə sülhü pozarsa, demək, onun qarşısını ancaq ordu ilə, güc ilə almaq olar. Ona görə də Azərbaycanın Silahlı Qüvvələri bizim xalqımızın ən mötəbər hissəsidir. Azərbaycan Silahlı Qüvvələrində xidmət edən şəxslər gərək anlasınlar ki, onlar Azərbaycan ordusunun bütün tələblərinə uyğun xidmət etməlidirlər və yaşamalıdırlar. Əgər buna qadir deyillərsə bu xidmətdən uzaqlaşmalıdırlar. Kiminsə Azərbaycan ordusunda xidmət etməsi özünün şəxsi mənafelərini təmin etmək məqsədi daşıyırsa, belələrini aşkar etmək lazımdır, uzaqlaşdırmaq lazımdır. Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək mənəviyyata malik olsun. Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın.

Azərbaycan xalqı Ermənistan silahlı qüvvələrinin qarşısını almaq məqsədi ilə aparılan döyüşlərdə çox şəhidlər veribdir. Şəhidlərin xatirəsi bizim üçün əzizdir. Eyni zamanda onların şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə olmalıdır. Güman edirəm ki, indi bizim ordumuzda bu sahədə vəziyyət xeyli dəyişibdir. Ancaq hələ nöqsanlar, çatışmamazlıqlar da var. Onları aradan qaldırmaq lazımdır. Bunun üçün də bizim ordumuzda xidmət edən zabit heyəti – generallar, zabitlər birinci növbədə özlərinə qarşı tələbkar olmalıdırlar. Özləri yüksək mənəviyyat, yüksək vətənpərvərlik, yüksək qəhrəmanlıq nümunələri göstərməlidirlər. Bu nümunələr əsasında da əsgərləri, bütün ordumuzu tərbiyə etməlidirlər, hazırlamalıdırlar.

Mən əminəm ki, siz, gənc zabitlər, Ali Hərbi Məktəbin məzunları məhz bu yol ilə gedəcəksiniz, məhz bu keyfiyyətləri daşıyacaqsınız, məhz Azərbaycan xalqına sədaqətlə xidmət etmək, vətənpərvərlik hissiyatı ilə yaşayacaqsınız və xidmətinizi göstərəcəksiniz. Az\ərbaycan dövləti isə həmişə hər bir Azərbaycan əsgərinin, bütünlüklə Azərbaycan Silahlı Qüvvələrinin xidmətini

qiymətləndirməyə qadirdir, qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir. Biz həm bütün Silahlı Qüvvələr üçün, həm də Ali Hərbi Məktəb üçün bundan sonra da lazımi şəraitlərin yaradılması üçün tədbirlər görəcəyik. Ancaq siz isə bizim yaratdığımız şəraitdən, imkanlarımızdan gərək səmərəli istifadə edəsiniz.

Əziz dostlar, qonaqlar!

Mən hesab edirəm ki, bugünkü mərasim eyni zamanda Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, strateji əməkdaşlığının bir təzahürüdür. Burada həm Türkiyədən gələn hörmətli qonaqlarımız, həm ali məktəbdə vaxtı ilə müəllimlik etmiş, yaxud indi müəllimlik edən türk zabitləri, Türkiyənin generalları, həm də Azərbaycan Silahlı Qüvvələrinin generalları və yüksək rütbəli zabitləri, Azərbaycanın dövlət halimiyyəti orqanlarının nümayəndələri, bugünkü məzunların valideynləri iştirak edirlər. Bu, böyük bir bayrama çevrilibdir. Eyni zamanda bu, gələcək üçün yaxşı bir ənənənin əsasını qoyubdur. Biz bu ənənəni davam etdirməliyik. Bunun üçün yenə də Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və inkişaf etməsinə hərə öz payını verməlidir.

Mən bir daha Ali Məktəbin məzunlarını ali hərbi təhsil alıb ordu sıralarında xidmətə getməsi münasibəti ilə təbrik edirəm, sizə bu şərəfli işinizdə uğurlar arzulayıram. Azərbaycan ordusuna, Azərbaycan əsgərinə qəhrəmanlıq, cəsurluq, vətənpərvərlik və bütün işlərində, bütün xidmətlərində uğurlar arzulayıram.

Yaşasın qəhrəman Azərbaycan əsgəri!

Qəhrəman, cəsur türk əsgərinə, Türkiyə ordusuna, Türkiyə Silahlı Qüvvələrinə eşq olsun!



## AZƏRBAYCANIN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL EDİLMİŞ, DÖVLƏTİMİZİ, XALQIMIZI, TORPAQLARIMIZI QORUMAĞA QADİR OLAN SİLAHLI QÜVVƏLƏRİ VARDIR.

**Azərbaycan ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına Həsr olunmuş mərasimdə Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyevin nitqi**

**(27 iyul 2002-ci il)**

**-Əziz gənc zabitlər!**

**-Əziz gənc kursantlar!**

**-Hörmətli zabitlər, generallar!**

**-Xanımlar və cənablar!**

Müstəqil Azərbaycan Respublikasının həyatında baş verən bugünkü əlamətdar hadisə münasibətilə sizin hamınızı təbrik edirəm və Azərbaycan Ali Hərbi Məktəbini bitirib ixtisaslaşma kurslarına gedənləri ürəkdən təbrik edirəm. Əziz məzunlar, aziz gənc zabitlər, sizə gələcək xidmətlərinizdə uğurlar arzulayıram.

Bu gün ona görə əlamətdardır ki, müstəqil Azərbaycanın ordu quruculuğu prosesinin gündən-günə yüksəlməsini bir daha nümayiş etdirdi. Bu gün ona görə əlamətdardır ki, Azərbaycanın Silahlı Qüvvələri, Milli Ordusu yeni böyük zabit dəstəsi alır. Ali Hərbi Məktəbdə təhsil almış, müasir dövrün tələblərinə uyğun və Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi islahatlarla əlaqədar dəyişikliklərə uyğun təhsil almış gənclər bizim Silahlı Qüvvələrimizin müxtəlif hissələrinə xidmət etməyə gedirlər.

Bu gün ona görə əlamətdar gündür ki, Azərbaycan gənclərinin hərbi xidmətə, hərbi peşəyə nə qədər böyük maraq göstərdiklərini nümayiş etdirir. Gənclərimiz özlərini hərbi peşəyə həsr edərək, Azərbaycanın ordusunda xidmət edib dövlətin keşiyində durmağı sevimli peşə hesab edərək bu məktəbə daxil olublar və onu bitiriblər. Qürur hissi ilə hərbi xidmətlərini davam etdirməyə hazır olduqlarını bildiriblər.

Bu gün bizim hamımızı çox sevindirdi. Bizim xalqımızı sevindirdi. Çünki bu gün bir daha nümayiş etdirir ki, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Silahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbiçilər, peşəkar zabitlər

tərəfindən idarə olunur. Azərbaycan Silahlı Qüvvələrinin sıraları ilbəil yeni, gənc zabitlərlə artır və genişlənir.

Əziz övladlarımız, mən təsəvvür edirəm ki, siz bu gün hansı hissləri keçirirsiniz. Siz gəncsiniz, qarşınızda böyük yol var. Amma yolunuzu seçmisiniz və düzgün seçmisiniz. Mən sizin bu seçiminizi çox yüksək qiymətləndirirəm. Amma siz bu yolun başlanğıcındasınız.

Dörd il Azərbaycan Ali Hərbi Məktəblərində təhsil almısınız. Bu təhsil əvvəlkindən tamamilə fərqli bir sistem əsasında qurulubdur. Bu təhsil müasir texnikanın, texnologiyanın bütün imkanlarından istifadə olunmaqla sizə çox biliklər veribdir. Bu təhsil sizi inkişaf etdirib, özünüzün seçdiyiniz peşəyə daha da bağlayıbdır. Güman edirəm ki, bu dörd ildə öz peşənizi daha çox sevmisiniz. Ali Hərbi Məktəbdə oxumaq üçün çəkdiyiniz zəhmət və çox həyəcanlı günlər dörd il bundan öncə olubdur. İndi isə, dörd ildən sonra Ali Hərbi Məktəbi qurtarıb hərbi xidmətə başlayırsınız. Bu, sizin həyatınızda böyük bir mərhələdir. Siz bu dövrü şərəflə keçmisiniz, Ali Hərbi Məktəbi haqq, hüquq qazanmısınız. İndi biliklərinizi və bütün keyfiyyətlərinizi, bacarığınızı xidmətdə göstərməlisiniz. Ona görə bu gün sizin üçün çox həyəcanlı gündür. Biz bunları görmüşük. Hər bir valideyn uşağı ilk dəfə məktəbə gedəndə nə qədər həyəcan hissləri keçirir. Orta məktəbi qurtaranda nə qədər həyəcanlı hisslər keçirir. Ali məktəblərə, universitetlərə daxil olmaq gənclər üçün təbiidir ki, asan deyildir. Kimin biliyi varsa, ancaq o qəbul oluna bilər. Ancaq ali məktəbə daxil olana qədər özü də, onun valideynləri də nə qədər həyəcanlanırlar. Nəhayət, universiteti, ali məktəbi bitirib həyatda işə başlayır.

Mən özüm bir valideyn, ata kimi bu hissləri keçirmişəm. Ancaq mən bu gün bu hissləri sizinlə bərabər, sizin hər birinizə doğma bir insan kimi keçirirəm və həddindən artıq sevinirəm. Şadam ki, bu il Azərbaycanın Silahlı Qüvvələri yeni bir gənc zabit dəstəsi aldı. Deməli, ordumuz təzələnir. Ordumuza yeni nəsillər, zabit nəsilləri, sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır. Bax, bunlara görə mən sizinlə birlikdə böyük sevinc hissi keçirirəm.

Ötən ili xatırlayıram. Bir il bundan öncə də biz burada idik, belə bir gözəl mərasim keçirdik. Amma bu il bir neçə gün öncə mənə deyəndə ki, buraxılış var, soruşdular ki, bu buraxılışa gəlmək



istəyirəm, yoxsa yox? Birincisi, təəccübləndim. vaxt nə tez keçdi. Elə bil dünən biz burada görüşmüşdük və bu gün yenidən görüşürük.. İkincisi, suala cavab olaraq dedim ki, siz nahaq bu sualı mənə verirsiniz. Ola bilərmi ki, mən, birincisi, özümü bu gənclərin valideyni kimi hesab edərək, ikincisi isə, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan prezidenti kimi mən yaratdığım gənc, müstəqil Azərbaycanın Ali Hərbi Məktəbinin buraxılışına gəlməyim. Sizi, bu mənzərəni görərək həddindən artıq sevinirəm, həyəcanlanıram. Deməli, son ildə Azərbaycanda ordu quruculuğunu daha da yüksək səviyyədə təşkil etmək, Azərbaycanın Silahlı Qüvvələrini müasir tələblərlə hazırlanmış, bilik almış zabitlərlə təmin etmək arzularımız, niyyətlərimiz, proqramlarımız artıq həyata keçirilir. Bu sistem artıq gedir və gedəcəkdir. İlbəil bundan da artıq davam edəcəkdir.

Bu il Ali Hərbi Məktəbi bitirənlərin sayı keçən ilkindən çoxdur. Bu tərəfdə duranlar, hansılar ki, son kursda oxuyacaqlar, onların da sayı keçən ilkindən çoxdur. Məlumdur ki, Ali Hərbi Məktəbə daxil olmaq üçün böyük müsabiqədən keçmək lazımdır. Bu müsabiqədən keçib, dörd il təhsil alaraq zabit səviyyəsinə çatmış gənclərimiz ilbəil artır və artacaqdır.

Bizim Ali Hərbi Məktəbimiz, Ali Təyyarəçilər Məktəbimiz, Ali Dənizçilik Məktəbimiz, Hərbi Akademiyamız, təkmilləşdirmə kursları, ordumuzu təmin etmək, lazım olan qüvvələri hazırlamaq üçün müxtəlif səviyyədə yaranmış kurslar –bunların hamısı indi artıq Azərbaycanda Silahlı Qüvvələrin böyük bir təhsil sisteminin tam yaranmasını nümayiş etdirir və bu, davam edəcəkdir. İlbəil yeni, gənc zabitlərin sayı artacaq, bizim ordumuz yeni zabitlər, müxtəlif sahədə ixtisaslaşmış mütəxəssislər alacaqlar. Bunların hamısı bizim ordumuzu müasir tələblərə uyğun inkişaf etdirəcəkdir.

Azərbaycanda ordu quruculuğunun işində, hərbi təhsil sisteminin yaranması işində, mövcud hərbi hissələrimizdə zabitlər və əsgərlərin gündəlik təlimlərinin təşkil edilməsi işində bu nailiyyətləri əldə etdiyimizə Türkiyə cümhuriyyəti ilə Azərbaycan respublikası arasında, Tükiyə Cümhuriyyətinin Silahlı Qüvvələri ilə Azərbaycanın Silahlı Qüvvələri ilə Azərbaycanın Silahlı Qüvvələri arasında artıq bir çox illər bundan öncə yaranmış əlaqələr, əməkdaşlıq, müştərək iş böyük kömək göstərmişdir. Bu iş indi də, gələcəkdə də davam edəcəkdir.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri var. Bu əlaqələri biz yüksək qiymətləndiririk və onların təkmilləşməsi üçün daim səylərimizi göstəririk və göstərəcəyik. Bu əlaqələrin böyük bir hissəsini təşkil edən bizim ordu quruculuğu sahəsində, hərbi sahədə olan əməkdaşlığımızdır.

Bu mərasimi keçən il biz Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin başçısı, Baş qərargah rəisi, ordu generalı, hörmətli Hüseyn qıvrıqog lu ilə bərabər Azərbaycana gəlmiş nümayəndə heyəti ilə birgə keçirdik. O günlərdə bizim bütün xalqımızı sevindirən "Türk Yıldızları" Azərbaycanda oldular. Onda bu məktəbin ilk buraxılışı idi. Bu məktəbi bir yerdə hazırlamışıq. Təbiidir, mən çox şad oldum ki, ilk buraxılışı da birlikdə keçirdik.

Bu gün mən yenə də mərasimimizdə Türkiyə Cümhuriyyəti silahlı Qüvvələrinin burada bizimlə bərabər fəaliyyət göstərən yüksək rütbəli şəxsləri və Türkiyədən Azərbaycana gəlmiş qonaqlar da iştirak edirlər. Mən qonaqlarımızı səmimi-qəlbdən salamlayıram və Türkiyə Cümhuriyyətinə, xalqına və Türkiyənin Silahlı Qüvvələrinə dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələrinin daim inkişaf etdirilməsində və ordu quruculuğunda bərabər işləməyimizlə əlaqədar təşəkkürümü, minnətd, minnətdarlığımı bildirirəm.

Əziz gənc zabitlər, mən artıq dedim ki, siz keçdiyiniz yolun birinci mərhələsini başa vurmusunuz. Qarşınızda yolun daha da ağır hissəsi durur. O da qeyd etdiyim kimi, aldığınız biliklərinizi, öz imkanlarınızı sizə harşınızda yolun daha da ağır hissəsi durur. O da qeyd etdiyim kimi, aldığınız biliklərinizi, öz imkanlarınızı sizə həvalə olunan vəzifənin yeriinə yetirilməsinə sərf etməyimizdir. Güman edirəm ki, siz bu peşəni şüurlu seçdiyinizə və ali hərbi məktəbi uğurla bitirdiyinizə görə, gələcəkdə də yaxşı nümunələr göstərəcək, öz xidmətlərinizi daim davam etdirəcəksiniz.

Mən dəfələrlə demişəm, bu gün də sizə deyirəm ki, hərbi peşə indandan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətnlik və s. Əgər bunlar olmasa, gələcəkdə sizin üçün bu yol çətin olacaqdır. Mən demək istəmirəm ki, bunlar sizdə yoxdur, əgər bunlar olmasaydı, siz bu peşənin ardınca getməzdiniz. Ancaq sizgərək daim özünüzdə bu key iyyətləri nümayiş etdirəsiniz. Bu keyfiyyətlər sizin



işinizdəgərək özünü göstərsin, get-gedə möhkəmlənsin və sizin adi adətinizə çevrilsin. Güman edirəm, siz bunu edəcəksiniz.

Bizim silahlı qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Mənəvi saflıq daim yüksəldir və lazım olan bütün ba.qa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas yaradır. Şübhə etmirəm ki, siz bu tövsiyyəni də unutmayacaqsınız.

Siz bilməlisiniz ki, Azərbaycanın Silahli Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdırlar. Ona görə də siz öz hərbi xidmətinizdə hər gün, hər vaxt bunu düşünməlisiniz, bunu bilməlisiniz, bunu yadınızdan çıxarmamalısınız.

Bizim ordumuz bu günün, gələcəyin ordusudur. Azərbaycan dövlət müstəqilliyinin on illiyini qeyd etdi. Bir neçə aydan sonra biz dövlət müstəqilliyimizin on birinci ildönümünü qeyd edəcəyik. Aylar keçir, illər keçir, ancaq bu aylar, illər keçdikcə Azərbaycan inkişaf edir, yüksəlir, güclənir və o cəmlədən Azərbaycanın Silahlı Qüvvələri güclənərək daha da qüdrətli olubdur.

Ancaq azərbaycanın müstəqil dövlətinin üzərinə düşən vəzifələr hər bir şəxsdən, hər bir təşkilatdan işləri daha da yaxşı aparmağı tələb edir. O cümlədən mən bu gün Azərbay canın Silahlı Qüvvələrindən, Azərbaycan Ordusundan, Müdafiə Nazirliyindən öz vəzifələrini daha da keyfiyyətli, daha da yaxşı yerinə yetirməyi tələb edirəm. Bunu bu gün ona görə bəyan edirəm ki, bizim daimi tələblərimizdir. Biz bu prinsipdən bir gün də geri çəkilməyəcəyik.

Bir də ona görə ki, təəssüflər olsun, bizim ayrı-ayrı hərbi hissələrdə hələ nöqsanlar da var. Bəzi hallarda çox narahatedici nöqsanlar da var. Bəzi hissələrdə hərbi nizam-intizam lazımi səviyyədə deyil, komandirlər, zabitlər, əsgərlərə, xüsusən gənc əsgərlərə-yəni orduya yeni səfərbər edilmiş əsgərlərə qaygö göstərmirlər. Belə faktlar var və mən bir neçə dəfə bu cür tənqidi fikirlərimi deməyimə baxmayaraq, qüsurların daha da sürətlə aradan qaldırılmasını tələb etməyimə baxmayaraq, təəssüflər olsun ki, hələ ki, belə hallar var və çoxdur.

Mən bu gün, bayram günü burada hansısa konkret faktlardan danışmaq istəmirəm. Amma, ümumiyyətlə, deyirəm ki, Azərbaycanın Silahlı Qüvvələrində, Azərbaycan Ordusunda hər bir

komandir, hər bir yüksək vəzifəli şəxs bilməlidir ki, sədaqətlə xidmət etməlidir. O, xidmətini elə aparmalıdır ki, ordumuz gündən-günə güclənsin, zəifləməsin. Mən bu gün bu tələbi bir daha bəyan edirəm. Güman edirəm ki, mənim bu tənqidi sözlərimdən və bəyan etdiyim bu tələblərdən nəticə çıxarılacaqdır. Biz heç vaxt arxayınlaşmamalıyıq.

Mən bu gün çox tərlifli sözlər dedim. Amma, bu o demək deyil ki, biz hər şeyə nail olmuşuq. Yox. Hələ çox şeylər var ki, biz onları etməliyik. Bəzilərini indiyə qədər etməmişik, çünki imkan olmayıbdır. Amma bəzilərini də etməmişik. Çünki ayrı-ayrı hissələrdə, ayrı-ayrı sahələrdə buraxılan səhvlər bəzi vəzifəli şəxslərin, o cümlədən ordumuzun ayrı-ayrı hissələrində olan vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə etməsi və öz vəzifələrinin yerinə yetirilməsində məsuliyyətsizlik göstərməsi istədiyimiz nailiyyətlərin əldə olunmasına hələ imkan verməyibdir. Ona görə də biz, bir tərəfdən, Silahlı Qüvvələrimizi hələ daha da təkmilləşdirməliyik. Bu səviyyəni hələ son səviyyə hesab etmək olmaz. İkinci tərəfdən, mövcud olan nöqsanları, qüsurları aradan qaldırmalıyıq.

Güman edirəm ki, bizim gənc zabitlərimiz mənim bu sözlərimi daim yadda saxlayacaqlar. Çünki bu sözlər bu gün də aktualdır, gələcək illərdə də aktual olacaqdır və heç vaxt aktuallığını itirməyəcəkdir.

Bizim Ali Hərbi Məktəbimizin qısa bir zamanda belə yüksək səviyyəyə çatması, təbiidir ki, bu məktəbin professor-müəllim heyətinin çox böyük səylərini nümayiş etdirir. Bəzən kənardan yəni, bizim ordumuzu yaxşı görməyənlər, yaxud görmək istəməyənlər, ordumunda olan vəziyyəti bilməyənlər, yaxud, həqiqəti bilmək istəməyənlər, -təssüflər olsun ki, bu, indi müəyyən qədər dəb şəklini alıbdır, - ordumuz haqqında, onun ayrı-ayrı hissələri haqqında cürbəcür, həqiqətə uyğun olmayan fikirlər söyləyirlər, şayiələr yayırlar.

Mən dedim, təbiidir ki, səhvlər də var, nöqsanlar da var. Ancaq bizim gördüyümüz bu işlərin arxasında böyük əmək, böyük zəhmət və böyük hərbi xidmət durur. Bunu da edənlər bizim ordumuzun, Silahlı Qüvvələrimizin komandan hissəsidir, ali vəzifəli şəxslərdir. Təhsil sahəsində bunu edənlər, məktəbə rəhbərlik edənlər, müəllimlər, professorlar, təhsil işini təşkil edənlərdir. Mən bu gün



bunu qeyd edərək, məmunuyyət hissi keçirirəm ki, bizim Ali Hərbi Məktəbimizdə yüksək səviyyədə təhsil vermək imkanına malik olan kadrlarımız vardır. Ancaq bu kadrları artırmaq lazımdır. Onların biliklərinin təkmilləşməsi haqqında düşünmək lazımdır. Güman edirəm ki, bu da bizim qarşımızda duran vəzifələrdəndir.

Əziz gənc zabitlər!

Mən sizin hamınızı bir daha təbrik edirəm Sizə can sağlığı, gələcək işlərinizdə xidmətinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, lazım olan vaxt siz yüksək qəhrəmanlıq nümunələri göstərəsiniz. Arzi edirəm ki, bizim ordumuzda qəhrəmanlardan da qəhrəman olanların sayı daha da çoxalsın.

Siz gələcək xidmətinizdə mütləq yüksək komandan heyətinin qayğısı və diqqəti altında olacaqsınız. Bunu bilməlisiniz.

Bu gün mən Səfər Əbiyev ilə bu barədə söhbət aparanda ona bildirmişəm. Ali Hərbi Məktəb bitirmiş hər bir şəxs gərək xüsusi qeydiyyatda və nəzarətdə olsun. Birincisi, o, necə xidmət edir, ikincisi, onun lazımi səviyyədə xidmət etməsi üçün hansı diqqət və qayğı göstərilir. Əgər daimi diqqət və qayğı olmasa, bəziləri üçün çox çətin olar. Mən bunu Müdafiə Nazirliyinin rəhbərliyindən tələb edirəm.

Bu tərəfdə duranlar 4-cü kursa keçənlərdir. Əziz övladlar, mən sizə arzu edirəm ki, qarşınızda olan bu bir ili daha da səmərəli keçirəsiniz və sizinlə üzbəüz duran qardaşlarınız kimi, gələn il siz də bu tərəfdə zabit paltarlarında durasınız. Mən söz verirəm ki, gələn il də gəlib sizi burada salamlayacağam və təbrik edəcəyəm.

Azərbaycan dövlətinin, o cümlədən prezidentin, Ali Baş Komandanın çox işləri var. Ancaq bizim dövlətimiz üçün, mənim üçün, Azərbaycanın prezidenti, Ali Baş Komandan üçün ordu ilə, Silahlı Qüvvələrlə əlaqədar olan işlər hər şeydən vacib, hər şeydən əhəmiyyətlidir. Mən öz vəzifəmi bu prinsiplə həyata keçirirəm və bundan sonra da bu prinsiplə həyata keçirəcəyəm. Ona görə bilin, mənim Silahlı qüvvələr haqqında qayğım, diqqətim adi xarakter daşımır. Mən bütün silahlı Qüvvələrimizi özüm üçün ən doğmalardan hesab edirəm. Çünki birincisi, Silahlı Qüvvələrdə xidmət göstərənlər çətin peşə ilə məşğuldurlar. Eyni zamanda, xalq üçün, dövlət üçün, millət üçün çox vacib bir peşə ilə məşğuldurlar. Ona görə də əmin ola bilərsiniz ki, mənim diqqətim və qayğım daimi olacaq, həm ordunun, həm də bizim ali təhsil sisteminin maddi-

texniki bazasının yaranması, başqa vəsaitlərlə təmin edilməsi və digər işlərlə-onlar çoxdur-şəxsən mən məşğulam və daim məşğul olacağam. Hesab edirəm ki, Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasının əsas təminatıdır.

Əziz övladlarımız!

Mən sizi bir daha, bir daha təbrik edirəm, sizə cansağlığı arzu edirəm, işinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, bir ildən, iki ildən, üç ildən sonra hərbi hissələrə gələndə sizin hər birinizi özüm gözümlə görüm, sizinlə görüşə bilim və müvəffəqiyyətləriniz haqqında məlumatlar, raportlar alım. Güman edirəm ki, bu da olacaqdır.

Bizim ordumuz güclüdür. Ordumuzun gücü gündən-günə artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz! Biz bunu sülh yolu ilə həll etmək istəyirik, bu barədə çox səylər qoymuşuq və bundan sonra da qoyacağıq. Ancaq bizim bu səylər sonsuz olmayacaqdır. Biz bütün səylərimizi qoyub məsələni sülh yolu ilə həll etməyə çalışıacağıq. Əgər bu, mümkün olmasa, bizim əziz zabitlərimiz, əziz Silahlı Qüvvələrimiz, siz torpaqlarımızın azad olunması üçün hər gün hazır olmalısınız!

Torpaqlarımız azad olacaq, ordumuz inkişaf edəcək, respublikamızın iqtisadiyyatı yüksələcək və yaxın illərdə Azərbaycan böyük inkişaf yoluna qədəm qoyacaqdır. Buna əmin ola bilərsiniz.

Mən sizi daha ürəkdən təbrik edirəm. Sağ olun.



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## S Ə R Ə N C A M I

### Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında

Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütünlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qaygısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan

Yazıçılar Birliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2005-2008-ci illərdə latın qrafikası ilə yenidən çapı nəzərdə tutulan əsərlərin siyahısını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Azərbaycan Respublikasının Nazirlər kabineti və respublikanın maliyyə qurumları ilə birlikdə müvafiq plan-qrafik tərtib edib latın qrafikası ilə yenidən nəşr olunması nəzərdə tutulan kitabların çapını təmin etsin;

- Azərbaycan Respųblikasının aidiyyəti qurumları ilə birlikdə yenidən çapı nəzərdə tutulan kitabların mətinlərinin elektron daşıyıcıları və internet vasitələrilə yayılmasını, latın qrafikasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın yaradılmasını təmin etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 yanvar 2004-cü il**



# AZƏRBAYCANDA GƏNCLƏRİN MÜASİR BİLİKLƏRƏ VƏ TEXNOLOGİYALARA YİYƏLƏNMƏSİ ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILIR

**Azərbaycan prezidenti İlham Əliyevin Naxçıvan şəhərindəki Heydər Əliyev adına Orta məktəbin açılış mərasimində nitqi**

**2 sentyabr 2004-cü il**

**-Əziz naxçıvanlılar!**
**-Əziz bacılar və qardaşlar!**

Mən sizin hamınızı ürəkdən salamlayıram. Heydər Əliyevin adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu məktəbin açılışı çox əlamətdar hadisədir. Əvvəla, ona görə ki, bu məktəb xalqımızın ümummilli liderinin adını daşıyır. Digər tərəfdən, bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu, həm memarlıq baxımından gözəl binadır, eyni zamanda, burada yüksək səviyyədə təhsil almaq üçün hər şərait vardır. Natiq Əliyev öz çıxışında qeyd etdi ki, bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli olsun. O, bu məktəbin dünya standartlarına cavab verməsini istəyirdi. Bu gün biz hamımız çox şadıq ki, məktəb Heydər Əliyevin istədiyi kimi tikilmiş və istifadəyə verilmişdir. Deyə bilərəm ki, bu məktəb indi təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda bir nömrəli məktəbdir.

Heydər Əliyev xalqımız üçün ən çətin anlarda onunla birlikdə idi. Naxçıvanın ən ağır dövrlərində o, naxçıvanlılarla birlikdə burada yaşamış və işləmişdir. Naxçıvanı xalqla birgə qorumuş və bu qədim diyarın inkişafına nail ola bilmişdir. Naxçıvan blokada şəraitində yaşadığı dövrdə Türkiyə ilə muxtar respublika arasında "Ümid" körpüsünün tikintisi də məhz Heydər Əliyevin təşəbbüsü ilə, bilavasitə rəhbərliyi altında həyata keçirilmişdir. Bu körpü indi də Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. O zamanlar körpü Naxçıvanın dünya ilə yeganə əlaqə vasitəsi idi. Naxçıvanın ən ağır vəziyyətində Heydər Əliyev bu diyarın digər sahələrindəki

problemləri ilə də məşğul olur, onları həll edirdi, Naxçıvanı dünyada tanıdırdı. Təsadüfi deyil ki, həmin illər beynəlxalq təşkilatlarda, digər mötəbər qurumlarda Naxçıvan haqqında kifayət qədər məlumat var idi.

Naxçıvanın ağır blokada şəraitində yaşaması da dünya ictimaiyyətinə məlum idi.

Azərbaycan çətin vəziyyətə düşdükdən sonra xalq yenə də öz liderinə müraciət etdi və 1993-cü ildə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Bakıda vəziyyət çox ağır idi. Ölkəmiz böy ük təhlükə ilə üzləşmişdi. Heydər Əliyevin qətiyyəti, iradəsi, müdrikliyi Azərbaycanı bu bəladan xilas etdi. Həmişə xalqın iradəsinə arxalanmış lider on il ərzində ölkəmizi irəli apardı. Azərbaycan inkişaf dövrünü yaşadı. Ölkəmizdə bütün sahələrdə inkişaf prosesi başlandı. Beynəlxalq aləmdə yerimiz möhkəmlənmişdir və bu gün Azərbaycan dünyada tanınan bir ölkədir. Azərbaycan bölgədə və dünyada öz mövqelərini gücləndirmişdir. Ölkəmiz iqtisadi inkişaf baxımında çox sürətlə irəli gedir, regionda liderdir. İqtisadi göstəricilərinə görə Azərbaycan bir çox inkişaf etmiş ölkələri də qabaqlayır.

On il ərzində Heydər Əliyev tərəfindən Azərbaycanda aparılmış iqtisadi islahatlar öz gözəl nəticələrini vermişdir. Xalqımız ildən-ilə daha yaxşı yaşayır, insanların rifahı yaxşılaşır, sosial məsələlər öz həllini tapır, maaşlar, təqaüdlər vaxtı-vaxtında ödənilir və onların həcmi artır. Bildiyiniz kimi, bu yaxınlarda əmək haqqı artırılmış, büdcədən maliyyələşdirilən təşkilatların işçilərinin maaşları qaldırılmışdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Bu, bizim qçqn prioritet istiqamətlərdir. Azərbaycanın hərtərəfli inkişafı, regionların inkişafı və eyni zamanda, sosial məsələlərin həlli başlıca vəzifələrdir. Bütün bunları həyata keçirmək üçün, əlbəttə ki, ölkənin güclü iqtisadiyyatı olmalıdır. Əgər iqtisadiyyat olmasa, heç bir sosial proqramı həyata keçirmək mümkün olmayacaqdır. Ona görə də bu gün iqtisadi inkişaf məsələlərinə xüsusi əhəmiyyət verilir. Soaial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların inkişaf proqramı da məhz bu məqsədə xidmət edir. Çox sevindirici haldır ki, prezident seçkilərindən ötən dövr ərzində Azərbaycanda 70 mindən çox yeni iş yeri açılmış, onlardan 50 mini daimi, 20 mini isə müvəqqəti iş yerləridir. Bu onu göstərir ki, aparılan iqtisadi və sosial siyasət öz nəticələrini verməkdədir.



Bütün bu uğurların əsası 1993-cü ildə qoyulmuşdur. Əgər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəlməsəydi, iqtisadi islahatlar aparmasaydı, Azərbaycanı dünya birliyində tanıtmasaydı, onun yerini möhkəmləndirməsəydi, bu gün hər hansı bir iqtisadi uğurdan söhbət gedə bilməzdi. Eyni zamanda, bizim iqtisadi inkişafımızın əsas səbəblərindən biri də Heydər Əliyevin neft strategiyasıdır. Burada qeyd olundu ki, on il bundan əvvəl 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyev Azərbaycanda neft strategiyasını həyata keçirməyə başladı.

Bu on il ərzində həm ölkəmizə böyük həcmdə sərmayə qoyuldu, həm də infrastruktur yaradıldı, yeniləşdi, neft sənayesində on minlərlə yeni iş yerləri açıldı və orada çalışanların əmək haqqı çox yüksəkdir. Neft strategiyamız bizə imkan verib ki, Azərbaycanda Neft Fondu yaradılsın, burada vəsait toplansın və bu vəsait də şəffaf şəkildə sərf olunsun. Bu gün Azərbaycanın ildən-ilə artan büdcəsinin müəyyən hissəsi Neft Fondunun hesabınadır. Gələcəkdə, Heydər Əliyevin adını daşıyan və onun tərəfindən həyata keçirilən böyük, irimiqyaslı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə veril-məsindən sonra ölkə iqtisadiyyatı daha da güclənəcəkdir.

Neft strategiyasının nəticələrindən biri də bu məktəbdir. Əgər Azərbaycan Dövlət Neft Şirkəti heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyasından bəhrələnməsəydi, əlbəttə ki, bu məktəb də tikilə bilməzdi. Bu məktəbə kifayət qədər vəsait qoyulmuşdur.

Azərbaycanın son on ildə və bu gün də bütün sahələrdə inkişafının əsas səbəbi məhz 1993-cü ildə Azərbaycan xalqının tutduğu, seçdiyi yoldur. Biz bu yola sadiqik. Bu siyasət davam etdirilir. Azərbaycan prezidenti seçkilərindən keçən dövr ərzində bu yolla gedir. Xarici siyasətimiz də, eyni zamanda, ölkə daxilində islahatlar da həmin ümumi istiqamət çərçivəsində aparılır. Mən dəfələrlə demişəm ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Məhz bu siyasət Azərbaycanı çox parlaq gələcəyə aparacaqdır, ölkəmiz ildən-ilə güclənəcək, xalqımız ildən-ilə y xşı yaşayacaqdır. Bu, bizim siyasətimizin əsas vəzifəsidir. Mən bunu bəyan etmişəm və bu gün də bəyan edirəm ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar və yaşayacaqlar.

Heydər Əliyev, bütün başqa sahələrdə olduğu kimi, təhsil sahəsinə də çox böyük diqqət göstərmişdir və təsadüfi deyildir ki,

indi də bizim büdcəmizin 20 faizi, yəni ən böyük hissəsi təhsil sahəsinə sərf olunur. Azərbaycanda Heydər Əliyev tərəfindən, onun təşəbbüsü ilə həyata keçirilən proqram bu gün də davam etdirilir. Kütləvi surətdə yeni məktəblərin tikilməsi, köhnə məktəblərin təmiri nəzərdə tutulur. Bu, çox önəmli proqramdır və həyata keçirilir. Məktəb bilik deməkdir, maarif deməkdir, savad deməkdir. Biz çalışmalıyıq ki, gənclərimiz savadlı, bilikli, tərbiyəli olsunlar. Buna nail olmaq üçün həm ailədə, həm də məktəbdə uşaqlarımız çox yaxşı, vətənpərvərlik ruhunda tərbiyə edilməli və əlbəttə ki, yksək biliklərə malik olmalıdırlar. Çünki bilik tərəqqinin əsasıdır.

Müasir dünyada bilik və. yeni texnoligiyalar olmasa, uğur qazanmaq mümkün deyildir. Bu, həm insanlar üçün, həm də ölkə üçün çətindir. İnkişaf etmiş ölkələrə nəzər salsaq, görərik ki, onların tərəqqisini, eyni zamanda, ümumi daxili məhsulun artımını xeyli müəyyən edən texnologiyalar, yeni metodikalar, elmdə əldə olunan nailiyyətlərdir. Bütün bunların da əsası məktəbdə qoyulur. Məktəb bu proseslərdə çox önəmli ril oynayır.

Təsadüfi deyildir ki, biz Azərbaycanda bu sahəni inkişaf etdirmək üçün ardıcıl tədbirlər görürük. Burada qeyd olundu ki, bu sahədə müvafiq sərəncamlar imalanmış və 2005-2007-ci illərdə ölkənin bütün məktəblərində kompüter sinifləri təşkil edilməsi ilə əlaqədar proqram qəbul olunmuşdur. Azərbaycanda 4554 ümumtəhsil məktəbi var. Üç il ərzində hər bir məktəbdə kompüter sinfi yaradılacaq, onlar şagirdlərimizin dünyada gedən prosesləri operativ şəkildə izləməsi üçün internetə qoşullacaqdır. Beləliklə, şagirdlərin öz səviyyələrini qaldırmaq imkanı olacaqdır. Ümid edirəm ki, digər proqramlarla yanaşı, bu proqram da uğurla həyata keçiriləcəkdir. Bu günə qədər Azərbaycanda nəzərdə tutulmuş bütün tədbirlər, proqramlar uğurla reallaşdırılmışdır. Onları həyata keçirmək üçün bizdə bütün lazımi şərait vardır. Qeyd etdiyim kimi, Azərbaycan sürətlə inkişaf edir, bu sürət 2005-ci ildə daha da yüksək olacaqdır. Bu isə bizə bütün sahələri dinamik inkişaf etdirmək imkanı verəcəkdir.

Əziz dostlar, mən sizi bir daha Heydər Əliyev adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə ürəkdən təbrik edirəm, burada təhsil alacaq şagirdlərə, çalışacaq müəllimlərə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.



## AZƏRBAYCAN MÜƏLLİMLƏRİNƏ

**Əziz və hörmətli müəllimlər!**

Sizi 5 oktyabr – Beynəlxalq Müəllim Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə, ölkənin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirirəm.

Azərbaycanın daim yüksək amallara xidmət göstərmiş müəllim ordusu ölkəmizin hərtərəfli inkişafı naminə, gələcəyimiz olan gənclərin milli-mənəvi dəyərlərə sadaqət ruhunda yetişdirilməsi yolunda var qüvvəsini sərf etmişdir. İftixar hissi ilə qeyd olunmalıdır ki, zəngin maarifçilik ənənələrinə malik təhsil sistemimiz aparılan islahatlar nəticəsində bu gün müasir beynəlxalq standartlara cavab verməkdədir. İnanıram ki, Azərbaycan müəllimləri Birləşmiş Millətlər Təşkilatının "Təhsil əsri" – "İntellekt əsri" elan etdiyi XXI yüzillikdə milli təhsilin davamlı inkişafı və dünya təhsil sisteminə inteqrasiyası üçün əllərindən gələni edəcək, bu sahədə artıq dönməz xarakter almış islahatlar prosesini uğurla davam etdirəcəklər.

Müstəqil Azərbaycan dövlətinin qarşısında geniş inkişaf perspektivləri ilə ba.lı mühüm vəzifələr durur. Bu vəzifələrin öhdəsindən gəlməyə qadir olan vətənpərvər, yüksək savadlı gənclərin hazırlanması ölkəmizin tərəqqisinin, firavan həyata qovuşmasının mühüm şərtlərindəndir. Əminəm ki, siz bu bacarığınızı əsirgəməyəcək, əsası ümummilli liderimiz, böyük maarifpərvər Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil quruculuğu strategiyasının həyata keçirilməsinə öz layiqli töhfənizi verəcəksiniz.

Əziz müəllimlər!

Sizi, bu şərəfli peşə sahiblərini, Beynəlxalq Müəllim günü münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə cansağlığı, müstəqil Azərbaycanın intellektual potensialının gücləndirilməsi yolunda yeni nailiyyətlər diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri 4 oktyabr 2004-cü il**

## TƏHSİL SAHƏSİNDƏ DƏ BÖYÜK İRƏLİLƏYİŞLƏR VARDIR

**Azərbaycan prezidenti İlham Əliyevin Cəlilabad rayonunun Alar kəndində ümummilli lider Heydər Əliyevin büstünün və orta məktəb binasının açılış mərasimində nitqi**

**9 noyabr 2004-cü il**

**-Əziz cəlilabadlılar!**

**-Əziz bacılar və qardaşlar!**

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm. Burada qeyd olundu ki, cəlilabadlılar Heydər Əliyevi çox sevirlər. Bu, həqiqətən də belədir. Mən də bunun şahidiyəm. Çünki yaxşı xatırlayıram ki, 1970-80-ci illərdə Heydər Əliyev Cəlilabada tez-tez gəlirdi. Mən də onunla birlikdə Cəlilabada gəlirdim və cəlilabadlıların Heydər Əliyevə qarşı olan hisslərini çox yaxşı xatırlayıram. Həqiqətən səmimi, mehriban münasibətlər var idi. Mən dəfələrlə bunu qeyd etmişəm və bu gün də demək istəyirəm ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə, sözün əsl mənasında, xalqın rəhbəri, xalqın lideri idi. Sizə onu da demək istəyirəm ki, o da cəlilabadlılara eyni hisslər bəsləyirdi.

O da Cəlilabadlıları çox sevirdi, çox istəyirdi ki, Cəlilabad inkişaf etsin. 1970-ci illərdə Cəlilabad rayonunda aparılmış böyük quruculuq işləri nəticəsində burada böyük üzüm bağları salınmışdı və o illərdə Cəlilabad Azərbaycanın ən çox üzüm istehsal edən rayonu idi. Hətta onu da xatırlayıram ki, Cəlilabadın bu sahədəki uğurları bütünlükdə qonşu Ermənistanda olan uğurlardan daha böyük idi. Yəni Cəlilabadda yığılan üzümün həcmi bütün Ermənistanda yığılan üzümdən daha çox idi. Yaxşı xatırlayıram ki, Heydər Əliyev bu məqamı böyük ləzzətlə vurğulayırdı.

Xalqımızın ümummilli lideri 1970-ci illərdə olduğu kimi, 1990-cı illərdə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da Cəlilabada daim diqqət göstərilirdi. O, çox istəyirdi ki, burada yeni infrastruktur yaradılsın, insanlar da yaxşı yaşasınlar, sabitlik, əmin-amanlıq olsun və buna da nail oldu. Məhz onun fəaliyyəti nəticəsində ölkəmiz anarxiyadan, xaosdan çıxa bildi. Ölkədə sabitlik yarandı və iqtisadi inkişafın başlıca amili olan sabitlik bu gün də azərbaycanda



davam edir. Mən hesab edirəm ki, Azərbaycanın ən böyük nailiyyətlərindən biri də odur ki, bu ictimai-siyasi ab-hava, sabitlik bu gün də, prezident seçkilərindən sonra da davam edir, xalqımız rahat yaşayır, təhlükəsizlik şəraitində yaşayır. Azərbaycanı yenə də o böhrana, faciəyə sürükləmək istəyən qüvvələr xalq tərəfindən layiqli cavablarını aldılar.

Azərbaycan Respublikasının prezidenti kimi, Heydər Əliyevin davamçısı kimi, onun siyasi xəttini bu gün Azərbaycanda həyata keçirən bir şəxs kimi mən də sizə söz verirəm ki, Azərbaycanda bu əmin-amanlıq, bu asayiş, bu sabitlik, nəyin bahasına olursa-olsun, qorunacaqdır. Bu, Azərbaycan xalqının tələbidir, zamanının tələbidir, bu, hər bir inkişaf üçün zəruridir. Xüsusilə, gələcəkdə ölkəmizdə görüləcək işlər naminə biz sabitliyi qoruyub saxlamalıyıq. Həyat onu göstərir ki, sabitlik olan yerdə inkişaf olur. Qyd olundu ki, buyaxınlarda bu il imzalanmış proqramlar – regional inkişaf proqramı, sosial-iqtisadi inkişaf proqramı Azərbaycanda yeni bir mühitin yaranmasına gətirib çıxardı. Ölkəmizdə çox sürətlə yeni iş yerlərinin açılması prosesi gedir. Bu gün bu, bir növ ümummilli bir məsələyə çeviribdir. Mən çox şadam , çünki bu təkliflə, bu proqramla bir il bundan əvvəl prezident seçkiləri ərəfəsində çıxış etmişdim və bəyan etmişdim ki, əgər xalq mənə inansa, əgər xalq məni dəstəkləsə, Azərbaycanda yüz minlərlə iş yeMən çox şadam , çünki bu təkliflə, bu proqramla bir il bundan əvvəl prezident seçkiləri ərəfəsində çıxış etmişdim və bəyan etmişdim ki, əgər xalq mənə inansa, əgər xalq məni dəstəkləsə, Azərbaycanda yüz minlərlə iş yerləri açılmalıdır və açılacaqdır.

Çox şadam ki, Azərbaycan xalqı, o cümlədən cəlilabadlıların demək olar ki, tam əksəriyyəti prezident seçkilərində məhz bu xəttə, bu siyasətə, heydər Əliyev siyasətinə səs vermişdir, və mən əminəm ki, bu gün onlar buna görə peşman deyillər. Bir il ərzində 100 mindən artBir il ərzində 100 mindən artıq iş yerinin yaradılması, o cümlədən 70 minə qədər daimi iş yerinin açılması çox böyük nailiyyətdir, çox böyük uğurdur. Bu gün mən bunları öz fəaliyyətimi tərifləmək üçün demirəm. Bu, həqiqətən də belədir.

Bu proses bütün bölgələrdə gedir. Bütün bölgələrdə sahibkarlara diqqət göstərilir, onlara ayrılan kreditlərin, vəsaitlərin həcmi artır. Gələn il də biz bunun artırılmasını nəzərdə tutmuşuq. Kənd təsərrüfatını dəstəkləmək üçün yeni proqramlar həyata

keçirilir. Kənd təsərrüfatı texnikasının alınması nəzərdə tutulur. Cəlilabadda ənənəvi üzüm istehsalı bərpa ediləcəkdir. Bu sahədə də işlər görülüb və mənə verilən məlumata görə yüzlərlə hektar torpaq nəBu sahədə də işlər görülüb və mənə verilən məlumata görə yüzlərlə hektar torpaq nəzərdə tutulmuşdur ki, 1970-ci illərdə olduğu kimi, Cəlilabadda biz üzüm bağlarının salınmasına kömək edək. Bilirsiniz ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin yarıtmaz fəaliyyəti nəticəsində, səhv siyasəti nəticəsində Azərbaycanda, demək olar ki, bütün üzüm bağları məhv edilmişdir. Azərbaycana çox böyük bir ziyan dəymişdir. Əlbəttə ki, bu istiqamətdə çox ciddi işlər aparılmalıdır ki, bu bağları, bu sahəni, Azərbaycan iqtisadiyyatının çox vacib sahəsini biz bərpa edək. Mən əminəm ki, biz buna nail olacağıq. Azərbaycanın buMən əminəm ki, biz buna nail olacağıq. Azərbaycanın bugünkü inkişaf sürəti, ölkədə gedən quruculuq işləri, sahibkarlığın inkişafı bunu deməyə əsas verir ki, biz bu vəzifəni də yerinə yetirəcəyik.

Mən bu gün Astarada, Lənkəranda, masallıda və Cəlilabadda olarkən çox sevinc hissi keçirirəm. Sevinirəm ki, Azərbaycan inkişaf edir, yeni iş yerləri açılır, yeni müəssisələr fəaliyyət göstərir. Ölkəmizdə istehsal olunmuş məhsullar digər ölkələrə ixrac olunur. Biz də bunu istəyirik. İstəyirik ki, istehsal güclənsin, idxal əvəzinə yerli istehsal öz bazarımızı təmin etsin və məhsullarımız dünya bazarlarına çıxsın. Biz bunların hamısına nail olacağıq. Bunu etmək üçün hər bir imkan var, maliyyə vəziyyətimiz də ildən-ilə yaxşılaşır, sosial məsələlərin həlli üçün lazımi addımlar atılır. Bilirsiniz ki, bu yaxınlarda minimum əmək haqqı qaldırılmışdır, pensiyalar artırılmışdır. Gələn il minimum əmək haqqı, pensiyalar, əhaliyə çatan digər ödəmələr yenidən qaldırılacaqdır. Bu siyasət ildən-ilə daha da güclü aparılacaqdır. Azərbaycan xalqı, hər bir azərbaycan vətəndaşı daha da yaxşı yaşamalıdır və yaşayacaqdır.

Buna azərbaycan xalqının, Azərbaycan vətəndaşının haqqı var və biz də bunu təmin edəcəyik. O cümlədən başqa sahələrdə də - irəliləyişlər vardır. Mən çox şadam ki, Alar kəndindəki bu gözəl, müasir məktəbin açılışında iştirak edirəm. Onu da deməliyəm ki, Azərbaycanda Dövlət Proqramı çərçivəsində yeni məktəblərin tikintisi təşəbbüsü xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Son bir neçə il ərzində müxtəlif yerlərdə yeni məktəblər tikilir. Onlardan biri də bu gün burada istifadəyə



verilir. Bu, ən müasir məktəbdir. Burada şagirdlər çox yaxşı oxuyacaqlar, əminəm ki, müəllimlər də çox yaxşı işləyəcəklər.

Təhsil sahəsinə də çox böyük diqqət göstərilir. Mənim tərəfimdən təsdiq edilmiş proqrama əsasən, Azərbaycanda növbəti üç il ərzində hər bir məktəb – ölkəmizdə 4 mindən artıq məktəb vardır- kompüter sistemi ilə təchiz olunacaqdır. Hər bir məktəbdə kompüter sinfi yaradılacaqdır. Bu kompüterlər birbaşa internetə qoşulacaqdır və bizim şagirdlərimiz gənc yaşlarından internetə, dünya məlumat şəbəkəsinə çıxacaqlar. Bu, üçlük proqramdır. Bu proqram gələn ilin əvvəlindən icra edilməyə başlayacaqdır. Əgər görsək ki, bu proqram uğurla icra olunur, biz bəlkə də iki ilə təmin edə bilərik. Yəni bu sahəyə də, bütün digər sahələrə də diqqət atırılacaqdır.

Azərbaycanın çox gözəl gələcəyi var. Azərbaycanın çox gözəl perspektivləri var. Çox zəngin neft, qaz yataqları var və bu gün bu yataqlar işə salınıbdır. Heydər Əliyevin adını daşıyan, onun əsəri olan Bakı-Tbilisi Ceyhan neft kəməri uğurla tikilir və gələn il istismara veriləcəkdir. Azərbaycan xalqı bundan çox böyük fayda görəcəkdir.

Əziz dostlar, mən bir daha sizi ürəkdən salamlayıram, görüşə gəldiyinizə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gözəl məktəbin açılışı münasibətilə sizi bir daha təbrik edirəm.

# NƏTİCƏ

Bəşəriyyət tarixində cəmiyyətin inkişafını sürətləndirən təhsil sisteminə həmişə qayğı göstərilmiş, təhsil sistemi cəmiyyətin iqtisadi, ictimai-siyasi tarixi ilə həmahəng inkişaf etmişdir.

Millətin inkişafının parlaq göstəricisi olan təhsilə qayğı göstərən və əsaslı vəsait verən dövlət həmişə inkişaf etmiş, uğurlar qazanmış, elm, təhsil, maarif, mədəniyyət xadimləri yetişdirmişdir.

Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının tarixi onun təhsil tarixi ilə vəhdədədir. Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənəti, elmi, tarixi, fəlsəfəsi, coğrafiyası və digər elmlərinin, eyni zamanda, müxtəlif sahələrinin inkişafı Azərbaycan təhsilinin məhsuludur, onun yekunu və nəticəsidir.

Dahi Nizami Gəncəvi yazmışdır:

Alimdir gözümdə ən əziz insan!
Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
Hər uca rütbədən bilinir, fəqət
Alimin rütbəsi ucadır, əlbət!

Dahi Nizaminin poemaları köhnəlmək bilməyən elə bir aləmdir ki, əsrdən əsrə cavanlaşır, çünki insanın hiss, həyəcan, arzu və istəklərinin heç bir zaman solmayan mənzərəsini ustalıqla yaratmışdır. Ona görə də bəşəriyyət yaşadıqca Nizami və Nizami poeziyası yaşayacaqdır.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir". Dahi tarixi şəxsiyyət Heydər Əliyevin bu müdrik kəlamı əbədidir, daimidir, həmişə yaşayacaqdır.

"Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı"adlı kitab ulu öndərimiz Heydər Əliyevin zəngin azərbaycançılıq ideyasına, onun müqəddəs əqidəsinə həsr olunmuşdur.

Kitab «Azərbaycan təhsilinin tarixinə dair xülasə», "Ümummilli liderimiz Heydər Əliyevin təhsilə qayğısı", "Ulu öndər Heydər Əliyevin ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə qayğısı", "Ədəbiyyatın tədrisində təlim-tərbiyə, bədii-estetik və yüksək əxlaqı keyfiyyətlərin səmərəli öyrədilməsi şərəfli vəzifədir", "Ulu öndər Heydər Əliyevin hərbi təhsilə qayğısı", "Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində fəaliyyəti və tədbirləri", "Təhsil



xadimlərinin maarifçilik fəaliyyəti", "Ümummilli liderimiz Heydər Əliyevin və Prezident İlham Əliyevin təhsilin inkişafına qayğısı" adlı səkkiz bölmədən ibarətdir.

Kitabda Təhsil Nazirliyinin Azərbaycanda 1918-ci il may ayının 28-də yaradıldığı, 1920-ci ildə Xalq Maarif Komissarlığı adlandırıldığı, 1959-cu ildən 1988-ci ilədək Maarif Nazirliyi olduğu və 1988-ci ildən Təhsil Nazirliyi adlandırıldığı ətraflı şərh edilir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 25 mart 1998-ci il tarixli fərmanı ilə professor Misir Mərdanov Cumayıl oğlu Azərbaycan Respublikasının Təhsil Naziri təyin edilir. Müasir dövrümüzdə prof.Misir Mərdanovun səmərəli işlədiyi, təhsil sistemi sahəsində uğurlar qazandığı kitabda geniş şərhini tapır.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətini "bizim milli sərvətimiz, tariximizin parlaq səhifəsi" adlandırmış və demişdir: "XX əsrdə yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XX əsrə biz müstəqil dövlət olaraq həmin bu sənətlə, həmin bu böyük potensialla başlamışıq".

Ümummınilli liderimiz Heydər Əliyevin vəfatından sonra onun ideyalarının istedadlı davamçısı, "hər bir azərbaycanlının prezidenti" İlham Əliyev şərəfli fəaliyyəti ilə davam etdirir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Proqramı"nın (2004-2008-ci illər) doxsan yeddi maddəsi təhsillə bağlıdır. Bu proqram təhsil sahəsində geniş səmərəli uğurlar qazanılmasının ətraflı şərhini verir və icra etməyin yollarını göstərir.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təhsilə və təhsil xadimlərinə qayğısı, ədəbiyyatın təlim-tərbiyəvi mahiyyətinə diqqəti, təhsil xadimlərinin maarifçilik fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində fəaliyyəti və tədbirləri, Heydər Əliyevin hərbi təhsilə tələbkarlığı və hörməti, ölkəmizin ordu quruculuğunda tədbirləri, Azərbaycan dövlətinin siyasətində məktəbə və təhsilə kömək siyasətinin əsas məqsədi, Prezident İlham Əliyevin təhsil sahəsindəki şərəfli xidmətləri və s. mühüm problemlərin ətraflı şərhi verilir, tarixilik və elmilik prinsipləri əsasında ətraflı təhlil edilib ümumiləşdirilir.

Kitabın nəticəsində təhsilə və təhsil xadimlərinə səmərəli qayğının əsas xüsusiyyətlərini ətraflı aşkarlamağa kömək edən

müəyyən sahələrə əlavə diqqət yetirilmiş və şərh edilib yekunlaşdırılmışdır.

Azərbaycan xalqının ulu öndəri 12 fevral 1995-ci ildə demişdir: «Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam… Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir. 25 il bundan öncə Azərbaycana rəhbər seçiləndə də bu mövqedə olmuşam, indi müstəqil Azərbaycanın dövlət başçısı kimi də bu mövqedəyəm. Mən həyatımın bütün mərhələlərində məhz belə mövqedə durmuşam».

Tarix sübuta yetirmiş və təsdiq etmişdir ki, bəşəriyyət tarixində yeni Azərbaycan milli dövlətçiliyinin qorunub saxlanması, inkişaf etdirilməsi, dönməzliyinin, əbədiliyinin təmin olunması missiyası ulu öndərimiz Heydər Əliyevin şərəfli fəaliyyətinin nəticəsi olmuşdur. Türkiyə Cümhuriyyətinin böyük öndəri Mustafa Kamal Atatürk demişdir: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır».

Heydər Əliyev hakimiyyətə gəldiyi 1969-cu il Azərbaycanda təhsilin, elmin, mədəniyyətin intibaha başladığı dövrdür. Heydər Əliyevin milli tərbiyə və təhsil nəzəriyyəsi çox zəngindir. Azərbaycan xal-qının tarixində otuz üç illik dövr Heydər Əliyevin şərəfli fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin zəngin yaradıcılıq irsi, dövlətçilik fəaliyyəti və siyasi görüşləri gənc nəslin milli və bəşəri dəyərlər əsasında tərbiyə edilməsi və təhsil almasında ən dəyərli mənbədir.

Heydər Əliyev 1996-cı ildə Azərbaycan gənclərinin Birinci Forumunda gənclərin xalqımızın azadlığını qorumaq, ərazi bütövlüyünü təmin etmək, ordunun varlığını alqışlamaq, ümumtəhsil sistemində yüksək tərbiyə almaq səyini xüsusi vurğulamış və gənc nəslin milli-mənəvi tərbiyə almasını, tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi şüurlu mənimsəməsini göstərmişdir. Ulu öndərimiz Heydər Əliyev demişdir: «Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz… Bu gün mənəvi tərbiyə də keçmiş illərdən daha çox lazımdır».

Heydər Əliyevin irsində Vətən, Azərbaycan sevgisi, azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil sevgisi və milli mədəniyyət sevgisi xüsusi yer tutur və çox böyük əhəmiyyət kəsb



edir. Deməli, milli tərbiyə işinin məzmununda Vətənə-Azərbaycana, millətə, dilə, dinə, milli-mənəvi dəyərlərə hörmət və sevgi hisslərinin formalaşdırılması zəruridir, həm də başlıca vəzifədir.

Heydər Əliyev iftixarla demişdir: «Vətənpər-vərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik. Vətənpər-vər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələri-nin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindən müsbət nümunələrlə yetkinləşir».

Azərbaycanlı yaşadığı ölkədən, vətəndaşı olduğu dövlətdən asılı olmayaraq azərbaycançılıq hissini, Ana Vətən məhəbbətini müqəddəs qəlbində saxlamalıdır. Ulu öndər Heydər Əliyev demişdir: «Azərbaycanı sevmək-azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir».

Heydər Əliyevin elmi-nəzəri və pedaqoji ideyalarla zəngin olan yaradıcılıq irsində tərbiyə və təhsil əsas yer tutduğuna görə deyir: «Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbayca-nın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu, asan məsələ deyil. Bu bir çox amillərlə bağlıdır, ondan asılıdır… Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq bizim yeni dərsliklər əsasında oxusunlar».

Heydər Əliyev gələcəyin fəal qurucuları olan gənc nəslə böyük ehtimad bəsləyir və humanitar fənlərin dərindən mənimsənilməsinin zəruriliyini göstərib deyir: «Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır… Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır».

Heydər Əliyev milli ideologiyanın aşağıda göstərilən dörd növünün şərhini verir: dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər və müstəqil Azərbaycan milli ideologiyasının kompo-nentlərindən onun özəyini, əsasını təşkil edən azərbaycançılıq. Ulu öndər iftixarla deyir: «Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər-bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir».

Azərbaycan Respublikasının Təhsil Naziri, professor Misir Mərdanov Heydər Əliyevin təhsillə bağlı nəzəri fikirləri içərisində təhsilin məzmununun qurulması ideyasının əsaslandırılmasını aşağıdakı kimi şərh edir:

- Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsi, dönməz-liyinin və əbədiliyinin təmin olunması;
- Azərbaycan xalqının bütövlüyünün, milli həmrəyliyinin təmin olunması; vətəndaş cəmiyyətinin formalaşması; dünya azərbaycanlılarının «Azərbaycan» idealı ətrafında birliyinə nail olunması;
- Azərbaycanın iqtisadi müstəqilliyinin, sərbəst, azad bazar münasibətlərinin bərqərar olması, ölkəmizdə açıq cəmiyyətin formalaşmasına nail olunması;
- Milli ideologiyamızın ifadə vasitəsi olan müstəqil Azərbaycanın dövlət dilinin – Azərbaycan dilinin hərtərəfli inkişaf etdirilməsi;
- Azərbaycan xalqının milli-mənəvi dəyərləri-nin, milli mentalitetinin inkişaf etdirilməsi; türk dünyası, islam aləmi ilə əlaqələrin möhkəm-ləndirilməsi;
- Azərbaycanın müstəqil dövlətçiliyinin təməl ünsürlərindən olan milli mədəniyyətin geniş təbliği və inkişafının təmin edilməsi;
- Azərbaycançılığın milli ideologiyamızın prioritet, aparıcı amili kimi dərk edilməsi, **«Azərbaycançılıq-müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyasıdır!»** prinsipinin reallaşmasının təmin edilməsi;
- Azərbaycanın ilk demokratik Konstitusiyasının milli dövlətçilik ideologiyasının əsas ifadə vasitəsi olması; Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının təminatı; Azərbaycanın milli dövlətçiliyində



ümumbəşəri dəyərlərin, dünyəvi, hüquqi-demokratik, sivil dövlət quruculuğu prinsiplərinin təmin edilməsi, həmin prinsip-lərin tam bərqərar olunması;
- Azərbaycanın dövlətçilik atributlarının milli ideologiyanın tərkib hissələrindən biri olması; Azərbaycan Respublikasının dövlət rəmzlərinə-bayraq, gerb və himnə ölkə vətəndaşlarında, xüsusən gənclərdə hörmət və ehtiram hisslərinin aşılanması, dövlət müstəqilliyinin və milli azadlığın məna və mahiyyətinin geniş təbliğ edilməsi;
- Azərbaycan milli ideologiyasının əsas prinsipləri və tərkib hissələrinin təhsil ocaqlarında təbliği və tədrisinin zəruriliyi;
- Azərbaycan milli ideologiyasının geniş təbliği, tədrisi, öyrədilməsi yolu ilə müstəqilliyimizin təminatçısı olacaq gənclərdə milli vətənpərvərlik hisslərinin, milliyyətçilik (millətsevərlik) duyğularının, milli ruhun yüksəlməsinə nail olunması və s.

Heydər Əliyevin milli ideologiya və təhsilin məzmunu ilə bağlı nəzəri görüşlərində milli müstəqilliyimizin məna və məzmun daşıyıcıları, ifadəçiləri, simvolları olan dövlətçilik atributlarının qəbulu, onların mahiyyətinin və mənasının Azərbaycan gəncliyinə öyrədilməsi, təhsil müəssisələrində uşaqlara, yeniyetmələrə gərəyincə tədrisinin zəruriliyi barədə apardığı məqsədyönlü işlər, irəli sürdüyü konseptual fikirlər mühüm yer tutur.

Bu böyük şəxsiyyətin milli dövlət quruculuğu sahəsindəki böyük xidmətlərindən biri də dövlətçilik atributlarının bərpası, qəbulu, onların təbliği və tədrisi sahəsində gördüyü məqsədyönlü, sistemli, ardıcıl, tarixi əhəmiyyətli işlərdir. Müstəqil Azərbaycanın üçrəngli bayrağının dövlət bayrağı kimi bərpa edilməsi, digər atributların qəbulu ilə bağlı gördüyü işlərin birinci mərhələsi Heydər Əliyevin fəaliyyətinin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrə (22 iyul – 1990-9 iyun 1993-cü il) təsadüf edir.

Prezident Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu milli dövlət quruculuğu siyasəti müstəqilliyimizin atributlarının tam formalaşmasına, onların bütün

vətəndaşlar, xüsusən gənclər arasında təbliği, tədris müəssisələrində tədrisi işində yeni keyfiyyət dəyişmələrinə tarixi zəmin hazırladı. Belə ki, Heydər Əliyevin dövlətçilik atributları ilə bağlı tarixi xidmətlərinin ikinci mərhələsi, hər şeydən əvvəl, onun imzaladığı və rəhbərliyi ilə hazırlanan müxtəlif qanunvericilik aktlarına, eləcə də bir sıra çıxış və nitqlərində irəli sürərək əsaslandırdığı aşağıdakı prinsipial həlli ilə səciyyələnir:

- Dövlət müstəqilliyimiz atributlarının müstəqil Azərbaycanın Konstitusiyasında təsbit olunması;
- Ölkənin bütün təhsil-tərbiyə müəssisələrində Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının məna və məzmununun tədrisi ideyasının ilk dəfə irəli sürülməsi və bu ideyanın gerçəkləşməsi üçün dövlətçilik atributlarının dərindən öyrənilməsinin və təbliğinin zəruriliyinin əsaslandırılması;
- Azərbaycan vətəndaşlarında, xüsusən gənclərdə milli vətənpərvərlik və azərbaycançılıq hisslərinin, Vətənə, millətə, xalqa sədaqət və məhəbbət ruhunun tərbiyə olunmasında dövlət müstəqilliyi atributlarının təbliğinin, öyrənilməsinin, tədrisinin rolu və əhəmiyyətinin müəyyənləşdirilməsi;
- Dövlət rəmzlərinin mahiyyəti və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə dərin hörmət və ehtiram ruhunda tərbiyə edilməsi ölkəmizdə vətəndaş cəmiyyətinin, hüquqi-demokratik və vətəndaş həmrəyliyi cəmiyyətinin formalaşdırılmasının mühüm amili, faktoru olması ideyasının ilk dəfə olaraq irəli sürülüb əsaslandırılması;
- Azərbaycanın dövlət rəmzlərinin məna, funksiya və mahiyyətinin Azərbaycan gəncliyinə dərindən öyrədilməsi milli ideologiyamızın əsas təməl prinsiplərinin (milli-mənəvi dəyərlər, umumbəşəri dəyərlər, milli dövlətçilik, azərbaycançılıq-vətənçilik, istiqlalçılıq, dünyəvilik və s.) təbliğinin və tədrisinin mühüm şərtlərindən biri olması ideyası;
- Hər bir Azərbaycan vətəndaşında, xüsusən gənclərdə dövlət rəmzlərinə-bayrağa, gerbə və himnə hörmət və ehtiramla



yanaşmağın onun Konstitusiya ilə müəyyənləşən vətəndaş vəzifəsi olduğunu şüurlu olaraq dərk etməsinə nail olunması;

- Milli dövlətçilik atributlarına gənclərdə yeni sivil münasibətlərin formalaşmasının zəruriliyi ideyası;
- Dövlətçilik atributlarına olan sevgi, məhəbbət hisslərinin Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabərliyi ideyasının ilk dəfə irəli sürülməsi və s.

Göründüyü kimi, Heydər Əliyevin milli müstəqillik atributlarının məzmun və mahiyyəti ilə bağlı irəli sürüb əsaslandırdığı konseptual fikirlər təhsil, tərbiyə işinin məzmunca müstəqil dövlətçilik prinsiplərinə uyğun qurulmasına birbaşa xidmət edir və milli ideologiyanın təhsil-tərbiyə müəssisələrində sistemli öyrədilməsində əvəzsiz rol oynayır.

Azərbaycanda dövlətçilik atributlarının təbliği və tədris işini gücləndirmək, bu sahədə aparılan tədbirlərin məqsədyönlü, sistemli qurulması, tənzimlənməsi və keçirilməsini təşkil etmək məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyev 1998-ci il martın 13-də «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» xüsusi sərəncam imzaladı. Bu sərəncam möhtərəm Prezidentimizin milli müstəqillik və dövlətçiliyimizin rəmzlərinin ölkə vətəndaşları, xüsusən Azərbaycan gəncliyi tərəfindən dərindən öyrənilməsinə nə dərəcədə yüksək qiymət və əhəmiyyət verdiyinin əyani sübutudur. Bu gün təhsil-tərbiyə müəssisələrinin təhsilin məzmunu sahəsində başlıca amalı Heydər Əliyevin belə bir konseptual fikrini həyata keçirməkdən ibarətdir ki, «Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması, cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndiril-məsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir».

Beləliklə, aydın olur ki, müstəqil, yeni Azərbaycan dövlətçiliyimizin memarı və qurucusu olan Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin zəngin yaradıcılıq irsində milli tərbiyə və təhsil nəzəriyyəsi, təhsilin məzmunu və milli ideologiya konsepsiyası, milli ideologiya komponentlərinin təhsil müəssisələrində tədrisi, öyrənilməsi, təhsilin üstün inkişaf

strategiyası, milli tərəqqi və dirçəlişdə, milli oyanış və milli özünüdərk proseslərində təhsilin roluna dair çox dəyərli fikirləri vardır. Bu nəzəri fikirlər çağdaş Azərbaycan milli pedaqoji fikrin zənginləşməsində və inkişafında böyük rol oynamaqdadır.

Azərbaycan Respublikasının təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovun məzmunlu şərhindən aydın olur ki, ulu öndərimiz Heydər Əliyevin Azərbaycanda təhsilə çox böyük qayğısı olmuş və təhsili həmişə səmərəli inkişaf etdirmişdir.

Professor Misir Mərdanovun Heydər Əliyevin 1969-2001-ci illərdə Azərbaycan təhsilinin inkişaf yolları haqqında elmi-nəzəri şərhi çox məzmunlu və faydalıdır. Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən Azərbaycanda təhsilin inkişafına qayğını ön plana çəkməsi və təhsilin inkişafına geniş şərait yaratdığı ətraflı təhlil edilir, həm də milli təhsilin aşağıdakı dövrləri müəyyənləşdirilir:

1) Azərbaycan təhsili yüksəliş illərində (1969-1982-ci illər).
2) Azərbaycan təhsili 1982-1987-ci illərdə.
3) Azərbaycan təhsili depressiya illərində (1988-1993-cü ilin birinci yarısı).
4) Müstəqil Azərbaycanda yeni təhsil quruculuğu dövrü (1993-cü ilin iyunundan başlanan indiki dövr).

Professor Misir Mərdanov bu dövrlərin qısa şərhini vermişdir.

1993-cü ilin iyununda ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin böyük səyi ilə ümumi təhsildə böhrandan çıxış yolları tapıldı. Azərbaycan Prezidenti Heydər Əliyevin memarı olduğu yeni müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə on bir illik ümumi icbari təhsilə keçildi, Azərbaycan vətəndaşlarının pulsuz ümumi orta təhsilinə dövlət təminatı verildi. Yeni təhsil qanununun yaradılması həyati zərurətə çevrildi və ilk dəfə olaraq Prezident Heydər Əliyevin təşəbbüsü ilə «Təhsil Qanunu»nun yeni layihəsi ümumxalq müzakirəsinə verildi, dövlət proqramı hazırlamaq üçün Dövlət Komissiyası yaradıldı.

Azərbaycan təhsilinin tərkib hissəsi olan texniki peşə təhsili 1970-ci illərdən Heydər Əliyevin rəhbərliyi ilə inkişafa başlamışdır.



Heydər Əliyevin göstərişi ilə ilk dəfə olaraq 1971-75-ci illər üçün Azərbaycanda texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı yollarına dair strategiya müəyyənləşdirilmişdir.

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Orta kənd texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul edilir.

Heydər Əliyevin göstərişi ilə 1976-80-ci illərdə texniki peşə təhsili sisteminin iqtisadi və sosial inkişafı planı hazırlanıb təsdiq olunur.

Azərbaycan Prezidenti Heydər Əliyevin qayğısı sayəsində 1996-cı ildə Azərbaycan hökuməti «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərar qəbul etdi və bu sahədə islahatın tələblərinə uyğun olaraq maddi-texniki bazası zəif olan 41 peşə məktəbi ləğv edildi və bir çoxu isə başqaları ilə birləşdirildi.

Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbər seçiləndən sonra ali və orta ixtisas təhsilinə xüsusi diqqət yetirməyə və onun inkişaf etdirilməsinə başladı.

Ümumilli liderimiz Heydər Əliyev 1981-ci ildə «Literaturnaya qazeta»ya verdiyi məşhur «Qoy ədalət zəfər çalsın!» adlı müsahibəsində Azərbaycana rəhbərliyinin ilk günlərindən ali təhsilə marağını göstərdi, bu sahədə buraxılan nöqsanları tənqid etdi və dedi: «Biz kadr hazırlığına xüsusi əhəmiyyət veririk. Buna görə də təsadüfi deyil ki, iqtisadi və sosial-mənəvi sahələrdə qayda yaratmaqla bərabər, ali məktəblərə də əl atdıq. Ali məktəblərin işinə... fəal surətdə qarışma ona görə vacib idi ki, professor-müəllim heyəti arasında rüşvətxorluq, proteksionizm, qohumbazlıq geniş yayılmışdır. Bu vəziyyət ali təhsilli kadrlar hazırlığı işinə ciddi xələl gətirmiş və gənclərin tərbiyəsinə böyük mənəvi ziyan vurmuşdu. Biz belə vəziyyətlə üzləşdik: ayrı-ayrı ali məktəb müəllimləri, rəhbər işçilər öz övladlarını ali məktəblərə «valideyn» ixtisasları üzrə düzəltməyə çalışırdılar. Biz bu cür hərəkətləri məhdudlaşdırmalı olduq. İnzibati orqanların işçilərinin övladlarını dövlət universitetinin hüquq fakültəsinə götürməyi isə tamamilə qadağan etdik».

Azərbaycanda bu illər ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda ədalətin zirvəsi oldu. 1970-ci ildə beş ali məktəbə Heydər Əliyev orden verdi və 1980-ci ildə «Azərbaycan SSR əməkdar ali məktəb işçisi» adının təsis

edilməsinə nail oldu. 1970-80-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 100 minə yüksəlmişdir. Bir əsas məsələni demək lazımdır ki, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açılmışdır. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra mövcud idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, Respublikanın kadr potensialının gücləndirilməsinə vətəndaş qayğısının nəticəsində mümkün olmuşdu.

2002-ci ildə respublikamızda 30 dövlət, 15 qeyri-dövlət ali təhsil, 70-ə yaxın orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərirdi. İndi onların sayı daha da artırılmışdır. Azərbaycan xalqını ilhamla azad və xoşbəxt gələcəyə aparan hörmətli prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə dövlət və qeyri-dövlət ali təhsil və orta ixtisas təhsili müəssisələrinin sayı artırılır, səmərəli inkişaf etdirilir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafı sahəsində şərəfli xidmətlərindən biri də 1970-80-ci illərdə SSRİ-nin yüz yetmişdən çox ali məktəbində iki yüz əllidən çox ixtisas üzrə on beş mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına səmərəli şərait yaratmasından ibarətdir.

Heydər Əliyevin kənarda təhsil almış ixtisaslı mütəxəssisləri «Azərbaycanın yetirmələri, Azərbay-canın milli sərvəti» adlandırması Respublikada alqışlarla qarşılanmış və rəhbərə ümumxalq məhəbbəti qazandırmışdır. Azərbaycandan kənarda, respublika daxilində milli hərbi kadrların hazırlan-ması sahəsində möhtərəm Heydər Əliyevin xidmət-ləri əvəzsizdir. 70-80-ci illərdə yaradılan baza hərbi məktəbləri, eləcə də respublikadan kənarda təhsil almış milli kadrlar hesabına bu gün müstəqil Azərbaycanın ordu quruculuğu və milli hərbi sistemi formalaşmış, məhz o illərdə yaradılan təməl üzərində qurulmuşdur.

Heydər Əliyev Azərbaycanın cənnət guşələrindən Naxçıvana rəhbərliyi dövründə öz təşəbbüsü ilə hələ 1992-ci ildə 75 nəfər naxçıvanlı gəncin Türkiyənin ali məktəblərində təhsil almağına nail olmuşdur.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsil sahəsində bu gözəl vəzifəni həyata keçirmək üçün demişdir: «Dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universitetlərin, institutların imkanlarından Azəraycanın gələcəyi üçün, dəyərli kadr hazırlanması üçün bundan sonra da səmərəli istifadə etməliyik».

Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə «Azərbaycan Respubilkasının təhsil sahəsində İslahat Proqramı» müzakirə edildi və Milli Qurtuluş günündə (15 iyun 1999-cu ildə) təsdiq olundu. Proqramda Azərbaycanda təhsil islahatını üç mərhələdə həyata keçirmək nəzərdə tutulur:

Birinci mərhələ-hazırlıq mərhələsi adlanır və vətəndaşların təhsil almaq hüququ təmin edilir.

İkinci mərhələdə 2000-2003-cü illərdə təhsil sahəsində sosial-iqtisadi sabitliyi təmin etmək, geniş miqyaslı islahatı aparmaq üçün maddi-texniki idarəetmə sistemi modelini yaratmaq nəzərdə tutulur.

Üçüncü mərhələ 2004-cü ildən sonrakı mərhələdir. Bu mərhələ proqramda nəzərdə tutulan bütün tədbirləri həyata keçirilməsini nəzərdə tutur.

«Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nın əsas konseptual ideyasını və təməl prinsiplərini Heydər Əliyevin irəli sürdüyü aşağıdakı müddəalar təşkil edir:

Təhsil sistemində hər bir yeniləşmənin inqilabi deyil, təkamül yolu ilə aparılması;

Dünyanın inkişaf etmiş dövlətlərinin təhsil sistemində aparılmış islahatların nəticələri ilə yaxından tanış olunması;

Heç bir ölkənin təhsil sisteminin olduğu kimi Azərbaycanda qurulmasına cəhdin yolverilməzliyi;

Xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, milli mentalitetindən, xüsusən təhsil sahəsində XX əsrdə Azərbaycanda formalaşmış mütərəqqi ənənələrindən səmərəli istifadə olunması;

Azərbaycanın təhsil sisteminin formalaşmasında, milli təhsil quruculuğunda milli və ümumbəşəri dəyərlərə üstünlük verilməsi və s.

Heydər Əliyevin təhsilə, elmə, mədəniyyətə, bütövlükdə Azərbaycana töhfələri çoxdur. Heydər Əliyevin həyat yolu Azərbaycan dövlətinə, Azərbaycan xalqına Ulu Tanrının böyük töhfələrindən biridir.

Heydər Əliyevin idarəçilik, dövlətçilik məktəbini keçən, Heydər Əliyevin azərbaycançılıq kursunu dərindən mənimsəyən və onu davam etdirməyə qadir olan varisi vardır.

Əlli milyonluq xalqımızın lideri Prezidentimiz Heydər Əliyev ideyalarının layiqli davamçısı, siyasi, intellektual, idarəçilik və mədəni baxımdan dahi şəxsiyyət İlham Əliyev artıq bu şərəfli siyasətə tamamilə hazırdır.

İlham Əliyev Heydər Əliyevin müqəddəs ocağının, Heydər Əliyev vətənpərvərlik məktəbinin yetirməsi, Heydər Əliyev idarəçilik və dövlətçilik iş üslubunu şüurlu dərk etmiş siyasi lider, Heydər Əliyev kimi dahi, fenamenal şəxsiyyətin qan yaddaşının genetik keyfiyyətlərinin daşıyıcısıdır. İlham Əliyev Heydər Əliyev məktəbinin layiqli davamçısıdır.

İlham Əliyev Bakıda altı saylı məktəb-liseyi bitirmiş, iyirmi üç yaşında məzunu olduğu Moskvanın Beynəlxalq Münasibətlər İnstitutunda pedaqoji fəaliyyətə başlamış, namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almış, beynəlxalq münasibətlərdən, diplomatiyadan dərs demişdir.

İlham Əliyev xalqımızın milli sərvəti olan Heydər Əliyev irsindən bəhrələnmişdir. İlham Əliyev Heydər Əliyev zəkasının nurundan, zəngin və çoxcəhətli irsindən faydalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamı, 2 sentyabr 2004-cü ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına orta məktəbin açılış mərasimində nitqi, 4 oktyabr 2004-cü ildə Beynəlxalq Müəllim Günü münasibətilə «Azərbaycan müəllimlərinə» adlı təbriki Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsi üçün hər cür şəraitin yaradılması mahiyyətini daşıyır və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısını yüksək səviyyədə davam etdirir, bununla da ulu öndərimiz Heydər Əliyevə dərin ümumxalq hörməti qazandırır, dünyaşöhrətli dahi Heydər Əliyevi ölümsüzlüyün əbədiyaşar parlaq zirvəsinə yüksəldir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısına həsr edilmiş bu kitabda xalq maarifinin inkişafına, ali və ortaixtisas məktəblərinin, texniki peşə və hərbi məktəblərin inkişaf tarixinin şərhinə xüsusi diqqət yetirilmiş, tarixi hadisələrin şərhi verilmişdir.

Şübhə yoxdur ki, bu kitabda çatışmayan və ətraflı şərhini tapmayan məsələlər də vardır. Buna görə də bir daha tənqidi qeydlərini, arzu və istəklərini, elmi-nəzəri fikirlərini, xeyirxah göstərişlərini əsirgəməyən mütəxəssislərə, ziyalılara, mahir pedaqoqlara, alimlərə, elm xadimlərinə, müəllimlərə, aspirantlara, dissertantlara, magistrlərə, tələbələrə, oxuculara öncə dərin minnətdarlığımızı bildirir, onlara uzun ömür, cansağlığı və şərəfli fəaliyyətlərində parlaq uğurlar arzulayırıq.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Qətiyyətin təntənəsi. Bakı 1995.
2. H. Əliyev. Qayıdış. Bakı 1997.
3. H.Əliyev. Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır. Bakı 1995
4. H.Əliyev. Tarix tarixdir. Gəncə 1996
5. H.Əliyev. Mədəni irsimizin keşiyində, I kitab. Bakı, 2001.
6. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992
7. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab. Bakı, 2005.
8. Azərbaycan tarixi. Bakı, 1990.
9. Azərbaycan sovet ədəbiyyatı tarixi, iki cilddə. Bakı, 1967.
10. Azərbaycan ədəbiyyatı tarixi, iki cilddə. Bakı, 1970.
11. Feyzulla Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974.
12. Mir Cəlal, Firuddin Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982.
13. Vaqif Vəliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, 1970.
14. Əliyar Səfərli, Xəlil Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1998.
15. Qara Namazov Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2007.
16. Əflatun Məmmədov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1977.
17. Aydın Hacıyev. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı, 2004.
18. Pedaqoji biblioqrafiya. Bakı, 2008.
19. Gəncə (tarixi oçerq). Bakı, 1994.
20. Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən. Bakı, 1981.
21. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, 2001.
22. Firuz Hümbətov. Azərbaycanda pedaqoji elmin təşəkkülü və problemləri. Bakı, 1998.
23. Çingiz Qacar. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997.
24. Ələsgər Əlizadə, Akif Əliyev. XX əsr Gəncənin görkəmli, elm, mədəniyyət, partiya və dövlət xadimləri. Bakı, 2003.
25. Sadıq Şükürov. Gəncə məktəblərinin tarixindən. Bakı, 1990.
26. Abbas Səmədov. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, 2008.
27. Əsrə bərabər otuz il. Bakı, 2000.





28. M.Mehdizadə, T.Allahverdiyev, Q.Əliyev. Azərbaycan xalq maarifinin surətli inkişafı. Bakı, 1980.
29. Azərbaycan Kommunist Partiyası XXVIII qurultayının materialları. Bakı, 1971.
30. Azərbaycan Kommunist Partiyası XXIX qurultayının materialları. Bakı, 1976.

## MÜNDƏRİCAT


**Ön söz**

I BÖLMƏ

Azərbaycan təhsilinin tarixinə bir nəzər....7

II BÖLMƏ

Ümummilli liderimiz Heydər Əliyevin təhsilə qayğısı....30

III BÖLMƏ

Ulu öndər Heydər Əliyevin ədəbiyyatın təlim tərbiyəvi mahiyyətinə qayğısı.... 59

IV BÖLMƏ

Ədəbiyyatın tədrisində təlim-təribiyəvi, bədii-estetik və yüksək əxlaqı keyfiyyətlərin səmərəli öyrədilməsi şərəfli vəzifədir....81

V BÖLMƏ

Ulu öndər Heydər Əliyevin hərbi təhsilə qayğısı....105

VI BÖLMƏ

Azərbaycan Xalq Cümhuriyyətənin təhsil sahəsində fəaliyyəti və tədbirləri....118

VII BÖLMƏ

Təhsil xadimlərinin maarifçilik fəaliyyəti.... 128

1. Nizami Gəncəvi.... 129
2. M.N.Tusi.... 142
3. M.Ş.Vazeh.... 146
4. A.Bakıxanov....150
5. M.Kazımbəy....152
6. M.F,Axundov.... 155
7. M.M.Nəvvab....160
8. S.Ə.Şirvani....164
9. H.M.Zərdabi....169
10. A.O.Çerniyaşevski....175
11. M.Şahtaxtlı.... 180
12. M.T.Sidqi....185
13. M.Abbaszadə.... 189
14. S.Vəlibəyov....204
15. M.Ə.Sabir.... 210
16. F.Köçərli.... 214
17. M.Mahmudbəyov.... 218
18. R.Əfəndiyev....221
19. Ə.Hüseynzadə....230
20. S.M.Qənizadə....234
21. M.Mahmudbəyov....241
22. C.Məmmədquluzadə....245
23. Ə.Ağaoğlu....249
24. N.Nərimanov....255
25. Ö.F.Nemanzadə....263
26. A.Səhhət....272
27. M.M.Axundzadə....276
28. H.K.Sanılı....294
29. F.Ağazadə....304
30. A.Şaiq....308
31. H.Cavid....312
32. Ü.Hacıbəyov....324
33. Ə.Seyidov....330
34. Ə.Cəfəroğlu....334
35. Ə.Qarabağlı....340
36. M.Cəlal....348
37. H.Araslı....356
38. C.Xəndan.... 359
39. H.Əhmədov....362
40. Ş.Mikayılov....365
41. Y.Kərimov....369
42. A.Məhərrəmov....371

VIII BÖLMƏ

Ümummlli liderimiz Heydər Əliyevin və Prezidentimiz İlham Əliyevin təhsilin inkişafına qayğısı....375

1. Azərbaycan Prezidenti Heydər Əliyevin Prezident aparatında keçirilən Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə çıxışı (31 avqust 1994-cü il)....375
2. H.Əliyev. Mən bunu millətin, xalqın, Azərbaycanın bu günü, gələcəyi üçün istəyirəm (21 may 1998-ci il)....393
3. Heydər Əliyev. Azərbaycan Müəllimlərinin Qurultayında nitqi (25 sentyabr 1998-ci il)....397

4. Heydər Əliyev. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının mühüm sahəsidir (19 aprel 1999-cu il)..............415
5. Heydər Əliyev. Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir (13 avqust 1999-cu il).......................................................423
6. Heydər Əliyev. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında fərman (9 avqust 2001-ci il)......437
7. Heydər Əliyev. Məktəbə, təhsilə qayğı və kömək Azərbaycan dövlətinin siyasətində mühüm yer tutur (1 sentyabr 2001-ci il)............................................................. 439
8. Heydər Əliyev. Silahlı qüvvələrdə Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə sədaqətli, sağlam mənəviyyatlı insanlar xidmət etməlidir (20 iyun 2001-ci il)....................................445
9. Heydər Əliyev. Ölkəmizin ordu quruculuğunda yeni mərhələ (25 avqust 2001-ci il)...........................................454

10. Azərbaycan ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına Həsr olunmuş mərasimdə Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyevin nitqi (27 iyul 2002-ci il)........................................................461
11. İlham Əliyev. Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsi üçün hər cür şərait yaradılır (2 sentyabr 2004-cü il)........................................................471
10. İlham Əliyev. Azərbaycan müəllimlərinə (4 oktyabr 2004-cü il)...............................................................475
11. İlham Əliyev. Təhsil sahəsində də böyük irəliləyişlər vardır (9 noyabr 2004-cü il)...........................................................476
12. Nəticə...........................................................480
13. Ədəbiyyat......................................................494



*Çapa imzalanmışdır: 19.07.2010*
*Çapa verildiyi tarix 30.07. 2010*
*Kağızın növü: A3, snequroçka*
*Çap vərəqi: 18,4 ç.v. Tiraj : 300 ədəd*
*Gəncə Dövlət Universiteti*
*Ünvan: Gəncə şəhəri, Ş.İ.Xətai prospekti, 187*

Az 259542



